# Demokratiya:
# gedilәsi uzun bir yol
## demokratiya vә antidemokratiya antologiyası e.ә.430 – b.e.1998

*Tәrtib edәni:* Hikmәt Hacızadә
İqtisadi vә Siyasi Araşdırmalar Mәrkәzi
(FAR CENTRE), Bakı, 2001,

*Әdәbi redaktor:* Әdalәt Tahirzadә;
*Azәrbaycan türkcәsinә çevirәnlәr:* Akif Nağı, Natiq Sәfәrov,
Vaqif Әlixanlı, Nәsir Әhmәdli, Әdalәt Tahirzadә, Arif Tağıyev, Rәsat Hәsәnov
*Bilqisayar tәminatı:* Vәfadar Farizoğlu, Etibar Axundov
*Bilgisayar operatoru:* Nәzakәt Muradova; Rәssamı: Әdnan Hacızadә
*Korrektoru:* Kәmalә Cәfәrova

©2001 Hikmәt Hacızadә

## *İçindәkilәr*

ÖN SÖZ

### *Antik vә Avropa demokratiyası*

1. İLK DEMOKRATLAR
Afinalı Perikl, Qәbirüstü nitq (e.ә. 430-cu il)

2. İLK ANTİDEMOKRATLAR
Afinalı Platon, Demokratiyanın әleyhinә (e.ә. 350-ci il)
Platonun ideal dövlәti

3. İLK SİYASİ TӘHLİL
Aristotel, Politika (e.ә. 330)

4. İNSAN HAQLARI UĞRUNDA HӘRӘKATIN İLK UĞURLU ADDIMLARI
İngilis Azadlıqlarının Böyük Toplusu — Magna Carta (1215)

5. İNGİLTӘRӘDӘ ÖZÜNÜİFADӘ AZADLIĞI UĞRUNDA MÜBARİZӘ
Con Milton, Areopagitika (1644)

6. İNGİLTӘRӘ İNQİLABI
Levellerlәr, Patni mübahisәlәri (1647)

7. İNGİLTӘRӘDӘ SEÇKİ HÜQUQUNUN GENİŞLӘNMӘSİ
Bill of Rights (1689)

8. İCTİMAİ MÜQAVİLӘ HAQQINDA
Tomas Hobbs, Leviafan (1651)

9. İCTİMAİ MÜQAVİLӘ HAQQINDA
Con Lokk, İdarәçilik haqqında ikinci traktat (1690)

10. VİCDAN AZADLIĞI HAQQINDA
Con Lokk, Dini dözümlülük haqqında mәktub (1685)

11. HAKİMİYYƏTİN BÖLÜNMƏSİ HAQQINDA
Şarl de Monteskyö, İngiltərənin dövlət quruluşu haqqında (1748)

12. İCTİMAİ MÜQAVİLƏ HAQQINDA
Jan-Jak Russo, İctimai müqavilə haqqında (1762)

13. FRANSA İNQİLABI ƏRƏFƏSİNDƏ
Emmanuel Jozef Siyes, İmtiyazlar haqqında esse (1789)

14. FRANSA İNQİLABI VƏ HÜQUQLAR BƏYANNAMƏSİ
İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə (1789)

15. FRANSADA VƏ AVROPADA RESPUBLİKAÇILIQ VƏ ƏKSİNQİLAB
Jozef Ruje de Lil, Marselyoza (1792)

16. İLK MÜHAFİZƏKARLAR İLK LİBERALLARA QARŞI
Edmund Börk, Təbii hüquqlara hücum (1790)

17. SİYASİ HÜQUQLAR ŞƏXSİ AZADLIĞI POZANDA
Bencamin Konstan, Qədim insanların azadlığı (1819)

18. KOMMUNİZM KABUSU
Karl Marks və Fridrix Engels, Kommunist Partiyasının manifesti (1847)

19. ÇOXLUĞUN TİRANİYASINA QARŞI
Con Stüart Mill, Azadlıq haqqında (1859)

20. AZƏRBAYCANDA LİBERAL İSLAHATLARIN LAYİHƏLƏRİ
Axundzadə, İstibdada və mövhumata qarşı (1863–1875)

21. AZADLIQSIZ XOŞBƏXTLİK
Fyodor Dostoyevski, Böyük inkvizitor (1880)

22. BƏRABƏRLİYƏ QARŞI QİYAM
Fridrix Nitsşe, Xeyir və şərin o tayında (1886)

23. KAPİTALİZM ADAMI, DEMOKRATİYA ADAMI
Maks Veber, Protestant etikası və kapitalizm ruhu (1905)

## *Amerika təcrübəsi*

24. İLK AMERİKA KOLONİSTLƏRİ VƏ İLK KONSTİTUSİYALAR
"Meyflauer" sazişi (1620)

25. AMERİKA İNQİLABI. XOŞBƏXTLİYƏ CANATMA HÜQUQU
İstiqlaliyyət Bəyannaməsi (4 iyul 1776-cı il)

26. ABŞ-da DİNİN DÖVLƏTDƏN AYRILMASI
Cefferson, Virciniya ştatında dini azadlıq haqqında qanun (1786)

27. MƏHDUDLAŞDIRILMIŞ HÖKUMƏT
ABŞ Konstitusiyası (1787)

28. DEMOKRATİYA DƏSTƏBAZLİĞIN ÖHDƏSİNDƏN GƏLƏ BİLƏCƏKMİ?
Ceyms Medison, 10 saylı "Federalist" (1787)

29. DÜNYADA SÜLH VƏ QANUNİ YOLLA İLK HAKİMİYYƏT DƏYİŞİKLİYİ
Cefferson, İnaqurasiya nitqi (1801)

30. ABŞ–ın ALİ MƏHKƏMƏSİNİN KONSTİTUSİYAYA İLK MÜRACİƏTİ
Con Marşall, Marbüri Medisona qarşı (1803)

31. AMERİKALILAR VƏ YERLİ AMERİKALILAR. QARA TƏRLAN

Qara Tərlan, Təslim nitqi (1832)

32. AMERİKA KÖLƏLİKLƏ MÜBARİZƏ CƏMİYYƏTİ
Niyyətlər Bəyannaməsi (1833)

33. GƏNC AMERİKA AVROPALININ GÖZÜYLƏ
Aleksis de Tokvil, Amerikada demokratiya (1835)

34. NAMUSSUZ DÖVLƏTDƏ NAMUSLU ADAM
Henri Devid Toro, Vətəndaş itaətsizliyi (1848)

35. ABŞ–da QADIN HAQLARI UĞRUNDA MÜBARİZƏ
Seneka Fols Bəyannaməsi (1848)

36. KÖLƏLİYİN LƏĞV OLUNMASI
Avraam Linkoln, Azadlıq Bəyannaməsi (1863)

37. LİNKOLNUN QƏBİRÜSTÜ NİTQİ
Gettisburq müraciəti (1863)

38. ABŞ DÖVLƏT XİDMƏTİNİN TƏŞKİL OLUNMASINA DAİR İLK ADDIMLAR
Pendlton qanunu (1883)

39. AMERİKADA ÖZÜNÜİFADƏ AZADLIĞI
O.V. Holms, Abrams Birləşmiş Ştatlara qarşı (1919)

40. AMERİKA DÜNYA DEMOKRATİK SİSTEMİNİN LİDERİ OLUR
F.D. Ruzvelt, Dörd azadlıq (1941)

41. XX ƏSRDƏ İRQÇİLİYƏ QARŞI HƏRƏKAT
Martin Lüter Kinq, Azadlığa doğru böyük addım (1958)

42. ABŞ–ın XARİCİ YARDIMI VƏ İNSAN HÜQUQLARI
"Beynəlxalq təhlükəsizlik və silah ixracına nəzarət" qanunu (1976)

43. DEMOKRATİK LİDER
Cimmi Karter, İnsan haqları və ABŞ–ın xarici siyasəti (1977)

*XX əsr demokratiya əsridir*

44. ETNOQRAFİK MİLLƏT VƏ SİYASİ MİLLƏT
V. Vodovozov, Milliyyət və dövlət (1910)

45. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ
İstiqlaliyyət Bəyannaməsi, (28 may 1918–ci il)

46. ÜMİDSİZ MÜQAVİMƏT
Alber Kamyu, Sizif haqqında mif (1940)

47. MİLLİ MƏDƏNİYYƏT VƏ DEMOKRATİYA
Corc Oruell, İngiltərə, Sizin İngiltərə (1943)

48. AVROPANI XİLAS ETMİŞ ADAM
Uinston Çörçill, Sülhün əzələləri (1946)

49. BÜTÜN DÜNYA ÜÇÜN İNSAN HÜQUQLARI
BMT-in Ümumdünya İnsan HüquqlarI Bəyannaməsİ (1948)

50. DÜNYA BMT ÜMUMDÜNYA İNSAN HÜQUQLARI BƏYANNAMƏSİ İMZALANDIQDAN SONRAKI 50 İL ƏRZİNDƏ

51. XOŞBƏXTLİYİN LİBERAL İDEALI
İsayya Berlin, Azadlığın iki konsepsiyası (1958)

52. KAPİTALİZM VƏ AZADLIĞIN QARŞILIQLI ƏLAQƏSİ HAQQINDA
Milton Fridman, İqtisadi və siyasi azadlıqlar arasında əlaqə (1962)

53. İRANDA İSLAM İNQİLABI — SADƏ... VƏ YANLIŞ CAVAB
İranda söz azadlığı İslam inqilabından əvvəl (1978)... və sonra (1983)

54. TƏK ƏLDƏN DƏ SƏS ÇIXAR
Aleksandr Soljenitsın, Yalansız yaşamaq (1974)

55. MÜHARİBƏDƏN SONRAKI ŞƏRQİ AVROPADA DEMOKRATİYA
"Xartiya–77"nin bəyannaməsi (1977-ci il)

56. AZƏRBAYCAN XALQ CƏBHƏSİ
AXC–nin proqramında İnsan HüquqlarI (16 İyul 1989)

57. 1989 — LİBERALİZMİN SON QƏLƏBƏSİ?
Frensis Fukuyama,Tarixin sonu? (1989)

58. İSLAM VƏ DEMOKRATİYA
Hikmət Hacızadə, İslam dünyası demokratik islahatlar ərəfəsində (1997)

59. AZƏRBAYCANDA SEÇKİ İSLAHATI UĞRUNDA MÜBARİZƏ —1998
Prezidentliyə namizədlərə dəvət məktubu (4 avqust 1998)
Prezidentə cavab məktubu (10 avqust 1998)

60. AZƏRBAYCANDA SİYASİ SENZURANIN LƏĞV EDİLMƏSİ
Çingiz Sultansoy, Sonuncu senzor (sentyabr 1998)

61. AVROPADA VƏ ABŞ-DA SÖZ AZADLIĞININ HÜDUDLARI HAQQINDA
Ronald Dvorkin, Senzuranın yeni xəritəsi (1994)

62. İNSAN HÜQUQLARI — BƏŞƏRİYYƏTİN BAŞLICA İDEYASI,
Hikmət Hacızadə(1998)

* * *

**"Demokratiya: Gediləsi Uzun bir Yol"**

Tərtib edən:Hikmət A.Hacızadə, FAR CENTRE, Bakı, 2001

## Ön Söz

Qarşımızdakı bu toplu elə vaxtda işıq üzü görür ki, artıq cəmiyyətimiz demokratiya və insan haqları anlayışını 80-ci illərin əvvəllərindəki kimi birmənalı qavrayıb həsrətlə gözləmir. Görünür, biz bu gün onun üstünlüklərinə və özündə daşıdığı problemlərə daha ciddi və tənqidi yanaşırıq. Bu da təbiidir, axı son on ildə ölkədə baş vermiş köklü demokratik dəyişikliklərin ilk çağlarında bu qədər ehtiyac duyduğumuz bir şeyi —tarixi təcrübəni biz indi-indi əldə edirik.

Qısa müddətdə bir-birini əvəzləyən və bir-birini qəti inkar edən, eyni zamanda hər biri özünü demokratik sayan üç siyasi rejimin şahidi olduqdan sonra bəzilərimiz bu qənaətə gəlmişik ki, "bizdə indiyədək demokratiya olmayıb", yaxud "bizdə olan demokratiya əsl demokratiya deyil", yaxud "demokratiya, ola bilsin, yaxşı şeydir, di gəl ki, bizə yaramır" və nəhayət, ən çox eşitdiyimiz: "Bu, mənlik deyil, mən, sadəcə, yaşamaq istəyirəm".

Qısa vaxt ərzində baş verən sosial sarsıntılardan xoflanmış adamlar azadlıqdan bir qorxu, dəyişikliklərə qərəz, ictimai fəallığın faydasına inamsızlıq duymağa başladılar.

Bununla yanaşı, demokratiyanın problemləri indi də ictimai mübahisələrin ən yayılmış mövzusu olaraq qalır. Demokratiyanın nəzəriyyəsi ilə tanış olmaqla biz öyrənib bilirik ki, demokratiya öz mahiyyətinə görə insanların öz-özlərini idarə etməsi deməkdir; öyrənirik ki, demokratiya zamanı hər kəs digərinə öz bərabəri kimi baxmalıdır; öyrənirik ki, demokratik dövlətdə hakimiyyət bölüşdürülməli və ona məhdudiyyət qoyulmalıdır. Bu gün bütün bunlar cəmiyyətə yaxşı bəllidir, nəinki bəllidir, həm də bu müddəalar bizim Konstitusiyada əks olunmuşdur. Və bununla belə, bu gün Azərbaycanda demokratiyanın acınacaqlı halına nəzər saldıqda bizdə belə bir duyğu yaranır ki, demokratiyanın başlıca sirri bizim üçün hələ də açılmamış qalmaqdadır. Britaniyadakı kimi

parlament, ABŞ-dakı kimi Konstitusiya bizdə də var, lakin demokratiya və insan hüquqları sahəsindəki uğurlarımız adamı məyusedəcək dərəcədə azdır...

Bu yerdə adama belə bir xilasedici fikir gəlir ki, ümumiyyətlə, dünyada demokratiya yoxdur — dünyanın hər yerində seçkilər yalnız qüdrətli rejissorların qoyduğu tamaşadır; məhkəmələrdəki çəkişmələri pulu çox olanlar udur və s. və i. Bundan dərhal sonra ağlımıza belə bir fikir də gəlir ki, namusumuz dolanmağımıza mane olmamalıdır.

Bu kitab məhz belə şübhələr haqqındadır. Demokratiyanın qədim çağlardan başlayıb bizim günlərədək uzanan inkişaf yolunu göstərən materiallardan tərtib edilmiş bu antologiya ilə oxucu tanış olarkən görəcək ki, bizim bu gün üzləşdiyimiz problemlərlə, bizi tərk etməyən şübhə və qorxularla demokratiya yoluna qədəm qoymuş bütün xalqlar istisnasız olaraq üzləşmişlər. Bu gün Qərb dünyasında axarına qoyulmuş rahat, firavan həyat insanın çoxəsrlik mənəvi axtarışlarının, onun öz adına layiq, şərəfli həyat uğrunda apardığı mübarizənin gedişindəki dramatik vətəndaş münaqişələrinin nəticəsidir.

* * *

Biz bu kitabda iki min ildən də çox müddət ərzində ədalətli dövlət quruluşu və dövlətin insanla qarşılıqlı münasibətləri haqqında gedən mübahisələrdən qopmuş başlıca ideyaları təqdim etməyə çalışmışıq. Antologiyada bəşər tarixinin ən böyük simaları demokratiyanın lehinə və əleyhinə səmimi-qəlbdən (mən bu ifadəni təsadüfi və gəlişigözəl söz kimi işlətmirəm) fikirlər söyləyirlər. Buradaca həmçinin tarixi inkişafın ayrı-ayrı mərhələlərini, bir növ, tamamlamış və tarixin neçə yüzillik axarını irəlicədən müəyyən etmiş qanunlar, saziş və bəyannamələr də özünə yer tutub. Topluda demokratiyanın ən böyük sirri və onun uğurunun rəhni olan demokratik insan xüsusi yer tutur. Bu insan ədalətli, xoşməramlı və fəal insandır; hər şeyə hörmətlə yanaşan, ancaq heç nəyə böyük hörmət bəsləməyən insandır; elə bir insan ki, onun üçün qurub-yaratmaq qələbədən yüksəkdir.

Kitabda təqdim olunmuş demokratiya yalnız maraqlı və idraki mövzu deyil — o, oxucunu həyəcana gətirir; o, hər hansı uydurma dramdan qat-qat dramatikdir. Perikl, Con Milton, polkovnik Reynboro, Tomas Cefferson və Oliver Vendell Holmsun səsində duyulan yüksək gərginlik Şekspir faciələrindəki hisslərdən də güclü və qaynar ehtirasdan xəbər verir.

Antologiyanın böyük hissəsi — ilk dəfə olaraq Azərbaycan türkcəsinə çevrilmiş 60-dan çox məqalə oxucuları çoxluğun mütləq hakimiyyətinə söykənən antik demokratiyadan başlayaraq müasir demokratiyaya — çoxluğun hakimiyyətini insan hüquqları ilə məhdudlaşdıran liberal demokratiyayaqədərki demokratik sistemin keyfiyyət inkişafı ilə tanış edir. Bundan əlavə, toplu demokratiyanın məkanca inkişafını — antik şəhər-dövlətlərdən üzü bəri Avropanın millət-dövlətlərinə, oradan da cizgiləri artıq bu gün beynəlxalq qurumlar timsalında aydınca sezilən gələcək ümumbəşər hökumətinə doğru uzanan yolunu izləməyə imkan verir.

Kitabda İngiltərə, Amerika və Fransa inqilablarına da böyük diqqət yetirilib və oxucular 1988-92-ci illərdə Azərbaycanda baş verənləri yada salmaqla həmin təlatümlü olayları daha aydın və canlı təsəvvür edə bilərlər.

Burada insan hüquqları: seçki hüququ, söz və din azadlığı, köləliyin ləğv edilməsi, qadınların hüquq bərabərliyi uğrunda mübarizə də kifayət qədər əks olunmuşdur.

Antologiyaya başlıca olaraq Amerikadakı, Qərbi və Şərqi Avropadakı demokratiyanın problemləri haqqında materiallar daxil edilmişdir; burada Azərbaycandakı demokratiyanın problemləri barədə beş məqalə də vardır ki, onlar ayrıca fəslə ayrılmayaraq, digər materialların arasında xronoloji qaydada düzülməklə bütün dünyada gedən demokratik prosesin vahid təbiətini əyani nümayiş etdirir. Bu məqalələr gələcəkdə bizim üçün çox vacib olan "Azərbaycanda demokratiya" araşdırmasının özəyini təşkil edə bilər. Təəssüf ki, kitabın həcminə qoyulan hədd biz oxucuları demokratiya və insan hüquqlarına aidiyyəti olan bir çox dünya və Azərbaycan müəlliflərinin və siyasi simalarının əsərləri ilə tanış etmək imkanından məhrum etmişdir.

Bununla belə, demokratiyanın tərkib hissəsi olan insan hüquqları mövzusu ilə daha əsaslı tanış olmaq istəyənlər üçün antologiyada "İnsan hüquqları bəşəriyyətin başlıca ideyasıdır" essesi təqdim olunmuşdur ki, bu material lazım gəldikdə ictimai fənn müəllimləri və ali məktəb tələbələri üçün dərs vəsaiti rolunu oynaya bilər...

Ümid edirik ki, bu antologiya bizi demokratiyanın sirrinə bir addım da yaxınlaşdıracaq, bir də, kim bilir, bəlkə bunda heç bir sirr yoxdur? Axı adətən yaşlı nəslin öz ağlı ilə kəsdirə bilməyib sirr zənn etdiyi şey cavanlar üçün apaydın həqiqətdir.

Taleyini öz əlinə almaq, öz həyatında kəskin dönüş yaratmaq keçmiş sovet adamı üçün böyük sarsıntı, postsovet Azərbaycanında həyata qədəm qoymuş gənc üçünsə adi bir hərəkətdir.

Demokratiyanın bizə qeyri-real görünən müddəaları, ola bilsin, gənc nəsildə heç bir təəccüb doğurmaz — həyatda yalansız da yaşamaq mümkündür; insanlar arasında mövcud olan fərqlər cəmiyyətin parçalanmasına deyil, onun inkişafına kömək edir; dünyada heç bir yeganə və son həqiqət yoxdur, saysız-hesabsız həqiqətlər vardır ki, hər kəs özünə bu həqiqətlərin arasından hansınısa seçməlidir; azadlığı istəyən gərək onun gətirdiyi müəyyən qarma-qarışıqlığa da dözsün və nəhayət, demokratiya heç kəsə müftə yemək vermir. O, yalnız müəyyən qaydalar məcmusudur ki, biz onun əsasında "oynamağı" öyrənməliyik; öz problemlərimizi əl-ələ tutaraq həll etməyi öyrənməliyik; bir-birimizin mənafeyini gözləyə-gözləyə həll etməyi öyrənməliyik.

*Hikmət Hacızadə,*
*Bakı, 28 may 1999-cu il*

* * *

**"Demokratiya: Gediləsi Uzun bir Yol"**
Demokratiya və Antidemokratiya
Antologiyası (e.ə.430 – b.e.1998)
Hikmət A.Hacızadə, FAR CENTRE,
Bakı, 2001

# *Antik və Avropa* demokratiyası

## 1. İLK DEMOKRATLAR

### Afinalı Perikl

Afina demokratiyası dünya tarixində dolğun təsvir olunmuş ilk demokratik dövlət sistemidir. Qullar istisna olmaqla şəhərin bütün vətəndaşları üçün ümumi bərabərlik və şəxsi azadlıq ideyası afinalılar arasında aristokratların hakimiyyətinin doğurduğu yoxsulluq və istibdada qarşı cavab reaksiyası kimi yayılmağa başlamışdı. Qədim yunan salnamələrinə görə, demokratlarla aristokratlar arasında e.ə. 7-ci əsrdə başlanan və demək olar ki, fasiləsiz davam edən mübarizə e.ə. 460-cı ildə demokratlar partiyasının qələbəsi ilə nəticələnmişdi. Bu partiyaya görkəmli siyasətçi və sərkərdə, əqidəli demokrat Perikl 32 il başçılıq etmişdir (e.ə. 495–429-cu illər).

Afina demokratiyası ziddiyyətlərlə zəngin olmuşdur. O, bəzi afinalı intellektuallar (o cümlədən Platon və onun həmfikirləri) tərəfindən kütlələrin nəzarətsiz hakimiyyəti, korrupsiya və xaos mənbəyi kimi qəbul olunurdu. Lakin Periklin rəhbərliyi dövründə Afina uğurlu daxili siyasət yeridərək, həmçinin İranın istibdad və Spartanın totalitar rejimlərinin (Sparta ilə Afina on illərcə davam edən üzücü müharibələr aparmışlar) təcavüzlərini dəf edərək iqtisadi, siyasi və mənəvi yüksəlişə nail olmuşdur.

Yalnız düzgünlüyünə əmin olduqdan sonra hər hansı əmri yerinə yetirən azad insanlara — demokratik cəmiyyətin üzvlərinə rəhbərlik etmək, əlbəttə, liderin istənilən əmrini sözsüz yerinə yetirməyə hazır olan insanlardan ibarət totalitar cəmiyyətin üzvlərinə rəhbərlik etməkdən müqayisəolunmaz dərəcədə çətindir. Lakin Perikl populizmdən uzaq idi, "o, kütləyə ona görə rəhbərlik edə bilirdi ki, hakimiyyətə ləyaqətsiz vasitələrdən istifadə etmədən gəlmişdi; onun kütləyə yarınmağa ehtiyacı yox idi və o, hörmətə malik olduğundan kütləyə qarşı kəskin şəkildə çıxa bilirdi", — deyə tarixçi Fukidid yazırdı.

Bütün bu vaxt ərzində Afina dövlətinin siyasi quruluşu haqqında mübahisələr səngimirdi. Demokratiyanı amansızcasına tənqid edənlər israr edirdilər ki, əsl-nəcabəti olmayan vətəndaşların şəhərin idarə olunmasında iştirakına yol vermək olmaz — şəhəri "ləyaqətli və bilikli" adamlar idarə etməlidir. Bundan başqa, Afina cəmiyyətindəki azadlıq və açıqlıq tənqid olunurdu; iddia edirdilər ki, əmlak ziddiyyətlərindən və demək olar ki, bütövlükdə fərdi azadlıqlardan məhrum olan hərbiləşdirilmiş Sparta cəmiyyəti sosial cəhətdən daha səmərəli və müharibə aparmaq üçün daha sərfəlidir.

Sparta ilə müharibə əslində vətəndaş müharibəsi idi. O həm Afinanı, həm də bütün yunan şəhərlərini iki hissəyə parçaladı: bütün Elladada aristokratiyanın tərəfdarları öz nəzərlərini Spartaya dikir, demokratlar isə Afinaya rəğbət bəsləyirdilər.

Sparta ilə müharibədə ilk həlak olmuş döyüşçülərin dəfn mərasimində Periklin söylədiyi və Afina tarixçisi Fukididin yazıya aldığı, öz zəmanəsini min-min illər qabaqlamış və indinin özündə də insanları həyəcana gətirən bu nitq demokratiyanın müdafiəsinə söylənilmiş bizə bəlli ilk nitqdir və yaxşı olardı ki, bizim məktəblilər də demokratik təhsil çərçivəsində bu nitqi əzbər öyrənsinlər.

"...Qonşumuz öz davranışında şəxsi meyllərinə uyğun hərəkət edirsə biz ona pis gözlə baxmırıq" — Periklin bu ifadəsi ilə tarixdə ilk dəfə liberalizmin başlıca ideyası — insan şəxsiyyətinə hörmət və onun şəxsi həyatına müdaxilə etməmək ideyasının mahiyyəti səslənmişdir. "...Biz azad yaşayırıq... bununla yanaşı, bizə bərabər olan rəqibə qarşı cəsarətlə mübarizə aparırıq..." — Periklin bu sözləri hərbiləşdirilmiş Sparta həyat tərzinin tərəfdarlarına ünvanlanmışdır. "Və güman edirəm ki, bizlərdən hər birimiz ən müxtəlif həyat şəraitlərində öz şəxsi keyfiyyətlərini asanlıq və incəliklə təsdiq edə bilər..." — burada Perikl həmvətənlərinə açıq cəmiyyətin çox gözəl bir cəhətini xatırladır və haqlı olaraq zənn edir ki, şəxsi keyfiyyətlərini göstərmək, öz şəxsiyyətini cəmiyyətdə təsdiqləmək imkanı insan təbiətinin can atdığı əsas istəklərdəndir və onun uğrunda mübarizə aparmağa dəyər.

İyirminci əsrin görkəmli filosofu Karl Popperin yazdığı kimi, Periklin nitqi "yalnız proqram deyildir. Bu həm də müdafiə, bəlkə də hücumdur. Bu nitq yalnız Spartanın donub qalmış tayfa quruluşuna qarşı deyil, həmçinin Afinanın totalitar dairəsinə, yaxud "totalitar birliyə" qarşı, "ata dövlət" uğrunda hərəkata qarşı yönəlmişdir.

E.ə. 431-ci ildə Sparta Perikllə bağladığı sülhü pozdu və İranın yardımına arxalanaraq Afina torpaqlarına soxuldu və, son nəticədə qələbə çaldı.

Bu, istibdad və totalitarizmin demokratiya üzərində çoxsaylı qələbələrindən birincisi idi. Lakin 2500 ildən sonra dünya demokratiyası öz mənfəətləri, "ali məqsədləri" naminə, bəzən isə elə-belə, məqsədsiz olaraq insanların həyatını qurban verən rejimləri iyirminci əsrin sonunda darmadağın edərək öz tam qələbəsini çaldı...

AFİNALI PERİKL

## Demokratiyanın müdafiəsinə dair

*Afina şəhid oğullarının dəfnində qəbirüstü nitq (təx. e.ə. 430-cu il)*

*Çox az adam siyasətçi ola bilər, lakin siyasətçilərin əməllərinə qiymət verməyə hamının haqqı var.*

...Bu müharibədə həlak olanların şərəfinə nitq söyləmək vaxtı çatanda natiq qismində Ksantippin oğlu Perikli seçdilər.  O, hamı eşitsin deyə, məqbərə önündə ucaldılmış meydançadan bu nitqlə çıxış etdi...

...Bu gün burada dəfn etdiyimiz qəhrəmanların şəninə təriflər söyləməyə başlamazdan əvvəl mən şəhərimizi hazırkı əzəmətə yetirmiş quruluş, həyat tərzimizin qanun-qaydaları barədə danışmaq istəyirəm.

...Biz öz dövlət quruluşumuz üçün heç bir yadelli qanunları nümunə götürməmişik. Əksinə, biz nədəsə kimlərisə təqlid etməkdənsə özümüz başqaları üçün həmişə örnək olmuşuq. Şəhərimizi bir ovuc şəxs deyil, xalqın böyük əksəriyyəti idarə etdiyinə görə dövlət quruluşumuz xalq idarəçiliyi adlanır. Bizdə şəxsi işlərdə hamı qanunlar əsasında eyni hüquqlardan istifadə edir. Dövlət işlərinə gəldikdə isə, bizdə hər bir kəs yalnız ləyaqətinə görə fəxri dövlət vəzifələrinə irəli sürülür, belə ki, həmin şəxs müəyyən zümrəyə mənsub olduğuna görə deyil, şəxsi fədakarlığına görə nəyləsə fərqlənə bilmişdir. Əgər hər hansı bir insan dövlətə xidmət göstərməyə qadirdirsə, yoxsulluq, əsil-kökün olmaması, yaxud aşağı ictimai hal onun fəxri vəzifə tutmasına mane olmur.

Biz dövlətimizdə azad yaşayır və gündəlik həyatımızda qarşılıqlı şübhələrə yol vermirik: qonşumuz öz davranışında şəxsi meyllərinə uyğun hərəkət edirsə, biz ona pis gözlə baxmırıq və öz ziyansız, lakin qan qaralda biləcək narazılığımızı ona bildirmirik.

Şəxsi münasibətlərimizdə biz bir-birimizin günahlarından keçsək də, ictimai həyatda qanunları heç vaxt pozmuruq, başlıcası ona görə ki, biz qanunlara hörmətlə yanaşırıq, hakimiyyətə və qanunlara, ələlxüsus da incidilənlərin müdafiəsi üçün qoyulmuş qaydalara, habelə yazıya alınmasalar da, pozulmasını eyib saydığımız qanunlara tabe oluruq...

...Rəqiblərimiz də öz tərbiyə üsullarına əsasən öz cavanlarının mətanətini lap kiçik yaşlarından sərt intizamın köməyilə möhkəmləndirməyə can atırlar, biz isə sərbəst, bu cür sərtliklərdən azad yaşayır, bununla belə, bizə bərabər olan düşmənə qarşı cəsarətlə mübarizə aparırıq...

...Biz gözəlliyə olan meylimizi israfçılığa yol vermədən inkişaf etdirir və elmlərlə mənəvi gücümüzə xələl gətirmədən məşğul oluruq. Var-dövləti biz boş bir lovğalıq xatirinə deyil, ondan faydalı şəkildə istifadə etdiyimizə görə qiymətləndiririk.

Bizdə yoxsulluğu etiraf etmək heç kəs üçün rüsvayçılıq sayılmır, lakin biz ən böyük rüsvayçılığı onda görürük ki, insan öz əməyi ilə bu rüsvayçılıqdan qurtulmağa çalışmasın.

Bizdə elə adamlar var ki, eyni vaxtda həm öz işləri ilə, həm də ictimai işlərlə məşğul olurlar. Lakin qalan vətəndaşların hər biri öz peşəsi ilə məşğul olsa da, siyasətdən yaxşı baş çıxarırlar. Çünki yalnız biz ictimai fəaliyyətlə məşğul olmayanı qeyrətli vətəndaş deyil, gərəksiz adam sayırıq.

Biz heç də düşünmürük ki, açıq müzakirə dövlət işlərinin gedişinə ziyan vura bilər. Əksinə, biz belə hesab edirik ki, hər bir lazımlı qərar lehinə və əleyhinə çıxışların köməyilə qabaqcadan hazırlıq görülməklə qəbul olunmalıdır.

Çox az adam siyasətçi ola bilər, lakin siyasətçilərin əməllərinə qiymət verməyə hamının haqqı var.

Başqalarından fərqli olaraq biz cəsarət sahibi olmağımıza baxmayaraq, planlarımızı qabaqcadan əsaslı surətdə düşünüb yalnız bundan sonra risq etməyi üstün tuturuq;  başqalarında isə nadanlıq ötkəm bir cəsarət, ayıq mülahizə isə qətiyyətsizlik törədir. Yalnız o adamları həqiqi igid saymaq olar ki, onlar dərdin də, sevincin də nə olduğunu yaxşı bilirlər və məhz bunu bildiklərinə görə təhlükələrdən qorxub çəkinmirlər...

...Bir sözlə, mən israr edirəm ki, şəhərimiz bütün Ellada üçün bir məktəbdir və güman edirəm ki, bizlərdən hər birimiz ən müxtəlif həyat şəraitlərində öz şəxsi keyfiyyətlərini asanlıq və incəliklə təsdiq edə bilər...

...Buna görə də mən şəhərimizin şan-şöhrəti barədə bu qədər geniş danışdım. Mən həm də onu göstərmək istəyirdim ki, biz öz mübarizəmizlə bu cür sərvətdən məhrum insanların müdafiə etdiyindən daha böyük bir şeyi müdafiə edirik...

...Və şəhərimizin əzəmətinə görə fərəhlənərkən unutmayın ki, bu şəhəri şərəf hissindən ilham alan, vətəndaşlıq borcunun nə olduğunu bilən və onu vicdanla yerinə yetirən insanlar yaratmışlar...

Bu cür insanları indən belə örnək sayın və bilin ki, xoşbəxtliyi azadlıq, azadlığı isə igidlik doğurur və hərbi təhlükələrin gözünə dik baxın...

*Fukidid, "Pelopones müharibəsinin tarixi"*

## 2. İLK ANTİDEMOKRATLAR

### Afinalı Platon

Platonun (e.ə. 427/8–347/8-ci illər) fəlsəfi irsi Azərbaycan oxucularına yaxşı tanışdır. O, Periklin ölümündən bir il sonra aristokrat ailəsində doğulmuşdur. Demokratik Afina o vaxtlar Sparta müdaxiləsi dövrünü yaşayırdı. Ölkəni bürüyən vətəndaş müharibəsi e.ə. 404-cü ildə "On üç tiranın hakimiyyəti" adı ilə məşhur olan mürtəce aristokrat rejiminin bərqərar olmasına gətirib çıxardı. Bu rejimin liderlərindən ikisi — Kriti və Karmid Platonun yaxın qohumları idi. Lakin tezliklə demokrat partiyası aristokratları hakimiyyətdən uzaqlaşdırdı, Platonun hər iki qohumu hadisələrin gedişində öldürüldü. Ölkədə demokratik rejim bərqərar oldu.

Platonun gənclik illərində Afinanı bürümüş qanlı hadisələr, aclıq və epidemiyalar onda hər hansı sosial dəyişikliklərə qarşı güclü nifrət yaratmışdı. Onun müəllimi — aristokratların yaxını və böyük filosof Sokrat demokratiya bərpa ediləndən sonra Afina şurası tərəfindən ataların dinini təhqir etməkdə və gənclərin şüurunu zəhərləməkdə günahlandırılaraq ölümə məhkum edildi (220 səsə qarşı 280 səslə). Platon və onunla yanaşı Sokratın digər şagirdləri e.ə. 399-cu ildə Afinanı tərk etdilər. Platon Yunanıstan, Misir və İtaliyanın şəhərləri boyunca səyahətə çıxdı. Siciliyada olarkən o, Sirakuz tiranı Dionisinin sarayında siyasi mübarizəyə qoşuldu və sonra Sirakuzdan qovuldu. Platon e.ə. 387-ci ildə Afinaya qayıdaraq akademiya (müasir universitetlərin prototipi) yaratdı və 40 il orada fəlsəfəni tədris etdi.

Platonun əsərləri Avropa idealizminin və etikasının təməlini qoymuş və sovet filosoflarının arasıkəsilməyən amansız tənqidləri sayəsində keçmiş SSRİ məkanında yaxşı tanınmışdır. Platonun cəmiyyətin siyasi və sosial quruluşuna dair baxışları isə bizə daha az məlum olmuşdur; onun yaradıcılığının bu tərəfi sovet filosofları tərəfindən az xatırlanmamış və tənqid edilmişdir. Bu, onunla izah olunur ki, Platonun təsvir etdiyi dövlət kommunistlərin ölkədə qurmaqda olduqları utopiyaya (yaxud antiutopiyaya) çox oxşayırdı.

Platonun siyasi baxışları mürtəce mühafizəkarlıq fəlsəfəsi üçün təmələ çevrilmişdir. Əslində Platon bu günə qədər qalmaqda olan ümumi antidemokratik ənənələrin banisi olmuşdur. Periklin demokratiyanın müdafiəsinə söylədiyi alovlu nitqindən 80 il sonra Platon israr edirdi ki, cəmiyyəti kəmsavad xalqın iradəsi deyil, ləyaqətli və bilikli insanlar, ruhən aristokratlar idarə etməlidir; dövlətdə hərc-mərcliyin əsas səbəbi isə insan azadlığıdır.

Hər halda, demokratiyanın Platon tərəfindən tənqidinə diqqətlə yanaşılmalıdır. Biz burada dərhal görəcəyik ki, Platonun keçirdiyi qorxu və şübhə hisslərini ölkəmizdə demokratiyanın inkişafını izləyərkən hər birimiz də keçiririk; bundan başqa, Platonun dövlətin idarə olunmasında iştirak etmək istəyən insanların (demokratik ölkələrdə bu, bütün vətəndaşlara aiddir) öz bilik səviyyələrini daim artırmalı olmalarına dair tələbi tamamilə haqlıdır.

AFİNALI PLATON

# Demokratiyanın əleyhinə (təx. e.ə. 350-ci il)

*Bu quruluşda bərabər olanları və olmayanları bərabərləşdirən qəribə bir bərabərlik var...*

*Belə ki, demokratiyanın xoşbəxtlik kimi qəbul etdiyi və yorulmadan can atdığı şey [azadlıq] elə onun özünü dağıdır.*

Demokratiya, məncə, o vaxt həyata keçirilir ki, yoxsullar qalib gələrək düşmənlərinin bir hissəsini məhv edir, digər hissəsini qovur, yerdə qalanların isə vətəndaş hüquqlarını və dövlət vəzifəsi tutmaq imkanlarını bərabərləşdirirlər. Demokratik quruluşda dövlət vəzifələrinin tutulması əsasən püşkatma yolu ilə həyata keçirilir...

İnsanlar bu şəraitdə necə yaşayırlar? Bu dövlət quruluşu nədən ibarətdir? Aydındır ki, o, demokratik xüsusiyyətlər əldə edən insanda da öz əksini tapır...

Hər şeydən öncə, bu, azad insanlar olacaqdır: dövlətdə tam azadlıq, aşkarlıq və istədiyini etmək imkanı olacaqdır... Buna imkan verilən yerdə isə hər kəs öz həyatını istədiyi kimi quracaqdır...

Demokratik dövlətdə hətta qabiliyyətin çatsa da, idarəetmədə iştirakın vacib deyildir; həmçinin başqaları döyüşərkən döyüşmək istəmirsənsə, ya da sülh tərəfdarı deyilsənsə və başqaları kimi sülhü gözləmək istəmirsənsə, tabe olmağa borclu deyilsən. Və bir də, tutaq ki, hər hansı qanun sənə idarə, yaxud mühakimə etməyi qadağan edir, amma ağlına batsa, istədiyini edə bilərsən. Belə həyat ilk baxışdan gözəl və cazibədar deyilmi?..

Sonra. Məgər burada bəzi məhkum edilmişlərə münasibətdə mərhəmət əla deyilmi? Yoxsa sən bu dövlət quruluşunda ölümə, ya da sürgünə məhkum edilmiş adamların cəmiyyətdə qalıb yaşadıqlarını görməmisən? Elə bil, heç kəsin onunla işi yoxdur və heç kəs onu görmür, beləsi az qala yarımallah kimi özü üçün gəzib dolaşır... Bu yumşaqlıq demokratik quruluşun heç də xırda təfsilatı deyildir; əksinə, [ideal] dövlətimizi yaradarkən mühüm hesab etdiyimiz hər şeyə qarşı nifrəti əks etdirir. Biz deyirdik ki, insanın təbiəti gözəl deyilsə, o, heç vaxt xeyirxah ola bilməz; eynilə uşaqlıqdan (oyunlarda və məşğələlərdə) o, gözəlliklə təmasda olmur. Bununla belə, demokratik quruluş təkəbbürlə bütün bunları tapdalayır, heç fərqinə də varmır ki, dövlət qulluğuna keçənlər əvvəl nə ilə məşğul olublar. Adamlara yalnız kütlənin rəğbətini qazandığına görə hörmət göstərirlər. Bu və bu kimi cəhətlər demokratiyaya xasdır. Bu quruluş zəruri idarəçiliyə malik deyil, lakin xoşagələn və rəngarəngdir. Bu quruluşda bərabər olanları və olmayanları bərabərləşdirən qəribə bir bərabərlik var... Lakin ən qəribə dövlət quruluşu və ən qəribə adam haqqında hələ danışmamışıq: bu, tiraniya və tirandır. Gəl baxaq görək, əziz dost, tiraniya necə meydana gəlir. Onun demokratiyadan törədiyi, deyəsən, aydındır.

Belə ki, demokratiyanın xoşbəxtlik kimi qəbul etdiyi və yorulmadan can atdığı şey [azadlıq] elə onun özünü dağıdır. Onun xoşbəxtlik kimi qəbul etdiyi şey, səncə, nədən ibarətdir? Demokratik dövlətdə elə ancaq eşidirsən ki, azadlıq necə gözəldir və təbiətən azad olanlar yalnız bu cür dövlətdə yaşaya bilərlər...

Demokratik quruluşun və azadlıq yanğısının hökm sürdüyü dövlətin başına axmaq şərabpaylayan gəlib çıxanda bu dövlət "su qatılmamış" azadlıqdan həddsiz məst olur, öz vəzifəli şəxslərini isə yalnız ona görə cəzalandırır ki, onlar kifayət qədər iltifatlı deyillər və hamıya tam azadlıq vermirlər...

Orada hakimiyyətə itaətkar vətəndaşları heç nəyə dəyməyən könüllü qullar kimi hörmətsiz edir, ancaq təbəələrə oxşayan hakimləri və hakimlərə oxşayan təbəələri isə tərifləyir və onlara həm şəxsi, həm də ictimai həyatda hörmətlə yanaşırlar. Məgər belə dövlətdə azadlıq labüd olaraq hər şeyə sirayət etmirmi?.. Mənim dostum, o, şəxsi evlərə də nüfuz edir və axırda hətta heyvanlar da itaətsizlik göstərməyə başlayır...

Bəli, məsələn, ata uşağa uyğunlaşmağa məcbur olur və öz uşaqlarından çəkinir, oğul isə atasından yuxarıda dayanır; orada valideynlərə nə hörmət edir, nə də onlardan çəkinirlər (bütün bunlar azadlıq adı altında edilir), köçkün yerli vətəndaşa, vətəndaş isə köçkünə bərabər tutulur; yadellilərə münasibət də belədir...

Bundan başqa, digər xırda şeylər: bu cür şəraitdə müəllim şagirdlərdən çəkinir və onların qarşısında alçalır, şagirdlər isə öz müəllim və tərbiyəçilərini veclərinə də almırlar. Ümumiyyətlə, gənclər böyükləri yamsılamağa, fikir və işlərində onlarla yarışmağa başlayırlar; böyüklər isə gənclərə uyğunlaşmağa və onları yamsılamağa məcbur olaraq xoş gəlmək və hökmlü görünməmək üçün yersiz zarafatlaşmaqdan və şuxluq etməkdən çəkinmirlər...

Lakin bu cür dövlətin əhalisi üçün ifrat azadlıq ondan ibarətdir ki, satın alınmış qul və kənizlər heç də öz sahiblərindən az azad deyillər. Hə, az qala burada qadınların kişilərə və kişilərin qadınlara münasibətdə nə cür azad olduqlarını deməyi unutmuşduq.

Bax, mən də elə onu deyirəm. Adamların ixtiyarında olan heyvanların nə qədər azad olduğunu gözlərinlə görməyincə inanmazsan. Lap "itlər evin sahibidir" məsəlində olduğu kimidir; ...burada atlar və ulaqlar vüqarla və tam sərbəst keçib getməyə və hətta yoldan çəkilməyəndə qabaqlarına çıxanı döşləməyə vərdiş ediblər. Bax, beləcə, hər şey azadlıq hissi ilə aşıb-daşır...

Əgər bunların hamısını bir yerə yığsaq, ən əsas şey vətəndaşların qəlbinin hətta xırda məsələlərə də son dərəcə həssas olmasından ibarətdir: məcburi olan hər şey onlarda hiddət doğurur... Onlar sonda elə bir həddə gəlib çıxacaqlar ki, hətta yazılmış və yazılmamış qanunlarla hesablaşmamağa başlayacaqlar, kiminsə onların üzərində hakimiyyətinin olmasını istəməyəcəklər.

Bax, beləcə, dostum, belə gözəl və gənc kimi ötkəm idarəetmədən, məncə, tiraniya yaranır... Özbaşınalıq demokratiyanı kölə halına salır... İfrat azadlıq, görünür, həm ayrı-ayrı adamlar, həm də dövlət üçün ağır köləliyə çevrilir...

Mən dəliqanlı igidlərin rəhbərliyi altında çox cəsur olmasalar da, onları təqlid etməyə çalışan, xüsusi növ avara və israfçı adamların peyda olmasını da o cür xəstəlik sayıram: biz onları tüfeyli arılara bənzədirik, onların bəzilərinin iynəsi var, digərləri isə bundan məhrumdur...

Hər iki qrup meydana gələn kimi iltihab və səfranın bədənə təsir göstərdiyi qaydada istənilən dövlət quruluşunu dağıdır. Həm yaxşı həkim, həm də yaxşı dövlət başçısı təcrübəli arıçı kimi əvvəlcədən tədbir görməlidir ki, tüfeyli arıların meydana gəlməsinə imkan verməsin. Əgər onlar, hər halda, meydana gəlsələr, onları şanıları ilə birlikdə kəsib atmaq lazımdır.

Nəyi fərqləndirmək istədiyimizin aydın olması üçün belə edək. Demokratik dövləti xəyalən üç hissəyə bölək — bu, həqiqətdə də belədir. Bir hissə tüfeyli arılara oxşayanlardan ibarətdir... Demokratiya şəraitində onlar nadir istisnalarla başda dayanırlar: tüfeyli arıların ən zəhərliləri nitq söyləyir və fəaliyyətdədirlər, qalanları isə kürsüyə yaxın yerləşir, hay-küy salır və heç kəsin başqa cür danışmasına imkan vermirlər. Belə çıxır ki, bu cür dövlət quruluşunda belə adamlar çox az istisnalarla hər şeyi idarə edirlər...

Kütlədən adətən başqa bir hissə də ayrılır... İşbazların içərisində təbiətcə ən sahmanlılar əksərən ən varlı adamlara çevrilirlər. Tüfeyli arılara məhz onlardan bal toplamaq daha rahatdır. Belə varlıları adətən tüfeyli arıların şanı adlandırırlar.

Üçüncü hissə xalqdan ibarətdir. Bunlar o adamlardır ki, öz əlləri ilə zəhmət çəkirlər, işbazlıqdan uzaqdırlar və elə bir əmlakları yoxdur. Onlar hamıdan çoxdurlar və demokratik quruluşda daha çox təsirə (xüsusilə də bir yerə toplaşanda) malikdirlər. Hakimiyyətin varlıların əmlakını alıb xalqa paylamaq imkanı var (düzdür, çox hissəsini özünə saxlayır)... Əmlakı alınanlar isə özlərini müdafiəyə, xalq yığıncağında çıxış etməyə və ümumiyyətlə, mümkün olan hər şeyə əl atmağa məcbur olurlar... Onlar çevriliş etmək fikrində olmasalar da, xalqa qarşı fitnə törətməkdə ittiham olunurlar... İttihamlar, məhkəmə araşdırmaları, çəkişmələr başlayır...

Məgər xalq kimi isə — bir nəfəri xüsusilə fərqləndirməyə, ona pərəstiş etməyə və yüksəltməyə öyrəncəli deyilmi? Əlbəttə, öyrəncəlidir...

Deməli, heç olmasa o aydındır ki, tiran məhz bu kökün üzərində, yəni xalqın adamı kimi yetişib meydana çıxır. Xalq adamının tirana çevrilməsi nədən başlayır?

İxtiyarında son dərəcə itaətkar kütlə olan bir adam öz həmqəbilələrinin qanını tökmək istəyini cilovlaya bilərmi? Əksinə, həmişə olduğu kimi, o, onları ədalətsiz ittihamlarla məhkəməyə çəkəcək və həyatdan məhrum edərək özünü ləkələyəcəkdir: öz günahları doğmalarının ölümünə bais olacaqdır. O, sürgün və dəhşətli edamlarla yanaşı, borcların ləğv edilməsi və torpaqların yenidən bölünməsi haqqında da vədlər verəcəkdir. Məgər bütün bunlardan

sonra bu adam iki yoldan birini seçmək məcburiyyətində qalmırmı: ya öz düşmənlərinin əlində həlak olmalı, ya da tiran olmalı və insanlıqdan çıxıb canavara çevrilməlidir. O, həmin adamdır ki, mülkiyyəti olanlara qarşı üsyan qaldırır...

İlk günlər, ümumiyyətlə, ilk vaxtlar o, qarşısına çıxanların hamısının üzünə gülür, özü haqqında isə tiran olmadığı fikrini formalaşdırır; ayrı-ayrı adamlara və cəmiyyətə çoxlu vədlər verir; adamları borclardan azad edir, xalqa və öz məiyyətinə torpaq paylayır...

O, düşmənlərindən bəziləri ilə barışdıqdan, digərlərini narahatlıq törətməmələri üçün məhv etdikdən sonra, düşünürəm ki, əsas vəzifə kimi vətəndaşları daim hər hansı müharibələrə cəlb edəcəkdir ki, xalq başçıya ehtiyac hiss etsin... Bunu həm də ona görə edəcəkdir ki, adamlar vergilərdən yoxsullaşsınlar və ona qarşı pis fikrə düşməyə vaxt tapmayaraq özlərini birtəhər dolandırsınlar.

O, azadfikirlilikdə və hakimiyyətə qarşı olmaqda şübhələndiyi adamları isə məhv edəcək və bəhanə kimi onları düşmənə satılmaqda suçlandıracaqdır...

Yeri gəlmişkən, onun yüksəlişinə yardım etmiş bəzi nüfuzlu adamlar da açıq şəkildə, öz aralarındakı söhbətlərdə baş verənlərə narazılıqlarını bildirəcəklər... Tiran öz hakimiyyətini saxlamaq üçün onların hamısını məhv etməli olacaqdır. Sonra isə nə düşmənlərin, nə də dostların içərisində işə yarayan adam qalacaqdır... Deməli, tiran bütün mərd, alicənab, ağıllı, varlı adamları diqqət mərkəzində saxlamalıdır. Tiranın rahatlığı istər-istəməz bu cür adamlara qarşı düşmənçilik və dövləti onlardan təmizləyənə qədər onlara qarşı fitnələrin qurulması üzərində dayanır... Görünür ki, hakimiyyəti saxlamaq istəyirsə, bu, tiran üçün vacibdir. O, ya ona nifrət bəsləyən yaramazlar dəstəsi ilə firavan yaşamaq, ya da həyatla vidalaşmaq seçiminə məhkum edilmişdir...

Vəziyyət "yağışdan çıxdıq, yağmura düşdük" məsəlindəki kimidir: xalq azad adamların tabeliyindən çıxıb despotik hakimiyyətin nökərinə, tam azadlığını ən ağır və acı köləliyə dəyişərək kölələrin köləsinə çevrilir...

*"Dövlət" əsərindən*

## PLATONUN İDEAL DÖVLƏTİ

### *Birlik, harmoniya və ləyaqətlilərin hakimiyyətinə itaətkarlıq*

*Burada ən əsası odur ki, heç kəs heç vaxt — kişilər də, qadınlar da başçısız qalmamalıdır.*

...Beləliklə, hər bir insan bu və ya digər tələbatını ödəmək üçün gah bir, gah da digər adamdan istifadə edir. Çox şeyə ehtiyac duyan adamlar bir yerə toplaşırlar ki, birgə yaşasınlar və bir-birlərinə kömək etsinlər: bu cür birgəyaşayış bizdə dövlət adlanır...

Bizdə [ideal dövlətdə] çəkməçilik işinin müvəffəqiyyətlə getməsindən ötrü çəkməçiyə əkinçi, yaxud toxucu, ya da bənna olmağa hətta cəhd göstərməyi də qadağan etmişik; elə beləcə də hər kəsə fitri qabiliyyətinə uyğun yalnız bir iş tapşırmışıq: o məhz bununla bütün ömrü boyu məşğul olacaq, diqqətini başqa şeyə yayındırmayacaq və uğur qazanacaq...

Burada ən əsası odur ki, heç kəs heç vaxt— kişilər də, qadınlar da başçısız qalmamalıdır. Ciddi məşğələlərdə və oyunlarda heç kəs özünü şəxsi rəyi ilə hərəkət etməyə öyrətməməlidir. Yox, həmişə — müharibədə də, sülh vaxtı da hər kəsin bir gözü başçıda olmalı, onun göstərişlərinə əməl etməlidir. Hətta ən əhəmiyyətsiz şeylərdə də onların rəhbərliyi əsas götürülməlidir, məsələn, başçının əmri ilə dərhal yerində dayanmalı, irəli getməli, təlimlərə başlamalı, yuyunmalı, qidalanmalı və keşik çəkməli, yaxud tapşırıqları yerinə yetirmək üçün oyanıb durmalı... Bir sözlə, qoy insanın qəlbi başqalarından ayrılıqda nəyisə etməməyə və hətta bunun necə mümkün ola biləcəyini başa düşməməyə vərdiş etsin...

Tərbiyə necə olmalıdır?.. Nəhənglərin döyüşlərini, Tanrı və qəhrəmanların öz qohumları və yaxınları ilə digər Çoxsaylı ixtilaflarını təsvir etməyə və şişirtməyə heç bir ehtiyac yoxdur — əksinə, əgər biz vətəndaşlardan heç

birinin digərinə heç vaxt düşmənçilik bəsləməməsi və bunun şərəfsizlik olması fikrini beyinlərə yeritmək istəyiriksə, onda qocalar və qarılar yubanmadan uşaqlara elə onlar böyüyəndən sonra da məhz bu barədə və mümkün qədər Çox danışmalıdırlar.

Mif yaratmaq [dövlətin] əsasını qoyanların işi deyil — onlara bədii yaradıcılığın əsas cizgilərini bilmək və onların təhrif edilməsinə yol verməmək kifayətdir...

Axı həqiqəti hər şeydən üstün tutmaq lazımdır. Bu yaxınlarda demişdik ki, yalanın allahlara mahiyyətcə heç bir faydası yoxdur, adamlara isə yalan müalicə dərmanı kimi faydalı ola bilər. Dediklərimiz düzdürsə, onda bu dərmanı həkimlərin ixtiyarına buraxmaq lazımdır, nadan adamlar isə ona əl vurmamalıdır...

Kimə olmasa da, dövlət başçılarına həm düşmənə qarşı, həm də dövlətin xeyri naminə öz vətəndaşlarından ötrü yalan işlətməsinə yol vermək olar, lakin yerdə qalan heç kəsə ona əl atmasına şərait yaratmaq olmaz. Əgər ayrı-ayrı şəxslər hökmdarlar kimi yalan danışmağa başlasalar, onda bunu xəstənin həkimə yalan deməsindən də betər hərəkət sayacağıq...

Eşq zövqündən daha güclü və şiddətli həzzin adını çəkə bilərsənmi? Bununla belə, düzgün eşq sadəliyi və gözəlliyi sevir, bunları mühakimə və harmoniya ilə edir. Deməli, həqiqi məhəbbətə azğınlıq və pozğunluqla bağlı şeyləri calamaq olmaz. Sözsüz ki, ona eşqbazlığı da əlavə etmək olmaz: həqiqi sevənlərlə onu bağlayan heç bir ümumi cəhət yoxdur...

Beləliklə, dövlətimizin güclənməsi və abadlaşması şəraitində bütün təbəqələrə imkan yaratmaq lazımdır ki, fitri qabiliyyətlərinə uyğun olaraq ümumi inkişafımıza öz paylarını verə bilsinlər...

Bax gör bu deyilmi o biri ustaların hamısını korlayan, onları yararsız edən?.. Sərvət və yoxsulluq. Varlanmış dulusçu, səncə, öz sənətində daha da təkmilləşməyə çalışacaqmı?..

Dövlətin bizim dediyimiz kimi deyil, başqa cür adlanmağa layiq olduğunu sayırsansa, xoş halına. Başqa cür yanaşsaq, ad çox uzun alınacaqdır, çünki onlardan hər biri "şəhər"i [şəhər-dövləti] deyil, çoxlu dövləti bildirəcəkdir. İstənilən halda onlar bir-birinə düşmən iki dövlətdən ibarətdir: biri yoxsulların, digəri varlıların; onların hər biri də çoxlu dövlətdən ibarətdir, ona görə də onları vahid saysanız yanılmış olarsınız...

Əgər sən onlara çoxluğa yanaşdığın kimi yanaşsan, pul vəsaitini və hakimiyyəti birindən alıb digərinə versən, yaxud onların özünü bir qrupdan digərinə dəyişsən özünə əbədi müttəfiqlər qazanarsan, düşmənlərin isə azalar...

Bu ərlərin [keşikçilərin] arvadları ümumi olmalıdır, təklikdə isə qoy heç bir qadın heç kəslə nikahda olmasın. Uşaqlar da ümumi olmalıdır, qoy ata hansı uşağın onun olduğunu, uşaq isə atasının kim olduğunu bilməsin...

Biz abad dövləti bədənə bənzətdik, onun ağrıları, yaxud sağlamlığı isə üzvlərinin vəziyyətindən asılıdır...

Məncə, bircə dəyişikliyin baş verməsi kifayətdir ki, bütün dövlətin necə başqalaşdığını nümayiş etdirə bilək; doğrudur, bu dəyişiklik asan olmasa da, hər halda, mümkündür. O nədən ibarətdir? Nə vaxta qədər ki dövlətləri filosoflar idarə etməyəcəklər, yaxud indiki üzdəniraq şahlar və hökmdarlar nəcibliklə və ürəkdən filosofluq etməyə başlamayacaq və dövlət hakimiyyəti ilə fəlsəfə birləşib bir araya gəlməyəcək və nə vaxta qədər ki ayrı-ayrılıqda ya hakimiyyətə, ya da fəlsəfəyə can atan adamlar (onlar isə çoxdurlar) məcburi qaydada kənarlaşdırılmayacaq, o vaxta qədər də dövlət fəlakətlərdən qurtula bilməyəcək və indicə təsvir etdiyim dövlət quruluşu işıq üzü görməyəcək və bəşər nəslinə qismət olmayacaqdır.

*Platonun "Dövlət" və "Qanunlar" əsərlərindən*

## 3. İLK SİYASİ TƏHLİL

## Aristotel

Qədim yunan filosofu Aristotel (e.ə. 384–322) iyirmi il ərzində Platonun şagirdi olmuş, onun Afina akademiyasında o dövrün elmi biliklərinə mükəmməl yiyələnmişdir. Platonun ölümündən sonra Aristotel Afinanı

tərk etmiş, gələcəyin böyük fatehi gənc İsgəndərə müəllimlik etmək üçün Makedoniyada məskən salmışdır. E.ə. 334-cü ildə Makedoniyalı İsgəndərin öz Asiya fütuhatına başlaması ilə Aristotel Afinaya qayıdaraq öz akademiyasını — məşhur liseyi təsis etmişdir. İsgəndərin ölümündən sonra aristokratlar partiyasına yaxın olan Aristotel ateizmdə ittiham edildiyindən Afinanı tərk etmək məcburiyyətində qalmış və bir il sonra dünyasını dəyişmişdir.

Aristotelin "Etika", "Politika", "Ritorika" və digər əsərlərində cəmlənmiş elmi irsi əsrlər boyu əvvəlcə Şərq, sonralar isə Qərb fəlsəfəsinə öz həlledici təsirini göstərmişdir. Orta əsrlərdə Avropada Aristoteli sadəcə olaraq "filosof" adlandırırdılar. İndiyəcən çoxları fundamental fəlsəfi problemləri bütün dərinliyi ilə əhatə etdiyinə və ensiklopedik biliyinə görə onu bütün zamanların və xalqların ən böyük filosofu sayır.

Aristotelin "Politika" əsəri Qərbin siyasi fəlsəfəsində başlanğıc nöqtəsi hesab edilir. Bu, yunan filosofunun siyasi rejimlərin müxtəlif növlərini, vətəndaşlığın mənasını və siyasi həyatda təhsilin rolunu sistemli təhlilə çəkən ilk böyük elmi iş idi.

Aristotelə görə, demokratiya siyasi rejimlərin (bunların arasında o, habelə monarxiya, oliqarxiya, tiraniya və politiya rejimlərini nəzərdən keçirirdi) yalnız bir formasıdır. Aristotel monarxiya tərəfdarı idi, lakin bir şərtlə ki, monarx təhsil görmüş, bilikli adam olsun və dövləti hamının xeyri naminə idarə etsin.

Aristotel ən geniş yayılmış rejim kimi demokratiyaya yaxın olan, həm də özündə oliqarxiyanın və müasir konstitusiyalı monarxiyaların elementlərini daşıyan politiyanı qeyd edirdi.

Aristotelin fikrincə, cəmiyyət daxilində yaşayan insan siyasi varlıqdır. Dövlət təbii şəkildə ailədən törəyərək hakimiyyət və tabeçilik münasibətlərini (ağa və kölə, ər və arvad, ata və övladlar) yeni səviyyədə qurub həyata keçirir.

Aristotel quldarlığı müdafiə edirdi. Platon kimi o da belə hesab edirdi ki, insan ümumən siyasi azadlıq şəraitində yaşamaq iqtidarında deyildir. Lakin Platondan fərqli olaraq, Aristotelin ideal dövləti müxtəlif mülkiyyət formalarına, iqtisadi özünütənzimləmə mexanizminə malik, siyasi hakimiyyəti isə geniş yayılmış institutlar sistemi (şəhər məclisi, magistrat, məhkəmə) və cəmiyyətin təyin etdiyi vəzifəli şəxslərin vasitəsilə həyata keçirilən açıq, dinamik inkişaf edən cəmiyyətdir. Aristotel üçün hakimiyyət Platonda olduğu kimi hamıdan yüksəkdə duran əzm, iradə deyil, bir neçə müstəqil iradənin məcmusudur.

Aristotel demokratiyanı idarəetmənin ən pis formalarından ən yaxşısı kimi tövsif edirdi, belə ki, onun fikrincə, burada hakimiyyət adətən əksəriyyət təşkil edən yoxsul və əsil-nəcabətsiz vətəndaşlara məxsus olacaqdır. Aristotel iddia edirdi ki, demokratiyanın ən yaxşı forması ən az demokratik olanıdır; belə demokratiyada insanların çoxu yoxsul deyil və yoxsulların bərabər hüquqları yoxdur.

ARİSTOTEL

# Politika (təx. e.ə. 330)

ƏDALƏTLİ DÖVLƏT QURULUŞU HAQQINDA

*...Ədalət bərabərlikdir... ancaq hamı üçün yox, yalnız bərabərlər üçün bərabərlikdir...*

* Dövlət quruluşunun növlərini və onların fərqləndirici cəhətlərini incələməzdən öncə dövlətin nə olduğuna baxmaq gərəkdir.  Bu barədə baxışlar cürbəcürdür. Hazırda bu baxışlarda fikir ayrılığı var, bunlardan biri təsdiq edir ki, bəlli bir hərəkəti dövlət etmişdir, başqaları deyirlər: yox, dövlət etməmişdir, oliqarxiya, yaxud tiranlıq etmişdir.

* Dövlət hər hansı bir bütöv kimi çoxlu hissələrdən ibarət olduğu üçün ilk öncə vətəndaşın (polites) nə olduğu aydınlaşdırılmalıdır, belə ki, dövlət vətəndaşların toplusudur... Biz isə o şəxsləri vətəndaş sayırıq ki, məhkəmədə və xalq iclaslarında iştirak edir...

* Biz görürük ki, dövlət adamı və qanunvericinin bütün fəaliyyəti istisnasız olaraq dövlətə (polis) yönəlmişdir, dövlət quruluşu (politiya) isə dövlətin sakinlərinin məlum təşkilatıdır...

Bir çoxları bu və ya başqa hərəkətin dövlət hərəkəti kimi qəbul edilib-edilməməsində çətinlik çəkirlər; məsələn, oliqarxiyadan, yaxud tiranlıqdan demokratiyaya keçiddə bəziləri öz öhdəliklərindən imtina edir, deyirlər ki, bu öhdəliyi öz üstünə dövlət yox, tiran götürmüşdü. Bu sıradan olan bir çox məsələlərdə ona söykənilir ki, dövlət quruluşunun bəzi növləri ümumi fayda naminə deyil, zorakılıq sayəsində mövcuddur...

* Həm idarə etməyi, həm də tabe olmağı bacarmaq alqışa layiqdir, görünür, vətəndaş fəziləti layiqli idarə etmək və tabe olmaq bacarığıdır...

* Dövlət hakimiyyətini növlərə ayırmaq çətin deyil: onların barəsində biz ekzoterik əsərlərdə danışmışıq. Ağanın nökər üzərində hakimiyyəti anadan ağa və kölə doğulmuşların hər ikisi üçün faydalı olsa da, başlıca olaraq ağanın xeyrinədir, kölə üçün isə təsadüfi faydadır (kölə məhv olarsa, ağanın onun üzərindəki hakimiyyəti də təbii olaraq qurtarmalıdır)...

* Beləliklə, aydın olur ki, ümumi faydanı nəzərə alan dövlət quruluşu ciddi ədalət baxımından düzgün sayılır; yalnız hakimiyyətdə olanların rifahını güdən quruluşlar isə düzgün deyildir, səhvdir: onlar yalnız hökmranlığa əsaslanır, dövlət isə azad insanların ünsiyyətidir. İndi düzgün dövlət quruluşlarının təbiətini və sayını gözdən keçirmək olar...

* İlk öncə oliqarxiyanın və demokratiyanın göstərilən sadə fərqləndirici prinsipləri və bir də oliqarxiyanın və demokratiyanın gözündə nəyin ədalətli sayıldığı araşdırılmalıdır. Axı hamı ədalət deyilən şeyə söykənmir, amma ədalətin yalnız bəzi əlamətlərindən söz açırlar, lakin onların ədalət adlandırdıqları heç də ədalətin bütünü deyildir. Göründüyü kimi, ədalət bərabərlikdir, bu, doğrudan da, belədir, ancaq hamı üçün yox, yalnız bərabərlər üçün bərabərlikdir; və bərabərsizlik də ədalətdir, bu da, doğrudan, belədir, amma yenə də hamı üçün yox; yalnız bərabər olmayanlar üçün bərabərsizlik ədalətdir. Belə ki, “kim üçün” sualı diqqətdən qaçırıldığından səfeh mühakimə yürüdülür; səbəbi də odur ki, özləri barədə fikir yürüdürlər, öz işləri barədə mühakimələrdə isə bəlkə də bir qism insanlar pis hakimdirlər...

* Ədalət nisbi anlayış olduğundan və “Etika”da öncə xatırlatdığımız kimi, subyektin xassələrindən asılı olduğu dərəcədə də obyektin xassələrindən asılı olaraq fərqləndirildiyindən, obyektlərə aid olan bərabərliyin nisbi olduğu ilə hamı razılaşır, ancaq subyektlərə aid olan bərabərlik barədə indicə göstərilən səbəbdən, yəni öz şəxsi işləri haqqında səfeh mühakimə üzündən qərarsızlıq vardır: sonra da həm onlar, həm də başqaları ədalətin nisbi anlayışı ilə razı olduqlarını zənn edərək, onu tam anladıqlarını israr edirlər...

* Bəziləri deyirlər: əgər subyektlər bəlli cəhətdən, məsələn, pul sarıdan bərabər deyilsə, onda onlar ümumiyyətlə bərabər deyillər; başqaları isə belə düşünürlər: əgər subyektlər hər hansı bir cəhətdən, məsələn, heç olmazsa azadlıq baxımından bərabərdirlərsə, deməli, onlar ümumiyyətlə bərabərdirlər. Amma başlıcası odur ki, onlar ən mühüm olanı gözdən qaçırırlar.

* Doğrudan da, əgər onlar ünsiyyətə girib yalnız varlanmaq naminə birləşsəydilər, varlılıq dərəcəsinə görə dövlət həyatında iştirak etmək iddiasında olardılar. Belə olduqda, oliqarxiya prinsipi tam qüvvədə olardı: azı yüz min ümumi məbləğə kiminsə cəmi bir min qoyaraq sonra da bütün məbləği qoyan şəxslə ilkin məbləğə və onun gətirdiyi faizə eyni dərəcədə iddia etməsi ədalət sayılmır...

Dövlət, ümumiyyətlə, yaşamaq üçün deyil, xoşbəxt yaşamaq üçün qurulur; əks halda, kölələrdən yaranan və heyvanlardan təşkil olunan birliyi də dövlət saymaq lazım gələrdi, bu isə gerçək olmazdı, çünki onlar hamının rifahına can atan və öz iradələri ilə birlik qurmurlar...

Dövlət qarşılıqlı incikliklərin qarşısını almaq, ticarət və xidmət mübadiləsi xatirinə də yaranmır; belə olsaydı, etrusklar, karfagenlilər və ticarət əlaqəsində olan bütün insanlar bir dövlətdə birləşmiş sayılardılar...

* Amma doğrudan da, ticarət aparan tərəflər arasında malların çıxarılması, gətirilməsi barədə razılaşmalar olur. Lakin bu işləri həyata keçirmək üçün onların ümumi vəzifəli şəxsləri olmur, əksinə, tərəflərin hər birində onlar ayrı-ayrıdır; bir-birinin ədalətli olub-olmaması barədə, alçaq hərəkət etməsinin qarşısını almaq barədə düşünmür, onlar yalnız bir-birinə ziyan vurmamaq barədə fikirləşirlər. Dövlətdə isə qanunauyğunluğa riayət edilməsi naminə mənəvi keyfiyyətə qayğı ilə göz qoyulur; gerçəkdən dövlətdə vətəndaşların mənəviyyatı barədə qayğıya ehtiyac da buradan irəli gəlir. Əks halda dövlət münasibətləri müttəfiqlərin yalnız məkan baxımından yaratdıqları sadə ittifaqa çevrilərdi. Hətta qanun da bu halda sadə müqavilələrdən ibarət olub, Likofronun söylədiyi kimi, sadəcə şəxsi hüquqların qarantından başqa bir şey olmazdı...

* ...Beləliklə, dövlət yurd, məkan ümumiliyi deyil, qarşılıqlı təhqirlərin qarşısını almaq, yaxud əlverişli mübadilə xatirinə də yaradılmır. Doğrudur, dövlətin yaşaması üçün bütün bu şərtlər olmalıdır, amma dövlət bunların bir yerə yığılması deyil; dövlət ləyaqətli həyat naminə, kamil və mənalı həyat sürmək məqsədilə ailələrin və qəbilələrin münasibətlərindən doğur.

* Ona görə də belə münasibətlərdə payı çox olan adam sərbəstlik və əsl-nəcabət baxımından ona bərabər və ya ondan üstün olanlara nisbətən dövlət həyatında daha çox iştirak etməlidir və dövlətçilik fəzilətində onlar onunla müqayisə oluna bilməzlər; onun dövlətçilik fəziləti maddi sərvətdə üstün olanlarla da müqayisə oluna bilməz...

* Oliqarxiyanın birinci növünün fərqləndirici əlaməti — vəzifə tutmaq vara görə müəyyənləşdirilir. Yoxsullar çoxluq təşkil etsələr də, onlar vəzifələrə buraxılmır...

* Demokratiya və oliqarxiyadan başqa, dövlət quruluşunun iki növü də vardır. Onlardan birini hamı qəbul edir — biz yuxarıda onun haqqında danışmışdıq. Dövlət quruluşunun dörd növü bunlardır: *monarxiya, oliqarxiya, demokratiya və aristokratiya.* Dövlət quruluşunun beşinci növünü *politiya* adlandırırlar. Bu quruluş növünə az rast gəlinir, ona görə də dövlət quruluşunun növlərini araşdıranlar onu diqqətdən qaçırırlar; onlar da Platon kimi dörd növü göstərməyi yetərli bilirlər...

* Ədalət naminə deyək ki, aristokratiya ilkin əlamətlərindən igidliyinə görə seçilən yox, fəzilətinə görə seçilən kişinin idarə etdiyi quruluşdur. Yalnız belə dövlət quruluşunda yaxşı kişi və yaxşı vətəndaş eynidir. O biri quruluşlarda isə "yaxşı" anlayışı quruluşdan asılı olaraq işlədilir...

* Belə ki, aristokratik quruluş dövlətə ən yaxşı vətəndaşların gəlməsinə çalışır, oliqarxiya da bütün cəhətləri ilə mükəmməl insanlardan ibarət olur. Təbii ki, yaxşı və yetkin insanların deyil, səfehlərin idarə etdiyi dövlət rifah quruluşu ola bilməz, eynilə yaxşı qanunları olmayan dövləti ən yaxşı adamların idarə etməsi də mümkün deyil. Yaxşı qanunlar o deyil ki, heç kəsi günahlandırmasın. Əksinə, qanunçuluğun bir növü mövcud qanunlara riayət etməkdir, o biri növü riayət olunan qanunların yaxşı tərtib olunmasıdır (axı pis tərtib olunan qanunlara da itaət oluna bilər). Burada iki hal ola bilər: dövlət ya onun üçün mümkün olan, ya da gerçəkdən ən yaxşı olan qanunlara söykənir...

* Aristokratiya quruluşunun mahiyyətini fəxri hüquqların mənəvi keyfiyyətə görə verilməsi (belə ki, aristokratiyanın təməli yüksək mənəvi keyfiyyətdir), oliqarxiyanın mahiyyətini var-dövlət, demokratiyanın mahiyyətini azadlıq təşkil edir...

## DEMOKRATİYA HAQQINDA

*...Çünki... belə demokratiyada ali hakimiyyət xalqın olsa da, demaqoqlar onun rəyi üstündə hakim olur, kütlə onların sözü ilə hərəkət edir...*

* Lakin dövlət quruluşunun, görünür, iki başlıca növü vardır, — deyilənə görə, küləyin iki əsas növü (quzey və güney) olduğu və qalanları sapdırma sayıldığı kimi, dövlət quruluşunun da iki başlıca növü vardır: demokratiya və oliqarxiya...

* ...Beləliklə, azad və kasıb insanların çoxluq təşkil edərək ali hakimiyyəti öz əlinə aldığı quruluş demokratiya, ali hakimiyyətin varlı və ali mənşəli azlığın əlində olduğu quruluş isə oliqarxiya sayılmalıdır...

* Demokratiyanın birinci növü bərabərlikdir. Bərabərlik demokratiyanın bu növü üçün əsas qanun olub nə kasıblara, nə də varlılara hər hansı bir üstünlük vermir; ali hakimiyyət nə onun, nə də o birinin əlində toplanır, hər ikisi bərabərdir. Əgər azadlıq və bərabərlik demokratiyanın mühüm əlamətləridirsə, bu özünü onda göstərə bilər ki, dövlətin idarə olunmasında hamı mütləq iştirak etsin. Xalq demokratiyada çoxluqda qaldığından və onun qərarları həlledici olduğundan, belə dövlət quruluşu demokratikdir. Bu, demokratiyanın bir növüdür...

* Demokratiyanın başqa bir növü vəzifələrin tutulmasında, çox olmasa da, zənginlik şərtinin, əmlak senzinin qoyulmasıdır. Bu senzi alan adam vəzifəsinə başlaya bilər. Onu itirən vəzifədən azad edilir. Demokratiyanın üçüncü növü nəzərdə tutur ki, mənşəcə vətəndaş olanların hamısının vəzifə tutmaq hüququ var, amma yalnız qanun hökm edir. Demokratiyanın dördüncü növü yenə də vətəndaşın vəzifə tutmaq hüququnu, qanunun aliliyini nəzərdə tutur. Demokratiyanın beşinci növü qanunun deyil, sadə xalqın ali hakimiyyətini nəzərdə tutur...

* Burada son söz qanunun deyil, xalq iclasının demaqogiya yolu ilə qəbul edilən qərarınındır. Qanunun həlledici rol oynadığı demokratik dövlətlərdə demaqoqlara yer yoxdur, orada yaxşı vətəndaşlar birinci yerə qoyulur; qanunun aliliyi olmayan yerdə isə demaqogiya yaranır. Xalq çoxluğu mütləq hökmran olur: ali hakimiyyət ayrılıqda heç kəsin, bir yerdə hamınındır...

* Bu halda sadə xalq qanunla idarə olunmur və özü monarx olur, monarxiya qaydaları ilə idarə edib despota çevrilir və demokratiyanın bu növü monarxiyanın tiranlıq növünü xatırladır; odur ki, onların hər ikisi eyni xarakterlidir: ifrat demokratiya və tiranlıq yaxşı vətəndaşlarla despotcasına davranır; belə demokratiyanın qərarı və tiranın sərəncamı eynidir. Yaltaqlar və demaqoqlar bir-birinə oxşayır; belə demokratiyanın demaqoqları və tiranın yaltaqları güclüdür...

* Çünki xalq iclasının qərarı və tiranın sərəncamı onların canfəşanlığı ilə olur; belə demokratiyada ali hakimiyyət xalqın olsa da, demaqoqlar onun rəyi üstündə hakim olur, kütlə onların sözü ilə hərəkət edir, yaltaqlar da tiranın rəyinə nəzarət edirlər. Demaqoqlar vəzifəli şəxsləri təqsirləndirir və deyirlər ki, onları xalq mühakimə etməlidir, onlar isə suçu həvəslə qəbul edirlər və vəzifəli şəxslərin rolu heçə endirilir...

* Belə demokratiya dövlət quruluşu adlandırıla bilməz — qanun hakimiyyəti olmayan yerdə dövlət quruluşu da yoxdur. Qanun hamının üstündə hakim olmalıdır; vəzifəli şəxslərə və xalq iclasına xüsusi məsələlərin müzakirəsi tapşırılmalıdır. Beləliklə, hər şeyin xalq iclaslarının qərarları ilə idarə olunduğu dövlət quruluşunu demokratik quruluş adlandırmaq olmaz, çünki heç bir qərar ümumi xarakter daşımır, qanunun gücü ümumiliyindədir. Demokratiyanın növləri, bax, bu üsulla fərqləndirilməlidir...

# İngilis Azadlıqlarının Böyük Toplusu — *Magna Carta* (1215)

Təmin edilmiş insan haqları uğrunda mübarizənin tarixi demokratiya (çoxluğun hakimiyyəti) uğrunda mübarizə tarixindən daha gəncdir, onun cəmisi 700 yaşı var. Demokratiyanın vətəni Qədim Yunanıstandırsa, liberalizmin (dövlət müdaxiləsindən qorunmuş insan haqlarının) vətəni tam hüquqla orta əsr İngiltərəsi hesab olunmalıdır. Məhz burada 1215-ci il iyunun 15-də Rannimid qəsəbəsində baş vermiş hadisələr insan haqları uğrunda mübarizə tarixinin başlanğıc nöqtəsi kimi qəbul olunub. O zamandan indiyə kimi hər bir fərdin şəxsi, siyasi və sosial haqları uğrunda mübarizəsi həqiqətən ümumdünya miqyası almışdır...

Kral Con Plantagenet (tarixi romanlardan bizə tanış olan Şir ürəkli Riçardın kiçik qardaşı) ağılsızcasına və israfçılıqla hökmranlıq edirdi. Hərəkətləri ilə o, təkcə xalqı deyil, həm də imtiyaz və mülkiyyətlərinə qəsd etdiyi iri feodalları da özünə qarşı qaldırdı; kralın ölkənin sərhədlərindən xaricdə hərbi mükəlləfiyyəti yerinə yetirmək tələbini feodallar həddini aşmaq hesab etdilər. Kralın özbaşınalığından hiddətlənmiş bir neçə nüfuzlu baron qoşun toplayaraq uğursuz danışıqlardan sonra onu ağır məğlubiyyətə uğratdı.

Qələbədən sonra baronlar, həmişə olduğu kimi, bacarıqsız despotu devirib hakimiyyətə “ədalətli kral”ı gətirmədilər. Kenterberi arxiyepiskopu Stefan Lanqtonun köməyi ilə baronlar onların qədim imtiyazlarını təsdiq və təsbit edən sənəd hazırlayıb kralı məcbur etdilər ki, torpaq sahibkarlarından olan lordlarla və ali ruhani nümayəndələrlə birlikdə Rannimiddə onu imzalasın.

Həmin sənəd insan haqları, kral hakimiyyətinə qoyulmuş məhdudiyyətlər, hüquqi norma və prosedurların siyahısından ibarət idi; *Magna Carta* və ya *İngilis Azadlıqlarının Böyük Toplusu* kimi tanınan bu sənəd 63 bənddən ibarət olub “*Krallığımızın bütün azad insanlarına”* sözləri ilə başlanırdı.

*Magna Carta*-ya görə, bundan belə baronların razılığı olmadan kral heç bir mühüm siyasi və iqtisadi qərar qəbul edə bilməzdi...

Cek və Adam Livlilər *(J. & A.Lively, Democracy in Britain, 1994)* yazırlar ki, bu sənədi müasir mənada insan haqları bəyannaməsi adlandırmaq olmaz. *Magna Carta* yalnız konkret situasiyaların həlli üsullarının siyahısıdır, orada öz əksini tapmış hüquqların əksəriyyəti isə yalnız baronlara aiddir. Bundan əlavə, həmin müəlliflər hesab edirlər ki, *Magna Carta*-nın mətni mühafizəkardır, o, yeni idarə üsulunu bəyan edən dildən daha çox, mövcud hüquqları təsdiqləyən bərpa dilində yazılıb...

Bütün bunlara baxmayaraq, həmin sənədin liberalizmin inkişafında əhəmiyyəti çox böyükdür. *Magna Carta* konstitusiya tipli hakimiyyətin əsasına çevrildi. Sonralar inadlı mübarizə nəticəsində yalnız baronlara aid olan hüquqlar ölkənin bütün vətəndaşlarına aid edildi, sənədin bəzi müddəaları isə ölkənin hüquqi sisteminin əsasına çevrildi. 1295-ci ildə kral I Eduardın hakimiyyəti dövründə fəaliyyətə başlamış ilk İngiltərə parlamentinin üzvləri qərarların qəbulu zamanı daim *Magna Carta*-ya müraciət edirdilər.

Müttəhimlə eyni statusu olan andlıların qərarı olmadan heç kəs məhkum və ya mülkiyyətindən məhrum edilə bilməz — bu müddəa demokratik məhkəmənin əsaslarından birinə çevrildi.

Bu gün demokratik ölkələrdə qəbul edilmiş “vergiləri yalnız vergiödəyənləri təmsil edən parlament tətbiq edə bilər” qaydası öz başlanğıcını *Magna Carta*-nın belə bir müddəasından götürür ki, torpaq sahibkarları olan lordların razılığı olmadan kral yeni vergilər tətbiq edə bilməz.

*Magna Carta*-nın taleyi asan olmayıb. Sənədin imzalanmasından dərhal sonra kral Con baronlarla sazişi pozdu və ölkəni yenidən vətəndaş müharibəsi alovu bürüdü. Lakin kral Conun varisi III Henrix *Magna Carta*-nın qüvvəsini yenidən bərpa etdi və 1225-ci ildə krallığın bütün münaqişə edən tərəfləri sənədi son redaktədə qəbul etdilər.

Krallar sonralar da öz hakimiyyətlərini asanlıqla bölüşdürmək istəmirdilər, ancaq *Magna Carta*-da təsbit olunmuş hüquqlar tədricən İngiltərə vətəndaşının kimliyinin bir hissəsinə çevrilir və istibdada qarşı mübarizə səngimədən gedirdi.

MAGNA CARTA

# İngiltərə kralı Conun imzaladığı
# İngilis Azadlıqlarının Böyük Toplusu (1215-ci il)

*Heç bir azad insan onunla bərabərhüquqlu olan insanların qanuni hökmündən və ya ölkə qanunlarından savayı heç bir əsasla tutulub həbs edilə, hüquq və ya mülkiyyətindən məhrum oluna... bilməz.*

Allahın mərhəməti ilə İngiltərə kralı, İrlandiya hökmdarı, Normandiya və Akvitaniya hersoqu, Anju qrafı Con öz arxiyepiskopları, yepiskopları, abbatları, qrafları, baronları, hakimləri, meşəbəyiləri, şerifləri, idarəçiləri, nökərləri olan bütün qulluqçu və sadiq təbəələrinə müraciət edir:

Sizi salamlayıram...

...Krallığımızın bütün azad insanlarına özümüzün və varislərimizin adından aşağıda göstərilən Azadlıqları onların və varislərinin sahibliyinə və mühafizəsinə əbədi olaraq bəxş edirik:

...(12) Krallığın Ümumi Şurasının razılığı olmadan krallığımızda heç bir vergi və mükəlləfiyyət tətbiq edilə bilməz...

(20) Xırda cinayət törətmiş azad insan ancaq həmin cinayətin dərəcəsinə görə, ağır cinayətə görə də həmin qaydada, amma öz statusundan məhrum edilməmək şərti ilə cəzalandırılacaq.

Beləliklə, kral məhkəməsinin rəhmdilliyi ilə üzləşmiş tacir öz mallarından, əkinçi isə öz torpaqlarından məhrum ediləcək.

Bu cəzalardan heç biri qonşuluqda yaşayan ləyaqətli adamların and içərək çıxardıqları qərar olmadan verilə bilməz...

(39) Heç bir azad insan onunla bərabərhüquqlu olan insanların qanuni hökmündən və ya ölkə qanunlarından savayı heç bir əsasla tutulub həbs edilə, hüquq və ya mülkiyyətindən məhrum oluna, qanundan kənar qoyula, sürgün edilə, hər hansı yolla cəmiyyətdəki mövqeyindən məhrum edilə bilməz, eləcə də biz ona qarşı güc işlətməyəcəyik və başqalarını da buna məcbur etməyəcəyik.

(40) Hüquq və ya ədaləti heç kəsə satmayacaq, rədd cavabı verməyəcək və təxirə salmayacağıq.

(41) Bütün tacirlər sağ-salamat və qorxusuz İngiltərəyə gedib-gələ, ticarət məqsədilə qədim və qanuni rüsumlara uyğun, qanunsuz vergilərdən azad şəkildə quru, su yolları ilə ölkədə səyahət edə və ya burada yaşaya bilərlər.

Fəqət bu, müharibə dövrünə, bizimlə vuruşan ölkələrin tacirlərinə aid deyil. Biz və ya baş hakimimiz bizimlə vuruşan ölkədəki tacirlərimizlə necə rəftar edildiyini müəyyənləşdirənə kimi hər belə tacir onun şəxsiyyətinə və mülkiyyətinə ziyan toxunmadan müharibənin başlanğıcında tutulub saxlanılmalıdır. Tacirlərimiz sağ-salamatdırlarsa, onlara da xətər toxunmamalıdır...
* * *

5. İNGİLTƏRƏDƏ ÖZÜNÜİFADƏ AZADLIĞI UĞRUNDA MÜBARİZƏ

## Con Milton

Cəmiyyət və dövlətdən çəkinməyərək öz fikrini ifadə etmək hüququ — özünüifadə azadlığı, ümumi fikrə görə, insan haqlarının ən mühümü və vətəndaşın dövlətin idarə olunması və ona nəzarət edilməsində həqiqi iştirakının əsasıdır. “Özünüifadə azadlığı” anlayışı tarixən vicdan və dini fəaliyyət azadlığı, söz və mətbuat azadlığı, sərbəst toplaşmaq və hökumətə şikayət və tələblərlə müraciət etmək hüququnu ehtiva etmişdir.

Yadfikirliliyin təqib olunması dünyanın özü qədər qədim tarixə malikdir. Sokrat, Nəsimi, Tomas Mor, Qalileo Qaliley və minlərcə digər intellektual öz fikirlərini azad şəkildə ifadə etməyə cəhd göstərdiklərinə görə hər şeyə qadir olan cəmiyyət, yaxud dövlət tərəfindən cəzalandırılmışlar. 16-cı əsrdən başlayaraq kitab çapının sürətlə inkişafı ilə bağlı 1637-ci ildə İngiltərədə kral hökuməti mətbuatda ilkin senzura qoydu. Elə həmin ildə ingilis yazıçısı Uilyam Prinn müəllifi olduğu kitaba görə ömürlük həbs cəzasına məhkum edildi. Onun günahı bu kitabda “kraliçaya böhtan atmaqdan” ibarət idi. Əlavə cəza kimi onun hətta qulaqlarını da kəsdilər.

Özünüifadə azadlığı uğrunda fəal mübarizə İngiltərə inqilabı dövründə (17-ci əsr) başlanmışdır. Bu vaxt mübarizəyə həm dini və siyasi xadimlər, həm də elm və incəsənət nümayəndələri qoşulmuşlar. Bu mübarizədə ingilis şairi Con Milton (1608—1674) da fəal iştirak etmişdir. Con Milton bu gün İngiltərədə Vilyam Şekspirdən sonra ikinci böyük şair hesab olunur. O, bizdə “İtirilmiş cənnət” poeması ilə məşhurdur. Con Miltonun ictimai və siyasi fəaliyyəti haqqında məlumatımız daha azdır. O, bütün dünyada insan haqları uğrunda mübarizəyə qalxmış ən məşhur incəsənət nümayəndəsi kimi tanınır.

Parlamenti böyük inamla müdafiə edən Milton İngiltərə inqilabının, demokratiya və mənəvi yeniləşmə uğrunda hərəkatın intellektual liderlərindən birinə çevrilmişdi. O, çoxsaylı esse və pamfletlərində kralın yaratdığı yepiskop kilsəsinə qarşı çıxır, vicdan və söz azadlığını, boşanma hüququnu, təhsildə demokratik islahatları müdafiə edirdi.

Milton öz tərəfdarları ilə birlikdə kral hakimiyyətinin 1637-ci ildə qoyduğu ilkin senzuraya qarşı müvəffəqiyyətlə mübarizə aparırdı. 1640-cı il inqilabı kral senzurasını ləğv edir. Lakin ölkədə hakimiyyət parlamentin ixtiyarına keçdikdən sonra Milton parlamentin qərarları ilə 1641, 1642 və 1643-cü illərdə senzuranın bərpa edilməsindən dəhşətə gəlir. Senzura qaydalarını pozanlar ciddi cəzalara — cəriməyə və hətta həbsə məruz qalırdılar.

1644-cü ildə Milton parlament qarşısında çıxışı ilə öz silahdaşlarını ölkədə yeni repressiya rejimi yaratmaqdan çəkindirməyə çalışdı, onları bununla bağlı təhlükədən xəbərdar etdi. Milton bildirdi ki, senzura cəmiyyətin inkişafına zərər gətirir, daha çox isə o, azad, yaradıcı insanın ləyaqətini təhqir edir, çünki belə insanlar üçün onların yaradıcılığına nəzarət etməkdən də artıq təhqir yoxdur. Milton senzorları “kitab qatilləri” adlandırır, hər bir kitabın qətlə yetirilməsini isə bütöv bir dünyanın məhv edilməsinə bərabər tuturdu. İnsanın hərəkətlərinə bu alçaldıcı nəzarəti rədd edən Milton böyük əminliklə bildirirdi ki, əgər insanlara istənilən problemi azad müzakirə və tədqiq etmək imkanı verilərsə, həqiqət istənilən halda özünə yol tapacaqdır.

Miltonun nitqi onun silahdaşlarına təsir etmədi. İlkin senzura özünüifadə azadlığı tərəfdarlarının təzyiqi ilə yalnız şairin ölümündən 20 il sonra — 1694-cü ildə ləğv olundu. Lakin bundan sonra söz azadlığının təqib edilməsi məhkəmələr vasitəsilə davam etdirildi. On səkkizinci və on doqquzuncu əsr İngiltərəsində kim nə istəsə danışa bilərdi, lakin sonra buna görə məhkəmədə cavab verməli idi. O dövrdə Böyük Britaniyada Çexov və Tolstoyun bəzi kitabları “əxlaqi səbəblərə görə” qadağan edilmişdi...

Söz azadlığının müdafiəsi haqqında söylədiyi nitqində Milton bildirirdi ki, senzura insanın çoxsahəli mənəvi fəaliyyəti üzərində hətta texniki baxımdan da həyata keçirilə bilməz. Lakin o, burada yanılırdı — mətbuatda ilkin senzuranın şaxələnmiş sistemi tezliklə bütün mədəni dünyaya yayıldı və bir sıra ölkələrdə bu günə qədər qalmaqdadır.

CON MİLTON

# Areopagitica(1)(1644)

*Parlament qarşısında mətbuat azadlığı haqqında nitq*

> *...Mənə hər cür azadlıqlardan əvvəl bilmək,*
> *danışmaq və öz məsləkimə uyğun olaraq*
> *sərbəst fikir yürütmək azadlığı verin...*

...Əslinə qalsa, bu barədə gərək mən özüm danışmayaydım, lakin əminəm ki, əgər burada hamı öz ölkəsini azad görmək naminə sidq ürəkdən birləşmişsə, məni də heç kəs məzəmmət etməz; o zaman mənim fərz olunan nitqim

azadlıq töhfəsi olmasa da, hər halda, həqiqətin səsi olar. Biz ölkədə heç vaxt heç bir çətinliyin ola bilməyəcəyi bir azadlıq arzusunda deyilik: bunu heç kəs arzulaya bilməz; lakin narazılıqlar azad surətdə dinlənilib, diqqətlə nəzərdən keçirilib tez bir zamanda həll edilirsə, o zaman ağıllı adamın yalnız arzu edə biləcəyi vətəndaş azadlığının son həddi əldə edilmiş olar. Elə mənim bu cür danışmaq imkanımın olmasından bu nəticəyə gəlirəm ki, biz artıq həmin vəziyyətə xeyli yaxınlaşmışıq...

Lordlar və icmalar, siz özünüzə xas olan ehtiyatkarlıqla ağıllı məsləhətə qulaq assanız və bu məsləhətin haradan qulağınıza çatmasından asılı olmayaraq ona əməl etsəniz və sonra özünüzün təyin etdiyiniz qanunu, eləcə də sələflərinizin qoyduqları qanunu eyni həvəslə ləğv etsəniz, onlardan üstün olduğunuzu tam sübuta yetirmiş olarsınız.

Mən sizdəki bu qətiyyəti etiraf etməklə (bunu etiraf etməməksə sizin üçün təhqir olardı) sizin özünüzdə gördüyünüz ədalətə olan məhəbbəti və özünüzə qarşı tərəfgir olmağa qoymayan mühakimənizin aliliyini bir daha nümayiş etdirmək imkanını sizə göstərmək cəsarətində bulunuram: bunun üçün sizin kitab çapı üzərində nəzarət haqqında qəbul etdiyiniz qanunu bir daha müzakirə etməyiniz kifayətdir; həmin qanuna görə, *"heç bir kitab, broşüra, yaxud vərəqə bu iş üçün xüsusi təyin edilmiş şəxslər, yaxud heç olmasa bu cür şəxs tərəfindən irəlicədən yoxlanılıb təqdir edilməyənəcən çapa verilə bilməz"*. Mən bu qanunun hər kəsin öz əlyazmasına sahibolma hüququnu ədalətlə müəyyən edən və yoxsullar haqqında qayğıya aid olan hissəsinə toxunmuram — yalnız heç bir xüsusi şəxsi təhqir etməyən namuslu və zəhmətsevər insanların təqib olunması ehtimalını istisna etmək istəyirəm...

Kitablar cansız əşyalara tamamilə aid edilə bilməz: onlarda həyat gücü var və bu güc həmin kitabları yaratmış ruhun özü kimi təzahür və hərəkət edir; bu kitablarda hətta bundan da artığı — sanki qabın içindəymiş kimi xalis mənbə — başlanğıc, onları yaratmış canlı zəkanın cövhəri bulunur. Mən yaxşı bilirəm ki, onlar mifologiyada danışılan əjdahanın dişləri kimi davamlı və bərəkətlidir: bu toxumlardan asanlıqla silahlı adamlar cücərə bilər. Lakin digər tərəfdən, kifayət qədər ehtiyatla hərəkət etməmək üzündən yaxşı kitabı öldürmək yaxşı adamı öldürmək kimi bir şeydir; insanı öldürən kəs Tanrı mislində olan şüurlu canlını öldürmüş olur; yaxşı kitabı məhv edən şəxs isə Tanrının doğruçu, həqiqi mislində olan zəkanın özünü öldürmüş olur...

...Beləliklə, əgər bu dünyada eybin dərki və müşahidəsi həqiqi ləyaqətə yetmək, yolunu azmanın öyrənilməsi isə insanın həqiqətdə möhkəmlənməsi üçün bu qədər zəruridirsə, günah və yalan anlayışı ilə tanış olmaq üçün hər cür kitabı oxumaqdan və hər cür mülahizəni dinləməkdən yaxşı və təhlükəsiz nə ola bilər? Hərtərəfli oxunuşun bizə verdiyi əsas üstünlük də elə bundan ibarətdir...

Böyük hörmətə (yeri gəlmişkən, ən az da öz "Dövlət"inə görə) layiq olan Platon qanunlar haqqında kitabında (bu qanunlar heç vaxt heç bir cəmiyyətdə qəbul edilməmişdi) öz fantaziyasını xəyali hökmdarların müxtəlif cür fərmanları ilə məşğul edir. Lakin ona başqa cəhətdən pərəstiş edənlər də istərdilər ki, bütün bunlar yaddan çıxarılsın və olsa-olsa, akademiya alimlərinin axşam iclaslarında söylənilsin. Bu qanunlara görə, o, yalnız praktiki etiqadlar (bunların tərtibi üçün hətta onun qısaca dialoqları da artıqlıq edərdi) əsasında tərtib edilən şərtsiz nizamnamələrin yol verdiyi bilikləri məqbul sayır. O hətta istəyir ki, hakimlər və qanunvericilər şairin əsərini oxuyub bəyənməyənəcən onun bu əsəri başqa xüsusi şəxsə oxumaq hüququ olmasın; buradan da açıq-aşkar aydın olur ki, Platon bu cür qanunları yalnız və yalnız öz xəyali respublikası üçün tərtib edir. Belə ki, o heç özünün də əməl etmək istəməyəcəyi qanunlar uydurur...

Əgər biz mətbuatda məlum qayda-qanun yaratmaq istəyiriksə, bütün başqa insan zövqlərini və əyləncələrini də həmin məlum qayda-qanunlara tabe etdirməliyik. Əgər onlar ciddi və təntənəli deyilsə, heç bir musiqili pyes ifadə edilməməli, heç bir mahnı oxunmamalıdır. Beləcə, rəqsləri də nəzarət altında saxlanılmalıdır ki, cavanlar bəyənilməmiş hansısa jesti, hərəkəti və ya hansısa ünsiyyət vasitəsini öyrənə bilməsinlər; Platon gərək mütləq bunların da qayğısına qalaydı. Azı iyirmi senzorun gərgin zəhməti gərəkdir ki, hər bir evdəki bütün lyutnyalar, skripkalar və gitaralar öyrənilib təhqiq edilsin; əslinə qalsa, o zaman bu alətləri dinc buraxmaq da olmaz: bu alətlərdə çalınması mümkün olanları xəlvətcə dinləmək gərəkdir...

Bəs hər iki cinsdən olan gənclərin söhbətlərini kim izləyəcək? Kim qayda qoyacaqdır ki, nəyi danışmaq olar, nəyi yox? Nəhayət, kef məclislərinin yığışmasını kim qadağan edəcək və buna yol verməyəcək? Bütün bunlar mütləq və labüd şəkildə mövcud olmalıdır və hər bir ağlı başında olan hökumətin əsl müdrikliyi məhz bundadır ki, bunları mümkün qədər azziyanlı və azəxlaqsız etsin.

Bu həyatı tərk edərək heç bir işə yaramayan utopik və xəyalpərvər ideyalar aləminə qapılmaq hələ mövcud vəziyyəti düzəltmək demək deyildir; Tanrının bizə qoyduğu bu şər aləminin içində hərəkət etməyi bacarmaq lazımdır...

Məsələn, bir çoxları İlahi Qüvvəni Adəmə qadağanı pozmağa imkan verdiyinə görə məzəmmət edirlər. Ey axmaqlar! Axı Tanrı ona ağıl və deməli, seçmək azadlığı vermişdi, belə ki, ağıl seçmək bacarığından başqa şey deyildir; əks halda, Adəm adicə maşın olardı. Heç biz özümüz də məcburiyyət nəticəsi olan itaəti, yaxud məhəbbəti və ya qurbanları sevmirik. Məhz buna görə Allah onu tamah doğuran şeyin qarşısında qoyaraq ona sərbəstlik vermişdir. Adəmin xidməti — öz nəfsini saxladığına görə mükafat və alqış qazanmaq hüququ məhz bundan ibarət idi...

Bunu başa düşmək daha yaxşı olar ki, hərəkəti təyinlərə tabe olmayan, xeyir və şər mənbələrə eyni dərəcədə təsir göstərən şeyə yol verməməyə can atan qanun mütləq zərərli və zorakı olacaqdır. Əgər mənim seçmək imkanım olsaydı, həmişə şərin yayılmasına qarşı zorakı maneələrin qat-qat olduğunu dərk etməkdənsə xeyir işlərin lap cüzi bir hissəsiylə qarşılaşmağı üstün tutardım. Əlbəttə ki, Allah üçün on əxlaqsızın öz nəfsini saxlamasındansa bir ləyaqətli adamın uğurlu fəaliyyəti daha vacibdir. Və əgər biz evdə olarkən, gəzərkən, səyahət edərkən, söhbətləşərkən gördüklərimizi və eşitdiklərimizi həmişə əlimizin altında olan və yazılan kitabın gördüyü işi görən bir nəhəng səyyar kitab təsəvvür etsək, aydınlaşar ki, yalnız çap kitabına aid olan qadağa bu qanunu tamamilə əsassız edir. Məgər biz hər gün saray ədəbiyyatının parlamentə və cəmiyyətə qarşı yönəldilmiş və senzuraya baxmayaraq geniş yayımlanan həftəlik məhsullarını görmürükmü?..

Lordlar və icmalar, əgər siz bu qanunu faydasız saymırsınızsa, bir az da zəhmət çəkməli olacaqsınız: siz yolverilməz məzmunlu və artıq çapdan çıxıb satılmış bütün kitabları bircə-bircə nəzərdən keçirməlisiniz; siz hər kəsin oxuyan kimi nəyə icazə verildiyini və nəyə icazə verilmədiyini anlayacağı bütün kitabların siyahısını tərtib etməlisiniz və bundan əlavə, göstəriş verməlisiniz ki, təzə gətirilən bütün xarici kitablar baxılıb yoxlanmayanacan sekvestr(2) altında qalsın. Bu iş xeyli vaxt və sıralarına hər yetənin mənsub ola bilməyəcəyi çoxsaylı nəzarətçilər tələb edəcəkdir. Bundan əlavə, elə kitablar var ki, bir cəhətdən yaxşı və faydalı olduğu halda, digər cəhətdən ziyanlı və fəlakətli ola bilər; dövləti bu zərərdən qorumaq məqsədilə o kitablardan ziyanlı və pis şeyləri çıxarmaq üçün yenə xeyli miqdarda məmur lazım olacaqdır. Sonra əgər bu cür kitabların sayı artmağa başlasa, sizə qanunu ən çox pozan bütün çapçıların siyahısını tutmaq və bəlkə də onların şübhəli fəaliyyətini ümumiyyətlə qadağan etmək lazım gələcəkdir. Bir sözlə, göstərişlərinizin kəsərli olması üçün senzuranı Trident(3) və Seviliyanın(4) üsulu ilə büsbütün yenidən qurmaq lazımdır, lakin bilirəm ki, bu, sizin üçün dözülməz görünəcəkdir...

Əgər burada qarşıya xalqın əxlaqını yaxşılaşdırmaq məqsədi qoyulubsa, zəhmət çəkib İtaliyaya və İspaniyaya baxın: orada inkvizisiya kitablara divan tutmağa başlayandan bəri bu ölkələr daha yaxşı, daha nəcib, daha ağıllı və əxlaqlı olublarmı?..

Senzor idarəsinin heç bir fayda gətirmədiyini sübuta yetirdikdən sonra mən onun vurduğu ziyana keçmək istəyirəm ki, bu ziyan da, hər şeydən əvvəl, ondan ibarətdir ki, senzura elmə və elm adamlarına qarşı edilə biləcək ən ağır zorakılığın və təhqirin təmsilçisidir...

Bilin və agah olun ki, qəyyumsuz və nəzarətçisiz öz fikrini mətbuata tapşırmağa qabil olmadığını və bu zaman guya nəzarətsizlik səbəbindən küfr və əxlaqsızlığı yaya biləcəyini heç nəylə göstərməyən, elm sahəsində ad-san qazanmış şəxsin ağlına və namusuna bu qədər inamsızlıqla yanaşmaq azad və ziyalı şəxsin uğraya biləcəyi ən dəhşətli təhqir və ən dəhşətli ədalətsizlikdir...

Bəs fikir sarıdan zəngin müəllif senzuradan sonra — kitab artıq çapda ikən ora nəsə əlavə etmək istəsə necə olsun? Axı ən ehtiyatcıl yazıçılarda da belə hallar çox, bəzən hər əsərdə bir neçə dəfə olur. Çapçı senzura nüsxəsinə bir söz belə əlavə etməyə ürək eləmir; buna görə müəllif yenə öz "hakim"inin hüzuruna getməli olur ki, o, əlavələri də nəzərdən keçirsin. Və beləcə, müəllif senzoru işdən azad tapana qədər dönə-dönə onun yanına ayaq döyməli olur, bu vaxt çap işi dayanır ki, bu da bəzən artıq xərcə səbəb olur və ya müəllif ən parlaq fikirlərdən imtina edib kitabı yarımçıq şəkildə çap etdirməyə məcbur olur ki, bu da zəhmətsevər yazıçı üçün dünyada ən böyük dərd və əzab deməkdir.

Belə bir halda başqalarını öyrətmək üçün zəruri olan hansı nüfuz gücündən danışmaq olar? Müəllifin öyrətdiyi, ifadə etdiyi bütün şeylərin nəzarət altında olduğu, onun mühafizəkar senzorun düzəlişlərinə məruz qaldığı, yaxud bu senzorun ani əhval-ruhiyyəsindən asılı olaraq xoşuna gəlmədiyi şeyləri tamam poza və ya dəyişə biləcəyi bir vəziyyətdə müəllif özünü qələmə aldığı kitabın sahibi hesab edə bilərmi? (Bu isə çox zəruridir, çünki əks halda susmaq yaxşıdır)...

Hərgah, lordlar və icmalar, kimsə sizi senzuranın elmlə məşğul olan insanları güc və gümrahlıqdan məhrum etməsi barədəki fikirlərin guya ritorikadan başqa şey olmadığına və guya əsl həqiqətdə belə şeyin yoxluğuna inandırmağa çalışsa, mən bu cür inkvizisiya tiraniyasının fəaliyyət göstərdiyi ölkələrdə gördüklərimi və

eşitdiklərimi həvəslə sizə nağıl edə bilərəm. Mən bu maarifpərvər insanların arasında bulunmaq şərəfinə nail olarkən onlar fikir azadlığı ölkəsində (onlar İngiltərəni bu cür görürdülər) doğulduğum üçün mənə qibtə edir və elə hey ölkələrində elmin düşdüyü köləlik vəziyyətindən gileylənirdilər. İtalyan dühasının parıltısı artıq sönmüşdür və uzun illərdir ki, bu ölkədə təriflərlə və cəfəngiyatla dolu kitablardan savayı heç nə yaranmır. Elə o zaman mən qocaman Qalileyi axtarıb tapdım və görüşdüm — inkvizisiya onu həbsxanaya yalnız buna görə salmışdı ki, o, astronomiyanı fransisk və dominikan senzorlarından fərqli şəkildə görür və dərk edirdi. O zamanlar İngiltərənin prelatlar və yepiskoplar zülmündən boğulmasına baxmayaraq, mən başqa xalqların İngiltərədə azadlığın olması barədəki inamını ölkəmizin gələcək inkişafının rəhni kimi qəbul etdim.

O vaxtlar mən hələ ümid edə bilməzdim ki, artıq onun havasıyla ölkənin azadlığa doğru yolunda onun rəhbərləri olacaq və zamanın bütün qovğalarına baxmayaraq, dünyanın sonunacan xatirələri yaddaşlardan silinməyəcək ləyaqətli insanlar nəfəs alır. Bu azadlıq hərəkatı başlayanda heç ağlıma da gəlməzdi ki, bir vaxtlar başqa ölkələrdə inkvizisiya ilə bağlı maarifpərvər insanların dilindən eşitdiyim şikayətləri sonralar öz ölkəmin o cür elmli adamlarından eşitməli olacağam...

Yepiskopları təzəcə devirməyə başlayanda mətbuat hələ azad idi və bu azadlıq parlament tərəfindən idarə olunan xalqın fitri hüququ və imtiyazı, həqiqəti dərk etmək vasitəsi sayılırdı. İndi — yepiskopların öz səlahiyyətlərini itirdiyi və kilsələrdən qovulduğu bir vaxtda onların fəndləri yenə qüvvəyə minməyə başlayıb, elə bil bizim reformasiyamız ona görə əlləşib-vuruşurmuş ki, onların yerinə başqa adlar altında yenilərini əyləşdirsin; mətbuat azadlığı yenə hansısa iyirmi prelatdan ibarət komissiyanın zülmünə tabe olur, xalqın hüquqları pozulur, ən dəhşətlisi budur ki, elm öz azadlığını itirir və yenə öz köhnə boyunduruğu altına qayıtmalıdır və bütün bunlar parlamentin(5) fəaliyyət göstərdiyi bir vaxtda baş verir, halbuki ruhaniliklə mübarizə zamanı elə bu yaxınlarda irəli sürdükləri öz şəxsi arqumentləri parlamentdə oturanlara gərək xatırladaydı ki, bu qüvvə həmişə qarşısına qoyduğu məqsədin tam əksi olan nəticələrə gətirib çıxarır — təfriqələri aradan götürmək əvəzinə onları dərinləşdirir və onlara hörmət bəsləməyə məcbur edir! Vikont Sent-Alban deyir: “Zəkanın və istedadın təqib edilməsi onun əhəmiyyətini qaldırır və qadağan edilmiş hər cür kitab həqiqət qığılcımıdır və bu qığılcım onu tapdamaq istəyənlərin gözünə tez girir”...

İngiltərə lordları və icmaları! Məxsus olduğunuz və idarə etdiyiniz xalqa diqqət yetirin — bu, tənbəl və ağılsız millət deyil, diri, iti və bəsirətli ağlı olan millətdir; bu, ixtiralarda mahir, tədqiqatlarda çalışqan və güclü, insan qabiliyyətinin yüksələ bildiyi ali zirvələrə yetməyə qabil bir millətdir...

Biliklər əldə etməyə bu cür hazır və meylli olan xalqdan nə ummaq olar? Bu münbit və bərəkətli torpağa bütün xalqımızı alimlər, peyğəmbərlər, müdriklər və ləyaqətli ərənlər xalqına çevirmək üçün ağıllı və inamlı əkinçilərdən savayı nə lazım ola bilər? Biliyə can atanların çox olduğu yerlərdə düşünən, yazıb-pozan və çeşidli məsləklərə tapınanlar da çox olur, belə ki, insan məsləki fəaliyyətdə olan bilikdən başqa şey deyildir. Xəyali sekta və küfrlərdən ehtiyat etməklə biz Tanrının özü tərəfindən məmləkətimizə təlqin edilən bir şeyə — elmə və tərəqqiyə ciddi və fədakar cəhdə əngəl törətmiş oluruq...

İndi siz nə etmək fikrindəsiniz? Bu şəhərdə təzəcə cücərmiş və cücərməkdə davam edən elm və maarifin gələcək bəhərini məhv etməkmi? İyirmi inhisarçıdan ibarət oliqarxiyanı başımızın ağası etməkmi ki, beynimizi qidadan məhrum etsinlər və bizə öz arşınları ilə ölçdüklərindən artıq heç nə verməsinlər? İnanın mənə, lordlar və icmalar, xalqa bu cür zülm etməyi öyrədənlər sizi ona sürükləyirlər ki, özünüz özünüzün qəniminə çevriləsiniz.

Siz bizi məcbur edirsiniz ki, biz yenə nadan, vəhşi və kölə olaq, lakin bunun üçün siz əvvəlcə bizi bir vaxtlar zülmündən azad etdiyiniz kəslər kimi müstəbid və zalım olmalısınız, bu isə, ümidvaram ki, sizin üçün mümkün iş deyil. Sizin örnək olmuş şücaətiniz sayəsində ürəklərimiz nəcibləşmiş, beyinlərimiz böyük-böyük həqiqətlər axtarışına və qavrayışına yönəlmişdir və siz bütün bunları məhv edə bilməzsiniz, çünki bunun üçün siz əvvəlcə hələ qədimlərdə rədd edilmiş qanun — atanın öz övladını öldürməyə ixtiyarı olması qanununu bərpa etməlisiniz. Elə olsa bəs kimlər sizin ardıcıllarınız olacaq və sizin üçün yeni-yeni tərəfdarlar cəlb edəcək? Mən heç də müəyyən növ azadlıqların mövcudluğunu inkar etmirəm, lakin dünyada hər şeydən çox o hüququ sevirəm ki, şəxsi təhlükəsizliyimizə təminat verir. Bu mənada isə *mənə hər cür azadlıqlardan əvvəl bilmək, danışmaq və öz məsləkimə uyğun olaraq sərbəst fikir yürütmək azadlığı verin...*

Bir halda ki, hamı eyni cür düşünə bilmir, onda bu qopmuş hissələri zorakı şəkildə birləşdirməyə səy göstərməkdənsə bunlara səbr və dözümlə yanaşmaq, heç şübhəsiz ki, daha faydalı, daha ağıllı və xristian ruhuna daha çox yaraşan hərəkətdir...

Mən bilirəm ki, səhvlər yaxşı, həm də pis hökumətlərdə eyni dərəcədə mümkündür; onların hər hansı biri aldadıla bilər, ələlxüsus kitab çapı bir neçə adamın ixtiyarına verildikdə. Lakin möhtərəm lordlar və icmalar, səhvləri

həvəslə və vaxtında düzəltmək və əzəmət zirvəsində olarkən ürəkdən gələn məsləhətləri hörmətlə qəbul etmək sizin, lordlar və icmalar, yüksək ehtirama layiq fəaliyyətinizə tamamilə müvafiq şücaətdir və yalnız ən ləyaqətli və müdrik şəxslər üçün mümkün olan keyfiyyətdir.

---

1 Areopagitica — qədim Afinada Ali Məhkəmə (Areopag) qarşısında deyilən nitq.

2 Sekvestr — əmlakın həbsi.

3 İtaliyanın Trident şəhərində 1545-ci ildə katolik kilsəsinin qurultayı protestant məzhəbini və hər cür dini azadfikirliliyi lənətləyib küfr elan etmişdir.

4 İspaniyanın Seviliya şəhərində 15-ci əsrdə ən qəddar inkvizisiya tribunalları keçirilirdi.

5 1640-cı ildən əvvəl kral Birinci Karl parlamenti illərlə toplaşmağa qoymurdu.

## 6. İNGİLTƏRƏ İNQİLABI. LEVELLERLƏR

# Demokratiya və insan haqları uğrunda ilk kütləvi hərəkat

17-ci əsr İngiltərə inqilabı bəşəriyyətin həyatında Yeni Tarix dövrünü açır. Bu, feodal zülmündən qurtulma, kapitalist istehsalının inkişafı, insanların bərabərlik və azadlıqlarını bəyan etmiş liberalizm ideologiyasının çiçəklənməsi və mənəvi yeniləşmə uğrundakı kütləvi hərəkatlar dövrüdür. 17-ci əsr liberallarının, yalnız *vətəndaşların ümumi razılığı ilə fəaliyyət göstərməli olan dövlət haqqında və hakimiyyətin insan həyatına müdaxiləsini məhdudlaşdırmaq* barədəki ideyaları müxtəlif sənədlərdə — parlament aktlarında, üsyana qalxmış demokratların çağırışlarında, esse və pamfletlərdə hərtərəfli əksini tapmışdır. Yüz il sonra bu ideyalar liberalizm məfkurəsini əvvəlcə Avropaya, sonralar isə bütün dünyaya yaymış, Amerika və Fransa inqilablarına ruh və təkan vermişdir...

1625-ci ildə İngiltərə taxtına gənc və özündənrazı I Karl qalxdı. Az sonra kralın və onun əyanlarının özbaşınalığı ölkədə və parlamentdə ciddi narazılıqlar doğurdu. Lakin I Karl öz nazirlərini ayağa verməkdənsə parlamenti buraxmağı üstün tutdu. Fəqət parlamenti buraxmaqla kral vəsaitsiz qalmış oldu: ingilis azadlıq ənənələrinə sadiq qalan əhali *özünün parlamentdəki nümayəndələrinin razılığı olmadan vergiləri ödəməkdən boyun qaçırırdı.* Kral yenidən parlamenti yığmağa məcbur oldu, lakin deputatlar əvvəlki tək kralın sevimli naziri — dövlət işlərini başlı-başına buraxmış və dövlət vəsaitini dədə malı kimi öz bitib-tükənməyən əyləncələri yolunda səpələyən hersoq Bekingemin məhkəməyə verilməsini təkid etdilər.

Kral təzədən parlamenti buraxdı, lakin xalq yenə parlamentsiz vergi ödəməkdən imtina etdi və 1628-ci ildə parlament yenidən çağırıldı. Deputatlar kraldan *Magna Carta*-da müəyyən edilmiş və parlamentin razılığı olmadan vergi toplamağı krala qadağan edən parlament hüquqlarını və İngiltərə xalqının azadlıqlarını təsdiq edən "Hüquqlar haqqında müştərək ərizə"ni *(Petition of Rights)* qanuna mindirməyi tələb etdilər. Qəzəblənmiş kral növbəti dəfə parlamenti buraxdı və düz on bir il onu toplamadı. Ölkədə əsl terror başladı — vergi verməkdən boyunqaçırma, hakimiyyətin hər hansı şəkildə tənqidi, dövlət anqlikan kilsəsi ehkamlarından yayınma kral məhkəmələri tərəfindən qəddarcasına cəzalandırılırdı. Zülm və təqiblərdən yaxa qurtarmağa can atan on minlərlə dindar dissident-puritan — əsasən sənayeçi və ticarətçilər Amerikaya mühacirət etməyə məcbur oldular ki, bu da istehsalın kəskin azalmasına və kütləvi işsizliyə gətirib çıxardı. Lakin güclü təzyiq və irticaya baxmayaraq kral yenə də əhalini xəzinəyə kifayət qədər vəsait verməyə məcbur edə bilmədi. Xalqın narazılığı günü-gündən güclənir, repressiyalar və iqtisadi böhran ölkəni üsyan həddinə gətirib çıxarırdı.

1640-cı ildə şotland protestantlarının qiyamını boğmaqda aciz qalan I Karl yenidən parlamenti topladı — ona pul gərəkdi. Lakin toplaşmış parlament kralın bütün qeyri-qanuni fərmanlarını və vergilərini ləğv etdi, dövlət kilsəsi yepiskoplarını parlamentdən qovdu və kralın sevimli naziri Straffordun dara çəkilməsini tələb etdi. Kral üsyan hədəsi altında bu tələbləri qəbul etməyə məcbur oldu. Fəqət parlament bununla kifayətlənmədi, indi o, artıq kraldan nazirləri təyin etmək və vəzifəsindən götürmək, habelə kralın bütün hərəkətlərinə nəzarət etmək hüquqlarını, yəni *konstitusiyalı monarxiyanın* qurulmasını tələb etdi. Kral Londonu tərk etdi, varlı feodal və zadəganlardan ibarət qoşun yığmağa başladı.

Parlament də öz növbəsində Yeni Nümunə Ordusu *(New Model Army)* adlandırdığı qoşunu təşkil etdi. Parlament qoşunu tarixdə şəxsən krala, şəhər-dövlətə deyil, bütövlükdə millətə qulluq etməyə and içmiş ilk peşəkar ordu sayılır. Parlamentin lideri Oliver Kromvelin başçılıq etdiyi bu ordunun əsgərləri öz yüksək döyüş əzmkarlığı,

bəyan edilmiş ideyalara sədaqəti, sarsılmaz nizam-intizamı ilə seçilirdi. Yeni Nümunə Ordusu əsgərlərindən biri öz məktubunda yazırdı:

> "Briqadamız [kralı təqib edərək] şimala doğru uzun marşlarla hərəkət edir. Əsgərlər xüsusilə ayaqqabı və corab çatışmazlığından əziyyət çəkirlər, bizim heç birimiz bunları ala bilmirik, çünki əmək haqqı aylarla verilmir. Biz bunları yalnız soyğunçuluqla əldə edə bilərdik, lakin general-leytenantın [Kromvelin] ordusunda heç vaxt belə şeylər olmayıb və heç vaxt da olmayacaqdır; bundansa biz ayaqyalın getməyi üstün tutarıq, çoxlarımız elə bu cür də getməyə məcburdur...".

Bu, ölkənin azad vətəndaşlarının ordusu idi və bu ordu kralın və onun əshabələrinin hərbi dəstələrini məğlub etdi. 1649-cu ildə I Karl parlamentin qərarı ilə edam edildi, İngiltərədə respublika quruldu...

Yeni Nümunə Ordusunun əsgər və zabitləri arasında *levellerlər* (1) adını almış radikal demokratlar hərəkatı nümayəndələrinin ideyaları geniş şöhrət qazanmışdı. Levellerlər parlamentin ilkin — konstitusiyalı monarxiya qurulması planını rədd edirdilər, bu, Yeni Tarix dövründə xalq suverenliyi və monarxiyanın tamamilə aradan götürülməsi uğrunda mübarizə aparan ilk hərəkat idi. Levellerlər tarixdə birinci olaraq insan hüquqlarını dövlətin müdaxiləsindən qorumalı olan yazılı Konstitusiyanın qəbul olunmasını tələb edirdilər; bu, bizim insan hüquqları haqqındakı bugünkü təsəvvürümüzə uyğun şəkildə, yəni bu hüquqların toxunulmaz və ayrılmaz olması uğrunda mübarizə aparan ilk kütləvi hərəkat idi. Levellerlərin liderləri — Con Lilbern, Riçard Overton, Uilyam Uolvin, Con Uildman hələ inqilabdan əvvəl mübarizəyə başlayaraq öz əsər və çağırışlarında bizim bu gün əziz tutduğumuz şəxsi və siyasi hüquqları: *məhkəmədə öz əleyhinə şəhadətlik etməmək hüququ (insanın dini mənsubiyyətinin aşkar edilməsi üçün işgəncələr verilməsi təcrübədə geniş yayılmışdı); söz və din azadlığı; əmək və ticarət azadlığı, inhisarların ləğvi; qanun qarşısında bərabərlik; öz ölkəsini parlamentdəki nümayəndələri vasitəsilə idarə etmək hüququ; İngiltərənin bütün azad doğulmuş kişilərinin seçki hüququ və müstəbid hökumətə qarşı üsyan etmək hüququ* uğrunda mübarizə aparırdılar. Levellerlərin liderləri bütün bu tələbləri İngiltərənin yeni Konstitusiyası sayılan "Xalq sazişi"ndə (Agreement of the People) (1647) əks etdirmişdilər. Levellerlərin alaylarda əksəriyyət təşkil edən tərəfdarları — əsgərlər bu sənədə az qala sitayiş edir və onun mətni yazılmış vərəqələri öz şlyapalarına sancaqlayırdılar.

Levellerlər hərəkatı cəmi dörd il (1645–1649) sürdü və onların tələblərini həddindən artıq radikal hesab edən parlament tərəfindən 1649-cu ildə yatırıldı. Lakin yüz ildən bir qədər çox müddətdən sonra "Xalq sazişi" müddəalarındakı ideyalar ABŞ-ın İstiqlaliyyət Bəyannaməsi və Konstitusiyasında öz əksini tapmış oldu.

Levellerlərin mətnləriylə tanış olarkən bu yazıların dilinin nə qədər müasir olduğuna istər-istəməz heyran qalırsan! Levellerlərin pamflet və çağırışları apaydındır və 350 il bundan əvvəl uzaq İngiltərədə deyil, sanki bu gün, elə buradaca yazılıbmış kimi bizi həyəcan və riqqətə gətirir:

> *"Ser, mən azad doğulmuş ingilisəm, deməli, alihəzrət lordlara kölə və ya nökər olmağa yaramıram вvə alihəzrətlərin şəhadətlik tribunasına yaltaqcasına, barmaqların ucunda qaçmaq mənim üçün anadangəlmə hüquqlarıma xəyanət etmək kimi bir şey olardı"* (Con Lilbernin 1646-cı ildə qarşısında ifadə verməkdən imtina etdiyinə görə parlament tərəfindən salındığı Nyugeyt həbsxanasının nəzarətçisinə yazdığı məktubdan).

> *"Əgər bu dörd yüz il ərzində minlərcə insan Maqna Carta-nın köməyi ilə əldə edilmiş hüquqlar uğrunda öz qanını, təhlükəsizliyini, həyatını qurban verməsəydi, bu sənəd çoxdan bəri adi bir perqament parçasına çevrilərdi"* (Uilyam Uolvill).

> *"Biz bu dünyaya Allah-təalanın mübarək əliylə göndərilmişik və hər birimizə doğuluş anından azad olmaq və mülkiyyət hüququ verilmişdir (bu sözlər sanki insan qəlblərinə nəqş edilmişdir ki, heç vaxt pozula bilməsin)... Və hər kəs öz təbiəti etibarilə özü üçün həm Hakim, həm Keşiş, həm də Peyğəmbərdir və heç kəs onun öz şəxsi razılığı olmadan onun üzərində bu hüquqlara yiyələnə bilməz"* (Riçard Overton)...

Levellerlər həm mütləqiyyətlə, həm də levellerlərin təbliğ etdikləri azadlıq və seçki hüquqlarının anarxiyaya gətirib çıxaracağından ehtiyatlanan parlamentin mühafizəkar üzvləriylə mübarizə aparmalı olurdular. Təhsilli adamların aludə olduqları Platon və Aristotelin "səyləri" nəticəsində *demokratiya* sözü elə nüfuzdan düşmüşdü ki, levellerlər özləri haqqında demokratiya tərəfdarları kimi deyil, siyasi bərabərliyin tərəfdarları kimi danışırdılar. 1646-cı ildə Yeni Nümunə Ordusunun zərbələri altında kral hakimiyyəti dağıldıqca ölkədə yeni diktatura — parlament diktaturası bərqərar olurdu. İnqilabın təntənəsi naminə öz həyatlarını qurban verən əsgərlər ölkədə yenidən senzuranın tətbiqi, parlamentin vahid anqlikan kilsəsinin əvəzinə ölkədə vahid presviterian kilsəsini bərqərar etmək cəhdləri haqqında xəbərləri hiddətlə qarşıladılar. Ən alçaldıcı isə bu idi ki, parlament qələbə üçün canlarından keçən əsgərləri hökuməti seçmək hüququndan məhrum etmək istəyirdi.

27 oktyabr 1647-ci ildə levellerlərin tərəfdarları və ordu rəhbərliyinin nümayəndələri — parlamentin tərəfdarları (cəmi 20 nəfər) Londonun Patni qəsəbəsində levellerlərin irəli sürdükləri “Xalq sazişi”ni müzakirə etməyə kiçik bir kilsəyə toplaşdılar. Yığıncağın katibi Uilyam Klarkın qələmə aldığı Patnidəki mübahisələr mahiyyətcə ölkənin gələcək siyasi quruluşunun, İngiltərənin yeni Konstitusiyasının müzakirəsi idi. Mübahisələrin gedişində əslən zadəgan olan leveller polkovnik Reynboro ilə general-komissar Ayrton (Kromvelin kürəkəni) arasındakı kəskin və parlaq polemika bizə artıq çoxdan tanış olan, hələ qədim Afinada Perikl və Platonun apardıqları mübahisələrin bir növ davamı — azadlıq və onun hədləri, hamı üçün bərabərlik, yaxud “yalnız buna layiq olanlar” üçün bərabərlik haqqındakı qədimdən də qədim mübahisələr idi.

UİLYAM KLARK

# Patni mübahisələri (1647)

*...İngiltərədə ən kasıb bəndə belə qurulmasında iştirak etmədiyi hökumətə tabe olmağa əsla borclu deyildir...*

*...General-leytenant Kromvel:* Nitqlərinizin ahəngində mən bizə qarşı açıq-aşkar bir hikkə və acıq duyuram. Bunu hələ dünənki iclas zamanı hiss eləmişdim. Sizə elə gəlir ki, guya biz köhnə idarə üsullarına elə aludəyik ki, hətta bu barədə bizimlə söhbət etmək belə faydasızdır, sazişdən isə heç danışmağa dəyməz. Sizi inandırıram ki, bu belə deyil. Mən təklif olunmuş layihədə səmərəli və faydalı çox şey görürəm. Mən inanıram ki, bu layihəni yazanlar bizim əlləşib-vuruşduğumuza — ictimai xeyirə nail olmağa can atıblar. Lakin xalqımızın beyni və ürəyi təklif olunan bu dəyişiklikləri qəbul etməyə hazırdırmı?

*...General-komissar Ayrton:* Gəlin təklif olunmuş layihənin bəndləri barədə danışaq, belə ki, biz bu yöndə fikir yürütdükcə bütün bu məsələlər də aşkar olub aydınlaşar. Katibdən xahiş edək birinci bəndi oxusun.

*Katib Klark (oxuyur):* “İngiltərə xalqı hazırda öz nümayəndələrinin parlamentə seçilməsi üçün qraflıqlar, şəhərlər və qəsəbələr arasında son dərəcə qeyri-bərabər bölüşdürülüb; sakinlərin sayına mütənasib olan yeni bölgü aparılması gərəkdir”.

*Ayrton:* Mənim etirazım “İngiltərə xalqı” ifadəsinə aiddir. Sənəddə bu sözlər altında kimlər nəzərdə tutulub? Axı hər yetənə “sakin” kimi baxıla bilər; bilmək istərdim: bu o deməkdirmi ki, parlament seçkiləri zamanı hər bir kəsə səs vermək üçün bərabər hüquqlar veriləcəkdir?

*Sıravi Pitti:* Bəli. Biz belə bilirik ki, öz anadangəlmə hüquqlarını itirməmiş hər bir ingilisin seçkilərdə səs vermək üçün bərabər hüquqları olmalıdır.

*Ayrton:* İngiltərə torpağında doğulmuş hər bir kəsin? Yalnız burada doğulduğuna görə?

*Polkovnik Reynboro:* Məncə, İngiltərədə kasıbın birisinin də ən mənsəbli adam kimi öz həyatını yaşamaq haqqı var; buna görə, ser, mənə gün kimi aydındır ki, hansısa hökumətin iqtidarı altında yaşayan hər bir kəs ən əvvəl bu hökumətə tabe olmağa öz razılığını verməlidir və mən əminəm ki, İngiltərədə ən kasıb bəndə belə qurulmasında iştirak etmədiyi hökumətə tabe olmağa əsla borclu deyildir və mən bunun əleyhinə olan dəlilləri eşidəndə belə hesab edirəm ki, bu dəlillər hər şeydən əvvəl inandırıcı olmalıdır; elə inandırıcı olmalıdır ki, məndə artıq heç bir şübhə qalmasın ki, buna şəkk gətirən adam ingilisdir, ya başqa millətdəndir.

*Ayrton:* ...Mənsə düşünürəm ki, bu, heç də [hamı üçün] hüquq deyildir. Mənə belə gəlir ki, bizim krallıqda təsbit edilmiş daimi marağı olmayan adamın krallığın işlərində iştirak etmək və bizi hansı qanunların idarə edəcəyini müəyyənləşdirən şəxsləri seçmək hüququ olmamalıdır. Yalnız bizim krallığın əldə olan hər hansı real və uzunmüddətli maraqlarını ifadə edən şəxslər birlikdə krallığı təmsil edə və müvafiq surətdə krallığın nümayəndələrini seçə bilərlər. Və mən əminəm ki, heç kəs bizə izah edə bilməz ki, nə üçün aramızda peyda olan və ya hələ peyda olacaq, yaxud özbaşına və ya başqa yolla, yaxud da ən azı bizim razılığımızla burada məskən salacaq əcnəbilər — nə üçün onlar da qalanlarının (ölkədə daimi marağı olmayanların) tələb etdiklərini tələb edə bilməzlər? Biz burada anadangəlmə hüquqlardan danışırıq. Həqiqətən də, bir çox tələblər məhz anadangəlmə hüquqlara əsaslanır. İnsanlar haqlı olaraq, anadangəlmə hüquqa görə, İngiltərədə doğulduqlarına görə ən müxtəlif hüquqlara malik ola bilərlər və biz onları İngiltərədən qova bilmərik. Biz onların hava, su, torpaq hüquqlarını, ictimai yollardan istifadə etmək azadlığını və digər şeylərə olan hüquqlarını, bizim aramızda yaşamaq hüquqlarını əllərindən ala bilmərik, ancaq bütün bunlar burada doğulanların heç biri üçün krallığın işlərində daimi maraq yaratmır.

Mən əminəm ki, əgər biz krallığın dövlət quruluşunun əzəli mahiyyətini təşkil edən şeyə, onun ən vacib və fundamental prinsipinə (elə bir prinsipinə ki, onun ləğvi ilə ölkədə daha heç kəsin nə torpağı, nə var-dövləti, nə də hər hansı bir mülki marağı olar) müraciət etsək, o zaman bunun aşağıdakından ibarət olduğunu görərik: o kəslər ki dövlətin və krallığın idarə olunacağı qanunları yaratmaq üçün öz nümayəndələrini seçirlər, onlar birlikdə götürüldükdə bu krallığın maddi nemətlərini təmsil edirlər, yəni bu torpaq da, bu sənaye də onlara məxsusdur. Bu krallığın dövlət əsasını elə məhz bu adamlar təşkil edirlər və əgər siz onu qadağan etsəniz, qalan bütün şeyləri də qadağan etmiş olarsınız. Belə qurum seçim hüququnu məhdudlaşdırır və onu yalnız bu adamlara verir...

*Reynboro:* ...Mənim üçünsə qətiyyən fərqi yoxdur: kraldır, ya kral deyil, lorddur, ya lord deyil, mülkiyyəti var, ya heç bir mülkiyyəti yoxdur və məncə, əgər bizim hamımız üçün bunun heç bir əhəmiyyəti yoxdursa, onda biz bütün bunlara bacardıqca tez son qoymalıyıq... Mülkiyyətə gəldikdə isə, mən bəzilərinin bunu necə ələ keçirdiklərini yaxşı bilirəm...

Mən burada İngiltərədə doğulan hər bir kəsin parlamentə seçkilər zamanı nə üçün səs vermək hüququ olmadığını mənə izah eləyə bilən elə bir fikir eşitmədim. Burada deyildi ki, əgər insanın daimi mənafeyi yoxdursa, o, heç nə tələb eləyə bilməz; burada iddia edildi ki, guya biz qanunun izn verdiyindən çox azad ola bilmərik və guya indiyəcən yer üzündə elə bir qanun olmayıb ki, hazırda bizim azad olduğumuzdan daha çox azad olmağa imkan vermiş olsun. Dünən bu barədə nəsə deyirdilər. Ancaq mənim fikrimcə, Allah-təala insanlara ona görə ağıl verib ki, bu ağıldan Allahın onların qarşısında qoyduğu məqsəd və vəzifələr üçün istifadə eləsinlər. Məncə, əgər insan acdırsa, kömbənin yarısı heç olmamasından yaxşıdır. Allah-təalanın neməti — ağıl başqa bir mal-mülk olmadıqda öz-özlüyündə bəlkə də kimin üçünsə dəyərsiz bir şey kimi görünər, lakin, fikrimcə, Allahın insana bəxş etdiklərinin içində ağıl yeganə nemətdir ki, onu heç kəs heç kəsdən qəsb edə bilməz. Buna görə deyirəm: qoy bu, Allahın qanunu, ya insanın qoyduğu qanun olsun, fərqi yoxdur, ancaq o, krallıqda yaşayan insanların ən kasıbına da krallığın ən şöhrətli sakininə verdiyi qədər imkanlar verməlidir. Mən Allah-təalanın qanunlarında elə bir göstəriş görmədim ki, lord [parlamentə] iyirmi nümayəndə göndərə bilər, centlmen(2) iki, yoxsul isə heç birisini; belə bir şey nə təbii qanunlarda var, nə millətlərin qanununda. Lakin mən görürəm ki, ingilis qanunlarına bütün ingilislər tabe olmalıdır və əminəm, heç kəs inkar edə bilməz ki, qanunları təyin etmək hüququ bütövlükdə bütün xalqa məxsusdur və bir halda ki, o, bütövlükdə bütün xalqa məxsusdur, mən bütün xalqa hüquq bərabərliyi verilməsi üçün vuruşacağam...

---

1 Levellers (ingil.) — bərabərçilər, bərabər hüquqların tərəfdarları.
2 Centlmen — orta əsrlər İngiltərəsində zadəgan, xırda mülkədar.

## 7. İNGİLTƏRƏDƏ KONSTİTUSİYALI MONARXİYANIN BƏRQƏRAR OLMASI VƏ SEÇKİ HÜQUQUNUN GENİŞLƏNMƏSİ

İngiltərədə 1649-cu ildə bərqərar olan və lord-protektor Oliver Kromvelin başçılıq etdiyi respublika uzun müddət qala bilmir. Kromvelin hərbi diktaturası mahiyyətcə kral hakimiyyətindən az fərqlənirdi. Kromvel doqquz illik hakimiyyəti dövründə üç dəfə parlamenti qovmuş və son olaraq bütün hakimiyyəti öz əlinə almışdı. 1658-ci ildə Kromvel öldükdən sonra hakimiyyət onun oğluna keçir, lakin o, bu cür qarışıq vaxtda dövləti idarə edə bilmir.

İki ildən sonra parlament edam edilmiş kral I Karlın oğlunu taxt-taca dəvət etmək qərarına gəlir. Xalq kralı sevinclə qarşılayır. Kral zəbt edilmiş torpaqları öz əvvəlki sahiblərinə qaytarmağı əmr edir, vahid anqlikan kilsəsini bərpa və protestant sektalarını qadağan edir. Lakin inqilab ölkəni dəyişmişdi və onu köhnə qaydalarla idarə etmək mümkün deyildi. Parlament kralın onu buraxmasına imkan verməmək məqsədilə kralın xərcləri üçün hər il parlament tərəfindən pul vəsaitinin müəyyən olunması haqqında qərar qəbul edir, kral nazirlərinin fəaliyyətinə nəzarət etmək hüququ müəyyənləşdirir və kralın hər hansı fərman verməməsinə nəzarət edir, belə ki, ölkədə qanunları yalnız parlament qəbul etməli idi. Parlamentdə “torilər” (kralın tərəfdarları) və “viqlər”in (parlamentin üstünlüyünü müdafiə edənlər) partiyaları yaranır. Onların arasında mübarizə 1679-cu ildə kəskinləşir, bu vaxt viqlər kraldan tələb etdilər ki, öz kiçik qardaşını katolik olduğuna görə varislik hüququndan məhrum etsin. II Karl bu tələbi yerinə yetirməkdən imtina edir və parlamenti buraxır. Bundan sonra parlament dörd il çağırılmır. Üsyan etmiş viqlər darmadağın edilir, onların liderləri edam olunur, yaxud mühacirət etməli olur.

1685-ci ildə II Karl ölür və onun oğlu II Yakov taxta çıxır. O, katolikliyə böyük rəğbət bəsləyirdi və Fransa kralı XIV Lüdovikin təsiri altında idi. II Yakov parlamentlə hesablaşmadan ölkəni idarə edirdi. Bu, üsyana səbəb olur, lakin üsyan kral tərəfindən amansızlıqla yatırılır, 200-dən çox adam edam olunur. Bu qələbədən məst olmuş kral parlament və əhalinin əhval-ruhiyyəsi ilə hesablaşmamaqda davam edir və “Dini dözümlülük haqqında bəyannamə” verir. Bu bəyannamə əhali tərəfindən İngiltərədə ən çox nifrət edilən katolikliyin bərpa olunması istiqamətində ilk addım kimi qəbul olunur. Torilər və viqlər birləşir və II Yakovu qovaraq onun qızı Mariyanı əri, holland mənşəli Oranlı Vilhelmlə birlikdə taxt-taca dəvət etmək qərarına gəlirlər. 1688-ci ildə Vilhelm İngiltərə sahillərinə çıxır, II Yakov isə öz vətənini tərk etməli olur. Parlament III Vilhelmi taxta çıxarır və 1689-cu ildə *Magna Carta* ruhunda tərtib edilmiş “Hüquqlar haqqında Qanun”u (*Bill of Rights*) ona təqdim edir. Bu sənəd parlamentin kral hakimiyyəti üzərində üstünlüyünü təsdiqləyir, beləliklə də ölkədə konstitusiyalı monarxiyanı bərqərar edir. Bundan sonra parlament qanunlar verməklə ölkəni idarə edir, kral isə “padşahlıq edir, lakin idarə etmir”. Bu hadisələr “Şanlı inqilab” adını alır və parlamentlə mütləqiyyət arasında təxminən yüzillik müharibəyə son qoyur. 1707-ci ildə, kraliça Annanın hakimiyyəti dövründə Şotlandiya, İngiltərə və Uels birləşir və vahid parlament formalaşır, bundan sonra krallıq Böyük Britaniya adlanır.

“Şanlı inqilab”dan sonra da parlament ölkənin bütün əhalisini təmsil etmirdi. Böyük Britaniyanı (təminatlı insan haqları baxımından) hələ nə demokratik, nə də azad ölkə adlandırmaq olardı.

Əhalinin yoxsul təbəqələri, eləcə də bəzi etnik azlıqlar və qadınlar səsvermə hüququndan və digər mühüm hüquqlardan məhrum idi. Maraqlıdır ki, məşhur iqtisadçı Adam Smit (1723 –1790) Edinburq Universitetinin professoru olsa da, səsvermə hüququna malik deyildi... 1876-cı ildə həyata keçirilmiş böyük seçki islahatı nəticəsində səsvermə hüququ olan şəxslərin sayı iki milyon nəfərədək artır. Böyük Britaniyada (ABŞ-da olduğu kimi) ümumi seçki hüququ uzun mübarizədən sonra yalnız bizim yüzilliyin 20-ci illərində tətbiq olunur. Böyük Britaniya qadınları seçki hüququna sonuncu olaraq nail olurlar (məhz nail olurlar, yuxarıdan almırlar).

Təqribən səkkiz əsr ərzində zadəganlar, varlı tacir və sənayeçilər, muzdlu fəhlə və qulluqçular, etnik və dini azlıqlar, qadınlar addım-addım öz hüquq və azadlıqlarını genişləndirirdilər. Belə bir cəmiyyətdə hər hansı bir qrupun və ya ayrıca fərdin tarixinə, həyat tərzinə çevrilmiş haqlarını məhdudlaşdırmağa cəhd göstərmək belə mümkün deyil.

Bizim üçün Konstitusiyamıza yazılmış hüquqlar uğrunda mübarizə yenicə başlayır və bu mübarizə nə asan, nə də qısamüddətli olacaq və qoy şəxsi və siyasi azadlıqlar uğrunda Britaniya mübarizlərinin inadkarlığı bizim üçün ilhamverici örnək olsun.

BILL OF RIGHTS

# Britaniya parlamentinin “Hüquqlar Haqqında Qanun”u (1689)

*Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların həyata keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur...*

...Bununla yuxarıda adı çəkilən dini və dünyəvi lordlar, eləcə də üçüncü zümrə nümayəndələri onların mövqeyini təsdiq edən məktublara və seçkilərin onlara verdiyi hüquqa uyğun olaraq burada millətin tam və azad nümayəndəliyində toplaşıb yuxarıda göstərilən məqsədlərə çatmaq üçün xeyirxah niyyətləri tam ciddiliklə nəzərə alaraq, ilk növbədə onların qədim hüquq və azadlıqlarının bərpası və müdafiəsi məqsədilə belə hərəkət edərək bəyan edirlər:

1. Parlamentin razılığı olmadan kral hakimiyyətinin qanunları və ya onların həyata keçirilməsini dayandırmaq hüququnu mənimsəməsi qanunsuzdur...

4. Parlamentin icazəsi olmadan müstəsna hüquq iddiası ilə taxt-tacın ehtiyacları və xərcləri üçün pul toplamaq qanunsuzdur...

5. Subyektin krala petisiya (müraciət) vermək hüququ var və buna qarşı olan bütün maneələr qanunsuzdur.

6. Sülh şəraitində parlamentdən icazəsiz krallıqda nizami ordu saxlamaq və onu gücləndirmək qanunsuzdur...

8. Parlament üzvlərinin seçkisi azad olmalıdır.

9. Parlamentdə nitq və fikir söyləmək azadlığı məhkəmədə və ya parlamentdənkənar hər hansı bir yerdə təqib oluna və töhmətləndirilə bilməz...

11. Andlılar lazımi qaydada tərtib olunub seçilməlidir və böyük xəyanət(1) haqqında məsələyə baxılarsa onlar əmlak yiyələri olmalıdırlar.

12. Məhkəmənin hökmü yoxdursa cərimələr qanunsuzdur.

13. Parlament bütün şikayətləri təmin etmək, qanunları qorumaq, möhkəmləndirmək və onlara dəyişikliklər etmək üçün tez-tez toplanmalıdır.

Və onlar təntənəli surətdə bildirir, tələb və təkid edirlər ki, yuxarıda sadalananlar hamıya və hər kəsə onların alınmaz hüquq və azadlıqları kimi şamil edilir; bu müddəalardan hər hansı birində insanlara ziyan gətirən çıxışlar, məhkəmə qərarları, hərəkət və əməllər nəticə kimi göstərilə vəya nümunə hesab oluna bilməz.

---

1 Dövlət cinayəti —*red.*

## 8. TOMAS HOBBS

## İctimai müqavilə haqqında

Filosof Tomas Hobbs (1588–1679) 17-ci əsr İngiltərəsində dramatik hadisələrin fəal iştirakçılarından olmuşdur. Monarxist olan Hobbs parlament tərəfdarlarından canını qurtararaq Fransaya mühacirət edib orada gənc II Karlın (edam edilmiş I Karlın oğlu) tərbiyəçisi olur. O, 1651-ci ildə vətənə qayıdır və Kromvelin respublikaçı hökuməti ilə barışır.

Hobbs özünün başlıca əsərlərində [“Fəlsəfənin əsasları” (1642); “Leviafan” (1651); “Begemot” (1668)] ictimai müqavilənin yeni nəzəriyyəsini irəli sürür. Bu yeni nəzəriyyə onun rədd etdiyi İngiltərə inqilabı hadisələrinin təhlili nəticəsində meydana gəlmişdi. Hobbsun həll etməyə çalışdığı başlıca məsələ vətəndaş iğtişaşlarının səbəbi və onların qarşısının alınmasından ibarət idi.

Hobbsa görə, insan anadan “təbii hüquqlar”ı (*Rights of Nature*) — tələbatlarının ödənilməsi haqları ilə doğulur. Onlara yaşamaq, başlıca həyat tələbatları, düşmən təcavüzündən qorunmaq haqları daxildir. Təbii haqlar vəhşi, cəmiyyətəqədərki tarixi dövr insanlarını səciyyələndirir, burada hələ nə qanun, nə də mülkiyyət — yalnız hər kəsin özünə lazım olan şeyləri qoparıb almaq haqqı var. İnsan özü özünə hakimlik edir. Və insan təbiəti etibarilə eqoist olduğuna görə hər kəs çalışır ki, daha çox şey ələ keçirsin, buradan da “hamının hamıya qarşı müharibəsi” başlayır.

Bu müharibənin qarşısını almaq məqsədilə insanlar öz aralarında öz təbii haqlarını, öz qeyri-məhdud azadlıqlarını hamılıqla könüllü məhdudlaşdırmaq haqqında razılığa gəlirlər. İnsanlar onları bir-birindən müdafiə etməli olan bir dövlət yaratmaq haqqında ictimai müqavilə bağlayırlar. Hobbs hər şeyə qadir olan dövləti Leviafanla — azman və hər şeyə qadir Bibliya əjdahası ilə eyniləşdirir. Dövlət tam suverenliyə — vətəndaşlar üzərində tam hakimiyyətə malikdir. Suveren qanuna tabe deyil, o, qanunları özü yaradır. Suveren yalnız Allah qarşısında məsuldur. Parlament də, aristokratiya da suveren rolunu oynaya bilər, lakin kral olsa, daha yaxşı olardı.

Hobbs vətənə dönəndə artıq I Karl edam olunmuş və ölkədə respublika qurulmuşdu. Bu yeni şəraitdə o öz nəzəriyyəsinə aşağıdakı müddəanı əlavə edir: əgər dövlət daha vətəndaşların təhlükəsizliyini təmin edə bilmirsə (yaxud özü tapdalayırsa), ictimai müqaviləni ləğv etmək olar.

Cəmiyyət içərisində yaşayan hər bir insan “təbii qanun”a *(Law of Nature)*, etik davranış normalarına tabe olmalıdır: insan mümkün olan qədər sülhə can atmalıdır; hər kəs başqalarını özünə bərabər hesab etməlidir; özünün şəxsi işində hakimlik etməməli, suverenin hakimliyini qəbul etməlidir; əsas qayda isə bizə yaxşı məlumdur: özünə rəva görmədiyini başqasına da görmə.

Hobbsun ideyalarını həm mütləqiyyətin, həm də demokratiyanın xeyrinə izah etmək olar. Məsələn, Hobbsun nəzəriyyəsinin belə bir müddəası monarxistlər partiyasının qəzəbinə səbəb oldu ki, dövlət vətəndaşların könüllü razılığı ilə yaradılır və hökmdar vətəndaşların təhlükəsizliyini təmin edə bilmirsə, hakimiyyətdən salına bilər.

Hobbsun ictimai müqaviləsi ədalətli ictimai quruluşa dair antik və orta əsr baxışları ilə müqayisədə irəliyə doğru böyük bir addım oldu və liberalizm nəzəriyyəsinin inkişafına təkan verdi.

TOMAS HOBBS

# Leviafan (1651)

*İnsanları... qorumağa qadir ola bilən... bu cür ümumi hakimiyyət yalnız bir yolla — məhz bütün hakimiyyətin və gücün bir adamın, yaxud... insan toplumunun əlində cəmləşdirilməsi ilə qurula bilər.*

### İNSANLARIN XOŞBƏXTLİYİNƏ VƏ BƏDBƏXTLİYİNƏ MÜNASİBƏTDƏ İNSAN NƏSLİNİN TƏBİİ DURUMU HAQQINDA

***İnsanlar yaranışdan bərabərdir.*** Təbiət insanları fiziki və əqli qabiliyyət baxımından bərabər yaratmışdır, çünki biz bəzən bir insanın başqasından fiziki cəhətdən güclü, yaxud ağıllı olduğunu görsək də, hər şeyi bütövlükdə nəzərdən keçirəndə görərik ki, onların arasındakı fərq elə böyük deyildir ki, bir insan bu fərqə əsaslanaraq özü üçün hər hansı bir nemət iddiasında olsun, başqası isə eyni haqla bunu tələb edə bilməsin. Fiziki gücə gəldikdə isə, daha zəif olanın kifayət qədər gücü vardır ki, gizli fırıldaqlar, yaxud eyni təhlükənin hədələdiyi digər insanlarla ittifaq yolu ilə daha güclü olanı öldürə bilsin.

Əqli qabiliyyətlərə gəlincə isə *(mən əsasında sözün durduğu incəsənəti, xüsusilə elm adlandırılan ümumi və sarsılmaz qaydalara yetmək incəsənətini bir kənara qoyuram — bu cür qaydalara çox adam, özü də çox az şeylə əlaqədar yiyələnib, çünki bu qaydalar bizimlə birgə doğulmuş fitri qabiliyyətlər deyil, bunlar həmçinin nəyinsə üzərində müşahidə prosesində qazanılmış ağıl, kamal kimi qabiliyyətlər də deyil)* mən bu sahədə fiziki güclə müqayisədə insanlar arasında daha çox bərabərlik görürəm. Belə ki, ağıllılıq yalnız bütün insanların eyni vaxt ərzində eyni səylə məşğul olduqları şeylər barədə eyni dərəcədə əldə etdikləri təcrübədir. Yəqin bu bərabərlik ona görə ağlasığmaz görünür ki, hər kəs bütün insanlara xas olan bir lovğalıqla öz şəxsi müdrikliyi haqqında xam xəyallara qapılaraq özünü "qara" camaatdan daha ağıllı bilir...

***Bərabərlik üzündən qarşılıqlı inamsızlıq doğur.*** Qabiliyyətlərin bərabərliyi üzündən məqsədəyetmə ümidlərinin bərabərliyi yaranır. Bax, buna görə iki nəfər eyni bir şeyi arzuladıqda və ikilikdə buna yiyələnə bilmədikdə bir-birinə düşmən kəsilir. Onlar məqsədəyetmə yolunda (bu, əsasən həyatı qoruyub saxlamaqdan, bəzən isə yalnız həzz almaqdan ibarət olur) bir-birlərini məhv etməyə çalışırlar. Belə çıxır ki, insan hücumun qarşısında təkbaşına qalanda, o əkmək, biçmək və qurmaqla, yaxud hər hansı bir ləyaqətli adın sahibi olmaqla yanaşı, əminliklə gözləyə bilər ki, başqa adamlar gələrək birləşmiş qüvvəylə onun mülkünü əlindən alacaq, onu nəinki öz əməyinin bəhrələrindən, həm də həyatdan, yaxud azadlıqdan məhrum edəcəklər. Hücum edən də özünü başqaları tərəfindən bu cür təhlükədə hiss edir.

***Qarşılıqlı inamsızlıqdan müharibə törəyir.*** Bu qarşılıqlı inamsızlıq üzündən insan üçün öz həyatının təhlükəsizliyini təmin etməyin ən ağıllı üsulu ehtiyat tədbirləri görmək, yəni gücün, yaxud hiylənin köməyi ilə bacara bildiklərinin hamısını etməkdir... Bu tədbirlər özünüqoruma çərçivəsindən kənara çıxmır və buna görə adətən yolverilən sayılır...

Beləliklə, biz insan təbiətində müharibənin üç əsas səbəbini tapmış oluruq: birincisi rəqabət; ikincisi inamsızlıq və üçüncüsü şöhrət yanğısı. Birinci səbəb insanları qazanc, ikinci səbəb şəxsi təhlükəsizliyi təmin etmək məqsədilə, üçüncü səbəb isə şərəf mülahizələri üzündən bir-birlərinə hücum etməyə sövq edir...

***Ümumi hakimiyyət olmayan durumda hamının hamıya qarşı müharibəsi baş verir.*** Buradan göründüyü kimi, nə qədər ki, insanlar hamını qorxu içində saxlayan ümumi hakimiyyətdən məhrumdur, onlar elə müharibə durumundadır ki, hamı hamıya qarşı müharibə aparır. Çünki müharibə yalnız döyüş, yaxud hərbi əməliyyat deyildir, müharibə həm də elə zaman kəsiyidir ki, bu vaxtda mübarizə iradəsi döyüş yolu vasitəsilə öz aşkar təsirini göstərmiş olur. Buna görə müharibə anlayışına hava anlayışı kimi, zaman məfhumu da daxil edilməlidir. Rütubətli hava anlayışı yalnız bir-iki yağışdan yox, bir çox günlər ərzində bu yağışı fasiləsiz gözləməkdən ibarət olduğu kimi, müharibə anlayışı da yalnız gedən döyüşlərdən deyil, barışığa ümid olmadığı bütün vaxt ərzində müharibəyə aşkar canatmadan ibarətdir. Bütün qalan vaxt sülh deməkdir.

***Bu cür müharibənin əlverişsizliyi.*** Bax, buna görə hamının hamıyla düşmən olduğu müharibə dövrü üçün səciyyəvi olan hər şey insanların öz fiziki gücündən, fərasətindən savayı heç bir təhlükəsizlik təminatı olmadan yaşadıqları dövr üçün də səciyyəvidir. Belə bir vəziyyətdə zəhmətsevərliyə yer yoxdur, belə ki, heç kəsin öz zəhmətinin bəhrəsini görə biləcəyinə təminat yoxdur və buna görə də əkinçilik, gəmiçilik, dəniz ticarəti, rahat binalar yoxdur, nəqliyyat və böyük güc tələb edən şeylərin daşınma vasitələri yoxdur, yer səthini, zaman hesablanmasını öyrənən elmlər, peşələr, ədəbiyyat yoxdur, cəmiyyət yoxdur, ən pisi isə odur ki, bunların əvəzinə əbədi qorxu və zorakı ölümün daimi təhlükəsi var və insanın həyatı yalqız, yoxsul, qaranlıq, küt və çox qısadır...

Hər halda, qorxu təlqin edən ümumi hakimiyyət olmadıqda insan həyatının necə keçə biləcəyini əvvəllər dinc hökumətin rəhbərliyi altında yaşamış adamların adətən vətəndaş müharibəsi zamanı düşdükləri həyat tərzinin nümunəsindən də görmək olar...

## DÖVLƏTİN SƏBƏBLƏRİ, YARANIŞI VƏ TƏRİFİ HAQQINDA

Dövlətin məqsədi əsasən təhlükəsizliyi təmin etməkdir. İnsanlar (təbiətən azadlığı və başqaları üzərində ağalığı sevənlər) özlərini buxova salarkən (gördüyümüz kimi, dövlət daxilində yaşamaqla onlar buxova girmiş olurlar) onların son məqsədi, yaxud niyyəti özlərini qorumaq və bu zaman daha əlverişli həyat qurmaq qayğısıdır. Başqa sözlə desək, insanlar dövlət yaradarkən müharibənin fəlakətli vəziyyətindən xilas olmağa can atırlar və bu müharibə vəziyyəti onları qorxu içində və cəzalandırılmaq hədəsi altında saxlayan, sazişləri yerinə yetirməyə və təbii qanunlara əməl etməyə məcbur edən real hakimiyyətin olmadığı yerlərdə insanların təbii ehtiraslarının... zəruri nəticəsidir.

Həqiqətən də təbii qanunlar (ədalət, qərəzsizlik, təvazökarlıq, rəhmdillik və ümumiyyətlə, *başqalarının bizimlə necə davranmağını istəyiriksə, onlarla da o cür davranmaq*) bizi onlara əməl etməyə məcbur edən hər hansı qüvvə qarşısında qorxudan kənarda, özü-özlüyündə bizi qərəzli münasibətə, lovğalığa, qisas almağa və s. sürükləyən təbii ehtiraslara ziddir. Əldə qılınc olmadıqca hər hansı bir saziş insanı qoruya bilməyəcək quruca sözlərdir. Bax, buna görə də təbii qanunların olmasına baxmayaraq (o qanunlar ki, insan onlara istədikdə, özünə heç bir təhlükə yaranmadıqda əməl edir), hakimiyyət qurulmadıqda, yaxud insanların təhlükəsizliyini təmin etmək üçün kifayət qədər güclü dövlət olmadıqda hər bir fərd öz təhlükəsizliyini başqalarından qorumaq üçün öz fiziki gücündən və çevikliyindən istifadə edəcəkdir, yaxud o, tam qanuni şəkildə bunlardan istifadə edə bilər...

*Dövlətin (commonwealth) mənşəyi, dövlətin tərifi.* İnsanları yadelli basqınlarından və qarşılıqlı ədalətsizliklərdən qorumağa qadir olan və beləliklə, onların öz əlinin zəhməti və torpağın bəhrəsiylə dolana biləcəyi və rahatlıqla yaşaya biləcəyi bu cür ümumi hakimiyyət yalnız bir yolla — məhz bütün hakimiyyətin və gücün bir adamın, yaxud səs çoxluğuyla bütün vətəndaşların iradəsini bir vahid iradə halında toplaya biləcək insan toplumunun əlində cəmləşdirilməsi ilə qurula bilər.

Başqa cür desək, ümumi hakimiyyətin bərqərar olması üçün, insanların onların nümayəndəsi ola biləcək bir adamı, yaxud adamlar yığıncağını təyin etmələri gərəkdir; hər bir insanın ümumi sülhü və təhlükəsizliyini qorumaq məqsədilə ümumi şəxsin özünün etdiyi, yaxud başqalarını məcbur edəcəyi bütün işlərə münasibətdə özünü köməkçi sayması və buna görə özünü məsul hesab etməsi gərəkdir; *hər bir insanın öz iradəsini və fikirlərini ümumi şəxsin iradəsinə və fikirlərinə tabe etməsi gərəkdir*.

Bu, yekdillik və həmrəylikdən də çox şey deməkdir. Bu, saziş vasitəsilə bir vahid şəxsdə təcəssüm tapmış real vəhdətdir; hər bir insan bu sazişi digəriylə elə tərzdə bağlamış olur ki, sanki hər kəs digərinə demiş olur: bu adamı, yaxud bu yığıncağı özümə vəkil edirəm və özümün idarə etmək hüququmu ona verirəm, bir şərtlə ki, sən də öz hüququnu bu qaydayla verəsən və onun bütün hərəkətlərinə icazə vermiş olasan. Əgər bu baş veribsə, o zaman çoxlu insanın bu qaydayla bir şəxsdə birləşməsi dövlət (latınca — *civitas*) adlanır. Ölməz Allahın dərgahı altında öz dincliyimizə və müdafiəmizə görə borclu olduğumuz ulu Leviafanın, daha ehtiramla desək, fani Allahın doğuluşu belə baş verir. Çünki dövlət daxilində hər bir ayrıca insanın ona verdiyi səlahiyyətlər sayəsində göstərilən insan, yaxud insanlar yığıncağı onda cəmlənmiş elə böyük güc və hakimiyyət qazanır ki, onun doğurduğu qorxu bu insanı, yaxud bu insanlar yığıncağını bütün insanların iradəsini daxili barışığa və xarici düşmənlərin əleyhinə qarşılıqlı köməyə yönəltməyə qadir edir.

Mahiyyəti belə bir insandan, yaxud insanlar yığıncağından ibarət olan dövlətin aşağıdakı tərifə ehtiyacı vardır: *dövlət elə bir vahid şəxsdir ki, külli miqdarda insan qarşılıqlı müqavilə yolu ilə onun hərəkətlərinə görə özünü məsul hesab edir və bu şəxs onların hamısının gücündən və vəsaitindən dinc yaşamaları və ümumi müdafiələri üçün zəruri saydığı kimi istifadə edə bilir.*

Bu şəxsin daşıyıcısı Suveren adlanır və onun barəsində deyirlər ki, o, ali hakimiyyət sahibidir, başqa hər hansı şəxssə onun təbəəsidir...

*"Leviafan və ya dini və mülki dövlətin mahiyyəti, forması və hakimiyyəti" essesinin 13—18-ci fəsillərindən çıxarışlar*

1. Sülhü axtarmaq və ona riayət etmək gərəkdir. Amma özünü də bütün mümkün vasitələrlə müdafiə etməyə hazır olmalısan.

2. Başqa adamların razılığı olarsa, sülh və özünümüdafiənin maraqları üçün zəruri ölçüdə bütün şeylərə olan hüquqdan imtina etmək, başqa adamlara münasibətdə adamların özünə qarşı münasibətdə yol verdiyi qədər azadlığın dərəcəsi ilə qənaətlənmək lazımdır.

3. Adamlar bağladıqları müqavilələri yerinə yetirməlidir.

5. Hər bir adam başqalarına uyğunlaşmağı bacarmalıdır.

6. Gələcəyə münasibətdə təminatın mövcudluğu zamanı adam peşmanlıq hissi keçirən və barışmağı arzulayan şəxslərə keçmiş inciklikləri̇ni bağışlamalıdır.

7. Qisas alarkən (yəni pisliyə pisliklə cavab verərkən) törədilmiş pisliyin ölçüsü yox, qisasdan sonra yaranacaq xeyirin ölçüsü nəzərə alınmalıdır.

8. Heç bir adam başqasına ədavət və nifrətini iş, söz, mimika və ya jestlə bildirməməlidir.

9. Hər bir adam başqalarını özünə əzəldən bərabər hesab etməlidir.

10. Sülh müqaviləsinə girən adam başqasına verilməsinə razı olmadığı hüquqların ona verilməsini tələb etməməlidir...

12. Bölünməz əşyalardan, mümkünsə, birgə istifadə olunmalıdır. Həm də nəzərə alınmalıdır ki, əşyaların sayı buna imkan verirsə, birgə istifadə məhdudiyyətsiz, əks halda isə buna hüququ olanların sayına mütənasib surətdə olmalıdır.

13. Əşyaları bölmək, yaxud onlardan birgə istifadə etmək mümkün deyilsə, onlardan növbəli istifadə etmək və ya sahiblik hüququ püşklə müəyyənləşdirilməlidir.

15. Sülh məsələsində vasitəçi olan bütün adamlara toxunulmazlıq təminatı verilməlidir.

16. Mübahisə zamanı tərəflər öz hüquqlarını hakimin qərarına tabe etməlidirlər.

17. Öz şəxsi işində başqalarının maraqlarına toxunan kimsə ədalətli hakim ola bilməz.

18. Tərəflərdən hansınınsa qələbəsindən açıq-aşkar böyük fayda, şərəf, məmnunluq əldə edə biləcək şəxs hakim olmamalıdır.

19. Faktla bağlı mübahisədə hakim bir tərəfə başqasından, bir şahidə o biri şahiddən çox etibar edə bilməz və o vaxtacan yeni şahidlər dəvət etməlidir ki, onların verdiyi ifadə məsələnin həlli üçün kifayət olsun.

*20. Ümumi qayda:* Özünə rəva görmədiyini başqasına da görmə.

9. CON LOKK

## İctimai müqavilə haqqında

İngilis filosofu Con Lokk (1632–1704) haqlı olaraq liberal demokratiyanın atası hesab edilir. Hobbsun siyasi fəlsəfəsini Birinci İngiltərə inqilabının nəzəri təhlilinin nəticəsi kimi qiymətləndirmək olarsa, Lokka parlament quruluşunu bərqərar etmiş (1688–1689) ikinci, yaxud Şanlı İngiltərə inqilabının ideoloqu kimi baxılmalıdır.

Lokk orta səviyyəli protestant ailəsində doğulub. Atası əqidəli demokrat idi və Birinci İngiltərə inqilabında parlament tərəfində vuruşub. Lokk Oksfordda yaxşı təhsil alıb. Monarxiyanın bərpasından sonra II Karlın vaxtında diplomatik xidmətdə olub. Lakin o, həmişə Viqlər Partiyasına (Britaniyanın gələcək Liberal Partiyası) rəğbət bəsləmişdir. Bu partiya kral hakimiyyətinin məhdudlaşdırılmasının tərəfdarı idi. Viqlərin II Karla qarşı üsyanı amansızlıqla yatırılır və Lokk 1683-cü ildə Hollandiyaya qaçmalı olur. 1689-cu ildə Şanlı inqilabın qələbəsindən sonra Lokk yeni kral Oranlı Vilhemlə birlikdə vətənə dönərək təntənə ilə qarşılanır və tezliklə viqlərin qəbul etdiyi intellektual liderə çevrilir.

Lokk Hobbsdan fərqli olaraq, ictimai müqavilə nəzəriyyəsinin başqa bir istiqamətini yaratmışdır. O, bu nəzəriyyədən cəmiyyət tərəfindən mütləqiyyətin məhdudlaşdırılmasını əsaslandırmaq üçün istifadə edib, liberal demokratiya və konstitusiyaçılığın ilkin nəzəri şərtlərini yaradıb.

Lokkun başlıca əsəri üzərində on ildən artıq işlədiyi "İdarəetmə haqqında iki traktat" kitabıdır. Burada Lokk "təbii hüquq"un teoloji şərhinə qarşı çıxır. Bu şərhə əsasən, mütləqiyyətin sarsılmazlığı haqqında müddəa ortaya atılırdı. İnsanı eqoist varlıq hesab edən Hobbsdan fərqli olaraq, Maarifçilik dövrünün ideallarına sadiq olan Lokk inanırdı ki, insan xeyrin daha sərfəli olduğunu dərk etməyə qadirdir. Qorxu deyil, ağıl insanları dövlətdə birləşməyə məcbur edir. İnsanın "təbii vəziyyət"indən çıxaraq dövlətə verdiyi yeganə "təbii hüquq"u ümumi razılıqla qəbul olunmuş qanunlar əsasında öz vətəndaşını mühakimə etmək və cəzalandırmaq haqqıdır. Cəmiyyətdə insanların iradəsi ümumi razılıqla qəbul olunmuş qanunlardan başqa heç nə ilə əngəllənmir. Dövlət insanların həyatı, azadlığı və mülkiyyətini qorumalı, cəmiyyəti xarici təcavüzdən müdafiə etməlidir. Dövlət qanunlara əməl olunmasına nəzarət etməli və insanların mübahisələrinin həllində yalnız arbitr kimi xidmət etməlidir.

Lokka görə, suveren xalqın özüdür. Hətta xalqın özünün yaratdığı dövlət hakimiyyəti də, Hobbsun iddia etdiyi kimi, mütləq deyil, o, insan haqları ilə məhdudlaşdırılmalıdır. Və insan dövlətin zorakılığına şərtsiz müqavimət göstərmək haqqına malikdir. Aydındır ki, bu nəzəriyyə mütləqiyyətlə ideoloji mübarizənin əsasını təşkil etmişdir. Lokku hətta o da çəkindirmirdi ki, bu nəzəriyyə vətəndaş müharibəsinə aparır. Onun fikrincə, bu halda öz haqlarını müdafiə edənləri yox, vətəndaşların haqlarını tapdalayaraq bu müharibəni törədənləri suçlandırmaq lazımdır.

Lokkun dəqiq və başadüşülən şəkildə əsaslandırdığı klassik liberalizm prinsipləri tezliklə Qərbdə populyarlıq qazanır və yüz ildən sonra Amerika və Fransa inqilablarının əsas sənədlərində öz əksini tapır. Lokkun təsiri indi də zəifləmir. Onun formalaşdırdığı prinsiplər öz avtoritar keçmişindən yaxa qurtarmağa çalışan cəmiyyətlərdə siyasi fikrə xüsusilə güclü təsir göstərir.

CON LOKK

# İdarəçilik haqqında ikinci traktat (1690)

*Deməli, hər hansı saydakı insan cəmiyyət halında elə birləşəndə ki onlardan hər biri ona təbii qanunla verilmiş icraedici hakimiyyətdən imtina edir və onu cəmiyyətə verir, bu halda, yalnız bu halda siyasi, yaxud mülki cəmiyyət mövcud olur.*

## SİYASİ, YAXUD MÜLKİ CƏMİYYƏT HAQQINDA

...Artıq sübut edildiyi kimi, insan dünyanın hər hansı bir insanı kimi tam azad yaşamaq, təbii qanunun bütün hüquq və imtiyazlarından digər insanlar kimi eyni dərəcədə qeyri-məhdud bəhrələnmək hüququ ilə birgə doğulur və o, fitrətən öz mülkiyyətini, yəni öz həyatını, azadlığını, əmlakını digər insanların qəsd və hücumlarından yalnız qorumaq deyil, həm də başqaları bu qanunu pozduqda onları mühakimə etmək, onun fikrincə, həmin cinayətin layiq olduğu cəzanı vermək və əməlin rəzaləti buna layiq olduqda hətta ölümlə cəzalandırmaq hakimiyyətinə malikdir.

Siyasi cəmiyyətin özünün öz mülkiyyətini qorumaq və bu məqsədlə bütün üzvlərini cinayətlərə görə cəzalandırmaq hüququ olmasa o, mövcud olub yaşaya bilməz; belə cəmiyyət yalnız o yerdə ola bilər ki, orada onun üzvlərindən hər biri bu təbii hakimiyyətdən imtina edərək, onu (həmin üzvün bu cəmiyyətin təyin etdiyi qanundan müdafiə ummasına maneçilik törətməyən bütün hallarda) cəmiyyətin ixtiyarına vermiş olsun.

Və beləliklə, cəmiyyətin hər bir ayrıca üzvünün hər cür şəxsi məhkəməsi istisna olunur və cəmiyyət “münsiflər məhkəməsi”nə çevrilərək qərəzsiz və hamı üçün eyni qaydalar təyin edir və cəmiyyətdən səlahiyyətlər almış insanların köməyilə bu qaydaları həyata keçirir, bu cəmiyyətin hər hansı üzvləri arasında hər hansı hüquqi məsələ barədə yarana biləcək bütün ixtilafları həll edir, eyni zamanda bu cəmiyyətin hər hansı üzvünün cəmiyyətə qarşı cinayətini qanunun müəyyən etdiyi cəzalarla cəzalandırır.

Bunun nəticəsində siyasi cəmiyyətdə kimin bir yerdə olub-olmadığını asanca müəyyən etmək olur. Bir yumruq halında birləşənlər, öz ümumi qanunları, müraciət edə biləcəkləri və aralarındakı mübahisələri həll etmək və cinayətkarları cəzalandırmaq hakimiyyətinə malik məhkəmə iddiaları olanlar mülki cəmiyyətdə yaşayırlar; belə bir məhkəmələri olmayanlar isə (mən dünyanı nəzərdə tuturam) hələ də təbii vəziyyətdə yaşayırlar, elə bir vəziyyətdə ki, hər kəs başqa birisi olmadığından özü həm hakimdir, həm də cəllad, bu isə, artıq dediyim kimi, büsbütün təbii vəziyyətdir.

Beləliklə, dövlət bu cəmiyyətin üzvlərinin törətdiyi müxtəlif pozuntulara görə hansı cəzanın verilə biləcəyini və onların cəzaya layiq olduqlarını təyin etmək ixtiyarını qazanmış olur (bu, qanunverici hakimiyyət deməkdir), o, habelə onun üzvlərindən hər hansına bu cəmiyyətin üzvü olmayanlardan hər hansının vurduğu zərərə görə cəzalandırmaq ixtiyarına malikdir (bu, hərb və sülh məsələlərini həll etmək hakimiyyətidir) və bütün bunlar cəmiyyətin bütün üzvlərinin mülkiyyətini mümkün qədər qoruyub saxlamaq üçündür.

Lakin mülki cəmiyyətə daxil və deməli, hansısa dövlətin üzvü olmuş hər bir şəxs bununla təbii qanuna qarşı törədilən cinayətləri şəxsən cəzalandırmaqdan və öz şəxsi ədalət mühakiməsini həyata keçirməkdən imtina etmiş olsa da, hər halda, bununla o özünün qanunverici hakimiyyətə təhvil verdiyi cinayətlərə görə mühakimə hüququ ilə birgə dövlətə dövlət hökmlərinin icrası üçün onun gücündən buna ehtiyacı olduğu bütün hallarda istifadə hüququnu verib; axı bu hökmlər həm də onun öz hökmləridir, belə ki, bu hökmləri onun özü, yaxud onun nümayəndələri çıxarır.

Biz burada ilkin olaraq mülki cəmiyyətin qanunverici və icraedici hakimiyyətinin ilk əsası ilə rastlaşmış oluruq, bu hakimiyyət daimi qanunlar əsasında dövlət daxilində törədilən cinayətlərin hansı ölçüdə cəzalandırılacağını təyin etməli, habelə dövlətin bayırından vurulmuş zərərin hansı ölçüdə ödənilməsi barədə hər dəfə mövcud işin halları əsasında qərar qəbul etməli və hər iki halda tələb olunduğu zaman cəmiyyətin bütün üzvlərinin gücündən istifadə etməlidir.

Deməli, hər hansı saydakı insan cəmiyyət halında elə birləşəndə ki onlardan hər biri ona təbii qanunla verilmiş icraedici hakimiyyətdən imtina edir və onu cəmiyyətə verir, bu halda, yalnız bu halda siyasi, yaxud mülki cəmiyyət mövcud olur. Və bu o zaman baş verir ki, təbii vəziyyətdə yaşayan hər hansı saydakı insan cəmiyyətə daxil olur ki, ali hökumətin hakimiyyəti altında vahid xalq, siyasi vücud təşkil etsin, yaxud bu o zaman baş verir ki, hər hansı insan onlara qoşulur və artıq mövcud olan dövlətə daxil olur. Bununla o, cəmiyyəti, yaxud onun qanunverici hakimiyyətini (fərqi yoxdur) vəkil edir ki, onun üçün cəmiyyətin rifahının tələb etdiyi qanunları yaratsın; o, bu qanunların yerinə yetirilməsinə öz şəxsi qanunlarına kömək edirmiş kimi kömək göstərməlidir. Və bu, insanları təbii vəziyyətdən dövlətə köçürür, belə ki, yerdə bütün mübahisələri həll etmək və dövlətin hər hansı bir üzvünə vurula biləcək hər hansı zərəri ödəmək hakimiyyəti olan hakim peyda olur; bu hakim qanunverici hakimiyyət, yaxud onun təyin etdiyi vəzifəli şəxsdir. Əgər hər hansı bir saydakı insan, hətta bir-birləriylə bağlı olsalar da, onların müraciət edə biləcəkləri qərarlar qəbul edən bu cür hakimiyyətləri yoxdursa, deməli, bu halda onlar hələ də təbii vəziyyətdə qalmaqdadırlar.

Buradan da aydındır ki, çoxlarının dünyada yeganə idarəçilik forması hesab etdiyi mütləq monarxiya əslində mülki cəmiyyətlə bir araya sığmır və deməli, ümumiyyətlə, mülki idarəçilik forması ola bilməz. Axı mülki cəmiyyətin məqsədi hər insanın öz şəxsi işində hakim olmasından doğan təbii vəziyyətin labüd narahatlıqlarından yaxa qurtarmaq və bunların yerini doldurmaqdan ibarətdir. Bu, məlum hakimiyyət orqanının qurulması yolu ilə əldə edilir ki, cəmiyyətin hər üzvü hər hansı bir zərəri çəkdikdə, yaxud hər hansı bir mübahisə halında həmin orqana müraciət edə bilər və cəmiyyətin hər bir üzvü bu orqana tabe olmalıdır. O hallarda insanlar varsa, lakin onların öz aralarındakı ixtilafları həll etmək üçün müraciət edə biləcəkləri belə orqanları yoxdursa, deməli, bu insanlar hələ də təbii vəziyyətdə qalmaqdadırlar. Və hər bir hakimi-mütləq onun hakimiyyəti altında olanlara nisbətdə bu cür təbii vəziyyətdədir.

Axı belə güman olunur ki, o və yalnız o, mütləq hakimiyyətə — həm qanunverici, həm də icraedici hakimiyyətə malikdir, ondan başqa heç bir hakim yoxdur, elə adam yoxdur ki, kömək üçün ona müraciət edəsən və o, zəruri səlahiyyətləri olan şəxs kimi işi ədalətli və qərəzsiz şəkildə həll edə bilsin, onun çıxardığı qərarlardan kömək və hökmdarın ya özünün, ya da əmrinin vura biləcəyi hər hansı bir zərərin, yaxud pisliyin əvəzini ödəməyi ummaq

mümkün olsun. Və beləliklə, bu cür insan necə adlanmasından (çar, sahib, senyor, yaxud daha başqa cür) asılı olmayaraq o onun hakimiyyəti altında olanlarla nisbətdə necə təbii vəziyyətdədirsə, bütün qalan insanlıqla nisbətdə də eyni dərəcədə təbii vəziyyətdədir. Axı iki insanın daimi qaydaları, kimin haqlı olduğu barədəki mübahisələrini həll edəcək dünyada ümumi hakimləri yoxdursa, deməli, onlar hələ də təbii vəziyyətdədirlər və bunun bütün narahatlıqlarını duyurlar, təbəə üçün, daha düzgün desək, hakimi-mütləqin qulu üçün bir kədərli fərqlə ki, adi təbii vəziyyətdə o öz hüququ barədə danışmaq və onu var gücüylə qoruyub saxlamaq cəhdində tam azaddır; indi isə onun mülkiyyətinin taleyi hökmdarın iradəsindən və şıltağından asılı olduğundan, o nəinki heç yerə müraciət edə bilmir, həm də şüurlu varlıqların adi vəziyyətindən də bir pillə aşağıda durubmuş kimi öz hüququ barədə danışmaq və onu müdafiə etmək azadlığından məhrumdur;  beləliklə də o, heç nə ilə məhdudlaşmayan təbii vəziyyətdə yaşayan, üstəlik də təriflərlə və hakimiyyətlə pozulmuş adamdan gözlənilə biləcək hər cür fəlakət və narahatlıqlar qarşısında büsbütün acizdir.

Mütləq hakimiyyətin insanların qanını saflaşdırdığını və insan təbiətinin alçaqlığını islah etdiyini düşünən hər kəsin bizim, yaxud hər hansı dövrün tarixini oxuması kifayətdir ki, bunun əksinə əmin olsun. Amerika meşələrində azğın və ədalətsiz olanlar taxt-taca yiyələndikdən sonra çətin ki, bundan yaxşı ola biləydilər, əlbəttə, bu zaman elmi və dini köməyə çağıracaqlar ki, onun öz tələbləri barədə törətdiklərinə haqq qazandırsınlar, buna şübhə edənləri isə qılınc dərhal susmağa məcbur edəcəkdir. Mütləq monarxiyanın müdafiəsinin nələrə gətirib çıxardığını, hökmdarlardan necə millət atası düzəltdiyini və bu növ idarəçiliyin öz zirvəsinə çatdığı mülki cəmiyyəti necə bir “səadət və təhlükəsizliyə” yetirdiyini bilmək üçün Seylon haqqındakı yaxın zamanların hekayəsi ilə (Robert Noksun kitabı — *red.*) tanış olmaq kifayətdir.

Doğrudur, dünyada mövcud olan digər idarəçilik formalarında olduğu kimi, mütləq monarxiyada da təbəələrin qanuna müraciət hüququ var, hakimlər isə hər hansı mübahisələri həll etməklə təbəələr arasında baş verə biləcək hər hansı zorakılığın qarşısını ala bilər.

Hər kəs bu cür vəziyyəti zəruri hesab edir və inanır ki, bunu məhv etməyə çalışan şəxs cəmiyyətin və insanlığın qəddar düşmənidir və ağlı başında olan adam heç vaxt öz şəxsi hüququnun məsuliyyətini öz üzərinə götürməz və öz şəxsi qərarı ilə bu hüququ müdafiə etməz. Bir halda ki hər bir insan özünə, eləcə də sevdiyi adamlara münasibətdə tərəfgirliyə yol verir, umu-küsülərin və xoşagəlməz hadisələrin də sonu görünməyəcək. Əlbəttə, insanlar bir yerdə ümumi razılığa gəlib rəhbərlik üçün müəyyən adamları seçməsələr və hər şeyi bu seçilmiş adamlar həll etməsələr, onda onların razılığı olmadan bir adamın o birinin ağası, yaxud hakimi olmasına heç bir əsas qalmayacaq.

Lakin bu, insanlığa və cəmiyyətə olan əsl məhəbbətdən, bir-birimizə bəsləməyə borclu olduğumuz mərhəmət hissindənmi irəli gəlir? Buna inanmaq çətindir. Axı bu ona oxşayır ki, öz qüdrətini, öz mənfəətini, yaxud öz əzəmətini sevən hər bir insan özünün əylənməsi və mənfəəti naminə tər töküb can qoyan heyvanların bir-birinə ziyan vurmasına, yaxud bir-birini məhv etməsinə yol vermir və təbii ki, elə yol verməməlidir; bu heyvanların da qayğısına ağanın onları guya sevdiyinə görə deyil, başqa səbəbə — ağanın özünə olan məhəbbətinə və bu heyvanların ağaya verdiyi mənfəətə görə qalırlar.

Bircə soruşmaq qalır ki, bu cür vəziyyətdə bu mütləq hakimin zorakılığına və zülmünə qarşı hansı müdafiədən, hansı mühafizədən söhbət gedə bilər? Artıq bu sualın özü yolverilməz görünə bilər. Və onlar sizə cavab verməyə hazırdırlar ki, elə təhlükəsizlik barədəki xahişin özünə görə ölüm cəzası düşür. Və onlar razılaşacaqlar ki, təbəə ilə təbəə arasında qarşılıqlı barışıq və təhlükəsizlik naminə qaydalar, qanunlar və hakimlər olmalıdır. Lakin hökmdara aid bütün şeylərdə o, hakimi-mütləq olmalı, bütün hal və vəziyyətlərdən yüksəkdə durmalıdır; bir halda ki o, hamıdan çox ziyan vurmaq və hamıdan çox pislik eləmək imkanları və hüququna malikdir, deməк, o, bunları edəndə heç bir ədalətsizlik baş vermir. Siz soruşsanız ki, bu ən güclü əlin törətdiyi zərərdən necə qorunmaq olar, bunu sui-qəsd və qiyam səsi hesab edərlər. Belə çıxır ki, insanlar təbii vəziyyəti buraxıb cəmiyyətə daxil olduqda guya razılığa gəliblər ki, bir nəfərdən başqa hamı qanunlara əməl etməlidir və yalnız həmin o bir nəfər əvvəlki kimi təbii vəziyyətin hakimiyyətlə birgə böyüyüb pozğunluğa çevrilən bütün azadlıqlarını özündə saxlamalıdır. Bu ona oxşayır ki, guya insanlar o qədər axmaqdırlar ki, safsar, yaxud tülkülərin vurduğu ziyandan yaxa qurtarmağa çalışır, onları şirlər basıb yeyəndə isə bundan çox razı qalır və hətta özlərini təhlükəsizlikdə hiss edirlər...

*“İdarəçilik haqqında iki traktat”*

10. CON LOKK

## Vicdan azadlığı haqqında

İnsanın şəxsi əqidəyə (hətta yanlış olsa belə), təkrarsız daxili aləmə malik olmaq hüququnu dərk etməsi Qərbi Avropanın ictimai şüurunda dini reformasiya uğrunda kütləvi hərəkat dövründə yayılmağa başlamışdır. Burada çoxsaylı protestant cərəyanlarının və təriqətlərin meydana gəlməsi, təriqətçilərin öz əqidələrini inadkarlıqla müdafiə etməsi cəmiyyətdə dini dözümlülük ideyasının yaranmasına, vahid dövlət dininin tətbiqindən imtina edilməsinə səbəb oldu. Hələ Birinci İngiltərə inqilabının gedişində independent və leveller partiyaları əsas tələblərdən biri kimi etiqad azadlığını irəli sürürdülər.

Lokkun “Dini dözümlülük haqqında məktub”u demokratik ədəbiyyatın klassik əsərlərindən hesab olunur. İnsanın öz müqəddəratını təyin etməsinin tərəfdarı olan Lokk dini etiqad azadlığını dövlətin insanı məhrum edə bilməyəcəyi əsas “təbii hüquq”lardan biri kimi qəbul edirdi. Lokk “Dini dözümlülük haqqında məktub”u 1685-ci ildə Hollandiyada mühacirətdə olarkən yazmışdır. Məhz bu vaxt Fransa kralı XIV Lüdovik protestantlara dini etiqad azadlığı verən Nant Ediktini (1598) ləğv etmiş, bunun nəticəsində Fransanı 200 minə yaxın protestant tərk etmişdi. “Dini dözümlülük haqqında məktub” Şanlı İngiltərə inqilabının qələbəsindən və ingilis demokratlarının bir neçə nəslinin uğrunda uzun müddət mübarizə apardığı “Dini dözümlülük haqqında akt” qəbul olunandan sonra — 1698-ci ildə İngiltərədə dərc olunmuşdur. Lokk “Dini dözümlülük haqqında məktub”unda qızğınlıqla kilsənin dövlətdən ayrılması və dini etiqad azadlığı uğrunda çıxış edib. Lokkun fikrincə, bu azadlıq yalnız protestant təriqətlərinə aid olmalı və katoliklərə şamil edilməməli idi. İngiltərədə katoliklərin və yəhudilərin şəxsi və siyasi hüquqlarının məhdudlaşdırılması ondan sonra 150 il davam etmişdir.

CON LOKK

# Dini dözümlülük haqqında məktub (1685)

*Və qoy heç kəs xristianlığa bu qədər yad olan amansız təqibləri dövlətə qayğı və qanunların yerinə yetirilməsi adı altında gizlətməsin və əksinə, qoy heç kəs başqa dinə istinadla pərdələnərək özü üçün tam hərəkət azadlığı və cəzasızlıq mühiti yaratmağa çalışmasın...*

### *Remonstrantlar kollegiyasında ilahiyyat professoru, tiraniyanın düşməni, amsterdamlı cənab möhtərəm Limborxa sülhün dostu və zülmün düşməni ingilis Con Lokkdan*

Hörmətli cənab, xristianların qarşılıqlı dini dözümlülüyü haqqında mənim fikrimə dair sənin sualına qısa cavab verirəm: mən onu əsl kilsənin əsas meyarı sayıram... Əgər insanları od və qılıncla məlum ehkamlara etiqad etməyə və onları yad ibadətləri yerinə yetirməyə məcbur etmək lazım gəlirsə və bu zaman onların mənəviyyatı haqqında fikirləşilmirsə, əgər kimsə başqa dinə qulluq edənləri inanmadıqları şeyə etiqad etməyə məcbur edərək öz dininə döndərirsə, İncilin ona inanan xristianlara icazə vermədiyi şeyləri etməyə imkan yaradırsa, onda mən şübhə etmirəm ki, belə adam özünün etdiyinə etiqad bəsləyənlərdən ibarət böyük insan kütləsi əldə etməyə çalışır; lakin kim inanar ki, o, xristian kilsəsi yaratmaq istəyir?..

Və qoy heç kəs xristianlığa bu qədər yad olan amansız təqibləri dövlətə qayğı və qanunların yerinə yetirilməsi adı altında gizlətməsin və əksinə, qoy heç kəs başqa dinə istinadla pərdələnərək özü üçün tam hərəkət azadlığı və cəzasızlıq mühiti yaratmağa çalışmasın...

*Hər şeydən əvvəl, mən dövlət məsələləriylə dini məsələləri bir-birindən fərqləndirməyi, kilsə və dövlət arasında həddi lazımi dərəcədə müəyyənləşdirməyi vacib sayıram.* Əgər bu edilməsə, onda ruhun xilasını, yaxud dövlətin xeyrini özünə ya doğrudan da əziz sayan, ya da yalandan göstərən adamlar arasında mübahisələrə son qoymaq mümkün olmayacaqdır.

Dövlət, məncə, yalnız mülki nemətləri qorumaq və artırmaq üçün qurulmuş insanlar toplumudur.

Mülki nemətlər dedikdə mən həyat, azadlıq, bədən sağlamlığı və fiziki iztirabların olmamasını, torpaq, pul, avadanlıq və s. kimi zahiri şeylərə malik olmağı nəzərdə tuturam.

Bu gündəlik həyata məxsus olan şeylərə həm bütün xalqın, həm də hər bir vətəndaşın ayrılıqda hüququnun təmin edilməsi və tam qorunması hamı üçün mütləq olan qanunlara arxalanan mülki hökmdarın borcudur...

Hökmdarın bütün yurisdiksiyasının yalnız bu mülki nemətlərə şamil edilməsini... və heç bir halda ruhun xilasına şamil olunmaması və oluna bilməməsini, məncə, aşağıdakılar aydın göstərir:

*Birincisi*, ruhun xilası haqqında qayğı mülki hökmdara heç də başqalarından daha artıq aid deyildir. Allah bunu ona tapşırmamışdır, çünki heç yerdə deyilmir ki, Allah insanlara başqalarını zorla yad dinə döndərmək hüququ vermişdir. Və adamlar da hökmdara bu cür hakimiyyət verə bilməzlər, çünki o, təbəənin əbədi xilas qayğısına bu dərəcədə laqeyd qala bilməz ki, istər hökmdarın, istərsə məsləhət bildiyi sitayişi, ya dini müti şəkildə qəbul etsin. *Çünki heç kəs başqasının göstərişi ilə (hətta istəsə belə) inana bilməz, axı əsl və xilasedici dinin gücü və mənası məhz etiqaddadır.*

*İkincisi*, ruh haqqında qayğı mülki hökmdara aid edilə bilməz, çünki onun bütün hakimiyyəti məcburiyyətə əsaslanır. Əsl və xilasedici din isə ruhun dərin daxili inamından ibarətdir, onsuz Allahın gözündə heç nə güclü deyildir; insan ağlının təbiəti elədir ki, heç bir xarici qüvvə onu nəyəsə məcbur edə bilməz.

Lakin sən deyə bilərsən ki, hökmdar ağlın dəlillərindən istifadə edə və bununla da başqa dinə inananları həqiqətə tərəf döndərə və onları xilas edə bilər. Qoy belə olsun, ancaq o burada digərlərindən heç nə ilə fərqlənmir: əgər o, nəsihət verməyə, yol göstərməyə və ağlın dəlilləri ilə azmışları həqiqət yoluna dəvət etməyə başlasa, hər bir vicdanlı adamın etməli olduğunu edəcəkdir...

*Üçüncüsü*, ruhun xilas edilməsi haqqında qayğı heç bir halda mülki hökmdara aid ola bilməz, əgər razılaşsaq da ki, qanunların nüfuzu və cəzanın gücü ağlın döndərilməsinə yardım edərək kəsərli ola bilərdi, hətta bu da ruhun xilas edilməsinə yardımçı ola bilməzdi. Çünki əgər yalnız dinlərdən biri həqiqidirsə, yalnız bir yol əbədi xoşbəxt-liyə aparırsa, onda adamlara yalnız bir imkan verilirsə, ümid varmı ki, haqq yoluna daha çox adam gələcəkdir: *ağlın və vicdanın tələblərinin əksinə olaraq hökmdarın inandığı təlimə kor-koranə riayət etmək və yalnız əcdadların göstərdiyi qaydada Allaha sitayiş etmək haqdırmı?..*

İndi baxaq görək kilsə nə deməkdir? Mənə görə, kilsə insanların azad birliyidir. Onlar könüllü birləşiblər ki, birlikdə, öz əqidələrinə görə düzgün yolla Allaha sitayiş etsinlər. Onlar əmindirlər ki, bu yola onları Allah gətirib və ruhlarının xilas olmasına yardım edəcəkdir.

Mən təkrar edirəm ki, bu, azad və könüllü birlikdir. *Heç kəs hansısa kilsənin üzvü kimi doğulmur*, yoxsa dədə-babaların inamı torpaq mülkiyyəti ilə birlikdə varislik hüququ əsasında keçərdi və *hər kəs inamına görə öz doğumuna borclu olardı; bundan cəfəng şey düşünmək mümkün deyil.* İş belədir. Əvvəldən heç bir kilsəyə, heç bir sektaya bağlanmamış insan könüllü olaraq elə birliyə qoşulur ki, orada Allaha xoş gələn, əsl dini və ayinləri tapdığına inanır. Onun orada tapdığı xilasa ümid kilsəyə daxil olması üçün yeganə səbəbdir, insanın orada qalıb-qalmaması da məhz bu ümidlə müəyyənləşdirilir. Əgər o, birdən təlimdə nə isə yanlışlıq, yaxud ayinlərdə uyğunsuzluq aşkar edərsə, onda mütləq elə hüquqa malik olmalıdır ki, oraya sərbəst daxil olduğu kimi, istənilən vaxt da sərbəst çıxa bilsin...

İndi də araşdırmalıyıq ki, kilsənin hakimiyyəti nədir və o, hansı qanunlara tabedir?

Madam ki heç bir birlik (nə qədər azad olsa da)... qanunlara söykənməsə dərhal dağılar və yox olar, onda kilsənin də öz qanunları olmalıdır ki, yığıncaqların yerinə və keçirilməsi vaxtına dair müəyyən qayda gözlənilsin, qəbul və xaric etmək üçün şərtlər, nəhayət, bütün vəzifələr, onların yerinə yetirilməsi qaydaları və s. müəyyən edilsin. Bu birlik könüllüdür və deyildiyi kimi, hər hansı zor və məcburiyyətdən azaddır, buradan belə nəticə çıxır ki, qanunların yaradılması hüququ birlikdən başqa heç kəsə verilə bilməz, yaxud başqa yol olmadıqda birlik bunu ümumi razılıqla kiməsə tapşıra bilər...

Dini birliyin məqsədi, artıq deyildiyi kimi, Allaha birlikdə sitayiş etməkdən və bunun müqabilində əbədi həyat əldə etməkdən ibarətdir. Buna görə də bütün təlim məhz bununla kifayətlənməli, kilsə qanunları bu çərçivələrdə fəaliyyət göstərməlidir. Bu birlikdə heç vaxt mülki nemətlərin, bəşəri nemətlərin əldə olunmasından söhbət

getmir və gedə də bilməz; burada heç vaxt heç bir səbəblə bağlı bütövlükdə mülki hökmdarın səlahiyyətinə daxil olan zor tətbiq edilməməlidir...

Sən deyə bilərsən ki, əgər heç bir məcburiyyət yoxdursa, kilsə qanunlarının təsir qüvvəsini hansı sanksiya təmin edə bilər? Cavab verirəm: elə şeylər ki, əgər onlar ürəyin dərinliklərində özünə yer eləməyibsə və vicdanla tam razılığa gəlməyibsə, onda formal sitayişin və hörmətin heç bir əhəmiyyəti yoxdur, bu isə o deməkdir ki, yola-gətirmə, tövsiyə, məsləhət, öyüd — bu birliyin üzvlərini öz borcları çərçivəsində saxlamalı olan silah budur. Əgər bu vasitələr günahkarları islah etməsə və yanılanları haqq yoluna qaytarmasa, inadkarlıq edənləri və müqavimət göstərənləri, düzəlmək ümidi olmayanları birlikdən xaric edib qovmaqdan başqa bir şey qalmır. Bu, hər hansı digər cəza tədbirinə malik olmayan kilsə hakimiyyəti zorakılığının yüksək və ifrat ifadəsidir, bundan başqa, kəsilmiş bədən üzvünün bədənlə əlaqəsi qırıldığı kimi, haqqında hökm çıxarılmış adam da daha bu kilsənin bir hissəsi deyildir.

Bunu müəyyən edərək sonra baxaq görək dini dözümlülük qarşısında hər kəs hansı öhdəlikləri daşıyır.

*Birincisi*, mən bildirirəm ki, heç bir kilsə, dini dözümlülük prinsipi əsasında öyüdlərə baxmayaraq, daim birliyin qanunlarını pozan bir adamı öz qoynunda saxlamağa borclu deyildir; çünki əgər kiməsə cəzasızlıq şəraitində qanunları pozmaq imkanı verilsə, onda birlik məhv olacaqdır, ona görə ki, bu qanunlar birləşməni şərtləndirən, həm də bərkidən yeganə amildir. Lakin imkan verilməməlidir ki, kilsədən qovulma haqqında qərar təhqiredici sözlər, yaxud zor hərəkətləri ilə müşayiət olunsun...

*İkincisi,* heç bir şəxs başqasının mülki nemətlərinə yalnız onun istəmədiyi din və ayinlərdən imtina etdiyinə görə heç bir halda təcavüz etməməli, yaxud ona ziyan vurmamalıdır. Bu adamın bütün insani və mülki hüquqları müqəddəscəsinə gözlənilməlidir, çünki onların dinə dəxli yoxdur — xristian, yaxud bütpərəst olmasından asılı olmayaraq heç bir zora və qanunsuzluğa yol verilməməlidir. Xeyirxahlıq və insanpərvərlik borcu hüquqi yanaşmadan da üstün olmalıdır. Bunu İncil buyurur, bunu ağıl və bəşəriyyət arasında təbiət tərəfindən bərqərar edilmiş ittifaq tələb edir. Əgər kimsə haqq yolundan çəkilirsə, bu, yalnız onun özünün bədbəxtliyidir, sənin üçün isə heç bir zərər yetirə bilməz; buradan da o, sənin tərəfindən təhqirlərə məruz qalmamalıdır, yalnız sənin onun gələcək həyatının puçluğuna inandığına görə bu dünyanın nemətlərindən məhrum olmamalıdır.

Din məsələlərində bir-biriylə razılaşmayan fərdlərin qarşılıqlı dini dözümlülüyü haqqında dediklərimi ayrı-ayrı kilsələr haqqında da demək istəyirəm. Bu kilsələr bir-birinə münasibətdə müəyyən mənada fərdi şəxslərdir və *onlardan heç biri (hətta, məsələn, mülki hökmdarın bu kilsəyə deyil, digərinə aid olduğu halda da) digərinə münasibətdə heç bir üstün hüquqa malik* deyildir...

Bunu nümunə ilə göstərmək üçün, tutalım, Konstantinopolda iki kilsə mövcuddur: biri remonstrantlara(1), digəri antiremonstrantlara(2) məxsusdur. Kimsə deyə bilərmi ki, onlardan biri digərlərini onunla razılaşmadıqlarına, başqa təlimə və ayinlərə riayət etdiklərinə görə (başqa yerlərdə gördüyümüz kimi) azadlıqdan məhrum, yaxud əmlakını əlindən ala, sürgün edə, yaxud ölümlə cəzalandıra bilər? Türk isə xristianların bir-birini necə amansızlıqla və qəddarcasına qırdıqlarına kənardan baxaraq sakitcə gülümsəyərdi. Əgər bu kilsələrdən birinin digərini təqib etmək üçün hakimiyyəti varsa, onda soruşmaq istəyirəm ki, ikisindən hansı biri və hansı haqla? Əlbəttə, mənə cavab verəcəklər ki, ortodokslar azmışlara, yəni dönüklərə qarşı. Ancaq bu təmtəraqlı və gözəl sözlər əslində heç nə demək deyildir. İstənilən kilsə özü üçün ortodoksal, başqaları üçün dönükdür, ona görə ki, hər biri inandıqlarına həqiqət, əks baxışlara isə yanlışlıq kimi baxır. Beləliklə, ehkamların həqiqiliyi, ayinlərin düzgünlüyü haqqında mübahisələrdə hər iki kilsə eyni dəlillərə əsaslanır və hökmdar düzgün hökm çıxara bilmir, heç belə hökmdar nə Konstantinopolda, nə də ümumiyyətlə, yer üzündə var. Hökm yalnız bütün insanlar üzərində məhkəmə quran Yeganə Ali Hökmdarındir və yolunu azmışı yalnız o özü günahlandıra bilər...

Ancaq təsəvvür et ki, mülki hökmdar tərəflərdən birinə rəğbət bəsləyir və öz qılıncını ona verməyə hazırdır ki, başqa cür inananları onun razılığı ilə azad şəkildə təqib etsin. Məgər kimsə deyə bilərmi ki, xristian kilsəsi türk sultanından öz qardaşlarına qarşı hansısa hüquq ala bilər? Kafir öz hakimiyyəti ilə dini ehkamlara görə xristianları cəzalandıra, bundan da başqa, hər hansı xristian birliyinə özünün malik olmadığı elə hakimiyyət və hüququ verə bilməz. Təsəvvür et ki, xristian krallığında da vəziyyət belədir. Mülki hakimiyyət hər yerdə öz-özlüyündə qalır və kilsəyə xristian hökmdarın dövründə bütpərəst hökmdarın dövründəkindən çox və ümumiyyətlə, heç bir iqtidar verə bilməz. Yeri gəlmişkən, çox maraqlıdır ki, haqqın bu cəsur xidmətçiləri, yanlışlıqları dağıdanlar, parçalanmaya dözümsüzlər bütün vücudları ilə keçirdikləri dini yanğılarını, mülki hökmdarın xeyir-dua verdiyi hallar istisna olmaqla, demək olar ki, heç vaxt nümayiş etdirmirlər. Onlar hökmdarın rəğbəti və yardımı ilə güclənən kimi, sülh pozulur və xristian insanpərvərliyi yox olur, bu yardım olmayanda isə qarşılıqlı dözümlülüyə riayət etməyə məcbur olurlar...

*Üçüncüsü,* baxaq görək dini dözümlülük borcu, özlərinin belə deməyi xoşladıqları kimi, xüsusi kilsə funksiyalarına görə yerdə qalanlardan və icma kütləsindən fərqlənənlərin — yepiskop, keşiş, pastor, xuddam və b. (özlərini necə adlandırmalarının fərqi yoxdur) qarşısında hansı tələbləri qoyur... Mənşəyindən asılı olmayaraq o, kilsə hakimiyyəti olduğuna görə kilsə hüdudları ilə məhdudlaşdırılmalı və heç bir halda mülki işlərə yaxın buraxılmamalıdır, belə ki, kilsə özü tam və qəti şəkildə dövlət işlərindən və mülki işlərdən ayrılmışdır...

Ruhani şəxslər üçün təkcə özlərinin zor, qarət və hər cür sıxışdırmalardan imtina etməsi kifayət deyildir; özünü apostolların varisi adlandıran və *öyüd vermək yükünü üzərinə götürən hər bir kəs bununla öz şagirdlərini bütün insanlara münasibətdə sülhsevərliyə və xoşniyyətliliyə... yönəltməli və hamını — sadə şəxsləri və dövlət hakimlərini (əgər beləlləri öz kilsələrinin üzvləri olsalar) insanpərvərliyə, həlimliyə, dözümlülüyə çağırmalıdır...*

Qoy istənilən sektanın kilsə vaizləri başqalarının nöqsanlarını gücləri çatan dəlillərlə ifşa etsinlər və bu nöqsanlarla döyüşsünlər, ancaq adamların özünə rəhm etsinlər. Əgər inandırıcı dəlilləri kifayət qədər deyilsə, qoy onlar mövqelərinə uyğun gəlməyən və ruhani şəxslərə yaraşmayan digər sahələrdən götürülmüş vasitələrdən istifadə etməsinlər; qoy natiqliklərinə və alimliklərinə yardım üçün... hökmdarın verdiyi baltanı götürməsinlər, qoy onların od və qılıncdan alovlanan istəyi həqiqətə məhəbbət izhar edərək hökmranlıq hərisliyində olduqlarını görməyə imkan verməsin...

Və nəhayət, hökmdarın dini dözümlülük işində rolunun nədən ibarət olduğunu nəzərdən keçirmək lazımdır. Onun rolu, şübhəsiz, çox böyükdür.

Yuxarıda sübut etdik ki, ruh haqqında qayğı hökmdarın səlahiyyətinə aid deyildir... İnandırma, öyüd və nəsihətlər şəklində qayğıya gəldikdə isə, bu hüququ heç kəsin əlindən almaq olmaz. Beləliklə, öz ruhu haqqında qayğı hər kəsin özünə aiddir, o özü və yalnız özü ona qayğı göstərməlidir. Sən deyəcəksən ki, bəs o öz ruhu haqqında düşünmürsə necə olsun? Cavab verirəm: bəs o öz sağlamlığının qayğısına qalmırsa necə olsun? Yaxud öz əmlakının? Axı sonuncu daha çox hökmdarın səlahiyyətinə daxildir. Bəlkə hökmdar xüsusi fərmanla yoxsul, yaxud xəstə olmağı qadağan etsin? Qanunlar təbəələrin əmlakını və sağlamlığını başqalarının təcavüzündən, yaxud fırıldağından mümkün qədər qorumağa çalışır, lakin laqeydlik və israfçılıq olan yerdə heç nə edə bilmir. Heç kəsi onun iradəsinin əksinə varlı, yaxud sağlam olmağa məcbur etmək olmaz. Özü istəməyəni Allah da xilas edə bilməz. Buna baxmayaraq təsəvvür et ki, hökmdar öz təbəələrini varlanmağa və öz sağlamlığının qayğısına qalmağa məcbur etmək istəyir; məgər bu halda qanunla müəyyən ediləcəkdir ki, məsləhət üçün yalnız Roma həkimlərinə(3) müraciət edilməli və hər kəs yalnız onların göstərişlərinə əməl etməlidir? Doğrudanmı Cenevrə aptekindən(4) alınmış dərmandan, yaxud Vatikanda hazırlanmış qidadan başqa digərini qəbul etməyə icazə verilməyəcəkdir?..

Hər kəsin öz ağlı, mülahizəsi, düşüncəsi, müstəqil fikri ilə əldə etməli olduğunu hansısa bir nəfərin ixtiyarına verməsi lazım deyil, guya o bu imtiyaza öz mövqeyinə görə malikdir. Hökmdarlar anadan olandan başqalarına nisbətən daha çox hakimiyyətə malik olurlar, lakin təbiətlərinə görə onlar başqa Allah bəndələriylə bərabərdir və nə hökmranlıq hüququ, nə də təcrübəsi yerdə qalan hər şeyi, xüsusilə də həqiqi dini şəksiz bilmələri deməkdir.

Ola bilər, sən deyərsən ki, mülki hökmdara deyil, kilsəyə din haqqında son fikri söyləmək hüququ verilir və buna hamı əməl etməlidir. Mülki hökmdar hamıdan kilsənin müəyyənləşdirdiyinə riayət etməyi tələb edir və öz hakimiyyəti ilə heç kəsə dini işlərdə kilsənin öyrətdiyi kimi deyil, başqa cür hərəkət etməyə və inamını dəyişməyə imkan vermir... Cavab verirəm: kim bilmir ki, kilsənin apostollar dövründə hörmətlə çəkilən adından sonralar çox vaxt görünüş yaratmaq üçün pərdə kimi istifadə olunmurdu? Hər halda, burada o mənə heç nə ilə kömək edə bilməz. Mən təkrar edirəm ki, göylərə qalxan bu yeganə və dar cığırı hökmdar heç də adi adamlardan yaxşı tanımır, ona görə də mən yolu məndən heç də yaxşı tanımayan və hər halda, xilasım haqqında mənim özümdən daha az narahat olan bələdçinin arxasınca arxayın gedə bilmərəm. Yəhudi xalqının çoxlu şahı içərisində eləlləri azmı olmuşdur ki, onların ardınca gedən israilli həqiqi Allah ibadətindən azsın, dönüb bütpərəst olsun, kor-koranə itaətlə özünü ölümə düçar eləsin? Sən isə, əksinə, məni narahat olmamağa çağırırsan, deyirsən ki, hər şey yaxşıdır, çünki hökmdar xalqı öz qoyduğu qanunlara deyil, dini işlərdə kilsə qanunlarına riayət etməyə çağırır və bununla kilsə qanunlarını dövlət sanksiyası ilə təsdiqləyir. Onda mən səndən soruşuram, *hansı kilsənin qanunlarını? Əlbəttə, hökmdara sərfəli olan kilsənin...*

Bununla belə, düzünə qalsa, əgər qərarlar yazmaqla məşğul olan mövhumatçılar şurasını kilsə adlandırmaq olarsa, onda çox vaxt saray kilsəyə deyil, kilsə saraya daha tez uyğunlaşır. Kilsənin vəziyyətinin mömin hökmdarın vaxtında və sonralar arianalı hökmdarın vaxtında necə olduğu yaxşı məlumdur. Əgər bunlar bizdən çox uzaqdırsa, onda İngiltərə tarixi bizə daha təzə nümunələr verir. Henrix, Eduard, Mariya və Yelizavetanın vaxtlarında kilsə xadimləri ustalıqla öz qanunlarını, din rəmzlərini, ümumiyyətlə, hər şeyi hökmdarın iradəsinə uyğunlaşdırırdılar: axı bu hökmdarlar din işlərində o qədər əks baxışları müdafiə edir, o qədər ziddiyyətli

fərmanlar verirdilər ki, ağlı başında olan (az qalmışdı allahsız deyəm) heç kəs deyə bilməzdi ki, haqq Allaha ehtiram bəsləyən hər hansı namuslu adam təmiz vicdanla, Allahı təhqir etmədən onların dinə dair qərarlarına tabe ola bilərdi. Bundan artıq nə deyəsən?..

Beləliklə, nəhayət, qarşımızda dini işlərdə yad hökmranlığa təbəəlikdən azad insanlar dayanıblar. Onlar necə hərəkət edəcəklər? Allaha birlikdə ibadət etməyin lüzumunu hamı bilir və qəbul edir. Onda bəs bizi niyə yığıncaqlara məcburən toplayırlar? Bu cür azadlıq əldə etmiş adamlar kilsə birliyinə daxil olmağa ehtiyac hiss edirlər ki, yalnız qarşılıqlı quruculuq işi üçün deyil, bütün xalqın qarşısında Allaha necə ehtiram etdiklərini... onu necə şərəfləndirdiklərini təsdiqləmək üçün, nəhayət, təlimin saflığı, həyatın ülviliyi, ayinlərin sadəliyi və ləyaqəti ilə başqalarında dinə və həqiqətə məhəbbət oyatmaq və ümumiyyətlə, təklikdə edilə bilməyənləri birlikdə həyata keçirmək üçün bir yerə yığışırlar.

Bu cür dini birlikləri mən kilsə adlandırır və hesab edirəm ki, onlara münasibətdə hökmdar dözümlülük göstərməlidir, çünki bu cür yığıncaqlara toplaşan xalq hər kəsin ayrılıqda etməli olduğu işi birlikdə yerinə yetirir, yəni ruhunun xilas olması qayğısına qalır və burada saray kilsəsi ilə ondan fərqli digər kilsələr arasında heç bir ayrılıq yoxdur...

---

1 Ortodoksal protestantlar (kalvinistlər) — *red.*
2 Başqa protestant sektası — *red.*
3 Roma papası nəzərdə tutulur — *red.*
4 Protestant sektasının dini rəhbəri cenevrəli Kalvin nəzərdə tutulur — *red.*

## 11. ŞARL DE MONTESKYÖ

## Hakimiyyətin bölünməsi haqqında

Fransanın siyasi filosofu baron Şarl de Monteskyö (1689–1755) orta səviyyəli hərbçi aristokrat ailəsində doğulmuşdur. O, Bordo və Paris universitetlərində yaxşı təhsil almış, vəkil işləmişdir. Monteskyö on iki il fasiləsiz olaraq öz doğma Bordo dairəsində “parlament”ə — yerli şura və məhkəməyə başçılıq etmişdir. Məhz bu illər onun siyasi elmlərə marağını müəyyən etmişdir. O, 1721-ci ildə bütün ətrafı üçün gözlənilməz olaraq “İran məktubları” əsərini yazır və tezliklə məşhurlaşır. “İran məktubları” Fransanın XIV Lüdovik dövrünə və İran sivilizasiyasına iki İran səyyahının gözü ilə baxan gözəl bir siyasi satira idi.

1726-cı ildə Monteskyö Parisə köçür və iki ildən sonra Fransa Akademiyasına seçilir. O, Avropa ölkələrinə çoxlu səyahətlər edir, müxtəlif ölkələrin dövlət hakimiyyətinin quruluşunu müşahidə edir və təhlillər aparır. Monteskyö dünyada ilk dəfə olaraq siyasi proseslərin inkişaf qanunauyğunluqları haqqında ümumiləşdirilmiş nəticələr almaq üçün müxtəlif ölkə hüquqlarının müqayisəli öyrənilməsindən şüurlu və sistematik şəkildə istifadə etməyə başlayır.

Monteskyö “Qanunların ruhu haqqında” məşhur əsərində siyasi sistemlərlə ölkənin mədəniyyəti, coğrafi və tarixi kontekst arasında əlaqələri təhlil edir. 1748-ci ildə yazılmış bu əsər bütün dünyada dövlət hakimiyyətinin demokratik sisteminin inkişafına böyük təsir göstərmişdir. “Qanunların ruhu haqqında” essenin liberal və antiklerikal yönəlişi, gözəl siyasi təhlil onu tezliklə çox populyar edir və bu, katolik kilsəsini təşvişə salır. Nəticədə 1751-ci ildə bu əsər qadağan olunur.

Monteskyö Lokkun ənənələrini davam etdirərək Hobbsun, sonralar isə Russonun güclü və totalitar sistemindən fərqlənən liberal-demokratik dövlət quruluşunun prinsiplərini formalaşdırdı. Hobbs İngiltərə inqilabını izləyərək cəmiyyətin vətəndaş iğtişaşlarından xilas edilməsi problemini həll etməyə çalışırdı, Monteskyö isə Avropada mütləq monarxiyaları müşahidə edərək kral hakimiyyətinin vətəndaşa qarşı özbaşınalığını məhdudlaşdırmaq üçün səmərəli vasitələr axtarırdı. Bu məqsədlə Monteskyö hüquqi dövlət və hakimiyyətin bölünməsi konsepsiyasını irəli sürür.

Monteskyö yazırdı ki, hüquqi dövlətdə hamı qanun qarşısında bərabər olmalı və qanuna ciddi şəkildə riayət edilməlidir: "Azadlıq qanunun imkan verdiyi hər şeyi etmək hüququdur". Hakimiyyət tərəfindən özbaşınalığın qarşısını almaq üçün dövlət hakimiyyəti bir əldə cəmləşdirilməməlidir; hakimiyyət dövlətin qanunverici, icraedici və məhkəmə orqanları arasında bölünməlidir və qoy onlardan hər biri digərinə nəzarət etsin və yanlış addımlardan saxlasın.

Monteskyönün konsepsiyası dövlət hüququ nəzəriyyəsinə böyük təsir göstərdi. O, Böyük Britaniyada konstitusyon inkişafa təsir etdi, sonra ABŞ Konstitusiyasında öz parlaq əksini tapdı və daha sonralar müasir dünyanın, demək olar ki, bütün demokratik dövlətlərinin konstitusiyalarında öz yerini tutdu.

ŞARL DE MONTESKYÖ

# İngiltərənin dövlət quruluşu haqqında (1748)

*Əgər hakimiyyətin bu üç növü: qanunları yaradan hakimiyyət... qərarları icra edən hakimiyyət və cinayətləri... mühakimə edən hakimiyyət eyni bir adamın şəxsində, yaxud əyanlardan, zadəganlardan və ya sadə insanlardan təşkil edilmiş eyni bir idarənin şəxsində birləşsəydi, o zaman hər şey məhv olardı.*

Hər bir dövlətdə üç hakimiyyət növü var: qanunverici hakimiyyət, beynəlxalq hüquq məsələləriylə məşğul olan icraedici hakimiyyət və mülki hüquq məsələlərinə baxan icraedici hakimiyyət.

Birinci hakimiyyətin əsasında hökmdar, yaxud idarə müvəqqəti, yaxud daimi qanunlar yaradır, qanunlarda düzəlişlər aparır, yaxud mövcud qanunları ləğv edir, ikinci hakimiyyətin əsasında müharibə elan edir, yaxud sülh bağlayır, səfirləri göndərir, yaxud qəbul edir, təhlükəsizliyi təmin edir, basqınların qarşısını alır, üçüncü hakimiyyət əsasında cinayətləri cəzalandırır və fiziki şəxslərin ixtilaflarını həll edir. Axırıncı hakimiyyəti məhkəmə hakimiyyəti, ikincisini isə sadəcə olaraq dövlətin icraedici hakimiyyəti adlandırmaq olar.

Vətəndaş üçün siyasi azadlıq onun öz təhlükəsizliyinə olan inama əsaslanan ruhi sakitliyi deməkdir. Belə bir azadlığa malik olmaq üçün elə bir idarəetmə zəruridir ki, onun dövründə bir vətəndaş o biri vətəndaşdan qorxmaya bilsin.

> Əgər qanunverici və icraedici hakimiyyətlər bir şəxsin, yaxud idarənin timsalında birləşsə, bu zaman azadlıq olmayacaqdır, belə ki, bu hökmdarın, yaxud senatın müstəbid qanunlar yaradacağı və bunları müstəbidcəsinə tətbiq edəcəyi təhlükəsi yaranacaqdır.
>
> Məhkəmə hakimiyyəti qanunverici və icraedici hakimiyyətdən ayrılmadığı halda da azadlıq olmayacaqdır. Əgər o, qanunverici hakimiyyətlə birləşdirilibsə, bu halda vətəndaşların həyatı və azadlığı özbaşınalığın hakimiyyəti altına düşəcəkdir, çünki hakim həm də qanunverici olacaqdır. Əgər məhkəmə hakimiyyəti icraedici hakimiyyətlə birləşibsə, bu halda hakim müstəbid olmaq imkanı əldə edəcəkdir.

Əgər hakimiyyətin bu üç növü: qanunları yaradan hakimiyyət, ümumdövlət xarakterli qərarları icra edən hakimiyyət və cinayətləri, yaxud xüsusi şəxslərin mülki iddialarını mühakimə edən hakimiyyət eyni bir adamın şəxsində, yaxud əyanlardan, zadəganlardan və ya sadə insanlardan təşkil edilmiş eyni bir idarənin şəxsində birləşsəydi, o zaman hər şey məhv olardı.

Avropa dövlətlərinin əksəriyyətində mötədil idarə üsulu qurulmuşdur, çünki onların hökmdarları ilk iki hakimiyyəti öz əllərində saxlasalar da, üçüncü hakimiyyəti idarə etməyi öz təbəələrinin ixtiyarına vermişlər.

Bu üç hakimiyyətin sultanın şəxsində birləşdiyi Türkdə dəhşətli istibdad hökm sürür. Bu üç hakimiyyətin birləşdiyi İtaliya respublikalarında da azadlıq bizim monarxiyalarımızdakından azdır. Buna görə hökumətin özünü qorumaq məqsədilə türklərdəki kimi qəddar tədbirlərə ehtiyacı vardır — dövlət inkvizitorları və hər bir xəbərçinin hər hansı vaxt öz ittihamedici qeydini sala biləcəyi qutu da buna dəlalət edir.

Təsəvvür edin ki, belə bir respublikanın vətəndaşı necə vəziyyətdədir. Orada hər bir təsisat qanunların icraedicisi rolunda qanunverici kimi özünə verdiyi tam hakimiyyətə malikdir. O, hamıya məcburi olan qanunlar formasındakı iradəsiylə bütün dövləti dağıda bilər; bundan əlavə, məhkəmə hakimiyyətinə malik olmaqla, tək-tək hökmlər formasına salınmış iradəsiylə hər bir vətəndaşı məhv edə bilər.

Hakimiyyətin hər üç təzahür forması burada qırılmaz vəhdətdədir; burada müstəbid hökmdarı fərqləndirən zahiri dəbdəbə olmasa da, onun ruhu hər an hiss edilir. Buna görə müstəbidliyə can atan hökmdarlar həmişə ayrı-ayrı hakimiyyətləri öz şəxslərində birləşdirməkdən, Avropanın bir çox kralları isə dövlətdəki bütün başlıca vəzifələri öz əllərinə keçirməkdən başlayırlar...

Məhkəmə hakimiyyəti daimi fəaliyyət göstərən senata deyil, ilin müəyyən dövrlərində qanunda göstərilmiş üsul üzrə, fəaliyyəti zərurilik tələbləriylə müəyyən olunan məhkəmənin təşkil edilməsi üçün xalqın içindən cəlb olunmuş şəxslərə həvalə edilməlidir.

Beləliklə, insanlar üçün bu qədər qorxulu olan məhkəmə hakimiyyəti nə məlum vəziyyət, nə də məlum peşə ilə bağlı olacaqdır; o, necə deyərlər, gözəgörünməz və sanki qeyri-mövcud olacaqdır. İnsanlar hakimləri gözləri qarşısında daim görməyəcəklər və artıq hakimlərdən deyil, məhkəmədən qorxacaqlar.

Hətta zəruridir ki, mühüm ittihamlar zamanı cinayətkarın qanun əsasında öz hakimlərini seçmək hüququ olsun, yaxud heç olmazsa onları elə əhəmiyyətli sayda rədd etmək hüququ olsun ki, yerdə qalanlarına özünün seçdiyi şəxslər kimi baxa bilsin.

Digər iki hakimiyyəti isə vəzifəli şəxslərə, yaxud daimi idarələrə həvalə etmək olar, belə ki, bunlar heç bir fiziki şəxsə aid deyil, onlardan biri yalnız dövlətin ümumi iradəsinin ifadəsi, digəri isə bu iradənin icraedici orqanıdır.

Əgər məhkəmənin tərkibi dəyişməz olmamalıdırsa, onun hökmlərində elə bir sabitlik hökm sürməlidir ki, həmin hökmlər həmişə qanun mətnlərinin dəqiq tətbiqindən ibarət olsun. Əgər onlarda yalnız hakimin şəxsi mülahizəsi ifadə edilsəydi, o zaman insanların yaşadıqları cəmiyyətin onların öhdəsinə qoyduğu vəzifələr haqqında dəqiq təsəvvürləri olmazdı.

Hətta lazımdır ki, hakimlər müttəhimlə eyni ictimai vəziyyətdə, ona bərabər olsunlar ki, müttəhim onu sıxışdırmaq meylində olan adamların əlinə düşdüyünü düşünməsin.

Əgər qanunverici hakimiyyət icraedici hakimiyyətə öz davranışlarına təminat verə bilən vətəndaşları həbsxanaya salmaq hüququ verərsə, azadlıq məhv olacaqdır, yalnız bu hallar istisna edilə bilər ki, adamı cinayət törətmək üzrə təxirə salmadan, dərhal məsuliyyətə cəlb etmək üçün həbsə alırlar. Bu halda həbs edilənlər əslində azaddır, çünki onlar yalnız qanunun hakimiyyətinə tabedir.

Nəzərə alınsa ki, azad dövlətdə azad hesab edilən hər bir insan özü özünü idarə etməlidir, bu halda qanunverici hakimiyyət orada bütün xalqa məxsus olmalı idi. Lakin bu, böyük dövlətlərdə qeyri-mümkün, kiçik dövlətlərdə isə böyük narahatlıqlarla bağlı olduğundan, zəruridir ki, xalq özü edə bilmədiyi şeylərin hamısını nümayəndələri vasitəsilə etsin...

Öz dairəsində nümayəndələri seçmək üçün səs vermək hüququna bütün vətəndaşlar malik olmalıdır, yalnız vəziyyətlərinin son dərəcə aşağı olması səbəbindən şəxsi iradəyə qadir olmayan insanlar kimi baxılan vətəndaşlar istisna edilə bilər.

Qədim respublikaların əksəriyyətinin böyük bir nöqsanı var idi: orada xalq qətiyyən bacarmadığı icraedici fəaliyyətlə bağlı fəal qərarlar qəbul etmək hüququna malik idi. Onun idarəçilikdəki bütün iştirakı öz nümayəndələrini seçmək hüququ ilə məhdudlaşdırılmalıdır...

Nümayəndələr məclisini seçmək təkcə ona görə zəruri deyil ki, bu məclis hansısa fəal qərarlar çıxarsın (bu vəzifəni o, yaxşı yerinə yetirmək iqtidarında deyildir), bu əsasən ona görə zəruridir ki, məclis qanunları yaratsın, yaxud artıq yaratdığı qanunlara necə əməl olunduğuna nəzarət etsin (bu vəzifəni o və yalnız o, yaxşı yerinə yetirə bilər).

Hər bir dövlətdə həmişə öz mənşəyinin, var-dövlətinin, yaxud şan-şövkətinin üstünlükləriylə seçilən adamlar olur; əgər onlar xalqa qarışsaydılar, əgər hamı kimi onların da hərəsinin yalnız bir səsi olsaydı, bu halda ümumi azadlıq onlar üçün köləlik olardı və onlar bu azadlığı qorumaqda maraqlı olmazdılar, belə ki, qərarların əksəriyyəti onlara qarşı yönəlmiş olardı. Buna görə onların qanunvericilikdəki iştirak payı dövlətdə malik

olduqları üstünlüklərə müvafiq olmalıdır, bu isə yalnız o halda əldə edilə bilər ki, onlar xalqın qərarlarını ləğv etmək hüququ olan (necə ki, xalqın onun qərarlarını ləğv etmək hüququ var) xüsusi məclis təşkil etsinlər.

Beləliklə, qanunverici hakimiyyət həm ad-sanlıların məclisinə, həm də xalq nümayəndələri məclisinə həvalə edilərdi və bu halda onlardan hər birinin digər məclisdən ayrılıqda öz mənafe və məqsədləri olardı.

Haqqında danışdığımız üç hakimiyyətdən məhkəmə hakimiyyəti müəyyən mənada heç də hakimiyyət deyil. Qalır birinci iki hakimiyyət; bunları ifratçılıqdan saxlamaq üçün tənzimləyici hakimiyyət zəruridir; bu vəzifəni qanunverici heyətin ad-sanlılardan ibarət hissəsi layiqincə yerinə yetirə bilər...

İcraedici hakimiyyət hökmdarın əlində olmalıdır, çünki idarəetmənin, demək olar ki, həmişə çevik hərəkət tələb edən bu növünü çoxları deyil, bir nəfər daha yaxşı yerinə yetirir; bunun əksinə, qanunverici hakimiyyətdən asılı olan şeyləri bir nəfər deyil, çoxları daha yaxşı ərsəyə gətirir...

Əgər icraedici hakimiyyətin qanunverici məclisin hərəkətlərini dayandırmaq hüququ olmasa, qanunverici hakimiyyət despotik şəkil alacaq, belə ki, arzu elədiyi istənilən hakimiyyəti özünə vermək imkanı olduğundan bütün digər hakimiyyətləri məhv edəcək.

Əksinə, qanunverici hakimiyyətin icraedici hakimiyyətin hərəkətlərini dayandırmaq hüququ olmamalıdır. Belə ki, icraedici hakimiyyət öz təbiəti etibarilə məhduddur, deməli, onu daha nəyləsə məhdudlaşdırmağa ehtiyac yoxdur; bundan əlavə, onun fəaliyyətinin məğzi sürətli həllini tələb edən məsələlərdir. Roma tribunları hakimiyyətinin başlıca nöqsanlarından biri bu idi ki, onlar nəinki qanunverici hakimiyyətin, hətta icraedici hakimiyyətin də fəaliyyətini dayandıra bilirdilər ki, bu da böyük fəlakətlərə səbəb olurdu...

Qanunverici məclisin icraedici hakimiyyəti yerinə yetirən şəxsi (deməli, həmin şəxsin davranışını) mühakimə etmək hüququ yoxdur. Onun şəxsiyyəti toxunulmaz olmalıdır, bu, dövlətə ona görə lazımdır ki, qanunverici hakimiyyət tiraniyaya çevrilməsin; icraedici hakimiyyətin ittihama məruz qaldığı, yaxud məhkəməyə cəlb edildiyi məqamdan azadlıq da yoxa çıxmış olardı...

Eyni zamanda həm uzaqgörən, həm də kor olan qanunun bir sıra hallarda hədsiz sərt olması mümkündür. Lakin xalqın hakimləri, artıq dediyimiz kimi, qanunun sözlərini tələffüz edən dodaqlar, onun gücünü nə azalda, nə də sərtliyini yumşalda bilən cansız məxluqlardır...

Bu cür idarəetmənin qədim respublikaların əksəriyyətindəki qüsurlu idarə üsulundan (həmin respublikalarda xalq eyni zamanda həm hakim, həm də ittihamçı idi) üstünlüyü də bundan ibarətdir.

Beləliklə, söhbət açdığımız üsul-idarə tərzinin əsasları bunlardır: qanunverici məclis iki hissədən — onlara verilmiş ləğvetmə hüququ ilə qarşılıqlı şəkildə bir-birinin qabağını alan hissələrdən ibarətdir ki, bunların ikisi də icraedici hakimiyyətlə, icraedici hakimiyyət isə öz növbəsində qanunverici hakimiyyətlə məhdudlaşdırılır...

İcraedici hakimiyyətə malik şəxsin zülm edə bilməməsi üçün ona tapşırılan ordunun Romada Mariydən öncə olduğu kimi xalqdan ibarət olması və xalqla eyni ruhda tərbiyə edilməsi lazımdır...

Ordu yaradıldıqdan sonra o, qanunverici hakimiyyətdən deyil, bilavasitə icraedici hakimiyyətdən asılı olmalıdır; bu, gerçəkliyin təbiətinə tam uyğundur, belə ki, ordu mülahizə yürütməkdən daha çox fəaliyyət göstərməlidir...

Tasitin germanların əxlaqı haqqındakı parlaq əsərini oxumaq istəyən hər kəs ingilislərin öz siyasi idarəetmə ideyasını germanlardan mənimsədiyini görmüş olar. Bu gözəl sistem meşələrdə kəşf edilmişdir.

İnsanla bağlı hər şeyin sonu var və haqqında danışdığımız dövlət də nə vaxtsa öz azadlığını itirəcək və Roma, Lakedemon və Karfagen kimi məhv olacaq; o, qanunverici hakimiyyət icraedici hakimiyyətdən daha çox pozulduqda məhv olacaqdır.

İngilislərin bu azadlıqdan istifadə edib-etməmələri barədə fikir yürütmək mənim vəzifəmə daxil deyil. Mən, sadəcə olaraq, onların bu azadlığı öz qanunları vasitəsilə yaratdıqlarını göstərməklə kifayətlənirəm və bundan artıq heç nə istəmirəm.

*"Qanunların təbiəti haqqında", VI fəsil*

## 12. JAN-JAK RUSSO

## İctimai müqavilə haqqında

İsveçrə filosofu Jan-Jak Russonun (1712–1778) əsərləri Avropanın ictimai şüuruna böyük təsir göstərmişdir. Əgər Con Lokk Amerika inqilabının ilhamvericisi sayılırsa, Russonu haqlı olaraq Böyük Fransa inqilabının (1789) və hətta Rusiya bolşevik inqilabının (1917) intellektual atası hesab etmək olar.

Russo Cenevrədə saatsaz ailəsində doğulub və anasının vəfatından sonra atası onu tərbiyə etmişdir. O, sistemli şəkildə təhsil almamış, lakin özü klassik və müasir fəlsəfə ilə ciddi məşğul olmuşdur. Oymaçı emalatxanasında işə düzələn Russo 1728-ci ildə Cenevrəni tərk edir və madam Varensin yanında məskunlaşaraq onunla dostluq edir; onun köməyi ilə şəxsi qaydada öz təhsili ilə ciddi məşğul olmaq imkanı qazanır. 1742-ci ildə Russo Parisə — o vaxtkı dünyanın intellektual mərkəzinə köçür. O burada Dalamber və digər fransız filosof ensiklopediyaçıları ilə tanış olur. 1750-ci ildə Russonun “İncəsənət və elm haqqında düşüncələr” essesi Dijon şəhəri akademiyasının keçirdiyi müsabiqədə qalib gəlir. Onun sonrakı əsərləri, xüsusilə də “İctimai müqavilə haqqında” şah əsəri müəllifinə Ümumavropa şöhrəti gətirir, eyni zamanda həm Fransa, həm də İsveçrə hakimiyyətlərinin qəzəbinə səbəb olur. Russonun əsərləri yasaqlanır, o, Parisi tərk etməli olur və buraya bir də 1770-ci ildə qayıda bilir.

Russo ictimai müqavilə nəzəriyyəsini parlaq şəkildə populyarlaşdırmış və eyni zamanda ona bir sıra xüsusi cizgilər əlavə etmişdir. Russo bütün insanların bərabərliyini tanımayan və insanı anadangəlmə xudbin və qüsurlu varlıq hesab edən Aristotel və Hobbsu kəskin tənqid edirdi. Russo bildirirdi ki, “insan azad doğulur, lakin hər yerdə zəncirlənmişdir”. Bu vəziyyətin səbəbi ədalətsiz ictimai quruluşda, konkret olaraq isə feodal qaydalarında və insanları bir-birinə düşmən etmiş xüsusi mülkiyyətdədir. Cəmiyyətdə mövcud ziddiyyətləri aradan qaldırmaq üçün insanlar arasında tarixəqədərki harmonik münasibətlərə qayıtmaq lazımdır.

Russo hesab edirdi ki, insanlar öz mülkiyyət və azadlıqlarını müdafiə etmək üçün ictimai müqavilə bağlayırlar. İctimai müqavilənin bağlanması nəticəsində vahid ictimai və mənəvi orqanizm — Dövlət meydana gəlir. Russoya görə, Suveren — xalqdır, onun iradəsi mütləqdir və dəyişikliyə məruz qala bilməz. Russo insanın fərdi təbiətindən başlayaraq sonda ictimai, kollektiv başlanğıcın insan hüquqlarından üstünlüyü ideyasına gəlib çıxır. Beləliklə, Russonun nəzəriyyəsi bəşəriyyətin tarixində ən totalitar doktrinalardan birini təmsil edir.

Russonun mütləq ümumi iradə haqqında tezisi sonralar Hegel, Marks və Leninin siyasi doktrinalarına ciddi təsir göstərmişdir. Russo bildirir ki, cəmiyyətin bütün üzvlərinin razılığı ilə yaradılan və ümumi iradəni ifadə edən ali hakimiyyət insanların maraqlarına zidd ola bilməz, ona görə də hakimiyyətə cəmiyyət tərəfindən nəzarət edilməsindən heç söhbət də gedə bilməz. Russonun ümumi iradə haqqında nəzəriyyəsi Fransa və Rusiya inqilablarının birpartiyalı diktaturası və qanlı terrorunun ideoloji əsasına çevrildi.

Russo yazırdı ki, “əgər kimsə ümumi iradəyə tabe olmaqdan imtina edərsə, bütün orqanizm tərəfindən o buna məcbur ediləcəkdir; bu, yalnız o deməkdir ki, onu zorla azad edəcəklər”. Bunu kommunist və faşist ölkələrinin rəhbərləri artıq nümayiş etdirmişlər. Bu halı Corc Oruell öz antiutopik romanında (“1984”) belə müəyyən etmişdir: “Azadlıq köləlikdir”.

JAN-JAK RUSSO

# İctimai müqavilə haqqında (1762)

*Kimsə ümumi iradəyə tabe olmaqdan imtina etsə, o buna bütün orqanizm tərəfindən məcbur ediləcəkdir, bu isə o deməkdir ki, onu azad olmağa zorla məcbur edəcəklər...*

Mən insanları olduğu kimi, qanunları isə olmalı olduğu kimi qəbul etdikdə mülki vəziyyətdə etibarlı və qanunlara əsaslanan hər hansı bir idarəetmə prinsipinin mümkünlüyünü araşdırmaq istəyirəm. Bu araşdırmada mən

hüququn icazə verdiyini mənafenin tələb etdiyi ilə daim uyğunlaşdırmağa çalışacağam ki, ədalət və fayda arasında heç bir ziddiyyət olmasın.

Məndən soruşa bilərlər: məgər mən hökmdar, yaxud qanunvericiyəm ki, siyasətdən yazıram? Əgər mən hökmdar, yaxud qanunverici olsaydım, nə etmək lazım gəldiyi barədə söhbətlərə vaxt itirməzdim — ya bunu edərdim, ya da susardım.

Bir halda ki, azad Dövlətin vətəndaşı və Suverenin üzvüyəm[1], mənim səsimin ictimai işlərdə əhəmiyyəti nə qədər az olsa da, bu işlərin müzakirəsi zamanı səsvermə hüququm kifayətdir ki, bu işlərin mahiyyətini özüm üçün aydınlaşdırmaq vəzifəsini öhdəmə götürüm və xoşbəxtəm ki, hər dəfə idarəetmənin formaları haqqında mülahizələr yürüdərkən öz ölkəmin idarəetmə tərzini sevmək üçün yeni-yeni səbəblər tapıram.

## I fəsil. BU KİTABIN MÖVZUSU

İnsan azad doğulur, lakin o hər yerdə buxovdadır. Bəzisi özünü başqalarının hökmdarı zənn edir, lakin bu onun onlardan da artıq dərəcədə kölə olmağına mane olmur. Bu dəyişiklik necə baş verir? Mən bunu bilmirəm. Ona qanunilik verən nədir? Düşünürəm ki, bax, bu məsələni həll edə bilərəm.

Əgər mən yalnız onun hərəkətinin gücü və nəticələri məsələsini nəzərdən keçirmiş olsaydım, belə deyərdim: nə qədər ki, xalq itaət etməyə məcburdur və itaət edir, o, yaxşı hərəkət eləyir, lakin boyunduruğu öz üzərindən atmaq imkanı qazanan kimi onu atırsa, o, əvvəlkindən də yaxşı hərəkət eləyir; belə ki, azadlıq ondan hansı hüquqla oğurlanmışdırsa, elə həmin hüququn əsasında da azadlığı özünə qaytarmaqla göstərir ki, onun buna əsasları varmış, ya da azadlığı ondan almaq üçün qətiyyən heç bir əsas olmadığını təsdiq etmiş olur. Lakin ictimai vəziyyət bütün qalan hüquqlar üçün əsas rolunu oynayan müqəddəs hüquqdur. Bu hüquq fəqət təbii xarakter daşımır; deməli o, sazişlərə əsaslanır. Aydınlaşdırmaq lazımdır ki, bunlar necə sazişlərdir. Bunu etməzdən əvvəl mən indicə irəli sürdüyüm müddəaları əsaslandırmalıyam.

## II fəsil. İLK CƏMİYYƏTLƏR HAQQINDA

Bütün cəmiyyətlərin ən qədimi və yeganə təbiisi ailədir. Lakin axı ailədə də uşaqlar atalarına ona ehtiyacları olana qədər bağlıdırlar...

Beləliklə, əgər bilmək istəyirsinizsə ailə siyasi cəmiyyətlər üçün örnək, hökmdar — ata, xalq — övladlardır, bərabər və azad doğulmuşların hamısı öz azadlıqlarını başqasına verirlərsə, bunu yalnız öz xeyirləri naminə edirlər...

Qrotsi[2] insanlar arasında hər cür hakimiyyətin idarə olunanların xeyrinə qurulduğunu inkar edir və nümunə qismində köləliyi göstərir... Hobbs da bu fikirdədir. Beləliklə, demə, insan nəsli mal-qara sürülərinə bölünüb və bu sürülərin hər birinin öz başçısı var ki, mal-qaranı bir məqsədlə — sonradan yemək üçün qoruyur... Aristotel onların hamısından əvvəl deyirdi ki, insanlar təbiətcə heç də bərabər deyillər, onların bəziləri kölə, bəziləri isə ağa olmaq üçün doğulur. Aristotel haqlı idi, lakin o, nəticəni səbəb kimi qəbul edirdi. Köləlikdə doğulan hər kəs köləlik üçün doğulur; bundan düzgün heç nə ola bilməz. Buxovlanmış kölələr hər şeylərini itirirlər, hətta bu buxovlardan azad olmaq istəyini də; onlar köləliyi sevməyə başlayırlar.

## III fəsil. GÜCLÜNÜN HÜQUQU HAQQINDA

...Bir anlığa təsəvvür edək ki, "güclünün hüququ" deyilən şey həqiqətən də mövcuddur... Lakin bu necə hüquqdur ki, gücün təsiri kəsilən kimi yox olur? Əgər gücə əyilərək tabe olmaq lazımdırsa, o zaman vəzifə borcuna əməl edərək tabe olmaq zərurəti də yoxdur və əgər insan tabe olmağa məcbur edilmirsə, artıq bunu etməyə borclu deyildir.

---

[1]Söhbät Cenevrä Respublìkasíndan vä onun tamhüquqlu vätändaåíndan gedìr.
[2]Hüqo Qrotsì (1583–1645) — holland alìmì, müasìr beynälxalq hüququn banìsì.

Hakimiyyətə tabe olun. Əgər bu, gücə tabe olmaq deməkdirsə yaxşı moizədir, lakin gərəksizdir, mən də zəmanət verərəm ki, o heç vaxt pozulmayacaq. Hər cür hakimiyyət Allah tərəfindən verilir, mən bunu qəbul edirəm; lakin hər cür xəstəlikləri də Allah verir, bəs həkim çağırmaq qadağandır?.. Razılaşaq ki, güc heç bir hüquq yaratmır və insanlar yalnız qanuni hakimiyyətə tabe olmağa borcludurlar. Beləcə, lap əvvəldə qoyduğum sual yenidən bizim qarşımızda peyda olur.

## IV fəsil. KÖLƏLİK HAQQINDA

Bir halda ki, insan özü kimilərin üzərində təbii hakimiyyətə malik deyil və bir halda ki, güc heç bir qanun yaratmır, deməli belə çıxır ki, insanlar arasındakı hər hansı qanuni hakimiyyətin əsası yalnız müqavilələr ola bilər...

Deyə bilərlər ki, despot öz təbəələri üçün vətəndaş sülhünü təmin edir. Tutaq ki, lap belədir, lakin əgər onun şöhrətpərəstliyi səbəbindən doğan müharibələr, onun sonsuz acgözlüyü, üsul-idarəsinin zülmü onları öz daxili çəkişmələrindən də artıq dərəcədə var-yoxdan çıxarırsa, bu halda həmin o vətəndaş sülhündən nə fayda? Əgər bu barışıq onların fəlakətlərindən birinə çevrilirsə, bu halda ondan nə fayda? Zindanlarda da dinc yaşamaq olur, lakin bu kifayətdirmi ki, orada özünü yaxşı hiss edəsən?

Öz azadlığından imtina etmək öz insan ləyaqətindən, insan təbiətinin hüquqlarından, hətta onun vəzifələrindən üz döndərmək deməkdir. Hər şeydən imtina edən üçün heç bir əvəz ola bilməz. Bu cür imtina insan təbiəti ilə bir araya sığmır; insanı iradə azadlığından məhrum etmək onun hərəkətlərini hər cür əxlaqdan məhrum etmək deməkdir. Nəhayət, bir tərəfdən hüdudsuz hakimiyyətin, digər tərəfdən hüdudsuz itaətin təmin edilməsi şərtilə razılaşdırılan bu cür müqavilə faydasız və ziddiyyətlidir...

Qrotsi və digərləri qul sahibliyi hüququnun mənşəyini həm də müharibələrdə görürlər. Onların fikrincə, qalibin məğlubu öldürmək hüququ olduğundan, “məğlub olan həyatını şəxsi azadlığı bahasına ala bilər” müqaviləsi hər iki tərəfə fayda gətirdiyindən ikiqat qanuni sayılmalıdır. Lakin aydındır ki, məğlub olanları öldürmək hüququ adlanan şey heç bir halda müharibə vəziyyətindən doğmur. Ən azı ona görə ki, lap əvvəldən asılı vəziyyətdə olan insanların öz aralarında elə bir ünsiyyətləri yoxdur ki, müharibə, yaxud sülh vəziyyəti yarana bilsin; bu insanlar əzəldən heç də bir-birinə fitri düşmən deyillər...

Hətta fərz etsək ki, hamını öldürmək kimi dəhşətli bir hüquq həqiqətən mövcuddur, əminəm ki, müharibə zamanı qul olmuş şəxs, yaxud fəth edilmiş xalq öz hökmdarına məcbur edildiyi zaman boyunca itaət etməkdən başqa heç şey borclu deyildir...

Kölə və hüquq anlayışları bir-birinə ziddir; bunlar bir-birini qarşılıqlı surətdə istisna edir. Belə bir fikir — *“Mən səninlə tam sənin hesabına və tam mənim xeyrimə müqavilə bağlayıram, mən bu müqaviləyə mənə lazım olana qədər əməl edəcəyəm və sən bu müqaviləyə mənə lazım olana qədər əməl edəcəksən”* fikri insanın insana, yaxud insanın xalqa münasibətini nəzərdə tutmasından asılı olmayaraq həmişə hər cür mənadan məhrumdur.

## V fəsil. HƏMİŞƏ BİRİNCİ MÜQAVİLƏYƏ DÖNMƏYİN LAZIMLILIĞI HAQQINDA

Əgər mən indiyə qədər rədd etdiklərimlə razılaşsaydım belə, despotizmin tərəfdarları bundan çox az şey udardılar. Kütləni özünə tabe etməklə cəmiyyəti idarə etmək arasında həmişə böyük fərq olacaqdır. Əgər ayrı-ayrı insanları bir-birinin ardınca bir nəfər əsarətə alırsa, mən onların miqdarından asılı olmayaraq burada xalqı və onun başçısını deyil, yalnız ağanı və qulu görürəm.

Bilmək istəyirsinizsə, bu, birlik deyil, insan yığnağıdır; burada nə ümumi nemətlər var, nə də siyasi orqanizm. Bu cür insan hətta dünyanın yarısını əsarətə almış olsa belə, vur-tut fiziki şəxs olacaq; onun digər insanların mənafeyindən ayrılmış mənafeyi vur-tut şəxsi mənafe olacaq. Əgər bu insan həlak olarsa, o zaman onun Dövləti də dağılacaqdır, necə ki, alovun yandırdığı palıd dağılıb külə çevrilir.

## VI fəsil. İCTİMAİ MÜQAVİLƏ HAQQINDA

...“*Elə bir birlik formasını tapmaq lazımdır ki, o bütün ümumi gücün köməyi ilə birliyin üzvlərindən hər birinin şəxsiyyətini və əmlakını müdafiə etsin və qorusun, habelə onun sayəsində hər bir şəxs hamı ilə birləşməklə yanaşı, yalnız özü-özünə tabe olsun və əvvəl necə idisə, o cür azad qalsın”*. İctimai müqavilənin həll etdiyi əsas vəzifə bundan ibarətdir.

Bu müqavilənin maddələri aktın öz təbiəti ilə müəyyən edilmişdir; bu maddələrin azacıq dəyişdirilməsi onları qüvvədən və faydalılıqdan məhrum edərdi...

Bu maddələr düzgün başa düşülərsə, yeganə bir şeyi — birliyin hər bir üzvünün özünün bütün hüquqları ilə birgə icmanın sərəncamına tam özgəninkiləşdirilməsini tələb edir; belə ki, birincisi, əgər hər kəs özünü bütövlükdə tabe etdirirsə, o zaman hamı üçün bərabər şərtlər yaradılır; bir halda ki, şərtlər hamı üçün bərabərdir, heç kəs maraqlı deyil ki, bu şərtləri başqaları üçün ağırlaşdırsın.

Daha sonra özgəninkiləşdirilmə hər hansı bir müsadirə olmadan həyata keçirildiyi üçün həmrəylik mümkün olduğu qədərincə tam olur və birliyin heç bir üzvü daha heç nə tələb edə bilmir.

İctimai müqavilədən onun məğzini təşkil etməyən şeyləri çıxarsaq, məlum olar ki, o, aşağıdakı müddəalardan ibarətdir: bizlərdən hər kəs öz şəxsiyyətini və bütün gücünü ümumi əmlaka qataraq ümumi iradənin ali rəhbərliyi altına verir və nəticədə hər bir üzv hamımız üçün olan birliyin daxilində tamın bölünməz hissəsinə çevrilir.

Müqavilə münasibətlərinə girən ayrı-ayrı şəxslərin əvəzinə gecikdirilmədən bu birliyin aktı ümumi məclisdəki səslərin sayı qədər üzvdən ibarət olan şərti kollektiv Tam yaradır.

Həmin akt nəticəsində bu Tam öz vəhdətini, öz ümumi Mənini, öz həyatını və iradəsini əldə etmiş olur. Müvafiq olaraq digərlərinin birləşməsi nəticəsində yaranan bu hüquqi şəxs vaxtilə “vətəndaş toplusu” adlanırdı. Hazırda isə “respublika”, yaxud “siyasi orqanizm” adlanır: onun üzvləri bu siyasi orqanizmi o, passiv olanda Dövlət, fəal olanda Suveren, onu digər bənzərləri ilə müqayisə etdikdə isə Məmləkət adlandırırlar. Birliyin üzvlərinə gəldikdə isə, onlar cəm halda “xalq”, ayrı-ayrılıqda ali hakimiyyətdə iştirak edənlər kimi “vətəndaş” və Dövlətin qanunlarına tabe olanlar kimi “təbəə” adlanırlar...

## VII fəsil. SUVEREN HAQQINDA

Bu düsturdan görünür ki, birləşmə aktında bütün xalqın və xüsusi şəxslərin qarşılıqlı öhdəlikləri var və hər bir fərd, necə deyərlər, öz-özüylə müqaviləyə girməklə Suverenin üzvü kimi xüsusi şəxslərlə əlaqədar və Dövlətin üzvü kimi Suverenlə əlaqədar iki öhdəlik götürmüş olur... Bir halda ki, hər kəs ikili qismdə çıxış edir, bütün xalqın qəbul etdiyi qərar bütün təbəələrin Suverenə münasibət sahəsində məcburi qüvvəyə malik ola bilər, lakin əks səbəbdən özü ilə əlaqədar öhdəlikləri Suverenin üzərinə qoya bilməz... Suveren özünü yalnız bir münasibətdə nəzərdən keçirə bildiyindən, o özü müqaviləyə girən xüsusi şəxs vəziyyətinə düşmüş olur; əgər belədirsə, bütövlükdə bütün xalq üçün məcburi olan başlıca qanun yoxdur və ola da bilməz, onun üçün hətta ictimai müqavilə də məcburi deyildir...

Lakin təbəələrin Suverenə münasibəti məsələsi heç də bu cür deyil; ümumi marağa baxmayaraq, Suveren öz təbəələrinin sədaqətini təmin etmək vasitələrini tapmasaydı, onun üçün heç bir şey təbəələrinin öz öhdəliklərini yerinə yetirəcəyinə zəmanət rolunu oynaya bilməzdi.

Həqiqətən də, hər bir fərd insan kimi xüsusi, ümumi iradəyə zidd, yaxud oxşar olmayan iradəyə bir vətəndaş kimi malik ola bilər.

Beləliklə, ictimai müqavilə boş bir rəsmiyyətçilik olmasın deyə özündə elə bir öhdəlik ehtiva edir ki, digər öhdəlikləri qüvvəyə mindirə bilsin: kimsə ümumi iradəyə tabe olmaqdan imtina etsə, o buna bütün orqanizm tərəfindən məcbur ediləcəkdir, bu isə o deməkdir ki, onu azad olmağa zorla məcbur edəcəklər, çünki insanı vətəninə məxsus edən və bununla onu hər cür məsuliyyətdən azad edən şərtlər belədir.

## VIII fəsil. MÜLKİ VƏZİYYƏT HAQQINDA

Təbii vəziyyətdən mülki vəziyyətə bu keçid insanda gözəçarpan dəyişikliklər edir, onun davranışında instinkti ədalət hissi ilə əvəzləyir və onun hərəkətlərinə əvvəllər məhrum olduğu mənəvi xarakter verir. Yalnız vicdanın səsi cismani niyyət və arzuları, hüquq isə istəyi əvəz etdikdə, yalnız o zaman indiyə qədər təkcə özüylə hesablaşan insan digər prinsiplərə uyğun olaraq hərəkət etməyə və öz vərdişlərinin ardınca getməzdən əvvəl öz ağlı ilə məsləhətləşməyə məcbur olur...

Bütün bu məsələləri öz aralarında asanca müqayisə edilən müddəalarla aydınlaşdıraq. İctimai müqaviləyə əsasən, insan öz təbii azadlığını və onu cəzb edən, ələ keçirə biləcəyi şeylərə olan qeyri-məhdud hüququnu itirir; bunun əvəzinə vətəndaş azadlığını və sahibi olduğu bütün şeylərlə əlaqədar mülkiyyət hüququnu qazanır...

IX fəsil. ƏMLAKA SAHİB OLMAQ HAQQINDA

İcmanın hər bir üzvü həmin icma hazırda olduğu şəkildə təşkil edildiyi zaman özünü və bütün gücünü, habelə bu gücün tərkib hissəsi olan əmlakını ona tabe etdirir. Bu o demək deyildir ki, bu cür aktın nəticəsində əmlak bir əldən o birinə keçməklə öz təbiətini dəyişir və Suverenin mülkiyyətinə çevrilir. Vətəndaş icmasının gücü ayrıca bir insanın gücündən qat-qat çox olduğundan, onun sahibliyi də faktik olaraq daha möhkəm və danılmazdır. Belə ki, Dövlət öz üzvlərinə olan münasibətdə Dövlətdə bütün hüquqların əsası sayılan ictimai müqavilənin qüvvəsinə əsasən onların bütün əmlakına sahibdir...

Maraqlıdır ki, bu özgəninkiləşdirmədə icma xüsusi şəxslərin torpaqlarını qəbul edərkən bu torpaqları heç də onların əlindən almır — o, yalnız bu şəxslərin həmin torpaqların qanuni sahibi olmasını təmin edir, işğalı gerçək hüquqa, istifadəni isə mülkiyyətə çevirir. Bundan sonra artıq sahibkarlara ümumi əmlakın mühafizəçiləri kimi baxılır, onların hüquqlarını Dövlətin bütün üzvləri tanıyır və bu Dövlətin bütün gücüylə yadellilərdən müdafiə edilir.

*“İctimai müqaviləhaqqında, yaxud siyasi hüququn prinsipləri”*

## 13. BÖYÜK FRANSA İNQİLABI ƏRƏFƏSİNDƏ

## Emmanuel Jozef Siyes

1789-cu il Fransa inqilabı elə ilk günlərdən müşahidəçilər tərəfindən Avropanın sosial və siyasi xəritəsini kökündən dəyişdirmiş mühüm tarixi hadisə kimi qiymətləndirildi. Bu inqilab cəmi üççə ildə qüdrətli monarxiyanı yerlə yeksan elədi, təkəbbürdən dərisinə sığmayan aristokratiyanın nüfuzunu heçə endirdi və katolik kilsəsinin dünyəvi hakimiyyətini büsbütün aradan qaldırdı. İnqilab yeni respublika dövləti yaratdı, bu mütərəqqi quruluşun indiyəcən dünyanın demokratik ölkələri üçün örnək olan qanunları və institutları az bir zaman içində bütün Avropaya yayıldı.

Avropanın mühafizəkar dairələri dünya sivilizasiyasının “axirət günü”ndən, min ildən də çox müddətdə Avropanı idarə etmiş “namus”, “şərəf”, “nəcabət”, “ağsaqqala hörmət”, dini inam kimi “əbədi” dəyərlərin məhvindən dəm vurur, liberallar isə xurafat və zorakılıq üzərində qurulmuş rejimin sonundan və yeni əsrin — İnsan Hüququ, Qanun və Ədalət sırasının başlanğıcından xəbər verirdilər. Bu, şəxsi və siyasi hüquqların əvvəllər heç bir hüququ olmayan əhalinin bütün təbəqələri arasında ildırım sürəti ilə yayılması və genişlənməsi prosesi idi.

O zamanlar Fransa əhalisi üç silkə bölünmüşdü. Hakimiyyət və var-dövlət ən imtiyazlı zümrənin — zadəganlığın və ruhaniliyin əlində cəmlənmişdi. Əhalinin qalan 90 faizi heç bir hüququ olmayan “üçüncü silk”ə aid idi. Vergilərin əsas ağırlığı onların belində idi və bu, azmış kimi, həmin zümrə ölkənin idarə olunması üzrə hər hansı hüquqdan tam məhrum idi.

İnqilab ərəfəsində Maarifçilik dövrünün Volter, Didro, Russo, Monteskyö və Dalamber kimi xadimlərinin demokratik dəyişikliklərin zərurəti barədə yaydığı ideyalar, ingilis və Amerika inqilablarının ideyaları fransız cəmiyyətinin bütün təbəqələrinin fikrini möhkəm məşğul etməkdə idi.

İnqilaba bilavasitə təkanı bədxərc kral hökumətinin 1787-ci ildə düşdüyü dərin maliyyə böhranı verdi. Külli miqdarda büdcə kəsirini aradan qaldırmaq üçün kral hakimiyyəti bu dəfə imtiyazlı sinfin üzərinə də vergi qoymaq qərarına gəldi. Maliyyə naziri Əsilzadələr Şurasını çağırdı ki, zadəgan və ruhaniləri yeni vergidən xəbərdar etsin. Lakin onlar öz var-dövlətlərini xəzinə ilə bölüşməkdən boyun qaçırdılar və bununla kifayətlənməyərək tezliklə hökumətin siyasətini sabotaj etməyə başladılar. Aristokratiyanın bu müqavimətinə 17 may 1788-ci il tarixli kral fərmanı ilə hakimiyyətləri məhdudlaşdırılmış ali məhkəmə orqanları başçılıq edirdi.

Əsilzadələrin başladıqları etiraz aksiyasına 1788-ci ilin yayında üçüncü silkin nümayəndələri də qoşuldu. Kral hakimiyyətinə qarşı ümumi narazılıqdan doğan etiraz dalğası Fransanın əksər iri şəhərlərini bürüdü. Xalq Silklər Məclisinin — fransız parlamentinin çağırılmasını tələb edirdi. Kral XVI Lüdovik 5 may 1789-cu ilə qədər Silklər Məclisinin çağırılacağını elan etməyə məcbur oldu. Kral həmçinin ümumi tələbə boyun əyərək söz azadlığı və ibtidai senzuranın ləğv olunduğunu da elan etdi; ölkəni inqilaba çağıran pamfletlər və demokratik islahat layihələrindən danışan esselər bürüdü.

1789-cu ilin əvvəllərində Silklər Məclisinə seçkilər bütün ölkəni silkələyib hərəkətə gətirdi. Silklər Məclisinin çağırılacağı günü parlamentin köməyi ilə ölkədəki siyasi rejimi dəyişdirməyə ümid bəsləyən üçüncü silk xüsusi həsrətlə gözləyirdi.

Əslində bütün ölkə köklü dəyişikliklər ümid və həsrətində idi. Bir çox əsilzadə və ruhanilər də üçüncü silkin ölkədə ümumi bərabərliyin bərqərar olması, əsas insan hüquqlarına və dövlət üzərində cəmiyyətin nəzarəti prinsipinə əməl edilməsi barədəki tələblərini bütövlükdə dəstəkləyirdilər.

Fransa inqilabının ideoloq və siyasi xadimlərindən biri — abbat Emmanuel Jozef Siyes (1748–1836) öz məşhur "Üçüncü silk" pamfletində fransız demokratlarının əsas vəzifələrini yığcam şəkildə belə ifadə etmişdi: "Üçüncü silk nədir? Hər şey! İndiyəcən o nə olub? Heç nə! O nə olmaq istəyir? Nəsə bir şey!".

Özünün "İmtiyazlar haqqında" essesində Siyes ölkədə inqilab ərəfəsindəki feodal qaydalarını təsvir edərkən silk bölgüsünə söykənən mövcud siyasi sistemi amansızcasına ifşa edir, aristokratiyanın və ruhaniliyin imtiyazlarına qarşı öz qəti etirazını bildirirdi. Siyes sübut edirdi ki, bu imtiyazlar nəinki qeyri-qanunidir, eləcə də büsbütün əxlaqsızdır, çünki həm insanı, həm də cəmiyyəti mənəvi iflasa və pozğunluğa sürükləyir.

EMMANUEL JOZEF SİYES

# İmtiyazlar haqqında esse (1789)

*Xalq sadəlövhlüklə hesab edir ki, yalnız qanunda yazılan hüquqlara malikdir...*
*Azadlıq hər hansı cəmiyyətdən, hər hansı qanunvericidən əvvəl yaranmışdır...*

Adətən belə deyilir ki, imtiyaz onu əldə edənlərə xoşbəxtlik, başqalarına yoxsulluq gətirir. Əgər bu belədirsə, onda razılaşın ki, imtiyaz yararsız bir şeydir. Təsəvvür edək ki, hər hansı cəmiyyət yüksək inkişaf edib və mümkün olan qədər xoşbəxtdir; aydın deyilmi ki, onun tam dağılması üçün bir qismə hər şeyə icazə verib, başqalarını hər şeydən məhrum etmək kifayətdir?.. Bütün imtiyazlar ya qanuna tabe olmaqdan azad edir, ya da qanunla hamı üçün müəyyənləşdirilmiş hər hansı şeyə müstəsna hüquq verir. İmtiyazların mənası da bundadır ki, kimlərsə ümumi qanunlara tabe olmasın, buna isə bu iki yoldan biri ilə nail olmaq olar.

Hər şeydən öncə özümüzə sual verək: qanunun mövzusunu nə təşkil edir? Əlbəttə, bu, kiminsə başqasının azadlığına və ya mülkiyyətinə qəsdinin qarşısını almaqdan ibarətdir. Qanunlar əhli-keflikdən yaranmır. Vətəndaşların azadlığını, əfsus ki, məhdudlaşdıran qanunlar isə sonda istənilən insan birliyi ilə ziddiyyətə girir və onların tez aradan götürülməsi daha yaxşı olardı...

Zəkanın uzun müddət köləlikdə saxlanılması təəssüf doğuran imtiyazların meydana gəlməsinə səbəb olmuşdur. Xalq sadəlövhlüklə hesab edir ki, yalnız qanunda yazılan hüquqlara malikdir. Göründüyü kimi, xalq yaddan çıxarmışdır ki, azadlıq hər hansı cəmiyyətdən, hər hansı qanunvericidən əvvəl yaranmışdır; adamlar ona görə cəmiyyətdə birləşmişlər ki, şərəfsizlərə qalib gəlsinlər və əldə etdikləri təhlükəsizliyin sayəsində mənəvi və fiziki istəklərinin qəti, çoxsahəli və məhsuldar inkişafına nail olsunlar. Qanunverici bizə hüquqlar vermək yox,

hüquqlarımızı qorumaq üçündür. Əgər qanunverici azadlığımızı məhdudlaşdırırsa, qoy onda onun hakimiyyəti yalnız cəmiyyətə zərər gətirə biləcək hərəkətlərə qarşı yönəlsin; buna görə də vətəndaş azadlığı qanunla yasaq olmayan hər şeyi əhatə edir.

Bu əsas prinsiplərə arxalanaraq imtiyazlar üzərində məhkəməyə başlayaq. Qanunun asılılığından azad edən imtiyazlar bu məhkəmənin qarşısında duruş gətirə bilmir. Belə ki, istənilən qanunda birbaşa və ya dolayısı ilə deyilir: "Yaxınlarına pislik etmə". Buradan da belə çıxır ki, "imtiyazlılara yaxınlarına pislik etməyə icazə verilir". Lakin kimliyindən asılı olmayaraq heç kəsin bu güzəşti verməyə ixtiyarı yoxdur. Əgər qanun yaxşıdırsa, hamı üçün məcburi olmalıdır, əgər pisdirsə, azadlığa qəsd etdiyinə görə ləğv edilməlidir...

Belə çıxır ki, bütün imtiyazlar ədalətsizliyi, şəri və istənilən siyasi orqanizmin yüksək amalına zidd olanları əks etdirir.

Fəxri imtiyazlar məhv edilməli olan imtiyazların ümumi siyahısından silinə bilməz. Çünki yuxarıda deyilmiş xüsusiyyətlərdən birini — qanunla qadağan olunmamış şeylərə müstəsna hüququ təmsil edir. Hələ onu demirik ki, çox vaxt imtiyazların ikiüzlülüklə "fəxri" adlandırılması ən rəzil pul maraqlarını gizlətməyə xidmət edir.

Məhz bu imtiyazlar çoxlu sayda insanların alçaldılmasına yönəlmişdir. İnsanın alçaldılmasını isə xırda günah hesab etmək olmaz. Necə ola bilərdi ki, üç yüz min adamın şərəfləndirilməsi xatirinə iyirmi beş milyon yeddi yüz min adam[3] alçaldılsın. Bunu başa düşmək olmur. Bu faktın, şübhəsiz, ictimai maraqla ortaqlı heç nəyi yoxdur...

Bir anlıq təsəvvür edin ki, imtiyazı alan adam hansı yeni hissləri keçirir. O, özünə bərabərlərin arasında özünü başqa zümrənin nümayəndəsi, millətin içərisində isə xüsusi ayrılmış millətin nümayəndəsi kimi hiss edir. O belə fikirləşir ki, əvvəla, yalnız onunla bir kastaya daxil olanlara borcludur... Cəmiyyət onu artıq maraqlandırmır. Sözündə və fikirlərində cəmiyyət onun üçün tezliklə xidmət etməkdən ötrü yaranmış insan sinfindən, sürüdən, tör-töküntüdən başqa bir şey deyildir. O özü isə hökm etmək və həzz almaq üçün yaranmışdır.

Bəli, imtiyazlılar həqiqətən bu fikrə gəlirlər ki, onlar başqadırlar... Mən imtiyazı olan hər bir vicdanlı və səmimi (əlbəttə, belələri varsa) adamdan soruşuram ki, o, xalq içərisindən çıxmış bir adamın mühafizəçi kimi deyil, elə-belə onun yanında görünməsindən ikrah hissi keçirirmi, xırda bəhanələrlə, kəskin və təhqiramiz sözlər işlədərək onu başdan rədd etməyə çalışırmı?..

Burayadək mən fərq qoymadan bütün imtiyazlar haqqında danışırdım... Əgər şər və mənasızlıqlar siyahısında dərəcə varsa, onda irsi imtiyazlılar, şübhəsiz, birinci yerdə olmalıdır. Və mən bu aydın həqiqəti sübut etmək üçün öz dəlillərimdən geri çəkilməyəcəyəm...

Gözlərimiz qarşısında millətin itaətkarlığı şəraitində imtiyazlılar kütləsinin necə artdığını müşahidə edirik. Onlar arxayındırlar ki, yalnız mənşələrinə görə malik olduqları hüquq onlara şan-şöhrət və insan nəslinin bir hissəsinə yiyəlik etmək imkanı verir.

İmtiyazlı cənabların təkcə özünü nəsə ayrı bir insan nəsli hesab etməsi də kifayət edərdi, amma yox... Onlar monarxiya rejimindəki istənilən cəmiyyət üçün özlərini bütöv bir imtiyazlı sinif kimi zəruri hesab edirlər. Onlar hökumət başçısı, yaxud monarxın özü ilə danışanda özlərini taxt-tacın dayağı və onu xalqın qəsdindən qoruyan təbii qoruyucular kimi təqdim edirlər, əksinə, xalqa müraciət edəndə onun guya həqiqi müdafiəçilərinə çevrilirlər — guya onlar olmasaydı, istibdad xalqı əzib məhv edərdi.

Bir az mərifəti olsaydı, hökumət başa düşərdi ki, cəmiyyətə yalnız qanunun himayəsi altında yaşayan və fəaliyyət göstərən vətəndaşlar, bir də üzərinə müdafiə və qoruma funksiyaları qoyulmuş mühafizə hakimiyyəti lazımdır.

Yeganə vacib iyerarxiya hakimiyyət aparatı işçilərinin arasında qoyulur; burada səlahiyyətlərin dərəcələnməsi vacibdir, aşağı və yuxarı pillələr arasında həqiqi qarşılıqlı münasibətlər yaradılmalıdır. Belə ki, ictimai mexanizm yalnız bu münasibətlərin əsasında hərəkətə gətirilə bilər.

Bunlardan başqa, qanun qarşısında yalnız bərabər vətəndaşlar mövcuddur. Onlar bir-birlərindən yox (bu, mənasız bir quldarlıq olardı), onları qoruyan, mühakimə, müdafiə və s. edən hakimiyyətdən asılı olmalıdır.

[3]Sìyesä görä, 1787-cì ìl üçün Fransanín ähalìsì 26 mìlyon näfär tääkìl edìrdì — *red.*

Ən zəngin mülklərə sahib olanlar gündəlik qazancla dolananlardan üstün olmamalıdır. Əgər varlı daha çox vergi verirsə, ondan öz mülklərinə daha çox qayğı göstərməsi tələb olunur. Və məgər ən məzlum dilənçi daha az qiymətlidir, onun hüquqlarına daha az hörmət edilməlidir?..

Vətəndaşlar arasında bütün münasibətlər azad xarakter daşıyır. Biri öz vaxtını, yaxud malını təklif edir, digəri isə əvəzində pulunu verir. Burada birinin digərindən asılılığının qoxusu da gəlmir, yalnız daimi mübadilə mövcuddur. Bütün vətəndaş sinifləri öz funksiyalarına malikdir, ümumi işin bir hissəsini təşkil edən öz işləri ilə məşğuldurlar ki, bu da cəmiyyətin ümumi inkişafını təmin edir...

Aşağı təbəqələrdən kimsə öz şəxsi əməyi sayəsində, yaxud sənətkarlığı ilə az-çox sərvət toplayarsa, ya da dövlət qulluqçusu daha asan yolla nəyəsə nail olarsa, dərhal imtiyazlı cənabların tamah dolu gözləri onlara yönəlir. Belə çıxır ki, yazıq millətimiz imtiyazlı sinfin zənginləşməsi üçün işləməyə və günbəgün yoxsullaşmağa məhkum edilmişdir.

Əkinçiliyin, fabriklərin, ticarətin və incəsənətin inkişafına çalışmağın, yüksəlməyin və yaratdıqları kapitalın bir hissəsini, xalqın rifahını artırmağa səy göstərməyin mənası yoxdur: imtiyazlı cənablar kapitalı da, adamları da udublar, hər şey qəti olaraq imtiyazlılar sinfinə verilmişdir.

İmtiyazlar mövzusu onu törətmiş və müdafiə etməkdə olan xurafat kimi sonsuzdur. Bu mövzunu kənara qoyaq və özümüzü nəticə çıxarmaq əziyyətindən qurtaraq. Vaxt gələr, gələcək nəsillər tariximizi oxuyarkən təhqirin ağırlığından donub qalacaq və layiq olanların adlarını ən ağır sözlərlə lənətləyəcəklər.

## 14. FRANSA İNQİLABI VƏ HÜQUQLAR BƏYANNAMƏSİ

Silklər Məclisinin (Fransa parlamenti) seçkilərindən sonra hər üç zümrədən olan deputatlar 5 may 1789-cu ildə kralın Versal sarayında öz ilk iclasına toplaşırlar. Tezliklə parlamentdə üstünlük tamamilə üçüncü silkin əlinə keçir. Bundan əsəbiləşmiş kral parlamentin fəaliyyətini dayandırmaq qərarına gəlir.

20 iyun 1789-cu ildə üçüncü silkdən olan deputatlar iclaslar salonunun giriş qapısına yaxınlaşarkən orada silahlı keşikçilərlə üzləşirlər. Keşikçilər salonun təmirə görə bağlandığını bildirirlər. Lakin deputatlar dağılışmaqdan qəti boyun qaçırır, yaxınlıqdakı tennis zalına toplaşaraq and içirlər ki, kral hakimiyyətini məhdudlaşdırıb feodal imtiyazlarını ləğv edən və əsas insan hüquqlarına təminat verən yeni Konstitusiya qəbul olunmayanacan buranı tərk etməyəcəklər.

Kral güzəştə getməli olur. O, qalan deputatlara da üçüncü silkə qoşulub parlamentin iclasını davam etdirməyi təklif edir. Tədricən deputatların əksəriyyəti demokratların irəli sürdükləri islahatların lehinə meyl göstərməyə başlayır. Birləşmiş deputatlar özlərini vəzifəsi ölkənin yeni Konstitusiyasını təsis etməkdən ibarət olan Milli Assambleya elan edirlər. Bu zaman kral parlamenti zor gücünə buraxmaq üçün qoşunları Parisə və Versala çəkib gətirməyə başlayır.

Kralın ikiüzlü siyasəti və Parisin çörəklə təchizatının kəskin pisləşməsi cəmiyyətdə gərginliyin artmasına səbəb olur. Parlamenti dəstəkləyən əhalinin gözünə hər yanda "aristokrat sui-qəsdi" görünməyə başlayır, şəhərə şayiə yayılır ki, kral qoşunları Bastiliya qalasının yanında cəmləşəcək. Paris qiyama qalxır. Qiyamçılar silah anbarlarını ələ keçirir, 14 iyul 1789-cu ildə isə hamının kral tiraniyasının rəmzi kimi tanıdığı Bastiliya ələ keçirilir (Bastiliyanın alınması günü Fransada milli bayram kimi qeyd olunur). Bu, artıq qiyam deyil, əsl inqilab idi.

Bastiliyanın alınmasından dərhal sonra Fransada iri torpaq sahiblərinə qarşı kəndlilərin üsyanı başlayır. Üsyançıları dəstəkləyən Milli Assambleya avqustun 6-da feodal imtiyazlarının və kilsə vergisinin (mədaxilin 10%-i) ləğv olunması barədə dekret qəbul edir. Bu dekretdən xəbər tutan kəndlilər yubanmadan kütləvi şəkildə aristokratların və katolik kilsəsinin torpaqlarını zəbt etməyə başlayırlar.

26 avqustda Milli Assambleya əsas insan hüquqlarının toxunulmazlığını elan edən "İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə"ni qəbul edir. 1789-cu ilin avqustunda nümayişçilərin tələbi ilə kral Versaldan Parisə köçür. Onun ardınca Milli Məclisin deputatları da Parisə gəlir və orada ölkənin yeni siyasi quruluşunun layihəsi üzərində işləməyə başlayırlar.

Milli Assambleya hər kəsin vətəndaş bərabərliyini və dövlətdə hər hansı vəzifəni tutmaq hüququnu qanuniləşdirir, katolik kilsəsinin torpaqlarını milliləşdirir və kilsəni dövlətdən ayırır; ölkənin seçkili inzibatçıların idarə edəcəyi departament, kanton və kommunalardan ibarət yeni və rasional inzibati bölgüsünü müəyyən edir, məhkəmə sistemini dəyişdirir (indən belə hakimlər də seçki yolu ilə təyin edilməlidir). Milli Assambleya ölkədə konstitusiyalı monarxiya qurmağa cəhd göstərir.

"İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə" dünyadakı liberal fikrin, düşüncə tərzinin bütün əvvəlki nailiyyətlərini özündə cəmləmiş mühüm tarixi sənəddir. Bəyannamədə ingilis və Amerika inqilablarının təcrübəsi (azadlıq, mülkiyyət, təhlükəsizlik və zorakılığa müqavimət göstərmək hüququ; təqsirsizlik prezumpsiyası), eləcə də Russonun xalq iradəsinin aliliyi haqqındakı baxışları əks olunmuşdur. Lakin bəyannamədə yeni ideyalar da var idi: qanunlar yalnız cəmiyyətə ziyan vuran şeyləri qadağan edə bilər; bütün vətəndaşlar bərabərdir və öz qabiliyyətlərinə uyğun olaraq istənilən vəzifəni tutmaq hüququna malikdir; vergilər insanın imkanlarına müvafiq ödənilməlidir.

Bəyannamə universal xarakter daşıyırdı — yalnız Fransa vətəndaşları üçün hüquq və azadlıqları deyil, həm də bütün bəşəriyyət üçün "təbii və ayrılmaz hüquqlar"ı bəyan edirdi. Bütün Avropaya yayılan bəyannamənin mətni geniş müzakirə edilərək inqilaba rəğbət, dəyişikliklərə meyl və həvəs oyadırdı.

Eyni zamanda, bəyannamənin tənqidçiləri sübut etməyə çalışırdılar ki, orada yazılmış qanunlar ritorika, sözçülükdən başqa şey deyildir və Fransada praktik olaraq bunları təmin etmək qeyri-mümkündür. Britaniya tarixçisi Karleyl həmin inqilabdan 45 il sonra yazırdı: "İnsan hüququ bütün kağız konstitusiyaların həqiqi kağız əsası deməkdir. "İnsanın vəzifələrini də göstərmək yaddan çıxıb!", — deyə opponentlər bağırırlar. "İnsanın imkanlarını da təsdiq etmək yaddan çıxıb", — deyə biz cavab veririk".

# FRANSA MİLLİ ASSAMBLEYASI

## İnsanın və vətəndaşın hüquqları haqqında bəyannamə (1789)

*...Azadlıq, mülkiyyət, təhlükəsizlik və zülmə müqavimət hüququ...*
*Qanunla qadağan olunmayan hər şeyə icazə verilir...*

Fransız xalqının nümayəndələri Milli Assambleya yaradaraq nadanlığın, insan hüquqlarının unudulması və ya onlara biganəliyin ictimai bəlaların və hökumətlərin korrupsiyaya uymasının yeganə səbəbi olduğuna əsaslanaraq bu təntənəli Bəyannamədə insanın təbii, ayrılmaz və müqəddəs hüquqlarını bu məqsədlə təsdiq edir ki, ictimai ittifaqın bütün üzvlərinə öz hüquq və vəzifələrini daim xatırlatsın;

qanunvericilik və icra hakimiyyətinin hərəkətləri hər an istənilən siyasi təsisatın məqsədilə müqayisə edilə və daha çox hörmətlə qarşılana bilsin və

vətəndaşların bu andan sadə və şəksiz prinsiplərə əsaslanan tələbləri Konstitusiyaya əməl edilməsinə və cəmiyyətin ümumi rifahına yönəlsin.

Buna uyğun olaraq, Milli Assambleya Ali varlığın qarşısında və onun himayəsi altında insan və vətəndaşın aşağıdakı hüquqlarını qəbul və bəyan edir.

1. İnsanlar azad və bərabər hüquqlarla doğulur və yaşayırlar. İctimai fərqlər yalnız ümumi mənafe ilə bağlı fikirlərə əsaslana bilər.

2. Hər hansı siyasi ittifaqın məqsədi insanın təbii və ayrılmaz hüquqlarının təmin edilməsindən ibarətdir. Bunlara azadlıq, mülkiyyət, təhlükəsizlik və zülmə müqavimət hüquqları daxildir.

3. Xalq mahiyyətcə suveren hakimiyyətin mənbəyini təşkil edir. Fərdlərin heç bir birliyi, heç bir fərd xalqdan gəlməyən hakimiyyətə malik ola bilməz.

4. Azadlıq başqasına ziyan vurmayan hər şeyi etmək imkanından ibarətdir: beləliklə, hər bir insanın "təbii hüquq"larının həyata keçirilməsi yalnız cəmiyyətin digər üzvlərinin uyğun hüquqlardan istifadəsini təmin edən hədlərlə məhdudlaşdırılır. Bu hədlər yalnız qanunla müəyyənləşdirilə bilər.

5. Qanun yalnız cəmiyyətə zərərli olan hərəkətləri qadağan etmək hüququna malikdir. Qanunla qadağan olunmayan hər şeyə icazə verilir və qanunla nəzərdə tutulmayanları etməyə heç kəsi məcbur etmək olmaz.

6. Qanun ümumi iradənin ifadəsidir. Bütün vətəndaşlar şəxsən, yaxud nümayəndələri vasitəsilə qanunun yaradılmasında iştirak etmək hüququna malikdir. Qanun hamı üçün olmalıdır, o qoruyur, yaxud cəzalandırır. Bütün vətəndaşlar qanun qarşısında bərabərdirlər və ona görə də qabiliyyətlərinə uyğun olaraq, şəxsi keyfiyyətlərini və istedadlarını şərtləndirən fərqlərdən başqa hər hansı fərqdən asılı olmayaraq bütün ictimai mənsəbləri (1), yerləri və yaxud vəzifələri tutmaq hüququna malikdirlər.

7. Heç kəs qanunda nəzərdə tutulandan və onun nəzərdə tutduğu prosedurlardan irəli gələnlərdən başqa heç bir halda ittiham edilə, saxlanıla, yaxud həbs edilə bilməz. Özbaşınalıqla sorğu-suala tutan, əmr verən, onu icra və yaxud icraya məcbur edən hər kəs cəza almalıdır; qanunun hökmü ilə çağırılmış, yaxud saxlanılmış hər bir vətəndaş ona sözsüz tabe olmalıdır: o, müqavimət göstərdiyi halda məsuliyyət daşıyır.

8. Qanun yalnız ciddi və şəksiz zəruri cəzalar müəyyən etməlidir; heç kəs qanun pozuntusundan əvvəl qəbul olunmamış və xalqa elan edilməmiş, müvafiq qaydada tətbiq edilməmiş qanunla cəzalandırıla bilməz.

9. Hər bir kəs günahı elan edilənə qədər günahsız sayılır; şəxsin həbsinin zəruri olduğu hallarda hər hansı artıq lüzumsuz ciddi tədbirlərin qarşısı qanunla qəti şəkildə alınmalıdır.

10. Heç kəs öz baxışlarına, hətta dini baxışlarına görə sıxışdırılmamalıdır, bir şərtlə ki, onların ifadə olunması qanunla müəyyənləşdirilmiş ictimai asayişi pozmasın.

11. Fikir və mövqeyin azad ifadəsi insanın ən qiymətli hüquqlarından biridir; hər bir vətəndaş yalnız sui-istifadə hallarında qanun qarşısında cavab verməklə öz fikrini azad deyə, yaza, dərc etdirə bilər.

12. İnsan və vətəndaş hüquqlarının təminatı üçün dövlətin gücü vacibdir; bu güc ixtiyar sahiblərinin şəxsi maraqları üçün deyil, hamının mənafeyinə xidmət etmək üçün yaradılır.

13. Dövlət qüvvələrinin saxlanılması və idarə edilməsi xərcləri üçün ümumi rüsumların yığılması zəruridir; onlar bütün vətəndaşlar arasında imkanlarına uyğun olaraq bərabər bölüşdürülməlidir.

14. Bütün vətəndaşlar özləri, yaxud nümayəndələri vasitəsilə dövlət rüsumlarının zəruriliyini müəyyənləşdirmək, onun alınmasına könüllü razılaşmaq, onun xərclənməsinə nəzarət etmək, pay həcmini, əsasını, qaydasını və alınma müddətini təyin etmək hüququna malikdir.

15. Cəmiyyətin hər hansı vəzifəli şəxsdən ona tapşırılmış idarəetmə sahəsinə dair hesabat tələb etmək hüququ var.

16. Hüquqların təminatının mövcud olmadığı və hakimiyyətin bölüşdürülmədiyi cəmiyyətdə Konstitusiya yoxdur.

17. Mülkiyyət toxunulmaz və müqəddəs hüquq olduğuna görə heç kəs ondan məhrum edilə bilməz. Bu, yalnız qanun vasitəsilə şəksiz ictimai zərurətin müəyyən olunduğu halda ədalətli və əvvəlcədən edilmiş ödənişdən sonra edilə bilər.

---

1. Dövlət mənsəbləri nəzərdə tutulur — *red.*

## FRANSADA VƏ AVROPADA
## RESPUBLİKAÇILIQ VƏ ƏKSİNQİLAB

Fransa inqilabını tanımaq istəməyən bir çox aristokratlar və din xadimləri ölkəni tərk edirlər. Ancaq onlar çox da uzaqlara getməyib Fransanın sərhəd rayonlarında hərbi dəstələr yaradaraq Avropa monarxlarını tezliklə onların ölkələrinin də yoluxa biləcəyi inqilab "taun"una qarşı mübarizəyə səsləyirlər. Geniş antifransız ittifaqının yaranması üçün onların əlinə bəhanəni tezliklə elə fransız inqilabçılarının özləri verirlər. Fransa Milli Assambleyası beynəlxalq hüququn yeni və inqilabi prinsipini — "millətlərin öz müqəddəratını təyinetmə hüququ"nu bəyan edir. Bundan dərhal sonra fransız qoşunları papa ərazisinə — Avinyona girir. Bu "küfr"dən hiddətlənən Avropa dövlətləri Fransız əksinqilabçılarına hərtərəfli yardım göstərməyə və ölkələrindəki demokratik qüvvələri amansızcasına təqib etməyə başlayırlar. 20 aprel 1792-ci ildə Fransa Avstriya və Prussiyaya müharibə elan edir. Bu müharibənin ali məqsədi demokratiyanı bütün Avropaya yaymaq idi.

Müharibə fransız ordusunun uğursuzluğu ilə başlayır. Avstriya–Prussiya qoşunlarının Paris üzərinə yeriməsi fransız millətçiliyinin güclənib alovlanmasına təkan verir. Yüz minlərcə könüllü inqilabi ordunun sıralarına axışır. 1792-ci il aprelin sonlarında sapyor hissəsinin kapitanı Jozef Ruje de Lil bir gecənin içində "Reyn ordusunun döyüş nəğməsi"ni yazır. Bu coşqun vətənpərvər himn Marselə gedib çıxır və artıq buradan könüllülərin dilində "Marselyoza" adıyla Fransa inqilabının simvollarından biri kimi bütün ölkəyə yayılır. 1795-ci ildə "Marselyoza" Fransa Respublikasının milli himni olur.

20 sentyabr 1792-ci il inqilabi ordu Valma yaxınlığında Prussiya qoşunlarını çökdürür. Ertəsi gün Milli Assambleya monarxiya rejiminin devrildiyini və respublika qurulduğunu elan edir. Respublika ordusu cəmi bir neçə ayın içində əksinqilabi ittifaq üzərində bir sıra parlaq qələbə çalaraq Belçika, Reynland, Savoy və Nitsanı ələ keçirir. Devrilmiş kral Fransa dövlətinin düşmənləri ilə əməkdaşlıqda ittiham olunur və 21 yanvar 1793-cü ildə edam edilir.

Birinci Fransa inqilabı 9 noyabr 1799-cu ildə süquta uğrayır, saysız-hesabsız müharibələrdən və daxili sarsıntılardan sonra hakimiyyət artıq diktatorun — gənc və uğurlu general Napoleon Bonapartın əlinə keçir. Napoleonun hakimiyyəti zəbt etməsi inqilabın sonundan xəbər versə də, o öz işğalçı yürüşləri ilə hüquq bərabərliyi iddiasını və respublika dövlətçiliyi ideyalarını istər-istəməz bütün Avropaya yayır. Beləcə, Avropada köhnə rejimin xarabalıqları içərisindən demokratiyanın zəfər yürüşü başlanır.

JOZEF RUJE DE LİL

## Marselyoza (1792)

İrəli, yurd oğulları!
Gəlib çatıb şöhrət anı.
Qoşun çəkir bizə sarı,
Qanlı bayraqlar tiranı.
Əsgərlərin vəhşi səsi
Dəlib keçir qulaqları,
Qadınları, uşaqları
Qorxudur ölüm hədəsi.

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Bizlərdən nə istəyir ki,
Kölələr-krallar ordusu?..
Onlar qandal hazırlayır

Çoxdan fransıza axı!
Qandal — rüsvayçılıq! Aman!
Ürəkdə qəzəb alışır.
Nə üçün qul tək danışır
Onlar bizimlə hər zaman?!

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Gəlmələrə arxalanıb,
Qanun yazır onlar bizə.
Satın alınmış gədalar
Sahib çıxır evimizə.
İlahi! Düşmüşük dara!
Qollarımız zəncirdədi —
Qul olaq deyə əbədi
Despotlara, tiranlara!

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Əsməcəyə düşsün tiran
Başının küt dəstəsiylə.
Məkrli məmləkət quran
Cəzalansın haqq səsiylə.
Əsgər olmuşuq hamımız,
Gənc igidlər həlak oldu.
İkiqat artıq doğulduq
Yenmək üçün sizləri biz.

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Fransızlar! Böyük ürək
Döyüşdən bezmiş hər kəsi,
Siz mərdlərə göstərərək,
Amana çağırır sizi!
Amma qanlı və qəddardır
Buye'yə şərik olanlar.
Bir yırtıcı kimi onlar,
Anaya da amansızdır.

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Ey müqəddəs yurd sevgisi,
Apar bizi intiqama.
Azadlıq! Şəhid bil bizi,

Yox onlara  xilas amma.
Qoy bayraq kimi  yüksəlsin
Qələbənin  qadir  səsi.
Şöhrət olur yurd sevgisi,
Qoy müştəbeh düşmən bilsin.

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

Yolda ki canlar qoyublar,
Biz o yolla gedəcəyik.
Mərdlər harda uyuyublar
Orada and içəcəyik.
Ölmək xoşdur igidlər tək
Dözmək alçaltmasın bizi,
Toplayaraq gücümüzü,
Təki qisas alıb ölək.

Silahlanın, vətəndaşlar!
Birləşin bir cərgədə siz!
İrəli! İrəli!
Düşmənlərin al qanıyla
Qoy boyansın çöllərimiz!

## 16. İLK MÜHAFİZƏKARLAR İLK LİBERALLARA QARŞI

### Edmund Börk

Fransa inqilabı təkcə Avropanın mütləqiyyətin hökmran olduğu ölkələrində deyil, həmçinin parlamentli Britaniyada da düşüncələrdə təlatüm yaratdı. Tarixdə görünməmiş dövlət quruluşu — *insan hüquqlarının qorunmasını özünün məqsədi elan edən respublika* o dövrün siyasi filosoflarının diqqətini cəlb edərək onların öyrənmə, mədh və narahatlıq obyektinə çevrildi. Britaniya, sonra isə XIX əsrin Avropa mühafizəkarlığı məhz qalib gəlmiş fransız liberalizminin ideyaları ilə mübarizədə formalaşmağa başlamışdı...

Britaniya mühafizəkarlığının banisi irland protestantı Edmund Börk (1729–1797) hesab olunur. Mahir polemikaçı, filosof və siyasi xadim Börk 1776-cı ildə parlamentə seçilir və görkəmli natiq və erudit kimi şöhrət qazanır. Börk parlamentdə köləliyin və kölə alverinin ləğvi uğrunda mübarizə aparır, Amerika kolonistlərinin və bir az əvvəl zəbt edilmiş Hindistanın əhalisinin müdafiəsi üçün çıxış edir. Viqlər Partiyasının əqidəli üzvü olan Börk xalq idarəçiliyi və insan hüquqları konsepsiyasına skeptik münasibətinin nəticəsi olaraq sonralar torilik ideologiyasının əsasını təşkil etmiş öz ideya və baxışlarının kompleksini irəli sürür. Fransa inqilabının və hər bir inqilab kimi onun gətirdiyi qarışıqlıqların şahidi olan Börk özünün *"Fransada inqilab haqqında düşüncələr"* kitabında belə bir mövqedən çıxış edir ki, *insan öz taleyini həll etmək hüququnu dövlətə verməlidir, dövlət isə insanların qayğısına qalmalıdır.* Börk həmçinin hesab edirdi ki, dövlət insanların iradəsindən nə qədər az asılı olsa, bir o qədər yaxşıdır.

EDMUND BÖRK

# Təbii hüquqlara hücum (1790)

*Dövlət "təbii hüquq"ların müdafiəsi üçün yaradılmır... Dövlət... insanın ehtiyaclarını ödəmək üçün yaradılmışdır.*

...əgər mülki cəmiyyət [ictimai] müqavilənin nəticəsi kimi yaranırsa, onda bu müqavilə onun qanununa çevrilməlidir. Bu müqavilə onun əsasında formalaşdırılan dövlət quruluşunun bütün tərəflərini məhdudlaşdırmalı və onlara düzəlişlər verməlidir. Qanunverici, məhkəmə, yaxud icra hakimiyyətinin istənilən forması bu müqavilədən irəli gəlmişdir. Onlar hər hansı başqa vəziyyətdə mövcud deyildir və necə ola bilər ki, mülki cəmiyyət müqaviləsinin təsiri altında olan hər hansı şəxs bu müqavilədən irəli gəlməyən hüquqları tələb etsin, ona tamamilə zidd olan hüquqlar tələb etsinə

Mülki cəmiyyətin ilkin motivlərindən biri — sonralar onun əsaslı qaydalarından birinə çevrilmiş bu motiv ondan ibarətdir ki, *heç kəs onun öz işində hakim olmamalıdır* (1). Bununla mülki cəmiyyətdə yaşayan hər bir şəxs dərhal özünü müqavilə ilə möhkəmləndirilməyən əsas insan hüquqlarının birincisindən (yəni özü ilə bağlı məsələdə hakim olmaq və öz işində öz hüquqlarını müdafiə etmək hüququndan) ayırır. Burada o özünün hökmdarı olmaq hüquqlarının hamısından imtina edir. Onun bu hüquqdan imtina etməsinə özünümüdafiə hüququndan da — ilkin təbii hüququndan imtina etməsi də daxildir. İnsanlar eyni vaxtda qeyri-mülki və mülki hüquqlardan bəhrələnə bilməzlər. İnsan onun üçün ən vacib məsələlərlə bağlı qərar qəbulu hüququndan imtina edir, lakin ədalət məhkəməsi əldə edir. O, bir qədər azadlıq qazanır və ona görə də öz hüquqlarından onların bütövlükdə qorunacağına inanaraq imtina edir...

Dövlət "təbii hüquq"ların müdafiəsi üçün yaradılmır... Dövlət — bu insan müdrikliyinin törəməsi insanın ehtiyaclarını ödəmək üçün yaradılmışdır. İnsanların haqqı var ki, onların ehtiyacları bu müdrikliklə ödənilsin. Bu ehtiyacların içərisində mülki cəmiyyət üçün çox vacib olan bir ehtiyac — insan ehtiraslarının kifayət qədər məhdudlaşdırılması zərurəti xüsusi olaraq nəzərə alınmalıdır. Cəmiyyət yalnız tək adamın ehtiraslarının cilovlanmasını deyil, insan kütlələrinin, qruplarının meyllərinin məhdudlaşdırılmasını, onların iradəsinə nəzarət olunmasını, onların hamısının ehtiraslarının asılı vəziyyətə salınmasını tələb edir.

Bütün bunlar èinsanların iradə və istəklərinə tabe etdirilmiş hakimiyyətlə deyil, onlardan kənarda olan hakimiyyətlə, vəzifəsi cilovlamaq və tabe etdirməkdən ibarət olan hakimiyyətlə həyata keçirilə bilər. Bu mənada insanların üzərinə qoyulmuş məhdudiyyətlər (onların azadlıqları kimi) onların hüquqları sayılmalıdır. Lakin nə qədər ki, azadlıq və məhdudiyyətlər zaman və şəraitdən asılı olaraq dəyişilir və burada sonsuz modifikasiyalara məruz qalır, onlar hansısa mücərrəd qaydalara əsaslana bilməz; və belə prinsipə(2) əsaslanaraq bu azadlıq və məhdudiyyətləri müzakirə etməkdən də axmaq bir şey yoxdur...

*"Fransada inqilab haqqında düşüncələr"*

1 Bax: Tomas Hobbs, "Sülhün qaydaları" — *red.*
2. İnsanın təbii hüquqlarının ayrılmazlığı prinsipi nəzərdə tutulur — *red.*

17. SİYASİ HÜQUQLAR ŞƏXSİ AZADLIĞI POZANDA

## Bencamin Konstan

Fransız liberalizminin ideoloqu, yazıçı və siyasi xadim Bencamin Konstan de Rebek (1767–1830) 18-ci əsrin sonu — 19-cu əsrin başlanğıcında Fransada baş verən böyük tarixi hadisələrin müasiri olmuşdur.

İsveçrədə ortabab zadəgan ailəsində doğulmuş Konstan sonralar Almaniya və Fransada mükəmməl təhsil alır. 1799-cu ildə əqidəsi üzündən hersoq Braunşveyqin yanındakı işi ataraq inqilab cəbhəsinə qoşulur. 1799-cu ildə Napoleon onu öz yanında qulluğa dəvət edir. Lakin tezliklə Konstan diktatora qarşı müxalifətə keçir və 1803-cü ildə 11 il müddətinə Fransanı tərk etməli olur. O, mühacirətdə olarkən, Höte və Şillerlə yaxşı ünsiyyət yaradır, iki dövri nəşrə redaktorluq edir, fəal təbliğat işi aparır. Konstan vətənə yalnız 1814-cü ildə — monarxiya bərpa edildikdən sonra qayıdır. Lakin möhkəm əqidəli respublikaçı olan Konstan "heç nəyi unutmaq və heç nəyi öyrənmək istəməyən" monarxistlərlə ümumi dil tapa bilməyib onlardan üz döndərir.

Konstanın cəmiyyətdəki nüfuzu o qədər böyük idi ki, Napoleon onunla köhnə ədavətinə baxmayaraq, hakimiyyətə "yüzgünlük" qayıdışı dövründə yeni Konstitusiyanı tərtib etməyi məhz ona tapşırır. Monarxiyanın ikinci bərpasından sonra Konstan yenə Fransanı tərk etməli olur. Lakin bu mühacirət uzun çəkmir, tezliklə o, vətənə qayıdır və öncül demokrat publisistlərdən biri olur. 1819-cu ildə o, Deputatlar Palatasına (qanunverici məclis) üzv seçilir və kral partiyasına qarşı müxalif fraksiyanın liderinə çevrilir. 1830-cu il inqilabından sonra Konstan Fransa Dövlət Şurasının sədri seçilir, lakin elə həmin il də dünyasını dəyişir.

Konstanın parlament qarşısındakı çıxışından aşağıda verdiyimiz parçada o, insanın yalnız siyasi azadlıqlarının deyil, şəxsi azadlıqlarının da qorunması zərurətini inandırıcı şəkildə sübuta yetirir. Onun antik demokratiya və müasir liberal demokratiya arasındakı fərqlərlə bağlı apardığı parlaq təhlil liberal publisistikanın klassik nümunəsi sayılır.

Konstanın fikrincə, qədim yunanlar və romalılar onun müasiri olan avropalılarla müqayisədə daha geniş siyasi hüquqlara yiyələnmişdilər. Lakin onların, demək olar ki, heç bir şəxsi azadlığı (özünüifadə, sərbəst hərəkət etmək, peşə fəaliyyəti azadlığı) yox idi. Konstan öz müasirlərini monarxiyaçıların can atdıqları kimi, şəxsi azadlıqları məhdudlaşdırmaq, sabitlik naminə bu azadlığı qurban vermək, yaxud Fransa inqilabı dövründə olduğu kimi, kollektiv mənafelər naminə bu azadlığı saya salmamaq kimi təhlükəli meyllərdən çəkindirmişdir.

Konstan təkidlə söyləyirdi ki, siyasi azadlıqlar bizim şəxsi azadlığımızın təminatçısı olmalıdır. Şəxsi azadlığı olmayan insan bədbəxtdir, onun ləyaqəti alçaldılır, bundan əlavə, onun qabiliyyətlərinin inkişafı və deməli, onun həyat şəraitinin yaxşılaşdırılması qeyri-mümkündür.

BENCAMİN KONSTAN

## Qədim insanların azadlığı müasirlərin azadlığı ilə müqayisədə (1819)

*Fərdi müstəqillik müasir insanın əsas tələbatıdır; deməli, heç vaxt ondan siyasi azadlığın bərqərar olması naminə hər hansı qurbanlara getməyi tələb etmək olmaz.*

Əvvəlcə, cənablar, özünüzdən soruşun ki, ingilis, fransız və Amerika Birləşmiş Ştatları vətəndaşı "azadlıq" sözü altında nə başa düşür?

Onlardan hər biri üçün bu, yalnız qanunla təqib olunmaq və hər hansı fərdin, yaxud fərdlərin özbaşınalığı üzündən həbs oluna, saxlanıla, edam edilə bilməmək, yaxud qəddarlığa məruz qala bilməmək hüququ deməkdir.

Bu, hər kəsə öz fikrini bildirmək, sənət seçmək və ondan istifadə etmək, mülkiyyətdən qurtulmaq və hətta ondan israfçılıqla istifadə etmək hüququ deməkdir; bu, icazəsiz gedib-gəlmək və öz hərəkətlərinə görə izahat verməmək hüququ deməkdir. Bu, hamının başqa şəxslərlə öz maraqları ilə bağlı məsələləri müzakirə, yaxud onların öz həmfikirləri ilə birlikdə seçdikləri dini təbliğ etmək, yaxud hətta sadəcə olaraq, öz meyl və istəklərinə uyğun bu cür vaxt keçirmək üçün birləşmək hüququ deməkdir. Nəhayət, bu, hər kəsin bütövlükdə, yaxud konkret hakimiyyət nümayəndələrini seçməklə və ya hakimiyyət orqanlarının bu və ya başqa şəkildə diqqət yetirməli olduqları nümayiş, petisiya, tələblər vasitəsilə hökumətin fəaliyyətinə təsir etmək hüququdur. İndi isə bu azadlığı qədim insanların azadlığı ilə müqayisə edin.

Qədim insanların azadlığı tam suverenliyin bir neçə ünsürünün kollektiv və birbaşa həyata keçirilməsindən, şəhər meydanında müharibə və sülh məsələlərinin müzakirəsindən, xarici dövlətlərlə ittifaq bağlanılmasından, qanunlar qəbul olunması və hökmlər çıxarılmasından, magistratların xərcləri, fəaliyyəti və idarəçiliyinin yoxlanılmasından, onların mühakimə, ittiham edilməsi, yaxud işdən kənarlaşdırılması üçün xalq yığıncağına çağırılmasından ibarət idi. Bu deyilənləri qədim insanların təbirincə azadlıq kimi qəbul etsək, göstərməliyik ki, onlar hakimiyyətin şəxsiyyəti əsarətdə saxlamasının kollektiv azadlıqla uyğunlaşdırılmasını mümkün hesab edirlər. Siz bütün bunların içərisində bir az əvvəl gördüyümüz və müasir insanların azadlığını təşkil edən cəhətlərdən, demək olar ki, heç birini görə bilməzsiniz. *Bütün şəxsi işlər ciddi nəzarətə götürülürdü. Nə fikrə, nə əməyə münasibətdə, nə də hər şeydən əvvəl, dində şəxsi müstəqilliyə əhəmiyyət verilirdi. İnsanların dini meyllərini müəyyənləşdirmək hüququ — bizim daha dəyərli hesab etdiyimiz bu hüquq qədim insanlar üçün cinayət və kafirlik kimi görünürdü. Bizim daha vacib saydığımız sahələrdə xalq hakimiyyəti fərdlərin şəxsi həyatına müdaxilə edir və onların öz iradəsini yerinə yetirməsinə mane olurdu.*

Spartada Ferpandr eforların qorxusundan öz lirasına bir tel belə əlavə edə bilmirdi. Xalq hakimiyyəti insanların ən incə şəxsi işlərinə də müdaxilə edirdi. Gənc makedoniyalı öz adaxlısı ilə də azad görüşə bilmirdi. Romada senzor cəmiyyətdə ailə həyatını ciddi nəzarət altında saxlayırdı. Adətlər qanunlarla nizamlanırdı, adətlər isə həyatın bütün sahələrini əhatə etdiyinə görə qanunların toxunmadığı, demək olar ki, heç nə qalmırdı.

Beləliklə, qədim insan dövlət işlərində əsasən suveren olmaqla yanaşı, bütün şəxsi münasibətlərdə kölə idi. Vətəndaş kimi o, müharibə və sülh məsələlərini həll edirdi; şəxsiyyət kimi isə bütün hərəkətlərində məhdudlaşdırılır, nəzarətə alınır və sıxışdırılırdı. Xalq hakimiyyətinin bir hissəsi kimi o öz magistratlarını və rəislərini istintaqa çəkir, istefaya göndərir, mühakimə və ya əmlakdan məhrum edir, sürgünə, yaxud ölümə məhkum edirdi; amma xalq hakimiyyətinin təsir obyekti kimi o özü də mənsub olduğu cəmiyyətin rəyi ilə statusdan, imtiyazlardan məhrum, sürgün edilə, edam oluna bilərdi. Müasir insanların içərisində, əksinə, hər kəs şəxsi həyatında müstəqildir, lakin hətta ən azad ölkələrdə belə yalnız zahirən suverendir. Onun suverenliyi məhduddur və demək olar ki, həmişə fəaliyyətsizdir. Əgər hər hansı qısa vaxt ərzində o, məhdudiyyət və maneələrin əhatəsində yenidən bu suverenliyini həyata keçirirsə, bunu həmişə yalnız ondan imtina etmək üçün edir...

Fərdi müstəqillik müasir insanın əsas tələbatıdır; deməli, heç vaxt ondan siyasi azadlığın bərqərar olması naminə hər hansı qurbanlara getməyi tələb etmək olmaz. Buradan belə nəticə çıxır ki, antik respublikaların fərdi azadlığa əngəl törədən çoxsaylı və yüksək dəyərləndirilən təsisatlarının heç biri müasir dövrdə məqbul deyildir.

Cənablar, əvvəla, siz düşünə bilərsiniz ki, bu, aydın həqiqətdir. Bəzi müasir dövlətlər antik respublikalara meyl edənə oxşamır. Düzdür, respublika təcrübəsini xoşlayan dövlətlər çox deyil, lakin bu təcrübəyə xas olan cəhətlərin bəzilərinə onların müəyyən bağlılığı hiss olunur.

Narahatlıq doğuran budur ki, onlar məhz qovmaq, sürgün və qarət etmək imkanlarını xoşlayırlar. Mən xatırlayıram ki, onlar 1802-ci ildə xüsusi tribunallar haqqında qanuna bir maddə salmışdılar. Həmin maddəyə görə, Fransada yunan ostrakizm (1) institutu təsbit olunurdu. Bir Allah bilir ki, bu düzəlişi müdafiə edən neçə bəlağətli natiq Afina azadlığı və fərdlərin bu azadlıq naminə verməli olduqları böyük qurbanlardan danışırdı!

Elə bu qaydada, bir az əvvəl mənfur hökumət, cəsarətsiz olsa da, seçkiləri saxtalaşdırmağa cəhd edirdi; respublikaçılıq meyli ilə seçilməyən jurnallardan biri bütün təhlükəli rəqibləri sıradan çıxarmaq üçün ölkədə Roma senzurasına oxşar senzuranın qoyulmasını təklif edirdi...

Fransada senzorluq kimi özbaşına bir institut dərhal gərəksiz və dözülməz bir şeyə çevrilərdi. Müasir ictimai şəraitdə əxlaq incə, dəyişkən, görünməz nüanslarla formalaşır. Bu nüansların daha dəqiq müəyyənləşdirilməsinə edilən hər hansı cəhd onların sonsuz sayda təhrifinə gətirib çıxarardı. Yalnız ictimai rəy onları başa düşə bilər; yalnız ictimai rəy onları mühakimə edə bilər, çünki hər ikisinin təbiəti eynidir. Onu daha dəqiq müəyyənləşdirməyə çalışan hər hansı hakimiyyət üsyanla üzləşməyə məhkumdur. Əgər müasir

insanların hökuməti Roma senzorları kimi vətəndaşı özbaşına senzuraya məruz qoyarsa, bütün millət hakimiyyətin qərarını təsdiq etməməklə bu qaydalara qarşı etiraz edərdi.

Müasir dövrdə senzuranın bərpaedilməsi haqqında dediklərimin hamısı ictimai təsisatların bir çox digər aspektlərinə da aiddir. Burada antik dövrlə müqayisə daha tez-tez və daha böyük həvəslə aparılır. Məsələn, təhsil; yeni nəslin idarə olunması ixtiyarının hökumətə verilməsinin (hökumət də onu kefi istəyən kimi formalaşdırsın) zəruriliyi haqqında nələr eşitmirik! Və bu nəzəriyyəni müdafiə etmək üçün nə qədər gözəl iqtibaslar gətirilmişdir! Farslar, misirlilər, qallar, Yunanıstan və İtaliya bir-birinin ardınca qarşımızda dayanırdı. Lakin, cənablar, biz despotun idarə etdiyi fars, kahinlərə tabe olan misirli, druidlərin(2) qurban gətirdikləri qall, nəhayət, dövlətin idarə edilməsində iştirakı ilə şəxsi köləliyinə görə təsəlli tapan yunan, yaxud romalı deyilik. Biz öz hüquqlarından istifadə etmək istəyən müasir insanlarıq. Bu hüquqlardan hər biri başqa adamlara zərər yetirmədən öz imkanlarımızı daha yaxşı inkişaf etdirmək, təbiətən bağlı olduğumuz uşaqların qabiliyyətinin təkmilləşdirilməsi üçün zəruridir, çünki maarif həyat deməkdir. Biz elə hökumət istəyirik ki, bizə yalnız ən ümumi təlimatlar versin, hansı yolla gediləcəyini deyil, yalnız ümumi marşrutu qəbul edən yolçular kimi baxsın.

Dini də keçmiş əsrlərin nümunəsi əsasında qurmağa çalışırlar. (Dini) yekdillik doktrinasının bəzi müdafiəçiləri yad allahlara qarşı qədimlərin qanunlarından iqtibaslar gətirir və katolik kilsə hüququnu müdafiə edirlər. Onlar politeizmə zərbə vurduğuna görə Sokratı öldürmüş afinalıları və ataların dininə sədaqəti tələb edən və ilk xristianları şirlərə yem edən Avqustu nümunə göstərirlər.

İcazə verin, cənablar, qədimlik qarşısında bu məftunluğa inanmayım. Müasir dövrdə yaşayırıqsa, mən müasir dövrə uyğun azadlıq istəyirəm; indi ki, monarxiya şəraitində yaşayırıq, mən bu monarxiyadan acizanə xahiş edirəm, bizə zülm etmək üçün antik respublikaların vasitələrini rəva görməsin.

Şəxsi azadlıq, təkrar edirəm, bizim günlərin əsl azadlığıdır. Siyasi azadlıq onun təminatıdır, deməli, siyasi azadlıq zəruridir. Lakin müasirlərimizdən qədimdə olduğu kimi siyasi azadlıq naminə bütün şəxsi azadlıqlarını qurban verməyi xahiş etmək onları şəxsi azadlıqlardan dərhal məhrum etmək deməkdir; nəticə əldə olunduqdan sonra isə onları siyasi azadlıqdan da məhrum etmək çox asan olacaqdır...

---

1 Sürgünetmə — *red.*
2 Qədim keltlərdə kahin — *red.*

## 18. KOMMUNİZM KABUSU

## Karl Marks və Fridrix Engels

Bütün ömrünü kommunist rejimi şəraitində yaşamış nəsil kommunist hərəkatının baniləri Karl Marks (1818–1883) və Fridrix Engelsin (1820–1895) əsərləri ilə yaxşı tanışdır. Balacalardan tutmuş böyüklərə qədər hamı bu müəlliflərin yazdıqlarını az qala əzbər öyrənməyə məcbur idi. Marksist doktrinasına zidd olan hər şey (istər ictimai elmlər sahəsində, istərsə də hətta fizika, riyaziyyat və biologiya sahəsində olsun) ya qadağan edilmişdi, ya da amansızcasına tənqid olunurdu.

80-ci illərin sonlarında dünya kommunist sistemi dağıldıqdan sonra postkommunist ölkələrində marksizm klassiklərinin baxışları ya büsbütün unuduldu, ya da istehza və gülüş hədəfinə çevrildi. Bütün bunlara baxmayaraq, indiki gənc nəsil üçün “Kommunist Partiyasının manifesti” ilə — 150 il ərzində dünyanın mənzərəsini əsaslı şəkildə dəyişmiş, bəşəriyyətin böyük bir hissəsinin düşüncəsinə, təfəkkürünə nüfuz etmiş bir sənədlə tanışlıq maraqlı və faydalı olardı.

Marks tarixin hərəkətverici qüvvəsi kimi istismar olunan və istismar edən siniflərin mübarizəsini sayırdı. Birgə əməyin nəticəsində əldə edilən gəlirin sahibkar və işçi arasında bazarda təyin edilmiş qiymətlərə uyğun şəkildə bölündüyünü iddia edən liberal iqtisadçılardan fərqli olaraq Marks belə hesab edirdi ki, sahibkar həmişə əlavə olaraq gəlirin qanuna görə ona məxsus olmayan hissəsini də mənimsəyir.

O göstərirdi ki, bu cür soyğunçuluq nəticəsində kapitalistlər getdikcə daha da varlanacaq, proletariat isə tədricən daha da yoxsullaşıb dilənçi kökünə düşəcəkdir. Bu acınacaqlı həyatdan əvvəl-axır cana doyan bütün ölkələrin proletarları birləşəcək, inqilab edəcək, kapitalistləri bir sinif kimi aradan qaldıracaq və yeni cəmiyyət — hamının bərabərlik və xoşbəxtliyini təmin edən kommunizm cəmiyyəti quracaqdır. Bu cəmiyyətdə heç bir ziddiyyət olmayacaq, hər kəs vicdanla, pulsuz zəhmət çəkəcək və nemətlərdən öz tələbatına görə istifadə edəcəkdir.

Marksın fikrincə, kommunizm cəmiyyətində insan hüquqları problemi öz mənasını büsbütün itirməli idi. Belə ki, Russonun da iddia etdiyi kimi, kommunist dövlətində ya hər bir fərd ümumi məqsəd naminə öz hüquqlarını qurban verməlidir, ya da onu zorla azad və xoşbəxt etməli olacaqlar.

Lakin tezliklə gerçək həyat Marksın iddialarını təkzib etdi. Artıq XIX əsrin sonlarında Avropa ölkələri əhalisinin müxtəlif qruplarının gəliri haqqındakı statistik məlumatlar göstərdi ki, kapitalistlərlə muzdlu fəhlələrin gəliri arasındakı fərq heç də artmır, əksinə, əhəmiyyətli dərəcədə azalır. Avropa ölkələrində çoxsaylı və nüfuzlu orta təbəqə yaranmağa başlasa da, bu faktlar marksistləri öz fikirlərindən döndərə bilmədi.

Marks nəzəriyyəsi Vladimir Lenin tərəfindən genişləndirildi və Oktyabr Sosialist inqilabından (1917) sonra Rusiyada tətbiq edildi. Bütün şəxsi mülkiyyət dövlətin əlinə keçdi; çar güllələndi, zadəganlar, burjuaziya və ruhanilər repressiya edildi, ölkədə Kommunist Partiyasının diktaturası quruldu. Bu eksperiment nəticəsində artıq 1922-ci ildə ölkə iqtisadiyyatı tamamilə dağıdıldı və çıxış yolu axtaran Lenin bazar iqtisadiyyatına qayıtmaq barədə fərman verməli oldu.

Leninin ölümündən sonra (1924) hakimiyyətə gəlmiş Stalin tez bir zamanda daha ardıcıl marksist olduğunu sübut etdi. O, bazar münasibətlərini heçə endirdi, ölkədə dövlət tərəfindən planlaşdırılan və idarə olunan sərt “sosialist iqtisadiyyatı”nı tətbiq etməyə başladı. Stalinin qurduğu modeldə işçini işləməyə qorxu məcbur edirdi — işə çıxmayan adamı həbs cəzası gözləyirdi. Bütün ölkə icbari əməkli böyük həbs düşərgəsinə çevrildi. Və sistem, nəhayət, işə düşdü. “Siyasi və iqtisadi sabotaja qarşı” kütləvi Stalin terrorunun gedişində ölkədə təxminən 20 milyondan çox vətəndaş məhv edildi. Stalin əhalinin bir hissəsini “ali məqsəd” naminə qurban verərək, SSRİ-ni sənaye dövlətinə çevirdi.

SSRİ-nin İkinci dünya müharibəsində (1939–1945) qələbəsindən sonra kommunist rejimi Şərqi Almaniyadan başlayaraq Çinə qədər yayıldı. İlk baxışda elə görünə bilərdi ki, kommunizmin “cahanşümul qələbəsi”nə lap az qalıb. Lakin Stalinin ölümündən sonra (1953) sovet kommunistləri ölkənin idarə olunması üzrə repressiya tədbirlərindən imtina etdilər. Nizam-intizam aşağı düşür, korrupsiya durmadan artırdı, ən başlıcası isə mərkəzləşdirilmiş iqtisadiyyat demokratik ölkələrin bazar iqtisadiyyatı ilə rəqabətə daha dözə bilmirdi. 80-ci illərin sonlarında Şərqi Avropa ölkələri gərgin mübarizədən sonra SSRİ-nin təsiri altından çıxıb çoxpartiyalı demokratiyaya və bazar iqtisadiyyatına tərəfdar olduqlarını elan etdilər. 26 dekabr 1991-ci ildə SSRİ dağıldı. 19-cu yüzilliyin ortalarında Avropada gəzən Marksın “kommunizm kabusu” elə kabus olaraq da qaldı...

KARL MARKS VƏ FRİDRİX ENGELS

## Kommunist Partiyasının manifesti (1847)

*Kommunizmin fərqləndirici cəhəti ümumiyyətlə mülkiyyəti ləğv etmək deyil, burjua mülkiyyətini ləğv etməkdir.*

Avropada bir kabus dolaşmaqdadır — kommunizm kabusu. Köhnə Avropanın bütün qüvvələri: papa və çar, Metternix və Gizo, fransız radikalları və alman polisləri bu kabusa qarşı müqəddəs bir təqib üçün birləşmişlər...

Artıq bütün Avropa qüvvələri kommunizmi bir qüvvə hesab edir.

Artıq indi kommunistlərin öz baxışlarını, öz məqsədlərini, öz niyyətlərini bütün dünya qarşısında açıq söyləməli olduqları və kommunizm kabusu haqqındakı əfsanələrə qarşı partiyanın öz manifestini irəli sürməli olduqları vaxt gəlib çatmışdır.

## BURJUALAR VƏ PROLETARLAR

İndiyə qədər mövcud olan bütün cəmiyyətlərin tarixi siniflər mübarizəsi tarixi olmuşdur. Azad insanla qul, patrisi ilə plebey, mülkədarla təhkimli, usta ilə şagird, müxtəsər, zalımla məzlum arasında əbədi bir antaqonizm olmuş, onlar gah gizli, gah da açıq şəkildə daim bir-biri ilə mübarizə aparmışlar və bu mübarizə həmişə bütün cəmiyyət binasının inqilabi surətdə yenidən qurulması və ya mübarizə edən siniflərin hamısının məhv olması ilə nəticələnmişdir...

Dağıdılmış feodalizm cəmiyyətinin içərisindən meydana çıxan müasir burjua cəmiyyəti sinfi ziddiyyətləri məhv etmədi. Bu cəmiyyət ancaq köhnələrin əvəzinə yeni sinifləri, yeni zülm şəraitini və yeni mübarizə formalarını meydana gətirdi.

Lakin bizim dövr, burjuaziya dövrü bununla fərqlənir ki, o, sinfi ziddiyyətləri sadələşdirmişdir: cəmiyyət getdikcə daha artıq dərəcədə bir-birinə düşmən olan iki böyük cəbhəyə, bir-birinə qarşı duran iki böyük sinfə — burjuaziya ilə proletariata parçalanır...

Müasir dövlət hakimiyyəti yalnız bütün burjuaziya sinfinin ümumi işlərini idarə edən bir komitədir.

Burjuaziya tarixdə son dərəcə inqilabi rol oynamışdır.

Burjuaziya hakimiyyət başına gəldiyi hər yerdə bütün feodal, patriarxal, idillik münasibətləri dağıtmışdır. O, insanı öz “təbii hökmdarlar”ına bağlayan alabəzək feodal buxovlarını amansızlıqla qırmış və insanlar arasında quru bir mənfəətpərəstlik, amansız “nağd pul” əlaqəsindən başqa heç bir əlaqə saxlamamışdır. O, dini vəcd, cəngavər coşqunluğu və meşşan sentimentallığının müqəddəs həyəcanlarını fərdi mənfəətpərəstliyin buzlu sularında qərq etmişdir. O, insanın şəxsi ləyaqətini mübadilə dəyərinə çevirmiş, əta olunan və əldə edilən saysız-hesabsız azadlıqları yeganə vicdansız bir ticarət azadlığı ilə əvəz etmişdir. Bir sözlə, o, dini və siyasi xülyalar pərdəsinə bürünmüş istismarı açıq, həyasız, müstəqim və rəhmsiz bir istismarla əvəz etmişdir...

Burjuaziya ümumdünya bazarını istismar etmək yolu ilə bütün ölkələrin istehsal və istehlakını kosmopolitik şəklə salmışdır. İrticaçıların çox böyük təəssüfünə səbəb olsa da, o, sənayeni milli zəmindən məhrum etmişdir. Ən qədim milli sənaye sahələri məhv edilmiş və hər gün məhv edilməkdədir...

Köhnə yerli və milli qapalılığın və öz istehsal məhsulları hesabına yaşamağın yerini millətlərin hərtərəfli əlaqəsi və onların bir-birindən hərtərəfli asılılığı tutur. Bu, eyni dərəcədə həm maddi, həm də mənəvi istehsala aiddir...

Burjuaziyanın əmtəələri ucuz qiymətə olur və bu ağır artilleriyanın köməyi ilə o hər cür Çin səddini yıxıb dağıdır və barbarların xaricilərə qarşı ən qızğın nifrətini təslim olmağa vadar edir...

O, kəndi şəhərdən asılı etdiyi kimi, barbar və yarımbarbar ölkələri də mədəni ölkələrdən, kəndli xalqları burjua xalqlardan, Şərqi Qərbdən asılı etmişdir...

Müxtəlif mənafeyi, qanunları, hökumətləri, gömrük vergiləri olan və bir-biri ilə, demək olar ki, yalnız ittifaq münasibətləri saxlayan müstəqil əyalətlər bir hökuməti, bir qanunvericiliyi, bir milli sinfi mənafeyi, bir gömrük sərhədi olan bir millət halında birləşmiş oldular...

Beləliklə, biz gördük ki, burjuaziyanın əmələ gəlməsi üçün əsas təşkil edən istehsal və mübadilə vasitələri feodalizm cəmiyyətində yaranmışdır. Bu istehsal və mübadilə vasitələri müəyyən inkişaf pilləsinə çatdıqda feodalizm cəmiyyətindəki istehsal və mübadilə münasibətləri, əkinçilik və sənayenin feodal qaydasında təşkili, bir sözlə, feodal mülkiyyət münasibətləri inkişaf etmiş məhsuldar qüvvələrə daha uyğun gəlmədi. Onlar istehsalı inkişaf etdirmək əvəzinə onu ləngidirdi. Onlar istehsal üçün bir buxov olmuşdu. Bu buxovları qırıb-dağıtmaq lazım idi və onlar dağıdıldı.

Onların yerini azad rəqabət tutdu, buna müvafiq ictimai və siyasi quruluş, burjuaziya sinfinin iqtisadi və siyasi hökmranlığı əmələ gəldi.

Gözümüz qarşısında da belə bir hərəkət baş verir. Burjua istehsal və mübadilə münasibətlərinə, burjua mülkiyyət münasibətlərinə malik olan və sanki ecazkarlıqla bu qədər qüdrətli istehsal və mübadilə vasitələri yaratmış olan müasir burjua cəmiyyəti öz əfsunlarının yer altından çağırdığı qüvvələrin daha öhdəsindən gələ bilməyən bir sehrbaza bənzəyir. Artıq on illərdən bəri sənaye və ticarətin tarixi müasir istehsal münasibətlərinə qarşı, burjuaziyanın və onun hökmranlığının varlığı üçün şərt olan mülkiyyət münasibətlərinə qarşı müasir məhsuldar qüvvələrin yalnız həyəcanı tarixindən ibarətdir...

Feodalizmi yıxarkən burjuaziyanın istifadə etdiyi silah indi burjuaziyanın özünə qarşı yönəldilir.

Lakin burjuaziya nəinki onu məhv edəcək bir silah hazırlamışdır; o, həmçinin bu silahı ona qarşı çevirəcək adamları da — müasir fəhlələri, proletarları da yaratmışdır...

Proletariat müxtəlif inkişaf pillələrindən keçir. Onun burjuaziyaya qarşı mübarizəsi həyata qədəm qoyduğu gündən başlanır.

Əvvəlcə ayrı-ayrı fəhlələr, sonra bir fabrikin fəhlələri, daha sonra isə müəyyən bir yerdə bir əmək sahəsinin fəhlələri onları bilavasitə istismar edən ayrıca bir burjuaya qarşı mübarizə aparırlar...

Ayrıca bir fəhlə ilə ayrıca bir burjua arasındakı toqquşmalar getdikcə daha artıq dərəcədə iki sinif arasındakı toqquşma xarakteri alır. Fəhlələr başlayıb burjualara qarşı koalisiyalar təşkil edirlər; onlar öz əmək haqlarını müdafiə etmək üçün birgə çıxış edirlər. Onlar baş verə biləcək toqquşmalar zamanı özlərini vəsaitlə təmin etmək üçün hətta daimi assosiasiyalar təsis edirlər. Bəzi yerlərdə mübarizə açıq üsyanlara çevrilir.

Fəhlələr arabir qalib gəlirlər, lakin bu qələbələr yalnız keçici bir qələbədir. Onların apardığı mübarizənin həqiqi nəticəsi bilavasitə müvəffəqiyyət olmayıb, fəhlələrin getdikcə daha geniş miqyasda birləşməsi olur. İri sənayenin yaratdığı və müxtəlif yerlərin fəhlələri arasında əlaqə düzəldən nəqliyyat vasitələrinin daim artması fəhlələrin birləşməsinə kömək edir. Hər yerdə eyni xarakter daşıyan mübarizənin bir çox yerli ocaqlarını mərkəzləşdirib vahid milli, sinfi mübarizə halına salmaq üçün də yalnız bu əlaqə lazımdır. Hər bir sinfi mübarizə isə siyasi mübarizədir...

## PROLETARLAR VƏ KOMMUNİSTLƏR

...Kommunistlərin də ən yaxın məqsədi bütün qalan proletar partiyalarının ən yaxın məqsədinin eynidir: proletariatın sinif halında formalaşması, burjuaziya hökmranlığının devrilməsi, siyasi hakimiyyətin proletariat tərəfindən ələ alınması...

Kommunizmin fərqləndirici cəhəti ümumiyyətlə mülkiyyəti ləğv etmək deyil, burjua mülkiyyətini ləğv etməkdir.

Lakin müasir burjua xüsusi mülkiyyəti sinfi antaqonizmlərə, bəzilərinin başqalarını istismar etməsinə əsaslanan məhsul istehsalı və mənimsənilməsinin son və mükəmməl ifadəsidir.

Bu mənada kommunistlər özlərinin nəzəriyyəsini bir müddəa ilə ifadə edə bilərlər: xüsusi mülkiyyəti məhv etmək...

Ailənin məhv edilməsi! Ən ifrat radikallar da kommunistlərin bu iyrənc niyyətindən hiddətlənirlər.

Müasir ailə, burjua ailəsi nəyə əsaslanır? Kapitala, xüsusi varlanmaya. Tamamilə inkişaf etmiş şəkildə bu ailə ancaq burjuaziya üçün mövcuddur, lakin onun belə bir əlavəsi vardır ki, proletarlar məcburiyyət üzündən ailəsiz qalır və açıq fahişəlik baş verir.

Burjua ailəsinin bu əlavəsi aradan qalxdıqda təbii olaraq bu ailə də aradan qalxır və kapital yox olduqda bunların hər ikisi yox olacaqdır.

Bəlkə siz bizi ittiham edirsiniz ki, biz ata-anaların öz uşaqlarını istismar etməsinə son qoymaq istəyirik? Biz bu cinayəti etiraf edirik...

Lakin bütün burjuaziya bir ağızdan bağırıb bizə deyir ki, siz kommunistlər arvadları ümumiləşdirmək istəyirsiniz.

Burjua öz arvadına adi bir istehsal aləti kimi baxır. O eşidir ki, istehsal alətlərini ümumi istifadəyə vermək nəzərdə tutulur, buna görə, əlbəttə, belə bir fikirdən uzaqlaşa bilmir ki, qadınların da başına bu cür iş gələcəkdir.

O heç xəyalına da gətirmir ki, burada qadının məhz adi bir istehsal aləti olması vəziyyətini aradan qaldırmaqdan bəhs olunur.

Kommunistlərdə arvadların guya rəsmi ümumiliyi barəsində bizim burjuaların yüksək əxlaq sahibləri kimi dəhşətə gəlməsindən daha gülünc bir şey yoxdur. Kommunistlərin arvadları ümumiləşdirməsinə ehtiyac yoxdur, bu ümumilik, demək olar ki, hər zaman mövcud olmuşdur.

Bizim burjualar, rəsmi fahişəlik hələ bir yana qalsın, öz fəhlələrinin arvad və qızlarının onların ixtiyarında olması ilə kifayətlənməyərək bir-birinin arvadlarını da ələ keçirməkdən xüsusi bir həzz alırlar.

Burjua kəbini əslində arvadların ümumiliyi deməkdir. Kommunistləri bəlkə də ancaq bunda ittiham etmək olardı ki, guya onlar arvadların riyakarlıqla pərdələnən gizli ümumiliyi əvəzinə rəsmi, açıq ümumiliyini həyata keçirmək istəyirlər. Lakin özlüyündə aydındır ki, indiki istehsal münasibətləri məhv edildikdə bu münasibətlərdən doğan arvad ümumiliyi də, yəni rəsmi və qeyri-rəsmi fahişəlik də yox olacaqdır.

Sonra kommunistləri ittiham edirlər ki, onlar vətəni, milliyyəti ləğv etmək istəyirlər.

Fəhlələrin vətəni yoxdur. Fəhlələrin olmayan bir şeyini onların əlindən almaq da olmaz. Proletariat ən əvvəl siyasi hökmranlığı ələ almalı, milli sinif vəziyyətinə çatmalı və bir millət kimi təşəkkül tapmalı olduğundan özü hələ millidir, hərçənd bu millilik heç də burjuaziyanın anladığı mənada deyildir.

Burjuaziya inkişaf etdikcə, ticarət azadlığı, ümumdünya bazarı yarandıqca, sənaye istehsalı və buna uyğun olan həyat şəraiti eyniləşdikcə, xalqların milli ayrılığı və əkslikləri getdikcə daha çox aradan qalxır...

Bir fərdi başqa fərdin istismar etməsi məhv edildiyi dərəcədə bir milləti başqa millətin istismar etməsi də məhv ediləcəkdir.

Millətlər daxilində siniflərin antaqonizmi ilə birlikdə millətlər arasındakı düşmənçilik münasibətləri də yox olub gedəcəkdir.

Dini, fəlsəfi və ümumiyyətlə, ideoloji nöqteyi-nəzərlərdən kommunizmə qarşı irəli sürülən ittihamları ətraflı nəzərdən keçirməyinə dəyməz.

İnsanların həyat şəraiti, onların ictimai münasibətləri, onların ictimai varlığı ilə birlikdə onların təsəvvürlərinin, baxışlarının və anlayışlarının, bir sözlə, onların şüurunun da dəyişildiyini anlamaq üçün məgər xüsusi bir dərin düşüncəmi lazımdır?..

Biz artıq yuxarıda gördük ki, fəhlə inqilabında birinci addım proletariatın hakim sinfə çevrilməsi, demokratiya əldə edilməsidir.

Proletariat öz siyasi hökmranlığından bütün kapitalı addımbaaddım burjuaziyanın əlindən almaq, bütün istehsal alətlərini dövlətin, yəni hakim sinif halında təşkil olunmuş proletariatın əlində mərkəzləşdirmək və məhsuldar qüvvələr məcmusunu mümkün qədər sürətlə artırmaq üçün istifadə edəcəkdir.

Bu, əlbəttə, əvvəlcə mülkiyyət hüququna və burjua istehsal münasibətlərinə ancaq zorakı müdaxilə vasitəsilə, yəni iqtisadi cəhətdən yarıtmaz və əsassız görünən, lakin hərəkət gedişində böyüyüb öz çərçivəsindən kənara çıxan və bütün istehsal üsulunda çevriliş üçün bir vasitə kimi labüd olan tədbirlər vasitəsilə mümkündür.

Əlbəttə, müxtəlif ölkələrdə bu tədbirlər müxtəlif olacaqdır.

Lakin ən qabaqcıl ölkələrin, demək olar, hamısında aşağıdakı tədbirlər tətbiq edilə bilər:

1. Torpaq mülkiyyətindən məhrum etmək və torpaq rentasından dövlət xərclərinin ödənilməsi üçün istifadə etmək.

2. Yüksək mütərəqqi vergi.

3. Vərəsəlik hüququnu ləğv etmək.

4. Bütün mühacirlərin və qiyamçıların əmlakını müsadirə etmək.

5. Dövlət kapitalına və müstəsna inhisara malik milli bank vasitəsilə krediti dövlət əlində mərkəzləşdirmək.

6. Bütün nəqliyyatı dövlətin əlində mərkəzləşdirmək.

7. Ümumi plan üzrə dövlət fabriklərinin, istehsal alətlərinin sayını artırmaq, torpaqları əkin üçün təmizləmək və yaxşılaşdırmaq.

8. Əməyin hamı üçün eyni dərəcədə məcburiliyi, sənaye orduları təşkil etmək, xüsusən əkinçilik üçün belə ordular təşkil etmək.

9. Əkinçiliyi sənaye ilə birləşdirmək, şəhərlə kənd arasındakı fərqin tədricən aradan qaldırılmasına kömək etmək.

10. Bütün uşaqlara ictimai və pulsuz tərbiyə vermək. Fabriklərdə müasir formadakı uşaq əməyini aradan qaldırmaq. Tərbiyəni maddi istehsalla birləşdirmək və i.

İnkişaf gedişində sinfi fərqlərin məhv olacağı və bütün istehsalın fərdlərin assosiasiyası əlində toplaşacağı zaman ictimai hakimiyyət öz siyasi xarakterini itirəcəkdir...

Siniflərin və sinfi əksliklərin mövcud olduğu köhnə burjua cəmiyyətinin yerini elə bir assosiasiya tutur ki, burada hər kəsin azad inkişafı hamının azad inkişafı üçün şərtdir.

***

Bir sözlə, kommunistlər hər yerdə mövcud ictimai və siyasi quruluşa qarşı yönəldilən hər cür inqilabi hərəkata kömək edirlər.

Bütün bu hərəkatlarda onlar mülkiyyət məsələsini onun çox və ya az inkişaf etmiş bir forma almasından asılı olmayaraq hərəkatın əsas məsələsi kimi birinci yerə qoyurlar.

Nəhayət, kommunistlər hər yerdə bütün ölkələrin demokratik partiyalarının birləşməsinə və razılığa gəlməsinə çalışırlar.

Kommunistlər öz baxış və niyyətlərini gizlətməyi mənfur bir şey hesab edirlər. Onlar açıq bildirirlər ki, məqsədləri yalnız bütün mövcud ictimai quruluşu zorakılıqla devirmək yolu ilə əldə edilə bilər. Qoy hakim siniflər Kommunist İnqilabı qarşısında lərzəyə düşsünlər. Proletarlar bu inqilabda öz zəncirlərindən başqa heç bir şey itirməyəcəklər. Qazanacaqları isə bütün dünya olacaqdır.

Bütün ölkələrin proletarları, birləşin!

## 19. ÇOXLUĞUN TİRANİYASINA QARŞI

### Con Stüart Mill

Con Stüart Mill (1806–1873) müasir dövr demokratiyasının ingilis nəzəriyyəçiləri arasında ən hörmətli simalardan biridir. Millin atası Ceyms yeni liberal təlim olan utilitarizmin yaradıcısı Ceremi Bentamın yaxın dostu və məsləkdaşı idi. Mill öz atasından mükəmməl klassik təhsil almış, psixologiya və Roma hüququnu isə müstəqil öyrənmişdi. Mill təxminən 20 il Şərqi Hind şirkətində nəzarətçi işləməklə yaşayışı üçün çörəkpulu qazanmışdır. Həmin dövrdə və sonrakı illərdə Con Mill müasir liberal nəzəriyyəni inkişaf etdirən və onu ictimai

həyatın müxtəlif sahələrinə tətbiq edən külli miqdarda fəlsəfi əsər çap etdirmişdir. Mill belə hesab edirdi ki, insan hüquqları hər cür hörmətə layiqdir, təkcə ona görə yox ki, bu hüquqlar yaranışdan ona məxsusdur, insan hüquqlarına həm də ona görə hörmət edilməlidir ki, bunlar cəmiyyətin sabit inkişafı və ümumi xoşbəxtliyin əldə edilməsi üçün zəruridir.

Mill özünün "Azadlıq haqqında" (1859), "Nümayəndəli hökumət haqqında düşüncələr" (1861), "Utilitarizm" (1863), "Qadınların əsarətə alınması" (1869) esselərində fərdi çoxluğun tiraniyasından müdafiə etməyə çalışır və inandırıcı şəkildə sübut edirdi ki, millətin uğurlu inkişafı üçün dövlət tərəfindən siyasi təqibləri dayandırmaqla yanaşı cəmiyyətin şəxsi həyata müdaxiləsinə də son qoymaq gərəkdir.

19-cu yüzilliyin sonlarında Millin və onun sələflərinin ideyaları İngiltərədə və ABŞ-da təhsil, sosial təminat sahələrində, məhkəmə-islah sistemində və şəxsi həyatın hüquqi müdafiəsində liberal islahatların həyata keçirilməsi üçün ideoloji əsas olmuşdur.

CON STÜART MİLL

# Azadlıq haqqında (1859)

*Fərdin... yalnız özü üçün zərərli olan, lakin bu və ya digər fərdə birbaşa ziyan gətirməyən hərəkətlərinə gəldikdə isə... cəmiyyət digər Ali Xeyrin — fərdi azadlığın qorunub saxlanılması naminə bu bəlaya dözməlidir...*

...Xalqın guya özünün öz üzərindəki hakimiyyətini məhdudlaşdırmağa heç bir ehtiyacının olmaması haqqında fikir xalq idarəçiliyinin hələ də arzu, yaxud çoxdan keçmiş günlərin xatirələri olduğu vaxtlar üçün aksiom kimi görünə bilərdi. Bu fikri Fransa inqilabı üçün xarakterik olan və ümumi axardan kənara çıxan qeyri-adi hadisələr də sarsıda bilməmişdir. Belə ki, bu hadisələr hakimiyyəti ələ almış azlığın işi idi və bu hadisələrdə günahkar xalq təsisatları deyil, bu cür konvulsiv partlayışa səbəb olmuş aristokratiya və monarxiya istibdadı idi. Lakin həqiqi demokratik respublika yaradıldıqdan və beynəlxalq birlikdə onun ən qüdrətli üzvlərindən biri kimi öz yerini tutduqdan sonra, seçilən və məsul hökumət hər hansı əhəmiyyətli fakt kimi müşahidə və tənqid hədəfinə çevrildi. Bu vaxt gördülər ki, özünüidarə və xalqın özünün öz üzərindəki hakimiyyəti kimi ifadələr o qədər də dəqiq deyildir. Hakimiyyət verilmiş xalq heç də həmişə bu hakimiyyətə tabe edilmiş xalqla eyniyyət təşkil etmir və özünüidarə deyilən şey hər kəsin özünü idarə etməsi demək olmayıb hər kəsin yerdə qalanların hamısını idarə etdiyi idarə üsuludur. Bundan başqa, xalqın iradəsi nə isə başqa bir şeydir, xalqın daha çoxsaylı, yaxud daha fəal hissəsinin iradəsi, yəni əksəriyyətin, yaxud özünü əksəriyyət kimi qəbul etdirməyə nail olanların iradəsi kimidir — burada da xalq hakimiyyəti xalqın bir hissəsini əzmək istəyində ola bilər və buna görə də istənilən hakimiyyətin sui-istifadə cəhdlərinə qarşı olduğu kimi, bu hakimiyyətin də sui-istifadə meyllərinə qarşı tədbirlər görülməlidir. Deməli, fərdlər üzərində dövlət hakimiyyətinin məhdudlaşdırılması hakimiyyət verilmiş adamların xalq, yəni xalqın əksəriyyəti qarşısında məsul olduğu halda da öz əhəmiyyətini itirmir. Bu baxış mütəfəkkirlər tərəfindən etiraz doğurmadı və Avropa cəmiyyətinin həqiqi, yaxud ötəri mənafeləri demokratiyanın maraqlarına uyğun gəlməyən sinifləri tərəfindən rəğbətlə qarşılandı, buna görə də o, heç bir çətinliklə rastlaşmadan yayıldı və hazırda siyasi mükalimələrdə "əksəriyyətin istibdadı" adətən elə bəlaların sırasına daxil edilir ki, cəmiyyət onlara qarşı sayıq olmalıdır.

Lakin düşünən insanlar dərk edirlər ki, cəmiyyət özü, yəni kollektiv şəkildə onu təşkil edən ayrı-ayrı fərdlərə münasibətdə tirana çevriləndə onu tiranlığa doğru aparan vasitələr yalnız hakimiyyətin malik ola biləcəyi vasitələrlə məhdudlaşmır. Cəmiyyət özü öz qərarlarını yerinə yetirə bilər və yerinə yetirir və əgər o, yanlış qərarlar, yaxud müdaxilə etməli olmadığı şeylərə müdaxiləyə təhrik edən qərarlar qəbul edirsə, onun tiranlığı bütün mümkün siyasi tiranlıqlardan daha qorxuludur, çünki onun tiranlığı, düzdür, hər hansı ifrat cinayət vasitələrinə söykənmir, lakin ondan xilas olmaq daha çətindir — o, şəxsi həyatın bütün incəliklərinə qədər işləyir və ruhun özünü əsarət altına alır. Bax, buna görə də yalnız hakimiyyət tiraniyasından qorunmağa nail olmaq kifayət deyildir, həm də cəmiyyətdə hakim olan fikir, yaxud hissin — cəmiyyətə xas olan meylin — onun cinayət vasitələri ilə olmasa da, hər halda, zorla öz ideya və qaydalarını başqa cür düşünən fərdlərə qəbul etdirməsindən ibarət meylin tiraniyasından da, onun hakim istiqamətə uyğunlaşmayan belə fərdlərin nəinki inkişafının qarşısını almaq, hətta mümkün olarsa fərdləri öz xarakterini məlum nümunələrə uyğun dəyişməyə məcbur edərək onların təhsil almasına yol verməmək və ümumiyyətlə, bütün fərdi xüsusiyyətləri silib yox etmək istəmələrindən də qoruna bilməyi bacarmalıyıq. Elə bir hədd vardır ki, ictimai rəy qanunla ondan o tərəfə fərdi müstəqilliyə

müdaxilə edə bilməz; bu hədd müəyyən olunmalıdır, onun pozulmasına imkan verilməməlidir — siyasi despotizmdən qorunmaq vacib olduğu kimi, bu da vacibdir.

...İnsan həyatının yalnız fərdin özünə aid hissəsi ilə başqa adamlara aid olan hissəsi arasında etdiyimiz fərq, şübhəsiz, çoxlu əleyhdar doğuracaqdır. Bizə etiraz edə bilərlər ki, fərdin hərəkətləri heç bir halda onunla bir cəmiyyətdə yaşayan digər fərdlərə çox, yaxud az dərəcədə toxunmaya bilməz, fərd heç bir halda başqa adamlardan tamamilə kənarlaşa bilməz və əgər o, özünə pislik edirsə bu, heç olmasa, ona xüsusilə yaxın olan adamlara, hətta çox vaxt onunla o qədər də yaxın münasibətdə olmayan adamlara da çox, yaxud az dərəcədə ziyan verməyə bilməz... Nəhayət, əgər fərd öz qüsurları, yaxud düşüncəsiz hərəkətləri ilə digər adamlara birbaşa ziyan vurmursa da, hər halda, pis nümunəsi ilə ziyan yetirməmiş olmur, ona görə də o, başqalarını haqq yolundan sapdıra, yaxud aldada biləcək hərəkətlərdən çəkinməyə ədalətli olaraq məcbur edilə bilər... Onlar deyə bilərlər ki, burada söhbət şəxsiyyətin sıxışdırılmasından, yaxud hər hansı yeni, orijinal ideyanın sınaqdan çıxarılmasına mane olmaqdan deyil, çoxdan sınaqdan çıxarılmış və təcrübənin özü ilə rədd edilmiş şeylərin, təcrübə nəticəsində hər hansı fərd üçün sərfəli, yaxud yararlı olmadığı aşkar edilmiş şeylərin qarşısının alınmasından gedir...

Mən tamamilə razıyam ki, insanın özünün özünə etdiyi pislik ona yaxın olanların xeyli dərəcədə, hətta az dərəcədə olsa da, bütün cəmiyyətin hiss və maraqlarını təhqir edə bilər; lakin məsələ burasındadır ki, əgər insan öz hərəkətləri ilə digər fərdlərə, yaxud başqa digər insanlara münasibətdə öz öhdəliklərini pozursa, bu halda onun hərəkətləri yalnız onun özünə aid olan hərəkətlər sırasına daxil olmur və o, bu hərəkətlərinə görə sözün tam mənasında mənəvi məzəmmətə məruz qalmalıdır... Çox vaxt belə olur ki, adam öz pis vərdişləri ilə ailəsinə məyusluq gətirir, bu halda da o, əlbəttə, həssas olmadığına, yaxud nankorluğuna görə məzəmmət edilməlidir; lakin o əgər öz-özlüyündə qüsurlu olmayan, amma onunla birlikdə yaşayanları, yaxud xoşbəxtliyi ondan asılı olanları məyus edən vərdişlərə uyarsa, bu halda da eyni dərəcədə məzəmmətlənməlidir. Kim başqa adamların hiss və maraqlarına lazımi hörmət göstərmirsə və əgər bunu etməyə hər hansı ali borcun tələbləri ilə məcbur olmayıbsa, yaxud özünə bəraət qazandırmaq üçün hər hansı qanuni şəxsi istəklərə malik deyilsə, o, haqlı olaraq mənəvi məzəmmətə layiq görülməlidir. Lakin bu məzəmmət şəxsən ona aid olan və onu bu hərəkətlərə sövq edə biləcək səbəb, yaxud əqidəyə görə deyil, yalnız onun nümayiş etdirdiyi hörmətsizliyə görə verilməlidir. Elə bunun kimi, əgər insan eqoist həyat tərzinin nəticəsi olaraq cəmiyyətə münasibətdə onun üzərinə düşən hər hansı öhdəliyi yerinə yetirmək qabiliyyətini itirirsə, o, cəmiyyət qarşısında günahkardır. Hər hansı adamı yalnız sərxoş olduğuna görə cəzalandırmaq olmaz; lakin əsgər, yaxud polis işçisi xidməti borclarını yerinə yetirərkən sərxoşluğa yol verirsə, onda onları cəzalandırmaq lazımdır. Bir sözlə, fərdə, yaxud cəmiyyətə birbaşa ziyan gətirən və yaxud onlar üçün özündə birbaşa ziyan təhlükəsi gəzdirən hər şey fərdi azadlıqlar dairəsindən çıxarılmalı və mənəviyyat, yaxud qanun dairəsinə aid edilməlidir.

Fərdin digər hərəkətlərinə onun cəmiyyət qarşısında müəyyən öhdəliklərinin pozulması ilə bağlı olmayan, onun yalnız özü üçün zərərli olan, lakin bu və ya digər fərdə birbaşa ziyan gətirməyən hərəkətlərinə gəldikdə isə, bu hərəkətlərin cəmiyyətə yetirə biləcəyi bəla yalnız təsadüf nəticəsində ola bilər, yaxud əgər belə demək mümkündürsə, bu bəla "yozulandır" və cəmiyyət digər Ali Xeyrin — fərdi azadlığın qorunub saxlanılması naminə bu bəlaya dözməlidir...

İnsanların hərəkətlərinə təsir etmək üçün pis vasitələrə əl atılmasından başqa heç nə inamın itirilməsinə və bunun üçün məlum yaxşı vasitələrin təsirinin zəiflədilməsinə bu qədər səbəb olmur. Əgər zorla ağıllı olmağa, yaxud özünü saxlamağa məcbur etmək istədikləri adamların içərisində güclü və müstəqil xarakterli adamlara çevrilmək keyfiyyətlərinə malik olanlar olarsa, həmin adamlar mütləq bu zora qarşı qalxarlar, çünki heç vaxt barışa bilməzlər ki, onların başqa adamlara toxunan hərəkətlərinə nəzarət etdikləri kimi, kimsə onlara özlərinə aid olan məsələlərdə də nəzarət edə bilsin. Bu cür zor adətən belə bir nəticəyə gətirib çıxarır ki, insanlar kiminsə birbaşa hakimiyyətə qarşı çıxmasını və hakimiyyətin tələb etdiklərinin qəsdən əksinə getməsini ağıl və qəhrəmanlıq əlamətləri kimi qəbul etməyə başlayırlar. Belə bir nümunə II Karl dövründə var — o vaxt puritanların fanatizm həddinə çatdırılmış əxlaq dözümsüzlüyü, kobud xasiyyətliliyi dəbdə idi...

Lakin fərdi dairəyə ictimai müdaxiləyə qarşı ən güclü dəlil ondan ibarətdir ki, bu cür müdaxilə əksər hallarda ziyan gətirir, adətən yerli-yersiz və vaxtlı-vaxtsız həyata keçirilir. Söhbət ictimai əxlaqdan, ya da başqa adamlara münasibətlə bağlı fərdin üzərinə düşən öhdəliklərdən gedəndə ictimai rəy, yəni hakim əksəriyyətin fikri çox vaxt səhv olsa da, hər halda, düzgün mövqe kimi təqdim oluna bilir, ona görə ki, burada insanlar hər hansı başqa bir şey haqqında deyil, yalnız öz şəxsi maraqları haqqında (əgər fərdlərin bu və ya digər hərəkətlərinə icazə verilərsə) — bunun onların maraqlarına necə təsir edə biləcəyi haqqında mühakimələr yürüdürlər. Lakin söhbət fərdin yalnız özünə aid olan hərəkətlərindən gedəndə çoxluğun azlığa qanun kimi qəbul etdirdiyi fikir eyni dərəcədə səhv, yaxud düzgün olmaq imkanına malik olur; o, bu halda bir qism adamın başqaları üçün nəyin yaxşı, yaxud pis olması haqqında, hətta çox vaxt daha əhəmiyyətsiz şey haqqında fikrindən başqa bir şey deyildir və camaat öz mühakimələrində məzəmmət etdiyi adamların xoşbəxtlik, yaxud rahatlığına tam biganəliklə

yanaşaraq yalnız öz şəxsi istəklərini əsas götürür. Bir çox adamlar vardır ki, kimlərinsə tərəfindən onların bəyənmədikləri hərəkətlər edildikdə özlərini təhqir olunmuş kimi hiss edir, bundan inciyirlər; məsələn, bir qatı mövhumatçı onu başqalarının dini hisslərinə hörmət etməməkdə qınayanlara cavab verirdi ki, əksinə, başqaları onun hisslərinə hörmət etmir, çünki öz yanlışlıqları üzərində israr edirlər. Lakin insanın öz şəxsi fikrinə münasibətdə keçirdiyi hisslə özünü təhqir olunmuş hesab edən digər adamın bu fikrə münasibətdə keçirdiyi hiss arasında, bu iki hiss arasında münasibət oğrunun pul kisəmi götürmək istəyi ilə mənim onu qoruyub saxlamaq istəyim arasındakı münasibətin eynidir...

Artıq bir qədər çeynənmiş faktı yada salın ki, etiqad və mərasimlərindəki fərqlərin müqabilində xaçpərəstin heç bir hərəkəti onun donuz əti yeməsi kimi müsəlmanın ona qarşı güclü nifrətini doğura bilmir. Az nümunə tapa bilərik ki, xaçpərəst, yaxud avropalı ona qarşı müsəlmanın aclığın bu cür öldürülməsinə münasibətdə keçirdiyi hissdən daha güclü nifrətə malik olsun. Bu nifrətin səbəbi islam dininin donuz ətini yeməyi yasaq etməsində deyildir; şərab da bu din tərəfindən yasaq olunmuşdur və müsəlman şərabdan istifadə olunmasını pisləyir, lakin bununla yanaşı şərab onda nifrət hissi doğurmur. "Murdar heyvan"ın ətinə münasibətdə müsəlmanın keçirdiyi ikrah hissi tam qeyri-iradi antipatiya xarakterli xüsusiyyətdən ibarətdir...

Cənubi Avropa xalqları ruhanilərə nikah bağlanmasını təkcə dinə zidd bir şey kimi qiymətləndirməklə kifayətlənmir, həmçinin onu günah, abırsızlıq hesab edirlər — nikahı bağlanmış ruhani onlar üçün ikrah obyektinə çevrilir. Bu tamamilə səmimi hisslərə onların katolik olmayanları zorla öz tələblərinə tabe etmək səylərinə qarşı protestantlar nə deyə bilərlər?..

Başqa bir nümunə, bizə bir az da yaxın və bizdə daha çox rast gəlinən bir nümunə göstərək. Puritanların kifayət qədər güclü olduqları hər yerdə, məsələn, Yeni İngiltərədə (ABŞ-ın şimal-şərqində — red.) və Böyük Britaniyada respublika dövründə olduğu kimi onlar həmişə, həm də böyük müvəffəqiyyətlə, bütün ictimai və demək olar ki, bütün şəxsi əyləncələri ləğv etməyə çalışır, xüsusilə musiqi, rəqs, kollektiv oyunlar, teatr və ümumiyyətlə, hər hansı əyləncəli ictimai yığıncaqları təqib edirdilər. İndiyə qədər bizdə İngiltərədə belə adamlar çoxdur, onlar öz dini və əxlaqi baxışlarına görə bu cür əyləncələri ciddi şəkildə pisləyirlər; bu adamlar əksəriyyətcə orta sinfə mənsubdurlar, bu sinif isə bizim ölkənin hazırkı ictimai və siyasi quruluşunda əhəmiyyətli yer tutur və çox mümkündür ki, günlərin birində onlar parlamentdə əksəriyyəti təşkil edəcəklər. Onda bizim cəmiyyətin puritan anlamlarını bölüşdürməyən üzvləri (əgər onları öz məşğuliyyətlərini ciddi kalvinistlərin və metodistlərin dini və əxlaqi hissləri ilə uyğunlaşdırmağa məcbur etsələr) nə deyəcəklər? Məgər onlar onda arzu etməyəcəklərmi ki, nə olardı, bu mömin adamlar öz dərdlərinə qalaydılar, onları isə sakit buraxaydılar? Məgər elə bunu biz hər hansı hökumətə, hər hansı camaata münasibətdə, onlar öz aləmlərində hər hansı əyləncəni pis sayaraq bizə yasaq etmək istəyəndə deməli deyilikmi?! Əgər biz prinsipcə fərdi azadlıq dairəsinə bu cür müdaxiləni düzgün hesab ediriksə, bu prinsipin bu və ya digər tətbiqini (bunu parlament əksəriyyəti, yaxud ümumiyyətlə, cəmiyyətdə ali hakimiyyət edə bilər) mühakimə etməyə azacıq da olsa əsasımız olmayacaqdır — biz ideal xristian icmasının (Yeni İngiltərənin ilk kolonistləri onların icması, yaxud ona oxşar başqa bir qurumu cəmiyyətdə üstünlük qazananda onu belə başa düşürdülər) tələblərinə müti şəkildə tabe olacağıq...

Təfəkkür azadlığı təkcə dahi başların yetişdirilməsi üçün zəruri deyil... O, qadir olduqları ən yüksək əqli inkişaf səviyyəsinə çata bilmələri üçün adi insanlara daha çox lazımdır. Ümumi mənəvi və əqli köləlik mühitində belə fövqəladə zəkalar olub və yenə də yarana bilər, lakin belə mühitdə heç vaxt intellektual cəhətdən fəal xalq olmayıb və olmayacaq...

## 20. AZƏRBAYCANDA LİBERAL İSLAHATLARIN LAYİHƏLƏRİ

### Mirzə Fətəli Axundzadə

Görkəmli filosof, maarifçi və dramaturq Mirzə Fətəli Axundzadə (1812–1878) bütün müsəlman Şərqində haqlı olaraq modernizmin, liberal ənənələrin və müasir ədəbiyyatın yaradıcısı sayılır.

Mirzə Fətəli uşaq yaşlarında ailədə yaxşı Şərq təhsili almışdır (ərəb və fars dillərini, Quran oxumağı öyrənmişdir). O, 1832-ci ildə Gəncədə mədrəsəyə daxil olmuş, lakin o zamankı dini təhsillə yaxından tanış olduqdan sonra ruhaniliyi buraxmaq qərarına gəlmiş və o biri il 21 yaşında ikən (!) Şəkidə yenicə açılmış rus məktəbinə daxil olmuşdur. Mirzə Fətəli iki ilə yaxın burada oxuduqdan sonra Tiflisə gedib Qafqaz canişini dəftərxanasında Şərq dilləri tərcüməçisi vəzifəsinə qəbul olunmuş və ömrünün sonunadək bu işdə çalışmışdır.

Tiflisdə Axundzadə özü üzərində ciddi çalışır, Heraklit, Aristotel, Kopernik, Nyuton, Volter, Monteskyönün əsərləriylə tanış olur; müasir Avropa filosofları Bentam, Mill və Renanın əsərlərini təhlil edir. Tiflisdə A. A. Bakıxanov və İ. B. Qutqaşınlı, rus yazıçısı A. Bestujev-Marlinski, gürcü dramaturqu G. Eristavi ilə ünsiyyət və dostluğun da Mirzə Fətəlinin dünyagörüşünün formalaşmasına mühüm təsiri olur.

Axundzadə Rusiya imperiyasına xidmət etsə də, düşüncə və qayğıları ona doğma olan müsəlman Şərqi ilə bağlı idi. Bu regionun geriliyi, mütərəqqi cərəyanlar üçün qapalılığı, dini fanatizmi, Şərq dövlət, cəmiyyət və ailəsində hökm sürən müstəbid qayda-qanunlar Axundzadədə, onun esselərində aydınca oxunan bir sarsıntı və ümidsizlik doğursa da, onu bir an belə əməli işdən soyutmurdu.

O, 1850–55-ci illərdə yazdığı altı komediya ilə Yaxın və Orta Şərq realist dramaturgiyasının əsasını qoyur. Bu pyeslərdə Axundzadə ənənəvi müsəlman cəmiyyətinin qayda-qanunlarını ifşa edir, xurafata qarşı çıxır. 1857-ci ildə yazdığı "Aldanmış kəvakib" əsəri ilə Azərbaycanda, təəssüf ki, öz inkişafını tapmamış siyasi roman ənənəsinin əsasını qoyur.

1865-ci ildə Axundzadə özünün başlıca fəlsəfi traktatı olan "Kəmalüddövlə məktubları" adlı məşhur siyasi-fəlsəfi və publisist əsəri üzərindəki işi başa çatdırır. Bu əsərdə o, həmin dövrdəki Şərq cəmiyyətinin başlıca problemlərini dərin və hərtərəfli təhlil edərək müsəlman ölkələri həyatının bütün sahələrini bürümüş böhrandan çıxış yolunu açıb göstərməyə çalışır.

Axundzadənin yeniləşmə, insan hüquqları, qadınların hüquq bərabərliyi, konstitusyon islahatlar, dini praktikanın islahatı, əlifba islahatı haqqındakı ideyalarını onun müasirləri dəstəkləmişdir. Onun islahatlar layihələri zamanəsini o qədər qabaqlamışdı ki, bu gün də öz əhəmiyyətini itirməmişdir.

Əfsus ki, Axundzadədən sonra gələn Azərbaycan mütəfəkkir və siyasi xadimlərindən, demək olar, heç biri öz əsərlərində və əməllərində onun səviyyəsinə qalxa bilməmişdir; ola bilsin ki, buna səbəb ölkənin intellektual inkişafını uzun müddətə geriyə atmış 70 illik kommunist rejimi olmuşdur.

Axundzadənin rasionalizm və liberalizmi bu gün də "öz xüsusi inkişaf yolu" tərəfdarlarının amansız tənqidinə məruz qalır. Doğma şəhəri Şəkinin girişində qoyulmuş stenddə, Mirzə Fətəlinin şəkli altında onun bu sözləri həkk olunmuşdur: "Mən bəşər dostu bir insanam". Bu sözləri ucadan demək indi də cəsarət istəyir.

MİRZƏ FƏTƏLİ AXUNDZADƏ

# İstibdada və mövhumata qarşı(1) (1863–1875)

*...Cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babasının və övliyanın qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa... məcbur edərsə... bu halda onlar dəyirman atlarına bənzərlər...*

## ƏNƏNƏVİ ŞƏRQİN VƏZİYYƏTİNƏ DAİR

... İran məmləkətində yollar xarab, kəndlər viran, şəhərlər yaraşıqsız, küçələr dar və yöndəmsiz, qəbiristan küçələrin içində havanın kəsafətinə bais. Və buna hökumət ruhanilərin fitvası ilə yol verir ki, hər gün gəlib-gedənlər çürümüş sümüklərə ərəb dilində "Fatihə" adı ilə beş-altı kəlmə söz oxusunlar.

Müsəlmanların çoxu istər iranlı olsun, istər osmanlı, öz yanlarında saat gəzdirirlər. Əgər lazım gəlsə və belə bir müsəlmandan soruşsan ki, filankəs, saat neçədir? O, sənə cavab verməzdən əvvəl səndən soruşar ki, günəş saat neçədə batır? Aydın məsələdir ki, onun sualı səni cavabdan aciz edir. Axı günəşin batması vaxtı ilin fəslindən və yerin coğrafi vəziyyətindən asılı olaraq müxtəlifdir. Beləliklə, günəşin batması vaxtı barədə hər iki tərəfdən şübhə və mənasız gümanlar başlanır. Nəhayət, sənin dostun: "Günəşin batmasına 4 saat 27 dəqiqə qalıb" — deyə

aydın olmayan bir cavab verir. Bu cavabdan sonra saat neçə olduğunu özün müəyyən etməlisən. Aydın məsələdir ki, xüsusi düşünmədən, birdən-birə saat neçə olduğunu bilməyəcəksən. Kədərli qəlblə dostuna deyirsən: "Siz nə üçün öz saatınızı avropalılar qaydası ilə günortadan-günortaya qurmursunuz?". Ondan bu tənəli cavabı eşidirsən: "Siz hansı cəsarətlə bizə bu kafirləri təqlid etməyi buyurursunuz?". Sən də onun cavabını belə rədd edirsən: "Bəs siz gözlük işlətməkdə nə üçün kafirləri təqlid edirsiniz? Məgər gözlüyün ixtirası və işlədilməsi bu başıdaşlı kafirlərin işi deyilmi? Lakin siz tam könül xoşluğu ilə onların bu ixtirasından faydalanır və gözlük işlətməkdə onları təqlid edirsiniz". Bu irad müqabilində artıq cavab eşitmirsən. Görün bir millət islam dininin təsiri altında hansı səfehlik həddinə çatmışdır...

Mühakimə icraatı sahəsində çox böyük qarmaqarışıqlıq hökm sürür: nə bir qanun var, nə bir nizam-intizam, nə də bir hüquq və vəzifə müəyyəndir; məsələn, əgər birisi o birisinə bir sillə vurarsa, incidilən bilmir ki, şikayət üçün hansı hakimiyyətə müraciət etsin. Biri müctəhidin yanına yüyürür, birisi şeyxülislamın hüzuruna qaçır, üçüncüsü imam-cüməyə şikayətə gedir (çünki islamın yaranışından ta indiyədək İranda rüsvayçı teokratik üsul-idarə mövcuddur), dördüncüsü darğanın yanına yollanır, o birisi şikayətini bəylərbəyiyə ərz eləyir, birisi də şahzadədən imdad diləyir; və nəticədə müraciət olunan şəxslərdən biri müqəssiri cərimə edir, o birisi çubuqla cəzalandırır, üçüncüsü bağışlayır, dördüncüsü onu həbsə alır, beşincisi müqəssiri əgər o, vəzifə sahibidirsə işdən çıxarır, altıncısı ali hakimiyyət qarşısında müqəssirin bağışlanmasını xahiş edir (əlbəttə ki, əgər öz marağı varsa). Deyilənə görə, hətta bir para yerlərdə müqəssirin böyük və nüfuzlu adamlara aidiyyəti olduqda cəza əvəzinə bir ənam, xələt də verilir ki, onun təqsirinin — doğan xəcalətin əvəzi çıxmış olsun. Xülasə, ümumi rəhbərlik üçün elə bir qanun kitabı yoxdur ki, orada hər cür cinayətə qarşı cəza tədbirləri aydın şəkildə müəyyən edilmiş olsun...

Fransa və İngiltərədə eşşəkləri, atları və öküzləri dəxi vurmaq və incitmək qadağandır, amma İran məmləkətində despotun fərmanı ilə hətta əmirlərin və sərkərdələrin ayaqlarını falaqqaya qoyub çubuq vururlar və bir neçə müddətdən sonra yenə bu rüsvay olunmuş əyanlardan vəzirlər və sərdarlar düzəldirlər, hələ bir onlardan vəfa və sədaqət də umurlar! Despot üsul-idarəsinin təsiri altında bu əyanların təbiətində elə bir rəzalət, alçaqlıq və qeyrətsizlik yaranıbdır ki, onlar cismani cəzanı özlərinə əsla ar bilmirlər və bu cür rüsvayçılıqdan sonra yenə də bu dünyada özləri üçün həyat nəşəsi axtarırlar.

Və bir də İran əhli bu günə qədər anlamayıbdır ki, uşaqları çubuq və sillə ilə tərbiyə etmək onların əxlaqını pozar, təbiətlərini alçaldar, müsbət fitri keyfiyyətlərini boğar, onları qorxaq və yalançı edər. İranda heç bir məktəb tapmazsan ki, onun səfeh məktəb müdirinin çubuq və falaqqası olmasın. Təəccüblü odur ki, hər bir uşağın anlaqsız atası öz uşağını təlim və tərbiyə üçün məktəb müdirinin yanına aparanda uşağın yanında dediyi birinci söz bu olur: "Molla, bu oğlumu sənə tapşırıram. Əti sənin, sümüyü mənim. Ona yaxşı tərbiyə ver". Müəllim də adətən belə cavab verir: "Arxayın ol, çubuq və falaqqa həmişə onun gözünün qabağında olacaqdır".

Bu cür tərbiyədən sonra uşaqlar boya-başa çatdıqda onlardan nə kimi insanlıq, mərifət, nəcib əxlaq və əqli inkişaf gözləmək olar? Ən dəhşətlisi də budur ki, İranda vəzirül-üləma adlandırılan xalq maarif naziri bu hərəkətləri məktəb müdirlərinə qadağan etmir...

## İSTİBDADA QARŞI

Əyalətləri əsasən heç bir savadı olmayan nadan şahzadələr idarə edir; rüsvayçı köləlik vəziyyətində olan xalq onların qarşısında öz sədaqətini aşağıdakı qayda üzrə ifadə edir...

Şahzadələr məclisin yuxarı başında oturur, qalan camaat isə (istər əmir olsun, istər adi adam) onların hüzuruna daxil olanda təzim edir, əl-əl üstə durur və gözləyir ki, şahzadənin ağzından nə çıxacaq; o danışmağa başlayan kimi hər tərəfdən "bəli, bəli" sədası yüksəlir...

Bu şahzadələr küçələrdən keçəndə fərraşlar qabağa düşüb ara vermədən xalqa çığırırlar: "Berəvid!.. Berəvid!.." (Çəkilin!.. Çəkilin!..).

Əgər bir biçarə yoldan cəld kənar olmasa, fərraşların kötəyinə və dəyənəyinə düşür.

Despot zülmündən və puç əqidələrin təsiri altında öz sağlam düşüncəsini itirmiş kütbeyin xalq əsla dərk edə bilmir ki, insan kimi heç nəylə ondan fərqlənməyən, savadsızlıqda və nadanlıqda ona bərabər, əxlaq cəhətdən isə ondan qat-qat aşağıda dayanan bu vücudların nə üçün belə səlahiyyətləri olmalıdır ki, onlar gələndə bu, gərək yoldan kənar olsun? Aya, olmaya bu məhz o səbəbədir ki, onlar təsadüf nəticəsində mənsəbli valideynlərdən törəyiblər?

Xalq başa düşə bilmir ki, bunların nə üçün belə üstünlüyü olmalıdır. Bəyəm bunlar bizim can və malımızı qoruyurlarmı? Yox! Bunlar bizim sərhədləri düşməndən saxlayırlarmı? Yox! Bunlar bizim əsirləri türkmandan xilas edirlərmi? Yox! Bunlar bizim oğul və qızlarımıza tərbiyəçilik edirlərmi? Yox! Bunlar bizdən ötrü şəfaxanalar və mədrəsələr açıblarmı? Yox! Bunlar bizim ticarətimizi və sənayemizi tərəqqiyə aparırlarmı? Yox! Bunların vasitəsilə biz xarici məmləkətlərdə ehtiram tapırıqmı? Yox! Bunların himayəsi altında biz məmləkətin daxilində quldurlardan xilas oluruqmu? Yox! Və ən nəhayət, bunların köməyilə biz bu miskin vəziyyətdən qurtuluruqmu? Yox! Bəs onda bunların varlığı nəyə lazımdır? Bunların varlığı ona lazımdır ki, bizim qazandığımızı və öz mülkümüzdə yer altından tapdığımız az, yaxud çox qızıl və gümüşü əlimizdən alsınlar; əgər biz hər hansı bir özbaşınalığa etiraz etsək, başımıza hər növ müsibətlər açsınlar...

Ey əhli-İran, əgər sən azadlığın ləzzətindən və insan hüquqlarından xəbərdar olsaydın, belə rüsvayçılığa, belə rəzalətə razı olmazdın; sən tərəqqiyə və elmlərə can atıb mason klubları açardın, qəzetlər yapardın, birləşmək vasitələri əldə edərdin. Sən ədəddə və qüdrətdə despotdan qat-qat artıqsan. Sənə ancaq həmrəylik və yekdillik lazımdır ki, revolyusiya edib zülmdən xilas olasan. Əgər ittifaq yaratmağa özündə güc tapsan, onda özünə bir fikir çəkərdin, özünü puç əqidələrin təsirindən və despot zülmündən xilas edərdin...

...Səltənətin davamı və sülalənin möhkəmliyi millətin elmlilik dərəcəsindən və onun puç əqidələrdən azad olmağından asılıdır. Padşah gərək özü öz məmləkətində mason klubları açsın və toplanış yerləri yapsın, millətlə birlik yaratsın, milləti ilə bir düşünüb-daşınsın. Məmləkəti yalnız özünün malı bilməsin, özünü yalnız millətin vəkili hesab etsin. Xalqın iştirakı ilə qanunlar yaratsın, parlament təsis etsin, bütün hərəkətlərində qanunu rəhbər tutsun və heç bir işdə özbaşınalığa yol vermək ixtiyarında olmasın. Yəni mütərəqqi məslək sahibi olub sivilizasiya dairəsinə qədəm qoysun...

## DİN PRAKTİKASININ İSLAHATI VƏ MAARİFÇİLİK HAQQINDA

...Hörmətli qardaşım! Bunu bilməlisən ki, hər bir din üç müxtəlif əməldən ibarətdir: etiqad, ibadət və əxlaq. Hər dinin icad olunmasından əsl məqsəd üçüncü əməldir, yəni əxlaqdır. Birinci iki əməl isə yalnız bu üçüncüsünün — əxlaqın əldə olunmasına xidmət edir. Avropa və Amerika məmləkətlərində elm və təhsil gözəl əxlaq qazanmaq üçün daha etibarlı vasitə olduğundan etiqad və ibadətə əsla ehtiyac qalmır. Lakin Asiyada elm və təhsil inkişaf etməmişdir və bu cəhətdən də ilk iki əməl, yəni etiqad və ibadət saysız-hesabsız qollara ayrılmışdır ki, dinin başlıca məqsədi — əxlaq bu cəhətdən büsbütün unudulmuş və elmə, təhsilə yol tamamilə qapanmışdır...

*"Kəmalüddövlə məktubları" (1863)*

...Hər bir din etiqad, ibadət və əxlaqın cəmindən yaranır. Dinin əsas məqsədi əxlaqdır. Etiqad və ibadət əxlaqla müqayisədə yardımçı səciyyə daşıyır.

Biz elə bir xəyali varlıq nəzərdə tutmalıyıq ki, o, ən gözəl əxlaqa, əzəmətə, gözəlliyə, qüdrətə, nəcibliyə, dəyanətə malik olsun, sitayişə və pərəstişə layiq olsun ki, biz əxlaq sarıdan ona oxşamağa can ataq və bu cür varlığı bütün Yer kürəsinin Allahı, Kürreyi-ərzin yaradanı adlandıraq. Belə bir şəxsiyyəti nəzərdə tutmaqla və onu sitayiş və pərəstişə layiq bilməklə, biz sitayiş və pərəstiş mərasimlərini icra etməliyik: namaz, oruc, həcc, zəkat və s. Biz bu cür varlığı nəzərdə tutduqdan və onun şərəfinə mərasim ayinlərini icra etməyə başladıqdan sonra onun mərhəmətinə ümid etməli, onun qəzəbindən qorxmalı və onun gözəl əxlaqını təqlid etməliyik. Buna görə biz heç bir günaha yol verməməliyik ki, onun mərhəmətinə layiq olaq və qəzəbinə düçar olmayaq.

Avropa və Amerika ölkələrinin əksəriyyətində elmin yayılması və inkişafı insanları hər cür dinlərin ikinci dərəcəli şərtlərindən — etiqad və ibadətdən azad etmişdir. Lakin Asiyada elmlər geniş yayılmamışdır və buna görə burada göstərilən şərtlər hər hansı bir dinin yeganə mənası olan gözəl əxlaqa qoşulmaq vasitəsi kimi qalmaqdadır.

*"Məlkum xanla söhbətlərdə sualların yozumu və təfsilatı" (1872)*

## LİBERALIN ƏXLAQ KODEKSİNƏ DAİR

İnsanların yeddi vəzifəsi vardır. Əgər insan bütün bu vəzifələri yerinə yetirirsə, bu halda kamil insan sayılır əgər o, bunların bir hissəsini yerinə yetirirsə, natamam insan sayılır; əgər o, bu yeddi vəzifənin heç birinə əməl etmirsə, deməli insan qismindən çıxır və heyvan qisminə daxil olur.

Birinci vəzifə bundan ibarətdir ki, insan pis əməllərdən uzaq olsun.

İkinci vəzifə xeyir işlər görməkdir.

Üçüncü vəzifə zülmə qarşı mübarizə aparmaqdır.

Dördüncü vəzifə cəmiyyətdə öz yoldaşları ilə ittifaqda yaşamaqdır.

Beşinci vəzifə elm yolu ilə getməkdir.

Altıncı vəzifə elmi hər yanda yaymağa çalışmaqdır.

Yeddinci vəzifə ondan ibarətdir ki, insan öz qüvvəsi və imkanı daxilində, onunla ittifaqda olan cəmiyyətdə, öz həmvətənləri, həmfikirləri arasında qanuni hüquqlarının müdafiəsi üçün mübarizə aparsın.

*"Məlkum xanla söhbətlərdə sualların yozumu və təfsilatı" (1872)*

## KONSTİTUSİYA VƏ İNSAN HÜQUQLARINA DAİR

..."Yek kəlmə"ni başdan-ayağa oxudum. Misilsiz kitabdır, gözəl yadigardır və faydalı nəsihətdir. Lakin ölmüş millət üçün yazılmışdır. Məgər İranda nəsihətə qulaq asan varmı? Keçmişlərdə Avropada da belə zənn edirdilər ki, zalıma zülmü tərgitdirmək üçün ona nəsihət etmək lazımdır; sonra gördülər ki, nəsihət zalımın təbiətinə qətiyyən təsir etmir. Buna görə millətin özü dinin maneəsini dəf etmək yolu ilə elmlərdə inkişaf etməyin, həmrəyliyin faydasını anladı və birləşərək zalıma müraciətlə söylədi: "Səltənət və hökumət büsatından əl çək!..". Bundan sonra Sizin kitabınızda danışılan ümumi üsul-idarə və ədalət mühakiməsinin icraatı üçün öz Konstitusyonunu yaratdı. Aya, Sizin millətiniz də zalıma "səltənət və hökumət büsatından əl çək!" deməyi bacararmı? Heç vaxt!

Sonra Siz ədalətli idarə üsulundan söhbət açaraq şəriət ehkamına istinad edirsiniz. Çox yaxşı! Baxaq görək, aya, şəriətin özü ədalət çeşməsidir, ya yox?

Əgər şəriət ədalət çeşməsi isə Konstitusyonun birinci əsası olan hüquq bərabərliyini məhkəmə proseslərində icra etməlidir. Hüquq bərabərliyi yalnız kişi tayfasınamı məxsusdur? Şəriətin nə haqqı var ki, qadın tayfasını hicab ayəsi vasitəsilə əbədi zülmə məhkum edir, onları ömrü boyunca bədbəxt edir, həyat nemətlərindən məhrum edir?..

Əgər şəriət ədalət çeşməsi isə, o, Konstitusyonun üçüncü əsası olan şəxsi azadlığı icra etməlidir. Bu halda şəriət hətta islamiyyətin qəbulundan sonra da bütpərəstlərdən və müşriklərdən qul və kənizlər alıb-satmağa nə üçün icazə verir? Məgər bu, ən alçaq zülm deyilmi və azadlığa zidd deyilmi?

Keçmişdə Avropa xristianları Tövratın fitvasına əsaslanaraq bütpərəst və müşrik qullar və kənizlər alıb-satmağı məqbul sayırdılar və deyirdilər ki, Musa bütpərəstlərin və müşriklərin alınıb-satılmasını halal, hətta vacib hesab etmişdir... O tərəfdən ingilis qalxaraq dedi ki, Musa başa düşmürdü ki, bütpərəstlər və müşriklər də bizim kimi insandırlar, bizim qardaşımızdırlar. Etiqad ayrılığına görə insan növü azadlıq hüququndan məhrum ola bilməz. Buna görə də qul və kənizləri alıb-satmağı köhnə və yeni dünyanın hər guşəsində qəti qadağan etmişlər. Rus dövləti də bu yaxınlarda Xivədə özbəklərlə bağladığı sazişin birinci şərti olaraq qul və kəniz alverinin qadağan edilməsi və ölüm cəzasının ləğv edilməsi məsələsini ortaya qoymuşdu.

Əgər şəriət ədalət çeşməsi isə Konstitusyonun dördüncü əsasını həyata keçirməlidir. Bu surətdə "zina etmiş kişi və arvadın hərəsinə yüz taziyanə vurulsun" nə deməkdir? Tutaq ki, bir azad kişi ilə bir azad qadın evlənmək qeydi olmadan, hər iki tərəfin razılığı ilə bir-birləri ilə cinsi əlaqədə olublar. Soruşulur: hansı haqla şəriət onların hər birinə yüz şallaq vurdurur? Məgər bu, azadlığa və deməli, insanın tam toxunulmazlığına zidd və ədalətə müxalif deyilmi? Əgər bu ayədən şəriətin məqsədi şərəf və namusu qorumaqdırsa bu ayə əri olan qadın ilə arvadı olan kişinin zina etməsinə aid olmalıdır. Bu qanunu azad kişi və azad qadın haqqında icra etmək zülmdür. Əgər o kişi və qadının namusu öz əməlləri üzündən bada gedirsə bunun fikrini onların özləri çəkməlidirlər. Onların namusunu qorumaq istəyən şəriətin müdaxiləsi onları azadlıq və şəxsiyyətin toxunulmazlığı hüququndan məhrum edir...

Lakin şəriət bəzi adamların əmlakının toxunulmazlığı üçün "oğurluq edən arvad və kişilərin əllərini kəsin" qanununu tətbiq edir — hətta bu oğurluq dinarın dörddə biri qədər olsa da. Məlumdur ki, oğru özünü dolandırmaqda acizlik çəkdiyi üçün oğurluğa əl atır. Əgər onun əli kəsilərsə, aydındır ki, həyatını təmin etməkdə daha çox aciz qalacaqdır. O zaman ya təkrarən oğurluğa əl atmalıdır, ya acından ölməlidir. Buna görə də insan əli kəsmək həqiqətdə bir insanın həyatını təhlükəyə salmaq deməkdir. Halbuki dinarın dörddə birini oğurlamağın cəzası olaraq oğrunun əli kəsilməyib ona başqa bir cəza verilərsə, ehtimal var ki, o, tövbə edər, bir vasitə ilə çörəkpulu qazanar və öz həyatından bir fayda görər.

Dünyada heç bir nemət həyatı əvəz edə bilməz və hər hansı bir ədalətin naminə olursa-olsun onu hər cüzi şeyin üstündə almaq olmaz.

Əgər şəriət ədalət çeşməsi isə, "öldürülməsi Allah tərəfindən haram edilən (canı) öldürməyin". Bu, çox yaxşı. Bəs "ancaq haqlı olaraq" nə deməkdir? Tutaq ki, mən hansısa müşrikə qalib gəlmişəm. "Müşrikləri harda görsəniz öldürün" ayəsinə görə onu öldürməyə haqqım vardır. Aya, bu, zülm deyilmi və dördüncü maddə olan can toxunulmazlığına zidd deyilmi?

Əgər müşrikin bir neçə allaha inanması Xudavəndi-aləmə xoş gəlmirsə, qoy o öz Əzrayılını göndərsin ki, müşrikin canını alsın; daha nə üçün çirkin cəlladlıq peşəsini mənim öhdəmə qoyur və bir günahsızın qanını mənim əlimlə tökdürür?

Xülasə, adam öldürmək, bədən üzvlərini kəsmək və çubuqla döymək barbar və vəhşi tayfaların adətidir, Allah şəninə layiq deyildir.

Avropada müqəssirləri cəzalandırmaq və insanların asayişini təmin etmək üçün başqa tədbir görürlər; çünki ingilis filosoflarının təhqiqinə görə, sübut edilmişdir ki, başqalarının asayişi üçün adam öldürməyin cəzası olaraq qatili edam etmək nəinki cinayətləri qətiyyən aradan qaldırmır, hətta bu cinayətlərin heç sayını da azaltmır. İkinci bir adamı öldürmək əbəs və bihudədir, bundan heç bir məqsəd hasil olmur. Buna görə filosoflar belə hesab edirlər ki, bu cəza insanların asayişini bərpa etmək, bu növ cinayətlərin kökünü kəsmək və ya bunları azaltmaq vasitəsi ola bilməz.

*"Yek kəlmə" haqqında" (1875)*

## AZADLIQ VƏ TƏRƏQQİ HAQQINDA

İngilis filosofu Con Stüart Mill [*"Azadlıq haqqında"*] yazdığı kitabda azadlığın nə olduğunu izah edərək deyir ki:

Canlılar aləmində insan daim tərəqqiyə can atan bir növdür və fikir azadlığı olmadan tərəqqi mümkün ola bilməz. Tərəqqinin nəticəsini zəmanəmizdə sivilizasyon adlandırırlar.

Sivilizasyon ümumi anlayışdır ki, onun məzmununda bütün sənətlər, fənlər, dövlətin qüdrəti, millətin asayişi və mədəniyyətin digər nailiyyətləri cəm olmuşdur. Buna görə bu cür tərəqqi o zaman imkan tapar ki, cəmiyyət fərdləri öz fikirlərində asılı olmasınlar: qoy hər fərd hər nə istəsə desin və hər nə bacarırsa etsin. Və əgər onun sözü, ya işi cəmiyyətin digər fərdlərinin nəzərində məqbul olsa, onlar da düşündükdən sonra onu təsdiq edər və ondan fayda taparlar; əgər məqbul olmasa, başqa bir adam onun səlahiyyətsizliyini bəyan edər.

Bu üsula "kritika" deyərlər. Fikir azadlığı olduqda kritikanın faydası o olacaqdır ki, get-gedə, tədricən müxtəlif fikir və rəylərin toqquşmasından haqq yerini tutacaq və mədəniyyət aləmində tərəqqi zühur edəcəkdir.

Əgər cəmiyyət öz fərdlərinə fikir azadlığı verməzsə və onları ata-babasının və övliyanın qərar verdikləri şeylərlə kifayətlənməyə və bunlardan kənara çıxmamağa və ağıllarını mədəniyyət işlərində işlətməməyə məcbur edərsə, bu halda fərdlər yer əkən, məhsul toplayan və hər bir işi düşünmədən və fikir etmədən görən avtomatlar olarlar; və ya onlar dəyirman atlarına bənzərlər ki, hər gün müəyyən dairədə dolanarlar və öz vaxtında da arpa-saman yeyib su içər və yatarlar, sonra yenə oyanıb həmən dünənki dolanışığı dünyanın axırına qədər təkrar edərlər...

*Con Stüart Mill "azadlıq haqqında" (1873)*

BƏZİ TERMİN VƏ ADLARIN İZAHI(1)

Məktubların orijinaldan köçürülməsi gedişində Avropa dillərində olan və müsəlman xalqları dillərində çətin tərcüməyə gələn bir sıra sözlər aşkar edilmişdir. Buna görə, məktubların üzünü köçürən mirzə bu sözləri olduğu kimi, lakin ərəb əlifbası ilə yazmışdır. Məhz bu səbəbdən həmin sözlərin izahını mətnin əvvəlində yerləşdirmək lazım gəlmişdir ki, oxucular bunların mənasını başa düşə bilsinlər.

*Despot* — o hökmdar belə adlanır ki, öz hərəkətlərində heç bir qanuna tabe olmur, onlara əməl eləmir, xalqın əmlakı və həyatı üzərində hüdudsuz hökmranlıq edir, həmişə öz istədiyi kimi hərəkət eləyir. Bu cür hökmdarların hökmranlığı altında olan xalq kütlələri alçaq və həqarət doğuran kölələrə çevrilərək hər cür azadlıq və insan hüquqlarından məhrum olurlar. "Despotizm" sözü ərəbcə olan "istibdad" sözü ilə çox dəqiq ifadə edilə bilər. Hətta ərəblərdə belə bir məsəl var: "Kim öz kefinə hərəkət eləsə, mütləq məhv olacaq".

*Sivilizasyon* — xalqın cəhalət və vəhşilik vəziyyətindən çıxması, məişət işlərində zəruri biliklər əldə etməsi, elmi biliklərə yiyələnməsi, sənaye sahəsində zəkanın uğuru, həmçinin, mədəniyyətin müxtəlif sahələrində mümkün qədər yüksək pillə deməkdir.

*Fanatik* — o kəs belə adlanır ki, dini təlimə o qədər bağlıdır və ya elə bir milli-dini dözülməzliyə mübtəla olub ki, onun dininə zidd gedən və ya onun millətinə mənsub olmayan kəslərə kəskin ədavət və nifrət duyur, bu adamların əmlakına, həyatına və şərəfinə qəsd etmək üçün hər bir əlverişli imkandan istifadə edir və onların bağışlanmasına qətiyyən yol vermir.

*Revolyusiya* — ibarətdir ondan ki, xalq despot və zalım padşahın qeyri-qanuni rəftarından təngə gəlib birləşir, üsyana qalxır, qanunlar yaradır, öz asayiş və səadətini təmin etmək üçün bunları həyata keçirir. Yaxud xalq öz əvvəlki dini əqidəsinin puçluğunu anladıqda ruhanilərin əleyhinə çıxış edir və filosofların göstərişi ilə özü üçün müvafiq yeni din seçir və onu qəbul edir.

*Tərəqqi* — bu, cəmiyyətin elə bir halıdır ki, xalq daim irəli hərəkət etməyin, elmin, sənayenin, baxışların və s. inkişafının tərəfdarı olub yorulmadan zəhmət çəkir ki, cəhalət və vəhşiliyin xurafatından xilas olsun.

*Patriot* — o kəs belə adlanır ki, vətən və millət təəssübü üçün can və malına qıyır, öz vətəni, millətinin azadlığı və rifahı naminə bu yolda hər cür əzab və cəfalara dözməyə hazır olur...

*Politika* — səltənəti və məmləkəti idarə etməklə bağlı olan, səltənətin və məmləkətin mənafeyini və səlahiyyətlərini nəzərə alan işlərdir, bir də bunlar barədə olan elmdir.

*Protestantizm* — bu məzhəbə görə, ilahi hüquq və Allah bəndələrinin vəzifələri büsbütün aradan götürülür və yalnız insan hüququ qalır. Bu təlimi islam millətləri arasında yayan Əli-Zikrihissəlam İsmayıl olub. Şairlərdən biri onun haqqında söyləyib ki: "Dövrün böyük rəhbəri Əli-Zikrihissəlam Allahın köməkliyi ilə qırdı şəriət zəncirini".

Son vaxtlar Avropa millətlərinin dəxi bir neçəsi bu məzhəbi qəbul edib.

*Liberal* — ibarətdir o kəsdən ki, öz dünyagörüşlərində büsbütün azaddır, din və məzhəbin təhdidlərinə əsla fikir vermir, ağla sığışmayan, təbiətin qanunları dairəsindən xaric işlərə qətiyyən inanmır, hətta dünyada yaşayanların əksəriyyəti bu barədə şəhadətlik etsə də, hətta əgər tarix kitablarında bu barədə minlərlə hekayət olsa da, yenə bunlara laqeyd və öz fikrində azad olacaqdır. Liberal adı həmçinin o adamlara verilir ki, dövlət işlərində müdrik baxış yiyəsidirlər və öz hərəkətlərində azaddırlar.

*Parlament* — iki palatadan ibarət olan təsisatdır. Bir palatada aşağı zümrənin nümayəndələri toplaşıb məşvərət edirlər, o birisində cəmiyyətin yuxarı təbəqəsinin nümayəndələri. Bütün dövlət qanunları birinci palatada tərtib edilir və müzakirə üçün ikinci palataya ötürülür. Hər iki palatanın təsdiq etdiyi qanunlar padşah tərəfindən imzalandıqdan sonra icraedici qüvvəyə minir. Padşah bu qanunlara qarşı hərəkət etməyə qadir deyil...

*"Kəmalüddövlə məktubları" (1863)*

---

1 Mətnin anlaşılmasını asanlaşdırmaq üçün onun dilini müasirləşdirməyə cəsarət etdik — *red.*
2 Axundzadə bütün bu terminləri bizim qeyd etdiyimiz şəkildə işlətmişdir: "revolyusiya", "politika", "patriot" və s. — *red.*

## 21. AZADLIQSIZ XOŞBƏXTLİK

## Fyodor Dostoyevski

Böyük rus yazıçısı Fyodor Mixayloviç Dostoyevskinin (1821–1881) yaradıcılığı XX yüzilliyin mənəvi həyatına əsaslı təsir göstərmiş, ədəbi modernizm, ekzistensializm, psixologiya, ilahiyyat və ədəbi tənqidin müxtəlif məktəbləri onun ideyalarının bilavasitə təsiri altında formalaşmışdır.

Moskvada qatı dindar ailəsində doğulmuş Dostoyevski hərbi həkim olan atasının tələbi ilə hərbi-mühəndislik akademiyasına daxil olmuşdur. Lakin akademiyanı bitirdikdən sonra (1848) ixtisasını atmış, özünü bütövlükdə ədəbi yaradıcılığa həsr etmişdir.

1847-ci ildə Dostoyevski sosialistlər dərnəyinə getməyə başlayır və tədricən dərnək pərdəsi altında fəaliyyət göstərən inqilabi terrorçu təşkilata cəlb edilir. Terrorçular çara qarşı sui-qəsd təşkil etməyə cəhd göstərirlər. Qəsd baş tutmur, dərnək üzvləri həbs olunur (1849) və ölüm cəzasına məhkum edilirlər. Lakin çar lap güllələnmə ərəfəsində edamı Sibirə sürgünlə əvəz edir. Yaşanmış iztirablar Dostoyevskinin dünyagörüşünü büsbütün dəyişdirir. Sosializm ideyasından məyus olan Dostoyevski daha inqilabi zorakılığı mübarizə metodu kimi qəbul etmək istəmir. On ildən sonra sürgündən qayıdan Dostoyevski ədəbi yaradıcılığa qurşanır, başlıca mövzuları ləyaqət, mərhəmət, fərdi məsuliyyət və insan qəlbinin rəhmdilliyinə inam olan dahiyanə romanlarını yaradır.

Dostoyevskini ən çox insan münasibətlərinin psixologiyası maraqlandırır, lakin o, gənclik illərindən cəlb olunduğu sosial-siyasi problemlərə də böyük diqqət yetirir. Onun "Ölü evdən qeydlər", "Karamazov qardaşları", "Əcinnələr" romanları peyğəmbəranə əsərlər sayılır, belə ki, Dostoyevskinin yaratdığı, onun müasirləri olan peşəkar inqilabçıların portreti onların 1917-ci ildə hakimiyyətə gəldikdən sonra nümayiş etdirdikləri davranışa tam uyğun gəlir.

Əvvəlcə "Karamazov qardaşları"nın bir fəsli kimi nəzərdə tutulmuş və çap edilmiş "Böyük inkvizitor" povestində Dostoyevski yaranmaqda olan demokratiyanın başlıca və həlledilməz problemlərindən birinə — azadlığın daşınması bu qədər çətin olan "ağır yükü" probleminə müraciət edir.

Azadlıq məqsəddir, yoxsa yalnız xoşbəxtliyə nail olmaq alətidir? Azadlıqdan yalnız ayrı-ayrı güclü şəxsiyyətlər istifadə edə bilirlər, bəs onda daimi himayəyə ehtiyacı olan milyonlarca zəif nə etsin? İnsan üçün hansı yaxşıdır: azad cəmiyyətdə bədbəxtlik, ya totalitar rejim şəraitində xoşbəxtlik?

“Böyük inkvizitor” əsəri dünyada yeni ədəbi ənənənin — antiutopiya romanlarının əsasını qoydu. Bu əsərlər Dostoyevskinin başladığı mövzunun müzakirəsinin davamı idi: insanı zorən xoşbəxt eləmək mümkündürmü və ümumi xoşbəxtlik naminə insanı qurban vermək olarmı? Vladimir Zamyatinin “Biz”, Oldos Hakslinin “Yeni şanlı dünya”, Corc Oruellin “1984”, Entoni Bercesin “Yaylı portağal”, Ken Kizinin “Ququ quşu yuvası üzərində uçuş” — bunlar azadlıqsız xoşbəxtliyə malik cəmiyyəti təhlil edən əsərlərin yalnız kiçik bir qismi, lakin ən məşhurlarıdır.

Dostoyevskinin bədbin proqnozları çin oldu və XX yüzillik Lenin, Hitler, Mao Tszedunun və bunlardan da xırda çoxsaylı “millət ataları”nın simasında “bəşəriyyətin xoşbəxtliyi naminə dünyanın yarısını yandırmağa” cəhd etmiş böyük inkvizitorları üzbəsurət seyr edə bildi.

FYODOR DOSTOYEVSKİ

## Böyük inkvizitor(1) (1880)

*Nəhayət, azadlığa üstün gəldik və bunu ondan ötrü etdik ki, insanları xoşbəxt edək.*

... Hadisələr İspaniyada, Sevilyada, inkvizisiyanın ən dəhşətli dövründə cərəyan edir, elə bir dövrdə ki, o vaxt hər gün ölkədə tonqallar çatılır və mənfur kafirləri tonqallarda yandırırdılar...

... Və budur, o [İsa peyğəmbər], bir anlığa olsa da xalqın gözünə görünmək istədi — zülm çəkən, iztirab içində olan, böyük günahlara batmış, amma yenə də onu körpə kimi sevən xalqın gözünə görünmək istədi.

Ah, əlbəttə, bu, onun özünün vəd etdiyi zühur, axırzaman günü, “məşriqdən məğribə qədər işıq saçan şimşək kimi” qəfildən baş verəcək, şöhrəti yeri-göyü bürümüş o peyda zühur günü deyildir. Yox, o, heç olmazsa bir anlığa öz övladlarına baş çəkmək və bunu məhz kafirlərin tonqallarının çatırtı ilə yandığı yerdə etmək arzusuna düşmüşdü. O özünün hədsiz mərhəməti üzündən bir daha, on beş əsr bundan qabaq adamların arasında gəzdiyi kimi, insan qiyafəsində adamların arasından keçir. O, cənub şəhərinin “qızmar geniş küçələrinə” enir; bu həmin şəhərdir ki, bir qədər əvvəl orada kralın, saray əyanlarının, cəngavərlərin, kardinalların və gözəl-göyçək saray xanımlarının iştirakı ilə bütün Sevilyanın saysız-hesabsız əhalisinin gözü qabağında kardinal — böyük inkvizitor Allahın şərəfinə az qala yüz nəfər kafirin hamısını birdən tonqalda yandırmışdı.

O, gözə görünmədən sakitcə peyda olmuşdu, lakin, qəribədir, hamı onu tanıyır... Xalq yenilməz bir qüvvə ilə ona tərəf can atır, onu dövrəyə alır, onu əhatə edənlərin sayı get-gedə artır, onlar onun ardınca gedirlər. O, onların halına hədsiz acıdığını ifadə edən sakit bir təbəssümlə onların arasından keçir. Onun ürəyində Məhəbbət günəşi yanır, gözlərindən İşıq, Ziya və Qüvvət şüaları saçılır və bu şüalar insanların üstünə süzülərək cavab sevgisi ilə onların qəlblərini sarsıdır. O, əllərini geniş açıb adamlara tərəf uzadır, onlara xeyir-dua verir və onun bədəninə, nəinki bədəninə, hətta paltarlarına toxunanda onlarda şəfaverici qüvvə təzahür edir.

Budur, kütlənin arasından qoca bir kişi çıxır. Uşaq yaşlarından kor olmuş həmin qoca deyir: “İlahi, mənə şəfa ver ki, mən də səni görüm”. Dərhal qocaya elə gəlir ki, onun gözlərini örtmüş pul-pul dərini qaldırırlar və kor qoca Allahı görür. Xalq ağlaşaraq onun ayaqları altındakı torpağı öpür. Uşaqlar onun yoluna gül-çiçək səpir, onlar oxuyur və sevinclə qışqırırlar: “Osanna!”. “Bu odur, özüdür, — deyə onlar təkrar edir, — bu, o olmalıdır, özüdür ki var”. O, Sevilya kilsəsinin girəcəyində ayaq saxlayır; bu həmin an idi ki, adamlar ağlaşa-ağlaşa ağ rəngli açıq bir uşaq cənazəsini kilsəyə gətirirdilər: cənazənin içindəki yeddi yaşlı qızcığaz şəhərin adlı-sanlı vətəndaşlarından birinin yeganə qızıdır. Uşağın meyiti tamam gül-çiçəyə qərq olub. Kütlənin içindən uşağın ağlayan anasına qışqırırlar: “O, sənin balanı dirildəcək”. Cənazəni qarşılamağa çıxmış kilsə keşişi çaşqın halda baxaraq qaşqabağını sallayır. Lakin, budur, ölmüş uşağın anasının fəryadı ucalır. O, Allahın ayaqlarına döşənir, əllərini ona tərəf uzadaraq deyir: “Əgər bu sənsənsə, onda mənim balamı dirilt!”. Mərasim iştirakçıları ayaq saxlayır, cənazəni kandara endirib onun ayaqlarının yanına qoyurlar. O, ürək yanğısı ilə cənazəyə baxır, dodaqları ahəstə-ahəstə tərpənir: “Talifa kumi” — “Qalx ayağa, qızcığaz”. Qızcığaz cənazənin içində ayağa qalxır, oturur və gülümsəyərək, heyrətdən geniş açılmış balaca gözləri ilə ətrafa nəzər salır. Onun əllərində ağ qızıl gül dəstəsi var, o, cənazədə uzanarkən bu gülləri onun üstünə səpmişdilər. Camaatın içində vurnuxma düşür, qışqıran kim, hönkürüb ağlayan kim...

Və elə həmin anda kardinal, böyük inkvizitorun özü kilsənin yanındakı meydandan keçib gedir. Yaşı doxsanı haqlamış bu qocanın hündür boyu, dik qaməti var, çöhrəsi qupquru quruyub, gözləri çuxura düşüb, lakin bu gözlərdə işıqlı qığılcıma bənzər bir parıltı var... Ondan müəyyən məsafədə qaşqabaqlı köməkçiləri, qulları və

"müqəddəs" keşikçiləri gedir. O, kütləni görüb ayaq saxlayır və uzaqdan onları müşahidə edir. O, hər şeyi — cənazəni Allahın ayaqlarının yanına necə qoyduqlarını da, qızcığazın necə dirilməsini də görür və üzünü kədər bürüyür. O, çallaşmış sıx qaşlarını çatır, gözlərində kinli bir qığılcım parlayır. O, barmağı ilə Allahı göstərib keşikçilərinə əmr edir ki, onu tutsunlar. Qoca o qədər güclüdür, xalq da o qədər vərdişkar, ona o dərəcədə itaətkardır və ondan o dərəcədə qorxur ki, kütlə dərhal keşikçilərin qabağında aralanır və qəflətən yaranmış məzar sükutu içində onlar Allaha əl uzadır və onu tutub aparırlar. Həmin anda camaatın hamısı bir nəfər kimi qoca inkvizitorun qabağında yerəcən baş əyib təzim edir. O, dinməzcə camaata xeyir-dua verir və ötüb gedir. Keşikçilər əsiri müqəddəs divanxananın qədim binasındakı darısqal və qaranlıq, qübbəvari məhbəsə salıb qapını bağlayırlar. Gündüz keçir, qaranlıq, bürkülü və nəfəssiz Sevilya gecəsi düşür. Havadan "dəfnə və limon iyi gəlir". Zülmət qaranlığın içində qəflətən məhbəsin dəmir qapısı açılır və əlində çıraq tutmuş qoca, böyük inkvizitor tələsmədən məhbəsə daxil olur. O təkdir. İçəri girən kimi dərhal qapı bağlanır. O, girəcəkdə dayanıb bir-iki dəqiqə diqqətlə məhbusa nəzər salır. Nəhayət, sakitcə ona yaxınlaşır, çırağı masanın üstünə qoyub deyir:

— Bu sənsənmi? Sənsənmi?

Cavab almayanda tezcə əlavə edir:

— Cavab vermə, sus. Bir də ki, axı sən nə deyə bilərdin? Sənin nə deyəcəyini mən lap yaxşı bilirəm. Axı sən nəyə görə gəlib bizə mane olursan? Sən bizə mane olmağa gəlmisən və bunu özün də bilirsən. Lakin sabah nə olacağını bilirsənmi? Sənin kim olduğunu mən bilmirəm və heç bilmək də istəmirəm: bu sənsən, yoxsa yalnız ona oxşayırsan, fərqi yoxdur, amma günü sabah mən səni mühakimə edəcəyəm və səni ən məlun bir kafir kimi tonqalda yandıracağam. Və bilirsənmi ki, bu gün sənin ayaqlarını öpən həmin xalq sabah mənim bircə işarəmlə cumub sənin yandırılacağın tonqala od qalamağa başlayacaq?

O fikirli halda, lakin bir an belə əsirdən gözünü çəkmədən əlavə etdi:

— Bəlkə də sən bunu bilirsən?

...Sənin gedib görüb gəldiyin aləmin heç olmazsa bircə sirrindən bizi agah etməyə haqqın varmı? — deyə qoca soruşur və əsirin əvəzinə özü cavab verir. — Yox, əvvəllər deyilənlərə heç nə əlavə etməmək üçün, sən yer üzündə olarkən cidd-cəhdlə müdafiə etdiyin azadlığı adamların əlindən almamaq üçün sənin buna haqqın yoxdur. Sənin verəcəyin təzə xəbərlərin hamısı adamların etiqad azadlığına qəsd demək olacaq, çünki sənin deyəcəyin sözlər möcüzə kimi görünəcək, onların etiqadının azadlığı isə hələ o vaxt, min beş yüz il bundan əvvəl də sənə hər şeydən əziz idi.

Tez-tez "sizi azad etmək istəyirəm" deyən sən deyildinmi? Bax, indi gördün bu "azad" adamları? — deyə qoca fikirli halda istehza ilə qəflətən əlavə edir. — Bəli, bu bizə baha başa gəlib, — qoca ona sərt bir nəzər salıb sözünə davam edir. — Lakin biz sənin xatirinə bu işi axır ki, başa çatdırdıq. Biz bu azadlığın əlindən on beş əsr əzab-əziyyət çəkmişik, lakin indi hər şey bitib, həmişəlik bitib. Sən inanmırsan ki, həmişəlik bitib? Sən mənə mülayim-mülayim baxırsan və mənim dediklərim səni heç heyrətləndirmir də? Lakin onu bil ki, indi və məhz bu adamlar indiyə qədər olduğundan daha artıq əmindirlər ki, onlar tamamilə azaddırlar, halbuki onlar öz azadlıqlarını özləri gətirib itaətlə ayaqlarımızın altına atıblar. Bunu biz etmişik. Sən də bunu istəyirdinmi, sən belə azadlıq istəyirdinmi?

Nəhayət, azadlığa üstün gəldik və bunu ondan ötrü etdik ki, insanları xoşbəxt edək. Çünki birinci dəfədir ki, yalnız indi insanların xoşbəxtliyi barədə düşünmək mümkün olub.

İnsan təbiətən qiyamçı yaranıb, lakin məgər qiyamçılar xoşbəxt ola bilərmi? Səni xəbərdar etmişdilər, xəbərdarlıq və göstəriş sarıdan əyər-əskiyin yox idi. Amma xəbərdarlıqlara qulaq asmadın, insanları xoşbəxt etməyin yeganə yolunu qəbul etmədin, lakin xoşbəxtlikdən, gedəndə işi bizə təhvil verdin. Və indi, əlbəttə, bu hüququ bizim əlimizdən almağı heç ağlına da gətirə bilməzsən. Bəs nəyə görə gəlib bizə mane olursan?

Qorxunc və ağıllı ruh [İblis], özünüməhvetmə və yoxluq ruhu, — deyə qoca sözünə davam edir, — böyük ruh səhrada səninlə söhbət edib və kitablarda bizə xəbər verilib ki, guya o, səni "yoldan çıxarmaq istəyirdi". Bu belədirmi? Və onun sənə üç sual şəklində xəbər verdiyi, sənin qəbul etmədiyin və kitablarda "yoldançıxarma istəyi" adlanan həqiqətdən daha güclü bir həqiqət tapmaq mümkün idimi? Halbuki əgər yer üzündə nə zamansa əsl, gurultulu bir möcüzə olubsa, o da həmin gün — bu üç sualla səni yoldan çıxarmaq istədiyi gün olub. Möcüzə məhz bu üç sualın meydana gəlməsindən ibarət idi... Çünki bu üç sualda sanki bəşəriyyətin bütün sonrakı tarixi bütöv bir tam halında cəmləşib və bütün yer üzündə insan təbiətinə xas olan, həll edilə bilməyən bütün tarixi ziddiyyətləri birləşdirən üç obraz əks olunub. O vaxt bu, hələ indiki qədər görünə bilməzdi, çünki gələcəkdən

xəbər yox idi, amma indi — on beş əsr keçəndən sonra görürük ki, bu üç sualdakı mətləblərin hamısı qabaqcadan o dərəcədə dəqiq deyilmişdi və o dərəcədə düz çıxdı ki, onlara nə bir şey artırmaq olar, nə də bir şey əskiltmək.

Özün qərara gəl, kim haqlı imiş — sən, yoxsa o vaxt səni sorğu-suala tutan? Birinci sualı yada sal; onun məzmunu hərfən olmasa da, mənaca belədir: "Sən xalq arasına getmək istəyirsən və yalın əllə hansısa bir azadlıq vəd edərək gedirsən, onlar özlərinin sadəlövhlüyü və anadangəlmə nadanlığı üzündən onun mənasını belə başa düşə bilməyəcəklər, onlar azadlıqdan qorxur və vahiməyə düşürlər, çünki heç vaxt insan üçün, bəşər cəmiyyəti üçün azadlıqdan daha dözülməz heç bir şey olmayıb! Bəs bu çılpaq, qızmar səhradakı daşları görürsənmi? Onları çörəyə çevir, onda insanlar sürü kimi sənin arxanca qaçacaq, sənə minnətdar və itaətkar olacaq, daim həyəcan keçirəcəklər ki, sən əllərini onların üstündən götürsən, o saat onların çörəkləri də kəsiləcək.

Amma sən insanı azadlıqdan məhrum etmək istəmədin və bu təklifi rədd etdin, çünki fikirləşdin ki, əgər itaət çörək bahasına satın alınıbsa, hansı azadlıqdan danışmaq olar? Sən etiraz etdin ki, insan təkcə ruzi ilə yaşamır, lakin bilirsənmi ki, həmin bu dünyəvi ruzisi naminə Yerin ruhu sənin üzünə duracaq, səninlə savaşacaq və səni məğlub edəcək.

Bilirsənmi ki, əsrlər keçəcək və bəşəriyyət öz müdrik və elmli adamlarının (sosialistlərin — *red.*) dili ilə deyəcək ki, cinayət yoxdur, deməli, günah da yoxdur, yalnız aclar var. "Əvvəlcə onları yedirt, sonra onlardan xeyirxah işlər tələb et!". Sənə qarşı qaldırılan bayrağın üstündə belə yazacaqlar, sənin məbədin də bu bayraqla dağıdılacaqdır...

Ah, biz olmasaq, onlar heç vaxt, heç vaxt özlərini dolandıra bilməz! Nə qədər ki, onlar azad olaraq qalırlar, heç bir elm onlara ruzi verməyəcək, axırı da bu olacaq ki, onlar öz azadlıqlarını bizim ayaqlarımız altına atıb deyəcəklər: *"Yaxşısı budur bizi kölə edin, amma bizi yedirin".*

Sən onlara göylərin ruzisini vəd etmişdin, lakin yenə təkrar edirəm, zəif, daim günahkar və daim naşükür olan insan tayfasının nəzərində o, dünya ruzisinə bərabər ola bilərmi? Və əgər minlərcə, on minlərcə adam göylərin ruzisi naminə sənin arxanca getsə, göylərin ruzisindən ötrü çörəkdən əl çəkmək iqtidarında olmayan milyonlarca və on milyonlarca məxluqun aqibəti necə olacaq?

Bəlkə səndən ötrü yalnız on minlərcə böyük və güclü bəndə əzizdir, yerdə qalan, dənizdəki qum qədər sayı-hesabı bilinməyən zəif, lakin səni sevən milyonlar isə böyüklər və güclülər üçün yalnız material olmalıdır? Xeyr, bizdən ötrü zəiflər də əzizdir. Onlar günahkardır, qiyamçıdır, lakin axırda onlar həm də itaətkar olacaqlar.

Biz onlara başçılıq edib onların azadlıqlarını daşımağa və onlara ağalıq etməyə razılıq verdiyimizə görə onlar bizə heyran olacaq və bizi allah hesab edəcəklər — azad olmaq axırda onlar üçün bu dərəcədə dəhşətli olacaq!

Biz isə deyəcəyik ki, sənə itaət edirik və sənin xatirinə ağalıq edirik. Biz yenə onları aldadacağıq, çünki biz daha səni özümüzə yaxın buraxmayacağıq. Onları aldatmağımız bizə də əzab-əziyyət verəcək, çünki yalan danışmağa məcbur olacağıq.

Səhradakı birinci sualın mənası bundan ibarətdi və sən hər şeydən uca saydığın azadlıq naminə bunu rədd etməliydin. Halbuki bu sualda dünyanın böyük bir sirri vardı. Sən "ruzi"ni qəbul etməklə istər ayrıca bir məxluqun, istərsə də bütün bəşəriyyətin ümumi, əzəli və əbədi bir qüssəli sualına cavab vermiş olardın. Budur həmin sual: "Kimə sitayiş etməli?".

İnsan azad qalanda ondan ötrü pərəstiş etməli olduğu kimsəni mümkün qədər tezliklə axtarıb tapmaq qayğısından daha aramsız və bundan daha iztirablı bir qayğı yoxdur. Lakin insan sitayiş etməkdən ötrü o kimsəni axtarır ki, onun sitayiş edilməyə şəksiz ləyaqəti olsun, o dərəcədə şəksiz olsun ki, bütün adamlar hamısı birdən, hamılıqla ona sitayiş etməyə razı olsunlar. Ona görə ki, bu yazıq məxluqların qayğısı təkcə mənim, ya başqa birisinin sitayiş etməli olduğu varlığı axtarıb tapmaqdan ibarət deyil, onların qayğısı elə bir varlığı axtarıb tapmaqdan ibarətdir ki, ona hamı etiqad bəsləsin və hamı sitayiş etsin, özü də hökmən hamı birlikdə sitayiş etsin. Bax, bu sitayişin ümumi olması tələbatı əsrlər boyu həm hər bir ayrıca fərdin, həm də bütün bəşəriyyətin ən başlıca iztirabıdır.

Sən bəşər təbiətinə xas olan bu sirri bilirdin, sən bunu bilməyə bilməzdin, lakin sən hamını sənə şəksiz sitayiş etməyə məcbur etmək üçün sənə təklif edilən yeganə mütləq bayrağı — "çörək" bayrağını rədd etdin, özü də onu azadlıq və göylərin ruzisi naminə rədd etdin. Gör sən bundan sonra nə etmisən! Özü də yenə hamısını azadlıq naminə!

Sən adamların azadlığına sahib olmaq əvəzinə onlara daha çox azadlıq verdin! Bəlkə unutmusan ki, insan nəyin xeyir, nəyin şər olduğunu azad dərk etməkdənsə əmin-amanlığı və hətta ölümü üstün tutur? İnsandan ötrü vicdan azadlığından cazibədar bir şey yoxdur, fəqət bundan cəfalı bir şey də yoxdur.

Sən insanların azadlığına sahib olmaq əvəzinə bu azadlığı artırdın və azadlıqdan irəli gələn iztirabları insanın qəlb evinə əbədi yük elədin. Sən istədin ki, insanın sevgisi azad olsun, o da sənə heyran olsun, sənin əsirin olsun və özü sənin arxanca getsin. Məgər fikirləşmədinmi ki, əgər seçmək azadlığı kimi dəhşətli bir yükün əziyyətini çəkirsə, axırda o hətta sənin simanı da, sənin həqiqətini də qəbul etməyəcək? Beləliklə, səltənətinin viran edilməsini özün təşkil etmisən və buna görə özündən başqa heç kəsi müqəssir bilmə.

Lakin məgər sənə təklif edilən bu idimi? Dünyada bu aciz qiyamçıları həmişəlik ram etməyə və onların vicdanını əsir etməyə qadir olan üç qüvvə var, yalnız üç qüvvə. Budur həmin qüvvələr: möcüzə, sirr və nüfuz.

Sən bunların birincisini də, ikincisini də, üçüncüsünü də rədd etdin və özün başqalarına nümunə göstərmiş oldun. Qorxunc və müdrik ruh səni məbədin zirvəsinə qoyub: "Əgər sən Allahın oğlu olub-olmadığını bilmək istəyirsənsə üzüaşağı sürün, çünki Allahın oğlu barədə deyilib ki, mələklər onu tutub əlləri üstündə aparacaqlar, o yıxılmayacaq, əzilməyəcək və onda sən Allahın oğlu olub-olmadığını bilərsən və onda öz atana necə etiqad bəslədiyini isbat etmiş olarsan", — deyəndə sən onun təklifini qəbul etmədin, dediyinə əməl etmədin və üzüaşağı atılmadın.

Ah, əlbəttə, bu məsələdə sən Allah kimi məğrur və gözəl hərəkət etdin. Bəs adamlar, qiyama qalxmış bu aciz tayfa necə, məgər onlar allahdırlarmı? ...Onlar səni lağa qoyaraq: "Xaçdan aşağı düş, onda inanarıq ki, bu sənsən" — deyə qışqıranda sən xaçdan düşmədin. Sən ona görə düşmədin ki, möcüzə göstərib insanı özünə kölə etmək istəmədin, sən çox istəyirdin ki, onlar sənə möcüzəyə görə yox, öz qəlblərinin hökmü ilə etiqad etsinlər. Köləyə xas məftunluq yox, azad sevgi istəyirdin. Lakin sən burada da adamlar barəsində həddən artıq yüksək fikirdə idin, çünki onlar qiyamçı kimi doğulmuş olsalar da, əlbəttə, kölədirlər.

Gözünü aç, bax və fikirləş, o vaxtdan on beş əsr keçib, indi gəl onlara bax: onlardan hansını öz yanına qaldırmısan? And içirəm ki, insan sənin düşündüyündən daha zəif və daha rəzil xəlq edilib! Məgər o da sənin etdiklərini edə bilərmi, bilərmi?

Yəni doğrudanmı sən yalnız seçmə adamların yanına gəlirdin, yalnız seçmə adamlar üçün zühur edirdin? Fəqət əgər belədirsə, onda burada da bir sirr var və biz bu sirri anlamağa acizik. Lakin əgər bu, sirdirsə, onda bizim də haqqımız var ki, həmin sirri yayaq və onları öyrədək ki, bu sirli qüvvə onların qəlbinin sərbəst qəbul etdiyi qərar və sevgidən daha vacibdir, onlar kor-koranə, hətta öz vicdanlarına xilafən həmin əsrarəngiz qüvvəyə itaət etməlidirlər. Biz belə də etdik. Biz sənin igidliyini bərpa etdik, möcüzə, sirr və nüfuz da onun bünövrəsi oldu. Adamlar da sevindi ki, onları yenidən sürü kimi qabaqlarına qatıb apardılar və onlara bu qədər əzab-əziyyət verən, bu qədər qorxunc qismət — azadlıq axır ki, onların qəlbindən çıxarıldı.

De görüm onları bu cür öyrətməkdə, bu cür hərəkət etməkdə biz haqlı idikmi? Yəni doğrudanmı bəşəriyyətin acizliyini bu qədər sakitcə dərk etməyimiz, onu sevə-sevə yükünü yüngülləşdirməyimiz və onun aciz təbiətinə bizim icazəmizlə hətta günah da işlətməyə icazə verməyimiz onu sevməyimiz deyilmi? İndi nəyə görə gəlib bizə mane olursan?..

Ah, indiyə qədər bu iş yalnız başlanğıc mərhələsindədir, lakin həmin iş başlanıb. Onun nə vaxt başa çatacağını hələ çox gözləməli olacağıq və hələ yer üzü çox müsibətlər görəcək, lakin biz istəyimizə çatacağıq, hökmdar olacağıq və o zaman artıq bütün dünyadakı adamların xoşbəxtliyi barədə düşünəcəyik. Halbuki sən hələ o vaxt hökmdar qılıncını ələ ala bilərdin. Nəyə görə sən bu son bəxşişi qəbul etmədin?

Sən müdrik ruhun bu üçüncü məsləhətini qəbul etsəydin, insanın yer üzündə axtardığı hər şeyin əvəzini verə bilərdin, yəni onların kimə itaət etməli, kimə ürəyini açmalı və nəhayət, hansı yolla bütün sakinlərin birlikdə və mehriban ömür sürdüyü qarışqa yuvasına bənzər bir cəmiyyət halında birləşməli olduqlarını öyrədərdin, çünki bütün dünyadakı insanların birləşməsi zərurəti onların üçüncü və axırıncı əzabıdır... Sən hökmdar qılıncını qəbul edib hökmdarlara məxsus uzun qırmızı xələti əyninə geysəydin, bütün dünyaya hökmdar olardın və bütün dünyada sülh yaradardın. Ona görə ki, əgər bir kimsə insanların qəlbinə hakim kəsilibsə və onların çörəyi onun əlindədirsə, onların hökmdarı başqa kəs ola bilməz...

Sən öz seçmə bəndələrinlə fəxr edirsən, lakin səninkilər yalnız seçmə bəndələrdir, biz isə hamıya təskinlik verəcəyik. Hələ bu da belədirmi: bu seçmə bəndələrin nə qədəri, səndən ötrü seçmə bəndəyə çevrilə biləcək kəslər səni gözləməkdən təngə gəldilər, ruhlarının gücünü və qəlblərinin hərarətini başqa sahəyə sərf etdilər və

hələ yenə də sərf edəcəklər, axırda onlar özlərinin azadlıq bayraqlarını sənin də başına endirəcəklər. Lakin bu bayrağı sən özün öz başına endirdin.

Bizdə isə hamı xoşbəxt olacaq və indən belə onlar nə qiyam edəcəklər, nə də sənin azadlığında olduğu kimi, hər yerdə bir-birini qırıb məhv edəcəklər. Ah, biz onları inandıracağıq ki, onlar bizdən ötrü öz azadlıqlarından imtina edəndə və bizə itaət edəndə — yalnız o vaxt azad olacaqlar. Necə bilirsən, biz haqlı olacağıq, yoxsa yalan danışmış olacağıq? Onlar özləri inanacaqlar ki, biz haqlıyıq, çünki sənin verdiyin azadlığın onları necə dəhşətli köləlik həddinə və hərc-mərcliyə gətirib çıxardığını yada salacaqlar.

Azadlıq, azad zəka və elm onları elə əlçatmaz yerlərə aparıb çıxaracaq, onları elə möcüzələrlə və anlaşılmaz müəmmalarla qarşılaşdıracaq ki, onlardan bəziləri — yenilməz və tündməcazlar özləri özlərini qırıb məhv edəcək, başqaları — yenilməz, lakin gücsüzlər bir-birini qırıb məhv edəcək, üçüncülər — yerdə qalan aciz və bədbəxtlər bizim ayaqlarımıza düşüb fəryad edərək deyəcəklər: "Bəli, siz haqlısınızmış, onun sirlərini təkcə siz bilirdiniz, biz də sizin yanınıza qayıdırıq, bizi özümüzdən xilas edin". Onlar bizdən çörək alanda aydın görəcəklər ki, biz onların öz çörəklərini, öz əlləri ilə qazandıqlarını onların özünə paylayırıq... Onlar bunu həddən artıq yüksək qiymətləndirəcəklər, həmişəlik itaət etmək budur! Və nə qədər ki insanlar bunu başa düşməyib, onlar bədbəxtdirlər.

Söylə, onların bunu anlamasına hamıdan çox mane olan kim idi? Sürünü pərən-pərən salıb onu naməlum yollara səpələyən kim oldu? Lakin sürü yenidən bir yerə toplaşacaq və yenidən, artıq həmişəlik itaət edəcək. Onda biz onlara sakit, dinc bir səadət, aciz varlıqlara xas olan səadət bəxş edəcəyik, axı onlar bu cür xəlq edilib. Ah, nəhayət, biz onları inandıracağıq ki, qürrələnməsinlər, çünki sən onları göylərə ucaltmısan və bununla da qürrələnməyi öyrətmisən; biz onlara sübut edəcəyik ki, onlar zəifdirlər, onlar yalnız aciz uşaqdırlar, lakin uşaq səadəti hər hansı başqa səadətdən daha şirindir. Onlar ağciyər olacaqlar, qorxu hiss edəndə cücələr qırt toyuğa sığınan kimi onlar da bizə baxacaq, bizə sığınacaqlar. Onlar bizə baxıb mat qalacaqlar, onları dəhşət bürüyəcək və bizimlə fəxr edəcəklər — biz belə qüdrətli və belə ağıllıyıq ki, min milyonluq bu harın sürünü beləcə ram edə bilmişik. Biz qəzəblənəndə onlar zağ-zağ əsəcək, onların ağlı da cəsarətsiz olacaq, uşaqlarda və qadınlarda olduğu kimi gözlərinin yaşı ovuclarının içində olacaq, lakin biz bircə dəfə işarə etsək, onlar dərhal şadlanacaq və güləcək, sevincə qərq olacaq, xoşbəxt uşaq nəğmələri oxumağa başlayacaqlar.

Bəli, biz onları işləməyə məcbur edəcəyik, işdən asudə saatlarda isə onların həyatını uşaq oyununa çevirəcəyik, onlar xorla uşaq mahnıları oxuyacaq, sadəlövhcəsinə rəqs edəcəklər. Ah, biz onların günah işləmələrinə də icazə verəcəyik, onlar zəif və gücsüzdürlər və biz onların günah işləmələrinə icazə verdiyimiz üçün onlar uşaq kimi bizi sevəcəklər. Biz onlara deyəcəyik ki, əgər hər hansı günah iş bizim icazəmizlə edilibsə, həmin günah bağışlanacaq; onların günah işləmələrinə isə ona görə icazə veririk ki, onları sevirik, bu günahların cəzasını isə, daha neyləyək, öz üzərimizə götürürük. Və doğrudan da, həmin günahları öz üzərimizə götürəcəyik, onlar isə bizi Allahın qarşısında onların günahlarını öz üzərinə götürmüş xeyirxah insanlar kimi ilahiləşdirəcəklər. Və onların bizdən gizli heç bir sirri olmayacaq. Onların sözəbaxan olub-olmamasından asılı olaraq biz onların öz arvadları ilə, yaxud məşuqələri ilə yaşamasına, övlad sahibi olmasına icazə verəcək, yaxud bunları qadağan edəcəyik, onlar da sevinə-sevinə, şadlana-şadlana bizə itaət edəcəklər. Onlar ən gizli ürək sirlərinin hamısını bizə söyləyəcək, biz də hər şeyi həll edəcəyik, onlar da sevinə-sevinə bizim qərarımıza inanacaqlar, çünki bu qərar onları şəxsi məsələlər barədə azad qərar qəbul etməkdən, böyük qayğıdan və indiki dəhşətli əzablardan xilas edəcək. Və hamı, milyonlarca məxluqun hamısı xoşbəxt olacaq, bircə onları idarə edən yüz minlərcə məxluqdan başqa. Çünki yalnız biz — bu sirri saxlayanlar bədbəxt olacağıq.

Min milyonlarca xoşbəxt körpə və şərin nədən ibarət olduğunu dərk etməyin qarğışına gəlmiş yüz min əzabkeş olacaq...

Bəziləri peyğəmbərlik edərək deyirlər ki, sən yenidən gələcəksən və qələbə qazanacaqsan, özünün seçmə, məğrur və qüdrətli yaxınlarınla birlikdə gələcəksən, lakin biz deyəcəyik ki, onlar yalnız özlərini xilas etmişdilər, biz isə hamını xilas etdik... Mənim sənə dediklərim həqiqətə çevriləcək və bizim dövranımız qurulacaq. Təkrar edirəm — günü sabah görəcəksən ki, mən bircə dəfə işarə edən kimi bu itaətkar sürü bizə mane olmağa gəldiyin üçün səni yandıracağım tonqala qaynar közü kürüyüb tökməyə başlayacaq. Çünki bizim tonqalımıza hamıdan çox layiq olan bir kəs varsa, o da sənsən. Sabah səni yandıracağam. Belə də olsun...

...İnkvizitor susub bir müddət gözlədi. Görən, əsir ona nə cavab verəcək? Əsirin susması ona ağır təsir bağışlayırdı. O görürdü ki, məhbus daim düz onun gözlərinin içinə baxa-baxa səmimiyyətlə və sakitcə qulaq asır və görünür, heç etiraz etmək istəmirdi. Qoca istərdi ki, əsir nə isə bir söz desin, lap acı, dəhşətli söz də olsa desin. Amma birdən o, dinməzcə qocaya tərəf yaxınlaşır və onun doxsan yaşlı, solğun dodaqlarından öpür. Onun bütün cavabı bundan ibarət olur. Qoca titrəyir. Onun dodaqlarının ucunda nə isə tərpəşir; o, qapıya tərəf

gedir, qapını açır və əsirə deyir: “Get və daha gəlmə... ümumiyyətlə, gəlmə... heç vaxt, heç zaman!”. Və onu “şəhərin qaranlıq meydanlarına” buraxır. Əsir çıxıb gedir. Qoca isə... öpüş onun qəlbində od tutub yanır, amma qoca əvvəlki fikrində qalır.

*“Karamazov qardaşları”*

---

1 İnkvizitor — 13-19-cu əsrlərdə katolik kilsəsində “kafir”lərə qarşı mübarizə orqanı olan inkvizisiya məhkəməsinin üzvü deməkdir. İnkvizisiya məhkəməsi gizli fəaliyyət göstərir və bir qayda olaraq “kafirlər”ə fiziki işgəncə verirdi. Adətən, “kafirlər”i tonqalda yandırırdılar — *red.*

## 22. BƏRABƏRLİYƏ QARŞI QİYAM

## Fridrix Nitsşe

19-cu yüzillik insanın şəxsi azadlığı ideyasını, eləcə də bərabərlik ideyasını bir sıra ağır sınaqlara çəkdi. Fransa inqilabının qanlı hadisələri, demokratik ölkələrdə “çoxluğun tiraniyası”, Konstan və Millin təsvir etdikləri kimi, cəmiyyətin insanın şəxsi həyatına müdaxiləsi 19-cu əsrin sonları, 20-ci əsrin əvvəllərində intellektuallar arasında etiraz dalğası doğurdu. Yaradıcı şəxsiyyətlər şəxsi azadlıqla vətəndaş bərabərliyi arasında əyyami-qədimdən mövcud olan ziddiyyətlərdən danışmağa başladılar.

Bir çox intellektuallar demokratiya və kapitalizmin özündə daşıdığı konformizmə və alverçilik ruhuna qarşı qiyama qalxdılar. Boğucu qayda-qanun mühitinin hökm sürdüyü cəmiyyət sənətkarı mənən əzirdi, lakin ən dəhşətlisi bu idi ki, indi sənətkar maddi cəhətdən də kütlənin “bəsit” zövqündən asılı idi. İncəsənət “xalqa məxsus” olmağa başlamışdı. Əgər əvvəlki zamanlarda sənətkar maddi cəhətdən elmli, bilikli aristokratdan asılı idisə, indi, bazar münasibətləri şəraitində zövqləri və sənətkara verilən qiyməti yeni alıcı — kapitalist cəmiyyətinin o qədər də incə zövqü olmayan orta vətəndaşı müəyyən edirdi. Burjua zövqünün yedəyində sürünmək istəməyən intellektuallar yaradıcı şəxsiyyəti əzən bərabərlikdən “fövqəlinsan”ın hüququ lehinə imtina etməyə çağırırdılar.

Bu “romantik qiyam”ın liderlərindən biri də alman filosofu Nitsşe (1844—1900) idi. Nitsşe protestant keşişi ailəsində doğulmuşdur. Uşaqlıqdan dini mühitdəki həyatı müşahidə etmiş Nitsşedə dinə, eləcə də burjua cəmiyyətinin mənəvi əsaslarına dərin nifrət oyanmışdı. Nitsşe əsərlərində müasir insan davranışının Qərb mədəniyyətinin dərin qatlarında gizlənmiş həqiqi motivlərini açıb göstərməyə çalışır, Qərb mədəniyyətini özünüaldatma mədəniyyəti adlandırırdı.

Nitsşenin fikrincə, insanı hakimiyyət əzmi və dünyanı öz istəklərinə uyğun dəyişmək ehtirası idarə edir. Bərabərlik istedadsızları törədib çoxaldır. Ləyaqəti itaət və mütiliklə eyniləşdirən xristian əxlaqı insanın öz imkanlarından tam istifadə etməsi yolunda başlıca əngəldir. Allah ölüb, — deyə Nitsşe bəyan edirdi, — insanın azad yaradıcılığı və nailiyyətləri erası başlanıb.

Nitsşe yaradıcılığının Qərbin intellektual fikrinə güclü təsiri olmuşdur. Nitsşenin milliyyətçiliyə, antisemitizmə, dövlətin zor siyasətinə olan nifrətinə baxmayaraq, faşistlər, sosialist terrorçular və ümumiyyətlə özlərini “fövqəlinsan” sayanlar onun ideyasını təhrif edərək özlərinə bayraq etmişdilər. Onlar üçün “fövqəlinsan” bəşəriyyət qarşısında, ali məqsədə yetmək naminə mənəvi öhdəliklərdən azad edilməli olan insan demək idi.

FRİDRİX NİTSŞE

## Xeyir və şərin o tayında (1886)

*...Demokratik hərəkatda yalnız siyasi təşkilatın düşkünlüyü formasını deyil, həm də insanın düşkünlüyü formasını, yəni onun ortabablıq dərəcəsinə endirildiyini, dəyər-qiymətdən düşdüyünü görən bizlər nə etməliyik?..*

... Cəmiyyətin tarixində xəstə bir yumşalma, zərifləşmə məqamları olur ki, bu zaman cəmiyyət öz düşməninə, cinayətkara tərəfdar çıxır və bunu olduqca ciddi və namusla edir. Bəzi hallarda o, cəza verməyə ədalətsizlik kimi baxır — inamla söyləmək olar ki, "cəza" və "cəzalandırmaq vəzifəsi" barədəki anlayışların özü ona mənəvi ağrılar verir, onda qorxu, vahimə hissi oyadır. "Məgər canini zərərsizləşdirmək bəs etməzmi? Daha cəza vermək nə üçün? Cəza ki dəhşətdir!" — bu sualla da sürü əxlaqı, qorxaqlıq əxlaqı son qərarını vermiş olur. Əgər ümumiyyətlə təhlükənin özünü, qorxunun səbəbini məhv etmək mümkün olsaydı, o zaman bu əxlaqın özü də məhv olardı — o, daha gərək olmazdı, öz-özünü lazımsız hesab edərdi! Müasir avropalının vicdanını araşdıran şəxs onun vicdanının minlərlə əxlaq çalarında və ən xəlvət guşələrində eyni bir imperativi — sürü hürküsü imperativini tapmış olar: "Kaş haçansa elə bir dövr yetişsin ki, daha heç nədən qorxmaq lazım gəlməsin". Həmin o "haçansa"ya canatma və yol hazırda Avropada "tərəqqi" adlandırılır.

Yüz dəfə söylədiyimiz həqiqəti bir daha yada salaq, çünki bu həqiqətləri — bizim həqiqətləri hazırda həvəssiz dinləyib qulaqardına vururlar. Biz artıq yaxşı bilirik ki, kimsə heç bir mübaliğə və bənzətməyə yol vermədən insanı birbaşa heyvanlar sırasına aid edəndə bu necə təhqiredici səslənir və bizim "müasir ideyalı" insanlarla bağlı olaraq daim "sürü", "sürü instinkti" və s. bu kimi ifadələri işlətməyimiz, heç şübhəsiz ki, az qala günah kimi bizim ayağımıza yazılacaqdır. Lakin nə etməli? Biz başqa cür hərəkət edə bilmərik, çünki yeni baxışımız məhz bu təsəvvürdən ibarətdir. Biz aşkar etmişik ki, Avropa və Avropanın təsiri altında olan ölkələr bütün əsas əxlaqi mülahizələr üzrə tam razılığa gəlmişlər — onların fikrincə, Avropada hətta Sokrata da bəlli olmayan və bir zamanlar qədim və məşhur İlanın öyrətməyə boyun olduğu bir şeyi — xeyir və şərin olduğunu "bilirlər". Bu, qulaq üçün nə qədər kobud və xoşagəlməz səslənsə də, biz yenə təkrar edirik: bu təsadüfdə özünü bilən saymaq, öz alqışı və qarğışıyla özünü öymək, rəhmdil adlandırmaq elə sürü insanı instinktidir...

Hazırda Avropadakı əxlaq sürü heyvanlarının əxlaqıdır və bizim fikrimizcə, bu, insan əxlaqının yalnız bir növüdür, bu növdən əlavə, ondan öncə və ondan sonra digər bir çox əxlaq növləri, ilk növbədə də ali əxlaq növləri, yaxud bunların ola bilməsi mümkündür. Lakin mövcud əxlaq bu cür "mümkünlüyü", bu cür "olabilmə"ni var gücüylə inkar edir; o, əzm və inadla təkrar-təkrar deyir: "Mən əxlaqın özüyəm və məndən savayı heç şey əxlaq deyildir!"... Ən ali sürü ehtiraslarının qulluğunda duran və bunlara ləbbeyk söyləyən dinin köməyi ilə iş o yerə çatmışdır ki, həm siyasi, həm də ictimai qanun-qaydalarda biz bu əxlaqın getdikcə daha aşkar və qabarıq ifadəsini görürük — demokratik hərəkat xristianlıq hərəkatı irsinə yiyə durmağa başlamışdır. Lakin onun sürəti sözügedən instinktin daha səbrsiz, xəstəhal və cəfakeş ifadəçiləri üçün hələ ki, xeyli ləng və cansıxıcıdır; bunu hazırda Avropa mədəniyyətinin kandarlarında sülənən anarxist köpəklərin getdikcə daha qəzəblə ulaşıb diş qıcırtmalarından görmək olar; guya onlar sülhsevər, işlək demokratlar və inqilab ideoloqlarıdır və daha artıq dərəcədə, özlərini sosialist adlandıran və "azad cəmiyyət" arzusunda olan qardaşlığın kütbeyin filosofcuğazları və fanatikləriylə ziddiyyət təşkil edirlər, əslində isə onlar cəmiyyətin muxtar sürü formasından başqa hər hansı digər formasına dərin və instinktiv ədavət bəsləməkdə onlarla eyniləşirlər (və bu ədavətdə o həddə gəlib çatırlar ki, hətta "ağa" və "qul" anlayışlarını belə inkar edirlər; məsələn, sosialist düsturlarından biri bəyan edir ki, *"ni dieu ni maitre"*(1). Onlar hər hansı bir müstəsna iddiaya, hər hansı bir müstəsna hüquqa və üstünlüyə inadlı müqavimət göstərməkdə eyniləşirlər (bu da son nəticədə hər bir kəsə eyni hüquqların verilməsi deməkdir; belə ki, hamı bərabər olanda artıq heç kəsə "hüquqlar" gərək olmur). Onlar cəzaverici ədalət mühakiməsinə inamsızlıqda eyniləşirlər (guya ki, cəza vermək zəif üzərində zorakılıq, bütün əvvəlki cəmiyyətlərin zəruri məhsuluna münasibətdə ədalətsizlikdir). Onlar bəşəri mərhəmət əxlaqına olan inamda eyniləşirlər, guya bu mərhəmətin özü elə əxlaq deməkdir və guya bu əxlaq zirvədir, insanlığın əldə edə bildiyi ən yüksək zirvədir, gələcəyin yeganə ümid yeri, müasir insanlar üçün təsəlli vasitəsi, hər cür əski günahların bağışlanması deməkdir...

Bəs bizlər — başqa bir dinin insanları demokratik hərəkatda yalnız siyasi təşkilatın düşkünlüyü formasını deyil, həm də insanın düşkünlüyü formasını, məhz insanın cılızlaşması formasını, yəni onun ortabablıq dərəcəsinə endirildiyini, dəyər-qiymətinin aşağı düşdüyünü görən bizlər nə etməli, öz ümidlərimizi nələrə, yaxud kimlərə bağlamalıyıq? Əlbəttə ki, *yeni filosoflara* — çarəmiz yoxdur; biz öz ümidlərimizi şeylərin zidd qiymətləndirilməsi təcrübəsinin özülünü qoymaq, "əbədi dəyərlər"i yenidən saf-çürük etmək, bunlara yeni gözlə baxmaq üçün kifayət qədər güclü və orijinal ağlı olan insanlara bağlamalıyıq; biz öz ümidlərimizi yeni eranın sələflərinə, minilliklərin iradəsini yeni yollarla sürüyüb apara biləcək kəməndi indiki dövrün boynunda bərkidən gələcəyin insanlarına bağlamalıyıq. Biz bunu insanın gələcəyinə, insan iradəsindən asılı olan bir şeyə baxan kimi baxmağı öyrətmək üçün, indiyədək tarix adlandırılan ağılsızlığın və təsadüflərin bu müdhiş ağalığına son qoymaq

məqsədilə, tərbiyə və intizamlaşdırma işində böyük və cəsarətli kollektiv təcrübələri hazırlamaq üçün etməliyik — "əksəriyyətin" ağılsızlığı onun yalnız son formasıdır...

1 Nə Allah, nə ağa (frans.) — *red.*

## 23. KAPİTALİZM ADAMI, DEMOKRATİYA ADAMI

### Maks Veber

Nə üçün bir sivilizasiya uğurla inkişaf edir, digəri daim durğunluqda qalır, üçüncüsü isə, ümumiyyətlə, yer üzündən silinib gedir? Bu suallar bəşəriyyətin fikrini çox qədimlərdən məşğul edirdi və elə indinin özündə də ictimai elmlərin başlıca problemi olaraq qalır.

Nə üçün kapitalizm və demokratiya bir ölkədə kök salıb çiçəkləyir, digərində isə məğlubiyyətə uğrayır? Qərbin demokratik cəmiyyəti insanında fövqəladə nəsə varmı və o, digər mədəniyyətin nümayəndəsindən nə ilə fərqlənir? Qərb dünyasından parlamenti, Konstitusiyanı əxz edərək qanun vasitəsilə şəxsi mülkiyyəti və bazar münasibətlərini həyata keçirməyimiz kifayətdirmi ki, ölkəmiz uğurla inkişaf yoluna qədəm qoysun?

Görkəmli alman filosofu və sosioloqu Maks Veber (1864–1920) XX yüzilliyin astanasında bu suala "yox" cavabını verirdi. Veberin fikrincə, kapitalizm və demokratiyanın uğurlu inkişafı üçün insan xüsusi mədəniyyətə — həyata münasibətdə rasional və tənqidi baxışa, eləcə də, protestantizm dini təlimi və dini praktikası vasitəsilə təşəkkül tapmış əməyin kapitalist etikasına yiyələnməlidir.

Veber yazırdı ki, kapitalizm münasibətləri Qərbdə uydurulmayıb, bunlar bütün sivilizasiyaya xasdır, ancaq protestant kapitalizminin əsaslı fərqi əməyə xüsusi münasibətdədir. Digər mədəniyyətlərdə *"insan yaşamaq üçün işləyir, protestantlar isə işləmək üçün yaşayırlar"*. Çünki kalvinistlərin(1) dini təliminə görə, Allaha sonsuz dualar deyil, uğurlu, Allah-təalanın adını şöhrətləndirəcək əmək xoşdur. Və əgər insanın əməyi uğurludursa — ona var-dövlət gətirirsə, ümid edə bilər ki, cənnətdə əbədi həyat üçün Allah məhz onu seçib. Protestantizmin yayılmasından yüzilliklər sonra əmək etikasının dini motivi, demək olar ki, unudulmuşdu. Lakin Veberin yazdığı kimi, əməyə xüsusi münasibət Qərb insanı psixologiyasında özünə möhkəm yer eləmişdi.

Veberin uğurlu kapitalizm və sabit demokratiyanın protestant etikası ilə əlaqəsi haqqındakı nəzəriyyəsi dəfələrlə tənqid hədəfinə çevrilmişdi. Veberin opponentləri buna istinad edirdilər ki, 19 – 20-ci yüzilliklərdə dünyada katolik Fransası, İtaliyası və İspaniyası, yaxud 20-ci əsrin sonlarında xristian ənənələrinə büsbütün yad olan Sakit okean bölgəsi ölkələri və müsəlman Türkiyəsi kimi uğurla inkişaf edən kapitalist ölkələri peyda olmuşdu.

Veberin özü və onun tərəfdarları buna belə cavab verirdilər ki, inkişaf edən qeyri-protestant ölkələr çox güman ki, öz mədəniyyətlərində əvvəllər gizli qalan ehtiyatları üzə çıxara bilmiş və bu, onlara protestant etikasına bənzər əmək etikasını formalaşdırmağa imkan vermişdir.

Veberin nəzəriyyəsi Marksın da mənsub olduğu fəlsəfi məktəbə meydan oxumaq demək idi. Marks iddia edirdi ki, şüuru maddi varlıq təyin edir. Veber isə bunun tam əksini sübut edirdi — protestantizm ideyası Qərb ölkələrinin maddi inkişafını təmin etmişdir.

Hətta biz Veberlə razılaşmalı olsaq ki, protestant ölkələrinin inkişafını məhz dini reformasiya irəlicədən müəyyən etmişdir, bu halda da inkişaf probleminin əsas sirri yenə açılmamış qalacaqdır. Axı indiyədək aydın deyildir ki, nə üçün reformasiyanı məhz Şimali Avropanın almandilli xalqları birinci olaraq (hələ 16-cı əsrdə) həyata keçirmişlər? Nə üçün Cənubi və Şərqi Avropa xalqları bu reformasiyanı rədd etmişdir? Nə üçün katoliklər öz dinləri daxilində liberal islahatı yalnız 20-ci yüzilliyin ortalarında həyata keçirə bilmişlər? Və nə üçün pravoslav xristianlar, eləcə də müsəlmanlar indiyəcən öz dinlərində reformasiya aparmamışlar?

Hər necə olsa da, ümumi rəyə görə, Veberin "Protestant etikası və kapitalizm ruhu" əsəri Qərb insanının davranış motivlərini və Qərb cəmiyyətinin xüsusiyyətlərini anlayıb dərk etmək üçün əvəzolunmaz mənbə sayılmalıdır.

MAKS VEBER

# Protestant etikası və kapitalizm ruhu (1905)

*Bu etika ali dəyəri hər şeydən əvvəl daha çox qazancda, pulun verdiyi nəşədən tam imtina etmək şəraitində bacardıqca daha çox qazanc əldə etməkdə görür.*

## I. PROBLEMİN QOYULUŞU

### 1. DİNİ ETİQAD VƏ SOSİAL TƏBƏQƏLƏŞMƏ

Əhalisinin müxtəlif dinlərə mənsub olduğu istənilən ölkənin peşəkar statistikası ilə tanışlıq zamanı katolik mətbuat və ədəbiyyatında, həmçinin Almaniyanın katolik qurultaylarında dəfələrlə müzakirə olunmuş bir məsələ diqqəti cəlb edir. Biz protestantların kapital yiyələri və sahibkarlar arasında, həmçinin yüksək ixtisaslı fəhlə təbəqələri, hər şeydən əvvəl isə müasir müəssisələrin ali texniki və kommersiya personalı içərisində şəksiz çoxluq təşkil etdiklərini nəzərdə tuturuq. Bu, yalnız dini müxtəlifliklə milli müxtəlifliyin üst-üstə düşdüyü və buradan da, məsələn, Şərqi Almaniyanın alman və polyak əhalisinin nümunəsində olduğu kimi, müxtəlif mədəni inkişaf səviyyəsinin üst-üstə düşdüyü ölkələrdə deyil, çiçəklənmə dövründə kapitalizmin özünə zəruri sosial və peşəkar dəyişiklikləri maneəsiz həyata keçirdiyi hər yerdə əksini tapmışdır; bu proses isə nə qədər sürətlə gedibsə, dini statistika da bu hadisəni o qədər aydınlıqla əks etdirib.

Düzdür, kapital yiyələri, iri ticarət-sənaye müəssisələrinin rəhbərləri və yüksək ixtisaslı fəhlələr içərisində protestantların nisbi çoxluq təşkil etməsi... qismən kökləri ilə uzaq keçmişə gedən tarixi səbəblərlə izah olunur... Müəyyən iqtisadi funksiyaların yerinə yetirilməsi ya kapitalın, ya da bahalı təhsilin, çox vaxt isə hər ikisinin olmasını tələb edir; hazırda bu funksiyalar irsi sərvətlə, yaxud hər halda məlum var-dövlətlə bağlıdır. 16-cı əsrdə imperiyanın bir çox varlı vilayətləri (onlar əsasən əlverişli təbii şəraitə və ticarət yollarının yaxınlığına görə varlanmışdılar), o cümlədən varlı şəhərlərin əksəriyyəti protestant etiqadını qəbul etdilər; bu faktın nəticələri bu günə qədər hiss olunur və protestantların yaşamaq və iqtisadi inkişaf uğrunda mübarizəsinə yardım edir. Lakin burada tarixi xarakterli bir sual ortaya çıxır: iqtisadi cəhətdən inkişaf etmiş vilayətlərin kilsə inqilabına bu qədər güclü rəğbətinin səbəbi nədir? Bu suala cavab vermək ilk baxışdan göründüyü qədər də asan deyil. Əlbəttə, iqtisadi ənənəçiliklə əlaqənin kəsilməsi dini ənənələrin toxunulmazlığına şübhələri, ümumiyyətlə, ənənəvi avtoritetlərə qarşı üsyan meylini xeyli gücləndirməli idi. Lakin çox vaxt unudulan bir şeyi nəzərdən qaçırmaq olmaz: Reformasiya kilsənin gündəlik həyatda hökmranlığının *aradan qaldırılmasını* deyil, həmişəki hökmranlıq formasının *başqası ilə* əvəz olunmasını nəzərdə tuturdu; həm də ağır olmayan, demək olar ki, hiss edilməyən, çox vaxt az qala formal xarakter daşıyan hökmranlıq bütün davranışları ən yüksək səviyyədə, ağır və sərt çərçivələrə salan, şəxsi və ictimai həyatın bütün sahələrinə nüfuz edən hökmranlıqla əvəz olunurdu. "Dönükləri cəzalandıran, lakin günahkarları bağışlayan" (əvvəllər indikindən daha çox) katolik kilsəsinin hökmranlığı ilə bu gün tam müasir iqtisadi quruluşa malik olan xalqlar razılaşırlar, onunla 15-ci və 16-cı əsrlərin kəsişməsində ən varlı, iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələr də razılaşırdılar. Kalvinizmin 16-cı əsrdə Cenevrə və Şotlandiyada, 16-cı əsrin axırında və 17-ci əsrin əvvəlində Niderlandın böyük hissəsində, 17-ci əsrdə Yeni İngil-tərədə(2), bəzən isə İngiltərənin özündə hökmranlığını indi biz şəxsiyyət üzərində ən dözülməz kilsə nəzarəti kimi qəbul edərdik... Məhz o vaxtın iqtisadi cəhətdən daha çox inkişaf etmiş ölkələrinin, bu ölkələrdə isə (sonrakı şərhdə görəcəyik) məhz iqtisadi yüksəlişin daşıyıcıları — orta "burjua" siniflərinin nəinki o vaxta qədər görünməmiş puritan tiraniyası ilə razılaşmasını, hətta o vaxta qədər və sonralar da bir daha göstərmədikləri qəhrəmanlıqla müdafiə etmələrini bəs nə ilə izah etmək olar? Bu, Karleylin haqlı olaraq dediyi kimi, *"the last of our heroism"* (qəhrəmanlığımızın son təzahürü — *ing.*) idi.

Sonra, ən əsası: ...katolik abituriyentlər arasında texniki və ticarət–sənaye fəaliyyəti, ümumiyyətlə, burjua sahibkarlığına hazırlayan təhsil müəssisələrini qurtaranların faizi protestantlara da nisbətən xeyli aşağıdır — katoliklər klassik gimnaziyaların humanitar hazırlığına üstünlük verirlər; bu faktı heç cür yuxarıda deyilən səbəblə izah etmək olmaz... Müasir iri sənayedə çalışan yüksək ixtisaslı fəhlələrin arasında katoliklərin azlıq təşkil etməsi də bunu əyani göstərir... Bu halda ortaya belə səbəb əlaqəsi çıxır: *tərbiyə, xüsusilə tərbiyənin* vətən

və ailənin dini mühiti ilə şərtlənən istiqaməti ilə aşılanmış *xüsusi psixi xarakter* peşənin seçilməsi və sonrakı peşə fəaliyyətini müəyyən edir...

Hər şeydən əvvəl aydınlaşdırmalıyıq ki, adları çəkilən dini etiqadların xüsusiyyətlərinin hansı ünsürləri yuxarıda göstərilən istiqamətlərdə təsir göstərmişdir və göstərməkdə davam edir...

İngilis, holland və amerikan puritanları (16-cı əsrdən radikal protestant sektaları — *red.* ) "şən həyatı" inkar etməklə səciyyələnirdilər. Bir azdan görəcəyik ki, onların məhz bu xüsusiyyəti tədqiqatımız üçün daha vacibdir. Məsələn, fransız protestantizmi uzun müddət (müəyyən dərəcədə hətta bu günə qədər) kalvinist kilsənin xarakterini saxlamışdır... Lakin buna baxmayaraq, yaxud ola bilər ki, məhz buna görə o, məlum olduğu kimi, Fransanın sənaye və kapitalist inkişafını şərtləndirən amillərdən olmuşdur. Əgər ciddiliyi və həyat tərzinin bütövlükdə dini maraqlara tabe etdirilməsini "tərki—dünyalıq" adlandırsaq, onda təsdiq etməliyik ki, o vaxtdan indiyə qədər bu ideyanın qızğın tərəfdarları olan fransız kalvinistləri dini, məsələn, dünyanın istənilən xalqından artıq qiymətləndirən Şimali Almaniyanın katoliklərindən heç də çox tərki-dünya olmamışlar. Hər ikisi hakim dini partiyalardan eyni dərəcədə fərqlənir: həm aşağı təbəqələrində həyat eşqi ilə dolu, yuxarılarında isə dinə açıq düşmən mövqedə olan fransız katoliklərindən, həm də məzhəbini dünyəvi işlərin içərisində unutmuş və dini biganəliyi ilə seçilən alman protestantından...

Diqqəti özünə çəkən bir sıra məsələni nəzərə almaq lazımdır. Məsələn, tərki-dünyalıq, asketizm və kilsə möminliyi ilə kapitalist sahibkarlığı arasında nisbətin yerlərinin dəyişdirilməsinə ehtiyac yoxdur ki?..

Bu cür yerdəyişmə harada meydana gəlməsindən asılı olmayaraq həmişə kalvinizmdə müşahidə olunur... Hələ ispanlara məlum idi ki, "dönüklük" (yəni Niderland kalvinizmi) "ticarət ruhunun inkişafına" imkan yaradır... Burada göstərilən bir neçə misal artıq tam sübut edir ki, oyanışın adətən protestantizmlə bağlanıldığı "əmək fəaliyyəti ruhu"nu, "tərəqqi"ni və s. "həyat sevinci" kimi başa düşmək lazım deyildir və ümumiyyətlə ona "maarifçi" kimi məna vermək düzgün deyildir. Lüter, Kalvin, Noks və Foetin protestantizmi indi "tərəqqi" adlandırılan şeydən çox uzaq idi.

## 2. KAPİTALİZM "RUHU"

Başlıqda bir qədər iddialı səslənən anlayış — kapitalizm *ruhu* verilir. Bu anlayış altında nə başa düşülməlidir?..

Bu məqsədlə xatırlanan "ruh"a aid sənəddən — bizi maraqlandıran məsələni, demək olar ki, klassik aydınlıqla əks etdirən sənəddən istifadə edək...

Bu sənəddə deyilir: "Yadında saxla ki, vaxt puldur, kim ki hər gün on şillinq qazana bilir, lakin günün yarısını boş gəzintiyə, yaxud evdə tənbəlliyə sərf edir və özünə yalnız altı pens xərcləyirsə, təkcə bu xərci nəzərə almamalı və bilməlidir ki, ondan başqa daha beş şillinq xərcləmiş, daha doğrusu, çölə atmışdır. Yadında saxla ki, *kredit — puldur.* Kim ki öz pullarını daha bir neçə müddətə məndə saxlayır, bu vaxt ərzində qazana biləcəyim faizi mənə bağışlayır...

Yadında saxla ki, *pul təbiətcə bar verəndir və yeni pul yaratmağa qadirdir.* Pul pul törədə, onun törəmələri isə daha çox törədə bilər...

Bu məsələni yadda saxla: borcunu vaxtında ödəyən adama başqalarının pul kisəsi həmişə açıqdır. Borcunu vaxtında qaytaran adam öz dostlarından həmin vaxt onlara lazım olmayan pulları borc götürə bilər.

Bu isə çox sərfəlidir. Çalışqanlıq və sadəliklə yanaşı, dəqiqlik və ədalətlilik kimi heç nə cavanlara *cəmiyyətdə hörmət qazanmağa* kömək etmir...

Nəzərə alınmalıdır ki, ən əhəmiyyətsiz şeylər də *kreditə* təsir göstərir. Sənin çəkicinin səsini sənə borc verən səhər saat 5-də və axşam saat 8-də eşidirsə, bu onun inamını daha altı ay müddətinə uzadır; ancaq əgər o səni bilyard stolu arxasında görsə, yaxud iş vaxtı sənin səsini meyxanadan eşitsə, onda elə səhərisi gün borcu sənin yadına salar və pulunun olmadığı vaxtda öz pullarını geriyə tələb edər...

...Xərcinin və gəlirinin dəqiq hesabını apar. Əgər hər xırda şeyə diqqət yetirməyin əziyyətinə qatlaşsan, aşağıdakı gözəl nəticə alınacaqdır: görərsən ki, necə xırda məsrəflər böyük məbləğə çevrilir və görərsən ki, nəyə keçmişdə qənaət etmək olardı və nəyə gələcəkdə qənaət etmək olar...".

Bencamin Franklin(3) belə tövsiyə edir və onun tövsiyələri "Amerika mədəniyyətinin surəti"nə çox yaxındır... Borcunu qaytarmağa qadir olan nəcib adam onun idealıdır. Onun fikrinə görə, belə adam kapitalının daim artmasına məqsəd kimi baxmalıdır. Məsələnin mahiyyəti ondadır ki, burada adi məişət davranışı qaydaları təbliğ edilmir, xüsusi "etika" şərh olunur və ondan kənara çəkilmək təkcə axmaqlıq kimi deyil, həm də müəyyən mənada vəzifə borcunun yerinə yetirilməməsi kimi qiymətləndirilir...

Yakob Fuggerlə birgə işləyən yoldaşı işdən uzaqlaşır və ona da belə etməyi məsləhət görür ki, daha bəsdir, biz kifayət qədər qazanmışıq, qoy başqaları da qazansın. Fugger onu "acizlikdə" qınayır və deyir ki, "o (Fugger), başqa cür düşünür və nə qədər ki gücü var, qazanacaqdır". Bu sözlərdə Franklinin fikirlərinə xas olan "ruh" *yoxdur*: bir halda sonsuz sahibkar enerjisinin və mənəvi cəhətdən biganə meylin bolluğunu ifadə edən digər halda bütün həyat tərzini nizamlayan etik norma xarakteri alır. Biz "kapitalizm ruhu" (əlbəttə, müasir kapitalizm) anlayışından bu xüsusi mənada istifadə edirik. Belə ki, problemin qoyuluşunun özündən aydındır ki, söhbət yalnız Qərbi Avropa və amerikan kapitalizmindən gedir. Kapitalizm Çində, Hindistanda, Babilistanda qədimdə və orta əsrlərdə mövcud olmuşdur. Lakin bir azdan görəcəyimiz kimi, Franklinin fikirlərində aşkar etdiyimiz xüsusi etos (xarakter — *red.* ) bu kapitalizmdə olmamışdır.

Düzdür, Franklinin bütün əxlaq qaydalarının utilitar əsası var (mənfəət götürülməsinə əsaslanır — *red.*): düzgünlük *sərfəlidir,* çünki kredit gətirir, dəqiqlik, nəfsin saxlanılması, qənaətcillik, mötədillik də bu qəbildəndir, ona görə də bütün bu keyfiyyətlər xeyirxahlıq nümunəsi hesab olunur. Buradan belə nəticə çıxarmaq olar ki, düzgünlük görünüşü həmin səmərəni verirsə, həqiqi düzgünlüyü tam əvəz edə bilər... və xeyirxahlıq görünüşü ilə elə hallarda kifayətlənmək olar ki, onun köməyi ilə elə həmin səmərə əldə edilmiş olsun. Ardıcıl utilitarizm mövqeyindən çıxışın qaçılmaz nəticəsi budur. Burada *sanki* almanların amerikan əxlaqının "ikiüzlülüyü" kimi... başa düşdükləri şey ortaya gətirilmişdir. Ancaq məsələ ilk baxışdan göründüyü qədər sadə deyildir. Burada eqosentrik motivlərin şişirdilməsindən başqa, daha ayrı bir şey mövcuddur, Bencamin Franklinin yalnız həyat təsvirini son dərəcə həqiqətəuyğun şəkildə vermesində özünü göstərən şəxsi keyfiyyətləri, həmçinin onu ləyaqətli həyat sürməyə təhrik etmiş ilahi açıqlamaları nəticəsində xeyirxahlığın "sərfəliliyini" qiymətləndirməsi yeganə əsas kimi çıxış etmir. Bu etikanın *Summum bonumu* (ali dəyər — *lat.*) hər şeydən əvvəl *daha çox qazancda, pulun verdiyi nəşədən, bütün evdemonist, yaxud gedonist anlardan imtina etmək şəraitində bacardıqca daha çox qazanc əldə etməkdə görür; qazanc bu həddə elə məqsəd kimi düşünülür ki, az qala dərk edilə bilməyən və hətta bir fərdin "səadəti", yaxud "xeyrinə" münasibətdə sadəcə olaraq qeyri-real bir şeyə çevrilir. İndi qazanc insanın maddi tələbatının ödənilməsinə xidmət etmir, əksinə, insanın bütün həyatı qazanc əldə edilməsinə yönəlir, qazanc onun həyatının məqsədinə çevrilir...* Bununla belə, Franklinin yanaşması müəyyən dini baxışları üst-üstə düşən hisslər toplumunu özündə əks etdirir. Belə ki, heç bir dini istiqamətə üstünlük verməyən deist mövqeli Bencamin Franklin nə üçün adamlardan "pul düzəltmək lazımdır" sualına öz tərcümeyi-halında cavanlıqda ciddi kalvinist olan atasından eşitdiyi Bibliya kəlamı ilə cavab verir: "Öz işində zirək olan adam görmüsənmi? Beləsi hökmdarların hüzurunda dayanacaqdır". Pulun əldə edilməsi (qanuni yolla qazanmaq şərtilə) müasir təsərrüfat quruluşunda istedadın, meylin ardınca gedən adamın işgüzarlığının nəticəsi və ifadəsi deməkdir; çox asanlıqla görmək olar ki, bu *işgüzarlıq* Franklin əxlaqının alfa və omeqasını təşkil edir...

Müasir təsərrüfat həyatında hökmranlığa nail olmuş kapitalizm iqtisadi *seçim* yolu ilə özünə zəruri olan təsərrüfat subyektlərini — sahibkarları və fəhlələri tərbiyə edir və yaradır. Amma məhz burada tarixi hadisələri izah etmək üçün "seçim" anlayışının tətbiqolunma hədləri tam aydınlığı ilə görünür. Həyat tərzi və peşəyə münasibət sahəsində kapitalizmin xüsusiyyətinə uyğun "seçim"in baş verməsindən..., yəni müəyyən davranış və təsəvvür növlərinin digərləri üzərində qələbə çalmasından ötrü o, əlbəttə, əvvəlcə meydana gəlməli, özü də ayrı-ayrı, bir-birindən təcrid olunmuş şəxsiyyətlərin simasında deyil, daşıyıcılarının insan qrupu olduğu dünyabaxışı kimi meydana gəlməlidir... Tarixi materializmin iqtisadi münasibətlərin "əks olunması", yaxud "üstqurumu" kimi "ideyalar"ının meydana gəlməsi haqqında sadəlövh təsəvvürlərinə gəldikdə isə, onların üzərində təfərrüatı ilə dayanacağıq...

Kapitalizm "ruh"unun toqquşduğu ilk rəqib... qavrayış və davranış tipi olmuşdur. O, *ənənəçilik* tipi adlandırıla bilər... Müasir sahibkarların "öz" fəhlələrinin əməyinin səmərəliliyini artırmaq və maksimum məhsuldarlıq əldə etmək üçün istifadə etdikləri texniki vasitələrdən biri də *əməyin işəmuzd ödənilməsindən* ibarətdir... Gəlirin artması və təsərrüfatın intensivləşməsi sahibkarın hər an artan marağına səbəb olduğundan o, tarifləri qaldırır və bununla da fəhlələrin az vaxt ərzində daha çox əmək haqqı almaq imkanını təmin edərək onları əmək məhsuldarlığını yüksəltməyə həvəsləndirməyə çalışır. Lakin burada gözlənilməz çətinliklər ortaya çıxır. Bəzi hallarda tariflərin qaldırılması əmək məhsuldarlığının yüksəldilməsinə deyil, aşağı enməsinə səbəb olur, belə ki, əmək haqqının artmasına fəhlələr gündəlik istehsalın qaldırılması ilə deyil, aşağı salınması ilə cavab verirlər... Əmək haqqının artırılması onu işin yüngülləşdirilməsindən daha az maraqlandırırdı; o soruşurdu ki, mən əmək məhsuldarlığını yüksəltməklə nə qədər qazana bilərəm; sual başqa cür qoyulurdu: mənə nə qədər işləmək

lazımdır ki, indiyədək qazandığım və ənənəvi tələbatımı ödəyən 2,5 markanı alım? Göstərilən misal bizim "ənənəçilik" adlandırdığımız düşüncə tərzini nümayiş etdirir: *"öz təbiətinə görə" insan çoxlu və daha çox pul qazanmağa meylli deyil, o, adi qaydada, adət etdiyi kimi yaşamaq və bu həyatına kifayətedəcək qədər qazanmaq istəyir...*

Aşağı əmək haqqı (həmçinin) özünü doğrultmur və bütün bu hallarda tamamilə əks nəticələrə gətirib çıxarır, çünki burada təkcə həssas məsuliyyət hissi deyil, həmçinin elə düşüncə tərzinin olması zəruridir ki, heç olmasa, *iş vaxtı* maksimum rahatlıq və minimum gərginlik şəraitində adi əmək haqqını saxlamaq fikrini başından qova bilsin və bu düşüncə tərzində əmək mütləq məqsədə, "meyl"ə çevrilsin. Lakin əməyə belə münasibət insan təbiətinə xas deyildir. O, yüksək və yaxud aşağı əmək haqqının birbaşa nəticəsi kimi də yarana bilməz; bu, yalnız uzunmüddətli tərbiyə prosesinin nəticəsi olaraq meydana gələ bilər...

Köhnəlmiş ənənəçiliyin əlamətləri bu gün fəhlə qadınların (və daha çox ərsiz fəhlə qadınların) fəaliyyətində özünü göstərir. Demək olar ki, hər yerdə sahibkarlar ərsiz fəhlə qadınların ənənəvi metodlarından imtina etməyə, onları yeni və məqsədəuyğunları ilə əvəz etməyə, əməyin təşkilinin yeni formalarına uyğunlaşmağa, nə isə öyrənməyə, öz fikrini cəmləşdirməyə və ümumiyyətlə, düşünməyə istək və qabiliyyətlərinin olmamasından şikayətlənirlər... Fəhlə qadınların xüsusi dini tərbiyə aldıqları, xüsusən də onların pietist(4) dairələrdən çıxdıqları hallarda isə (bu, problemin qoyuluşu üçün az əhəmiyyətli deyildir) məsələ tamamilə başqa cürdür. Çox vaxt eşitməli olursan ki (bunu statistik məlumatlar da təsdiq edir), bu qism fəhlə qadınlar yeni texniki metodları daha tez götürürlər. Fikrini cəmləşdirmək bacarığı, həmçinin "əməyə münasibətdə borcuna" sadiqlik onlarda ciddi təsərrüfatçılıq keyfiyyəti ilə birləşir, buna görə də onlar əmək haqqının həcmi ilə soyuqqanlılıq və qənaətcilliyi bir-birinə uyğunlaşdırırlar — bütün bunlar əmək məhsuldarlığını hədsiz dərəcədə artırır. Burada biz əməyə məqsəd, "meyl" kimi münasibətlər üçün, ənənəçiliyin torundan qurtarmaq üçün daha əlverişli zəminlə rastlaşırıq...

Əgər bu gün bu cür adamlardan onların dayanmadan qazanc, özü də bəhrələrindən heç vaxt istifadə etmədikləri və bu "nahaq dünyanın" tələbləri baxımından tamamilə mənasız görünən qazanc dalınca qaçmalarının "mənası" haqqında soruşsaq, onlar bəzi hallarda yəqin cavab verərdilər ki,.. "uşaqların və nəvələrin qayğısına qalmaq" hissi onları belə hərəkət etməyə məcbur edir; daha dəqiqi isə, onlar çox sadəcə deyərdilər ki,.. usanmaq bilməyən tələbləri ilə işin özü onlar üçün "zəruri yaşayış şərtinə" çevrilmişdir. Demək lazımdır ki, bu, həqiqətən yeganə düzgün izahdır. *Özü də, bu izahı belə həyat tərzinin şəxsi səadət baxımından ağlazidd olduğu, bu cür həyat tərzində insanın insan üçün deyil, iş üçün yaşadığı açılıb göstərilmişdir*. Əlbəttə, sərvətlə əldə olunan iqtidar, şan-şöhrət istəyi də müəyyən rol oynayır, bütün xalqın səylərinin kəmiyyət iddialarının əldə edilməsinə yönəldildiyi yerlərdə isə, məsələn ABŞ-da, aydındır ki, bu rəqəmlər romantikası ticarət dairələrinin "şairləri" üçün bənzərsiz cazibə mənbəyinə çevrilir. Ancaq kapitalizm dünyasının davamlı uğur qazanmış ciddi sahibkarları öz fəaliyyətində adətən bu cür mülahizələri əsas götürmürlər...

*Kapitalist sahibkarların "ideal tipi"nə... zahiri dəbdəbə və israfçılıq, həmçinin hakimiyyətdən sui-istifadə və cəmiyyətdəki vəziyyətini nümayiş etdirmək hissi yaddır.* Onun həyat tərzinə — bizim üçün bu mühüm təzahürün tarixi əhəmiyyəti üzərində hələ dayanacağıq — Franklinin yuxarıda müraciət etdiyimiz "tövsiyələri"ndə aydın görünən məlum asketik yönüm uyğundur. Bu tip sahibkarın özünə sərvət "heç nə vermir", olsa-olsa, öz "meyl"i çərçivəsində yerinə yetirilmiş irrasional borc hissi ilə kifayətlənir.

*Məhz bu*, kapitalizməqədərki dövr adamına anlaşılmazlıq və müəmma, çirkin və nifrətə layiq bir şey kimi görünür. Kiminsə maddi nemətlər toplamağı həyatın yeganə məqsədinə çevirməsini, bütün həyatını qəbrə var-dövlət içərisində getməyə həsr etməsini başqa dövr adamları yalnız xəstə meyllərin nəticəsi kimi qəbul edir...

Belə bir müddəanın sübuta ehtiyacı yoxdur ki, qazanc konsepsiyası məqsəd, "meyl" kimi ayrı-ayrı bütöv dövrlərin əxlaqi baxışları ilə ziddiyyət təşkil edir...

Ən yaxşı halda etik cəhətdən mümkün hesab olunan bu fəaliyyət Bencamin Franklinin anlamında nə cür "meyl"ə çevrilə bildi?..

Hər şeydən əvvəl, *bizi* "meyl"in bu və ya digər anlamının əsasını təşkil edən irrasional ünsürlərin mənşəyi maraqlandırır.

## 3. LÜTERİN MEYL KONSEPSİYASI. TƏDQİQATIN VƏZİFƏSİ

Tamamilə aydındır ki, almanca *"beruf"* və ola bilər ki, daha çox ingiliscə *"calling"*(5) sözündə digər motivlərlə yanaşı dini motiv — Allah tərəfindən qoyulmuş vəzifə haqqında təsəvvür səslənir və bu söz hər konkret halda vurğulanarkən dini motiv daha güclənir. Əgər biz bu sözün dünyanın bütün mədəni dillərində tarixi təkamülünü izləsək, aydın olar ki, alman dilində müəyyən həyat vəziyyəti, aydın müəyyənləşdirilmiş fəaliyyət dairəsi mənasını verən "beruf" sözünə uyğun anlayış həm əksəriyyətlə katolisizmə meyl edən xalqlarda, həm də klassik qədim dünya xalqlarında yoxdur, protestant (əksərən) xalqlarının dilində isə mövcuddur. Sonra aydın olur ki, bu söz indiki mənasında ilk dəfə Bibliyanın tərcümələrində ortaya çıxmış və orijinalın ruhuna deyil, tərcümənin ruhuna uyğun gəlir. Bibliyanın Lüter tərəfindən edilmiş tərcüməsində (Siraxın oğlu İsanın Kitabından bir mətnin tərcüməsində, görünür, bu sözə ilk dəfə indiki mənasında rast gəlinir; II, 20–21). Çox tezliklə o, bütün protestant xalqların rəsmi dilində müasir mənasını aldı, halbuki əvvəllər heç bir dildə onun dünyəvi ədəbiyyatda işlədilməsinə dair işarə də yox idi...

Bu sözün təkcə mənası yeni deyildi, Reformasiyanın yaratdığı ideyanın özü yeni idi... Bu o demək deyildir ki, əlbəttə, "beruf" anlayışı ilə ifadə olunmuş gündəlik fəaliyyət ünsürləri hələ orta əsrlərdə, yaxud hətta qədimdə (son ellinizm dövründə) olmamışdır — bu haqda aşağıda deyiləcəkdir. Şübhəsiz, yeni olan şey bundan ibarət idi: bu anlayış belə bir dəyəri özündə əks etdirir ki, *dünyəvi peşələr sahəsində öz borcunu yerinə yetirmək insanın mənəvi həyatının ən yüksək vəzifəsidir*. Bunun qaçılmaz nəticəsi kimi adi gündəlik əməyin dini mənası haqqında təsəvvür və yuxarıda deyilən mənada "beruf" anlayışı yaradılmışdır. Buradan da "beruf" anlayışında protestant dininin mərkəzi ehkamı öz əksini tapır. Bu ehkam xristianlığın nəsihətlərinin katoliklər tərəfindən "əmr" və "məsləhətlər"ə bölünməsini rədd edir, bu ehkam Allahın istəkli bəndəsi olmağın yolunu rahiblərin asketik mövqeyindən dünyəvi əxlaqın rədd edilməsində deyil, hər bir insanın həyatda yerinə uyğun müəyyənləşdirilmiş dünyəvi vəzifələrinin yerinə yetirilməsində görür; bununla bu vəzifələr insan üçün onun "meyl"inə çevrilir...

Lüterə görə, rahiblərin həyat tərzi Allah qarşısında özünü doğrultmaq üçün heç bir əhəmiyyətə malik deyil, həmçinin eqoizm əlaməti və insanın dünyəvi vəzifələrinə soyuq biganəliyi deməkdir. Dünya işləri ilə məşğul olmaq, əksinə, onun tərəfindən yaxınına xristian məhəbbətinin izharı kimi qiymətləndirilir...

Şübhəsiz, dünyəvi peşə fəaliyyətinin bu cür mənəvi cəhətdən dəyərləndirilməsi — Reformasiya, o cümlədən Lüter tərəfindən yaradılmış ən vacib ideyalardan biri gözlənilməz nəticələr doğura bilər...

Deməyə heç bir ehtiyac yoxdur ki, Lüterin baxışlarının bizim nəzərdə tutduğumuz "kapitalizm ruhu" anlayışı ilə hər hansı daxili əlaqəsindən söhbət gedə bilməz... Hətta bizim günlərdə Reformasiya "işi"ni səylə tərifləyən kilsə dairələri də heç bir halda kapitalizmi müdafiə etmirlər. Əlbəttə, Lüterin özü də Franklinin əsərlərində əks olunmuş konsepsiyaya yaxın hər hansı mövqeni dərhal qətiyyətlə rədd edərdi...

Lüterin sələmçilik və ümumiyyətlə, faizlə görülən işlərə qarşı söylədiyi fikirlərdə əksinə, kapitalist gəlirinin mahiyyəti haqqında onun təsəvvürlərinin hətta son sxolastik baxışlarla müqayisədə "geriliyi" aydın şəkildə görünür... Reformasiyanın nəticəsi hər şeydən əvvəl ondan ibarət oldu ki, katolik baxışının əksinə olaraq dünyəvi peşə əməyinin mənəvi əhəmiyyəti və onun *dini mükafatlandırılması* son dərəcə yüksəldi... İnsanın şəxsi tələbatından artıq maddi nemətlər yığmağa çalışması isə bərəkətin olmaması ilə izah edilir və yalnız başqalarının hesabına əldə oluna bildiyinə görə isə birbaşa lənətə layiqdir...

Beləliklə, peşə meyli anlayışı Lüterdə öz ənənəçi xarakterini saxlamışdır...

Ona görə də biz ilk növbədə protestant etiqadının elə formalarına müraciət etməyi məqsədəuyğun hesab edirik ki, onlarda həyat praktikası və dini əsas arasında əlaqəni aşkar etmək lüterançılıqda olduğundan daha asan olsun. Kapitalizmin inkişaf tarixində kalvinizm və protestant sektalarının əhəmiyyətini yuxarıda artıq qeyd etmişik. Lüter Svinqlinin təlimində "başqa ruh"un olduğunu hiss etdiyi kimi, onun mənəvi ardıcılları eyni hissi kalvinizmə qarşı keçirirdilər. Katolisizmə qaldıqda isə o, qədimdən və bu gün də daxil olmaqla kalvinizmi özünün əsas rəqibi hesab edir. Bu, hər şeydən əvvəl, təmiz siyasi xarakterli səbəblərlə izah olunur: Reformasiyanı Lüterin daxili dini inkişafı olmadan fikrə gətirmək mümkün olmadığı kimi (onun şəxsiyyəti Reformasiyanın mənəvi xüsusiyyətlərinə uzun müddət təsir etmişdir), kalvinizmsiz də Lüterin işi geniş yayıla və qəti möhkəmlənə bilməzdi... Lakin katoliklər və lüteranlar üçün kalvinizmə ümumi nifrət onun etik özünəməxsusluğundan doğur. Kalvinizmlə ən səthi tanışlıq nəticəsində aydın olur ki, burada katolisizm və lüterançılığa nisbətən dini həyatla dünya işləri arasında tamamilə başqa əlaqə qurulmuşdur. Bu, hətta xüsusi dini motivlərdən istifadə olunmuş ədəbiyyatda da görünür. "İlahi komediya"nın(6) sonunu — "Cənnət"i xatırlayaq; burada ilahi sirləri sakitcə müşahidə etməyə girişmiş şairin nitqi tutulur və bu əhval-ruhiyyə poemanın adətən "Puritanizmin ilahi komediyası" adlanan sonu ilə müqayisə oluna bilər. Milton(7) Adəm və Həvva cənnətdən qovulduqdan sonra özünün "İtirilmiş cənnət"inin son mahnısını aşağıdakı sözlərlə bitirir:

Dönərək onlar axırıncı dəfə
Bir az əvvəl tərk etdikləri fərəhli yurda,
Cənnətə baxdılar: bütün şərq yamacı
Bürünərək şölələnən qılınca
Selləmə axaraq topa-topa qalxırdı,
Qapı oyuğunda isə
Odlu silahla qorxudaraq vahiməli üzlər görünürdü.
Onlar qəfil ağladılar — lakin qısa bir müddət. Bir dünya
Onların qarşısında idi, burada mənzil seçmək
Lazım idi onlara. Yaradanın ilahi qüvvəsi ilə
Aparılan, ağır-ağır addımlayaraq
Qərib yolçular kimi, onlar əl-ələ,
Cənnəti keçərək, asta-asta getdilər
Özlərinin tənha yolu ilə.

Bundan bir az əvvəl isə mələk Mikayıl Adəmə dedi:

Ancaq sən işləri,
Biliklərinin hədlərində artır.
Onlara inamı, nəfsi saxlamağı, səbri
Və xeyirxahlığı əlavə et
Və o məhəbbət ki indən belə
Yaxınına məhəbbət kimi adlanacaqdır;
O, hər şeyin qəlbidir.
Onda sən cənnəti itirərək qəm yeməyəcəksən,
Öz daxilində başqasını, yüz dəfə bərəkətli
Cənnəti qazanacaqsan.

Bu sətirləri oxuyan hər kəsə aydındır ki, dünyaya ciddi puritan baxışının bu yüksək pafosu, dünya işlərinə bu cür borca baxılan kimi baxılması orta əsr yazıçısının dilindən səslənə bilməzdi...

Vəzifəmiz ondan ibarətdir ki, imkan daxilində bu qarışıq hissi dəqiq məntiqi düsturlu terminlərlə ifadə edək və bu fərqlərin daxili səbəbləri haqqında məsələ qoyaq. Məsələmizi “milli xarakter”lə izah etməyə çalışmaq (bu, həmişə məsələnin mahiyyətinin *başa düşülmədiyini* göstərir) bu halda xüsusən yararlı ola bilməz...

Və ancaq dini hərəkatların qarşısıalınmaz təsiri (təkcə o yox, amma ilk növbədə o) bizim indi də hiss etdiyimiz fərqləri yaradırdı...

Bizim tədqiqatımız belə bir şeyi də izah etməyə qismən xidmət göstərə bilərdi ki, hansı formalarda “ideyalar” ümumiyyətlə tarixi inkişafın gedişinə təsir göstərir...

Deməli, bizim sualımız yalnız bundan ibarətdir: mədəniyyətimizin əsas məzmunundan tarixi səbəb kimi Reformasiyanın təsirinə nə *aid edilə* bilər? Eyni zamanda biz Reformasiyanı iqtisadi inkişafın nəticəsi, ondan irəli gələn “tarixi zərurət” kimi göstərmək istəyənlərdən, əlbəttə, ayrı durmalıyıq...

## II. ASKETİK PROTESTANTİZMİN PEŞƏ ETİKASI

### 1. DÜNYƏVİ ASKETİZMİN DİNİ ƏSASI

Asketik protestantizmin (bu anlayışın qəbul etdiyimiz mənasında) tarixən daşıyıcıları ilk növbədə dörd istiqamətdə təmsil olunmuşdur: 1) kalvinizmin bir sıra Qərbi Avropa ölkələrində aldığı forma (bu forma burada

17-ci əsrdəï héakim olmuşdur); 2) pietizm; 3) metodizm; 4) anabaptist hərəkatından çıxmış sektalar. Bu cərəyanlardan heç biri başqalarından və Reformasiyanın qeyri-asketik kilsələrindən təcrid olunmuş deyildir.

Çoxmənalı "puritanizm"(8) adını almış asketik hərəkat çoxsaylı tərəfdarlarının və xüsusən də daha qızğın ardıcıllarının simasında anqlikan kilsəsini tənqid edirdi, lakin burada da fərqlər tədricən, mübarizənin gedişində kəskinləşmişdir...

*Əxlaq davranışının* bizim üçün vacib xüsusiyyətləri adlarını çəkdiyimiz dörd mənbədən və yaxud onların törəməsi olan təriqətlərdən yaranmış ən müxtəlif növlərin hamısında özünü eyni dərəcədə göstərir...

Asket əxlaqının ehkamlarla bağlı köklərindəki fərqlər gərgin mübarizənin gedişində aradan çıxmışdır. Lakin bu ehkamlara qədimdən gələn inam sonrakı "qeyri-ehkamçı" etikada yalnız dərin iz buraxmaqla kifayətlənmədi, həmçinin belə bir şərti möhkəmləndirdi ki, yalnız bu əxlaqın ilkin ideya məzmununu bilməklə onun "o biri dünyada" xoşbəxtlik ideyası ilə əlaqəsini başa düşmək olar...

Bizi tamamilə başqa şey — dini inam və praktikanın yaratdığı və bütün həyata müəyyən istiqamət verən, fərdi həmin istiqamətə ciddi şəkildə riayətə məcbur edən psixoloji stimulların aşkar edilməsi maraqlandırır...

16–17-ci əsrlərdə daha çox inkişaf etmiş kapitalist ölkələrində — Niderland, İngiltərə və Fransada uğrunda qızğın siyasi və ideoloji mübarizə gedən və buna görə də ilk növbədə diqqət yetirdiyimiz etiqad kalvinizm olmuşdur. Bu təlimin ən mühüm ehkamı *xilas imtiyazı* haqqında ehkam hesab olunurdu (ümumiyyətlə bu gün də belə hesab olunur)...

1647-ci il "Vestminster etiqadı"nın mötəbər mətni vasitəsilə bu təlimlə tanış olaq...

Doqquzuncu fəsil (İradə azadlığı haqqında). N3: "Günaha batmaq insanı öz iradəsini hər hansı mənəvi xoşbəxtliyə, yaxud adi xoşbəxtliyə aparan bir şeyə istiqamətləndirmək imkanından tam məhrum etmişdir; beləliklə, təbii insan xeyir işlərdən uzaqlaşdırılmış və günahlar içərisində ölü vəziyyətindədir, buna görə də düz yola qayıda, yaxud özünü buna hazırlaya da bilmir".

Üçüncü fəsil (Allahın qədim hökmü haqqında). N3: "Allah öz hökmü ilə və öz böyüklüyünü göstərmək üçün bəzi adamlara əbədi həyat verdi, digərlərini əbədi ölümə məhkum etdi. N5: "... və O bunu ona görə etmədi ki, bunun səbəbini, yaxud ilkin şərtini inamda, xeyirxah işlərdə və sevgidə və ya sadalananlara səy etməsində, yaxud yaratdıqlarından hansısa digər xüsusiyyətində görürdü, O bunu yalnız təmiz və azad mərhəmətindən və məhəbbətindən etdi... ".

*Onuncu fəsil (Kəsərli meyl haqqında). N1: "Allahın öz ixtiyarındadır, əbədi həyat verdiklərini və yalnız onları təyin olunmuş münasib vaxtda Onun sözü və ruhu vasitəsilə çağırsın... O, onların sinəsindən daş ürəyi çıxarıb... onlara canlı ürək verəcək. O, onların iradəsini döndərər və öz böyüklüyü ilə onları xeyirxahlıq üçün təyin edər... ".*

*Beşinci fəsil (Öncəgörmə haqqında). N6: "Bədniyyətli və allahsızların... yoluna O, elə əngəllər qoyur ki, belə adamların pozğunluğuna görə bu əngəllər günahın səbəbinə çevrilir. O, onları öz eyiblərinin, nəfsin və Şeytanın ixtiyarına buraxır".*

"Qoy mən cəhənnəmə düşüm, ancaq belə Allah heç vaxt məni özünə hörmət etməyə məcbur edə bilməz" — Con Miltonun bu təlim haqqında, məlum olduğu kimi, fikri belədir. Lakin bu halda bizi ehkamın dəyərləndirilməsi deyil, onun tarixi rolu maraqlandırır. Biz yalnız qısaca olaraq bu təlimin mənşəyi və onun kalvinist teologiyasının müəyyən ideyaların quruluşu ilə əlaqəsi üzərində dayanacağıq...

Allah insanlar üçün deyil, insanlar Allah üçün yaşayırlar; insanın bütün əməlləri... yalnız ilahi böyüklüyün özünütəsdiqi vasitəsi kimi məna kəsb edir... Bizə yalnız bir şey məlumdur: insanların bir hissəsinə xoşbəxtlik qisməti verilmişdir, yerdə qalanlar isə əbədilik lənətlənmişlər. Adamların xidmətinin, yaxud hərəkətlərinin onların taleyinə təsir etdiyini düşünmək Allahın tam müstəqil, qədimdən mövcud olan hökmlərini insan təsirinə tabe etməyin mümkün olduğunu hesab etməyimizə bərabər olardı... Allahın hökmü ilkindir və dəyişilmir, ona görə də Allahın mərhəmətinə layiq görülmüş adamlar onu itirə, ondan məhrum edilmişlər isə ona nail ola bilməzlər.

Bu təlim özünün ehtiraslı insafsızlığı ilə... ona tabe etdirilmiş nəsil üçün, hər şeydən əvvəl, bir nəticə — ayrıca bir fərdin görünməmiş daxili tənhalıq hissini verməli idi.

Reformasiya dövrünün insanı üçün həlledici həyat problemi olan əbədi səadət problemində o, təkbaşına, əsrlərdən müəyyən olunmuş taleyini yaşamağa məhkum edilmişdi. Heç kəs ona kömək edə bilməz. Nə vaiz... nə dini ayinlərin yerinə yetirilməsi... nə kilsə... nəhayət, nə Allah — çünki İsa yalnız seçilmişləri xilas etmək üçün ölmüşdür və yalnız onların günahlarını İsanın ölümü ilə bağışlamaq haqqında Allah əzəldən hökm vermişdir.

Kilsə və dini ayinlər vasitəsilə ruhun xilas edilməsinə inamın lüterançılığa məlum olmayan ardıcıllıqla qəti şəkildə kənarlaşdırılması kalvinizmi katoliklikdən fərqləndirən həlledici ideya idi. *Dünyanın tilsiminin sındırılmasından ibarət böyük tarixi-dini proses burada yekunlaşır;* bu proses qədim yəhudi peyğəmbərlərin dövründə başlanmışdı və ellin düşüncəsi ilə birləşərək xilasın bütün sehrli vasitələrini məhv, onları dinsizlik və dinə hörmətsizlik əlaməti elan etdi. Əsl puritan hətta yaxınlarının məzarı başında bütün dini mərasimlərdən imtina edir və onları sakit və nəzərə çarpmadan dəfn edirdi ki, heç bir "*superstition"a (*xurafata — *red.*), sehrli vasitələrlə xilasolmaya, hətta ümidin yaranmasına yol verməsin. Nəinki sehrli, ümumiyyətlə, elə bir vasitə yox idi ki, Allahın mərhəmətini ondan məhrum olanlara yönəldə bilsin.

Allahın mütləq transsendentliyi (dərkedilməzliyi — *red.*) və bütün yaranmışların miskinliyi haqqında təlimlə birlikdə insanın bu daxili tənhalığı mədəniyyət və subyektiv dindarlığın bütün *hissi-emosional* ünsürlərinə qarşı puritanizmin mənfi münasibətinin yaranmasına (belə ki, onlar ruhun xilas edilməsinə yardım edə bilmir və yalnız zəif xülyaların və xurafatın yaranmasına səbəb olurlar), bununla da, ümumiyyətlə, onun bütün cismani mədəniyyətdən imtina etməsinə səbəb olur. Bununla yanaşı, bu əlahiddəlik hər hansı xülyadan uzaq bədbin çalara boyanmış fərdiyyətçiliyin köklərindən birini təşkil edir; bunu biz bu gün də puritan keçmişli xalqların Maarifçilik dövrü üçün xarakterik olan dünyaya və insana münasibətdən tamamilə fərqlənən "milli xarakter"ində və institutlarında müşahidə edirik...

Bu duruma uyğun olaraq, kalvinizmin hökmran olduğu vilayətlərdə tövbə nəzərə çarpmadan ləğv edildi, bu isə lüterançılığa kəskin qarşıgetmə idi. Bu hadisə... hər şeydən əvvəl, belə dindarlığın təsiri üçün xarakterik əlamət, həmçinin onun etik mövqeyinin müəyyən edilməsi üçün psixoloji impuls idi. Emosional günah hissini götürən vaxtaşırı "boşalma" vasitəsi aradan götürüldü...

"Yaxınına məhəbbət" (kalvinizmdə) *məxluqlara* deyil, yalnız Allaha xidmət kimi düşünülür və ilk növbədə *peşə borcunun yerinə yetirilməsində ifadə olunur... bu vaxt "yaxınına məhəbbət" obyektiv olaraq xüsusi şəxssiz xarakter, bizi əhatə edən sosial kosmosun səmərəli dəyişdirilməsinə yönəlmiş fəaliyyət xarakteri alır...*

Din məsələlərində kalvinist etiqad fərdi tamamilə öz ixtiyarına buraxsa belə kalvinizmdə "ayrıca bir adam" və "etika" arasında ixtilaf məlum deyildir (Syeren Kerkeqorun anlamında)...

Tamamilə aydındır ki, gec-tez hər bir dindar eyni sualla qarşılaşmalıdır: mən seçilmişəmmi? Və mən seçilmiş olduğumu necə dəqiqləşdirim?.. Dindar kalvinistlərin geniş təbəqələri üçün seçilmişlik faktının müəyyən edilməsi imkanı mənasında xilas olmağa inam bütün başqalarını arxada qoyan ən əhəmiyyətli mütləq məsələyə çevrilmişdir, doğrudan da, [Allah tərəfindən] öncə müəyyənetmə haqqında təlimin hakim olduğu hər yerdə hökmən "electi" (seçilmişlər — *lat.*) dairəsinə məxsus şəksiz əlamətlərin mövcud olmasına dair məsələ qalxırdı...

Müti günahkarları — Lüterin əgər təzədən din və tövbə yoluna qayıtsalar, özlərini Allaha tapşırsalar, Allahın onları bağışlayacağını vəd etdiyi bu günahkarları indi kapitalizmin qəhrəmanlıq dövrünün yenilməz tacirlərinin simasında puritanizmin yetişdirdiyi "müqəddəslər" əvəz edirdi; onların ayrı-ayrı nümayəndələri bizim günlərə qədər qalmışdır... Xilas olacağına daxili inamın əldə olunması üçün ən yaxşı vasitə kimi *öz peşəsinin çərçivələri daxilində daimi fəaliyyət* götürülür. O və yalnız o, dini xarakterli şübhələri qovur və özünün seçilmişlərdən olduğuna inam yaradır...

Kalvinin baxışlarına görə, hiss və əhval-ruhiyyə nə qədər yüksək olsa da aldadıcıdır, inam özünü obyektiv hərəkətlərdə təsdiq etməlidir. Yalnız onda o, xilas olacağına inam üçün möhkəm əsasa çevrilə bilər. Savoya Bəyannaməsinə görə o, "fides efficax" (fəal inam — *red.*), xilas olmağa meyl isə "effectual calling" (kəsərli meyl — *red.*) olmalıdır. Əgər sonra soruşulsa ki, hansı bəhrələrə görə *reformatlar* həqiqi imanın şübhəsiz olduğunu duyurlar, cavab belə olacaqdır: xristianın *Rəbbimizin əzəmətinin* daha da yüksəlməsinə yönəlmiş davranışı və həyat tərzi...

Xeyirxah işlərin xilas üçün vasitə ola bilməməsi (çünki seçilmiş adam məxluq olaraq qalır və onun bütün əməlləri Allahın tələblərindən hədsiz uzaqdır) qədər də bu xeyirxah işlər seçilmişlərin *əlaməti* kimi vacibdir.

*Xeyir işlər xoşbəxtlik əldə etmək üçün deyil, insanı ölümdən sonra gözləyənlər qarşısında qorxunu boğmaq üçün texniki vasitədir.* Bu mənada çox vaxt deyirlər ki, o, "ruhu xilas etmək üçün lazımdır", yaxud onu "Allahın rəhmini əldə etməklə" bağlayırlar. Əslində bu onu bildirir ki, *Allah öz-özünə kömək edənə kömək edir,* kalvinist, beləliklə, öz xilasına *özü"nail olur"*, daha düzgün desək, xilasa əminlik (biz, doğrudan da, belə fikirlərə rast gəlirik) elə xilasın özüdür, ancaq o, katolisizmin tələb etdiyi kimi ayrı-ayrı ləyaqətli əməllərin toplanması ilə əldə oluna bilməz, o, dindarı daim alternativ qarşısında — seçildi, yoxsa rədd edildi — qoyan *sistematik özünənəzarətin* nəticəsi olaraq əldə edilir.

Katolikə *kilsə ayinləri vasitəsilə Allahın rəhmini əldə etmək*, bununla da insan təbiətinin naqisliyini aradan qaldırmaq imkanı verilirdi: ruhani xilasetmə möcüzəsi törədən və əlində "cənnətin açarları" olan maq idi; tövbə etməyə hazır olan dindar ona müraciət edə bilərdi; ruhani rahatlığa, xilasolmaya ümid verir və bununla da kalvinistin ömürlük qisməti olan ağlasığmaz *gərginliyi* katolik üçün *aradangötürürdü.* Kalvinistə insanın bu cür mərhəmətlə ovundurulması yad idi və o, katolik və hətta lüterançı kimi ümid edə bilməzdi ki, zəiflik və axmaqlıq dəqiqələrini sonradan azad iradənin səfərbər edilməsi ilə "sahmanlayacaq".

Kalvinistin Allahı öz seçilmişlərindən ayrı-ayrı "xeyirxah əməllər" deyil, sistem səviyyəsinə qaldırılmış müqəddəslik tələb edirdi. Burada nə katolisizm üçün xarakterik və insan təbiətinə xas olan günahın peşmançılığını, tövbənin, günahların bağışlanması və yenilərinin törədilməsinin əvəzlənməsindən, nə də bütün həyatın ayrı-ayrı cəzalar, yaxud kilsənin ixtiyarında olan nemətlər vasitəsilə nizama salınmasından söhbət gedə bilərdi. Kalvinizmin praktiki etikası dindarın gündəlik həyatından plansızlıq və sistemsizliyi kənarlaşdırır və bütün həyat davranışının ardıcıl *metodunu* yaradırdı... Belə "müqəddəs"in həyatı yalnız dərk olunmayan məqsədə — axirət xoşbəxtliyinə yönəldilirdi, lakin *məhz buna görə* onun bu dünyada həyatı rasionallaşdırılmış və yeganə istəklə — yerdə Allahın şöhrətini yüksəltmək istəyi ilə doldurulmuşdu. Və əvvəllər heç vaxt bu ideyaya belə ciddiliklə yanaşılmamışdı...

Praktiki həyat etikasının sistemləşdirməsi həm kalvinist protestantizminə, həm də səmərəli həyat tərzləri ilə seçilən katolik ordenlərinə xasdır, lakin kalvinizmdə bu sistemləşdirmə özünün xarici ifadəsini elə üsulda tapır ki, onun vasitəsilə "xırdaçı" puritan öz seçilmişliyini daim nəzarətdə saxlaya bilir. Düzdür, bütün günah və sapmaların ardıcıl olaraq, bəzən isə cədvəl şəklində yazıldığı dini gündəliklər təkcə kilsənin tələblərini canfəşanlıqla yerinə yetirən islahatçıların arasında deyil, eyni dərəcədə yezuitlərin yaratdığı müasir katolik möminliyi çərçivəsində (məsələn Fransada) yayılmışdı. Lakin əgər katolisizmdə bu cür gündəliklər keşiş qarşısında edilən vaxtaşırı tövbələrin tam yerinə yetirilməsi üçün istifadə olunur, yaxud dini rəhbər üçün onun xristian, yaxud (daha çox) xristian qadınlar üzərində avtoritar hakimiyyətinin əsası rolunda çıxış edirdisə, reformat etiqadlı xristian bu gündəliklərin köməyi ilə "*özü* öz nəbzini yoxlayırdı"... Sonrakı dövr puritanı yalnız öz davranışına deyil, Allahın da davranışına nəzarət edir və həyatındakı hər hadisəyə Allahdan qismət kimi baxırdı. O, tam dəqiqliyi ilə bilirdi ki, Allah bu və ya digər qərarı nə üçün qəbul etmişdir (bu, həqiqi Kalvin təliminə yad idi). Bununla həyatın müqəddəsləşdirilməsi işgüzar müəssisəyə uyğunlaşdırılırdı. Kalvinizmin lüterançılığın əksinə olaraq həyat praktikasına tətbiq etdiyi etik davranışda bu *metodikliyin* nəticəsi bütün insan həyatının dərin xristianlaşdırılması oldu. Kalvinist təsirin xarakterini düzgün başa düşmək üçün həmişə yadda saxlanmalıdır ki, bu *metodiklik* dindarların həyatına təsir göstərilməsində həlledici amil olmuşdur...

İndi isə peşə meylinin puritan ideyasının dini əsasları ilə qısa tanışlığa cəhd etdikdən sonra fikrimizi bu ideyanın sahibkarlıq fəaliyyəti sahəsinə göstərdiyi təsirin öyrənilməsinə yönəldək.

## 2. ASKETİZM VƏ KAPİTALİZM RUHU

Kalvin ruhanilərin varlı olmasını nəinki onların fəaliyyətinə maneə hesab edirdi, əksinə, var-dövlətə onların nüfuzunu artıracaq vasitə kimi baxır, onların öz əmlakını sərfəli işlərə qoymasına icazə də verirdi, bir şərtlə ki, bu, ətrafdakıları qıcıqlandırmasın. Puritan ədəbiyyatından sərvət və maddi nemətlərə hərisliyi pisləyən istənilən sayda nümunə gətirmək və onları öz xarakteri ilə daha sadəlövh orta əsr etik ədəbiyyatına qarşı qoymaq olar. Bütün bu nümunələr ciddi xəbərdarlıqları bildirir; iş, fəqət, bundadır ki, onların həqiqi etik əhəmiyyəti və şərtlənməsi yalnız bu sübutların diqqətlə öyrənilməsindən sonra aşkar edilir. *Arxayınçılıq* və əldə olunanla kifayətlənmək, zənginlikdən *həzz almaq* və ondan irəli gələn nəticələr (fəaliyyətsizlik və şəhvani əyləncələr və hər şeydən əvvəl "müqəddəs həyat"a meylin zəifləməsi) — bütün bunlar mənəviyyatsızlıq kimi pislənilməlidir. Mülkiyyət *yalnız ona görə* şübhə doğurur ki, o özü ilə fəaliyyətsizlik və arxayınlıq təhlükəsi gətirir. Çünki "müqəddəslər"i "əbədi rahatlıq" o dünyada gözləyir, bu dünyada isə insan özünün xilasına əmin olmaq üçün nə qədər ömrü varsa, onu *göndərənin* işləri ilə məşğul olmalıdır. Fəaliyyətsizlik və nəşə deyil, *yalnız fəaliyyət,*

Allahın iradəsinin aydın ifadəsinə görə, Onun əzəmətinin yüksəlməsinə xidmət edir. Deməli, *vaxtın səmərəsiz keçirilməsi* ən əsas və ən ağır günah hesab olunur. İnsan həyatı son dərəcə qısa və qiymətlidir, o öz meylinin "təsdiq olunması"na sərf edilməlidir. Bu vaxtın dünyəvi əyləncələrə, "boş çərənləmə"lərə, dəbdəbələrə, hətta artıq yuxuya (altı, ən çoxu səkkiz saatdan artıq olmamaqla) sərf edilməsi mənəvi cəhətdən yolverilməzdir. Burada Bencamin Franklinin əsərində verilən "vaxt puldur" ifadəsi hələ özünə yer tapmamışdır, ancaq mənəvi baxımdan bu ideya xeyli möhkəmlənmişdir; vaxt olduqca bahadır, çünki hər itirilən saat Allahdan kəsilib alınır, Onun əzəmətinin artırılmasına verilmir. Buna görə də seyrçilik hər halda peşəkar fəaliyyətinə ziyan verdiyi zaman boş, bəzən isə zərərli məşğuliyyət hesab olunur. Çünki seyrçilik Allahın iradəsinin peşə çərçivələri daxilində yerinə yetirilməsinə nisbətən *Ona daha az gərəklidir*. Özü də belə məşğuliyyətlər üçün bazar günləri vardır...

Puritanizmin seksual asketizmi rahiblərin bu məsələyə münasibətindən əsaslı prinsipi ilə deyil, dərəcəsinə görə fərqlənir. O, nikah həyatına da aid olduğuna görə fəaliyyət dairəsi daha genişdir. Çünki nikahda cinsi əlaqələr də Allahın şöhrətini artırmaq üçün Onun məsləhət bildiyi işlərdən sayılır: "Doğub-törəyin və artın". Fiziki şəhvətə qarşı da dini şübhələrin aradan qaldırılmasına xidmət etməli olan təsirli vasitə təklif olunur: pəhriz, bitki qidaları və soyuq vanna ilə yanaşı daha bir göstəriş verilir: *"Qan-tər içində öz yolunda çalış"*.

Ancaq əmək öz əhəmiyyətinə görə bu çərçivələrdən kənara çıxır, çünki o, özlüyündə Allah tərəfindən insan həyatının məqsədi kimi müəyyən edilmişdir. Apostol Pavelin "işləməyən dişləməz" sözləri əhəmiyyətli və zəruri göstərişə çevrilir. İşləmək arzusunun olmaması bərəkətin yoxluğunun əlaməti idi...

Seçilmişlik *insafda* ifadə olunur, o isə öz növbəsində peşə borclarının dəqiq və metodik şəkildə yerinə yetirilməsində əks olunur. Allahın istəyinə elə-belə əmək deyil, yalnız peşə daxilində səmərəli fəaliyyət uyğundur. Peşəkar fəaliyyətə Allah tərəfindən qabaqcadan müəyyən edilmiş qismətə boyun əyilməsi kimi baxan Lüterdən fərqli olaraq peşəkar meyl haqqında puritan təlimində vurğu peşə asketizminin metodik xarakterinə edilir. Buna görə də puritan təlimi bir neçə *callings*-in (meyllərin) nəinki birləşdirilməsini müdafiə edir (bir şərtlə ki, bu, ümumi və şəxsi firavanlığa yardım edəcək, heç kəsə zərər yetirməyəcək və bu peşələrdən hər hansı birinin çərçivələri daxilində vəzifələrin yarıtmaz yerinə yetirilməsinə səbəb olmayacaqdır), həmçinin bir peşədən digərinə keçənlərin də (əgər bu, yüngüllükdən deyil, Allaha daha gərəkli olan işlə məşğul olmaq istəyindən irəli gəlirsə) pislənilməsini qəbul etmir. Daha bir ən vacib məsələ: peşənin faydalılığı və buradan da Allaha gərəkliliyi ilk növbədə mənəvi baxımdan, sonra isə onun çərçivələri daxilində istehsal olunan nemətlərin "bütün cəmiyyət" üçün vacibliyi dərəcəsinə görə müəyyən edilir; bununla yanaşı, üçüncü və əslində daha vacib olan meyar peşənin "gəlirliliyi"dir. Çünki əgər Allah (puritan bütün şəraitdə baş verənlərə Onun müəyyən etdiyi qismət kimi baxır) özünün seçilmiş bəndələrindən kiməsə gəlir götürmək üçün imkan verirsə, o bunu müəyyən niyyətləri əsas tutaraq edir. Dindar xristiansa yuxarıdan gəlmiş göstərişə əməl etməli və ona verilmiş imkandan istifadə etməlidir. "Əgər Allah sizə bu yolu göstərirsə və siz bu yolla getməklə öz ruhunuza və başqalarına xələl gətirmədən, *qanuni qaydada, başqa yoldakına nisbətən daha çox qazana bilərsinizsə* və onu rədd edib daha az gəlirli yolu tutursunuzsa, *onda siz bununla meylinizin (calling) məqsədlərindən birinin həyata keçirilməsinə mane olur*, Allahın məsləhət bildiyi *işlər müdiri* (steward) rolunu və Onun bəxşişini götürməkdən imtina edirsiniz... Siz, şəhvani əyləncələr və günahkar nəşələr üçün deyil, *Allah naminə çalışmalı və varlanmalısınız*". Sərvət yalnız tənbəlliyə, fəaliyyətsizliyə və günahkar dünya nəşələrinə həvəsi özündə gizlətdiyinə görə, sərvət toplamaq istəyi isə yalnız qayğısız və şən həyat məqsədi güddükdə pislənilir. Peşə borcunun yerinə yetirilməsi nəticəsində əldə olunan sərvətə isə nəinki mənəvi cəhətdən bəraət qazandırılır, hətta toplanması məsləhət görülür. Bu haqda, ona verilmiş gümüş minanı (qədim yunan pulu — *red.*) artıra bilmədiyinə görə cəzalandırılmış qul barədə rəvayətdə guya aydınca danışılır. Yoxsul olmaq *istəyi,* tez-tez göstərildiyi kimi, xəstə olmaq istəyinə bərabərdir... İşləməyə qadir adamın dilənçilik etməsinə gəldikdə isə, bu, təkcə fəaliyyətsizlik günahı deyil, həm də, apostolun sözlərinə görə, öz yaxınını sevmək məsləhətinin pozulması deməkdir.

Daimi peşənin asketik əhəmiyyətinin vurğulanması müasir peşə ixtisaslaşmasının etik cəhətdən idealizə olunmasına xidmət etdiyi kimi, qazanc istəyinin ilahidən gələn bir şey olduğu kimi izah olunması da *işgüzar adamın* tərənnümünə xidmət edir. Asketik əhval-ruhiyyəli puritanları eyni dərəcədə həm əyanın aristokratik səliqəsizliyi, həm də qəfildən varlanmış gədanın lovğalığı iyrəndirir. Ayıq burjua — *self-made man* (özünə borclu olan adam — *red.*) tam etik rəğbətlə qarşılanır...

Bunu da nəzərə alaq ki, puritanizmə orta əsr və müasir yəhudi təsərrüfat etikası da yaddır, özü də bu fərq xüsusilə hər iki dini təlimin kapitalizm etosunun inkişafına həlledici təsir edən xüsusiyyətlərə münasibətdə özünü göstərirdi.

Yəhudilər siyasi, yaxud möhtəkirliyə istiqamətləndirilmiş "avantürist" kapitalizmin dairəsində idilər: onun etosu, əgər səciyyələndirməyə cəhd etsək, kapitalist parilərin etosu idi; puritanizm isə rasional burjua *işgüzarlığı* və

*əməyin* səmərəli təşkili etosunu təmsil edirdi. Və yəhudi etikasından o, yalnız onun istiqamətlənməsinə uyğun gələnləri götürmüşdü...

Yuxarıda deyilənləri yekunlaşdıraraq belə deməyi mümkün hesab edirik ki, protestantizmin dünyəvi asketizmi *sərvətdən nəşələnmək* üçün istifadə olunmasını qətiyyətlə rədd edir və *istehlakın azaldılmasına* (xüsusilə də o, israfçılığa çevriləndə) çalışırdı. Bununla yanaşı, o, *qazanc yığıcılığını* ənənəvi etikanın psixoloji əsarətindən *azad edir,* qazanc meylini məhdudlaşdıran qandalları dağıdır və onu nəinki qanuni, həmçinin Allaha gərəkli (yuxarıda deyilən mənada) məşğuliyyətə çevirirdi.

Əgər istehlakın məhdudlaşdırılması azad edilmiş qazanc meyli ilə birləşərsə, onda bunun obyektiv nəticəsi *asketik qənaətə* məcbur etmək yolu ilə *kapital toplanmasından* ibarət olacaqdır. Qazanılmış sərvətin israf edilməsinin qarşısının alınması mütləq onun *kapital qoyuluşu* şəklində istehsalda istifadə olunmasına gətirməli idi. Əlbəttə, bu təsirin dərəcəsi dəqiq rəqəmlərlə hesablana bilməz. Yeni İngiltərədə bu əlaqə çox güclü şəkildə hiss olunur... Xüsusilə mühüm və rifah halına təsir edən sahə kimi kənd təsərrüfatına puritanlar tərəfindən də verilən yüksək qiymət heç də mülkədarları deyil, yomen və fermerləri, 18-ci əsrdə isə yunkerləri deyil, "ağıllı" kənd sahibkarını nəzərdə tutur. 17-ci əsrdən başlayaraq ingilis cəmiyyətində ictimaiyyətə təsiri dəyişkən olan "şən köhnə İngiltərə"ni təmsil edən "skvairlər"lə puritan dairələri arasında ayrılma baş verib. Bu günə qədər ingilislərin "milli xarakter"ində ziddiyyətli xüsusiyyətlər qalmışdır: bir tərəfdən sarsılmaz sadəlövh şənlik, digər tərəfdən ciddi nəzarət olunan təmkin, soyuqqanlılıq, qəbul olunmuş etik normaların sözsüz gözlənilməsi.

Puritan əhval-ruhiyyəsi bərqərar olduğu hər yerdə bütün... hallarda iqtisadi cəhətdən *səmərəli* burjua həyat tərzinin yaradılmasına yardım etmişdir. Bu, əlbəttə, kapital qoyuluşunun adi həvəsləndirilməsindən daha çox əhəmiyyət kəsb edir. Məhz həyata puritan baxışı bu meylin əsas dayağı, puritanlar isə onun yeganə ardıcıl tərəfdarları olmuşlar. Puritanizm müasir "iqtisadi insan"ın beşiyi başında dayanmışdır...

***

Müasir kapitalizm ruhunun və təkcə onun deyil, həm də *bütün müasir mədəniyyətin* konstitusion komponentlərindən biri — peşəkar meyl ideyası əsasında səmərəli həyat davranışı xristian asketizmi ruhundan yaranmışdır (bu əsər də onun sübut olunmasına həsr edilmişdir). Tədqiqatımızın əvvəlində müraciət etdiyimiz Franklinin əsərini yada salmaq kifayətdir ki, bizim "kapitalizm ruhu" kimi müəyyən etdiyimiz düşüncə tərzinin əsaslı elementləri ilə (bunu yuxarıda göstərmişdik) puritan peşə asketizminin, (əlbəttə ki, onun dini əsaslandırılmasını qırağa qoymaq şərti ilə — Franklin dövrü üçün onların vaxtı artıq keçmişdi) məzmununun necə uyğun gəldiyini görək...

Asketizm dünyanı hər dəfə ona təsirini artıraraq dəyişdirməyə başladıqca, zahiri dünya nemətləri insanları daha çox özünə tabe edərək və nəhayət, elə bir hakimiyyət əldə etdi ki, bəşəriyyətin bütün əvvəlki tarixi belə şey görməmişdi. Hazırda asketizm ruhu — kim bilir, həmişəlikmi? — dünyamızdan uzaqlaşmışdır. Hər halda, qalib gəlmiş kapitalizm mexaniki əsasa keçəndən bəri bu cür dayağa ehtiyac hiss etmir... Maarifçilik dövrünün — asketizmin bu güləyən varisinin çəhrayı arzuları da keçmişə çevrilir. *Və yalnız "peşə borcu" haqqında təsəvvür keçmiş dini ideyalar kabusu kimi dünyanı dolaşır.*

---

1 Protestantlıqda cərəyan — *red.*
2 Şimali Amerikanın şimal-şərqi — *red.*
3 Görkəmli Amerika alimi və siyasətçisi, ABŞ İstiqlal Bəyannaməsinin və Konstitusiyasının müəlliflərindən biri — *red.*
4 Protestantizmdə cərəyan — *red.*
5 Meyl, insanın Allah tərəfindən həyatda təyin edilmiş yeri — *red.*
6 Orta əsr İtaliya şairi Dante Aligyerinin (1265–1321) əsəri — *red.*
7 Con Milton — İngiltərə şairi və parlamentin fəal tərəfdarı (1608–1674) — *red.*
8 İngiltərədə dövlət dini, kalvinizmin bir qolu — *red.*

**“Demokratiya: Gediləsi Uzun bir Yol”**
Demokratiya və Antidemokratiya
Antologiyası (e.ə.430 – b.e.1998)
Hikmət A.Hacızadə, FAR CENTRE,
Bakı, 2001

# *Amerika* təcrübəsi

## 24. İLK AMERİKA KOLONİSTLƏRİ VƏ İLK KONSTİTUSİYALAR

15-ci yüzilliyin sonlarında Amerikanın kəşfindən sonra bu əfsanəvi torpaq haqqında şayiələr bütün Avropaya yayılır. Amerikada məskən salmağa ilk gələnlər sırasında dini dissidentlər — İngiltərənin Plimut şəhərindən olub ingilis kralı və anqlikan kilsəsinin özbaşınalığından bu “həsrəti çəkilən diyar”da sığınacaq axtaran piliqrimlər (puritan sektası) də vardı.

Anqlikan kilsəsinin təqibindən bir müddət Hollandiyada gizlənən piliqrimlər məchul Amerikaya köçmək qərarına gəlirlər ki, orada, Bibliyada deyildiyi kimi, “təpədə müqəddəs şəhər salıb” onların azadlıq haqqındakı təsəvvürlərinə və yüksək mənəvi tələblərinə uyğun gələn yeni həyata başlasınlar. Piliqrimlər “Meyflauer” adlı gəmini kirələyir və 1620-ci ildə Atlantik okeanını adlayırlar. Əvvəlcə onlar hələ 1607-ci ildə ilk ingilis yaşayış məntəqəsinin bina edildiyi Virciniyada məskən salmaq qərarına gəlirlər. Lakin tezliklə məlum olur ki, Virciniya sakinləri arasında yekdillik olmadığından bu koloniya, demək olar, dağılmışdır.

Kod burnunda yad sahilə (hazırda ABŞ-ın Plimut şəhəri, Massaçusets ştatı) çıxmazdan əvvəl gəminin 103 sərnişini qarşılıqlı razılıq əsasında sənəd — ictimai müqavilə tərtib edir, koloniyada ədalətli qaydalar təyin etmək və bunlara sözsüz tabe olmaq vəzifəsini üzərlərinə götürürlər.

İctimai müqavilə ideyasını piliqrimlər Bibliyadan mənimsəmişdilər, belə ki, orada Allah insanlarla (İsrail tayfası ilə) müqavilə bağlayaraq Allah-təalanın qoyduğu qanunlara ciddi əməl etdikləri halda onlara himayədarlıq etməyi öz öhdəsinə götürüb. Bundan əlavə, piliqrimlərin inanışına görə, cəmiyyətdə birgəyaşayış barədə müqavilələri insanlar da öz aralarında bağlamalıdırlar. Belə müqavilələrə əməl etməmək böyük günah sayılırdı.

“Meyflauer” gəmisində bağlanmış bu müqavilə çox vaxt ilk Amerika Konstitusiyası hesab olunur, o mənada ki, ilk dəfəydi hökumət idarə olunanların ümumi razılığı əsasında qurulmuşdu. Amerikaya köçərək Konnektikutda, Rod-Aylenddə və Yeni İngiltərənin digər yerlərində özünü idarə edən koloniyalar yaratmağa başlamış siyasi və iqtisadi mühacirlər də öz aralarında gələcək ölkə Konstitusiyasının müjdəçiləri sayıla biləcək bu cür müqavilələr bağlamağa başladılar. Bu müqavilələrin çoxunda insanların qanun qarşısında bərabərliyi, özünüidarəetmə və istər dövlətin, istərsə də cəmiyyətin vicdan azadlığı məsələlərinə müdaxilə etməməsi barədəki müddəalar əks olunmuşdur.

Rod-Aylend kolonistləri isə ingilis kralından onların tələbləri əks olunmuş aşağıdakı fərmanı (1663) əldə edə bilmişdilər: “Heç bir şəxs... indən belə və bütün zamanlarda din barədə hər hansı fikir ayrılığı ilə əlaqədar narahatlığa, yaxud şübhələrə məruz qoyula bilməz”.

Elə həmin zamanlar Nyu-Cersidəki koloniyanın qəbul etdiyi Konstitusiya “insanın azadlıq haqqında gələcək anlamı üçün özül yaratdı ki, xalq onun öz razılığı olmadan heç vaxt heç kəsin tabeliyində olmasın, belə ki, biz hakimiyyəti xalqa vermişik” — deyə Pensilvaniyanın yaradıcısı Uilyam Penn yazırdı.

## “Meyflauer” sazişi (1620)

*...Ədalətli və hamımız üçün eyni qanunlar... yaradacağıq və... onlara əməl edəcəyimizə söz veririk.*

“Biz, adları burada yazılanlar, həşəmətli hökmdar ağamız kral Ceyms cənablarının, Allahın iradəsi ilə Böyük Britaniyanın, Fransanın və İrlandiyanın kralının, dinin müdafiəçisinin sadiq təbəələri rəbbimizin şərəfinə, xristian dininin uğuru, kralımızın və ölkəmizin şöhrəti naminə Virciniyanın şimal hissəsində ilk koloniyanı yaratmaq üçün səfər edərək Allahın və bir-birimizin qarşısında bu müqavilə ilə aramızda qayda-qanun yaratmaq üçün vətəndaş ittifaqında birləşirik... Buna görə isə biz elə ədalətli və hamımız üçün eyni qanunlar... və vəzifələr yaradacağıq ki, koloniyamızın rahatlıq və əmin-amanlığı üçün gərəkli ola bilsinlər və onlara əməl edəcəyimizə, tabe olacağımıza söz veririk. Biz Kod burnunda hökmdarımız kral Ceymsin İngiltərə, Fransa və İrlandiyanı idarə etməsinin on səkkizinci ilində, Şotlandiyanı idarə etməsinin əlli dördüncü ili noyabrın 11-də və rəbbimizin anadan olduğunun 1620-ci ilində adlarımızı burada yazmaqla yuxarıda deyilənləri təsdiq edirik”

25. AMERİKA İNQİLABI

## Xoşbəxtliyə canatma hüququ

Amerika kolonistləri özlərini ingilis taxt-tacının təbəələri saydıqları halda, Britaniya hökuməti onlara “ikinci növ” adamlar kimi baxırdı — kolonistlər Britaniya sakinlərinin öz vətənlərində istifadə etdikləri bir çox hüquqlardan, o cümlədən öz nümayəndələrini parlamentə seçmək hüququndan məhrum idilər.

Amerika koloniyaları uğrunda 7 illik İngiltərə-Fransa müharibəsi başa çatdıqdan sonra qalib gəlmiş İngiltərənin külli miqdarda borcunun yığıldığı məlum oldu. 1764-cü ildə parlament bu borcun ödənilməsini kolonistlərin üzərinə qoymaq qərarına gəlir və bunu onunla əsaslandırır ki, bəs bu müharibə ilk növbədə onların təhlükəsizliyi naminə aparılıbmış. Dönə-dönə qoyulan həddən artıq vergilər kolonistlərin qəzəbinə və çaxnaşmaya səbəb olur. Azadlıqların Böyük Xartiyası (1215) və Hüquqlar Haqqında Billdən (1689) gələn ənənələrə istinad edən kolonistlər təkidlə bildirirlər ki, onların nümayəndələrinin parlamentdə iştirakı olmadan parlamentin onların üzərinə vergi qoymağa haqqı yoxdur. Ölkədə əhalini vergi verməkdən boyun qaçırmağa, Britaniya hökumətinə itaətsizlik göstərməyə və Britaniyadan ayrılmağa çağıran vərəqələr və pamfletlər yayılmağa başlayır. Pamfletlərdə gələcək müstəqil dövlətin siyasi quruluşu da müzakirə olunur.

13 koloniyanın Birinci Kontinental Konqresə (1774) toplanmış nümayəndələri kral III Georqa təbəəlikdə sədaqətli vətəndaşlarını parlamentdən və “qəddar” nazirlərdən qorumaq xahişi ilə müraciət edirlər. Konqres həmçinin Britaniya müstəmləkə hakimiyyətinə vətəndaş itaətsizliyi göstərməyə çağırır. Kral Konqresin müştərək ərizəsinə cavab vermir, əksinə, kolonistləri qiyamçı elan edir, qoşunlara qiyamı yatırmaq əmri verilir.

Lakin ingilislərin cəza dəstələri Corc Vaşinqtonun başçılıq etdiyi kolonistlər ordusunun ciddi müqavimətinə rast gəlir və böyük itkilər verir (1775). Fransa və İspaniyanın hər biri kolonistlər ordusuna bir milyon livr pul ayırır (1776).

2 iyul 1776-cı ildə İkinci Kontinental Konqres daha Britaniyadan asılı olmadığını elan edir, Ceffersona, Franklinə və Adamsa istiqlaliyyət haqqında bəyannamə tərtib etməyi tapşırır. Bəyannamənin əsasən Tomas Cefferson tərəfindən yazılmış mətnini Konqres 4 iyul 1776-cı ildə təsdiq edir. Həmin gün ABŞ-da istiqlaliyyət günü kimi qeyd olunur.

Bu zaman hərbi əməliyyatlar hələ də davam edir. Müharibə 1781-ci ilin payızında amerikalıların tam qələbəsiylə başa çatır. 1782-ci ildə Britaniyanın yeni Nazirlər Kabineti Amerika Birləşmiş Ştatlarının müstəqilliyini tanımağa razılıq verir...

İstiqlaliyyət Bəyannaməsi dünya demokratiyasının başlıca sənədlərindən biridir; onun əhəmiyyəti müstəqilliyin elan olunması faktı hüdudlarından çox-çox kənara çıxır. Heç bir Amerika sənədi amerikalıların azad insanı necə təsəvvür etməsi və fərdlə dövlətin qarşılıqlı əlaqələrinin hansı şəkildə qurulmalı olması barədə bu qədər geniş məlumat verə bilməz.

İlk baxışdan adama elə gələ bilər ki, bəyannamədə diqqəti çəkə biləcək orijinal ideyalar yoxdur; burada "Azadlıqların Böyük Xartiyası"nın, levellerlərin "Xalq sazişi"nin və Con Lokkun ideyalarından istifadə olunub. Doğrudan da bu belədir. Lakin məsələ burasındadır ki, əgər Britaniyada ingilis inqilabının ideyaları daim feodal ənənələriylə toqquşduğu halda, Amerikada öz vətənlərini dövlətin təqibi üzündən tərk etmiş insanların qurub-yaratdığı bir ölkədə "yaşamaq, azadlıq və xoşbəxtliyə canatma" hüquqları hamı tərəfindən alqışlanır və dəstəklənirdi. Bu hüquqlar bəyannamədə təkcə amerikalıların deyil, həm də bütün bəşər nümayəndələrinin ayrılmaz hüquqları kimi tanınırdı.

Ceffersonun bəyannaməyə daxil etdiyi şikayətlər siyahısı amerikalıların necə dövlət qurmaq istədiyini və orada dövlətlə insanın qarşılıqlı münasibətlərinin necə olmasını bizə aydın göstərir:

> Dövlət insanlar arasında bağlanmış müqavilə əsasında yaradılmalıdır; o, vətəndaşların şəxsi işlərinə müdaxilə etməməlidir; dövlətin vəzifəsi vətəndaşların mülkiyyət hüquqlarını təmin etməkdir; xalq öz öhdəliklərini yerinə yetirməyən və insan hüquqlarını pozan hökumətə qarşı üsyan etmək hüququna malikdir; insan yalnız andlılar məhkəməsinin hökmü ilə məhkum edilə bilər; hökumət axtarış üçün order olmadan evlərə soxula bilməz; vergilər adamların və onların parlamentdəki nümayəndələrinin razılığı olmadan qoyula bilməz.

Bəyannamənin müddəaları amerikalılar üçün gözlənilməz deyildi. Artıq 1770-ci ilə qədər Britaniya müstəmləkə idarəsi tamamilə dağılmışdı və Amerika koloniyalarını əslində yerli özünüidarə orqanları idarə edirdi ki, onlar da Ceffersonun bəyannamədə əks edilmiş ideyalarını daim müzakirə edir və elliklə bunları dəstəkləyirdilər.

"Köhnə dünya"da monarxiyalar və imperiyalar dağılıb yeni dövlət-millətlər meydana gəldikcə dövlətin vəzifələri haqqında belə bir ümumi fikir yaranırdı ki, *dövlət ilk növbədə cəmiyyətdə sabitliyi təmin etmək üçün gərəkdir.* İstiqlaliyyət Bəyannaməsi isə sabitlik zərurətini inkar etməsə də, *dövlətin başlıca vəzifəsini insan hüquqlarını müdafiə etməkdə görürdü.*

Maraqlıdır ki, bəyannamə insanın *"xoşbəxt olmaq hüququ"*nu deyil, məhz onun *"xoşbəxtliyə canatma"* hüququnu tanıyır. Amerikalıların ümumi fikrincə, hökumət hər bir insanı xoşbəxt etmək, yəni ona iş və təhsil verib, peşə öyrədib, müalicə etmək zorunda deyildir. Hökumət yalnız onun öz məqsədlərinə yetməsi üçün azadlıqlarını qoruya bilər.

Bəyannamə bütün insanların qanun qarşısında bərabər olduqlarını elan etdi; lakin o zaman bu bərabərlik hindulara, zəncilərə, qadınlara və mülkiyyətsiz adamlara şamil edilmirdi. Amma əhalinin bu qrupları hüquq bərabərliyi uğrunda apardıqları uzun sürən mübarizənin gedişində başlıca ideoloji və hüquqi alət kimi məhz bəyannaməyə istinad edirdilər.

1783-cü ildə Massaçusets Ali Məhkəməsi ştatın ərazisində köləliyi qanunsuz elan etdi. Məhkəmə öz qərarını bəyannamənin aşağıdakı sözlərinə istinadən çıxardı: *"Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, insanlar bərabərhüquqlu yaradılıb".*

TOMAS CEFFERSON

# İstiqlaliyyət Bəyannaməsi (4 iyul 1776-cı il)

AMERİKANIN ON ÜÇ ŞTATI TƏRƏFİNDƏN HAMILIQLA VƏ BİR SƏSLƏ QƏBUL EDİLMİŞDİR

*...Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir.*

Bəşər tarixində elə bir məqam yetişir ki, hər hansı xalq onu başqa bir xalqa bağlayan siyasi əlaqələri qırıb atmağa, təbiətin və Yaradanın ona da bəxş etdiyi qanunlara uyğun olaraq dünya dövlətləri arasında müstəqil, kimdənsə asılılıqsız mövqe tutmağa çalışır və belə olanda həmin xalq bəşəriyyətin rəyinə ehtiram əlaməti kimi, özünün müstəqilliyə canatma səbəblərini, heç şəksiz ki, izah etməlidir.

Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət sayırıq ki, bütün insanlar bərabərhüquqlu yaradılıbvə Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir, onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir; belə hüquqların təmin edilməsi üçün insanlar ədalətli, idarə olunanların razılığına güvənən hökumət qurur; odur ki, hər hansı dövlət həmin hüquqları pozarsa, xalqın onu dəyişməyə, ləğv etməyə, əvəzindəsə həmin prinsiplərə dayanan, insanların əmin-amanlığına və güzəranına daha yüksək təminat verən yeni quruluş yaratmağa haqqı vardır. Əlbəttə, sağlam şüurun kəsdiyi odur ki, çoxdan bəri formalaşmış idarəçilik üsulları xırda və ötəri səbəblərə görə əvəz edilməsin, çünki keçmişin təcrübəsi göstərir ki, insanlar özlərinin alışdıqları həyat tərzini dəyişməkdənsə şərin hökmünə dözməyə, imkan varsa, daha meyllidirlər. Ancaq uzunmüddətli azğınlıq və zillət yeganə və ardıcıl məqsəd — xalqı sonu görünməyən despotizmə tabe etdirmək məqsədi daşıyırsa, onda bu cür iqtidarı devirmək və özünün gələcək əmin-amanlığını təmin edən etibarlı bir zəmin yaratmaq xalqın haqqı və borcudur. Həmin bu kolonistlər də həmçinin uzun müddətdir ki, müxtəlif sıxıntılara düçar olublar və ancaq zərurət onları keçmiş dövlət quruluşunu dəyişməyə məcbur edir.

Hazırda taxtda olan Böyük Britaniya kralının hökmranlıq tarixi əslində bizim ştatlarda mütləqiyyəti bərqərar etmək kimi birbaşa məqsəd güdən, ardı-arası kəsilməyən zülm və zillət tarixidir. Bunu sübuta yetirmək üçün insaf yiyəsi olan dünyanın nəzərinə aşağıdakı faktları çatdırırıq.

Kral camaatın güzəranı üçün gərəkli və xeyirli olan qanunlara razılıq vermirdi.

O, qubernatorlara qadağan etmişdi ki, nə qədər təxirəsalınmaz olsa belə, özü təsdiq etməyincə heç bir qanun qüvvəyə minməsin. Həmin qanunların tətbiqi bu yolla dayandırılanda onlara zərrəcə məhəl qoymurdu.

O, geniş, əhalisi çox bölgələrin sakinlərinə sərfəli, zalımlara isə xatalı görünən, qanunvericilik qurumunda təmsil hüququndan əl çəkməyincə mənafelərinə uyğun qanunları qəbul etməyə icazə vermirdi.

O, qanunvericiləri fiziki cəhətdən yormaq, beləliklə də onların iradəsini yalnız özünə tabe etdirmək məqsədilə toplantıları ucqar məskənlərdə, arxivlərdən uzaq, narahat yerlərdə çağırtdırırdı.

O, qanunverici məclisləri həmin səbəbdən dəfələrlə buraxmışdı, çünki onlar xalqa məxsus hüquqların kral tərəfindən pozulmasına qətiyyətlə müqavimət göstərirdilər.

Kral qanunvericiləri buraxandan sonra uzun müddət yeni seçkilər keçirmək istəmir, bu zaman ləğv oluna bilməyən qanunvericilik camaatın əlinə keçir, ölkə zəifləyir, xarici müdaxiləyə, daxili sarsıntılara uğrayırdı.

O, əhalinin bu ştatlarda məskunlaşmasına, əcnəbilərin burada oturaqlaşması barədə mövcud qaydaların tətbiqinə maneçilik törədir, mühacirəti şirnikləndirən və torpaq paylarının alınmasına ixtiyar verən yeni qanunların təsdiqinə mane olurdu.

O, ədliyyənin icrasına yol vermir, məhkəmələrin yaranışı haqda qanuna qol qoymurdu.

O, hakimlərin qulluq müddətini, məvacibini istədiyi kimi müəyyən edir, onları təkcə öz iradəsindən asılı vəziyyətə salırdı.

O, saysız-hesabsız vəzifələr təsis edir, üstümüzə xalqı soyub-sıxışdıran məmurlar dəstəsi göndərirdi.

O, qanunverici məclislərimizin razılığı olmadan dinclik dövründə torpaqlarımızda daimi ordu saxlayırdı.

O, hərbi hakimiyyəti müstəqil etməyə və mülki qurumdan üstün tutmağa çalışırdı.

O, bizləri quruluşumuza və qanunlarımıza yabançı olan hakimiyyətə tabe etdirməkdən ötrü başqaları ilə sazişə girirdi; qeyri-qanuni hökumətin aktlarını çap etdirməklə aşağıdakı riyakar məqsədlər güdürdü:

— aramızda iri hərbi hissələr yerləşdirmək;

— adamlarımızı qətlə yetirən hərbçiləri qurama məhkəmələrlə müdafiə etmək;

— Yer kürəsinin başqa tərəfləri ilə ticarət əlaqələrimizi kəsmək;

— bizimlə razılaşdırmadan üstümüzə vergilər qoymaq;

— əksər hallarda bizi andlılar məhkəməsindən məhrum etmək;

— bizləri okeanın o tayına yollamaq və uydurma cinayətlər üstündə mühakimə etmək;

— qonşu əyalətdə(1) azad ingilis qanunları sistemini yoxa çıxarmaq, orada özbaşınalığa söykənən quruluş yaratmaq və onun sərhədlərini elə genəltmək ki, həmin quruluş bizə görk olsun, mütləqiyyətin bizim tərəflərdə yayılmasına vasitəçilik etsin; qanunları ləğv etməklə bizim idarəçilik sistemini kökündən dəyişdirmək;

— qanunverici məclisləri buraxmaqla bizim əvəzimizə hər cür qanun-qaydaların qəbul edilməsinə yiyə çıxmaq.

Kral bizə yiyə durmadı, bizə himayə göstərməkdən əl çəkib müharibəyə əl atdı.

O, dənizlərimizdə quldurluq edir, sahillərimizi qarət edir, şəhərlərimizi oda qalayır, həmvətənlərimizi öldürürdü. İndi də hətta qatı barbarlıq dövründə belə rast gəlinməyən, azad bir millətin hökmdarına yaraşmayan amansızlıqla, namərdcəsinə başladığı qırğın, qarət və qəddarlığı sona yetirmək üçün əcnəbi muzdlulardan ibarət nə boyda orduları üstümüzə göndərir.

O, açıq dənizdə əsir düşən soydaşlarımızı öz yurdlarına qarşı silah işlətməyə məcbur edirdi və beləcə, onlar ya dost-doğmalarının cəlladına çevrilir, ya da özləri onların əlindən əcəl tapırdılar.

O, öz içərimizdə nifaq törədir, həm də yaşından, cinsindən asılı olmayaraq qabağına keçəni qırıb-çatan vəhşi hinduları bizim camaatımızla salışdırmağa cəhd göstərirdi.

Bu dərdləri çəkdikcə zaman-zaman acizanə şəkildə də olsa öz hüquqlarımızın bərpasını diləmişik. Bu barədə dönə-dönə etdiyimiz xahişlərə yeganə cavab isə yeni haqsızlıqlar olub.

Müstəbid keyfiyyətlərinə malik hökmdar azad xalqın hökmdarı ola bilməz.

İngilis soydaşlarımız da yadımızdan çıxmayıb. Vaxtaşırı onların nəzərinə çatdırmışıq ki, onların qanunverici palataları bizi qanunsuz şəkildə özlərinə tabe etdirmək niyyətindədir. Mühacirətimizə və köçüb burada məskən salmağımıza səbəb olan şəraiti xatırlatmışıq. Onlara xas fitri alicənablıq və ədalət hissini andırmaqla aramızdakı qan qohumluğuna da and vermişik ki, əvvəl-axır aramıza ayrılıq gətirəsi, eləcə də əlaqələrimizi üzən və bizə qarşı yönələn haqsızlığı yamanlayıb qınasınlar. Ancaq onlar nə haqqın, nə də qan qohumluğunun səsinə etina göstərdilər. Odur ki, ayrılmağımızın labüdlüyü ilə barışası olmalıyıq və bundan sonra onlara münasibətimiz özgə xalqlara necədirsə elə olasıdır, belə ki, müharibədə düşmən, dinc vaxtı dostuq.

Ona görə də biz, yəni Amerika Birləşmiş Ştatlarının nümayəndələri Ali Konqresə toplaşıb və niyyətimizin səmimiliyinə Ulu Tanrını şahid çağırıb rəhmdil camaatımızın iradəsinə tabe oluruq və xalqın adından təntənəli şəkildə, uca səslə bəyan edirik — necə ki, bir ixtiyar sahibi, bizim birləşmiş müstəmləkələr indən belə azad və müstəqil Ştatlar olacaq, yəni onlar Britan taxtü-tacına sadiq olmaqdan yaxasını qurtarır və beləliklə, Böyük Britaniya ilə hər cür siyasi əlaqələr büsbütün ləğv edilir. Bundan sonra Ştatların kiməsə müharibə elan etməyə, sülh bağlamağa, ittifaqa girməyə, ticarət aparmağa, bir sözlə, istədiyi səviyyədə, yəni azad dövlətlər tək təşəbbüsdə bulunub davranmağa tam ixtiyarı var.

Bu bəyannaməyə sübut olaraq və Allah-təalanın imdadına güvənərək, bu yolda heç nəyimizi əsirgəmədən, malımızı, canımızı qurban verməyə, öz şərəfimizi daim uca tutmağa and içirik.

---

1 Kanada nəzərdə tutulur — *red.*

## 26. ABŞ-da DİNİN DÖVLƏTDƏN AYRILMASI

ABŞ müstəqillik əldə etdikdən dərhal sonra müstəmləkə hakimiyyəti ilə sıx bağlı olan anqlikan kilsəsinin hökmranlığına Virciniya ştatında son qoyuldu. Bununla belə, Amerika kolonistlərinin başlıca məqsədlərindən birinin — vicdan və dini etiqad azadlığının həyata keçirilməsi bir sıra problemlərlə qarşılaşdı. Ştatın qanunvericilik məclisinin rəsmi qəbul olunmuş kilsələrin hamısına kömək məqsədilə vergi qoymaq hüququ varmı? Bu baxış əhali tərəfindən geniş müdafiə olunurdu. Bir çoxları hesab edirdi ki, vahid dövlət kilsəsi olmamalıdır, lakin din ştatın büdcəsindən maliyyələşməlidir. Virciniya əhalisinin digər hissəsi dərk edirdi ki, bu cür maliyyələşdirmə dinin adamlara sırınmasından başqa bir şey deyil və Avropanı vaxtilə tərk etmiş amerikalıların və onların əcdadlarının qəbul etməyərək mübarizə apardıqları şeyləri daha çox xatırladır.

Tomas Cefferson və Ceyms Medison (hər ikisi ABŞ-ın gələcək prezidentləri idi) təkid edirdilər ki, dini etiqad hər kəsin yalnız şəxsi işi olmalıdır və hər hansı dövlət müdaxiləsindən qorunmalıdır. İstənilən dini fəaliyyət tam könüllülük əsasında olmalıdır.

Cefferson və Medison əhalinin üzərinə təkcə bütün rəsmi kilsələrin maliyyələşdirilməsi üçün vergilər qoyulmasının deyil, həmçinin adamların öz xüsusi kilsələrinin xeyrinə vergi verməyə məcbur edilməsinin də əleyhinə çıxırdılar. Cefferson hesab edirdi ki, kilsə və dövlət bir-birindən uca divarla ayrılmalıdır.

1779-cu ildə Cefferson Virciniya ştatında dini azadlıq haqqında qanun layihəsi hazırladı, lakin bu layihə yalnız 7 ildən sonra — 1786-cı ildə Medisonun səyləri nəticəsində Virciniya ştatının qanunverici məclisi tərəfindən qəbul olundu. Bu günə qədər bu qanun Virciniya ştatının Konstitusiyasının tərkib hissəsini təşkil edir. Sonralar qanunun surəti bir çox digər ştatlar tərəfindən çıxarılmışdır, qanun həmçinin ABŞ Konstitusiyasının dini azadlıq haqqında müddəasının əsasını təşkil etmişdir.

Həm Cefferson, həm də Medison bu qanunu həyatları boyu qazandıqları ən böyük nailiyyətlərdən hesab edirdilər. Cefferson vəsiyyət etmişdi ki, başdaşında tutduğu yüksək dövlət vəzifələrini deyil, İstiqlaliyyət Bəyannaməsinin, dini azadlıq haqqında qanunun müəllifi və Virciniya Universitetinin yaradıcısı olduğunu yazsınlar.

TOMAS CEFFERSON

## Virciniya ştatında dini azadlıq haqqında qanun

*Qanun layihəsini 1779-cu ildə T. Cefferson yazmış, qanun 1786-cı ildə qəbul olunmuşdur*

*Bu qanuna görə, kimsəni hər hansı dini ibadət yerlərinə getməyə, yaxud onlara yardım göstərməyə məcbur etmək qadağandır...*

Nəzərə alaraq ki...

qadir Allah idrakı azad yaratmış və onun gələcəkdə də azad qalmasını istəmişdir, bunun üçün də onu məhdudiyyətlərə yatımsız etmişdir;

ağla müvəqqəti cəzalar, yaxud çətinliklər, ya da vətəndaş hüquqlarından məhrum etməklə təsir göstərmək cəhdləri yalnız ikiüzlülük hallarının yaranmasına və şərəfsiz addımların atılmasına gətirib çıxarır, bu isə müqəddəs dinimizi Yaradanın niyyətlərindən uzaqdır, Yaradan canımızın və ruhumuzun sahibi olmasına, hər şeyə qadir olmasına baxmayaraq, dini bu və ya başqasına zorla qəbul etdirməyə üstünlük verməmişdir;

özünün baxışlarını yeganə düzgün və xətasız baxış kimi təqdim edərək onu başqalarına qəbul etdirən qanunverici hakimiyyət, dini və mülki rəhbərlər bu hərəkətləri ilə günah edirlər;

qəbul etmədiyi baxışların yayılmasına görə pul verməyə insanı məcbur etmək günah və müstəbidlikdir;

insanı hətta öz dininə məxsus hər hansı müəllimə yardıma təhrik etmək də onu əxlaq nümunəsinə əməl etmək istədiyi konkret pastora yardım göstərmək azadlığından məhrum edir...;

mülki hüquqlarımız fizika, yaxud həndəsə sahəsində baxışlarımızdan asılı îêolmadığı kimi, dini baxışlarımızdan da asılı deyildir; buna görə də insanın bu və ya digər dini təlimə etiqada, yaxud onu qəbul etmədiyinə görə ictimai etimaddan kənar elan olunması, məsul vəzifələr tutub müvafiq ödənc almaq imkanından məhrum edilməsi başqa vətəndaşlar kimi malik olduğu təbii hüquqlardan... ədalətsizcəsinə məhrum edilməsi deməkdir;

insanların baxışları mülki hakimiyyətə tabe və onun yurisdiksiyasına daxil deyil;

mülki hakimiyyətə insanların dünyagörüşü sahəsinə müdaxilə etməsinə, hər hansı prinsipləri yanlış hesab edərək onların təbliğ edilməsinə, yaxud yayılmasına mane olmaq imkanının verilməsi bütün dini azadlığı dərhal məhv edə biləcək təhlükəli bir yanlışlıqdır, belə ki, bu halda şəksiz hakim rolunda çıxış edən mülki hakimiyyət öz baxışlarını mühakimə meyarlarına çevirəcək və başqalarının baxışlarını özününkünə uyğun gəlib-gəlməməsinə görə bəyənəcək, yaxud rədd edəcəkdir;

vəzifəli şəxslər mülki hakimiyyətin ədalətli niyyətlərinə əsaslanaraq yalnız o vaxt müdaxilə edə bilərlər ki, kiminsə prinsipləri sülhün və mövcud asayişin pozulmasına yönəldilən aşkar hərəkətlərlə nəticələnsin;

və nəhayət, həqiqət güclüdür və onu öz ixtiyarına buraxdıqda qalib gəlir; o, yanlışlıqlara qarşı möhkəm və davamlı sipərdir, insanların müdaxiləsi onu əsas silahından — diskussiya və mübahisələr azadlığından məhrum etməsə, heç bir münaqişə ona təhlükəli deyildir;  açıq şəkildə təkzib etmək mümkün olduqda səhvlər təhlükəli olmur...

Biz, Virciniyanın Baş Assambleyası bu qanunu təsdiq edirik. Bu qanuna görə, kimsəni hər hansı dini ibadət yerlərinə getməyə, yaxud onlara yardım göstərməyə məcbur etmək qadağandır, həmçinin kimsəyə dini baxışlarına, yaxud əqidəsinə görə zor tətbiq etmək, onun fəaliyyətini məhdudlaşdırmaq, təzyiq göstərmək, yaxud şəxsiyyətinə xələl yetirmək, əmlakına zərər vurmaq, onu hər hansı başqa cür iztirablara düçar etmək olmaz;

bu qanuna görə, bütün insanlar dini etiqadlarında azaddırlar və dini məsələlərə dair öz baxışlarını sərbəst şəkildə müdafiə edə bilərlər, bütün bunlar heç bir halda insanların mülki hüquqlarını məhdudlaşdırmamalı, yaxud hər hansı formada onlara təsir etməməlidir.

Əlbəttə, bizə məlumdur ki, bu Assambleya yalnız adi qanunların qəbul olunması üçün seçilmişdir və bizim Assambleya ilə eyni səlahiyyətlərə malik sonrakı assambleyaların aktlarını məhdudlaşdırmaq ixtiyarına sahib deyildir, buna görə də bu aktın ləğvedilməz olduğunu elan etməyin qanuni gücü olmazdı, lakin biz bəyan etməkdə azadıq və bəyan edirik ki, bu sənəddə müdafiə olunan hüquqlar insanın “təbii hüquqlar”ıdır və gələcəkdə bu sənədin ləğv olunmasına, yaxud məhdudlaşdırılmasına yönəlmiş akt qəbul olunarsa, bu, “təbii hüquq”un pozulması demək olacaqdır.

## 27. MƏHDUDLAŞDIRILMIŞ HÖKUMƏT
### ABŞ KONSTİTUSİYASI

1777-ci ildə müstəqillik uğrunda müharibənin gedişində öz tərkibində 13 ştatın nümayəndələrini toplamış Kontinental Konqres öz hərəkətlərini uzlaşdırmaq məqsədilə Konfederasiya və Daimi Hökumət Haqqında Əsasnaməni bəyəndi. Üsyana qalxmış ştatlar sərt Britaniya idarəsinin acı taleyindən ibrət alaraq mərkəzləşdirilmiş hökumətin hakimiyyətini məhdudlaşdırmaq üçün bütün tədbirləri gördülər: burada bütün qərarlar konsensusla qəbul edilməli idi. Nəticədə bu, ittifaqın öz idarəetmə qabiliyyətini tam itirməsi ilə nəticələndi. Axır müharibə dövründə Konfederasiya ştatların üzərinə vergilər qoya bilmir, yalnız onlardan kömək diləyirdi; o, qoşun yığmaq və onu maliyyələşdirmək, ticarət və sənayeni tənzimləmək, xarici siyasət yürütmək imkanından da məhrum idi.

1786-cı ildə 5 ştat Konqresə Konfederasiya Haqqında Əsasnaməyə düzəliş vermək tələbi ilə müraciət etdi; bundan məqsəd ittifaq üçün daha səmərəli idarəetmə formasını tapmaq idi. Federasiyanın — daha sıx ittifaq yaratmağın tərəfdarları başda Corc Vaşinqton olmaqla ölkə Konstitusiyası üzərində işə başladılar. Layihə üzərində işə Ceyms Medison rəhbərlik edirdi.

Konstitusiya ilk növbədə güclü icraedici hakimiyyət yaratmalı, lakin eyni zamanda bu hakimiyyət hüdudsuz olmamalı idi. Habelə ittifaqın səmərəli qanunverici və vahid məhkəmə sistemini yaratmaq zəruri idi. Medison bu vəzifənin öhdəsindən ustalıqla gəldi. O, "əyləclər və balanslar" (checks and balances) və ya "qarşılıqlı nəzarət və əks təsir" prinsipinə — ideyasını Monteskyödən mənimsədiyi hakimiyyət bölgüsü prinsipinə əsaslanan siyasi quruluş yaratdı.

Bu quruluşda ittifaqı idarə edəcək qanunları Konqres qəbul edirdi; bu qanunlar əsasında ittifaqın işlərini prezident idarə və nəhayət, qanunların icrasının düzgünlüyünə məhkəmə nəzarət etməli idi. Beləliklə, hakimiyyətin hər üç qolu bir-birini qarşılıqlı şəkildə tamamlamalı və bir-birini nəzarətdə saxlamalı idi. "Hakimiyyət bölgüsü" sisteminin fəlsəfi əsaslandırılması ondan ibarət idi ki, insan öz təbiətinə görə mənən zəifdir və hakimiyyət düşkünüdür. İnsan nə qədər namuslu və təmiz olursa-olsun, digər insanlar üzərində hüdudsuz hakimiyyət əldə etdikdən sonra çox keçmədən tirana çevriləcəkdir. İstiqlaliyyət Bəyannaməsi kimi, Medisonun layihəsi də ingilis inqilabının bütün demokratik təcrübəsini mənimsəmişdi.

Dünyanın ilk Konstitusiyasının layihəsi Amerika millətinin iftixar mənbəyidir, ən azı ona görə ki, bu Konstitusiya indiyə qədər dünyanın bütün konstitusiyaları üçün əvəzsiz nümunə olaraq qalır. Konstitusiya bu sözlərlə başlanırdı: "Biz, Birləşmiş Ştatlar xalqı...". Bu o demək idi ki, ittifaq ayrı-ayrı ştatların razılığı ilə deyil, özünün bütün əhalisinin razılığı ilə yaradılır və deməli, ittifaqa daxil olmuş ştat bu ittifaqdan öz iradəsi ilə çıxa bilməz, bunun üçün Birləşmiş Ştatlar xalqının ümumi razılığı gərəkdir.

İttifaqın əsas prinsiplərini əks etdirən Konstitusiya ölkənin qalan qanunları üzərində üstünlüyü olan ən ali dövlət qanunu kimi düşünülmüşdü. Konstitusiyaya hər hansı bir dəyişiklik yalnız ştatların hər biri ayrı-ayrılıqda bu dəyişikliyi qəbul etdikdən sonra edilə bilərdi. Bu müddəa sənədin hüquqi gücünü xeyli artırırdı. Belə ki, indən belə Konqres qəbul edilmiş prinsipləri, Britaniya parlamentində ola biləcəyi kimi, səsvermə yolu ilə dəyişdirə bilməzdi.

1787-ci ilin yazında Filadelfiyada öz işinə başlamış Konstitusiya Konventi (qurultay) uzun müzakirələrdən sonra sentyabrın 17-də Konstitusiya layihəsini qəbul etdi. Bir müddətdən sonra ştatların qanunverici yığıncaqlarının ratifikasiya etdiyi Konstitusiya 4 mart 1789-cu ildə qüvvəyə mindi.

Hələ Konstitusiyanın qəbulu üzrə müzakirələrin gedişində Tomas Ceffersonun başçılıq etdiyi bir dəstə nümayəndə onun mətninə dövlətin məhdudlaşdıra bilməyəcəyi insan hüquqlarının siyahısını daxil etmək tələbini irəli sürdü. Medison buna etiraz edərək göstərdi ki, Konstitusiyaya əsasən hökumət onsuz da öz hüquqlarında xeyli məhdudlaşdırılıb. Lakin Cefferson öz inadından dönməyərək bildirdi: "Hüquqlar Haqqında Bill insanları

yer üzündəki istənilən hökumətdən — mərkəzi, yaxud yerli hökumətdən qoruyur və heç bir ədalətli hökumət insanı ona məxsus olan hüquqlardan məhrum edə, yaxud bunlara öz istədiyi kimi yanaşa bilməz".

Konstitusiya qəbul olunduqdan sonra Konqres 1789-cu ilin yazında öz iclasına toplaşdı və Ceffersonun irəli sürdüyü düzəlişlər siyahısını dərhal qəbul edərək, bunları ştatlara göndərdi. Ştatlar 1791-ci ilə qədər bu düzəlişlərin 10-nu təsdiqlədilər və o vaxtdan bunlar ABŞ Konstitusiyasının Hüquqlar Haqqında Billi adı ilə tanınır. Bu Billə əsasən Konqres vicdan, söz və dinc yığıncaqlar azadlığını məhdudlaşdıra biləcək qanunlar qəbul edə bilməz.

ABŞ-ın 200 illik tarixi ərzində Konstitusiyaya 27 düzəliş edilmişdir. Bu düzəlişlər əsasən vətəndaş hüquqlarını (köləliyin ləğvi, seçki hüquqlarının genişləndirilməsi və s.) genişləndirmiş və vətəndaşların dövlət üzərindəki nəzarətinin güclənməsinə kömək etmişdir.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KONSTİTUSİYASI (1787)

*Konqres din müəyyənləşdirməyə, yaxud sərbəst dini ibadəti yasaqlamağa dair, ya da söz və mətbuat azadlığını, xalqın dinc toplaşmaq, şikayətlərinin yerinə yetirilməsi üçün hökumətə ərizələrlə müraciət etmək hüququnu məhdudlaşdıran heç bir qanun verməməlidir.*

Biz, Birləşmiş Ştatlar xalqı(1) daha mükəmməl ittifaqın yaradılması, ədalətin bərqərar edilməsi, daxili sakitliyin qorunması, birgə müdafiənin təşkili, ümumi rifah səviyyəsinə yardım göstərilməsi, bizim və bizdən sonrakı nəsillərin azadlıq nemətləri ilə təmin edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları üçün bu Konstitusiyanı təntənə ilə bəyan və təsis edirik.

## I MADDƏ
(Qanunvericilik hakimiyyəti)

*1-ci bölmə.* Qanunvericilik hakimiyyətinin burada təsbit edilən bütün səlahiyyətləri Senatdan və Nümayəndələr Palatasından ibarət Birləşmiş Ştatlar Konqresinə məxsusdur.

*2-ci bölmə.* Nümayəndələr Palatası hər ştatın əhalisi tərəfindən iki ildə bir dəfə seçilən üzvlərdən ibarətdir və hər ştatdakı seçicilər onun Qanunverici yığıncağının ən çoxsaylı palatasının seçicilərinə irəli sürülmüş tələblərə cavab verməlidir.

İyirmi beş yaşına çatmayan, yeddi il Birləşmiş Ştatların vətəndaşı olmayan və seçildiyi zaman onu seçən ştatın sakini olmayan heç kəs Nümayəndə ola bilməz.

Həm Nümayəndələr, həm də birbaşa vergilər bu ittifaqa daxil olacaq bütün ştatların öz əhalisi nisbətində bölünür; bu tənasüb müəyyən müddətə xidmətdə olan şəxsləri daxil etməklə və vergi ödəməyən hinduları çıxmaqla, bütün azad adamların sayına bütün başqa şəxslərin beşdə üçünü artırmaqla müəyyənləşdirilir.

Əhalinin əsl siyahıyaalınması Birləşmiş Ştatlar Konqresinin ilk sessiyasından sonrakı üç il ərzində həyata keçirilir, sonra isə xüsusi qanunla müəyyənləşdirilən qaydada hər on ildən bir təkrarlanır. Hər otuz min sakinə bir Nümayəndədən artıq seçmək olmaz. Bu cür siyahıyaalma keçiriləndək Nyu-Hempşir ştatı əhalisinin üç, Massaçusetsin səkkiz, Rod-Aylendin və Providens koloniyasının bir, Konnektikutun beş, Nyu-Yorkun altı, Nyu-Cersinin dörd, Pensilvaniyanın səkkiz, Delaverin bir, Merilendin altı, Virciniyanın on, Şimali Karolinanın beş, Cənubi Karolinanın beş və Corciyanın üç Nümayəndə seçmək hüququ olacaqdır.

Hər hansı ştatın nümayəndəliyində boş yer yarandıqda oranın icra hakimiyyəti bu boş yeri doldurmaq üçün seçkilər təyin edir.

Nümayəndələr Palatası öz spikerini və başqa vəzifəli şəxslərini seçir; impiçment qaydasında təqibetmə məsələsini qaldırmaq hüququ yalnız ona məxsusdur.

*3-cü bölmə.* Birləşmiş Ştatlar Senatının tərkibinə hər ştatdan ikisi olmaqla, müvafiq ştatların Qanunverici yığıncaqlarının altı ilə seçdikləri Senatorlar daxildir; hər Senatorun bir səsi var.

İlk seçkilər keçiriləndən sonra Senatorlar yığışan kimi gecikdirilmədən üç (imkan daxilində bərabər) qrupa bölünürlər. Birinci qrupun Senatorlarının yerləri ikinci il bitdikdə, ikinci qrupunku dördüncü il bitdikdə, üçüncü qrupunku altıncı il bitdikdə boşalır ki, hər iki ildən bir tərkibin üçdə biri yenidən seçilsin; ştatın Qanunverici yığıncağının sessiyaları arasındakı fasilələrdə istefa üzündən, yaxud başqa səbəbdən boş yerlər yaranarsa, həmin ştatın icra hakimiyyəti onları doldurası Qanunverici yığıncağın növbəti sessiyasınadək müvəqqəti təyinatlar həyata keçirə bilər.

Otuz yaşına çatmayan, doqquz il Birləşmiş Ştatların vətəndaşı olmayan və seçilmə anında onu seçən ştatın sakini sayılmayan şəxs Senator ola bilməz.

Birləşmiş Ştatların Vitse-prezidenti Senatın Sədridir, ancaq o, yalnız səslər tən bölündükdə səs verə bilər.

Senat özünün başqa vəzifəli şəxslərini, eləcə də Vitse-prezidentin olmadığı, yaxud onun Birləşmiş Ştatların Prezidenti vəzifəsini icra etdiyi hallarda *pro tempore* (2) Sədrini seçir.

İmpiçment qaydasında mühakimə etməyin müstəsna hüququ Senatdadır. Bu məqsədlə iclas keçirən Senatorlar and içirlər, yaxud təntənəli vəd verirlər. Müttəhim Birləşmiş Ştatların Prezidentidirsə Senata Ali məhkəmənin sədri sədrlik edir. İştirakçı Senatorların üçdə ikisinin razılığı olmadan heç kəs mühakimə edilə bilməz.

İmpiçment hallarında hökm vəzifədən uzaqlaşdırma və Birləşmiş Ştatların fəxri, məsul, yaxud maaşlı vəzifələr tutmaq hüququndan məhrumetmə ilə məhdudlaşdırılır. Ancaq buna baxmayaraq, sonradan təhqiqat aparılır, vəzifədən uzaqlaşdırılana ittiham irəli sürülür, o, məhkəməyə verilir və hökmə uyğun cəzalandırılır.

*4-cü bölmə.* Senatorların və Nümayəndələrin seçilməsi vaxtını, yerini və qaydasını hər ştatdakı Qanunverici yığıncaq müəyyənləşdirir, ancaq Konqres istənilən vaxt, Senatorların seçilməsi yeri haqqında qaydalar çıxılmaqla, bu cür qaydaları müəyyənləşdirən, yaxud dəyişdirən qanun çıxara bilər.

Konqres ildə bir dəfədən gec olmayaraq toplanır, onun məclisləri isə qanunla başqa gün müəyyənləşdirilmədikdə dekabrın ilk bazar ertəsi başlayır.

*5-ci bölmə.* Seçkinin nəticələrinə, öz üzvlərinin səlahiyyətlərinə və seçilməsinin qanunauyğunluğuna dair məsələləri hər Palatanın özü həll edir və Palatalardan hər birində əksəriyyəti işlərin aparılması üçün zəruri olan yetərsay təşkil edir; ancaq Palata az tərkibdə də öz iclasını bir gündən başqasına keçirə bilər və onun iştirak etməyən üzvlərə onların iclaslara gəlməsini təmin etmək məqsədilə hər Palatanın nəzərdə tutduğu təsir vasitələrini tətbiq etmək hüququ var.

Hər Palata öz iclaslarının qaydasını müəyyənləşdirə, bu qaydaları pozan üzvlərini cəzalandıra və səslərin üçdə ikisi ilə onları öz tərkibindən çıxara bilər.

Hər Palata öz iclaslarının jurnalını aparır və onu özünün qətnaməsinə əsasən, məxfi səciyyə daşıyan bölmələr istisna olunmaqla, vaxtaşırı dərc edir; hər Palata üzvlərinin bu və ya başqa məsələyə görə verdikləri *lehinə* və *əleyhinə* səslər haqqında məlumat iştirakçıların beşdə birinin istəyi ilə jurnala salınır.

Konqresin sessiyası vaxtında Palatalardan heç biri başqa Palatanın icazəsi olmadan öz iclaslarını üç gündən artıq təxirə sala və hər iki Palatanın birgə iclas keçirməli olduğu yeri başqa yerə dəyişdirə bilməz.

*6-cı bölmə.* Senatorlar və Nümayəndələr öz xidmətlərinə görə qanunla müəyyənləşdirilən və Birləşmiş Ştatların Xəzinəsinin ödədiyi haqq alırlar. Xəyanət, ağır cinayət və ictimai qaydanı pozma istisna edilməklə, heç bir halda onlar uyğun Palatanın sessiyasında iştirak etdikləri vaxt həbs edilə, eləcə də Palataya aparıla və oradan qaytarıla bilməzlər; Palatalardakı nitqlərinə və danışıqlarına görə heç bir başqa yerdə məsuliyyətə cəlb edilə bilməzlər.

Heç bir Senator, yaxud Nümayəndə seçildiyi müddətdə Birləşmiş Ştatların qulluğunda duracaq istənilən mülki vəzifəyə (bu vəzifə həmin dövrdə yaranıbsa və onunla bağlı məvacib həmin vaxtda artırılıbsa) təyin edilə bilməz və Birləşmiş Ştatların qulluğunda duran hər hansı vəzifəni tutmuş heç bir şəxs bu vəzifədə qaldıqca Palatalardan birinin üzvü ola bilməz.

*7-ci bölmə.* Gəlir daxilolmalarının toplanması haqqında bütün billər Nümayəndələr Palatasından gəlir, ancaq Senat onlara düzəlişlər təklif edə və onların, eləcə də başqa billərin müzakirəsində iştirak edə bilər.

Nümayəndələr Palatası və Senatın qəbul etdiyi hər bill qanuna çevrilməzdən öncə Birləşmiş Ştatların Prezidentinə təqdim edilir; o, billi bəyəndikdə imzalayır, əks halda öz etirazları ilə birgə billi təklif olunduğu Palataya qaytarır, Palata isə Prezidentin etirazlarını bütünlüklə öz jurnalına salır və billə yenidən baxır. Belə yeni baxışda bill Palatada səslərin üçdə ikisi ilə təsdiq olunarsa, Prezidentin etirazları ilə birgə o biri Palataya göndərilir. Burada da ona yenidən baxılır və bu Palatada səslərin üçdə ikisi ilə qəbul edildikdə o, qanuna çevrilir. Göstərilən bütün hallarda hər iki Palata adbaad səsvermə qaydasını tətbiq edir və billin lehinə və əleyhinə səs vermiş şəxslərin adları uyğun Palatanın jurnalına salınır. Bill Prezidentə təqdim edildikdən sonrakı on gündə

(bazar günlərini saymamaqla) qaytarılmazsa, imzalanmış sayılaraq qanuna çevrilir; bill yalnız o halda qanuna çevrilmir ki, Konqresin iclasları təxirə salındığına görə o, buraya qaytarıla bilməyib.

İclasların təxirə salınması haqqında qərarlar istisna olunmaqla, Senatın və Nümayəndələr Palatasının birgə iştirakının zəruri olduğu bütün sərəncamlar, qətnamələr və qərarlar Birləşmiş Ştatların Prezidentinə təqdim edilir və yalnız onun bəyənməsindən sonra qüvvəyə minir; bəyənilmədikdə isə onlar billə aid qaydalara və şərtlərə uyğun olaraq Senat və Nümayəndələr Palatası səslərinin üçdə ikisi ilə yenidən təsdiq edilməlidir.

*8-ci bölmə.* Konqresin bu hüquqları var:

— Birləşmiş Ştatların borclarını ödəməkdən, birgə müdafiəsini və ümumi rifah halını təmin etməkdən ötrü vergilər, rüsumlar, xəraclar və aksiz rüsumları müəyyənləşdirmək və yığmaq; özü də rüsumlar, xəraclar və aksiz rüsumları Birləşmiş Ştatların bütün ərazisində eyni cür olmalıdır;

— Birləşmiş Ştatların adından borc götürmək;

— əcnəbi dövlətlərlə, ayrı-ayrı ştatlar arasında və hindu qəbilələri ilə ticarəti tənzimləmək;

— Birləşmiş Ştatların ərazisində əcnəbilərin vətəndaşlığa götürülməsinin eyni cür qaydalarını və iflas haqqında eyni cür qanunlar yaratmaq;

— pul kəsmək, onun dəyərini və əcnəbi pulun dəyərini tənzimləmək, ölçü və çəki vahidlərini müəyyənləşdirmək;

— Birləşmiş Ştatların dövlət qiymətli kağızlarını və dövriyyədə olan pulunu saxtalaşdırmaq üstündə cəzalar müəyyənləşdirmək;

— poçt xidmətləri və poçt yolları yaratmaq;

— öz əsərlərinə və ixtiralarına müəlliflərin və ixtiraçıların müstəsna hüququnu müəyyən müddət təmin etməklə elmin və faydalı sənətlərin inkişafını şirnikləndirmək;

— Ali Məhkəməyə tabe olan məhkəmə orqanları yaratmaq;

— dəniz quldurluğunu, açıq dənizdə törədilən ağır cinayətləri və beynəlxalq hüququn başqa pozuntularını müəyyənləşdirmək və cəzalandırmaq;

— müharibə elan etmək, kaper(3) şəhadətnamələri və repressaliyə(4) icazə vermək, quruda və dənizdə zəbtetmələrə dair qaydalar müəyyənləşdirmək;

— ordular yığmaq və saxlamaq; ancaq bu məqsədlə heç bir pul təxsisatı iki ildən artığa ayrıla bilməz;

— donanma yaratmaq və saxlamaq;

— quru qoşun və dəniz qüvvələrinin idarə edilməsinə və təşkilinə dair qaydalar tətbiq etmək;

— ittifaqın qanunlarını həyata keçirmək, üsyanları yatırtmaq və hücumları dəf etmək üçün xalq qoşunları yığmaq;

— qeyri-nizami xalq qoşunları zabitlərinin təyinatını və ödənilməsini Konqresin təsdiqlədiyi nizamnamə qaydalarına uyğun olaraq ştatların özündə saxlamaqla qeyri-nizami xalq qoşunlarının təşkilinə, silahlandırılmasına, intizama alışdırılmasına və onun Birləşmiş Ştatların xidmətində yararlanılan hissəsinin idarə edilməsinə dair ölçülər götürmək;

— ştatların hansındasa Konqresin bəyənməsi ilə Birləşmiş Ştatlar hökumətinin yerləşəcəyi bir dairəyə (on kvadrat mildən çox olmayan) verilmiş müstəsna qanunvericilik hakimiyyətindən bütün hallarda yararlanmaq, eləcə də belə hakimiyyətin ştatın Qanunverici yığıncağının razılığı ilə əldə edilmiş və hökumətin yerləşəcəyi bütün ərazilərdə hərbi qalaların, xəzinə anbarlarının, yaraqxanaların, tərsanələrin və başqa gərəkli tikintilərin inşası üçün həyata keçirmək;

— bu Konstitusiyanın Birləşmiş Ştatların hökumətinə, onun departamentlərinə, yaxud vəzifəli şəxslərinə verdiyi həm yuxarıda göstərilən hüquqların, həm də bütün başqa hüquqların həyata keçirilməsi üçün zəruri olan qanunları qəbul etmək.

*9-cu bölmə.* Konqres min səkkiz yüz səkkizinci ilədək indi mövcud ştatlardan hər hansının buraxmağı lazım bildiyi şəxslərin yerdəyişməsini, yaxud daşınmasını yasaqlaya bilməz, ancaq belə daşımaya görə adambaşına 10 dollardan çox olmamaqla rüsum, yaxud vergi tutula bilər.

Qiyam, yaxud basqın vaxtında ictimai təhlükəsizlik bunu tələb etmirsə, *habeas corpus*(5) fəaliyyətini dayandırmağa yol verilmir.

Vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər və hər hansı *ex post facto*(6) qanunlar qəbul edilə bilməz.

Siyahıyaalmaya, yaxud yuxarıda göstərilmiş əhalinin sayılmasına uyğun gəlməyən adambaşına xəracın, yaxud birbaşa verginin tutulmasına heç cür yol verilmir.

Hər hansı ştatdan gətirilən əşyalara görə vergi, yaxud rüsum tutula bilməz.

Hansısa ticarət, yaxud maliyyə müqaviləsi vasitəsilə bir ştatdakı limanlara başqasındakı limanlardan üstünlük verilməməlidir, hər hansı ştata, yaxud ştatdan gedən gəmilər başqa ştatın limanına girməyə, yükünü boşaltmağa və rüsum ödəməyə məcbur edilə bilməz.

Qanunla müəyyənləşdirilmiş təyinatlardan başqa, xəzinədən pul ödənişi heç cür həyata keçirilə bilməz, dövlət gəlirləri və xərcləri haqqında geniş hesabatlar isə vaxtaşırı dərc edilməlidir.

Birləşmiş Ştatlar heç bir zadəgan titulu bağışlamır və Birləşmiş Ştatların xidmətindəki hər hansı maaşlı, yaxud fəxri vəzifəni tutan heç kəs Konqresin razılığı olmadan hər hansı bir kraldan, şahzadədən, yaxud əcnəbi dövlətdən bu və ya başqa hədiyyə, maaş, vəzifə, yaxud titul qəbul edə bilməz.

*10-cu bölmə.* Heç bir ştat müqavilələrə, ittifaqlara, yaxud konfederasiyalara girə bilməz; kaper şəhadətnamələri verə və repressaliyə icazə verə bilməz; pul kəsə bilməz; kredit biletləri buraxa bilməz; qızıl və gümüş puldan savayı nə iləsə borcu ödəməyə yol verə bilməz; vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər, *ex post facto* qanunlar, yaxud müqavilələr üzrə öhdəlikləri pozan qanunlar qəbul edə bilməz; eləcə də zadəgan titulları verə bilməz.

Heç bir ştat Konqresin razılığı olmadan malların idxalına və ixracına rüsumlar və yığımlar tətbiq edə bilməz (yalnız ştatın müfəttişlik haqqında qanunlarının həyata keçirilməsinin zəruri olduğu hallar istisnadır), özü də ştatın idxal və ixracdan götürdüyü bütün yığım və rüsumlardan olan təmiz gəlir Birləşmiş Ştatların Xəzinəsinə daxil olur, bütün bu cür qanunlara isə yenidən baxılmalı və onlara Konqres nəzarət etməlidir.

Heç bir ştat Konqresin razılığı olmadan hər hansı tonnaj rüsumu müəyyənləşdirə, sülh vaxtı qoşunlar və hərbi gəmilər saxlaya, başqa ştatla, yaxud əcnəbi dövlətlə sazişə girə, yaxud müqavilə imzalaya bilməz, eləcə də əgər hücuma məruz qalmayıbsa, yaxud ləngimənin yolverilməz olduğu birbaşa təhlükəyə düşməyibsə, müharibəyə başlaya bilməz.

## II MADDƏ
## (İcra hakimiyyəti)

*1-ci bölmə.* İcra hakimiyyətini Amerika Birləşmiş Ştatlarının Prezidenti həyata keçirir. O öz vəzifəsində dörd illik müddətdə qalır və onun, eləcə də eyni müddətə seçilən Vitse-prezidentin seçkiləri bu cür keçirilir:

Hər ştat özünün Qanunverici yığıncağının müəyyənləşdirdiyi qaydada, ştatın Konqresə göndərmək hüququ olan Senatorların və Nümayəndələrin sayı qədər seçimçilər təyin edir; ancaq Senatorlar, Nümayəndələr və Birləşmiş Ştatların xidmətindəki fəxri, yaxud maaşlı vəzifələri tutan şəxslər seçimçi təyin edilə bilməzlər.

Seçimçilər öz ştatlarında toplaşır və gizli səsvermə ilə heç olmasa biri bu ştatın sakini olmayan iki şəxsi seçirlər. Sonra onlar səs yığmış bütün şəxslərin siyahısını tərtib edir, burada onların hər birinə verilmiş səslərin sayını göstərirlər. Siyahını seçimçilər imzalayır və təsdiqləyir, sonra o, möhürlənmiş halda Birləşmiş Ştatlar Hökumətinin olduğu yerə Senatın Sədrinin adına göndərilir. Senatın Sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Ən çox sayda (bu say bütün seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur. Səslərin əksəriyyətini bir neçə adam topladıqda və onlara eyni sayda səs verildikdə Nümayəndələr Palatası birbaşa gizli səsvermə ilə onlardan birini Prezident seçir; əgər heç bir şəxs səslərin əksəriyyətini toplamazsa, Nümayəndələr Palatası daha çox səs yığmış beş şəxsin içərisindən yenə həmin qayda ilə Prezidenti seçir. Bu halda Prezident seçilərkən səslər ştatlar üzrə verilir və hər ştatın nümayəndəliyinin bir səsi olur; bu məqsədlər üçün seçilmənin yetərsayı ştatların üçdə ikisinə bərabərdir, seçilmək üçünsə bütün ştatların əksəriyyəti zəruridir. Prezidentin seçilməsindən sonra ən

çox səs toplamış şəxs bütün hallarda Vitse-prezident sayılır. Bir neçə şəxs bərabər sayda səs topladıqda Senat onlardan birini gizli səsvermə yolu ilə Vitse-prezident seçir.

Konqres seçimçilərin seçilmə vaxtını və onların öz səslərini verdikləri günü təyin edə bilər; həmin gün Birləşmiş Ştatların bütün ərazisində eyni olmalıdır.

Doğulduğu zaman Birləşmiş Ştatların vətəndaşı olmayan, yaxud bu Konstitusiyanın təsdiq edildiyi vaxt Birləşmiş Ştatların vətəndaşı olmayan şəxs Prezident vəzifəsinə seçilə bilməz; bu vəzifəyə eləcə də otuz beş yaşına çatmamış və Birləşmiş Ştatlarda on dörd il daimi sakin olmamış şəxs seçilə bilməz.

Prezident vəzifəsindən kənarlaşdırıldıqda, yaxud öldükdə, istefa verdikdə, ya da vəzifəsi ilə bağlı hüquq və borclarını yerinə yetirməyə qabil olmadıqda həmin hüquq və borclar Vitse-prezidentə keçir; Prezident və Vitse-prezident kənarlaşdırıldıqları, öldükləri, istefa verdikləri, yaxud qabiliyyəti itirdikləri təqdirdə Konqres hansı vəzifəli şəxsin Prezident kimi fəaliyyət göstərməli olduğunu qanunla müəyyənləşdirə bilər və o, Prezidentə öz borclarını həyata keçirməyə mane olan səbəblər aradan götürülənədək, yaxud yeni Prezident seçilənədək onu əvəz edəcək.

Prezident öz xidmətinə görə, müəyyən edilmiş vaxtlarda haqq alır və bu haqq onun seçildiyi müddətdə artırıla, yaxud azaldıla bilməz; bu müddətdə o, Birləşmiş Ştatlardan, yaxud hər hansı ştatdan pul şəklində heç bir haqq ala bilməz.

Vəzifəsinə başlamazdan öncə Prezident bu cür and içir, yaxud təntənəli vəd verir: *"Mən təntənəli şəkildə and içirəm (söz verirəm) ki, Birləşmiş Ştatların Prezidenti vəzifəsini şərəflə yerinə yetirəcək və Birləşmiş Ştatlar Konstitusiyasını var gücümlə qoruyacaq, müdafiə edəcək və dəstəkləyəcəyəm".*

*2-ci bölmə.* Prezident Birləşmiş Ştatlar ordusu və donanmasının, Birləşmiş Ştatların həqiqi xidmətinə çağırılmış ayrı-ayrı ştatların xalq qoşunlarının ali baş komandanıdır; o, hər bir icra departamentinin başçısından onun səlahiyyətinə aid istənilən məsələ haqqında yazılı fikir bildirməyi tələb edə bilər; onun hökmlərin yerinə yetirilməsini təxirə salmaq, impiçment qaydasında ittiham halları istisna olunmaqla, Birləşmiş Ştatlara qarşı törədilmiş cinayətləri bağışlamaq hüququ var.

Onun Senatın məsləhəti və razılığı ilə beynəlxalq müqavilələr bağlamaq (onları iştirak edən Senatorların üçdə ikisi bəyənməlidir), Senatın məsləhəti və razılığı ilə səfirləri, başqa səlahiyyətli Nümayəndələri və konsulları, Ali Məhkəmənin hakimlərini, eləcə də Birləşmiş Ştatların, təyinatları haqqında bu Konstitusiyada başqa göstəriş olmayan və vəzifələri qanunla müəyyənləşdirən bütün vəzifəli şəxslərini təyin etmək hüququ vardır, ancaq Konqres lazım bildiyi aşağı vəzifəli şəxslərin təyin edilməsini qanunla şəxsən Prezidentin özünə, hakimlərə, yaxud departamentlərin başçılarına həvalə edə bilər.

Prezidentin Senatın sessiyaları arasındakı dövrdə yaranan bütün boş yerlərə Senatın ən yaxın sessiyası qurtaran müddətədək vəzifə səlahiyyətləri verməklə adam təyin etmək hüququ vardır.

*3-cü bölmə.* Prezident vaxtaşırı Konqresə ittifaqın vəziyyəti haqqında hesabat verir və baxılmaq üçün ona özünün zəruri və faydalı saydığı tədbirləri təqdim edir; təcili lazım olduqda o, hər iki Palatanın, yaxud onlardan birini çağırır, sessiyaların təxirə salınması vaxtı haqqında Palatalar arasında fikir ayrılığı yarandıqda onları özünün münasib bildiyi vaxta keçirir; səfirləri və başqa səlahiyyətli Nümayəndələri qəbul edir, qanunlara dəqiq riayət edilməsini təmin edir və Birləşmiş Ştatların vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir.

*4-cü bölmə.* Prezident, Vitse-prezident və Birləşmiş Ştatların bütün mülki vəzifəli şəxsləri impiçment qaydasında ittiham edilərkən xəyanətdə, rüşvətxorluqda, başqa ağır cinayətlərdə və əməllərdə təqsirli bilinərlərsə vəzifədən kənarlaşdırılırlar.

## III MADDƏ
## (Məhkəmə hakimiyyəti)

*1-ci bölmə.* Birləşmiş Ştatların məhkəmə hakimiyyəti Ali Məhkəmə ilə və Konqresin zaman-zaman təsis etdiyi aşağı məhkəmələrlə həyata keçirilir. Həm Ali Məhkəmənin, həm də aşağı məhkəmələrin hakimləri qüsursuz işlədikcə öz vəzifələrində qalırlar; onlar öz xidmətlərinə görə müəyyən edilmiş vaxtlarda haqq alırlar və vəzifədə qaldıqları müddətdə bu haqq azaldıla bilməz.

*2-ci bölmə.* Məhkəmə hakimiyyəti *qanunla və ədalətlə* həll edilən, bu Konstitusiyanın, Birləşmiş Ştatların qanunlarının və Birləşmiş Ştatların bağladığı beynəlxalq sazişlərin əsasında meydana çıxan bütün işlərə; səfirlərə, başqa səlahiyyətli Nümayəndələrə və konsullara aid bütün işlərə; admirallığın bütün işlərinə və başqa dəniz işlərinə; Birləşmiş Ştatların tərəf sayıldığı bütün mübahisələrə; iki və daha artıq ştat arasındakı, müxtəlif ştatların vətəndaşları arasındakı, müxtəlif ştatlardan bəxşiş şəklində alınmış torpaqlara aid iddia üzrə bir ştatın

vətəndaşları arasındakı, eləcə də ştatla, yaxud onun vətəndaşları ilə əcnəbi dövlətlər, vətəndaşlar, yaxud təbəələr arasındakı bütün mübahisələrə şamil edilir.

Səfirlərə, başqa səlahiyyətli Nümayəndələrə və konsullara aid bütün işlərə, eləcə də tərəflərdən birinin ştat olduğu işlərə ilk instansiya kimi Ali Məhkəmədə baxılmalıdır. Öncə xatırladılan bütün başqa hallarda Ali Məhkəmə apellyasiya instansiyasıdır və o, Konqresin müəyyənləşdirəcəyi məhdudlaşdırmalara və qaydalara uyğun şəkildə həm hüquq, həm də fakt məsələsini həll edir.

İmpiçment qaydasında baxılanlardan başqa, cinayətlər haqqında bütün işlərə andlılar məhkəməsində baxılır; məhkəmə araşdırması cinayətin törədildiyi ştatda aparılır; cinayət ştatın hüdudlarından qıraqda baş veribsə, məhkəmə Konqresin çıxardığı qanunla nəzərdə tutulan yerdə, yaxud yerlərdə keçirilir.

*3-cü bölmə.* "Birləşmiş Ştatlara xəyanət" dedikdə, yalnız ona qarşı müharibə aparmaq, onun düşmənlərinə qoşulmaq, onlara yardım və xidmət göstərmək başa düşülür. Heç kim dartışılan hadisənin iki şahidinin ifadəsi ilə, yaxud müttəhimin özünün boynuna alması ilə açıq məhkəmə iclasında təqsiri təsdiqlənmədən xəyanətdə günahkar sayıla bilməz.

Konqresin xəyanətə görə cəza kəsmək hüququ var, ancaq xəyanətə görə ittiham əsasında hüquqlardan məhrumetmə, yaxud əmlakı müsadirə etmə yalnız müttəhimin sağlığında mümkündür.

## IV MADDƏ
## (Ştatlar və hökumət)

*1-ci bölmə.* Hər ştatda bütün başqa ştatların açıq aktlarına, rəsmi sənədlərinə və məhkəmə qərarlarına hörmət və tam inam bəslənilməlidir. Konqres belə aktların, sənədlərin və məhkəmə qərarlarının əslinə uyğunluğunun, eləcə də qüvvədə olduğunun təsdiqlənməsi üsullarını ümumi qanunlarla nizamlaya bilər.

*2-ci bölmə.* Hər ştatın vətəndaşlarının başqa ştatların vətəndaşlarının bütün imtiyazlarına və şəxsi toxunulmazlığına malik olmaq hüququ var.

Bir ştatda xəyanət, hər hansı ağır cinayət üstündə təqsirləndirilərək ədalət məhkəməsindən gizlənən və başqa ştatda tapılan şəxs qaçdığı ştatın icra hakimiyyətinin tələbi ilə bu cinayətin onun yurisdiksiyasında olduğu ştata təhvil verilməlidir.

Ştatların hansındasa onun qanunlarına uyğun olaraq xidmət etməyə, yaxud işləməyə borclu olan və başqa ştata qaçan heç bir şəxs sonuncu ştatın qanunları, yaxud sərəncamları əsasında həmin xidmətdən, yaxud işdən azad edilə bilməz və o, bu xidmətə, yaxud işə hüququ çatan tərəfin tələbi ilə təhvil verilməlidir.

*3-cü bölmə.* Konqres ittifaqa yeni ştatlar qəbul edə bilər, ancaq bir ştatın yurisdiksiyası daxilində yeni ştatlar yarada, yaxud təsis edə bilməz; eləcə də maraqlı ştatların Qanunverici yığıncaqlarının və Konqresin razılığı olmadan iki və daha artıq ştatın, yaxud onların hissələrinin birləşdirilməsi yolu ilə yeni ştatlar yaratmaq olmaz.

Konqresin Birləşmiş Ştatlara məxsus ərazi və başqa əmlak üzərində sərəncam vermək hüququ var və o bununla bağlı bütün gərəkli qaydaları və qərarları qəbul edə bilər, ancaq bu Konstitusiyada heç bir şey Birləşmiş Ştatların, yaxud hər hansı ştatın qanuni iddialarının ziyanına şərh edilə bilməz.

*4-cü bölmə.* Birləşmiş Ştatlar bu ittifaqdakı hər bir ştata respublika idarə formasına və onlardan hər birinin xarici hücumlardan, Qanunverici yığıncağın, yaxud icra hakimiyyətinin (Qanunverici yığıncaq çağırıla bilmədikdə) xahişinə görə isə daxili zorakılıqdan da qorunacağına zəmanət verir.

## V MADDƏ
## (Konstitusiya düzəlişləri haqqında)

Hər iki Palatanın üçdə ikisi zəruri sayanda Konqres bu Konstitusiyaya düzəlişlər edir, yaxud ştatların üçdə ikisinin Qanunverici yığıncaqlarının tələbi ilə düzəlişlər etmək üçün Konvent çağırılır; hər iki halda düzəlişlər Konstitusiyanın hissəsi kimi məcburedici qüvvə və əhəmiyyət qazanır, bu şərtlə ki, düzəlişləri ştatların dörddə üçünün Qanunverici yığıncaqları, yaxud ştatların dörddə üçünün Konventləri təsdiq etsin (ratifikasiyanın bu iki üsulundan birini Konqres təklif edir). Ancaq min səkkiz yüz səkkizinci ilədək qəbul edilmiş heç bir düzəliş birinci maddənin doqquzuncu bölməsinin birinci və dördüncü paraqraflarına qətiyyən aid edilə bilməz və heç bir ştatın özünün razılığı olmadan Senatda başqaları ilə bərabər səsdən məhrum edilə bilməz.

VI MADDƏ
(Müxtəlif hökmlər)

Bu Konstitusiyanın qəbulunadək mövcud olmuş bütün borclar və öhdəliklər Birləşmiş Ştatlar üçün Konfederasiya vaxtında olduğu hüquqi qüvvəsini saxlayır.

Bu Konstitusiya və onun icrasından ötrü qəbul edilmiş Birləşmiş Ştatlar qanunları, eləcə də Birləşmiş Ştatların bağladığı və bağlayacağı bütün müqavilələr Ölkənin Ali Qanunları sayılır və hər ştatın hakimləri onları icra etməyə borcludur, baxmayaraq ki, Konstitusiyada və ayrı-ayrı ştatların qanunlarında bir-birinə zidd hökmlərə rast gəlinir.

Yuxarıda xatırladılmış Senatorlar və Nümayəndələr, həmçinin ayrı-ayrı ştatların Qanunverici yığıncaqları, eləcə də Birləşmiş Ştatların və ayrı-ayrı ştatların icra və məhkəmə hakimiyyətlərinin bütün vəzifəli şəxsləri bu Konstitusiyaya əməl edəcəklərinə and içməyə, yaxud vəd verməyə borcludurlar. Bu halda Birləşmiş Ştatlarda hansı vəzifəni tutmaq, yaxud hansısa ictimai borcu yerinə yetirmək üçün hansısa dinə mənsubluq heç vaxt şərt kimi irəli sürülməyəcək.

VII MADDƏ
(Konstitusiyanın təsdiqlənməsi)

Doqquz ştatın Konventinin ratifikasiyası bu Konstitusiyanı göstərilən qaydada təsdiq etmiş həmin ştatların qəbul etməsi üçün yetərlidir.

*Konventdə iştirakçı ştatların ümumi bəyanməsi ilə*
*İsanın mövludunun min yeddi yüz səksən yeddinci ilinin on yeddi sentyabrında və Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin on ikinci ilində təsdiqləndi; buna sübut olaraq biz aşağıda imzalarımızı qoyduq:*

C. Vaşinqton — Prezident və Virciniyadan Nümayəndə

Nyu-Hempşir — Con Lənqdon, Nikolas Gilmen
Massaçusets — Nataniel Torhem, Rufus Kinq
Konnektikut — Uilyam Samuel Conson, Rocer Şerman
Nyu-York — Aleksandr Hamilton, Uilyam Livinqson
Nyu-Cersi — David Brerli, Uilyam Peterson, Conatan Deyton
Pensilvaniya — Bencamin Franklin, Tomas Mifflin, Robert Morris, Corc Klaymer, Tomas Fizsimons, Carel İngersol, Ceymus Uilson, Qov Morris
Delaver — Corc Rid, Qanninq Bedford (kiçik), Con Dikinson, Riçard Basset, Ceykob Brum
Merilend — Ceyms Makhenri, Deniel of sent-Tomas Cenifer, Daniel Kerrol
Virciniya — Con Bler, Ceyms Medison (kiçik)
Şim. Karolina — Uilyam Blaunt, Dobbs Speyt Uilyamson
Cənubi Karolina — C.Rutlec, Çarlz Kautsuori Pinkni, Çarlz Pinkni, Pirs Batler
Corciya — Uilyam Fyu, Avraam Bolduin

17 sentyabr 1787-ci il

* * *

***Amerika Birləşmiş Ştatları Konstitusiyasına***
***Konstitusiyanın beşinci maddəsinə uyğun olaraq Konqresin təklif və ayrı-ayrı ştatların Qanunverici yığıncaqlarının ratifikasiya etdiyi əlavə düzəliş maddələr* (7).**

## I DÜZƏLİŞ (1791)

Konqres din müəyyənləşdirməyə, yaxud sərbəst dini ibadəti yasaqlamağa dair, ya da söz və mətbuat azadlığını, xalqın dinc toplaşmaq, şikayətlərinin yerinə yetirilməsi üçün hökumətə ərizələrlə müraciət etmək hüququnu məhdudlaşdıran heç bir qanun verməməlidir.

## II DÜZƏLİŞ (1791)

Yaxşı təşkil edilmiş qeyri-nizami xalq qoşunu azad dövlətin təhlükəsizliyi üçün zəruri olduğundan xalqın silah saxlamaq və gəzdirmək hüququ pozulmamalıdır.

## III DÜZƏLİŞ (1791)

Heç bir əsgər istər sülh, istərsə də müharibə dövründə yiyəsinin razılığı olmadan evdə yerləşdirilə bilməz; ancaq müharibə zamanı buna yalnız qanunla nəzərdə tutulan qaydada yol verilir.

## IV DÜZƏLİŞ (1791)

İnsanların şəxsiyyətinin, yaşayış yerinin, kağızların və əmlakın əsaslandırılmamış axtarış və həbslərdən qorunmaq hüququ pozulmamalıdır. Andla, yaxud təntənəli vədlə təsdiqlənmiş yetərincə əsas olmadan heç bir order verilməməlidir; bu halda orderdə axtarılmalı yerin və həbs edilməli şəxslərin, yaxud əşyaların ətraflı təsviri göstərilməlidir.

## V DÜZƏLİŞ (1791)

Quru qoşun, yaxud hərbi dəniz qüvvələrində, ya da qeyri-nizami xalq qoşununda (o, müharibə zamanı, yaxud vəziyyətin cəmiyyət üçün qorxulu olduğu dövrdə həqiqi xidmətə çağırıldıqda) qaldırılmış işlərdən savayı, heç kim Böyük Münsiflərin(8) təqdimatı, yaxud ittiham qərarı olmadan ölümlə cəzalandırılan, yaxud başqa cür rüsvay edilən cinayət üstündə məsuliyyətə cəlb edilməməlidir; heç kim eyni cinayətə görə həyatdan məhrumetmə, yaxud bədən toxunulmazlığının pozulması təhlükəsinə iki dəfə məruz qala bilməz; heç kim cinayət işində özünə qarşı şahidlik etməyə məcbur edilməməlidir; heç kim lazımi hüquqi prosedur olmadan həyatdan, azadlıqdan, yaxud mülkiyyətdən məhrum edilə bilməz; özəl mülkiyyət əvəzi ədalətlə ödənilmədən ictimai istifadəyə götürülməməlidir.

## VI DÜZƏLİŞ (1791)

Hər bir cinayət təqibində müttəhimin cinayətin törədildiyi ştatın və öncədən qanunla müəyyənləşdirilmiş dairənin qərəzsiz andlılarının gecikdirilməyən və açıq məhkəməsinin keçirilməsi hüququ var; müttəhimin ittihamın mahiyyəti və əsasları haqqında məlumat almaq hüququ var, onun əleyhinə ifadə verən şahidlərlə üzləşmək, öz tərəfindən şahidləri məcburi çağırmaq və özünü qorumaq üçün vəkilin köməyindən yararlanmaq hüququ var.

## VII DÜZƏLİŞ (1791)

Ümumi hüquqa əsaslanan, iddianın dartışılan dəyəri iyirmi dollardan artıq olan bütün mülki işlərin Andlılar Məhkəməsinə verilmək hüququ saxlanılır, ancaq andlıların baxmalı olduğu hər hansı fakta Birləşmiş Ştatların heç bir məhkəməsində ümumi hüquq normalarına uyğun olmadan yenidən baxıla bilməz.

## VIII DÜZƏLİŞ (1791)

Həddindən çox girovlar tələb edilməməli, həddindən çox cərimələr qoyulmamalı, amansız və qeyri-adi cəzalar təyin edilməməlidir.

IX DÜZƏLİŞ (1791)

Konstitusiyada müəyyən hüquqların sadalanması xalqın malik olduğu başqa hüquqların alınması, yaxud azaldılması kimi yozulmamalıdır.

X DÜZƏLİŞ (1791)

Bu Konstitusiya ilə Birləşmiş Ştatlara verilməli və Konstitusiyanın ayrıca ştatların istifadə etməsini yasaqlamadığı səlahiyyətlər uyğun olaraq ya ştatlarda, ya da insanlarda qalır.

XI DÜZƏLİŞ (1795)

Birləşmiş Ştatların məhkəmə hakimiyyəti hüquqa, yaxud ədalətə əsaslanan və ştatlardan birinə qarşı başqa ştat vətəndaşlarının, yaxud hər hansı əcnəbi dövlətin vətəndaşlarının, yaxud təbəələrinin qaldırdığı, yaxud aparılan hər hansı iddia icraatına şamil edilməsi kimi yozulmamalıdır.

XII DÜZƏLİŞ (1804)

Seçimçilər öz ştatlarında toplaşırlar və ən azı birinin onlarla eyni ştatın sakini olmayan Prezidentə və Vitse-prezidentə bülletenlərlə səs verirlər; onlar öz bülletenlərində Prezident kimi səs verdikləri şəxsi və ayrıca bülletenlərdə isə Vitse-prezident kimi səs verdikləri şəxsi göstərirlər; elə onlar Prezident kimi səs verdikləri bütün şəxslərin və Vitse-prezident kimi səs verdikləri bütün şəxslərin ayrıca siyahılarını onlardan hər birinə verilmiş səslərin sayını göstərməklə tərtib edirlər; bu siyahıları onlar imzalayır, təsdiqləyir və möhürlənmiş halda Birləşmiş Ştatların hökumətinin olduğu yerə Senat Sədrinin adına göndərirlər. Senatın Sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur; heç kəs səslərin belə əksəriyyətini toplaya bilməzsə, daha çox səs toplamış şəxslərdən (prezidentliyinə səs verilmişlərin içərisindən üç nəfərdən artıq olmamaqla) Nümayəndələr Palatası gecikdirmədən, bülletenlərlə səs verərək Prezident seçir. Ancaq Prezident seçkisində səslər ştatlar üzrə verilir, özü də hər ştatın nümayəndəliyinin bir səsi olur; belə halda yetərsayı Nümayəndələr Palatasının ştatların üçdə ikisindən olan üzvləri təşkil edir; bu vaxt Prezidentin seçilməsi üçün bütün ştatların səslərinin əksəriyyəti zəruridir (Nümayəndələr Palatası seçmə hüququ ona keçərkən növbəti martın dördüncü gününədək Prezidenti seçməzsə, onda Vitse-prezident Prezidentin öldüyü, yaxud başqa Konstitusiya iqtidarsızlığı halında olduğu kimi Prezident sifətində hərəkət edəcək)(9). Vitse-prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Vitse-prezident olur; heç kəs səslərin əksəriyyətini toplaya bilməzsə Senat siyahıdakı bütün namizədlərin içərisində ən çox səs toplamış iki şəxsdən birini Vitse-prezident seçir; bu zaman Vitse-prezidentin seçilməsi üçün bütün Senatorların səslərinin əksəriyyəti zəruridir. Ancaq Konstitusiya tələblərinin gücü ilə Prezident vəzifəsinə seçilə bilməyəcək heç kəs Birləşmiş Ştatların Vitse-prezidenti vəzifəsinə seçilə bilməz.

XIII DÜZƏLİŞ (1865)

*1-ci bölmə.* Birləşmiş Ştatlarda, yaxud onun yurisdiksiyasına tabe olan hər hansı bir yerdə nə quldarlıq, nə də asılı xidmət (lazımi şəkildə ittiham edilmiş cinayətə görə verilən cəza hallarından başqa) mövcud ola bilər.

*2-ci bölmə.* Konqresin bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirmək hüququ var.

XIV DÜZƏLİŞ (1868)

*1-ci bölmə.* Birləşmiş Ştatlarda doğulmuş, yaxud burada vətəndaşlıq alaraq onun yurisdiksiyasına tabe olmuş bütün şəxslər Birləşmiş Ştatların və yaşadıqları ştatın vətəndaşlarıdır. Heç bir ştat Birləşmiş Ştatlar vətəndaşlarının imtiyaz və güzəştlərini məhdudlaşdıran qanunlar çıxarmamalı, yaxud tətbiq etməməlidir; eləcə də heç bir ştat hər hansı bir şəxsi lazımi hüquqi prosedur olmadan həyatdan, azadlıqdan və əmlakdan məhrum edə

bilməz, yaxud öz yurisdiksiyası çərçivəsində hər hansı bir şəxsi qanunlarla bərabər səviyyədə qorumaqdan imtina edə bilməz.

*2-ci bölmə.* Nümayəndələr ayrı-ayrı ştatlar arasında onların əhalisinin sayına uyğun bölünür, bu say, vergi ödəməyən hindular çıxılmaqla, ştatın bütün sakinlərinin hesablanması yolu ilə müəyyənləşdirilir. Ancaq Birləşmiş Ştatlar Prezidentinin və Vitse-prezidentinin seçimçilərinin seçkilərində, Konqresə Nümayəndələrin, ştatın icra və məhkəmə üzrə vəzifəli şəxslərinin, yaxud ştatın Qanunverici yığıncağı üzvlərinin seçkilərində kişi cinsindən olan, iyirmi bir(10) yaşa çatmış və Birləşmiş Ştatların vətəndaşı olan hər hansı bir sakinə səsvermə hüququndan imtina edilərsə, ya da bu hüquq hər hansı şəkildə məhdudlaşdırılarsa (məhdudlaşdırma üsyanda iştiraka, yaxud başqa cinayətə görə deyilsə), bu ştatdan olan nümayəndəlik norması elə nisbətdə azaldılmalıdır ki, kişi cinsindən olan belə vətəndaşların sayı həmin ştatın iyirmi bir yaşa çatmış kişi vətəndaşlarının ümumi sayına uyğun gəlsin.

*3-cü bölmə.* Qabaqlar Konqres üzvü, yaxud Birləşmiş Ştatların vəzifəli şəxsi, yaxud hər hansı ştatın Qanunverici yığıncağının üzvü, ya da hər hansı ştatın icra, yaxud məhkəmə üzrə vəzifəli şəxsi kimi Birləşmiş Ştatların Konstitusiyasını dəstəkləyəcəyinə and içmiş, sonradan Birləşmiş Ştatlara qarşı qiyamda, yaxud üsyanda iştirak etmiş, ya da onun düşmənlərinə yardım göstərmiş, yaxud dəstək vermiş heç bir şəxs Senator, yaxud Konqresdə Nümayəndə, yaxud Prezidentin və Vitse-prezidentin seçimçisi ola bilməz, ya da Birləşmiş Ştatların, yaxud hər hansı ştatın xidmətində hər hansı mülki, yaxud hərbi vəzifəni tuta bilməz. Ancaq Konqres hər Palatadakı səslərin üçdə ikisi ilə bu məhdudlaşdırmanı aradan götürə bilər.

*4-cü bölmə.* Birləşmiş Ştatların qanunla icazə verilmiş dövlət borcunun (qiyamın, yaxud üsyanın yatırılmasında xidmətlərə görə təqaüdlərin və mükafatların ödənilməsi üçün edilmiş borclar da daxil olmaqla) qanuniliyinə şübhə edilmir. Ancaq istər Birləşmiş Ştatlar, istərsə də hər hansı ştat Birləşmiş Ştatlara qarşı qiyama, yaxud üsyana kömək göstərməklə bağlı öz üzərinə heç bir öhdəlik, yaxud borcların ödənilməsini götürməməli, ya da hansısa qulun itməsi, yaxud azad edilməsi ilə bağlı hər hansı tələbi tanımamalıdır; bütün belə borclar, öhdəliklər və tələblər qanunsuz və etibarsız sayılmalıdır.

*5-ci bölmə.* Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

## XV DÜZƏLİŞ (187O)

*1-ci bölmə.* Birləşmiş Ştatlar vətəndaşlarının səsvermə hüququ danılmamalı, yaxud istər Birləşmiş Ştatlar, istərsə də hər hansı ştat tərəfindən irqi əlamətə, dərinin rənginə, ya da keçmişdə asılı xidmətdə olması ilə bağlı məhdudlaşdırılmamalıdır.

*2-ci bölmə.* Konqresin bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirmək hüququ var.

## XVI DÜZƏLİŞ (1913)

Konqresin istənilən qaynaqdan alınan gəlirlərdən vergilər (onları ştatlar arasında bölüşdürmədən və əhalinin siyahıya alınmasını, yaxud sayılmasını nəzərə almadan) müəyyənləşdirmək və yığmaq hüququ var.

## XVII DÜZƏLİŞ (1913)

Birləşmiş Ştatlar Senatının tərkibinə hər ştatdan onun əhalisinin altı illiyə seçdiyi iki Senator daxildir; hər Senatorun bir səsi var. Hər ştatda seçicilər ştatın Qanunverici yığıncağının daha çoxsaylı Palatasının seçicilərinə irəli sürülən tələblərə cavab verməlidir.

Hər hansı ştatın Senatdakı nümayəndəliyində boş yer yaranarsa, həmin ştatın icra hakimiyyəti belə boş yerin doldurulması üçün seçki keçirilməsi haqqında əmr verir; bu vaxt ştatın Qanunverici yığıncağı həmin ştatın icra hakimiyyətinə əhali boş yeri Qanunverici yığıncağın müəyyənləşdirdiyi qaydada keçirilmiş seçkilər yolu ilə dolduruncayadək müvəqqəti təyinatlar aparmaq səlahiyyəti verə bilər.

Bu düzəliş belə yozulmamalıdır ki, onun təsiri o, hələ Konstitusiyanın hissəsi kimi qüvvəyə minməmişdən seçilmiş Senatorun seçilməsinə, yaxud səlahiyyət müddətinə şamil edilmişdir.

## XVIII DÜZƏLİŞ (1919)

[*1-ci bölmə.* Bu maddənin ratifikasiyasından bir il sonra Birləşmiş Ştatların yurisdiksiyasına tabe olan bütün müəssisələrdə məstedici içkilərin istehlak məqsədilə istehsalı, satışı və daşınması yasaqlanacaq; eləcə də Birləşmiş Ştatlara və onun ərazilərinə göstərilən məqsədlə məstedici içkilərin gətirilməsi də, aparılması da yasaqlanacaq.

*2-ci bölmə.* Konqresin və ayrı-ayrı ştatların bu maddəni uyğun qanunların qəbulu yolu ilə ortaq yerinə yetirmək hüquqları var.

*3-cü bölmə.* Bu maddə Konqresin onu bəyənməsi üçün təqdim etdiyi gündən keçən yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş şəklində ratifikasiya edilməzsə, qüvvəyə minmir(11)].

## XIX DÜZƏLİŞ (1920)

Birləşmiş Ştatlar vətəndaşlarının səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat cins əlamətinə görə danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

## XX DÜZƏLİŞ (1933)

*1-ci bölmə.* Prezidentin və Vitse-prezidentin səlahiyyət müddətləri yanvarın 20-də günorta, Senatorların və Nümayəndələrin səlahiyyət müddətləri isə yanvarın 3-də günorta o illərdə qurtarır ki, bu maddə ratifikasiya edilməmiş olsaydı, həmin müddətlər başa çatardı; elə bu vaxtdan da onların varislərinin səlahiyyət müddətləri başlanır.

*2-ci bölmə.* Konqres ildə ən azı bir dəfə toplaşır və bu sessiya, Konqres qanunla başqa vaxt müəyyənləşdirməzsə, yanvarın 3-də günorta başlanır.

*3-cü bölmə.* Seçilmiş Prezident Prezidentin səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək ölərsə, seçilmiş Vitse-prezident Prezident olur. Əgər Prezident onun səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək seçilməsə, yaxud seçilmiş Prezident bu vəzifəyə namizədlərə irəli sürülmüş tələblərə cavab vermirsə, onda seçilmiş Vitse-prezident Prezident bu tələblərə cavab verincəyədək Prezident kimi fəaliyyət göstərir, seçilmiş Prezident də, seçilmiş Vitse-prezident də onların vəzifələrinə namizədlərə irəli sürülmüş tələblərə cavab vermədikdə Konqres kimin Prezident kimi fəaliyyət göstərəcəyinin qeyd olunduğunu, yaxud Prezident kimi fəaliyyət göstərməli olacaq şəxsin seçilməsi qaydasının müəyyənləşdirildiyi qanun qəbul edir; həmin şəxs Prezident və Vitse-prezident onların vəzifələrinə namizədlərə irəli sürülmüş tələblərə cavab verincəyədək uyğun vəzifəni yerinə yetirir.

*4-cü bölmə.* Konqres Nümayəndələr Palatasının seçki hüququ ona keçdiyi zaman Prezident seçə biləcəyi şəxslərdən birinin ölüm halı üçün və Senatın seçki hüququ ona keçdiyi zaman Vitse-prezident seçə biləcəyi şəxslərdən birinin ölüm halı üçün qanunda öncədən tədbirlər nəzərdə tuta bilər.

*5-ci bölmə.* 1-ci və 2-ci bölmələr bu maddənin ratifikasiyasından sonrakı ilk oktyabrın 15-ci günündə qüvvəyə minir.

*6-cı bölmə.* Bu maddə təqdim edildiyi gündən sonrakı yeddi il ərzində ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməyincə qüvvəyə minmir.

## XXI DÜZƏLİŞ (1933)

*1-ci bölmə.* Birləşmiş Ştatlar Konstitusiyasına düzəlişlərin on səkkizinci maddəsi bu bölmə ilə ləğv edilir.

*2-ci bölmə.* Hər hansı ştata, Birləşmiş Ştatların hər hansı ərazisinə, yaxud yiyələndiyi torpağa orada qüvvədə olan qanunları pozmaqla oraya çatdırmaq, yaxud orada istifadə etmək üçün məstedici içkilərin daşınması və idxalı bu bölmə ilə yasaqlanır.

*3-cü bölmə.* Bu maddə Konqresin onu ştatların bəyənməsi üçün təqdim etdiyi gündən sonrakı yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların Konventləri tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməyəndə qüvvəyə minmir.

## XXII DÜZƏLİŞ (1951)

*1-ci bölmə.* Heç bir şəxs Prezident vəzifəsinə iki dəfədən artıq seçilə bilməz və Prezident vəzifəsini tutmuş, yaxud Prezident seçilmiş başqa şəxsin müddətində iki ildən artıq Prezident kimi fəaliyyət göstərmiş heç bir şəxs Prezident vəzifəsinə bir dəfədən artıq seçilmir. Ancaq bu maddənin qüvvəsi Konqres bu maddəni təklif edərkən Prezident vəzifəsini tutmuş şəxsə şamil edilmir və bu maddənin qüvvəyə mindiyi müddət içərisində Prezident vəzifəsini tutan, yaxud Prezident kimi fəaliyyət göstərən heç bir şəxsə həmin müddətin qalan vaxtında da Prezident vəzifəsini tutmağa, yaxud Prezident kimi fəaliyyət göstərməyə mane olmur.

*2-ci bölmə.* Bu maddə Konqresin onu ştatların bəyənməsi üçün təqdim etdiyi gündən keçən yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməzsə, qüvvəyə minmir.

## XXIII DÜZƏLİŞ (1961)

*1-ci bölmə.* Birləşmiş Ştatlar hökumətinin yerləşdiyi dairə Konqresin müəyyənləşdirdiyi qaydada Prezidentin və Vitse-prezidentin seçimçilərini təyin edir, onların miqdarı dairənin ştat ola biləcəyi halda seçə biləcəyi (ancaq ən az əhalisi olan ştatın seçdiklərindən qətiyyən çox olmamaqla) Senatorların və Nümayəndələrin Konqresdəki sayına bərabər olur; onlar ştatların təyin etdiyi seçimçilərə əlavə olunurlar, ancaq onlara Prezident və Vitse-prezident seçkilərində ştatların təyin etdiyi seçimçilər kimi baxılmalıdır; onlar dairədə toplaşır və on ikinci düzəlişdə nəzərdə tutulmuş vəzifələri yerinə yetirirlər.

*2-ci bölmə.* Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

## XXIV DÜZƏLİŞ (1964)

*1-ci bölmə.* Birləşmiş Ştatlar vətəndaşlarının Prezidentin, yaxud Vitse-prezidentin, Prezidentin, yaxud Vitse-prezidentin seçimçilərinin, ya da Senatorların və Konqresdəki Nümayəndələrin hər hansı ilkin, yaxud başqa seçkilərində səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat hansısa seçki vergisinin, yaxud başqa verginin ödənilməsi ilə bağlı danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

*2-ci bölmə.* Konqres bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirə bilər.

## XXV DÜZƏLİŞ (1967)

*1-ci bölmə.* Prezident ya vəzifəsindən kənarlaşdırıldığı, ya öldüyü, ya da istefa verdiyi halda Vitse-prezident Prezident olur.

*2-ci bölmə.* Vitse-prezident vəzifəsi boş qaldıqda Prezident Vitse-prezidenti təyin edir və o, Konqresin hər iki Palatası səslərin əksəriyyəti ilə təsdiqləyəndə vəzifəsinə başlayır.

*3-cü bölmə.* Prezident Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizə verərsə və geriyə məzmunlu yazılı məktubu hələ onlara verməyincə həmin səlahiyyət və borcları Vitse-prezident Prezident vəzifəsini icra edən şəxs kimi yerinə yetirir.

*4-cü bölmə.* Əgər Vitse-prezident və icra departamentlərinin, yaxud Konqresin qanunla nəzərdə tuta biləcəyi başqa bir orqanın yüksək vəzifəli şəxslərinin çoxu Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizələrini versələr, Vitse-prezident gecikdirmədən Prezidentin vəzifəsini icra edən şəxs kimi bu vəzifənin səlahiyyət və borclarını öz üzərinə götürür.

Sonra Prezident Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə bacarıqsızlığının daha mövcud olmadığı haqqında yazılı ərizəsini verdikdə, o öz vəzifəsinin səlahiyyət və borclarının həyata keçirilməsini bərpa edir, bu şərtlə ki, Vitse-prezident və icra departamentlərinin, yaxud Konqresin qanunla nəzərdə tuta biləcəyi başqa belə orqanın yüksək vəzifəli şəxslərinin çoxu dörd gün müddətində Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizə versinlər. Bundan sonra Konqres həmin məqsədlə yığışaraq (o vaxt sessiyası keçirilmirsə) qırx səkkiz saat içərisində məsələni həll edir. Konqres sonuncu yazılı ərizəni aldığının iyirmi bir günündə (Konqresin sessiyası bu vaxt keçirilmirsə), yaxud Konqresin toplaşdığının iyirmi bir günündə hər iki Palatanın səslərinin üçdə ikisi ilə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığını müəyyənləşdirsə, Vitse-prezident onları Prezident vəzifəsini icra edən şəxs kimi həyata keçirməkdə davam edir; əks halda Prezident öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirməyi yenidən bərpa edir.

### XXVI DÜZƏLİŞ (1971)

*1-ci bölmə.* Birləşmiş Ştatların on səkkiz yaşdakı və daha yaşlı vətəndaşlarının səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat yaşdan asılı olaraq danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

*2-ci bölmə.* Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

### XXVII DÜZƏLİŞ (1992)

Nümayəndələr Palatası üzvlərinin növbəti seçkiləri keçirilməyincə Senatorların və Nümayəndələr Palatası üzvlərinin xidmətlərinin əvəzinin ödənilməsini dəyişdirən heç bir qanun qüvvəyə minməməlidir.

---

1 İngilis dilindəki *people* sözü “xalq” mənasından bir qədər fərqli olaraq “insanlar”, “yurddaşlar”, yəni “fərdlər toplusu” mənasını verir — *red.*

2 *Pro tempore*(lat.) — müvəqqəti — *red.*

3 Kaper — dəniz quldurluğu ilə məşğul olan gəmi — *red.*

4 Repressali — bir dövlətin qanunsuz hərəkətləri ilə bağlı onun özünə və vətəndaşlarına qarşı tətbiq etdiyi təzyiq tədbirləri — *red.*

5 *Habeas corpus* (şəxsin toxunulmazlığı - lat.) - məhbusun məhkəməyəqədərki hüquqi vəziyyətini tənzimləyən məhkəmə əmri — *red.*

6 *Ex post facto* (lat.) – geriyə qüvvəsi olan — *red.*

7 ABŞ-ın bütün tarixi boyu 5 minə yaxın düzəliş layihəsi irəli sürülüb və onlardan yalnız 26-sı bütün zəruri mərhələləri keçərək qəbul edilib. Konstitusiyaya ilk on düzəliş eyni vaxtda (1791-ci il) qəbul edilib və Hüquqlar Haqqında Billi təşkil edir. Hüquqlar Haqqında Billin layihəsi 1789-cu ildə Konqresə təqdim edilib və ştatların zəruri sayı ilə 15 dekabr 1791-ci ildə ratifikasiya edilib.

8 Böyük Münsiflər — Andlılar Məhkəməsi — *red.*

9 Mötərizəyə alınmış bu müddəa Konstitusiyaya XX düzəlişlə (3-cü bölmə) dəyişdirilib — *red.*

10 Seçki yaşı Konstitusiyaya XXVI düzəlişlə (1-ci bölmə) 18 yaşa endirilib — *red.*

11 XVIII düzəlişin mətni XXI düzəlişlə (1-ci bölmə) ləğv edildiyinə görə mötərizə içərisinə alınıb — *red.*

## 28. DEMOKRATİYA DƏSTƏBAZLIĞIN ÖHDƏSİNDƏN GƏLƏ BİLƏCƏKMİ?

Medisonun hazırladığı Konstitusiya layihəsi Konqresdə təsdiq olunarkən, eləcə də ictimaiyyət tərəfindən müzakirə edilərkən bir sıra çətinliklərlə üzləşdi. Amerikanın hər yerində onun müddəalarının həm lehinə, həm də əleyhinə çıxış edən qruplar var idi. Təklif olunan sistemin məziyyətləri və nöqsanları barədə müzakirə qəzet və jurnal səhifələrinə çıxarıldı. Güclü mərkəzləşdirilmiş hökuməti nəzərdə tutan Konstitusiyanın tərəfdarları və əleyhdarları xalq arasında “federalist” və “antifederalist” adını aldılar.

Tomas Ceffersonun da qoşulduğu antifederalçılar Konstitusiya layihəsinə qarşı kifayət qədər ciddi dəlillər irəli sürürdülər. Onlar mərkəzləşdirilmiş hökumətin hakimiyyətinin məhdudlaşdırılması, Konstitusiyanın əsas insan hüquqlarına təminat verməsini tələb edirdilər.

Bundan əlavə, xalq arasında idarəetmənin respublika formasının səmərəsinə şübhəylə yanaşanlar da az deyildi. Antifederalçılar deyirdilər: Amerika kiçik Afina deyil və heç bir hökumət ölkədəki saysız-hesabsız qrupların, dəstələrin mənafeyini ortaq məxrəcə gətirə bilməz. Yaranmış fraksiyalar öz mənafelərini güdməklə ölkəni parçalayacaqlar. Çoxluğu təmsil edən fraksiya azlığın mənafeyini düşünmədən öz dar mənafelərini həyata keçirməyə can atacaq və s.

Çoxpartiyalılıq demokratiyasından hətta ABŞ-ın birinci prezidenti Corc Vaşinqton da qorxuya düşmüşdü; o, vəzifəsini tərk edərkən vida müraciətində (1796) milləti partiyalara bölünməməyə çağırmışdı: *"Bu ruh [partiya ruhu], bədbəxtlikdən, bizim təbiətimizdən ayrılmazdır və insan şüuruna xas olan ehtiraslarda kök salır. O dövlət şuralarını dağıdır və idarə işini zəifledir. O, cəmiyyətdə əsaslandırılmamış qısqanclıq oyadır və yalançı həyəcanlar törədir; bütövün bir bölümünü digərinə qarşı qaldırır; gözlənilməz üsyanlara və qiyamlara gətirib çıxarır. O, xarici təsirə və partiya ehtirasları yoluyla hökumətin özünə də asanlıqla nüfuz edən korrupsiyaya qapıları taybatay açır".*

Konstitusiyaya qarşı hücumlar federalistləri layihəni müdafiə etmək üçün ictimai kampaniyaya başlamağa vadar etdi. Konstitusiyanın xeyrinə ən mühüm dəlillər Ceyms Medison, Aleksandr Hamilton və Con Ceyin qələmə aldıqları 85 qəzet essesindən ibarət seriyada peyda oldu. Sonralar bu esselər "Federalist" adlı kitabda toplandı.

Həmin esselər ABŞ Konstitusiyasının ən istedadlı və nüfuzlu yozumu sayılır və bu gün də Konstitusiyanın müddəalarını incədən-incəyə anlamağa çalışan alim və hüquqşünaslar onları diqqətlə öyrənirlər.

Ən çox istifadə edilən sitatlar Medisonun qələmə aldığı və respublika quruluşuna həsr olunmuş 10 saylı essenin payına düşür. Medisonun yazdığına görə, fraksiya labüd, qaçılmaz bir bəladır, elə bir bəladır ki, istər-istəməz onunla barışmaq lazım gəlir. Axı demokratiya çoxluğun hakimiyyəti, özü də azlığın hesabına olan hakimiyyəti deməkdir.

Fraksiyaları qadağan etmək üçün ya azadlığı qadağan etmək, ya da bütün insanları eyni cür düşünməyə və eyni maraqlarla yaşamağa məcbur etmək gərəkdir. Medisonun qəti əqidəsincə, bu hər iki yol demokratiyanı məhvə aparardı.

Fraksiyaları qadağan etmək olmaz, lakin onlara Konstitusiya vasitəsilə nəzarət etmək mümkündür. Fraksiyaların çoxluğu ona gətirib çıxarmalıdır ki, onlardan heç biri daimi çoxluğa yiyələnə bilməsin. Azlıq nümayəndələrinə müzakirələrin gedişində fikir söyləmək və çoxluğu inandırmaq imkanı veriləcəkdir; ola bilər ki, məhz bundan sonra milli mənafelərə cavab verən qərarlar ortaya çıxsın. Konqresdə həmişə elə nümayəndələr olacaq ki, hətta çoxluq xalqın mənafeyini gözdən qaçırdıqda da onlar yalnız ümumi mənafe və fayda barədə düşünəcəklər.

Göründüyü kimi, Medisonun dəlilləri bir az idealist təsir bağışlayır, demokratiya qorxuları isə xeyli gerçək və bizə də yaxşı tanışdır. Bununla belə, Amerika demokratiya təcrübəsinin "ayağı sayalı" oldu və bütün dünyanı bu yöndə fəaliyyət göstərməyə ruhlandırdı. Ola bilsin ki, demokratiyanın uğuru üçün insanlarda bir qədər idealizm də gərəkdir.

CEYMS MEDİSON

# 10 saylı "Federalist" (1787)

*...Fraksiyaların yaranması səbəblərini aradan qaldırmaq mümkün deyildir; dərdə çarə qılmaq üçün onların fəaliyyətinə nəzarət mexanizmini tapmaq lazımdır.*

Yaxşı təşkil olunmuş ittifaqın vəd etdiyi çoxsaylı üstünlüklər içərisində ittifaqın fraksiyaçılığın vurduğu zərərin qarşısını almaq və onu nəzarətdə saxlamaq qabiliyyəti daha dəqiq işlənməyə layiqdir. Xalq hakimiyyətinin tərəfdarı heç vaxt onun xarakteri və taleyi üçün xalq hökumətlərinin bu təhlükəli qüsura meylliliyi haqqında düşündüyü andakı qədər narahat olmur. Ona görə də o, xalq hakimiyyəti prinsiplərini pozmadan bu xəstəliyin

sağaldılmasına yardım edən hər hansı planı layiqincə qiymətləndirərsə, səhv etməz. Dövlət şuralarındakı qeyri-sabitlik, ədalətsizlik və hərc-mərclik həqiqətən hər yerdə xalq hakimiyyətini məhvə gətirib çıxaran dəhşətli xəstəliklərdir; bu qüsurlar azadlığın əleyhdarlarının bəlağətli çıxışları üçün sevimli mövzulardan olmaqda davam edir.

Amerika konstitusiyaëàðûëàðûlarının qədim, eləcə də müasir xalq hakimiyyəti modellərində həyata keçirdikləri mühüm təkmilləşdirmələr, əlbəttə, bizi çox da heyrətə salmamalıdır; onların istədiyimiz, yaxud gözlədiyimiz kimi bu təhlükədən yan keçməyə imkan verəcəyinə ümid etməyə heç bir əsas yoxdur. Daha diqqətli və ləyaqətli vətəndaşlarımızın (adətən, cəmiyyətə və insana inanan dostlarımızın, ictimai və şəxsi azadlıq tərəfdarlarının) hər yerdən şikayətləri gəlir ki, hökumətimiz son dərəcə qeyri-sabitdir, rəqabət aparan partiyaların qarşıdurmasında heç kəs ümumi mənafe haqqında düşünmür, görülən işlər çox vaxt ədalətli tələbləri və azlıqda olan partiyanın hüquqlarını nəzərə almaqla deyil, maraqlı tərəfin, hakimiyyətdəki çoxluğun üstün qüvvələrinə uyğun həyata keçirilir. Bizim bu şikayətlərin heç bir ciddi əsasının olmamasını istəməyimizə baxmayaraq, tanınmış şəxslərin şəhadətləri onların müəyyən dərəcədə haqlı olduqlarını inkar etməyə imkan vermir... Əsasən, bəlkə də bütövlükdə bu, qeyri-sabitliyin və ədalətsizliyin təsiridir, fraksiyaçılıq dövlət idarəçiliyimizi zəhərləyir.

Fraksiya deyilərkən mən vacib deyil, tamın çoxluğunu, yaxud azlığını təşkil edən vətəndaşların müəyyən sayını başa düşürəm. Onlar başqa vətəndaşların mənafeyinə, yaxud icmanın vahid mənafeyinə yaramayan müəyyən ümumi istək, yaxud mənafe impulsu ilə birləşir və fəaliyyət göstərirlər.

Fraksiyaların ziyanından xilas olmağın iki üsulu var: birincisi, onların səbəblərinin aradan qaldırılması; ikincisi, fəaliyyətlərinə nəzarət edilməsi.

Fraksiyaların yaranma səbəblərinin aradan qaldırılmasının da iki yolu var: birincisi, onların mövcud olmasının zəruri şərtinin — azadlığın məhv edilməsi; ikincisi, həmin mülahizə, meyl və maraqların hər bir vətəndaşa verilməsidir.

Birinci yol xəstəliyin özündən daha pisdir. Bundan dəqiq demək olmazdı. Fraksiya üçün azadlıq alov üçün hava kimidir. Bu şərait olmasa, o dərhal aradan çıxar. Lakin yalnız fraksiyaların meydana çıxmasına şərait yaratdığına görə azadlığın məhv olunması heç nə ilə müqayisə edilə bilməyən axmaqlıq olardı. Bu, yalnız alova dağıdıcı qüvvə verdiyinə görə bütün canlılar üçün zəruri olan havanın yox edilməsini istəmək kimi bir şeydir.

Birinci yol ağlasığan olmadığı kimi, ikinci yolun da həyata keçirilməsi mümkün deyildir. Nə qədər ki insanların maraqları maneələrlə qarşılaşmır və onlar öz mövqelərindən çıxış etməkdə azaddırlar, o qədər də çoxsaylı müxtəlif fikirlər yaranacaqdır. Nə qədər ki insanın məqsədi və özünəvurğunluğu arasında əlaqə var, onun düşüncəsi və istəyi bir-birinə əks-təsirə malik olacaq və birinci sonuncunun can atacağı hər şeyə qarşı etiraz edəcək. Şəxsi hüquqların törəndiyi insan xarakterlərinin müxtəlifliyi mənafelərin birləşdirilməsinə keçilməz maneə deyildir. Bu hüquqların müdafiə edilməsi hökumətin başlıca vəzifəsidir. Mülkiyyətin əldə olunması ilə bağlı müxtəlif və qeyri-bərabər hüquqların müdafiə olunması dərhal mülkiyyətin digər dərəcə və formalarının qazanılması imkanını da irəli sürür: onların müvafiq sahibkarların hiss və baxışlarına təsiri ilə də cəmiyyətin müxtəlif mənafe və qruplara bölünməsi baş verir...

Beləliklə, ümumi nəticəyə gəlirik ki, fraksiyaların yaranması səbəblərini aradan qaldırmaq mümkün deyildir; dərdə çarə qılmaq üçün onların fəaliyyətinə nəzarət mexanizmini tapmaq lazımdır.

Əgər fraksiya əksəriyyət təşkil etmirsə, dərman — çoxluğa adi səsvermə yolu ilə onun zərərli təsirini aradan qaldırmağa imkan verən respublika prinsipidir. Bu yol inzibati qurumlar üçün çətinliklər törədə, cəmiyyətdə sarsıntılar yarada bilər, lakin o, zor tətbiq etməyə və onu Konstitusiyanın müddəaları ilə pərdələməyə imkan verməyəcəkdir. Fraksiya özündə çoxluğu ehtiva etdikdə isə xalq hökumətinin forması belə hökumətin məqsədləri, yaxud mənafeləri naminə həm ictimai mənafeyin, həm də digər vətəndaşların hüquqlarının qurban verilməsinə imkan verə bilər. Bu cür fraksiyanın təhdidlərindən ictimai mənafe və vətəndaşların şəxsi hüquqlarının qorunması, eyni zamanda xalq hökumətinin ruh və formasının qorunub saxlanılması böyük amalımızdır. İzn verin əlavə edim ki, yalnız bu böyük vəzifənin yerinə yetirilməsi bu idarəetmə formasını şərəfsizliyə düçar olmaqdan xilas edə bilər və yalnız sonra o, istifadə olunmaq üçün bütün dünyaya təqdim edilə bilər.

Bu məqsədə hansı vasitələrlə nail olmaq olar? Aydındır ki, göstərilən iki vasitədən biri ilə: ya əksəriyyətin eyni istək və maraqlara malik olmasına maneə törədilməməlidir, ya da bu cür istək, yaxud maraqlara malik olan əksəriyyət sayı və yerləşməsi baxımından elə artırılmalıdır ki, aralarında razılığa gələ və təzyiq mexanizmini həyata keçirə bilməsin.

Əgər istək və  imkan üst-üstə düşmürsə, biz yaxşı bilirik ki, əxlaq da, dini motivlər də nəzarət üçün tələb olunan vasitəyə çevrilə bilmir.  Onlar fərdə qarşı edilən ədalətsizlik və zora mane ola bilmir və adamların sayı artdıqca onların səmərəliliyi azalır, yəni kifayət etmir.

Bu baxımdan nəticə çıxarmaq olar ki, mənim dövlətin idarə olunmasında birbaşa iştirak edən və az sayda olan vətəndaşların birliyi kimi müəyyən etdiyim təmiz demokratiya(1)fraksiyaların vurduğu zərərə qarşı dərman tapa bilməz. Ümumi istək, yaxud mənafe, demək olar ki, hər bir halda əksəriyyətlə dəstəklənəcək; birlik və razılıq idarəetmə formasının özündən irəli gələcəkdir və burada elə bir şey yoxdur ki, daha zəif partiyanın, yaxud arzuedilməz şəxsin qurban verilməsi istəyini üzə çıxara bilsin.  Ona görə də bu cür demokratiya həmişə həyəcanlar və ixtilaflar tamaşasına dönəcəkdir; o, heç vaxt şəxsi təhlükəsizliklə, yaxud mülkiyyət hüququ ilə uyğunlaşa bilməyəcəkdir... Bu növ dövlətin tərəfdarı olan siyasətçi-nəzəriyyəçilər səhvən hesab edirlər ki, siyasi hüquqlar baxımından insanların tam bərabərliyinə nail olduqdan sonra onların mülkiyyət, istək, fikir və meyllərinin də eyniləşdirilməsinə və bərabərliyinə nail olacaqlar.

Respublika (bu ad altında mən nümayəndəlik sisteminin mövcud olduğu dövləti nəzərdə tuturam) başqa perspektiv açır və o, bizə axtardığımız dərmanı verəcəkdir.  Gəlin onu təmiz demokratiyadan fərqləndirən müddəaları nəzərdən keçirək.  Biz burada həm müalicə mexanizmini, həm də ittifaqımızın təbiətindən irəli gəlməli olan səmərəliliyi anlamalıyıq.

Demokratiya və respublika arasında iki böyük fərq mövcuddur: birincisi hakimiyyətin vətəndaşların əksəriyyəti tərəfindən seçilmiş azlığa göndərilməsindən ibarətdir; ikincisi, bizdə vətəndaşların sayı çoxdur, ölkənin ərazisi genişdir və bu əksəriyyət onlara şamil edilə bilər.

Bir tərəfdən, rəyin xalq nümayəndələrinin seçkili orqanından keçməsi yolu ilə zənginləşdirilməsi və ümumiləşdirilməsi birinci fərqin təsirliliyini artırır; xalq nümayəndələrinin müdrikliyi ölkənin həqiqi mənafeyini daha yaxşı fərqləndirə bilərdi, onların vətənpərvərliyi və ədalət tərəfdarı olmaları isə ötəri, yaxud şəxsi mülahizələrə görə bu əsas prinsiplərin qurban verilməsi ehtimalını xeyli azaldacaq... Digər tərəfdən, tamamilə başqa nəticə ilə də üzləşmək olar.  Fraksiyaçılıq meyllərinə, bəd fikirlərə, yaxud çirkin niyyətləri olan adamlar çəkişmə, korrupsiya, yaxud digər vasitələrlə əvvəlcə kifayət qədər səs toplaya, sonra isə adamların mənafeyinə xəyanət edə bilərlər.

Əsas məsələ ondan ibarətdir ki, həm kiçik, həm də genişləndirilmiş respublikalarda ictimai mənafeyin sadiq müdafiəçilərinin seçilməsi üçün daha əlverişli şərait yaranır və bu, iki aydın mülahizə ilə respublikanın üstünlüyünü göstərir.

Birincisi, qeyd edək ki, respublikaların nə qədər kiçik olmasından asılı olmayaraq nümayəndələrin sayı elə müəyyən həddə çatdırılmalıdır ki, onların bəzilərinin arasında sövdələşməyə imkan verilməsin və respublikaların nə qədər böyük olmasından asılı olmayaraq bu nümayəndələrin sayı onların çoxluğunun hərc-mərcliyə gətirib çıxaracağı müəyyən həddi keçməməlidir...

Sonra, kiçik respublikaya nisbətən böyük respublikada nümayəndə daha çox sayda vətəndaş tərəfindən seçildiyinə, seçkilərin kifayət qədər tez-tez keçirildiyinə görə layiq olmayan namizədlərin mübarizə aparması çətin olacaqdır və adamlar öz daha azad səslərini yəqin ki, daha ləyaqətli, daha düzgün danışan və daha cəlbedici üstünlükləri olan namizədlərə verəcəklər.

Etiraf etməliyik ki, bu və başqa halların çoxunda hər iki tərəf üçün əngəllərin meydana gəlməsi ehtimalı var. Seçicilərin sayını xeyli artırmaqla elə vəziyyət yaratmış olarıq ki, nümayəndə onların bütün yerli problemləri və kiçik maraqları ilə az tanış ola bilər; lakin onların sayını həddən artıq azaltmaqla siz nümayəndəni xırda məsələlərə daha çox cəlb edib onun böyük və ümummilli məqsədləri anlamasını və onlara qulluq etməsini məhdudlaşdıra bilərsiniz.  Federal Konstitusiya bu baxımdan xoşbəxt ahəngdarlığı formalaşdırır; böyük və ümumi mənafe milli, yerli və konkret mənafe isə ştatın qanunverici məclisinə aid edilir...

Fraksiya liderlərinin təsiri onların konkret ştatlarının hüdudlarında odu alışdıra bilər, lakin yanğını digər ştatlara yaya bilməyəcəkdir; dini sekta Konfederasiyanın hər hansı bir hissəsində siyasi fraksiyaya çevrilə bilər, lakin onun bütün ərazisinə səpələnmiş digər sektalar Milli Şuranı bu təhlükədən qorumalıdır — kağız pullara qarşı hiddət, borcların ləğv edilməsi, mülkiyyətin bərabər bölünməsi, yaxud istənilən digər yanlış, ya da pis layihə ittifaqın hər hansı üzvünə nisbətən bütün ittifaqa yayılmaq imkanına daha az malik olacaqdır; bu cür xəstəlik də bütövlükdə ştatı deyil, hansısa qraflığı, yaxud dairəni əhatə edə bilər.

Beləliklə, ittifaqın geniş və möhkəm quruluşu üçün biz respublika tipli dövlətə daha çox xas olan xəstəliyə qarşı respublika müalicə üsulunu seçirik. Və respublikaçı olaraq keçirdiyimiz məmnunluq və iftixar hissləri ilə eyni dərəcədə biz federalist ruhumuzu və xarakterimizi qətiyyətlə qoruyub saxlamalıyıq.

---

1 Afina demokratiyası nəzərdə tutulur — *red.*

## 29. DÜNYADA DEMOKRATİK, SÜLH VƏ QANUNİ YOLLA İLK HAKİMİYYƏT DƏYİŞİKLİYİ

Amerika politoloqu S. Hantinqtonun fikrincə, ölkədə demokratik sistemin bərqərar olduğunu birinci demokratik seçkilərdən sonra deyil, hakimiyyətin dinc və qanuni yolla rəqabət aparan bir siyasi qüvvədən digərinə keçməsini təmin etmiş növbəti seçkilərdən sonra söyləmək olar. Belə dinc və qanuni hakimiyyət dəyişikliyi ilk dəfə ABŞ-da 1800-cü il prezident seçkilərində baş vermişdir.

Bu seçkilərdə hakim Federalistlər Partiyasından ABŞ-ın ikinci prezidenti Con Adams və respublikaçı Tomas Cefferson mübarizə aparırdılar. Qeyd edək ki, Adams prezident postunu 1797-ci ildə heç bir problem olmadan elə həmin Federalistlər Partiyasının banisi Corc Vaşinqtondan qəbul etmişdi.

1800-cü il seçkiləri olduqca gərgin şəraitdə keçdi və seçicilərin böyük əksəriyyəti öz səslərini respublikaçı Tomas Ceffersona verdi. Lakin Konstitusiyada seçimçilərin səslərinin hesablanmasına dair göstərilən üsulun mükəmməl olmaması ucbatından seçkilər ABŞ Konqresinin Nümayəndələr Palatasına keçirildi.

Konqresdə uduzan federalistlər seçkilərin nəticələrini ləğv etməyə və öz namizədlərini Konqresdə səsvermə ilə seçməyə cəhd etdilər. Lakin gərgin mübahisələrdən sonra Nümayəndələr Palatası hər halda xalqın səs verdiyi namizədi — Tomas Ceffersonu prezident kimi tanıdı. Konstitusiyaya sonrakı düzəlişlə bu problem aradan qaldırıldı, lakin presedent yarandı: müxalif partiyanın nümayəndəsi əksəriyyətin iradəsi ilə ölkənin prezidenti oldu, hakimiyyətdə olan partiya isə sakitcə müxalifətə keçib növbəti seçkiləri gözləməyə başladı.

Ceffersonun seçilməsindən onun Nümayəndələr Palatasında qəti təsdiqinə qədərki dövr ərzində bir çox Avropa müşahidəçiləri gözləyirdi ki, ABŞ tezliklə vətəndaş müharibəsi girdabına düşəcək, çünki tarix hələ bir fraksiyanın öz səlahiyyətlərini sakitliklə başqasına təhvil verməsi nümunəsini görməmişdi. Buna baxmayaraq, hakimiyyət dəyişikliyi baş verdi və o, sakit keçdi.

Bəziləri gözləyirdi ki, Cefferson özünün inaqurasiya nitqində federalistlərə hücum və onların siyasətini tənqid edəcəkdir. Lakin bunun əvəzində o, demokratiyanı müdafiə edən parlaq nitq söylədi və ölkənin bütün siyasi qüvvələrini əməkdaşlığa çağırdı. Beləliklə, daha bir demokratik ənənə yaradıldı — seçkilərin nə qədər gərgin keçməsindən asılı olmayaraq ondan sonra bütün siyasi qüvvələr millətin mənafeyi naminə əməkdaşlıq etməlidir.

TOMAS CEFFERSON

# İnaqurasiya nitqi (1801)

*Mən... sizin qərarınıza uyğun olaraq... istefaya getməyə hazıram — bunu etməyə sizin haqqınız var.*

Dostlar və yurddaşlar!

Mən sizin tərəfinizdən ölkənin ali icraedici vəzifələrini yerinə yetirmək üçün seçilmiş adam kimi həmvətənlərimin bir hissəsinin burada olmasından istifadə edərək mənə göstərilmiş etimada görə təşəkkürümü bildirirəm. Mən səmimi şəkildə anlayıram ki, bu vəzifə mənim qabiliyyətimdən yuxarıda dayanır və mən bunu üzərimə qoyulan vəzifələrin böyüklüyü və gücümün zəifliyindən irəli gələn narahat və həyəcanlı hisslərlə dərk edirəm...

Arxada qalmış mübahisələrin gedişində canlı diskussiya və gərginliklər özünün bəzi cəhətləri ilə azad düşünməyə, düşündüklərini deməyə və yazmağa adət etməmiş kənar adamlara pis təsir edə bilərdi; lakin indi — bütün bunların xalqın səsi ilə həll olunduğu və Konstitusiyaya uyğun elan edildiyi zaman, əlbəttə, bütün iradələr qanunun iradəsinə tabe ediləcək və ümumi mənafe naminə birgə səylərdə cəmləşdiriləcəkdir. Hamı həmçinin o müqəddəs prinsipə riayət edəcəkdir ki, əksəriyyətin iradəsinin bütün hallarda hökmran olmalı olmasına baxmayaraq, ədalətli olması üçün o, ağlabatan olmalıdır; həmçinin azlıq bərabər hüquqlara malikdir, bu hüquqları bərabər qanunlar müdafiə etməlidir və onların pozulması sıxışdırılma demək olardı. Yurddaşlar, onda gəlin ürəyimiz və ağlımızla birləşək. Gəlin ictimai münasibətlərdə harmoniya və məhəbbəti bərpa edək, onlarsız azadlıq da, hətta həyatın özü də sönük bir şeyə çevrilərdi. Və gəlin bir düşünək ki, bəşəriyyətin uzun müddət nəticələrindən əzab çəkdiyi və qanlar tökdüyü dini dözümsüzlüyü torpağımızdan uzaqlaşdırıb despotik, mənəviyyatsız, qəddar və qanlı təqiblərə qabil olan siyasi dözümsüzlüyə imkan veririksə, deməli, hələ çox şeyə nail ola bilməmişik... Axı hər fikir ayrılığı prinsip ayrılığı demək deyildir. Biz eyni prinsipə müxtəlif adlar qoyduq. Biz hamımız respublikaçıyıq və biz hamımız federalistik. Və əgər aramızda bu Birliyi pozmaq, yaxud onun respublika formasını dəyişmək istəyən adamlar varsa, qoy onlar ağlın fikir yanlışlıqları ilə mübarizə etməyə azad olan yerdə yaranan təhlükəsizliyə ucaldılmış abidələr kimi fərağət dayansınlar.

Mən həqiqətən bilirəm ki, bəzi ləyaqətli insanlar qorxurlar ki, respublika quruluşu möhkəm ola bilməz, bu dövlət kifayət qədər möhkəm deyildir. Lakin ləyaqətli bir vətənpərvər uğurlu təcrübənin gedişində bizi hələlik azad və mətin şəkildə qoruyub saxlayan hökumətdən imtina edəcəkdirmi; o, nəzəri və güman edilən təhlükələrə görə bütün dünyanın böyük ümid bəslədiyi bu dövlətin özünü qoruyub saxlamağa gücünün yetəcəyinə şübhə edəcəkdirmi? İnanıram ki, yox! Əksinə, mən inanıram ki, bu, dünyada ən güclü dövlət quruluşudur. Mən inanıram ki, yeganə dövlətdir ki, burada hər bir insan qanunun tələbi ilə dərhal ona tabe olacaqdır və hər bir insan burada ictimai asayişin pozulmasını özünün şəxsi problemi kimi qəbul edəcəkdir. Bəzən deyirlər ki, insana özünü idarə etməyi etibar etmək olmaz. Onda o, başqalarının onu idarə etməsinə etibar edə bilərmi? Yoxsa biz kralların simasında mələklər tapmışıq ki, onu idarə etsin? Qoy bu suala tarix cavab versin...

Yer kürəsinin dörddə birinin məhvedici hərc-mərcliyindən təbiətin və geniş okeanın iltifatla ayırdığı; başqalarının pozğunluğuna dözə bilməmək qədər yüksək əxlaqlı; minlərcə nəsillərimizə yetəcək qədər geniş ərazili ölkəyə malik olaraq; qabiliyyətimizdən istifadə olunması üçün bərabər hüquqlarımızdan həzz alaraq...; bütün bu nemətlərlə bizi xoşbəxt və firavan etmək üçün daha nə çatışmır? Yurddaşlar, yalnız bir şey — müdrik və qənaətcil hökumət çatışmır. Bu hökumət adamların bir-birinə ziyan vurmasının qarşısını almalıdır, onları öz işləri ilə məşğul olmaq və öz həyatlarını yaxşılaşdırmaq üçün sakit buraxmalıdır, fəhlənin qazandığı çörəyi onun ağzından dartıb almamalıdır. Yaxşı hökumət elə bu deməkdir, tam xoşbəxtliyimiz üçün lazım olan da elə budur.

Yurddaşlar, sizin üçün əziz və dəyərli olan şeylərin hamısını özündə ehtiva edən vəzifələrin yerinə yetirilməsinə başlamazdan öncə mənim dövlət quruluşumuzun başlıca prinsipləri, buradan da hökumətimizin siyasətini formalaşdırmalı olan prinsiplər kimi nəyi gördüyümü bilməlisiniz.

Mən onlar haqqında yalnız ümumi prinsipləri qeyd etməklə, lakin məhdudiyyətlərin heç də hamısını göstərməməklə qısa danışacağam — bu, dini, yaxud siyasi əqidəsindən asılı olmayaraq bütün adamlar üçün bərabər və dəqiq qanunçuluqdur; dövlətlərdən heç biri ilə dolaşıq ittifaqa girmədən bütün dövlətlərlə sülh, ticarət və təmiz dostluqdur; daxili işlərimizdə daha səriştəli orqanlar sayılan və antirespublika meyllərinə qarşı ən ciddi

sədlər olan ştatların hökumətlərinin bütün hüquqlarının müdafiə edilməsidir; ölkədə sülhümüzün, xaricdə təhlükəsizliyin əsası kimi ümumi hökumətin bütün Konstitusiya gücü ilə qorunub saxlanılmasıdır; insanların seçki hüquqlarına, sui-istifadələrə qarşı bu mülayim və təhlükəsiz (əks halda dinc vasitələrin tətbiq edilə bilmədiyi yerlərdə sui-istifadələr inqilabın qılıncı ilə kəsilib atılır) mübarizə üsuluna münasibətdə ən incə qayğıdır; mülki hakimiyyətin hərbi hakimiyyətèdən üstünlüyüdür; məlumatın [azad] yayılması və sui-istifadələrə görə cəmiyyət qarşısında məsuliyyətdir; vicdan azadlığıdır; mətbuat azadlığıdır; *habeas corpus'*un(1) müdafiəsi altında insan azadlığıdır; ədalətlə seçilmiş andlılar məhkəməsidir — bu prinsiplər qarşımızdan keçən, bizi inqilab(2) və reformasiya əsrindən keçirib aparan parlaq ulduzlar bürcünü formalaşdırır. Bu prinsiplər müəllimlərimizin müdrikliyi və qəhrəmanlarımızın qanı bahasına əldə edilmişdir. Onlar siyasi baxışlarımızın dini təliminə, vətəndaş kodeksinin mətninə, məsləkimizə xidmətimizin standartına çevrilməlidir. Və əgər səhvlər, yaxud həyəcanlar anında bu prinsiplərdən geri çəkilsək, gərək addımlarımızı tez də düzəldək və sülhə, azadlığa, təhlükəsizliyə doğru aparan bu yeganə yolu bərpa edək...

Mən indi sizin xoş niyyətinizə söykənməyə ümid bəsləyərək itaətkarlıqla işə başlayıram və sizin qərarınıza uyğun olaraq (belə qərarın daha yaxşı olduğunu hesab etsəniz) istefaya getməyə hazıram — bunu etməyə sizin haqqınız var. Və qoy kainatın taleyini idarə edən Sonsuz hakimiyyət dövlət şuralarımızı uğura doğru aparsın və onlara əmin-amanlığınız və çiçəklənməyiniz üçün xoş nəticələr qismət etsin.

---

1 *Habeas corpus* (lat.) – şəxsiyyətin toxunulmazlığı haqqında akt — *red.*
2 17-ci əsrin İngiltərə inqilabı nəzərdə tutulur — *red.*

## 30. ABŞ-ın ALİ MƏHKƏMƏSİNİN KONSTİTUSİYAYA İLK MÜRACİƏTİ

### "Konstitusiyaya zidd olan qanun qüvvəyə malik deyildir".

ABŞ Ali Məhkəməsi ölkənin ən yüksək məhkəmə orqanıdır. Onun qərarlarına nəinki bütün məhkəmə sistemi tabe edilmişdir, onun həmçinin qanunverici və icra hakimiyyəti tərəfindən qəbul edilmiş, lakin Konstitusiyaya zidd olan qanun və fərmanları ləğv etmək haqqı var. Ali Məhkəmə və daha mühümü isə, ABŞ-da bütün məhkəmələr Konstitusiyadakı "azadlıq", "mülkiyyət hüququ", "müvafiq qanuni prosedur" kimi ifadələri təfsir etmək və insanın bu sözlərlə ifadə edilmiş Konstitusiya hüquqlarının bu qanunverici, yaxud icra aktı ilə pozulub-pozulmadığını həll etmək hüququna malikdirlər. Amerika məhkəmələrinin məhz bu haqqı Konstitusiyanı real fəaliyyət göstərən sənədə çevirir, siyasi mütəfəkkirlərin haqqında bu qədər çox danışdıqları "çoxluğun istibdadı" qarşısına sədd çəkir və Konstitusiyada yazılmış, lakin çoxluğun öz maraqlarını təmin etmək istəyi ilə çox vaxt pozulan insan hüquqlarını müdafiə etməyə imkan verir.

Amerika məhkəmələrinin bugünkü nəhəng hakimiyyəti Konstitusiyada aydın göstərilməmişdi. O, tədricən məhkəmələrin özü tərəfindən "yaradılmışdır". Ali Məhkəmə tərəfindən bu yolda ilk addım ölkənin müstəqilliyinin başlanğıcında, 1803-cü ildə "Marbüri Medisona qarşı" işi üzrə qərar qəbul olunarkən edilmişdir. Bu qərarın müəllifi Ali Məhkəmənin üçüncü sədri, görkəmli hüquqşünas Con Marşall (1755–1835) olmuşdur.

ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun və onun xələfi Con Adamsın vaxtında hakim vəzifələrinə yalnız hakimiyyətdə olan Federalistlər Partiyasının üzvləri təyin olunurdu və onlar, Konstitusiyaya görə, *nümunəvi davranış* göstərərək vəzifədə ömürlük qala bilərdilər.

1800-cü ildə müxalif Respublikaçılar Partiyasının namizədi Tomas Cefferson prezident seçildikdən sonra məlum oldu ki, prezident administrasiyasının və Konqresin respublikaçıların əlində olmasına baxmayaraq, məhkəmə sistemində federalistlər üstünlük təşkil edir. Yeni rəhbərliyin ilk aktlarından biri 1800-cü il tarixli "Məhkəmələr haqqında qanun"un ləğv edilməsindən ibarət oldu. Bu qanuna görə, çoxlu sayda yeni hakim vəzifələri yaradılırdı. Prezident Adams öz vaxtında bütün boş hakim vəzifələrinin hamısını doldurmağa cəhd etsə də, onun vəzifəyə təyin etdiyi Uilyam Marbüri və 41 digər hakim hələ də təyinat haqqında ondan yazılı əmr ala

bilməmişdilər. Yeni prezidentin göstərişi ilə yeni dövlət katibi Ceyms Medison federalistlərin təyin etdikləri hakimlərə təyinat haqqında əmr verməkdən imtina etdi. Onda Marbüri icra vərəqəsinin verilməsi tələbi ilə məhkəməyə müraciət etdi. Bu icra vərəqəsi Medisonu təyinat haqqında əmri verməyə məcbur etməli idi.

Ali Məhkəmənin yeni sədri Con Marşall başa düşürdü ki, əgər Marbüriyə icra vərəqəsi verərsə, prezident administrasiyası məhkəmənin bu qərarını yerinə yetirməyəcək və bu da bütövlükdə məhkəmə sisteminin nüfuzuna ciddi zərbə olacaqdır. Əgər o, Marbürinin iddiasını yerinə yetirməsə, hamıya aydın olacaqdır ki, məhkəmə güclü prezident qarşısında qorxudan geri çəkilmişdir.

Və Marşall həqiqətən tarixi bir qərar qəbul etdi. Məhkəmə qərar qəbul etdi ki, dövlət katibi Medison hakim Marbüriyə təyinat verməyə borcludur, lakin sonra belə bir qərar da verdi ki, Konqresin 1789-cu ildə qəbul etdiyi "Məhkəmə sistemi haqqında qanun"un Ali Məhkəməyə bu hallarda icra vərəqələri vermək hüququnu təsbit edən bölməsi qanuni qüvvəsini itirir, çünki bu səlahiyyətlər Konstitusiyanın 3-cü maddəsi ilə Ali Məhkəməyə verilən səlahiyyət hədlərini aşır. Beləliklə, bu işin məhkəmə tərəfindən qanuni əsasla həll edilməsi yolu tapılmışdı. Marşall prezident tərəfindən rədd ediləcəyindən çəkinməyərək onun iradəsinin əleyhinə qərar qəbul etməyə nail olmuşdu.

Bu misilsiz qərarı ilə Ali Məhkəmə, Konstitusiyaya zidd olarsa, Konqresin və prezidentin qərarlarını ləğv etmək səlahiyyətini öz üzərinə götürdü; Ali Məhkəmə Konstitusiyanı təfsir edən əsas orqana, Konstitusiyanın konkret müddəalarının hansı mənanı daşıdıqlarını müəyyən edərkən son sözün sahibi olan bir orqana çevrildi. Beləliklə, Ali Məhkəmə icra və qanunverici hakimiyyətlərin bərabərhüquqlu tərəfdaşına çevrildi, Konstitusiyanın nəzəriyyəsi də müzakirə olunarkən məhz belə nəzərdə tutulmuşdu.

Ali Məhkəmə XIX əsrdə ölkə Konqresi və hökumətinin qeyri-konstitusion aktlarını ləğv etmək hüququndan nadir hallarda istifadə edirdi, XX əsrin 2-ci yarısından başlayaraq isə o bu hüquqa əsaslanaraq adamların fərdi və siyasi hüquqlarını dövlətin qeyri-konstitusion hərəkətlərindən qoruyan əsas mexanizmə çevrilmişdir.

CON MARŞALL

## Marbüri Medisona qarşı (1803)

*Baş hakim Con Marşall məhkəmənin qərarını elan edir*

*Konstitusiyaya zidd olan qanun hüquqi qüvvəyə malik deyildir; məhkəmələr, həmçinin digər dövlət orqanları bu prinsipə bağlıdır.*

Sonuncu iclasda oxunan (məhkəmə klerkinin təqdim etdiyi) məktubda dövlət katibindən tələb olunurdu ki, məhkəmə tərəfindən onu Uilyam Marbürini Kolumbiya dairəsində Vaşinqton qraflığının hakimi təyin etmək haqqında əmr verməyə vadar edəcək *mandamus* (1) verilə bilməməsinin səbəblərini göstərsin. Heç bir səbəb göstərilmədi və bu təqdimat məhkəmənin *mandamus* verməsi üçün həyata keçirilir.

Bu işin özünəməxsus incəlikləri, bəzi cəhətlərin yeniliyi və onun bəndlərinin başa düşülməsi ilə bağlı real çətinliklər məhkəmənin istinad etməli olduğu prinsiplərin tam şərh olunmasını tələb edir...

Məhkəmənin bu işə baxdığı ardıcıllığa uyğun olaraq aşağıdakı məsələlər nəzərdən keçirilmiş və həll edilmişdir:

1. İddiaçının belə bir əmr almaq hüququ varmı?

2. Əgər onun belə bir hüququ varsa və o hüquq pozulmuşdursa, ölkəsinin qanunları onu müdafiə etməyə imkan verirmi?

3. Əgər qanunlar onun müdafiə olunmasına imkan verirsə, məhkəmənin verdiyi *mandamus* onu müdafiə edə bilərmi?..

*Beləliklə, birincisi*, məhkəmənin mövqeyi belədir ki, təyinat haqqında əmr prezident tərəfindən imzalanıbsa, deməli, təyinat artıq edilib və bu sənədə dövlət katibi tərəfindən Birləşmiş Ştatların möhürünün vurulması ilə təyinat başa çatdırılıb... Buna görə də bu sənədin saxlanılaraq ləngidilməsi məhkəmə tərəfindən qeyri-qanuni hərəkət və rəsmi müəyyən edilmiş hüquqların pozulması kimi qiymətləndirilir.

Bu, bizi *ikinci* məsələyə gətirib çıxarır. Vətəndaş azadlığının mahiyyəti, şübhəsiz, hər bir şəxsin ona zərər yetirilən hər bir halda qanunla qorunmasını tələb etmək hüququndan ibarətdir. Dövlətin başlıca öhdəliklərindən biri bu müdafiənin təmin edilməsindən ibarət olmalıdır. Birləşmiş Ştatların hökuməti dəfələrlə şəxslərə deyil, qanunlara tabe olan hökumət kimi səciyyələndirilmişdir. Əgər burada qanunlar insanların qanuni hüquqlarını müdafiə etməsə, əlbəttə, o bu yüksək ada layiq olmayacaqdır...

Birləşmiş Ştatların Konstitusiyasına görə, prezidentə müəyyən mühüm siyasi səlahiyyətlər verilir. Bu səlahiyyətlər onun bildiyi kimi həyata keçirilir və yalnız öz ölkəsində, öz siyasi statusunda və öz vicdanı qarşısında hesabat verə bilər. Bu səlahiyyətlərin yerinə yetirilməsinə kömək etmək üçün onun öz hakimiyyətinə tabe olan və onun əmrlərinə əsasən hərəkət edən müəyyən vəzifəli şəxsləri təyin etmək ixtiyarı var.

Bu hallarda onların hərəkəti onun hərəkətidir və bu qərarın tətbiq olunması haqqında mövqedən asılı olmayaraq, burada bu qərara nəzarət edəcək heç bir hakimiyyət yoxdur və ola da bilməz. Bu, siyasi məsələdir. Burada onlar fərdi hüquqlara deyil, millətə hörmət nümayiş etdirirlər və müəyyən edildiyi kimi, rəisin qərarı qətidir.

Lakin qanunverici məclis bu məmurun üzərinə başqa vəzifələr qoyarkən, o, müəyyən işləri görməyə yollanarkən, fərdlərin hüquqları bu işlərin yerinə yetirilməsindən asılı olarkən o, qanundan asılı vəziyyətə düşür və başqalarının qanuni hüquqlarını kefi istədiyi kimi qulaqardına vura bilməz... Və özünü zərərçəkmiş sayan şəxsin zərərin ödənilməsi üçün ölkənin qanunlarına müraciət etmək hüququ var...

Buna görə də məhkəmə hesab edir ki, Marbüri öz təyinatını almaq hüququna malikdir; belə ki, bu sənədi ona verməkdən imtina etmək onun bu hüququnun pozulması demək olardı, ölkənin qanunu isə onu bu pozuntudan qoruyur.

*Üçüncü* məsələni həll etmək qalır. O, xahiş etdiyi müdafiə hüququna malikdirmi? Bu, *birincidən* — almaq üçün müraciət etdiyi icra vərəqinin xarakterindən və *ikincidən* — bu məhkəmənin səlahiyyətlərindən asılıdır.

Birincisi, nəzərdən keçirilən hal *mandamus* üçün tələb olunan təyinatın, yaxud onun surətinin çatdırılmasından asılı olmayaraq adi hadisədir. Və bir şeyi aydınlaşdırmaq qalır: bu məhkəmə *mandamus* haqqında qərar verə bilərmi?

Birləşmiş Ştatların məhkəmə sistemini bərqərar edən akta (1798-ci il) görə, Ali Məhkəmə "istənilən təyin olunmuş məhkəmələr, yaxud Birləşmiş Ştatlara xidmət edən şəxslər üçün prinsiplər və qanunun istifadə olunması praktikası ilə təminatların mövcud olduğu hallarda *mandamus* icra vərəqələri vermək səlahiyyəti" alır.

Dövlət katibi Birləşmiş Ştatlara xidmət edən məmurdur və bu maddə tam dəqiqliklə ona şamil edilə bilər; əgər bu məhkəmə bu vəzifəli şəxsə *mandamus* icra vərəqəsi vermək səlahiyyətinə malik deyilsə, onda bu akt Konstitusiyaya ziddir...

...Beləliklə, Birləşmiş Ştatların məhkəmə sistemini bərqərar etmiş aktla Ali Məhkəməyə verilən və onun dövlət məmurlarının hərəkətləri barəsində qərar qəbul etməsinə şərait yaradan səlahiyyətlər, göründüyü kimi, Konstitusiya ilə təmin olunmamışdır; indi bir şeyi aydınlaşdırmaq vacibdir ki, bu cür yurisdiksiyanı həyata keçirmək, ümumiyyətlə, mümkündürmü?

Konstitusiyaya zidd olan akt ölkə qanununa çevrilə bilərmi? Bu, Birləşmiş Ştatlar üçün mühüm məsələdir. Xoşbəxtlikdən o, mühüm olduğu qədər dolaşıq deyildir. Bu problemi həll etmək üçün qəti və yaxşı müəyyən edilmiş ayrı-ayrı prinsipləri bilmək lazımdır.

İnsanların öz dövlətləri üçün, onların fikrincə, xoşbəxtliklərinə daha çox şərait yaradacaq prinsipləri müəyyən etmək hüququna — bu əzəli hüquqa malik olması məhz bütün Amerikanın mayasını təşkil edir. Belə əzəli hüquqların həyata keçirilməsi böyük səylər tələb edir; bu, tez-tez təkrar oluna bilməz və olunmamalıdır. Ona görə də bu yolla müəyyən olunmuş prinsiplər fundamental prinsiplər hesab olunur. Və onları ortaya gətirən səlahiyyətlərin aliliyinə və azişləkliyinə görə onlar elə müəyyənləşdirilir ki, uzunömürlü ola bilsinlər.

İlkin və ali iradə dövlət yaradır və onun departamentlərinə uyğun səlahiyyətlər verir. Bu iradə onunla kifayətlənə, yaxud bu departamentlərin fəaliyyəti üçün müəyyən məhdudiyyətlər qoya bilər.

Birləşmiş Ştatlar dövləti məhz sonuncu hala uyğun gəlir. Qanunverici hakimiyyət yaradılmış və məhdudlaşdırılmışdır və bu məhdudiyyətlərin pozulmaması, yaxud yaddan çıxarılmaması üçün Konstitusiya yazılmışdır. Əgər bu məhdudiyyətlər istənilən vaxt onu qorumalı olan adamlar tərəfindən ləğv edilə bilərsə, bu hakimiyyətin məhdudlaşdırılmasına, bu məhdudiyyətlərin yazıya alınmasına nə ehtiyac var idi? Əgər məhdudiyyətlər onların aid olduqları şəxslərə şamil edilmirsə, icazə verən və verməyən aktlar bərabər gücə malikdirsə, onda məhdud və qeyri-məhdud hakimiyyətə malik hökumətlər arasında fərqlər yox olur. Konstitusiyanın onunla ziddiyyət təşkil edən istənilən qanunverici aktdan üstün olmasına, yaxud qanunverici məclisin Konstitusiyanı adi qanunla dəyişə bilməməsinə dair mübahisə etməyə ehtiyac yoxdur.

Bu alternativlər arasında orta vəziyyət yoxdur. Konstitusiya ya adi vasitələrlə dəyişdirilməsi mümkün olmayan ali, birinci dərəcəli qanundur, ya da o, adi qanunverici aktla eyni səviyyədə dayanır və başqa aktlar kimi qanunverici məclis tərəfindən istənilən vaxt dəyişdirilə bilər.

Əgər ilk mülahizə düzgündürsə, Konstitusiyaya zidd olan akt qanuni deyildir; əgər sonuncu düzgündürsə, konstitusiyaların yazılması öz təbiəti baxımından qeyri-məhdud olan hakimiyyətin məhdudlaşdırılmasına edilən boş cəhddən başqa bir şey deyildir.

Şübhə yoxdur ki, yazılı Konstitusiya yaradanların hamısı ölkənin əsas və birinci dərəcəli qanununu ortaya gətirdiklərini fikirləşirdilər, buradan da hər bir belə dövlət nəzəriyyəsi hesab edir ki, qanunverici məclis tərəfindən qəbul edilən və Konstitusiyaya zidd olan aktlar qanuni qüvvəyə malik deyildir...

Əgər qanunverici məclisin Konstitusiyaya zidd aktı qanuni qüvvəyə malik deyilsə, məhkəmələr buna baxmayaraq onu nəzərə almalıdırmı? Yaxud, başqa sözlə, bu akt qeyri-qanuni olmasına baxmayaraq qanun kimi fəaliyyət göstərən qaydaya çevrilə bilərmi? Bu, nəzəriyyəni tamamilə alt-üst edir və o qədər mənasızdır ki, təkid etməyinə dəyməz. Lakin buna baxmayaraq, bu halı diqqətlə nəzərdən keçirmək lazımdır.

Qanunun nə olduğunu izah etmək məhkəmə hakimiyyətinin birbaşa fəaliyyəti və səlahiyyəti daxilindədir. Kim konkret hallara qayda tətbiq edirsə, bu qaydanın mütləq izahı və təfsirini də verməlidir. Əgər iki qanun bir-birinə ziddirsə, məhkəmələr hər birinin qanuniliyini müəyyən etməlidir.

Əgər qanun Konstitusiyaya ziddirsə və hər ikisi konkret hala tətbiq olunursa... onda məhkəmə bu bir-birinə zidd qaydaların hansının baxılan hala tətbiq oluna biləcəyini müəyyən etməlidir. Burada məhkəmə hakimiyyətinin vəzifəsinin mahiyyəti öz əksini tapır.

Sonra, əgər məhkəmələr konstitusiyalara hörmət etməlidirsə və Konstitusiya qanunverici məclisin istənilən aktından üstündürsə, hər ikisinin tətbiq olunduğu halda adi akt deyil, Konstitusiya qanunidir... [Əks halda] bizim siyasi institutların yaradılmasında böyük nailiyyət hesab etdiyimiz yazılı Konstitusiyanın mənası heçə enir... [Konstitusiyada] bəyan olunur ki, "hər hansı ştatdan gətirilən mala görə vergi, yaxud rüsum tutula bilməz". İndi təsəvvür edin ki, pambıq, tütün, yaxud una bu cür rüsumların bərpa olunması haqqında qanun qəbul olunmuşdur. Bu halda hansı qərar qəbul olunmalıdır? Hakimlər Konstitusiyaya göz yumub yalnız qanunu nəzərə almalıdırmı?..

Konstitusiya bəyan edir ki, vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər və hər hansı *ex post facto*(2) qanunlar qəbul edilə bilməz. Əgər buna baxmayaraq belə bir qanun qəbul olunarsa və hər hansı adam onun əsasında məhkəməyə verilərsə, məhkəmə Konstitusiyanın qorumağa çalışdığı bu adamı ölümə məhkum etməlidirmi?

Konstitusiyada deyilir ki, heç kim dartışılan hadisənin iki şahidinin ifadəsi ilə, yaxud müttəhimin özünün boynuna alması ilə açıq məhkəmə iclasında təqsiri təsdiqlənmədən xəyanətdə günahkar sayıla bilməz.

Burada Konstitusiya sətirləri birbaşa məhkəmələrə ünvanlanmışdır. Bu göstəriş rədd edilməsi mümkün olmayan qaydaya yönəlmişdir. Əgər qanunverici məclis bu qaydanı dəyişərsə və hökm çıxarmaq üçün bir şahidin, yaxud məhkəmədənkənar etirafın yetərincə olduğunu elan edərsə, Konstitusiya prinsipi qanuna güzəştə getməlidirmi?

Bu və gətirə biləcəyimiz digər iqtibaslar aydın göstərir ki, Konstitusiya yazanlar bu aləti *məhkəmə məclisləri(3),* həmçinin qanunverici məclislər üçün fəaliyyət qaydaları kimi nəzərdə tutmuşdular. Əgər bu belə deyilsə, Konstitusiya nə üçün hakimlərin onu müdafiə edəcəklərinə and içməsi qaydasını müəyyən edir? Bu andiçmə,

şübhəsiz, onlar üçün öz vəzifələrində müvafiq fəaliyyət tərzini müəyyənləşdirir. Əgər onlardan müdafiə edəcəklərinə and içdikləri qaydaları pozmaq üçün mexanizm kimi istifadə olunsaydı, onların and içməyə məcbur edilməsi mənəviyyatsızlıqdan başqa bir şey olmazdı!

Həmçinin qanunverici məclis tərəfindən müəyyən edilən and bu məsələ ilə bağlı qanunvericiliyin vəziyyətini əyani olaraq göstərir. O bu sözlərdən ibarətdir: "Mən təntənəli surətdə and içirəm ki, ədalət məhkəməsini şəxsiyyətindən asılı olmayaraq yoxsullara və varlılara eyni cür yanaşaraq həyata keçirəcəyəm; mənim üzərimə ______________ kimi qoyulan bütün vəzifələri düzgün və qərəzsiz, qabiliyyətimə və dərrakəmə uyğun, Birləşmiş Ştatların Konstitusiyasına və qanunlarına əsasən ən yüksək şəkildə yerinə yetirəcəyəm". Əgər bu Konstitusiya hakimin fəaliyyəti üçün heç bir qayda yaratmırsa, nə üçün o öz vəzifələrini Birləşmiş Ştatların Konstitusiyası əsasında yerinə yetirəcəyinə and içir? Əgər Konstitusiya onun üçün bağlıdırsa və onun tərəfindən təfsir oluna bilməzsə, nə üçün bu andı içir?

Əgər məsələ belədirsə, bu, təntənəli lağlağılıqdan başqa bir şey deyil. Bu andı müəyyən etmək, yaxud onu içmək cinayət kimi bir şeydir.

Qeyd etmək yerinə düşərdi ki, *Torpağımızın Ali Qanunu* elan olunarkən Konstitusiya ilk növbədə göstərilməlidir və Birləşmiş Ştatların qanunlarının hamısı deyil, onlardan Konstitusiya üçün qəbul olunanları bu dərəcəyə layiqdir.

Beləliklə, Birləşmiş Ştatların Konstitusiyasının konkret dili bütün yazılı konstitusiyalar üçün əhəmiyyətli olan prinsipi təsdiq edir və gücləndirir: Konstitusiyaya zidd olan qanun hüquqi qüvvəyə malik deyildir; məhkəmələr, həmçinin digər dövlət orqanları bu prinsipə bağlıdır.

Deməli, [1798-ci il tarixli aktın] müddəa ləğv olunmalıdır.

---

1 *Mandamus* (lat.) — məhkəmə qətnaməsi — *red.*
2 Ex post facto (lat.) — geriyə qüvvəsi olan.
3 *Court* (ing.) — həm məhkəmə, həm məclis deməkdir — *red.*

## 31. AMERİKALILAR VƏ YERLİ AMERİKALILAR

### Qara Tərlan

Avropa kolonistlərinin Amerikanın yerli əhalisinə — Kolumbun dövründən qalmış səhvə görə "hindu" adlandırılan əhaliyə qarşı münasibəti, əlbəttə, Birləşmiş Ştatların bütün tarixi boyu ən böyük ədalətsizliklərdən biri olmuşdur. İnkişaf etmiş mədəniyyəti və uğurlu ictimai təşkilatları olan hindu tayfaları amansız təqiblərə məruz qalmış, öz torpaqlarından qovulmuş və hətta məhv edilmişlər.

1820-ci ildə ABŞ-da hindu tayfalarının Böyük Amerika səhrasına köçürülməsi haqqında proqram qəbul olunmuşdu. Amerikada hindu torpaqlarını ələ keçirmək istəyənlər deyirdilər ki, yaxşı hindu ölü hindudur. 1830-cu ildə Konqres "Hinduların köçürülməsi haqqında qanun" qəbul etdi və hinduların əksəriyyəti 10 il ərzində bəzi yerlərdə torpaq alqı-satqısı haqqında müqavilə yolu ilə, digər yerlərdə zorla boş qərb torpaqlarına köçürüldü.

1832-ci ildə bir hindu tayfası öz rəhbəri Qara Tərlanın başçılığı altında İllinoys və Viskonsindəki torpaqlarına qayıtmağa cəhd etdi.

Ağ amerikalıların silahlı qüvvələri hindulara hücum edib onların qadınlarını, uşaqlarını doğradı. Hər tərəfdən düşmənin qüvvələri ilə mühasirəyə alınmış Qara Tərlan təslim olmağa məcbur oldu və nitqində ağ kolonistlərin onun xalqını düçar etdikləri bədbəxtliklərdən danışdı.

Məğlubiyyətdən sonra prezident Ceksonun əmriylə Qara Tərlanı və onun oğlu Çaxan Şimşəyi qandallayaraq şəhərbəşəhər gəzdirməyə, "dava qəniməti" kimi nümayiş etdirməyə başladılar. Lakin bu iki əsir əzab və işgəncələr içində də özlərini elə ləyaqətlə apardılar ki, elə ilk günlərdən amerikalıların rəğbətini qazandılar.

Lakin hinduların qovulması davam edirdi. İndi də onları qərb torpaqlarından sıxışdırıb çıxarmağa başladılar. Onların təqib olunması siyasətinə yalnız XX yüzillikdə — bütün hinduları artıq məhv etdikdən, ya da rezervasiyalara doldurduqdan sonra son qoyulmuşdur. Yalnız bu vaxt ağ Amerika xatırladı ki, firavanlığa hindu torpaqlarında nail olublar və yerli əhalinin müdafiəsinə dair proqramlar qəbul etməyə başladı. Â1934-cü ildə Konqres hinduların torpaq haqqına yenidən baxılması ilə bağlı qanun qəbul etdi. Bu qanuna görə, rezervasiyalarda olan torpağın qəbilə mülkiyyət forması bərpa olundu. Qanun yerli amerikalıların torpaqlarının alınması üçün xüsusi kredit fondu yaratdı. 1980-ci ildə ABŞ-ın Ali Məhkəməsi səkkiz siu tayfasından qeyri-qanuni alınmış torpaqlara görə federal hökumətə onlara 120 milyon dollar əvəz ödətmişdir.

QARA TƏRLAN

# Təslim nitqi (1832)

*Siz bizim nə üçün vuruşduğumuzu bilirsiniz. Bu, bütün ağ adamlara məlumdur. Buna görə onlar utanmalıdırlar.*

Qara Tərlan hindudur. O, hindunun utana biləcəyi heç nə etməmişdir. O öz həmvətənləri, hindu qadınlar və uşaqlar uğrunda buraya onları aldatmaq və torpaqlarını əllərindən almaq üçün ildən-ilə gələn ağ adamlara qarşı mübarizə aparmışdır. Siz bizim nə üçün vuruşduğumuzu bilirsiniz. Bu, bütün ağ adamlara məlumdur. Buna görə onlar utanmalıdırlar. Ağ adamlar hindulara nifrət edir və onları evlərindən qovub çıxarırlar. Lakin hindular yalançı deyillər. Ağ adamlar hindular haqqında pis danışır və onlara qəzəblə baxırlar. Lakin hindu yalan danışmır, oğurluq etmir.

Əgər hindu ağ adam kimi pis olsa, bizim xalqın içərisində yaşaya bilməz; o, ölümlə cəzalandırılacaq və canavarlara atılacaqdır. Ağ adamlar pis müəllimdirlər; onların baxışları yalançıdır və onlar ticarətdə aldadırlar; onlar yazıq hindunun üzünə gülürlər ki, onu aldatsınlar; onlar hindunun əlini sıxırlar ki, özlərinə qarşı inam yaratsınlar, onları sərxoş olanacan içirtsinlər və bizim qadınları korlasınlar. Biz onlara dedik ki, bizi sakit buraxsınlar və bizdən uzaq olsunlar, lakin onlar bizi təqib edir, öz cığırlarımızla getməyimizə mane olur və ilan kimi içərimizdə hərlənirdilər. Onlar toxunmaqları ilə bizi zəhərlədilər. Biz təhlükə qarşısında idik. Biz təlaş içərisində yaşayırdıq. Biz də zəhməti yaddan çıxararaq zəhmətkeşlərə yox, onlar kimi ikiüzlü və yalançılara, zinakarlara, tənbəllərə, boşboğazlara çevrildik.

Biz Böyük Ruha müraciət etdik. Biz böyük atamızın hüzuruna getdik. Biz ruhlandıq. Onun ali məsləhətləri bizə şərəfli sözlər və böyük ümidlər verdi, lakin biz məmnun ola bilmədik. İşlər pis gedirdi. Meşədə marallar yoxa çıxdı. Opossum(1) və qunduzlar qaçıb getdi, qadınlarımız və uşaqlarımız ərzaqsız qalıb aclıq keçirdilər; biz böyük şura çağırdıq və böyük tonqal qaladıq. Atalarımızın ruhları gəldi və bizimlə danışdılar ki, səhvlərimizi və yanlışlıqlarımızı bizə göstərsinlər. Biz hamımız şura odu qarşısında danışırdıq. Bu, çox isti və xoş idi. Biz müharibəyə çağırdıq və tomaqavkları(2) çıxartdıq; bıçaqlarımız hazır idi və Qara Tərlanın ürəyi öz döyüşçülərini savaşa apararkən sinəsində fərəhlə döyünürdü. O, məmnun oldu. O, məmnun ruhların dünyasına gedəcəkdir. O öz borcunu yerinə yetirdi. Atası onu orada qarşılayacaq və təriflәyəcəkdir.

1 Amerikada yaşayan kisəli siçovul.
2 Hindularda döyüş baltası.

## 32. AMERİKA KÖLƏLİKLƏ MÜBARİZƏ CƏMİYYƏTİ

On səkkizinci yüzilliyin sonunda Avropa və Amerikada başlanmış köləliyə qarşı ümumdünya hərəkatı demokratiya tarixinin ən parlaq səhifələrindəndir. Öncə Böyük Britaniyada, sonra Amerikanın bir sıra ştatlarında, İspaniya və respublika Fransasında köləliyi və kölə alverini qadağan edən qanunlar qəbul edilir. Köləliklə mübarizə yüksək mənəvi əhəmiyyət kəsb edirdi, belə ki, bu mübarizəni qaradərili kölələrdən daha çox ağdərili demokrat fəallar, din, siyasət və dövlət xadimləri aparırdı.

İlk 24 qul Amerikaya Afrikadan 1619-cu ildə gətirilib fermerlərə satılmışdı, Amerika inqilabı dövrü üçün isə ölkənin üç milyon nəfər ümumi əhalisi olan on üç ştatında yarım milyona qədər kölə var idi. 18-ci əsrin sonu — 19-cu əsrin əvvəllərində insanların hüquq və bərabərliyi prinsipləri üzərində qurulmuş ölkədə insanın insana zülm etməsinin ləğvinə çalışan ağdərili insanların hərəkatı — abolisionistlər(1) hərəkatı başlanmış və genişlənmişdir. Bu hərəkat köləliyin iqtisadi cəhətdən əhəmiyyətini itirdiyi şimal ştatlarında deyil, qaradərili kölələrin əməyinin son dərəcə yüksək gəlir gətirdiyi cənub ştatlarında başlanmış və güclənmişdir. Bu hərəkata müqavimət göstərərək, quldar cənub ştatları ABŞ Konqresi aktla köləliyi qadağan edərsə, federasiyadan ayrılacaqları ilə hədələyirdilər. Abolisionistlər hərəkatı ideoloji çətinliklərlə də qarşılaşırdı: təhkimçilik hüququ Avropada təzəcə ləğv olunmuşdu, maarifçiliyin nümayəndələri öz əsərlərində köləlik problemlərinə toxunmurdular, Bibliya kölə əməyindən istifadə olunmasını pisləmirdi, on doqquzuncu əsrin əvvəlində ABŞ Konstitusiyası da köləliyə loyal yanaşırdı.

Lakin köləliyə qarşı mübarizə getdikcə güclənirdi. 1833-cü ildə Filadelfiyada alovlu abolisionist Uilyam Lloyd Harrisonun başçılıq etdiyi Amerika Köləliklə Mübarizə Cəmiyyəti yaradıldı. Bu cəmiyyətin təsis qurultayında qəbul olunmuş Niyyətlər Bəyannaməsində köləlik Konstitusiyaya (o vaxtkı Konstitusiyanı Harrison "şeytanla saziş" adlandırırdı) görə olmasa da, "təbii hüquq"a görə qeyri-qanuni elan olunurdu. Cəmiyyətin üzvlərinin sayı sürətlə artırdı, 1838-ci ildə ölkədə özünün deyil, başqasının azadlığı uğrunda 250 mindən çox fəal mübarizə aparırdı. Bu mərd insanlar öz məqsədlərinə çatmaq üçün otuz ilə qədər mübarizə aparmalı oldular.

AMERİKA KÖLƏLİKLƏ MÜBARİZƏ CƏMİYYƏTİ

# Niyyətlər Bəyannaməsi (1833)

*...Dərisinin rəngindən asılı olmayaraq başqalarından tələb olunan keyfiyyətlərə malik hər bir şəxsin hamı kimi eyni imtiyaz və ixtiyara malik olmasına dərhal imkan yaradılmalıdır...*

Biz buraya elə bir vəzifənin yerinə yetirilməsi üçün toplaşmışıq ki, bunsuz atalarımızın işi yarımçıq qalardı. Mənəvi həqiqət fiziki gücdən üstün olduğu kimi, bu vəzifənin də böyüklüyü, əzəməti və dünyanın taleyinə təsir imkanı atalarımızın işi ilə müqayisədə daha üstündür. İstər fikrimizin təmizliyinə, istər istəklərimizin qanuniliyinə, istər niyyətlərimizin qətiliyinə, istər addımlarımızın cəsarətliliyinə, istər əqidəmizin möhkəmliyinə, istərsə də ruhumuzun səmimiliyinə görə biz onlardan geri qalmamalıyıq...

Ciddiliyindən asılı olmayaraq, əcdadlarımızın şikayətləri burada bəhs etdiyimiz ədalətsizlik və iztirablarla müqayisədə heç nədir. Atalarımız heç vaxt kölə olmayıblar; onları heç vaxt heyvan kimi alıb-satmayıblar; onları heç vaxt bilik və din nurundan məhrum etməyiblər; onları heç vaxt kobud nəzarətçilər qamçılamayıb.

Lakin azadlığı uğrunda mübarizə apardığımız və həmvətənlərimizin ən azı altıda birini təşkil edən insanları qanun kobud heyvanlara bərabər tutur; onların gündəlik əməyinin bəhrəsi əvəzi ödənilmədən qarət edilir; onlar şəxsiyyətlərinə qarşı yönəldilmiş ədəbsiz və öldürücü hərəkətlərdən müdafiə olunmaq üçün nə Konstitusiya, nə də hüquqdan istifadə edə bilirlər. Məsuliyyətsiz tiranların şıltaqlığı və özbaşınalığı ucbatından zərif körpə dəli edilmiş anasının əlindən amansızlıqla alınır, ürəyi parça-parça olan qadın hönkürən ərindən ayrılır. Yalnız qaradərili olduqlarına, yalnız bu "cinayətlər"inə görə onlar aclıq əzabına, döyülməyə, kobud kölə rüsvayçılığına məhkum edilmişlər. Qanunlar onları bütpərəst cahilliyində saxlayır. Bu qanunlar onların təhsil almasına imkan verməmək üçün qəbul olunmuşdur.

İki milyondan artıq adamın həyat şəraitinin dəhşətli təfsilatları bundan ibarətdir. Dediklərimizi sübut etmək üçün minlərcə şəksiz faktlara və quldar ştatların qanunlarına müraciət etmək olar.

Beləliklə, biz hesab edirik ki, bu ölkənin mülki və dini imtiyazları baxımından onların pozulması dünyada hər hansı pozuntudan daha ağırdır, bu ağır yükdən xilas olmaq və məzlumları azad etmək üçün bu pozuntulara dərhal son qoyulmalıdır...

Köklü afrikalının satın alınması, yaxud oğurlanması və onun köləyə çevrilməsi quldurluqdur. Şübhəsiz ki, bu günah da amerikalının köləyə çevrilməsi kimi böyük bir günahdır.

Biz inanır və bildiririk ki, prinsipcə afrikalı kölə alveri ilə amerikalı kölə alveri arasında heç bir fərq yoxdur; başqasını öz mülkiyyəti kimi məcburi köləlikdə saxlayan hər bir Amerika vətəndaşı Müqəddəs Kitaba uyğun olaraq adam oğrusudur; kölələr dərhal azad edilməli və qanunun himayəsinə verilməlidir; əgər onlar nəsildən-nəslə fironların dövründən bəri yaşayıb qala bilmişlərsə, onların azadlıq hüquqları əllərindən alına bilməz; beləliklə, köləliyə imkan yaradan qanunların hamısı Allah qarşısında etibarsızdır, çünki bu qanunlar "ilahi hüquqlar"ı açıq-aşkar zəbt edir, "təbii hüquq"u kəskin şəkildə pozur; ictimai müqavilənin özünün əsaslarını, bütün münasibətləri, insanlararası qarşılıqlı hörmət və yardım hisslərini dağıdan, həmçinin bütün müqəddəs kəlamları pozan amilə çevrilir. Deməli, onlar dərhal ləğv edilməlidir.

Daha sonra, biz inanır və bildiririk ki, dərisinin rəngindən asılı olmayaraq başqalarından tələb olunan keyfiyyətlərə malik hər bir şəxsin hamı kimi eyni imtiyaz və ixtiyara malik olmasına dərhal imkan yaradılmalıdır; onlar üçün də ağ adamlar kimi cəmiyyətdə mövqe tutmağa, rifah halını yaxşılaşdırmağa və əqli inkişafına şərait yaradılmalıdır.

Biz hesab edirik ki, köləni azad edərkən plantasiya sahibinə heç bir əvəz ödənilməməlidir, belə ki, bu, yalnız böyük və əsas prinsipin yerinə yetirilməsi demək olardı, bu prinsipə görə, insan digər insanın mülkiyyəti ola bilməz...

Əgər əvəz ödənilməlidirsə, o, kölələri qarət edənlərə, onları ələ salanlara deyil, təhqir edilmiş və heç bir günahı olmayan kölələrə verilməlidir.

Biz birbaşa, yaxud dolayısı ilə kölələrin azad edilməsi probleminin həllinə iddia edən, yaxud köləliyin dərhal və tam ləğvinə alternativ kimi nəzərdən keçirilən ekspatriasiyanın(2) istənilən variantını səhv, amansız və təhlükəli hesab edirik.

Biz köləlik probleminə dair öz səlahiyyətləri daxilində qanun qəbul edən ştatların hər birinin suverenliyini tam və yekdilliklə qəbul edirik. Biz nəzərə alırıq ki, hazırkı milli sazişə(3) əsasən, Konqresin bu mühüm məsələyə münasibətdə quldar ştatlardan heç birinin işinə qarışmağa hüququ yoxdur.

Lakin biz belə bir mövqedən çıxış edirik ki, Konqresin müxtəlif ştatlar arasında daxili kölə alverinin qarşısını almağa və ölkənin Konstitusiya tərəfindən özünün müstəsna yurisdiksiyasına aid etdiyi hissələrində köləliyi ləğv etməyə həm hüququ var, həm də bunu etməyə borcludur.

Biz hesab edirik ki, indi azad ştatların adamlarının üzərinə mühüm vəzifələr — Birləşmiş Ştatların Konstitusiyasında göstərilən mənəvi və siyasi təsir vasitələri ilə köləliyin ləğv edilməsi vəzifələri düşür. Bu adamların malik olduqları böyük fiziki güc cənub ştatlarının milyonlarca adamının əl-ayaqlarında təhqiramiz istibdad qandalının saxlanılmasına imkan verir; onlar istənilən vaxt kölələrin üsyanlarını yatırtmaq üçün səfərbər edilə bilərlər; onlar quldarın kölələrinin beşdə üçünü öz mülkiyyəti hesab edərək səsverməsinə şərait yaradır(4), beləliklə də, quldarın zülmünün əbədiləşdirilməsinə imkan verirlər; onlar quldarın müdafiəsi üçün cənubda ordunun saxlanılmasına kömək edirlər; onların ərazisinə qaçıb gəlmiş kölələri tutur, geri qaytarır, burada isə qəzəblənmiş sahibkarlar, yaxud qəddar nəzarətçilər qaçqın köləyə işgəncələr verirlər. Köləliyə belə münasibət cinayətdir və çox təhlükəlidir. Və buna son qoyulmalıdır...

---

1 Abolish (ing.) — [köləliyi] ləğv etmək — *red.*

2 O vaxtlar Amerika zəncilərinin geriyə — Afrikaya məcburi qaydada qaytarılmasına dair müzakirə olunan planlar nəzərdə tutulur — *red.*

3 Müstəqil olan ştatları federativ dövlətdə birləşdirmiş ABŞ Konstitusiyası nəzərdə tutulur — *red.*.

4 Səsverməde iştirak etmək üçün lazım olan əmlak senzi nəzərdə tutulur — *red.*

## 33. GƏNC AMERİKA AVROPALININ GÖZÜ İLƏ

### Aleksis de Tokvill

İngiltərə və Fransa respublikaları məğlubiyyətə uğradıqları bir zamanda gənc Amerika dövlətinin uğurlu təcrübəsi Avropada böyük maraq doğurur. Bu təcrübə Avropa cəmiyyətində, siyasi və akademik dairələrdə geniş müzakirə olunur. Bir çox tədqiqatçılar Amerikaya təşrif buyurur, onun dövlət quruluşunu, sadə amerikalının həyat və psixologiyasını öyrənir. Amerikanın çoxsaylı tədqiqatçıları arasında xüsusi yeri fransız politoloqu, əqidəcə monarxist olan Aleksis de Tokvill (1805–1859) tutur. Onun Amerika həyatının tədqiqinə həsr olunmuş “Amerikada demokratiya” adlı kitabı bu qəbildən olan əvəzsiz əsər sayılır.

1831-ci ildə Fransa hökuməti tərəfindən Amerikanın həbsxana sistemini öyrənmək üçün göndərilmiş Tokvill və onun dostu Qustav de Bomon doqquz ay ABŞ-ı qarış-qarış gəzirlər. Burada Tokvill yalnız həbsxana sistemini deyil, ölkənin ictimai həyatını müxtəlif aspektlərdən öyrənərək Amerika uğurunun sirrini tapmağa çalışır.

Tokvill sadə amerikalının xasiyyətini, həm Amerika cəmiyyətinin xarakterini, həm də Amerika siyasi sisteminin səmərəliliyini formalaşdıran əxlaqı və həyat tərzini incədən-incəyə təsvir edir. O bu nəticəyə gəlir ki, amerikalılar özlərində yüksək dini əxlaqı azadlıqla birləşdirə biliblər və Amerika cəmiyyətinin uğurlarının bir səbəbi də elə bundadır.

1831-ci ildə ABŞ əhalisi artıq 13 milyonu aşmışdı, özü də bu əhali daim qərbə doğru “köç edərək” yeni-yeni torpaqları mənimsəyirdi. Tokvill amerikalıları cəsur, sərt, heç bir silki üstünlüyü, imtiyazları tanımaq istəməyən müstəqil bir xalq kimi görür və təsvir edir; şərtiliklər və xurafat demokratiya və azadlığı canlarından çox sevən bu nikbin adamlarda yalnız gülüş doğurur.

Tokvill amerikalıların daim şəxsi müstəqilliyə can atmasını, onların insan hüquqlarına xüsusi münasibətlərini, elə özlərinin təyin etdiyi qanunlara (avropalılar üçün qəribə görünə biləcək) bir həssaslıqla yanaşmalarını, onların təkcə öz həyatlarını deyil, həm də əhatəsində yaşadıqları mühiti yaxşılaşdırmaq şövqünü dəqiq detallar və ustalıqla təsvir edir.

Tokvill gizlətmək istəmədiyi bir heyranlıqla göstərir ki, Amerikada hakimiyyət həqiqətən də əksəriyyətə (Avropada olduğu kimi ziyalı azlığa yox) məxsusdur, bütün yaşlı ağdərili kişilərə seçmək və seçilmək hüququ verilib.

Amerikalıların daim özünüidarəetməyə can atması da Tokvilldə xüsusi maraq doğurur. Burada kimsə xəstəxana tikmək fikrinə düşəndə hökumətə müraciət etmir, bunu digər vətəndaşlarla könüllü əməkdaşlıq yolu ilə təşkil etməyə çalışır. Amerikanın hər yerində olan bu cür fəallıq cəmiyyətə mənən böyük təsir göstərir. Amerikalılar həqiqətən də hökuməti deyil, özlərini ölkənin ağası sayırlar.

Eyni zamanda, Tokvill Amerika cəmiyyətinə xas olan müəyyən konformizmi, çoxluğun formalaşmış tiraniyasını, onun fikrincə, həlli mümkün olmayan irqi ziddiyyətləri də diqqətdən qaçırmır.

“Amerikada demokratiya” kitabı 19–20-ci əsrlərdə dönə-dönə nəşr edilib və dünyanın bütün əsas dillərinə tərcümə olunub. Tokvill Amerikada ən çox oxunan və sevilən müəlliflərdən biridir. Görünür, başqalarına nisbətən o, Amerika uğurunun sirrini açmağa daha yaxın olub.

ALEKSİS DE TOKVİLL

# Amerikada demokratiya (1835)

## ANQLOAMERİKANLARIN MƏNŞƏYİ VƏ BUNUN ONLARIN GƏLƏCƏYİNƏ TƏSİRİ

*Amerika. — Nümunəsi ilə böyük xalqın yaranışının ilkin mərhələsini aydın görə bildiyimiz yeganə ölkə... İctimai müqavilə. — Musa qanunlarından götürülmüş cinayət kodeksi. Dinpərəstlik. — Respublika ruhu. — Dinə bağlılıqla azadlıq ruhu arasında sıx əlaqə.*

...Amerikanın tarixini dərindən öyrənib siyasi və ictimai quruluşunu diqqətlə təhlil etməyə başlayarkən belə bir həqiqətin düzgünlüyünə əmin olursan ki, bu cəmiyyətin yaranışının ilkin mərhələsini bildikdən sonra izah edilməyəsi heç bir prinsip, heç bir vərdiş, heç bir qanun, hətta deyərdim ki, heç bir hadisə yoxdur...

Görünür, dil insanlar arasında ən möhkəm və uzunmüddətli əlaqə vasitəsidir. Bütün mühacirlər eyni [ingilis] dildə danışırdılar, onlar hamısı bir xalqın övladları idi. Ta qədimdən müxtəlif partiyaların mübarizəsi nəticəsində qaynayan ölkədə, hər cür qruplaşmaların növbə ilə qanuna sığınmaq məcburiyyətində qaldıqları ölkədə doğulmuş bu adamlar sərt məktəbdə ciddi siyasi bişkinlik qazanmışlar və buna görə də Avropa xalqlarının çoxundan daha yaxşı başa düşürdülər ki, insan hüquqları və həqiqi azadlıq prinsipləri nə deməkdir. İlk məskənlər salınarkən icma özünüidarəsi — azad hakimiyyət institutlarının bu rüşeymi artıq ingilislərin adətlərində özünə dərin kök salmışdı və beləliklə, Tüdorlar monarxiyasının özünün daxilində xalq hakimiyyəti prinsipi bərqərar olmuşdu.

Bu dövr müxtəlif dini cərəyanların bütün xristian dünyasını sarsıtmış mübarizəsinin ən qızğın çağı idi. İngiltərə sanki sonsuz hiddətlə yeni mübarizə meydanına atılmışdı. Onun həmişə təmkinliliyi və soyuq mühakiməsi ilə seçilən əhalisi qabalaşmış və mübahisələrə meylli olmuşdu. Zehni çarpışmalar ingilislərin təhsil və mədəniyyətinin yüksəlməsinə gətirib çıxardı. İntellektual savaşlar nəticəsində ingilislərin savadı və mədəniyyəti artdı. Dini mövzuların müzakirəsi nəticəsində onların mənəviyyatı xeyli təmizlənirdi. Bütövlükdə millətə xas olan bu xüsusiyyətlər okeanın o tayına xoşbəxtlik dalınca gedənlər üçün də səciyyəvi idi...

Birinci ingilis koloniyası Virciniyada salınmışdır; mühacirlərin buraya ilk gəlişi 1607-ci ilə təsadüf edir... Onların çoxunu qızılaxtaranlar təşkil edirdi. Onların dəlisovluğu təzəcə salınmış koloniyanın sakitliyini pozur və onun gələcəyini şübhə altına alırdı... Onların saldıqları məskənlərin heç birinin əsasında bir dənə də olsun xeyirxah niyyət, yüksək məqsəd dayanmırdı. Bu koloniya yaranan kimi orada quldarlığı tətbiq etməyə başladılar. Məhz məsələnin bu mühüm cəhəti cənubun xarakterinə, qanunlarına və bütün gələcəyinə böyük təsir göstərmişdir...

Şimala gəldikdə isə burada elə həmin ingilis kökü üstündə tamamilə başqa bir şey yaranmışdı... Məhz şimali ingilis koloniyalarında (onlar daha çox Yeni İngiltərə Ştatları kimi tanınırdı) bu gün Birləşmiş Ştatların ictimai inkişaf nəzəriyyəsinin əsaslandığı iki, yaxud üç əsas prinsip formalaşmışdı.

Yeni İngiltərə sahillərində məskunlaşmış bütün mühacirlər metropoliyada az-çox imkanlı təbəqələrə aid olmuşdular. Onların Amerika torpaqlarına köçməsi lap əvvəl qeyri-adiliyi ilə seçilirdi: onlar elə bir cəmiyyət yaratmışdılar ki, orada nə tanınmış ağalar, nə də sadə camaat var idi, başqa sözlə, aralarında nə varlı, nə də kasıb var idi. Ümumi saya nisbətdə mühacirlərin içərisində savadlılar indiki istənilən Avropa ölkəsi ilə müqayisədə daha çox idi. Demək olar ki, istisnasız olaraq onların hamısı kifayət qədər qabaqcıl təhsil almışdı və bir çoxu Avropada istedadı və alimliyi ilə tanınmışdı. Başqa koloniyalar əsl-nəcabətsiz macərapərəstlər tərəfindən yaradılmışdı; Yeni İngiltərənin sakinlərinə isə bu torpaqlara özləri ilə gətirdikləri qayda və yüksək mənəviyyat xas idi. Onlar arvadları və uşaqları ilə birlikdə çöllüklərdə məskunlaşırdılar. Onları başqa kolonistlərdən

fərqləndirən əsas cəhət isə Amerikaya gəlmələrinin məqsədilə bağlı idi. Onları vətəni tərk etməyə heç də son dərəcə ağır ehtiyac məcbur etməmişdi; onlar vətənlərində hətta itirilməsinə heyfslənməli olan kifayət qədər yüksək ictimai mövqelərini və yaşamaq üçün ciddi vəsaitlərini qoyub gəlmişdilər. Onlar Yeni Dünyaya vəziyyətlərini yaxşılaşdırmaq, yaxud daha çox sərvət toplamaq üçün köçüb gəlməmişdilər — onlar doğma torpaqlarından ona görə uzaqlaşmışdılar ki, əqlin və ürəyin səsinə qulaq asaraq və köçkünlər üçün qaçılmaz olan əzab-əziyyətlərə dözərək bir *ideyanın* həyata keçirilməsinə nail olsunlar.

Mühacirlər, yaxud onların özlərini haqlı olaraq adlandırdıqları kimi, piliqrimlər İngiltərədə ciddi əxlaqlarına görə puritanlar adını alan sektalara məxsus idilər. Puritanizm təkcə dini doktrina deyildi; bu dini cərəyan ideyalarına görə bir çox şeylərdə demokratik və respublikaçı nəzəriyyələrə yaxınlaşır. Bunun nəticəsində puritanlar özlərinə qatı və təhlükəli düşmənlər qazanmışdılar. Doğma torpaqlarında puritanları hökumət təqib edirdi, yaşadıqları cəmiyyətin gündəlik həyatı onların əxlaq normalarına uyğun gəlmirdi və puritanlar özləri üçün elə boş, uzaq torpaqlar axtarmağa başladılar ki, orada öz prinsiplərinə uyğun yaşaya və azad şəkildə Allaha ibadət edə bilsinlər...

Elə fikirləşməyin ki, puritanlar ancaq axirəti düşünməklə məşğul idilər, yaxud özlərini bu dünyanın işlərindən təcrid etmişdilər. Yuxarıda qeyd etdiyim kimi, puritanizm dini cərəyan olmaqla yanaşı, siyasi bir hərəkat idi.

Mühacirlər bu qonaqpərvərlikdən uzaq sahilə təzəcə düşmüşdülər ki, cəmiyyət yaratmağa girişdilər və bu məqsədlə aşağıdakı məzmunda müqavilə bağladılar: "Biz... Allah və bir-birimiz qarşısında bu müqavilə ilə, aramızda qayda-qanun yaratmaq üçün vətəndaş ittifaqında birləşirik... Buna görə isə biz elə ədalətli və hamımız üçün eyni qanunlar... və vəzifələr yaradacağıq ki, koloniyamızın rahatlıq və əmin-amanlığı üçün gərəkli ola bilsin və onlara əməl edəcəyimizi, tabe olacağımızı vəd edirik... ". Bu, 1620-ci ildə baş vermişdir. O vaxtdan mühacir axınının arası kəsilmirdi. Birinci Karlın bütün hakimiyyəti dövründə Britaniya imperiyasını dağıdan dini və siyasi ehtiraslar yeni-yeni sektantları Yeni İngiltərə sahillərinə qovurdu...

İngilis koloniyaları həmişə digər koloniyalara nisbətən daha çox daxili azadlıqdan və siyasi müstəqillikdən istifadə edirdilər və bu da onların çiçəklənməsinin əsas səbəblərindən biri idi. Və ölkənin heç bir hissəsində azadlıq prinsipi Yeni İngiltərə Ştatlarında olduğu qədər geniş həyata keçirilmirdi... İdarəetmə sistemi müəyyən sayda mühacirə metropoliyanın himayəsi altında siyasi vətəndaş cəmiyyəti təsis etmək hüququnun, həmçinin ingilis qanunlarına zidd olmayan özünüidarə hüququnun verilməsindən ibarət idi.

Azadlığın inkişafına bu qədər müsbət təsir göstərmiş belə idarəetmə forması əməli olaraq yalnız Yeni İngiltərədə tətbiq edilmişdi. Lakin çox vaxt Yeni İngiltərə koloniyalarına hüquq xartiyaları onlar yaranandan xeyli sonra — baş vermiş faktla üz-üzə qaldıqda verilmişdir. Plimut, Providens, Nyu-Heyven şəhərləri, Konnektikut və Rod-Aylend ştatları İngiltərənin yardımı və əslində xəbəri olmadan yaradılmışdır. Yeni sakinlər öz birliklərini müstəqil, bunun üçün metropoliyadan heç bir səlahiyyət almadan təşkil edirdilər (bu vaxt metropoliyanın ali hakimiyyəti də inkar edilmirdi). Bu birliklər yalnız otuz, hətta qırx ildən sonra, artıq İkinci Karlın vaxtında kral xartiyası ilə qanuna alınmışdır. Beləliklə, Yeni İngiltərə tarixinə və qanunlarına dair ilkin sənədləri öyrənərkən görürük ki, çox vaxt mühacirləri əcdadlarının ölkəsi ilə birləşdirən əlaqəni izləmək çətin olur. Hər dəfə görürsən ki, onlar öz suverenliklərini nümayiş etdirirlər: özləri vəzifəli şəxsləri təyin edir, sülh bağlayır, müharibə elan edir, polisin fəaliyyətini nizamlayan qanunlar qəbul edirlər; elə bil ki, onlar Allahdan başqa heç kəsə tabe deyillər. Ən qeyri-adi və eyni zamanda ibrətamiz olan o dövrün qanunlarıdır. Bizim günlərdə Birləşmiş Ştatların təmsil etdiyi nəhəng sosial müəmmaya açarı məhz onlarda axtarmaq lazımdır. Yuxarıda adları çəkilən tarixi sənədlərdən bu dövr üçün xüsusilə xarakterik olan və 1650-ci ildə kiçik Konnektikut ştatında qəbul olunmuş qanunlar külliyyatını göstərmək olar.

Konnektikut qanunvericiləri hər şeydən əvvəl cinayət qanunvericiliyi ilə məşğul olmuşlar; qanunlar yaradarkən onlar Müqəddəs Kitabdan da yararlanmışlar: "Kim öz Allahımızdan başqasına sitayiş edərsə, ölümə məhkum ediləcəkdir". Sonra bu qayda ilə İkinci Qanunlar, Nəticə və Levit kitablarından götürülmüş daha on, yaxud on iki müddəa gəlir. Kafirlik, cadugərlik, zinakarlıq, zorlama, həmçinin övladın valideynlərinə qarşı nalayiq hərəkətləri ölümlə cəzalandırılırdı...

Qanunvericilər cinayət qanunları külliyyatını tərtib edərkən, hər şeydən əvvəl, cəmiyyətdə əxlaq və ədəb qaydalarının qorunması zərurətindən çıxış edirdilər. Bunun nəticəsi kimi onlar daim insan hissləri sahəsinə müdaxilə edirdilər. Demək olar ki, elə bir günah olmamışdır ki, onun məhkəmə qaydasında baxılmasına nail olmasınlar. Oxucu yəqin gördü ki, zinakarlıq və zorlama necə sərt cəzalandırılırdı. Nikahda olmayan adamlar arasında ən adi münasibətlərin qarşısı sərtliklə alınırdı(1). Hakimlər müqəssirə üç cəzadan birini tətbiq edə bilərdi: pul cəriməsi, çubuqla döymə və nikah. Nyu-Heyven məhkəmələrinin o vaxtkı protokollarına inansaq, sonuncu cəza heç də az tətbiq olunmurdu... 1650-ci il kodeksində qabaqlayıcı tədbirlər də çoxdur. Bu qanunlara görə,

tənbəllik və əyyaşlıq üçün ciddi cəzalar nəzərdə tutulurdu. Meyxanaçıların müştəriyə normadan artıq şərab verməyə ixtiyarı yox idi; kiməsə zərər gətirə biləcək xırda bir yalan cərimə, yaxud döyülməklə cəzalandırılırdı. Kodeksin digər yerlərində qanunvericilər özlərinin də Avropada dini azadlıq prinsiplərini müdafiə etdiklərini unudaraq adamları dini mərasimlərdə iştiraka məcbur etmək məqsədilə pul cəriməsi müəyyənləşdirir və hətta onlar kimi ibadət etməyən xristianlara ölüm hökmü də daxil olmaqla ən ağır cəzalar tətbiq edirdilər...

Onu da yaddan çıxarmaq olmaz ki, bu bəzən qəribə, bəzən də sərt qanunlar heç də məcburi qaydada qəbul olunmurdu — onların hamısı maraqlı vətəndaşların azad səsverməsi ilə bəyənilirdi; nəzərdən qaçırmaq lazım deyil ki, bu cəmiyyətdə əxlaq normaları qanunların özündən daha ciddi, daha puritancasına idi. Məsələn, 1649-cu ildə Bostonda uzun saç saxlayanlara qarşı mübarizə aparmaq məqsədilə ciddi bir cəmiyyət yaradılmışdı...

Həm sektant dünyagörüşünün məhdudluğunu, həm də təqiblərlə qızışdırılmış və hələ də insanların qəlbini sakit buraxmayan dini ehtirasları özündə əks etdirən bu cinayət qanunvericiliyi ilə yanaşı, siyasi xarakterli qanunlar toplusu da meydana gəlmişdir. İki yüz il bundan öncə tərtib olunmuş bu qanunlar öz azadlıq ruhuna görə zəmanəmizlə müqayisədə çox irəlidəydi.

Müasir konstitusiyaların 17-ci əsr avropalılarının əksəriyyətinin çətinliklə başa düşdüyü və o vaxtkı Böyük Britaniyada qismən tətbiq olunan ümumi prinsipləri Yeni İngiltərə tərəfindən tam qəbul edildi və qanunlarda təsbit olundu: *ictimai işlərdə xalqın iştirakı, vergilər haqqında məsələyə azad səsvermə ilə münasibət, hakimiyyət nümayəndələrinin xalq qarşısında məsuliyyəti və andlılar məhkəməsi*. Bütün bunlar yekdilliklə bəyənildi və Yeni İngiltərənin həyat normasına çevrildi.

Bu dövrdə Konnektikutda ştatın qubernatoru da daxil olmaqla icra hakimiyyətinin bütün vəzifəli şəxsləri seçilirdi.

On altı yaşından yuxarı bütün vətəndaşlar silah gəzdirməli idilər; onlar xalq milisini təşkil edir, özləri öz içlərindən zabitləri təyin edirdilər. Onlar vətəni müdafiə etməyə həmişə hazır olmalı idilər.

Konnektikutun, eləcə də Yeni İngiltərənin digər ştatlarının qanunları bizim günlərdə də Amerika azadlıqlarının əsasını təşkil edən və onların həyata keçirilməsi üçün vasitə olan icma müstəqilliyinin yaranışını və inkişafını əks etdirir.

Avropa ölkələrinin əksəriyyətinin siyasi həyatı rəsmi piramidanın yuxarısından başlayır və tədricən üstəlik yarımçıq şəkildə cəmiyyətin digər özəklərini əhatə edirdi. Amerikada isə əksinə, icma dairədən, dairə ştatdan, ştat isə bütün konfederasiyadan əvvəl meydana gəlmişdir...

İcma adamları birləşdirən və bir-birinə sıx bağlayan elə bir yer idi ki, orada onlar öz maraq və meyllərini göstərə, hüquqlarını həyata keçirə və borclarını yerinə yetirə bilirdilər. İcmanın daxilində mahiyyətcə demokratik və respublikaçı olan həqiqi və fəal siyasi həyat qaynayırdı. Koloniyalar hələlik metropoliyanın ali hakimiyyətini tanıyır, ştatlar əvvəlki kimi monarxiya qanunları ilə idarə olunurdu, lakin respublika icma çərçivəsində tam gücü ilə inkişaf etməkdə idi.

İcma bütün səviyyələrdə vəzifəli şəxsləri seçir, yerli vergiləri qoyur, həmçinin bütün digər vergiləri yığırdı. Yeni İngiltərənin icmalarında nümayəndəli orqanlar haqqında heç bir qanun qəbul olunmamışdı. İcmanın bütün üzvlərinin maraqlarına aid olan ümumi məsələlər Afinada olduğu kimi mərkəzi meydanda, ya da ümumi yığıncaqda müzakirə olunurdu.

Amerika respublikalarının ilk dövrlərdə qəbul olunmuş qanunlarını diqqətlə öyrənərkən, qabaqcıl nəzəriyyələri həyata keçirmiş qanunvericilərin dövlət müdrikliyinə istər-istəməz heyran olursan...

Aydındır ki, amerikalı qanunvericilər avropalı həmkarlarından fərqli olaraq cəmiyyətin öz üzvləri qarşısında vəzifələrini daha geniş və yüksək səviyyədə başa düşür və cəmiyyətin qarşısında elə yüksək tələblər qoyurdular ki, dünyanın digər hissələrində onların yerinə yetirilməsindən hələ çox uzaq idilər. Yeni İngiltərə Ştatlarında yoxsullar cəmiyyət yaranan gündən onun tam təminatında idilər; yolları lazımi vəziyyətdə saxlamaq üçün ciddi tədbirlər görülür, onlara nəzarət etmək üçün hətta xüsusi məmur təyin olunurdu; icmanın ümumi cədvəllərinə vətəndaşların müxtəlif məsələlərə dair müzakirələrinin nəticələri, icma üzvlərinin ölüm, nikah və doğum tarixləri daxil edilirdi. Hətta sahibsiz mirasları idarə edən məmurlar da var idi. Başqa məmurlar vərəsəliklə verilən torpaq mülklərinin sərhədlərinə riayət olunmasına nəzarət edirdilər. Bir sıra vəzifəli şəxslərin əsas işi icmada ictimai asayişin qorunmasından ibarət idi... Bütün bunlarla yanaşı, Amerika sivilizasiyasının özünəməxsusluğu lap əvvəldən xalq maarifinə aid sənədlərdə özünü daha aydın göstərmişdir.

Qanunda deyilir: “Belə bir faktı nəzərə alaraq ki, insan nəslinin düşməni olan İblis özünün ən güclü silahını insan nadanlığı sayəsində əldə edir; çalışaraq ki, atalarımızın buraya gətirdikləri biliklər onların özləri ilə yoxluğa çəkilməsin; nəzərə alaraq ki, uşaqların tərbiyəsində hər şeydən əvvəl dövlət maraqlıdır, biz Allahın köməyi ilə... ”. Sonra gələn müddəalarda bütün icmalarda məktəblərin yaradılması tövsiyə edilir və bu məktəblərin bütün xərcləri böyük cərimələr hədəsi altında əhalinin üzərinə qoyulurdu. Bu qayda ilə əhalinin sıx yaşadığı rayonlarda ali məktəblər yaradılırdı. Bələdiyyə hakimiyyəti valideynlərin öz uşaqlarını məktəbə göndərməsinə nəzarət etməli idi; bu hakimiyyətin göstərilən tələbləri yerinə yetirməyən valideynlərin üzərinə cərimə qoymaq hüququ var idi; təkrar-təkrar bu qanunu pozan valideynlər isə atalıq hüququndan məhrum edilir, cəmiyyət ailə vəzifəsini öz üzərinə götürür və uşağı himayəsinə alırdı. Oxucu, şübhəsiz, göstərilən qanunların preambulasına diqqət yetirdi: Amerikada maarifə doğru aparan məhz dindir, halbuki insanları azadlığa doğru onların Allah qanunlarına riayət etməsi istiqamətləndirir...

İnsan ağlının yaratdığı ən cəsarətli nəzəriyyələr ilk baxışdan sadə görünən bu cəmiyyətdə özünün əməli tətbiqini tapmışdır. Heç bir dövlət xadimi bu cəmiyyətə, şübhəsiz, fikir də verməzdi. Özünün bənzərsizliyinə inanmış insan yalnız təxəyyülündən istifadə edərək görünməmiş qanunlar yaratmışdır. Hələ dünyaya bircə general, bir filosof, yaxud dahi yazıçı verməmiş bu naməlum demokratiya şəraitində insan azad vətəndaşların qarşısında ayağa qalxıb ümumi razılıq mühitində azadlığın aşağıdakı gözəl tərifini verə bilərdi: “Biz müstəqilliyimiz adı altında nə düşündüyümüzlə bağlı yanılmamalıyıq. Əslində həm heyvanların, həm insanların istifadə etdikləri, bir növ, yanlış azadlıq da mövcuddur. Bu azadlıq şəxsi istəklərə uyğun hərəkət etməkdən ibarətdir. Belə azadlıq istənilən hakimiyyətə düşməndir; onu hər hansı qayda-qanuna tabe etdirmək çətindir; belə azadlıq şəraitində biz günbəgün aşağı enirik; o, həqiqətin və sülhün düşmənidir; hətta Allah da ona qarşı çıxmağı lazım bildi. Eyni zamanda vətəndaş azadlığı və mənəvi azadlıq mövcuddur; birliyimizdə əks olunan qüvvə; hakimiyyətin özünün qorumalı olduğu qüvvə — bu azadlıq çəkinmədən xeyirxah və ədalətli işlər görməkdən ibarətdir. Bu müqəddəs azadlığı biz hər hansı təsadüflərdən qorumalı və lazım gələrsə, həyatımızı onun yolunda qurban verməliyik”(2).

Mən anqloamerikan sivilizasiyasının xarakterini həqiqət mövqeyindən təqdim etmək üçün kifayət qədər çox şey dedim. O, tamamilə müxtəlif iki başlanğıcın nəticəsi olaraq meydana gəlmişdir (bu ilk müddəa istənilən mühakimədə nəzərə alınmalıdır). Yeri gəlmişkən, bu iki başlanğıc çox vaxt bir-biri ilə mübarizədə olmuşdur, lakin necə olubsa, Amerikada birini digərinə birləşdirə və hətta çox gözəl uyğunlaşdıra biliblər — söhbət dinə bağlılıqdan və azadlıq ruhundan gedir.

Yeni İngiltərənin yaradıcıları ardıcıl sektant, eyni zamanda qızğın yenilikçilər idi. Bir tərəfdən onlar müəyyən dini etiqadın təsir dairəsindən çıxa bilmir, digər tərəfdən isə hər hansı siyasi cəfəngiyatdan tam azad idilər. Buradan da iki müxtəlif, lakin bir-birinə zidd olmayan meyl meydana gəlmişdir. Bunun təsirini hər yerdə — həm cəmiyyətin əxlaqında, həm də onun qanunlarında görmək çətin deyildir.

Bu adamlar dini etiqadlarına öz dostlarını, ailələrini və vətənlərini qurban verə bilərlər; güman etmək olar ki, onlar bu qədər qurbanlar bahasına əldə etməyə hazır olduqları bir zehni rahatlıq axtarışına qapılıblar. Bununla yanaşı, aydın olur ki, onlar eyni təkidlə yalnız mənəvi rahatlıq deyil, həmçinin maddi nemətlər də əldə etməyə çalışırlar, o dünyalarını təmin etməklə yanaşı, bu dünyada da əmin-amanlıq və azadlıq axtarırlar.

Beləliklə, mənəviyyat aləmində hər şey nizama salınmış, razılaşdırılmış, qabaqcadan nəzərə alınmış və həll edilmişdir. Siyasət aləmində isə hər şey daim hərəkətdədir, şübhə altına alınır, bir qeyri-müəyyənlik var; birində passiv, lakin könüllü itaət, digərində — müstəqillik, təcrübəyə inamsızlıq və istənilən nüfuzun qızğın inkarı.

İlk baxışdan əkslik təşkil edən bu iki meyl bir-birinə heç bir zərər yetirmir, əksinə, tam razılıq şəraitində inkişaf edir və hətta biri digərinə müəyyən mənada dayaq olur.

Din vətəndaş azadlığını insan qabiliyyətinin nəcib ifadəsi, siyasi aləmi isə Yaradanın insan ağlı üçün verdiyi fəaliyyət meydanı kimi görür. Öz sahəsində azad və qüdrətli, cəmiyyətin onun üçün ayırdığı yerə tam qane olan din çox gözəl dərk edir ki, əgər o, yalnız öz gücünə arxalanarsa və ürəklər üzərində hakimiyyətinə hər hansı kənar kömək olmadan yiyələnərsə, onda onun imperiyası daha möhkəm olar.

Azadlıq isə dində mübarizə və qələbələrdə öz müttəfiqini, öz uşaqlığının beşiyini, öz hüquqlarının ilahi mənbəyini görür. O, dini əxlaqın qoruyucusu kimi qəbul edir, əxlaqın özünü isə qanunçuluğun mövcud olması üçün təminat hesab edir.

## BİRLƏŞMİŞ ŞTATLARDA İCTİMAİ OVQAT

*Anadangəlmə vətən sevgisi. — Şuurlu vətənpərvərlik.*
*— Əgər birincisi yox olarsa, xalqlar ikincisini əldə etmək üçün əllərindən gələni əsirgəməməlidirlər. — Ölkənin və ayrı-ayrı vətəndaşların mənafelərinin sıx bağlılığı.*

... Dünyada dərkedilməz, təmənnasız və sezilməz duyğulardan yoğrulmuş vətən sevgisi var. Elə bir sevgi ki, insan qəlbini onun doğulduğu yerə əbədi bağlayır. Bu instinktiv məhəbbət üstəlik də qədim adətlərə sədaqət, əcdadlara ehtiram, keçmiş haqda xatirələrlə qidalanıb güclənir və insanlar öz ölkələrini ata evi kimi sevməyə başlayır... Bəzən isə vətənə olan bu cür məhəbbət dini hisslərlə qızışdırılır, belə hallarda o, möcüzələr yaratmağa qadirdir. Əslində bu məhəbbətin özü də elə dinə oxşayır — bu hissi keçirən insan düşünüb-daşınmır, etiqad edir, duyur və iş görür...

Hər bir dərkedilməz duyğu kimi, bu vətən sevgisi də insanı böyük, lakin qısamüddətli işlərə ruhlandırır, nəinki daimi cəhdlərə. Bu duyğu dövləti təhlükə anında xilas edir, lakin dinc bir zamanda onu taleyin ümidinə, özbaşına buraxır.

Bu instinktiv vətən sevgisi o vaxt hökm sürür ki, adətlər sadə, etiqad isə möhkəmdir, çoxdanın ictimai qaydalarına şəksiz əməl olunur və onların ədalətliliyinə heç kəs şübhələnmir.

Ayrı cür, daha rasional vətən sevgisi də var. Ola bilsin, o, bu qədər pak və çılğın deyil, lakin daha səmərəli və sabitdir. Bu məhəbbət maarif sayəsində doğulur, qanunların köməyilə inkişaf edir, hüquqlardan bəhrələndikcə böyüyür və nəhayət, insanın şəxsi mənafeləri ilə qovuşur. İnsanlar ölkənin xoş güzəranı ilə öz xoş güzəranları arasında bağlılıq görməyə başlayır, anlayırlar ki, qanun bu xoş güzəranı qurmağa icazə verir. Onlarda ölkənin çiçəklənməsinə maraq oyanır: əvvəl onlar buna fayda gətirən bir nemət kimi, sonralar isə öz yaratdıqlarına baxan kimi baxırlar.

Lakin xalqların həyatında elə dövrlər olur ki, qədim adət və ənənələr pozulur, etiqad zəifləyir, keçmişə ehtiram unudulur, eyni zamanda maarif hələ geniş yayılmayıb, siyasi hüquqlar hələ məhdud və etibarsızdır. Belə məqamlarda insanlar vətəni dumanlı və qeyri-müəyyən bir şey kimi təsəvvür edirlər. Və bu təsəvvürü nə göz qabağında cansız torpağa çevrilən əraziylə, nə artıq boyunduruq kimi baxmağa vərdiş etdikləri dədə-baba adətləriylə, nə şübhəylə yanaşdıqları dinlə, nə yaradılmasına yaxın buraxmadıqları qanunlarla, nə də qorxduqları və ikrah bəslədikləri qanunvericilərlə bağlayırlar. Vətən təsəvvürünü və onun rəmzlərini itirməklə onlar öz dar və nadan eqoizmlərinə qapılırlar. Belə məqamlarda insanlar hər cür xurafatdan uzaqdırlar, lakin onlar ağlın qüdrətinə də inanmırlar. Onlarda nə monarxiyaya xas instinktiv vətənsevərlik, nə də respublikaya xas ağıllı vətənpərvərlik var, onlar bu iki duyğunun arasında dayanıb durublar, iğtişaş və köməksizlik içində ömür sürürlər.

Belə hallarda nə etmək lazımdır? Geriyəmi dönməli? Lakin insanlar öz cavanlıqlarının məsum sevinclərinə qayıda bilmədikləri kimi, xalqlar da beləcə, cavanlıq çağlarının duyğularını qaytara bilmirlər. Onlar hətta buna heyfslənsələr belə, bu duyğuları yenidən doğurmaq gücündə deyillər. Bir halda ki, vətənə təmənnasız sevgi həmişəlik itirilib, irəli getmək, xalqın təsəvvürlərində şəxsi mənafeləri və ölkənin mənafelərini birləşdirmək üçün mümkün olan bütün şeyləri eləmək lazımdır...

Birləşmiş Ştatlarda yaşayan insanlar oraya bu yaxınlarda gəliblər və gələndə özləriylə nə əvvəlki adətləri, nə də xatirələri gətiriblər, orada onlar ilk dəfə görüşür və bir-birlərini yaxşı tanımırdılar. Bəs onda nə üçün onlardan hər biri icmanın, mahalın və bütün dövlətin işləriylə öz işləriymiş kimi maraqlanır? Yalnız ona görə ki, onlardan hər biri cəmiyyətin idarə olunmasında özünəməxsus tərzdə fəal iştirak edirdi.

Birləşmiş Ştatlarda insanlar sadə, lakin xalqların hələ də yaxşı dərk edə bilmədikləri bir həqiqəti başa düşürlər: hər bir adamın xoşbəxtliyi ümumi tərəqqidən asılıdır, həm də onlar bu tərəqqiyə və firavanlığa öz əllərinin məhsulu, cəmiyyətin firavanlığına öz şəxsi firavanlıqları kimi baxır və yalnız vətən borcunu verməməklə deyil, demək olar ki, qazanc xatirinə çalışırlar.

## BİRLƏŞMİŞ ŞTATLARDA HÜQUQ ANLAYIŞI HAQQINDA

*Böyük xalqlar hüquqlar haqqında anlayış olmadan mövcud ola bilməzlər.*
*— Xalq hüquq ideyasını necə mənimsəyir.*
*— Birləşmiş Ştatlarda hüquqa hörmət.*
*— O, haradan peyda olub.*

Xeyirxahlıqdan sonra ən gözəl anlayış hüquqlar haqqında anlayışdır. Daha dəqiq desək, bu hər iki anlayış bir-biriylə sıx təmasdadır: əslində hüquqlar siyasi həyata köçürülmüş xeyirxahlıqdır.

Məhz hüquqlar barədə anlayış insanlara anarxiya və özbaşınalığın nə demək olduğunu müəyyən etməyə imkan vermişdir. Hüquqlar onlara təkəbbürsüz müstəqil olmağa və alçalmadan itaət göstərməyə kömək edir. Zorakılığa itaət edən insan əyilir və alçalır. Özünə tay tuta bildiyi adamın sərəncam vermək hüququna tabe olanda isə o, müəyyən mənada, ona buyuruq verəndən də yüksəkdə dayanır. Xeyirxahlıqdan məhrum böyük adamlar olmadığı kimi hüquqlara hörmət etməyən böyük xalqlar da yoxdur. Hüquqlar olmadıqda çətin ki, cəmiyyətin mövcudluğundan danışmaq olsun. Birliyi yalnız güc üzərində qurulmuş bir dəstə şüurlu insanı cəmiyyət adlandırmaq olarmı?

Müasir insanlara hüquq ideyasını mənimsəməkdə necə kömək etməli, əgər belə demək mümkündürsə, bu ideyanı onların şüuruna necə çatdırmalı? Bunun yalnız bir üsulu var — onlara sakitliklə bəzi hüquqlardan istifadə etmək imkanı vermək lazımdır. Bunu yaşlı adamlardan yalnız güc və təcrübəli olmaması ilə fərqlənən uşaqların davranışından misal gətirməklə dəqiq aydınlaşdırmaq olar.

Uşaq xarici aləmin əşyaları arasında hərəkət etməyə başladıqda qabağına çıxan bütün şeyləri instinktiv surətdə ələ keçirməyə çalışır. Onun özgə mülkiyyəti haqda təsəvvürü yoxdur, belə bir şeyin olduğunu heç bilmir, lakin şeylərin qiymətini öyrəndikcə görür ki, kimlərsə onu da mülkiyyətdən məhrum edə bilər və o, ehtiyatlı olmağı öyrənir, axırda isə ətrafındakı yaşadığı adamlara onların onun özünə yanaşmasını istədiyi kimi yanaşmağa başlayır. Uşaq və onun oyuncaqları ilə bağlı baş verənlər sonralar yaşlı adam və onun əmlakı ilə bağlı baş verir...

Həmin şey siyasi həyatda da baş verir. Amerikada sadə adamlar siyasi hüquqlar kimi yüksək anlayışı dərk edirlər, çünki bu hüquqların yiyəsidirlər. Onlar başqalarının hüquqlarına toxunmurlar, çünki kiminsə onların da hüquqlarına toxunmasını istəmirlər. Avropada sadə adamlar hətta ali hakimiyyəti belə tanımaq istəmirlər, Amerikada isə hətta kiçik məmurun hakimiyyətinə sözsüz-sovsuz tabe olurlar...

Demokratiya siyasi hüquqlar anlayışını hər bir vətəndaşın şüuruna çatdırır, necə ki, əmlakın mövcudluğu mülkiyyət anlayışını bütün adamlar üçün aydın edir. Fikrimcə, onun başlıca məziyyətlərinin biri elə bundadır. Əlbəttə, hamını siyasi hüquqlardan istifadə etməyi öyrətmək o qədər də asan deyil, lakin bu məqsədin əldə edilməsi qeyri-adi nəticələrə yetirir...

Mübaliğəsiz söyləmək olar — azad yaşamaq sənəti möcüzələr yaratmağa qadirdir, lakin eyni zamanda, azad yaşamağı öyrənməkdən çətin şey yoxdur. İstibdadda məsələ başqa cürdür. O, çox vaxt bütün çəkilmiş əzablardan yaxa qurtarmaq vasitəsi, qanuni hüquqların dayağı, məzlumların sığınacaq yeri, qanun-qaydanın özülü kimi təsəvvür edilir. Xalqlar onun doğurduğu müvəqqəti firavanlıqda uyuyur, ayılanda isə özlərini artıq miskin vəziyyətdə görürlər. Azadlıq isə, əksinə, adətən tufanlarda doğulur və vətəndaş ixtilafları içində çətinliklə özünə yer edib möhkəmlənir. Onun ləyaqət və məziyyətlərini yalnız ahıl yaşa çatdıqdan sonra dərk etmək olar.

## BİRLƏŞMİŞ ŞTATLARDA BÜTÜN SƏVİYYƏLƏRDƏKİ SİYASİ HAKİMİYYƏTLƏRİN FƏAL FƏALİYYƏTİ. ONUN CƏMİYYƏTƏ TƏSİRİ

*Birləşmiş Ştatlara xas azadlıq və bərabərliyi anlamaq orada çağlayan siyasi fəaliyyəti anlamaqdan daha asandır. — Bu fəaliyyət bütün ölkəni əhatə edir; legislaturaların*(3) *daimi və təpərli işi onun yalnız tərkib hissəsidir. — Amerikalılar üçün təkcə öz işləriylə məşğul olmaq kifayət deyildir. — Siyasi fəaliyyət ictimai həyata təsir göstərir.*

... Amerikalıların istifadə etdikləri böyük azadlıq və tam bərabərliyi təsəvvür etmək bir o qədər də çətin deyildir. Lakin Amerika siyasi fəaliyyətinin nə demək olduğunu onu öz gözlərinlə görmədən anlamaq qeyri-mümkündür.

Amerika torpağına qədəm basar-basmaz, özünüzü hansısa mərəkənin ortasında görəcəksiniz — hər tərəfdən anlaşılmaz sədalar qopur, siz eyni vaxtda çoxlu səslər eşidirsiniz, hər bir səs hansısa ictimai problemdən danışır. Ətrafınızda hər şey hərəkətdədir — burada məhəllə sakinləri kilsə tikməyi, yoxsa tikməməyi müzakirə etməkçün yığışıblar, orada hakimiyyət orqanlarına nümayəndə seçkisi gedir, ondan o yanda hansısa dairənin deputatları şəhərə tələsirlər ki, yerli əhəmiyyətə malik bəzi təkmilləşmələrlə bağlı qərar qəbul etsinlər, daha haradasa yerqazanlar öz işlərini buraxıb yol, yaxud məktəb tikintisinin planını müzakirə etməyə gedirlər. Bir dəstə vətəndaş yeganə bir məqsədlə — hökumətin fəaliyyətindən narazı olduğunu bildirmək üçün toplaşıb, bu zaman aralıdakı başqa bir dəstə bütün vəzifəli şəxsləri millət ataları elan edir. Daha bir dəstə isə belə hesab edir ki, dövlətin bütün bəlalarının əsas mənbəyi əyyaşlıqdır və oradaca təntənəli surətdə öhdəlik götürür ki, indən belə hamı üçün ayıqlıq nümunəsi olacaqdır.

Amerika legislaturalarının daimi və gərgin fəaliyyəti xalq kütlələrinin dərinliyində yaranıb tədricən vətəndaşların bütün siniflərini əhatə edən ümumi fəaliyyətinin yalnız bir hissəsi və davamıdır. Hamı yorulmaq bilmədən ölkənin rifahı naminə çalışır.

Birləşmiş Ştatların vətəndaşlarının həyatında siyasi fəaliyyət hədsiz böyük yer tutur. Cəmiyyətin idarə olunmasında iştirak etmək və bu barədə fikir yürütmək — budur amerikalıların ən başlıca məşğuliyyəti və ən məmnun olduğu şey! Bu, ən cüzi vərdişlərdə də özünü göstərir. Hətta tez-tez kütləvi yığıncaqlara gedir və siyasi nitqlərə qulaq asa-asa ev və ailə qayğılarından dincəlirlər. Onlar üçün klublar müəyyən mənada tamaşaları əvəz edir. Amerikalılar söhbət eləmirlər — mübahisə edirlər, onlar danışmırlar — mülahizə yürüdürlər. Onlar bir nəfərə bütöv bir yığıncağa müraciət edirmiş kimi müraciət edir və bir nəfərlə söhbət edərkən coşub ona “cənablar” deyirlər.

Bəzi ölkələrin sakinləri qanunun onlara verdiyi siyasi hüquqlara bir növ ikrahla yanaşırlar, onlar üçün ümumi işlərlə məşğul olmaq vaxt itirmək kimi bir şeydir, onlar öz dar eqoizmlərinə qapılaraq xəndək və hasarların arxasında oturmağı üstün tuturlar.

Amerikalılara gəldikdə isə, onlar təkcə öz şəxsi işləriylə məşğul olmağa məcbur olsaydılar, həyatları yarıbayarı öz mənasını itirər, onlara boş bir şey kimi görünər və özlərini son dərəcə bədbəxt hiss edərdilər.

Mən əminəm ki, Amerikada nə vaxtsa müstəbid hakimiyyəti qurulsa, onun üçün azadlıqdan doğulmuş vərdişlərə qalib gəlmək azadlığa olan məhəbbəti sındırmaqdan qat-qat çətin olacaqdır.

İdarəçiliyin demokratik forması zamanı yaranmış siyasi sahədəki fasiləsiz fəaliyyət getdikcə mülki həyata da keçməyə başlayır. Ola bilsin ki, əvvəl-axır demokratiyanın əsas üstünlüyü də məhz elə bundan ibarətdir. Onun başlıca məqsədi bunda deyil ki, özü nə edir, bundadır ki, onun sayəsində nələr eləyə bilirlər.

Əlbəttə, xalq çox vaxt dövlət işlərini olduqca pis aparır, lakin bu işlə məşğul olduqca onun ideyalar dairəsi genişlənir və ona xas olan kütlük və durğunluqdan azad olur. Xalq arasından çıxsa da, cəmiyyəti idarə etməyə dəvət olunmuş insanın özünə hörməti artır. Ona hakimiyyət verilib və ən zəkalı adamlar onun köməyinə gəlirlər. Bəziləri ona dəstək almaq üçün müraciət edirlər, başqaları onu aldatmaq üçün müxtəlif üsullar arayıb axtarırlar və bütün bunlar onu inkişaf etdirir. Siyasət sahəsində o, başqalarının düşünüb-qurduqlarını həyata keçirir və bu iş onda işbazlığa həvəsi tərbiyə edir. O, hər gün ictimai mülkiyyətin təkmilləşdirilməsi barədə məsləhətlər eşidir və bu onda şəxsi mülkiyyətini də təkmilləşdirmək istəyi oyadır. Yəqin ki, o öz əcdadlarından daha ləyaqətli və xoşbəxt deyildir, lakin daha bilikli və fəaldır. Ölkənin demokratik idarələri, habelə təbii şəraiti Birləşmiş Ştatlarda sənayenin qeyri-adi inkişafının bəzilərinin düşündüyü kimi, birbaşa olmasa da, heç şübhəsiz ki, dolayı səbəbləridir. Demək olmaz ki, bu inkişaf qanunlara görə baş verir, lakin onu qanunyaradıcılığı fəaliyyəti sayəsində inkişaf etmiş xalq doğurur.

Demokratiyanın rəqibləri iddia edirlər ki, dövlət idarəçiliyinin öhdəsindən bir nəfər daha yaxşı gələ bilər, nəinki bütün xalq — mən bu fikirlə razılaşıram. Demokratik azadlıq öz təşəbbüslərində ağıllı diktator qədər kamil deyil. O, çox vaxt təşəbbüsündə olduğu işi bu iş təzəcə nəticələr verməyə başlayanda yarıda buraxır, bəzən təhlükəli işlərə girişir. Lakin zaman keçdikcə demokratik üsul-idarə despotizmdən daha böyük fayda gətirir. Hər bir şey ayrı-ayrılıqda onun ifasında daha pis alınır, lakin bütövlükdə o daha çox iş görür. Demokratik respublikada böyük işlər dövlət müdiriyyəti tərəfindən deyil, onsuz və ondan kənarda görülür. Demokratiya ən mahir idarəçilik forması deyil, lakin yalnız o, bir çox hallarda cəmiyyətdə qızğın və sürətli hərəkat doğura bilər, ona enerji və nəhənglər gücünü verə bilər ki, bunlar digər idarəçilik formalarında məlum və mümkün deyildir. Və bu

hərəkatlar, bu enerji və güc az-çox əlverişli şəraitlərdə möcüzələr yaratmağa qadirdir. Demokratiyanın əsl üstünlüyü də elə bundadır.

## QARA İRQİN BİRLƏŞMİŞ ŞTATLARDA YERİ VƏ ONUN MÖVCUDLUĞU AĞLAR ÜÇÜN HANSI TƏHLÜKƏNİ DOĞURUR

*Birləşmiş Ştatlarda köləlik ləğv olunduqca ağların qaradərililərə mənfi münasibəti artır. — Nədən amerikalılar köləliyin ləğvinə çalışırlar. — Köləlik vəziyyəti köləni kütləşdirir və eyni zamanda kölə sahibinin deqradasiyasına səbəb olur.*

Heç bir afrikalı Amerikaya könüllü gəlməyib. Bu o deməkdir ki, hazırda orada yaşayan qaradərililərin hamısı keçmişdə qul olub, yaxud quldur. Beləliklə, zəncilər artıq anadan olanda əcdadlarından özlərinin cəmiyyətdəki aşağı vəziyyətlərinin əlamətlərini almış olurlar. Qanun köləliyi ləğv edə bilər, lakin təkcə Allah onun izlərini silməyə qadirdir.

Müasir cəmiyyətdə qul öz sahibindən yalnız öz qeyri-azadlığı ilə deyil, həm də öz mənşəyi ilə fərqlənir. Zəncini azad etmək olar, lakin o bundan sonra da avropalı üçün yad olmaqda davam edəcəkdir. Bu, hələ hamısı deyil: cəmiyyətin ən aşağı pilləsində doğulmuş və bizdə qul qiyafəsində peyda olmuş bu adamı biz böyük bir güzəştlə insan adlandıra bilərik. Bizim üçün onun sifəti iyrənc, ağlı məhdud, zövqü rəzil görünür, biz onu az qala insanla heyvan arasındakı varlıq kimi qəbul etməyə hazırıq.

Köləlik ləğv edildikdən sonra müasir insana sezilməyən, lakin köləliyin özündən də möhkəm kök salmış üç zehniyyətə son qoymaq qalır. Söhbət ağanın qul üzərindəki, ağ adamın digər insanlar üzərindəki üstünlüyündən, habelə digər irqi xurafatlardan gedir.

Bizə — özümüzə oxşayan və bərabər hüquqlara malik insanlar arasında doğulmaq xoşbəxtliyi nəsib olanlara Amerika zəncisini avropalıdan necə bir böyük uçurum ayırdığını dərk eləmək olduqca çətindir. Lakin analogiyalara əl atmaqla bu barədə özümüz üçün bəzi təsəvvürlər yarada bilərik.

Bir vaxtlar bizdə də yalnız qanunlara əsaslanan qeyri-bərabərlik mövcud idi. Lakin bu cür qeyri-bərabərlik büsbütün süni xarakter daşıyır! Bir-birinin tam eyni olan insanlar arasındakı qanunla təyin edilən daimi fərqlər qədər insanın instinktiv duyğularına zidd olan ikinci bir şey tapmaq çətindir. Lakin bu fərqlər yüzilliklər boyu mövcud olmuşdur və hazırda bir çox yerlərdə mövcuddur. Bunlar hər yerdə insanların şüurunda izlər qoymuşdur və bu izləri hətta zamanın özü də çətinliklə silə bilir. Əgər yalnız qanunun müəyyən etdiyi qeyri-bərabərliyin öhdəsindən gəlmək bu qədər çətindirsə, onda sarsılmaz dayaqlarını sanki təbiətin özünün qoyduğu qeyri-bərabərliyi necə məhv etmək olar?

Mənim özümə gəldikdə isə, hər cür aristokrat zümrələrin hansı bir əzabla xalq kütləriylə qaynayıb-qarışdığını, yüzillər boyu onları xalqdan ayırmış xəyali sərhədləri qoruyub saxlamaq üçün hansı ifrat tədbirlərə əl atdıqlarını gördükdə aşkar və əbədi əlamətlər üzərində qurulmuş qeyri-bərabərliyin haçansa yox olacağına ümidlərim büsbütün sönür.

Mənə belə gəlir ki, avropalıların nə vaxtsa zəncilərlə qaynayıb-qarışacağına ümid bəsləmək xam xəyallara qapılmaq kimi bir şeydir.

İndiyə qədər gücün ağların tərəfində olduğu bütün yerlərdə onlar zənciləri alçaldılmış vəziyyətdə və köləlikdə saxlamışlar. Üstünlüyü zəncilər ələ aldıqda onlar ağları qırmışlar. Bu, iki irq arasında nə vaxtsa mövcud olan yeganə münasibət formasıdır.

Mənim müşahidələrimə görə, hazırda Birləşmiş Ştatların bəzi yerlərində bu iki irqi bir-birindən ayıran qanunları ləğv etməyə başlamışlar. Lakin əxlaq və davranış dəyişilməz qalır. Köləlik geri çəkilir, lakin onun doğurduğu xurafat qalmaqda davam edir.

Məgər ittifaqın zəncilərin azad insan olduğu yerlərdə onlar ağlarla dostlaşıblarmı? Heç şübhə yoxdur ki, Birləşmiş Ştatlarda olan hər kəs bunun tam əksini görür.

Mənə belə gəlir ki, irqi xurafat köləliyin ləğv olunduğu yerlərdə köləliyin hələ də qaldığı yerlərdən daha kəskin şəkildə təzahür edir. Lakin ən ifrat irqi dözülməzlik köləliyin heç vaxt olmadığı yerlərdə tüğyan edir.

Doğrudur, şimal ştatlarında qanun ağlara zəncilərlə nikah bağlamağa icazə verir, lakin ictimai rəy bunu rüsvayçılıq hesab edir və belə bir nikah nümunəsinə, demək olar ki, rast gəlinmir.

Zənci köləliyin ləğv edildiyi ştatların çoxunda səsvermə hüququ qazansa da, səsvermə məntəqəsinə gəlməklə həyatını təhlükə altında qoymuş olar. Zənci sıxışdırıldığına görə şikayət edə bilər, lakin onun şikayətinə ağdərili hakim baxacaq. Qanuna görə, zənci andlı iclasçı ola bilər, lakin xurafat bu qanunun işləməsinə əngəl törədir. Zənci uşaqları məktəbdə avropalıların uşaqları ilə bir yerdə oxuya bilməzlər. Teatrlarda o, ən böyük pula belə öz keçmiş ağası ilə yanaşı oturmaq hüququ ala bilməz. Xəstəxanalarda zəncilər ayrıca palatalarda qalırlar. Ağdərililərin dua etdikləri Allaha zəncilərin də dua etməsinə icazə verilir, lakin onların bunu ağlarla bir yerdə, eyni bir məbəddə etməsi yasaqdır — onların öz ruhaniləri və öz kilsələri var. Cənnətin qapıları onlar üçün bağlı olmasa da, qeyri-bərabərlik qəbrin kandarında da özünü göstərir. Zənciləri ağlardan aralıda dəfn edirlər və hətta ölüm — hamını bərabər haqlayan ölüm də onları hüquqda ağlarla bərabərləşdirə bilmir.

Beləliklə, zəncilər azaddırlar və ağlarla bərabər elan ediliblər, lakin onlar ağlarla eyni hüquqlardan istifadə edə, onların həzz, zəhmət və iztirablarını bölüşə, hətta ağlarla yanaşı dəfn edilə bilmirlər. İstər sağ ikən, istərsə ölümdən sonra qaradərililər ağlarla bərabər ola bilmirlər...

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDA QIZ UŞAQLARININ TƏRBİYƏSİ

Heç vaxt və heç yerdə əxlaqdan uzaq cəmiyyət olmayıb və artıq bu kitabın birinci hissəsində yazdığım kimi, əxlaqı qadınlar yaradır. Buna görə qadınların həyat tərzinə, onların vərdişlərinə və düşüncəsinə təsir göstərən bütün şeylərin hamısının böyük siyasi əhəmiyyəti vardır.

Demək olar ki, bütün protestant ölkələrində qızlar katolik xalqlarının qızları ilə müqayisədə daha müstəqildirlər və öz davranışlarına görə daha çox məsuliyyət duyurlar. İngiltərə kimi idarəetmə hüququnu qoruyub saxlamış, yaxud bu hüququ təzəlikcə qazanmış protestant dövlətlərində bu müstəqillik daha böyükdür. Beləliklə, ailəyə azadlıq siyasi və dini münasibətlər sahəsindən yol tapır.

Birləşmiş Ştatlarda protestant dini təlimi son dərəcə azad Konstitusiyaya və olduqca demokratik dövlət quruluşuna uyğunlaşıb yaşayır. Heç bir başqa ölkədə qızlar lap erkən çağlarından bu cür qeydsiz-şərtsiz özbaşına buraxılmırlar.

Gənc amerikalı qızın nikah yaşına çatmasına hələ xeyli qalmış onun ana himayəsindən tədricən azad olunması başlanır; hələ uşaqlıq sərhədini lazımınca adlamadan o, artıq müstəqil düşünür, sərbəst fikirlər söyləyir və könlü istəyən kimi hərəkət eləyir. Onun gözləri qarşısında dünyanın geniş mənzərəsi açılır. Ondan nəinki heç nəyi gizlətməyə çalışmır, əksinə, hər gün dünyanı ona daha çox açıb göstərir, hər şeyə sakit gözlə baxmağı, mətin olmağı öyrədirlər. Beləliklə, cəmiyyətin eyibləri və bu eyiblərin daşıdığı təhlükə tez bir zamanda onun qarşısında üzə çıxmış olur. Qız bunları aydınca görür, ayıq ağılla saf-çürük eləyir və qorxu-hürküsüz qarşılayır, çünki o öz qüvvəsinə inanır və deyəsən, yan-yörədəkilər də onun bu inamına şərik olurlar.

Buna görə uşaqlıqdan gəncliyə keçid zamanı adətən Avropa qızlarında üzə çıxan istəklərin oyanmasıyla qızışdırılan məsum ürəkaçıqlığının, yaxud sadəlövh və sadədil səmimiliyin təzahürünü, demək olar, heç vaxt amerikalı qızlarda görmək olmur. Amerikalı qız öz yaşından asılı olmayaraq utancaqlığını və uşaq bilməməzliyini nadir hallarda büruzə verir. Avropalı qızlar kimi o da xoşa gəlmək istəyir, lakin o öz dəyər-qiymətini dəqiq bilir. Və əxlaqsızlığa qurşanmayanda da, heç olmazsa onun bu barədə məlumatı olur; o, əqli cəhətdən pak olmaqdan daha çox mənən təmizdir.

Amerikalı qızların zarafatyana söhbətin "sualtı qayaları" arasında manevr edərək öz fikir və nitqlərini necə bir çeviklik və qəhrəmancasına cəsarətlə idarə etmələri məni çox vaxt təəccübə və az qala qorxuya salır; bu qızların tezcə və sərbəstcə qaçaraq keçdiyi dar cığırda hansısa filosof azı yüz dəfə büdrəmiş olardı.

Asanca görmək olar ki, lap erkən yaşlarından tam bir azadlıqdan bəhrələnən amerikalı qız-qadın öz üzərində nəzarəti heç vaxt tamamilə itirmir; yol verilən bütün zövqlərdən həzz alır və bunların heç birindən başını itirmir

və onun ağıl-düşüncəsi heç vaxt öz cilovunu əldən buraxmır, baxmayaraq ki, çox vaxt bu cilov buraxılmış kimi görsənir.

Baxışlarımızın və zövqlərimizin bütün əsrlərin qırıntılarından yoğrulmuş əcaib qatışıqdan ibarət olduğu Fransada biz çox vaxt qadınlara az qala monastır tərbiyəsi verir, aristokratiya zamanlarında olduğu kimi onlara utancaqlıq və qapalılıq aşılayır və bundan dərhal sonra da onları hər bir demokratik cəmiyyətə xas olan xaos şəraitində məsləhətsiz və köməksiz qoyuruq.

Amerikalılar öz hərəkətlərində daha ardıcıldırlar.

Onlar başa düşüblər ki, demokratik cəmiyyətdə fərdi müstəqillik çox əhəmiyyətlidir, başa düşüblər ki, gənclər həmişə səbirsiz olacaqlar, insanlar öz istəklərini heç vaxt boğa bilməyəcəklər, başa düşüblər ki, adətlər durmadan dəyişilir, ictimai rəy isə çox vaxt qeyri-müəyyən, yaxud gücsüz olur, başa düşüblər ki, ata məsuliyyəti zəifdir, ərin hakimiyyətinə qarşı isə artıq iddialar qaldırılır.

Onlar bu halları nəzərə alaraq qərara gəliblər ki, onların qadındakı insan qəlbinin ən amiranə ehtiraslarını boğmaq şansları azdır və başqa yol — qadınlara bu ehtiraslarla müstəqil mübarizə aparmağı öyrətmək yolu daha etibarlıdır. Onları qadın ləyaqətini hər addımda pusan təhlükələrdən qorumaq imkanı olmadığından onlar istəyirlər ki, qadın özü müdafiə üsullarını öyrənsin və yasaqların laxlamış, yaxud büsbütün dağılmış sədlərinə bel bağlamaqdansa öz azad iradələrinin gücünə arxalansınlar. Buna görə qız uşağını öz imkanları barədə xəbərsiz saxlamağa çalışmaqdansa amerikalılar ara vermədən onun öz şəxsi gücünə olan inamını möhkəmləndirməyə çalışırlar. Qız uşağını daim tam bilməməzlik vəziyyətində saxlamağa nə imkanları, nə də istəkləri olduğundan, onlar tələsir və dünyada olan bütün şeylər barədə məlumatları vaxtından əvvəl qızın ixtiyarına verirlər. Amerikalılar dünyanın eyiblərini heç də ondan gizlətməyə çalışmadan istəyirlər ki, o, bu eyib və eybəcərlikləri dərhal görə bilsin və bunlardan yaxa qurtarmağı öyrənmək üçün məşq etsin və onlar qız uşağının ləyaqətinin təminatını hətta onun məsumluğuna çox da rəhm etmədən almağa çalışırlar.

Amerikalıların son dərəcə dindar xalq olmasına baxmayaraq, onlar dinə qadın ləyaqətinin yeganə dayağı kimi baxmır, qadının zəkasını silahlandırmağa çalışırlar. Bir çox məsələdə olduğu kimi, burada da onlar eyni üsuldan istifadə edirlər. Əvvəlcə onlar ağlasığmaz səylər göstərib çalışırlar ki, müstəqil şəxsiyyət öz azadlığını özü idarə edə bilsin və yalnız insan qüvvəsi daxilindəki bütün imkanlar tükəndikdən sonra onlar kömək üçün dinə müraciət edirlər.

## QIZ NECƏ HƏYAT YOLDAŞI OLUR

Amerikada qadın ərə getməklə öz müstəqilliyini həmişəlik itirmiş olur. Burada qızlar heç yerdə olmadığı qədər azadlıqdan bəhrələndikləri halda, ərli qadınların davranışı ən ciddi öhdəliklərlə tənzimlənir. Biri üçün ata evi sərbəst və xoşbəxt yaşayışın rəmzidir, digəri isə öz ərinin evində monastırdakı kimi yaşayır.

Bu iki vəziyyət arasında, ola bilsin ki, ilk baxışda göründüyü qədər kəskin ziddiyyət yoxdur və çox təbiidir ki, amerikalı qızlar birinci mərhələni ikincisinə yetişmək məqsədilə keçirlər.

Son dərəcə dindar xalqlar və sənaye cəhətdən inkişaf etmiş dövlətlər nikah ideyasına xüsusi ciddiliklə yanaşırlar. Birincilər belə hesab edirlər ki, qadın üçün nizama salınmış həyat onun mənəvi təmizliyinin ən yaxşı təminatçısı və ən etibarlı sübutudur. İkincilər isə bunda evin sahman və firavanlığının rəhnini görürlər.

Amerikalılar eyni zamanda həm puritan millətdir, həm də kommersiya millətidir. Buna görə də dini əqidə, eləcə də iş bacarığı amerikalıları qadından öz vəzifələrinə fədakar münasibət tələb etməyə sövq edir ki, bu da qadını daim öz şəxsi zövq və keflərini qurban vermək məcburiyyətində qoyur, halbuki Avropada çox az adam tapılar ki, qadından bu cür fədakarlıq ummuş olsun. Başqa sözlə desək, Birləşmiş Ştatlarda qadını cidd-cəhdlə ev maraqları və qayğılarının dairəsiylə məhdudlaşdıran və ona oradan çıxmağı qadağan edən sərt ictimai rəy hökm sürür.

Dünyaya gələn balaca amerikalı qız bu ideyaların möhkəm qurulduğunu görür; o, başa düşür ki, bunlardan hansı nəticələr doğur və tezliklə belə bir əqidəyə gəlir ki, öz könül dincliyini, öz namuslu adını və hətta öz ictimai vəziyyətini dərhal təhlükə altına qoymadan öz müasirlərinin qəbul etdikləri bu normalardan bir an belə qurtula bilməyəcək və o, onda tərbiyə edilmiş mühakimə möhkəmliyi və vərdişlərin mətinliyi sayəsində bu adətlərə tabe olmaq üçün özündə lazımi güc tapır.

Demək olar ki, o öz cəsarətini — vaxtı gələndə qurbanlara müqavimətsiz və giley-güzarsız gedəcəyi cəsarəti məhz müstəqillik vərdişindən alır.

Bundan əlavə, amerikalı qadın heç vaxt nikah toruna öz sadəlövhlük və avamlığının sürüklədiyi tələyə düşən kimi düşmür. Qabaqcadan bilir ki, ondan nə gözləyirlər və bu yükü müstəqil, könüllü surətdə öz üzərinə götürür. O, özünün yeni vəziyyətinə mətanətlə dözür, çünki özü bu həyatı seçib.

Amerikada ata evindəki intizam çox yumşaq, ailə həyatı isə xeyli sərt olduğundan, qızlar ərə gedərkən ehtiyatlı olmağa çalışır, hər şeyi ölçüb-biçirlər. Burada erkən nikahlara nadir hallarda rast gəlmək olar. Bir sözlə, amerikalı qızlar zəruri həyat təcrübəsi əldə etməyənə və yetkinlik yaşına çatmayanacan ərə getmirlər, halbuki başqa ölkələrdə qadınların çoxu adətən yalnız ailə qurandan sonra təcrübə qazanmağa və yetişməyə başlayır.

Lakin mən heç də onu demək istəmirəm ki, amerikalı qadın ərə getdikdən sonra onun davranış və vərdişlərində baş verən dəyişikliklərə ictimai rəydən doğan məcburiyyətin nəticəsi kimi baxılmalıdır. Amerikalı qadınlar əksər hallarda yalnız öz şəxsi iradələrinə tabe olaraq bu vəzifələri üzərlərinə götürürlər.

Ər seçmək vaxtı çatanda azad dünyaqavrayışı ilə özülü qoyulmuş və möhkəmləndirilmiş soyuqqanlı və ciddi düşüncə tərzinin köməyilə o dərk edib başa düşür ki, ailə qurmağa yelbeyin və ötəri münasibət heç də zövq və nəşə mənbəyi deyil, daimi narahatlıq mənbəyidir, başa düşür ki, qayğısız qıza yaraşan əyləncələr evli qadına əl verməz, qadın öz xoşbəxtliyini yalnız ailədə tapa bilər, onu ailə xoşbəxtliyinə apara biləcək həmin o yeganə yolu irəlicədən gördüyünə görə o, ilk addımdan bu yola qədəm basır və geri dönməyə cəhd etmədən bu yolu axıracan gedir.

Bunu da qeyd edək ki, ərə gedəndən sonra öz yeni vəziyyətinin çətin vəzifələrinə tərəddüdsüz və gileysiz tabe olan gənc amerikalı qadınların nümayiş etdirdikləri həmin o güclü iradə onların həyat yolunda rastlaşan ağır sınaqlar dövründə də özünü büruzə verir.

Dünyada elə bir ölkə yoxdur ki, şəxsi mülkiyyət Birləşmiş Ştatlardakı qədər qeyri-sabit olsun. Çox vaxt elə olur ki, bir insan həyatı boyunca zənginlikdən yoxsulluğa aparan pilləkənin bütün pillələriylə qalxır da, düşür də.

Amerikalı qadınlar bu dəyişikliklərə öz sakitliklərini və ipə-sapa yatmayan enerjilərini qoruyaraq tab gətirirlər. Deyilənə görə onların firavanlığı əskildikdə istəkləri də azalır, ya da əksinə.

Qərbin insan yaşamayan boş düzənlərində ilbəil və getdikcə daha sıx məskən salan macəra axtaranların böyük əksəriyyəti Amerikanın ingilis mənşəli köhnə əhalisindən ibarət olan şimaldan gəlmələrdir. Bu cür cəsarətlə var-dövlət ardınca cummuş bu adamların çoxu öz doğma yerlərində tox bir həyat yaşayırdı. İndi isə onlar özləriylə arvadlarını da aparır və onları bu cür təşəbbüslərin həmişə yol yoldaşı olan saysız-hesabsız təhlükə və məhrumiyyətlərə bir yerdə qatlaşmağa məcbur edirlər. Ən uzaq və yabanı yerlərdə mən gənc qadınlara rast gəlmişəm ki, onlar uşaqlıqdan Yeni İngiltərənin böyük şəhərlərindəki rahat həyata öyrəşsələr də, sonradan birdən-birə ata-analarının zəngin evlərindən meşə xəlvətliyində tikilmiş, dəlmə-deşik damlı komalara köçmüşlər. Təşviş və həyəcanlar, xəstəliklər, yalqızlıq və ürək sıxıntısı onların əzmini qıra bilmir. Onların çöhrələri dəyişmiş və solmuş görünür, lakin baxışları öz möhkəmliyini saxlayıb, onlar eyni zamanda həm kədərli, həm də qətiyyətli görünürlər.

Mən şübhə etmirəm ki, gənc amerikalı qadınlar həmin o daxili gücü — sonradan bu qədər ehtiyac duyduqları iradə gücünü məhz uşaqlıq tərbiyəsi dövründə toplaya bilmişlər.

Beləliklə, amerikalı ərli qadının simasında hələ uşaq və qız yaşlarında formalaşmış elə həmin o şəxsiyyət aşkar olunur; həyatdakı rolu dəyişdikcə onun həyat tərzi də dəyişir, lakin ruhu dəyişməz qalır.

---

[1] 1663-cü ildə bir ərli qadın gənc oğlanla məhəbbət əlaqəsinə girmişdi. Sonra o, dul qalmış, həmin oğlana ərə getmişdi. Xeyli vaxt keçəndən sonra cəmiyyətdə onların arasında əvvəl də yaxınlığın olması haqqında şübhə yarandı. Onlara qarşı cinayət işi qaldırıldı, həbs edildilər və az qala ölüm cəzasına məhkum ediləcəkdilər — *müəllif.*

2 Con Uintropun (Massaçusets körfəzi koloniyasının ilk qubernatoru, puritanların lideri) nitqindən. C. Uintropu (1588–1649) vəzifədə olarkən bir sıra qanunsuzluqlarda ittiham edirdilər; bu nitqi söyləyəndən sonra ona bəraət verib alqışlarla yola saldılar və bundan sonra hər dəfə onu ştatın qubernatoru seçirdilər — *müəllif.*

3 Legislatura — qanunverici orqan — *red.*

## 34. NAMUSSUZ DÖVLƏTDƏ NAMUSLU ADAM

*Henri Devid Toro*

Uzun illər boyunca Avropanın intellektual əyaləti sayılan Amerika artıq 19-cu yüzilliyin əvvəllərində mədəniyyət sahəsində özünün intibah çağını yaşayırdı. Vaşinqton İrvinq, Fenimor Kuper, Edqar Po, German Melvill, Mark Tven, Ralf Uoldo Emerson və Henri Devid Toro yaradıcılığı dünyaya yeni Amerika nəsrinin doğuluşundan xəbər verirdi. Səmimilik və təbiətə sitayiş ruhundan yoğrulmuş bu ədəbiyyat öz dərin demokratizmi ilə seçilirdi.

Amerika filosofu, şairi və esseisti Henri Devid Toro (1817–1862) Massaçusets ştatının Konkord şəhərində doğulub yaşamış və Harvard Universitetini bitirmişdi. Tezliklə o, insanın təbiətlə qovuşmasını təbliğ edən və onun şəxsi azadlığı uğrunda mübarizə aparan “transdentalist”lər dəstəsinə qoşulur. Toro düz iki il meşə komasında tək-tənha yaşayaraq günlərini xəyal və düşüncələrdə keçirir. Özünün yetişdirdiyi cır giləmeyvə və paxla ilə dolanır. Adamayovuşmazlığına baxmayaraq, ictimai həyatda fəal iştirak edir, vətəndaş hüquqları uğrunda mübarizə aparır, təkidlə köləliyin ləğvinə çalışır.

1845-ci ildə ABŞ gözlənilmədən Meksikaya hücum edir və onun ərazisinin üçdə birini ələ keçirir. Bu ədalətsiz müharibə Toronu sarsıdır. O, etiraz əlaməti olaraq Amerika vətəndaşlığından imtina edir. Onu ən çox hiddətə gətirən o olur ki, Massaçusetsdə ləğv olunmuş, lakin cənub ştatlarında qüvvədə qalan köləlik indən belə yeni cənub ərazilərinə də yayılacaqdı.

Müharibənin elə ilk günlərindən Toro cinayətkar saydığı hökumətə vergi verməkdən imtina edir. 1846-cı ildə vergini ödəmədiyinə görə onu tutub saxlayırlar. Toro yenə boyun qaçırır və gecəni dustaqxanada keçirir. Lakin səhər onu buraxırlar — demə, naməlum bir şəxs onun əvəzinə vergi ödəyib.

Dustaqxanada ona “yar olan” acı düşüncələri və gəldiyi nəticəni Toro sonralar demokratik ədəbiyyatın klassik nümunəsi sayılan “Vətəndaş itaətsizliyi” essesində təsvir edir.

Toro yazır ki, dövlət fərdə labüd surətdə bəla və yamanlıq gətirir, ədalətsiz dövlət isə elə bir bəladır ki, onunla mütləq mübarizə aparmaq gərəkdir. Dünyada ali bir qanun var ki, mülki qanundan da yüksəkdir, hətta cəza hədəfi önündə də məhz bu qanuna əməl edilməlidir. Toro yazır ki, ədalətsiz dövlətdə namuslu adamın yeri dustaqxanadır.

“Vətəndaş itaətsizliyi” Toronun müasirləri tərəfindən rədd edilsə də, 20-ci yüzilliyin ortalarında bu yazı geniş şöhrət qazanır, Mahatma Qandi, Martin Lüter Kinq və bir çox başqa vətəndaş hüquqları uğrunda mübarizlərin əqidəsinə və fəaliyyətinə həlledici təsir göstərir.

Maraqlıdır, bu gün də Amerikanın hər yerində elə radikallar var ki, (onların fikrincə) onların dərd-sərinə biganə qalan və bir növ yadlaşmış federal hökumətə vergi verməkdən imtina edir, buna görə də dustaqxanada oturmağa hazırdırlar. Bu cür adamlar özlərini freeman (azad insan) adlandırırlar. Onlar vergilərdən qaçmır, gizlənmirlər, əksinə, bu vergiləri ödəməkdən açıq şəkildə imtina edirlər, belə ki, onların qəti əqidəsincə, öz ölkələrinin namuslu adamı və vətəndaşı mövcud halda məhz bu cür hərəkət etməlidir.

HENRİ DEVİD TORO

# Vətəndaş itaətsizliyi (1848)

*Biliriksə ki qanunlarımız ədalətsizdir, nə etməliyik? Burada üç yol var: ya onlara kor-koranə əməl etməli, ya dəyişdirməyə çalışmalı, ya da pozmalıyıq.*

Mən "ən yaxşı hökumət mümkün qədər az idarə edən hökumətdir" müddəası ilə tam razıyam və arzu edirəm ki, bu müddəa tez və daha sistemli şəkildə gerçəkləşsin. Gerçəkləşəndə o, əvvəl-axır "ən yaxşı hökumət heç idarə etməyən hökumətdir" şüarına çevriləcək ki, mən buna da şərikəm, adamlar hazır olanda isə onların hökumətləri elə bu cür də olacaq. Hökumət ən yaxşı halda yalnız vasitə ola bilər, amma adətən hökumətlərin çoxunun, bəzən hətta heç birinin bir vasitə kimi də kəsəri olmur. Daimi ordu əleyhinə çoxsaylı, ciddi və axırda uğur qazanacaq etirazlar daimi hökumətə də şamil edilə bilər. Daimi ordu daimi hökumətin vuran əlindən başqa bir şey deyil. Hökumət əhalinin iradəsini gerçəkləşdirməyə borclu olan bir formadır. Lakin hökumət əhalinin istəyinə əməl etməyəndə şər qüvvəyə çevrilir...

Amerika hökuməti nədir? Özünü əbədiləşdirməyə çalışan, lakin addımbaşı öz bakirəliyindən nəsə itirən yeni bir gələnək-ənənə... Bizim hökumət bir dəfə də olsun bir işin qulpundan yapışmayıb. Ən yaxşı halda özünü kənara çəkməklə işə xeyir gətirib...

Ölkənin azadlığını da o qorumur. Qərbi də o məskunlaşdırmır. Maarifi də o yaymır. Azadlıq da, maarif də Amerika xalqının öz təbiəti sayəsində qazanılıb və hökumət adamların əl-ayağına dolaşmasaydı, uğurlarımız daha çox olardı... Ticarət təbiətcə rezin topa bənzəməsəydi, qanunvericilərin ucaltdıqları divarı heç vaxt aşa bilməzdi...

Hakimiyyəti ələ alandan sonra xalq onu çoxluğa verirsə və bu çoxluq hakimiyyəti uzun müddət əldə saxlaya bilirsə, bu o demək deyil ki, ölkə ədalətlə idarə olunur. Bunun çox sadə bir səbəbi var: idarə edən çoxluq fiziki cəhətdən daha güclüdür...

Görəsən, elə bir hökumət qurmaq mümkün deyilmi ki, orada nəyin gerçək, nəyin yalan olduğunu çoxluq yox, *vicdan* müəyyənləşdirsin? Çoxluq yalnız o məsələləri həll etsin ki, onlara məqsədəuyğunluq ölçüsü ilə yanaşmaq lazım gəlir? Nəyə görə vətəndaş bir anlığa azacıq da olsa öz vicdanını qanunvericinin ixtiyarına buraxmalıdır? Belə olacaqdırsa, hər kəsin vicdanının olması nəyə lazım imiş? Mən belə hesab edirəm ki, biz əvvəl insan, sonra təbəə olmalıyıq. Yaxşı olmazmı ki, insanları daha çox qanuna yox, haqq-ədalətə hörmət ruhunda tərbiyə edəydilər? Mənim öz öhdəmə götürə biləcəyim yeganə vəzifə budur ki, özüm nəyi düzgün sayıramsa onu da icra edim. Düz deyiblər ki, korporasiyanın vicdanı yoxdur. Amma vicdanlı adamlardan ibarət korporasiyanın vicdanı ola bilər. Qanun hələ heç vaxt adamları azacıq da olsa ədalətli etməyib; qanuna hörmətə görə hətta ləyaqətli insanlar belə hər gün ədalətsizliyin alətinə çevrilir...

Qanuna hədsiz hörmətin nəticəsidir ki... əsgərlər öz arzularının, sağlam düşüncələrinin və hətta vicdanlarının əleyhinə olaraq dağlara, dərələrə vuruşmağa gedirlər... Onlar çirkin bir işə cəlb olunduqlarına şübhə etmirlər. Onların hamısı sülhsevər adamlardır. Amma bilmək olmur ki, bu əsgərlər insandırlar, yoxsa iqtidarda olan hansısa bir vicdansızın sərəncamına verilmiş səyyar bir istehkam, barıt anbarı?.. Hərbi limana gedib dənizçi əsgərin sir-sifətinə baxın: görün Amerika hökuməti nə yetişdirib — o, insan deyil, kölgədir, canlı meyitdir...

Çoxluq dövlətə elə bu cür — insan kimi yox, maşın kimi, yalnız öz bədəni ilə xidmət edir. Onlar daimi ordu, milis, zindan gözətçiləri və b. təşkil edir... Onların düşünmək, duymaq tələbatı öldürülüb. Onlar insan deyillər, ağacdırlar, torpaqdırlar, daşdırlar. Görəsən, ağacdan adam düzəltmək olmazmı? Olsaydı, ağac adamlar dövlət işlərinə daha çox yarayardılar... Başqaları, məsələn, qanunvericilərin, siyasət xadimlərinin, hüquqşünasların, ruhanilərin və məmurların çoxu dövlətə əsasən beyinləri ilə qulluq etsələr də, çox vaxt mənəvi fərqləri görməyə qadir olmadıqlarından şeytana da, Allaha da eyni canfəşanlıqla xidmət göstərirlər. Çox az adam — qəhrəmanlar, fədailər, şəhidlər, yüksək mənada islahatçılar və həqiqi insanlar dövlətə həm də vicdanları ilə xidmət edir və belə olduğuna görə də elə həmin xidmət etdikləri dövlətə tez-tez müqavimət göstərirlər. Adətən, dövlət beləlƏrini

özünə düşmən sanır. Müdriklər “gil” olub “soyuq gələn deşiyi qapamaq”dansa (1) dövlətə insan kimi fayda verməyi daha üstün tuturlar — soyuq gələn deşiyi öz cəsədləri ilə də qapamaq olar:

> Mənim əslim-nəslim elə uca ki,
> Heç kəsə qulluqçu ola bilmərəm.
> Mən nökər deyiləm, kimsə əmr edə.
> Dövlətin əlində kor alət olam.
> *(V. Şekspir — “Kral İohann”)*

...Bizim zəmanədə insan Amerika hökumətinə necə münasibət bəsləməlidir? Cavab verirəm: taleyini indiki hökumətlə bağlayan adam əvvəl-axır rüsvay olacaq. Köləyə hökumətlik edən siyasi quruma mən, bircə an da olsa, “öz hökumətim” deyə bilmərəm.

Hökumətin tiranlığı, yaxud fərsizliyi dözülməzlik həddinə çatanda hər kəsin inqilab etmək, yəni hökumətə müqavimət göstərmək hüququ var. Bunu hamı qəbul edir. Amma çoxları onu da bildirirlər ki, indi inqilab etmək vaxtı deyil. 1775-ci ildə, belələrinin fikrincə, guya inqilab etmək vaxtı imiş. O vaxtkı hökumət (2) dəniz yolu ilə xaricdən gətirilən mallara rüsum qoyduğu üçün pis hökumət sayılırmış və buna görə də onu yıxmaq lazım imiş. Şəxsən mən təkcə bu səbəbə görə hay-küy qaldırmazdım, çünki xarici mal almadan da yaşaya bilərəm. İstənilən maşında müəyyən qədər sürtünmə var və ola bilər bu maşın o qədər faydalı iş görsün ki, sürtünmənin zərəri nəzərə çarpmasın... Lakin elə məqamlar olur ki, sürtünmə özü bütöv bir maşına çevrilir, zülm isə mütəşəkkilləşir. Bax, belə olanda mən deyirəm: bizə bu cür maşın lazım deyil. Başqa sözlə, özünü azadlıq beşiyi adlandıran bir ölkədə əhalinin altıda biri kölə olanda, bir məmləkət başdan-başa yadelli qoşunların tapdağına çevriləndə, bu qoşunlar yerli əhaliyə qarşı hərbi qanunlar tətbiq edəndə (3) mən dözməyib deyirəm: namuslu adamların üsyan qaldırmaq, inqilab etmək vaxtıdır...

Mənəviyyat məsələlərində çoxlarının böyük nüfuz sahibi sandığı Peli “Mülki iqtidara itaət borcu” əsərində vətəndaşlıq borcunu faydalılıqla eyniləşdirəndən sonra yazır: “Necə ki, bütün cəmiyyətin mənafeyi bunu tələb edir, yəni necə ki cəmiyyətə zərər vurmadan hökumətə müqavimət göstərib onu dəyişdirmək mümkün deyil, Allah artıq yox, məhz həmin vaxta qədər belə hökumətə tabe olmağı məsləhət bilir...”. — “Bu prinsipdən çıxış edərək hər bir müqavimət anının ədalətliliyini onun gətirəcəyi ədalətsizliklə müqayisədə görmək olar”. Bu nəticəni isə, Peliyə görə, hər kəs özü çıxarmalıdır. Görünür, Peli faydalılıq prinsipinin tətbiq oluna bilmədiyi, xalqın və tək bir adamın ədaləti hər hansı qiymətə əldə etməli olduğu məqamları nəzərə almayıb. Mən suda boğulan bir adamın əlindən ləngəri dartıb almışamsa, özüm boğulacaq olsam belə, onu yiyəsinə qaytarmalıyam (4). Peliyə görə, bu, düzgün olmazdı. Amma belə hallarda öz ruhunu rahat etmək istəyən kəs şeytanın tələsinə düşə bilər. Xalqımız dövlətçiliyini itirsə belə, kölələri saxlamamalıdır və Meksika ilə savaşmamalıdır...

...Mən ittihamımı uzaq düşmənlərə yox, ölkəmizdə bunlarla əməkdaşlıq edən və bunların iradələrini həyata keçirməyə imkan yaradan kəslərə yönəldirəm. Biz hey gileylənirik ki, camaat hazır deyil, amma bir şeyi bilmirik — tərəqqi ona görə belə ləng gedir ki, başda oturanlarımız onları seçənlərdən o qədər də müdrik və ağıllı deyillər. Hamının sizin kimi düzgün olması o qədər də vacib deyil, bundan vacibi odur ki, haradasa xəmirə maya ola bilən mütləq bir xeyirxahlıq olsun. Əqidədə köləliyin və müharibənin minlərcə əleyhdarı var, fəqət onlar bu ədalətsizliyə son qoymaq üçün qətiyyən hərəkət etmirlər, ...əllərini yanlarına salıb dururlar. Dindirəndə də deyirlər ki, nə etmək lazım olduğunu bilmirik... hərdən yalnız bəyanatlar verməklə işlərini bitmiş hesab edirlər... Ürək yanğısı ilə gözləyirlər ki, ədalətsizliyi onların əvəzinə kimsə başqası aradan qaldırsın ki, qanqaralığı olmasın...

Vacib deyil ki, insan öz ömrünü bütövlükdə ən böyük Şər qüvvənin məhvinə sərf etsin — onun başqa qayğılarla da yaşamağa haqqı var. Amma hər kəsin borcudur ki, Şər qüvvədən heç olmasa uzaqlaşmağa çalışsın, ona yardım göstərməsin. Mən başqa işlərlə məşğul olub başqa şeylər haqqında düşünürəmsə, heç olmasa, buna əmin olmalıyam ki, bu zaman başqasının kürəyində oturmamışam. Oturmuşamsa, gərək oradan düşəm ki, başqası da rahat düşünə bilsin...

Yurddaşlarımdan bəziləri deyirlər: “Hünəri var hökumət məni kölələrin üsyanını yatırtmağa, yaxud Meksikaya cəbhəyə vuruşmağa göndərsin — ay getdim haa!”. Lakin bu adamlardan hər biri ya birbaşa (hökuməti dəstəkləməklə), ya da dolayı yolla (vergi verməklə) öz əvəzinə oraya başqasının göndərilməsinə şərait yaradır. Ədalətsiz savaşda iştirak etməkdən boyun qaçıran əsgəri tərifləyirlər, amma özləri bu savaşı aparan ədalətsiz hökuməti dəstəkləməkdən əl çəkmirlər... Bax, beləcə, hamımız guya sabitliyi qorumaq və hökumətə sədaqətli olmaq adı ilə öz rəzilliyimizə haqq qazandırırıq...

Biliriksə ki qanunlarımız ədalətsizdir, nə etməliyik? Burada üç yol var: ya onlara kor-koranə əməl etməli, ya dəyişdirməyə çalışmalı, ya da pozmalıyıq. Bizim hökumət kimi hökumətdə adamlar daha çox qanunların dəyişdiriləcəyi günü gözləməyə üstünlük verirlər. Belə hesab edirlər ki, Şərə qarşı müqavimət daha böyük Şərin yaranması ilə nəticələnə bilər. *Şərə qarşı mübarizə doğrudan da daha böyük Şər yaradırsa, bunun təqsiri hökumətin özündədir.* Böyük Şəri yaradan da elə o özüdür. Hökumət niyə islahatlar aparmır? Niyə ağıllı azlığa qulaq asmır? Niyə döyülməmiş hay-küy qoparır? Niyə onun səhvlərini deyənləri gözümçıxdıya salır? Niyə İsanı çarmıxa çəkir, Koperniki və Lüteri özündən uzaqlaşdırır, Vaşinqtonu və Franklini qiyamçı elan edir?..

Mən çəkinmədən bəyan edirəm: özünü abolisionist (5) adlandıranların hamısı hökuməti dəstəkləməkdən dərhal imtina etməlidir. Haqqı müdafiə etmək üçün çoxluğun yekdil olacağını gözləmək əbəsdir. Təkcə Allah bizim tərəfimizdə olsa, özgə tərəfdara ehtiyac yoxdur. Üstəlik də, başqalarından daha haqlı olan bir nəfər elə yekdil çoxluq deməkdir...

Amerika hökuməti ilə və ya onun təmsilçisi olan ştatımızın hökumətiylə mən çox yox, ildə cəmi bircə dəfə, vergi yığılanda üzbəüz görüşürəm. Mənim vəziyyətimdə olan adam üçün bu, yeganə məcburi görüşdür. Və hər dəfə görüşəndə o, açıqca deyir: “Məni tanı!”. İndiki vəziyyətdə hökuməti xoşlamadığınızı, sevmədiyinizi bildirməyin ən sadə, ən kəsərli, ən zəruri yolu istədiyini ona verməməkdir. Mənim işim bircə nəfərlə — vergiyığan qonşumladır, çünki mənim iddialarım əslində kağıza yox, adamlaradır, mənim qonşum isə hökumətin könüllü agentidir. O, bir hökumət məmuru və bir insan kimi mənə, yəni hörmət etdiyi qonşusuna necə yanaşmaq barədə düşünməyincə heç vaxt özünün kimliyini anlaya bilməz. O aydınlaşdırmalıdır ki, kimə müraciət edir: tanıdığı nəcib qonşusuna, yoxsa araqarışdıran bir dəliyə? Mehriban qonşuluq münasibətlərini saxlamaq üçün o bu maneəni aşmağa, yersiz, qaba sözlərdən və fikirlərdən çəkinməyə çalışmalıdır. Mən isə yaxşı bilirəm ki, sadalaya biləcəyim min, yüz, yaxud on adam — cəmisi on, hətta Massaçusets ştatımızdan olan bircə halal adam qul saxlamaqdan imtina etsə, bu cəmiyyətdən çıxsa, onu qazamata salarlar, amma beləliklə Amerikada köləlik ləğv olunar...

İnsanları ədalətsizcəsinə qazamata salan hökumətdə ədalətli adamın ən yaxşı yeri elə qazamatdır... İqtidarla deyil, iqtidara qarşı olanların damlandığı bu yer azad adamın şərəflə yaşaya biləcəyi yeganə ünvandır. Kimsə burada öz nüfuzunu, təsir gücünü itirəcəyini, səsinin adamların qulağına çatmayacağını, müxalifliyini itirəcəyini düşünürsə, deməli o, həqiqətin yalandan nə qədər güclü olduğunu bilmir... Azlıq çoxluğa tabe olanda acizləşir, hətta öz azlığını da itirir. İnsan var gücü ilə müqavimət göstərəndə yenilməz olur... Bu il min nəfər vergi verməkdən imtina etsəydi, nə zorakılıq olardı, nə də nahaq qan töküləridi. Zorakılığı və nahaq qanı bizim ödədiyimiz vergilər təmin edir. “Dinc inqilab” deyilən şey varsa, o, məhz vergidən imtina etməkdir.

Bəzən vergiyığanlar, yaxud başqa məmurlar deyirlər: “Axı mən nə edə bilərəm?”. Onda mən cavab verirəm: “Doğrudan da nəsə etmək istəyirsinizsə, istefa verin”. Məmur tabe olmaqdan, tutduğu vəzifədən imtina edirsə, deməli, inqilab baş verir. Lap tutaq ki, qan tökülsün. Bəs yaralı vicdandan axan da qan deyilmi? Vicdan yarasından tökülən qan insanın mərdliyini, əbədiyyətini əlindən alır, o, həmişəlik ölür. İndi tökülən qan elə bizim yaralı vicdanımızın qanıdır...

Bir-iki il əvvəl hökumət mənə qəbz verdi ki, kilsədəki ruhaninin hesabına filan qədər pul keçirim. O ruhaninin moizələrinə qulaq asmağa mən yox, atam gedirdi. Dedilər: “Verməsən, həbs olunacaqsan”. Mən imtina etdim. Təəssüf ki, başqa birisi həmin məbləği ödəməyi lazım bildi...

Bələdiyyə idarəsinin tələbi ilə mən bir bəyanat yazmağa razılıq verdim: “Qoy hamı bilsin: mən, yəni Henri Toro heç vaxt daxil olmadığım heç bir rəsmi təşkilatın üzvü sayılmağı arzu etmirəm”. Bu bəyanatı bələdiyyə korporasiyasının katibinə verdim və indi də ondadır. Həmin kilsə icmasının üzvü olmaq istəmədiyimi bilən hökumət bir də heç vaxt məndən kilsənin xeyrinə vergi tələb etmədi...

Tutalım ki, hökumətin əli doğrudan da çox aşağıdır, bilmir neyləsin. Bunun mənə dəxli yoxdur. Qoy o da mənim kimi çulunu özü sudan çıxarsın. Buna görə ağlaşma qurmağa dəyərmi? Cəmiyyət maşını saz işləmirsə, bunun suçu məndə deyil, o maşını mənim dədəm icad eləməyib. Palıd qozası ilə şabalıd torpağa yanaşı düşəndə birinin xətrinə o biri quruyub məhv olmur, hərəsi öz qanunu ilə cücərir, kök atır, böyüyür. Bitkilərdən hansı biri öz təbiətinə uyğun yaşaya bilmirsə, ölüb sıradan çıxır. İnsan da belədir...

Yol vergisi verməkdən mən heç vaxt imtina etmirəm, çünki pis təbəə olduğum kimi, həm də yaxşı qonşu olmaq istəyirəm; məktəbin xeyrinə vergiyə gəlincə, mən indi məhz yurddaşlarımın tərbiyə payını verməklə məşğulam. Mənim vergidən imtina etməyim vergi cədvəlinin hansısa bəndi ilə razılaşmamağımdan irəli gəlmir, sadəcə, dövlətin tələblərinə baş əyməkdən imtina edirəm. İstəmirəm ki, məni ona bağlayan nəsə olsun. Öz dollarımın keçəcəyi yolu izləməyə — bu, mümkün olsa belə — mənim həvəsim yoxdur. Bilirəm ki, ona əsgər və tüfəng alıb

adam öldürəcəklər. Bu, dolların suçu deyil — mənim üçün itaətimin aqibətini izləmək vacibdir. Qısası, mən dövlətə öz bildiyim kimi — sakit savaş elan etmişəm. Bütün savaşlarda olduğu kimi, mən də bu savaşdan mümkün qədər fayda və uduş əldə etmək istəyirəm...

Bütövlükdə binanın içində olan dövlət xadimləri və qanunvericilər heç vaxt o binanı aydın görə bilmirlər... Unudurlar ki, dünya ağıllılıq və məqsədəuyğunluq prinsipləri ilə idarə olunmur... Vebster(6) güclü, orijinal, başlıcası isə, əməli adamdır. Amma hər halda onun gücü müdrikliyində yox, ağıllılığındadır. Qanunçunun həqiqəti həqiqət deyil, yalnız məntiq və məntiqi məqsədəuyğunluqdur... Vebster özünün "Konstitusiya müdafiəçisi" ləqəbinə layiqdir... Konstitusiyanın köləliyə icazə verməsi ilə bağlı o belə deyir: "İlkin müqavilədə varsa, qoy belə də olsun". Kəskin ağlı olmasına baxmayaraq, o, faktı siyasi əlaqələrdən kənarda, düşüncə ilə həll edilə bilən bir şey kimi nəzərdən keçirib, məsələn, belə bir suala cavab verə bilmir ki, bugünkü Amerikada insan köləliklə bağlı necə davranmalıdır?.. [Vebster deyir]: "Köləliyin mövcud olduğu ştatlar onun öhdəsindən öz bildikləri kimi, yəni seçicilər qarşısında, humanizm və ədalətin ümumi qanunları qarşısında, Allah qarşısında məsuliyyət daşımaqla gəlməlidirlər. Köləlik əleyhdarlarının həm humanizm naminə, həm də başqa məqsədlərlə ayrı-ayrı yerlərdə yaranan ittifaqlarının ona heç bir dəxli yoxdur. Mən onları heç vaxt alqışlamamışam və alqışlamayacağam da".

Daha duru həqiqət bulaqlarının yerini bilməyənlər, onun axın və istiqamətini izləməyənlər ehtiyatla Bibliyaya və Konstitusiyaya söykənərək məhz oradakı bulaqdan pərəstişlə, mütiliklə su içirlər. Lakin həqiqətin bu sututarlara haradan sızıb gəldiyini görənlər yenidən yola çıxaraq qaynaqların kökünü ziyarət etməyə gedirlər... Biz Konqres qanunvericilərinin dediklərinə tarixi təcrübənin vaxtında etdiyi düzəlişləri və xalqın təsirli etirazını nəzərə almadan qulaq asmış olsaydıq, Amerika başqa millətlər arasında öz yerini uzun müddət qoruyub saxlaya bilməzdi. İncil min səkkiz yüz il əvvəl yazılıb; ...bəs hanı o qanunverici ki, İncilin saldığı işıqdan (7) bəhrələnmək dərəcəsində müdrikliyi və əməli bacarığı olsun?

Mənim tabe olmağa hazır olduğum hökumətin hakimiyyəti... də pak deyil; tam ədalətli olmaq üçün iqtidar idarə etdiyi adamların icazəsini və razılığını almalıdır. Hökumətin mənim özümə və əmlakıma yalnız o zaman haqqı çatar ki, mən onu özümünkü bilim. Mütləq monarxiyadan məhdud monarxiyaya, oradan da demokratiyaya doğru tərəqqi bizi şəxsiyyətə əsl hörmətə yaxınlaşdırır. Hətta Çin filosofu da (8) anlayırdı ki, şəxsiyyət imperiyanın əsasıdır. Məgər bizə bəlli olan demokratiya son həddirmi? İnsan haqlarının tanınmasına və sahmanlanmasına doğru yeni addım atmaq olmazmı?

Dövlət şəxsiyyətin daha yüksək və asılılıqsız gücünün özünün bütün hakimiyyət və nüfuzunun qaynağı olduğunu tanımadıqca və onunla buna uyğun davranmadıqca azad və müdrik ola bilməz.

Mənim təsəvvürümdə yaxşı dövlət odur ki, adamların hamısına ədalətlə yanaşsın, şəxsiyyətə öz qonşusuna hörmət etdiyi kimi hörmət etsin; bir-iki adam dövlətə yad olub ondan kənar gəzirsə, dövlət bundan inciməməlidir, təki o adam öz yaxınları qarşısında borcunu yerinə yetirsin. Bu cür meyvə yetirən və onun ağacdan düşməsinə imkan verən dövlət daha mükəmməl dövlətin yaranmasına zəmin ola bilər. Belə bir dövləti hələ heç yerdə görməmişəm. O, təkcə mənim xəyalımda yaşayır.

---

1 Şekspirin "Hamlet" əsərindən — (*qeydlər redaktorundur*)
2 Britaniya hökuməti nəzərdə tutulur.
3 Söhbət ABŞ-ın Meksikaya qarşı təcavüzündən gedir.
4 Misal Siseronun "Vəzifələr haqqında" fəlsəfi traktatındandır.
5 Köləliyin əleyhdarı.
6 Vebster (1782–1852) – ABŞ dövlət xadimi.
7 İnsanın xilqətdən azad və bərabər olduğu müddəası nəzərdə tutulur.
8 Konfusi nəzərdə tutulur.

## 35. ABŞ-da QADIN HAQLARI UĞRUNDA MÜBARİZƏ

Amerika cəmiyyətinin əsasına qoyulmuş azadlıq ruhu çox tezliklə insan haqları və cəmiyyətin demokratikləşdirilməsi uğrunda çoxlu hərəkatlarda özünü göstərməyə başladı. Bu hərəkatlardan birini XIX yüzilliyin əvvəlində qadınların hüquq bərabərliyi, xüsusilə onların siyasi hüquqları uğrunda hərəkat təşkil etdi.

Bu vaxtadək amerikalı qadınlar artıq quldarlığın ləğv edilməsi, təhsilin demokratikləşdirilməsi, sağlam həyat tərzi, məhbuslara və ruhi xəstələrə münasibət uğrunda hərəkatlar kimi mühüm ictimai hərəkatlara cəlb olunmuşdular. Lakin bütün bunlarla yanaşı, onlar seçki hüququndan məhrum edilmiş, əmlak və ailə hüquqları məhdudlaşdırılmışdı; cəmiyyət qadınlara ikinci dərəcəli vətəndaş kimi baxırdı.

Quldarlığın ləğv olunmasının fəal tərəfdarları Lukretsiya Mott və Elizabet K. Stanton Londonda qadın ayrı-seçkiliyinə məruz qaldılar. Burada quldarlığın ləğv olunmasına dair keçirilən beynəlxalq konfransda onlara qadın olduqlarına görə zalda yer verməkdən imtina etdilər. Vətənə qayıtdıqdan sonra onlar 1848-ci ilin iyul ayında Nyu-York ştatının Seneka Fols şəhərinin kilsəsində qadınların hüquq bərabərliyi problemlərinə həsr olunmuş yığıncaq keçirdilər. Yığıncaqda 240 nəfər, o cümlədən 40 kişi iştirak edirdi.

İştirakçılar qadınların sosial, mülki və dini hüquqlarını təsbit edən qadınù hüquqları bəyannaməsini hazırlamağa başladılar; bəyannamənin mətni qəsdən ABŞ İstiqlaliyyət Bəyannaməsinin mətnini xatırladırdı. Yığışanlar arasında qadınlara seçki hüququnun verilməsi haqqında müddəa mübahisə doğurdu. Nümayəndələrin əksəriyyəti bu müddəanı müdafiə etməkdən çəkinirdi. Yalnız quldarlığın ləğv edilməsi uğrunda tanınmış qaradərili mübariz, keçmiş qul, indisə “Şimal ulduzu” qəzetinin naşiri Frederik Duqlas iştirakçılara müraciət etdikdən sonra bu müddəa qəbul olundu.

Seneka Fols Bəyannaməsi amerikalı qadınların hüquq bərabərliyi uğrunda yetmiş illik kütləvi mübarizəsinin təkan nöqtəsi oldu, bu mübarizənin gedişində qadınlar tədricən bəzi ştatlar tərəfindən onlara əmlaka sahib olmaq, pul qazanmaq və boşanma hallarında uşaqları özündə saxlamaq imkanları verən qanunlar qəbul edilməsinə nail oldular. Seçki hüququnu isə qadınlar yalnız 1920-ci ildə ABŞ Konstitusiyasına 19-cu düzəlişin qəbul olunması ilə əldə etdilər.

## SENEKA FOLS BƏYANNAMƏSİ (1848)

*Bəşər tarixi kişilərin qadınları daim təhqir etməsi və onlara qarşı zor işlətməsi tarixidir.*

Bəşər tarixində elə bir məqam yetişir ki, insan ailəsinin bir hissəsi dünyanın insanları arasında onların əvvəllər tutduqlarından fərqlənən, lakin təbiətin və Yaradanın ona da bəxş etdiyi qanunlara uyğun mövqe tutmağa çalışır və belə olanda o, bəşəriyyətin rəyinə ehtiram əlaməti kimi, onu bu hərəkətlərə sövq edən səbəbləri, heç şəksiz ki, izah etməlidir.

Biz o həqiqətləri açıq-aşkar sayırıq ki, kişilər və qadınlar anadan bərabər doğulub və Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir; onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir; belə hüquqların təmin edilməsi üçün insanlar ədalətli, idarə olunanların razılığına güvənən hökumət qurur; odur ki, hər hansı dövlət həmin hüquqları pozarsa, xalqın onu dəyişməyə, ləğv etməyə, əvəzindəsə həmin prinsiplərə dayanan, insanların əmin-amanlığına və güzəranına daha yüksək təminat verən, yeni quruluş yaratmağa haqqı vardır. Əlbəttə, sağlam şüur kəsən odur ki, çoxdan bəri formalaşmış idarəçilik üsulları xırda və ötəri səbəblərə görə əvəz edilməsin, çünki keçmişin təcrübəsi göstərir ki, insanlar özlərinin alışdıqları həyat tərzini dəyişməkdənsə şərin hökmünə dözməyə, imkan varsa, daha meyillidirlər. Ancaq uzunmüddətli azğınlıq və zillət yeganə və ardıcıl məqsəd — xalqı sonu görünməyən despotizmə tabe etdirmək — daşıyırsa, onda bu cür iqtidarı devirmək və özünün gələcək əmin-amanlığını təmin edən etibarlı bir zəmin yaratmaq xalqın haqqı və borcudur. Bu dövlət quruluşunda qadınların dözdükləri iztirablar belə idi və indi zərurət onları haqları çatan ictimai vəziyyət bərabərliyini tələb etməyə məcbur edir.

Bəşər tarixi kişilərin qadınları daim təhqir etməsi və onlara qarşı zor işlətməsi tarixidir. Onların məqsədi qadınlar üzərində mütləq istibdad yaratmaq idi. Bunu sübut etmək üçün, icazənizlə, faktları təqdim edək.

Kişi qadına heç vaxt özünün ayrılmaz seçki hüququnu həyata keçirməyə imkan vermirdi.

Kişi qadını qəbul olunmasında səsi ilə iştirak etmədiyi qanunlara tabe olmağa məcbur edirdi.

O, qadına ölkə vətəndaşı, yaxud əcnəbi olmasından asılı olmayaraq hətta ən cahil və düşkün kişilərin malik olduğu hüquqları vermirdi.

Kişi qadını başlıca vətəndaş hüququndan — səsvermə hüququndan məhrum edərək və bununla da onu qanunverici məclislərdə nümayəndəsiz qoyaraq, ona həyatın bütün sahələrində zülm edirdi.

Kişi nikaha girərək qadını qanunun nəzərində vətəndaş kimi ölüyə çevirirdi.

Kişi qadının əmlak, hətta qazandığı pul üzərində mülkiyyətini əlindən alırdı.

O, qadını mənəvi cəhətdən şüursuz varlığa çevirmişdir, belə ki, əgər əri yanındadırsa, qadın heç bir cəza olmadan istənilən qədər cinayət törədə bilər. Nikah izdivacında qadın əri qarşısında mütiliyi öz üzərinə götürməyə məcbur edilir, kişi bütün niyyət və məqsədləri ilə qadının sahibinə çevrilir, qanun kişiyə qadını azadlıqdan məhrum etmək, onu cəzalandırmaq ixtiyarı verir.

Kişi qanunları elə formalaşdırmışdır ki, boşanma hallarında uşaqlar üzərində qəyyumluq hüququ qadınların mənafeyini nəzərə almır — qanun bütün hallarda kişilərin üstünlüyü haqqında yanlış təsəvvürə əsaslanaraq bütün hakimiyyəti onlara verir.

Kişi ərli qadınları bütün hüquqlarından məhrum etdikdən sonra tək qadınları da, əgər əmlakları varsa, sərbəst buraxmır; kişi onun üzərinə dövlətin xeyrinə vergilər qoyur, dövlət isə qadınlarla yalnız o vaxt maraqlanır ki, onların əmlakı dövlətə xeyir gətirə bilsin.

Kişi fəaliyyətin bütün gəlirli sahələrini öz inhisarına almışdır, qadınların işləməsinə imkan verilmiş yerlərdə isə onlar çox cüzi məvacib alırlar. Kişi qadınlar üçün bütün varlanmaq yollarını və kişinin özü üçün şərəf saydığı fərqlənmək imkanlarını bağlamışdır. Qadın nə ilahiyyat, nə tibb, nə də hüquq fənlərini tədris edə bilər.

Kişi qadını ciddi təhsil almaq hüququndan məhrum etmişdir, bütün kolleclər qadınların üzünə bağlıdır.

Kişi qadını kilsə və dövlət işinə yaxın buraxsa da, apostolların nümunəsinə(1) söykənərək... yalnız asılı vəzifələrə təyin edir.

Kişi dünyaya kişilər və qadınlar üçün bir-birindən fərqlənən əxlaq kodeksləri təqdim edərək yanlış ictimai fikir formalaşdırmışdır. Bu fərqlər ona gətirir ki, eyni nalayiq hərəkətlərə görə qadın cəmiyyətdən uzaqlaşdırılır, kişilərə isə heç nə edilmir və onlar üçün elə böyük qəbahət sayılmır.

Kişi hətta Yeqovanın(2) özünün səlahiyyətlərini ələ keçirmişdir, o, iddia edir ki, qadının fəaliyyət sahəsini müəyyənləşdirmək hüququna malikdir, halbuki bu, qadının vicdanına və Allahına məxsus ola bilər.

Kişi bütün yollarla qadının özünəhörmət hissini öldürmək və onu həyatda asılı və rəzil rolla kifayətlənməyə məcbur etmək üçün onun öz gücünə inam hissini sarsıtmağa çalışmışdır.

İndi bu ölkənin insanlarının yarısının bütün bu məhrumiyyətlərə məruz qalmasını, onların ictimai və dini sahələrdə geri qalmalarını, yuxarıda qeyd olunan ədalətsiz qanunları nəzərə alaraq, qadınların qəmgin, məzlum vəziyyətlərini, onlara məxsus hüquqların əksəriyyətindən məhrum edilmələrini nəzərə alaraq biz təkid edirik ki, qadınlar dərhal Birləşmiş Ştatların vətəndaşı kimi ixtiyarları olduğu bütün hüquq və imtiyazları əldə etsin.

Müəyyən etdiyimiz böyük bir işə başlayarkən biz heç də az olmayacaq yanlışlıq, təhrif, yaxud istehzalar gözləyirik, lakin ixtiyarımızda olan bütün imkanlardan məqsədimizə çatmaq üçün istifadə etməliyik. Biz vəkillər tutmalı, pamfletlər nəşr etməli, ştat və milli qanunverici məclislərə təkliflərlə çıxmalı, din xadimlərini və mətbuatı müdafiə işimizə cəlb etməliyik. Ümid edirik ki, bundan sonra ölkənin hər yerini bürüyəcək bu cür toplantılar ardıcıl keçiriləcəkdir.

1 Xristianlığın ilk təbliğatçıları olan İsa şagirdlərinin — apostolların yalnız kişilərdən ibarət olduğu nəzərdə tutulur — *red.*
2 Bibliyada Allahın adı — *red.*

## 36. KÖLƏLİYİN LƏĞV OLUNMASI

On doqquzuncu yüzilliyin əvvəlində ABŞ-da köləliyə qarşı mənəvi təzyiq tezliklə siyasi təsir formalarının yaranmasına səbəb oldu. Federasiyanın dağılmasından ehtiyat edərək, Konqresin cənub ştatlarının tələblərinə güzəştə getməsinə, köləliyi saxlamasına baxmayaraq, şimal abolisionistləri köləliyə qarşı müvəffəqiyyətlə təbliğat aparır, cənubdan kölələrin qaçmasına yardım edir və onları gizlədirdilər. Bu dövrdə kölələrin onlarca üsyanı bütün ölkəni bürüyürdü. Üsyanlar quldarlar tərəfindən amansızcasına yatırılırdı. 19-cu yüzilliyin ortalarında bir sıra şimal ştatları *şəxsi azadlıq* haqqında qanunlar qəbul edir. Bu qanunlar ABŞ Konstitusiyasının Hüquqlar Haqqında Billinin əsas müddəalarını qaçqın kölələrə də aid edir, onların məhkəmə vasitəsilə quldarlara qaytarılmasının qarşısını alırdı. 1860-cı ildə köləliyin ləğv edilməsinin tərəfdarı Avraam Linkoln ABŞ-ın prezidenti seçilir. Bütün bunlar cənub ştatlarının narazılığına səbəb olur, onlar Cənubi Karolinanın ardınca ittifaqdan çıxdıqlarını və konfederasiya yaratdıqlarını elan edirlər. Şimal ştatları bu qərarı qeyri-qanuni elan edir və Linkoln başda olmaqla konfederalistlərə qarşı hərbi əməliyyatlara başlayırlar.

Şimalla cənub arasında vətəndaş müharibəsi köləliyin ləğv edilməsindən daha çox ittifaqı saxlamaq istəyinə görə başlanmışdı, belə ki, ABŞ Konstitusiyasının özü də köləliyi qəbul edirdi. Lakin tezliklə köləliyin ləğv edilməsi döyüşən şimallıların əsas məqsədlərindən birinə çevrildi.

Şimallıların Antitamada qələbəsindən sonra 1862-ci ilin payızında Linkoln Azadlıq Bəyannaməsinin ilkin variantını dərc etdirir. O burada bildirirdi ki, 1863-cü il yanvarın 1-dən qiyamçı ştatlarda bütün kölələri azad edəcəkdir. Hərbi və təbliğat məqsədilə qəbul olunmuş bu bəyannamə 1863-cü ilin başlanğıcında federasiya ordusu cənub ştatlarının daha çox ərazilərini tutduqca minlərcə köləni azad etdikcə, günün reallığına çevrilirdi.

AVRAAM LİNKOLN

# Azadlıq Bəyannaməsi (1863)

*Və ədalətli saydığımız... bu aktı mən bəşəriyyətin haqq məhkəməsinin və qadir Allahımızın ali iltifatının ixtiyarına verirəm.*

Nəzərə alaraq ki, Birləşmiş Ştatların prezidenti tərəfindən Rəbbimizin anadan olmasının 1862-ci ilində sentyabrın 22-də elan edilən bəyannaməyə bir sıra məsələlərlə yanaşı, aşağıdakılar da daxil idi:

> “Rəbbimizin anadan olmasının 1863-cü ilində yanvarın ilk günündən Birləşmiş Ştatlara qarşı qiyamda iştirak edən adamların yaşadığı hər hansı ştatda, yaxud onun müəyyən hissəsində kölə kimi saxlanılan bütün şəxslər bu tarixdən və həmişəlik azaddırlar; Birləşmiş Ştatların icra hakimiyyəti (hərbi və dəniz komandanlığı da daxil olmaqla) bu şəxslərin azadlığını tanıyır və müdafiə edir, onların heç birinə qarşı, azadlıq qazanmaq uğrunda hər hansı hərəkətlərinə qarşı heç bir təzyiq göstərməyəcəyini öhdəsinə götürür”.

> “İcra hakimiyyəti yuxarıda göstərilmiş ilin yanvar ayının 1-dən etibarən öz bəyannaməsi ilə əhalisinin Birləşmiş Ştatlara qarşı qiyam vəziyyətində olduğu ştatları, yaxud ştatların bir hissəsini (əgər belələri varsa) müəyyən edəcəkdir. Əgər hər hansı ştat, yaxud onun əhalisi həmin gün üçün səlahiyyətli seçicilərin əksəriyyəti tərəfindən seçilmiş nümayəndələri vasitəsilə Birləşmiş Ştatların Konqresində təmsil olunarsa, bu fakt (açıq şəkildə ziddiyyət təşkil edən digər faktların olmaması şərti ilə) həmin ştatın və onun əhalisinin Birləşmiş Ştatlara qarşı qiyam qaldırmadığını göstərən şəksiz sübut hesab olunacaqdır”.

Ona görə də bu gün — Rəbbimizin anadan olduğunun 1863-cü ilində yanvarın 1-də mən — Birləşmiş Ştatların prezidenti Avraam Linkoln mənə verilmiş hakimiyyətə uyğun olaraq Birləşmiş Ştatların hakimiyyəti və hakimiyyətə qarşı qaldırılmış faktiki silahlı qiyam vaxtı ordu və hərbi dəniz donanmasının baş komandanı kimi və göstərilən qiyamı yatırmaq üçün zəruri və vacib tədbir kimi... elan edirəm ki, aşağıdakı ştatlar, yaxud ştatların ayrı-ayrı hissələri Birləşmiş Ştatlara münasibətdə qiyam vəziyyətindədirlər:
Arkanzas, Texas, Luiziana (Yeni Orlean şəhəri də daxil olmaqla, Sent-Bernar, Plakuimin, Cefferson qəsəbələrindən başqa), Missisipi, Alabama, Florida, Corciya, Cənubi Karolina, Şimali Karolina və Virciniya (Qərbi Virciniya kimi fərqləndirilən 48 dairədən başqa) və onların bu bəyannaməyə əhəmiyyət verməyən və həmin vəziyyətdə qalan digər hissələri.

Səlahiyyətimə uyğun olaraq və yuxarıda göstərilən məqsədin naminə mən əmr edir və elan edirəm ki, yuxarıda müəyyən edilən ştatlar və ştatların ayrı-ayrı hissələrində kölə kimi saxlanılan bütün şəxslər bundan belə azaddırlar; hərbi və dəniz komandanlığı da daxil olmaqla, Birləşmiş Ştatların icra hakimiyyəti yuxarıda göstərilən şəxslərin azadlığını tanıyacaq və müdafiə edəcəkdir.

Mən bu cür azad olmuş adamlara bununla əmr edirəm ki, zəruri özünümüdafiə istisna olmaqla, hər hansı zorakılığa əl atmaqdan çəkinsinlər; məsləhət görürəm ki, bütün mümkün olan hallardan sərfəli ödəniş müqabilində əməklə məşğul olsunlar.

Mən sonra elan edir və hamıya bildirirəm ki, bu adamlar yararlıdırlarsa, Birləşmiş Ştatların silahlı qüvvələrinə, fortların qarnizonlarına, mövqelərə, stansiyalara, gəmilərə və digər yerlərə xidmətə qəbul olunacaqlar.

Və ədalətli saydığımız, Konstitusiyanın hərbi zərurət haqqında müddəası ilə təmin olunan bu aktı mən bəşəriyyətin haqq məhkəməsinin və qadir Allahımızın ali iltifatının ixtiyarına verirəm.

Deyilənləri təsdiq edərək mən öz imzamı qoyur və ona Birləşmiş Ştatların möhürünü basıram.

Vaşinqton şəhərində,
Rəbbimizin anadan olmasının
1863-cü ilində yanvarın 1-də
və Amerika Birləşmiş Ştatlarının
müstəqilliyinin səksən yeddinci ilində
yerinə yetirilmişdir.

*Avraam Linkoln*

## 37. LİNKOLNUN QƏBİRÜSTÜ NİTQİ

İttifaqın tərəfdarlarının Gettisburq döyüşündəki qələbəsi (iyul, 1863) onun və Amerika Quldarlıq Konfederasiyasının tərəfdarları arasında gedən vətəndaş müharibəsində dönüş nöqtəsi oldu. Təxminən 45.000 adamın həlak olduğu bu qardaş qırğınında Konfederasiya öz ordusunun üçdə birini itirdi. Bu, Konfederasiyanın sonu və köləliyin ümumən ləğv edilməsi demək idi...

1863-cü ilin noyabrında şimal ştatlarının nümayəndələri Gettisburq döyüşündə həlak olmuş əsgərlərin abidəsi önünə qəhrəmanların xatirəsini yad etməyə toplaşmışdılar. Mərasimdə prezident Avraam Linkoln da iştirak edirdi. Buna baxmayaraq, əsas məruzəni etmək keçmiş dövlət katibi, Harvard Universitetinin rektoru, ölkənin ən mahir natiqlərindən sayılan Edvard Everettə tapşırılmışdı. Təşkilatçılar Linkolnun natiqlik qabiliyyətinə — bu təntənəli məqama layiq nəsə mənalı və yaddaqalan bir söz deyə biləcəyinə inanmadıqlarından, ona Everettdən sonra qısa vida sözü ilə çıxış etməyi rəva bilmişdilər.

Everett təmtəraqlı, bəlağətlə dolu uzun bir nitq söylədi. Onun çıxışı iki saata qədər çəkdi ki, bu da o dövrdə bu cür mərasimlər üçün adi bir hal sayıla bilərdi. Everettin nitqi elə gurultulu və sürəkli alqışlar qopardı ki, çoxları

prezident Linkolnun səhnəyə necə qalxıb öz nitqinə başladığını heç sezmədi də. Onun çıxışı cəmi ikicə dəqiqə çəkdi, amma o bu iki dəqiqədə Everettdən daha çox şey deyə bildi.

Linkolnun ölkənin və bütövlükdə demokratiyanın taleyi haqqında düşüncələrinin və şübhələrinin tezislərini cəmlədiyi qəbirüstü nitqi Periklin qəbirüstü nitqi ilə səsləşir. Linkoln müharibənin ittifaqı qoruyub saxlamaq kimi məqsədilə yanaşı, şimallılar üçün getdikcə daha böyük əhəmiyyət daşıyan bir məqsədi — köləliyə qarşı mübarizə, İstiqlaliyyət Bəyannaməsində göstərilmiş dəyərlər uğrunda mübarizə məqsədini də ön plana çəkdi.

Linkoln deyirdi: Bu müharibədə bizim qismətimizə düşən sınaqlar bir şeyi göstərməli idi: demokratik dövlət, "bütün insanlar anadan bərabər doğulmuşlar" prinsipi üzərində qurulmuş bir dövlət sağ qalıb yaşaya biləcəkmi? Linkoln özünün əvvəlcədən hazırlanmamış, sinədən söylədiyi iki dəqiqəlik nitqində həmçinin demokratiyaya "xalq hakimiyyəti, xalq üçün və xalqın həyata keçirdiyi bir üsul" kimi dəqiq və tutumlu tərif verə bildi.

Linkolnun şübhələrinə baxmayaraq, onun nitqi indiyəcən yaddaşlardan silinməyib. Bu gün onun Gettisburq nitqi Amerikada ən çox sitat gətirilən demokratik sənədlərdən sayılır. Bu nitq məktəblərdə də poetik nəsrin əvəzsiz nümunəsi kimi əzbər öyrənilir.

AVRAAM LİNKOLN

## Gettisburq nitqi (1863)

...Xalq hakimiyyəti, xalq üçün və xalqın həyata keçirdiyi bir üsul yox olub yer üzündən silinməsin.

Səksən il öncə ulu babalarımız bu materikdə mayası Azadlıq şüarı ilə yoğrulmuş və bütün insanların bərabər yaranışı prinsipinə bağlanmış yeni milləti yaratmışlar.

İndi biz böyük Vətəndaş müharibəsi aparırıq. Bu müharibə belə bir sualı sınağa çəkir: mayası Azadlıqla yoğrulmuş və ona bağlanmış bu və ya başqa bir millətin ömrü uzun ola bilərmi? Biz bu müharibənin ən böyük döyüş meydanlarından birində toplaşmışıq. Biz bu millətin yaşaması üçün öz həyatlarını verənlərin son mənzil tapdıqları yeri, meydanın bir hissəsini nurlandırmaq üçün gəlmişik. Bu hərəkət bizə və ləyaqətimizə tam uyğundur.

Lakin daha geniş mənada bizim bu yeri öyməyə, nurlandırmağa, müqəddəsləşdirməyə ehtiyacımız yoxdur. Burada döyüşmüş mərd insanlar (dirilər və ölənlər) artıq onu nurlandırıblar. Həm də bunu bizim zəif gücümüzlə artıra və ya azalda biləcəyimizdən qat-qat artıq ediblər. Burada dediklərimizi dünya qismən eşidəcək və çox keçmədən unudacaqdır, lakin onların etdikləri heç vaxt yaddan çıxmayacaqdır. Bu, bizə — dirilərə lazımdır ki, özümüzü burada döyüşənlərin şərəflə gördükləri və hələ bitirmədikləri işə həsr edək. Özümüzü bu işə həsr etməyimiz ondan ötrü daha çox bizə lazımdır ki, xatirələrini hörmətlə yad etdiyimiz bu böyük insanlardan onların ən yüksək dərəcədə nümayiş etdirdikləri sədaqət dərsi götürək; onların öz həyatlarını boş yerə qurban vermədiklərini bir daha rəsmən bildirək; bu millət Allahın köməyi ilə azadlığın yenidən dirçəlməsinə nail olsun və xalq hakimiyyəti, xalq üçün və xalqın həyata keçirdiyi bir üsul yox olub yer üzündən silinməsin.

## 38. ABŞ DÖVLƏT XİDMƏTİNİN TƏŞKİL OLUNMASINA DAİR İLK ADDIMLAR

Dövlət inzibati aparatının səmərəli işinin təşkili, kadrların seçilməsi gənc dövlətin, xüsusilə də tarixi analoqu olmayan dövlətin qurulması işində başlıca məsələlərdəndir. ABŞ-ın dövlət aparatı işinin təşkili müstəqillik elan olunandan Vətəndaş müharibəsinə qədər çox aşağı səviyyədə olmuşdur. Kadrların seçilməsi və onların fəaliyyətinə nəzarət irrasional xarakter daşıyırdı. Hər yeni prezident seçkilərdə onu fəal müdafiə edənlərin

“borcunu qaytarmaq” üçün adətən köhnə məmurların əksəriyyətini işdən çıxarır və yerlərini “öz” adamlarına paylayırdı. Dövlət qulluqçularının daimi rotasiyası ideyasını o vaxtlar demokratik ünsür hesab edirdilər. 1829-cu ildə prezident Endrü Ceksonun dediyi kimi: “Heç bir adam vəzifə tutmağa başqalarından daha çox hüquqa malik deyil... Bütün dövlət vəzifəli adamların vəzifələri elə sadə və aydın müəyyən edilmişdir, yaxud hər halda edilməlidir ki, ağıllı adamlar onları yerinə yetirmək üçün özlərini hazırlaya bilsinlər”.

Lakin müəyyən təcrübə əldə etmiş köhnə dövlət qulluqçularının yeni prezidentin adamları ilə daim və kütləvi şəkildə əvəz edilməsi onların iş keyfiyyətlərinin aşağı düşməsinə, inzibati aparatın iflicinə və korrupsiyaya səbəb olurdu. Dövlət qulluqçularının sayı prezident E. Ceksonun vaxtındakı 20 min nəfərdən 19-cu yüzilliyin sonu üçün 200 minə çatmışdı, onların yerinə yetirməli olduqları vəzifələr isə daha yüksək ixtisas səviyyəsi tələb edirdi. Ştatlararası ticarət komissiyası, yaxud xüsusi kənd təsərrüfatı büroları kimi dövlət idarələrinin yaradılması artıq xüsusi elmi biliklərin olmasını da tələb edirdi, prezidentlərin dövlət vəzifələrini “öz” adamlarına paylaması və dövlət aparatından siyasi məqsədlər üçün istifadə olunmasından ibarət zərərli praktika isə hələ də tətbiq olunmaqda idi.

Ötən yüzilliyin 70-ci illərinin sonunda dövlət xidməti sisteminin təkmilləşdirilməsinə yönəlmiş tələblər kütləviləşmişdi, lakin siyasətçilər ictimai rəyi inkar edir, yaxud inkar etməyə məcbur edilirdilər. Yalnız prezident Ceyms Qarfild (1831–1882) vəzifə ala bilməmiş adamlarından biri tərəfindən öldürüldükdən sonra dövlət xidməti sahəsində islahatlar keçirilməsi qaçılmaz oldu.

Senator Corc Pendltonun irəli sürdüyü Mülki (yəni dövlət) Xidmətin təşkil olunması haqqında qanun müəyyən vəzifələrin (cəmisi 15 min vəzifəyə yaxın) təsnifatını verdi, onları birbaşa himayəçilikdən çıxardı, qulluqçuların yığılması sistemini açıq etdi, “qeyri-siyasi” dövlət vəzifələrini tutmaq üçün hamının yarışda iştirak hüququnu təmin etdi. Qanun Mülki Xidmətə nəzarət üzrə komissiya yaradılmasını nəzərdə tuturdu. O, siyasi əlaqələri deyil, şəxsi keyfiyyətləri və xidmətləri əsas götürməklə dövlət qulluqçularına rəhbərliyi həyata keçirməli idi.

Bu qanunla təsnif edilmiş vəzifələrin sayı ildən-ilə artırdı, ABŞ-ın dövlət administrasiyası təkmilləşməkdə davam edirdi və 1897-ci ildə prezident MakKinlinin vaxtında artıq 86 min vəzifə (demək olar ki, yarısı) bu qanunun təsir dairəsinə daxil edilmişdi. 1980-ci ildə “siyasi vəzifələr”in yalnız 10 faizi (4 minə yaxın) ABŞ prezidentinin ixtiyarında qalmışdı, yerdə qalan bütün dövlət vəzifələri başlanğıcını Pendlton qanunundan götürmüş Mülki Xidmət Sistemi vasitəsilə nizamlanırdı.

Pendlton qanununu oxuyan Azərbaycan oxucusu burada bizə yaxşı tanış olan yerlibazlıq, himayəçilik, ailəbazlıq və hakimiyyət uğrunda mübarizədə dövlət aparatından istifadə edilməsi kimi hallardan qurtulmaq cəhdinin şahidi olacaqdır.

PENDLTON QANUNU

---

## BirləşmişŞtatların Mülki Xidmətini nizamlayan və təkmilləşdirən qanun (1883)

Qanun olsun...

Prezident Senatın məsləhəti və razılığı ilə Mülki Xidmət Komissiyasının üzvü kimi üç nəfəri (onların ikisindən çoxu eyni partiyanın üzvü olmamaqla) təyin etmək səlahiyyətinə malikdir və komissiyanın bu üç üzvü BirləşmişŞtatların Mülki Xidmət Komissiyasını təşkil etməlidir. Yuxarıda göstərilən komissiya üzvləri BirləşmişŞtatların hər hansı digər rəsmi vəzifəsini tutmamalıdır.

**2-ci fəsil**. Yuxarıda göstərilən komissiya üzvlərinin vəzifələri:

*Birincisi.* Bu qanunun həyata keçirilməsi üçün zəruri qaydaların hazırlanmasında prezidentə onun tələbi ilə kömək etmək. Və yuxarıda göstərilən qaydalar elan edildikdən sonra bu qaydaların aid ola biləcəyi departament və ofislərdə BirləşmişŞtatların bütün vəzifəli şəxsləri bu qaydaların və onlara hər hansı düzəlişin yerinə yetirilməsində bütün mümkün vasitələrlə yardımçı olmağa borcludurlar.

*İkincisi.* Bu qaydalar, digər şeylərlə yanaşı, yaxşı administrasiya şəraitinin tələb etdiyi kimi, aşağıdakıları da təmin və tələb etməlidir:

1. Namizədlərin keçirilən imtahana uyğun olaraq təsnif edilmiş, yaxud gələcəkdə ediləcək mülki xidmətə yararlı olduğunu müəyyən etmək üçün açıq yarış imtahanları. Bu imtahanlar əməli xarakter daşımalı, imtahan edilən adamın uyğun qabiliyyətini və onun iddia etdiyi vəzifəni yerinə yetirməyə yararlı olduğunu imkan daxilində qərəzsiz müəyyən edən fənnə aid olmalıdır.

2. Qruplara bölünmüş, yaxud bölünəcək bütün ofislər, vəzifələr, iş yerlərini bu imtahanlarda ən yüksək nəticələrə nail olmuş namizədlər tutmalıdır.

3. Yuxarıda deyilmiş mülki xidmətə Vaşinqtonda departamentlərə təyinatlar müxtəlif Ştatlar, Ərazilər və Kolumbiya Dairəsi arasında əhalinin sonuncu siyahıyaalmaya uyğun sayına görə mütənasib bölünməlidir...

4. Hər bir qəti təyinatdan, yaxud işəgötürmədən qabaq sınaq müddəti olmalıdır.

5. Dövlət xidmətində olanlardan heç kəs hər hansı siyasi fonda vəsait köçürməməli, kiməsə siyasi yardım göstərməməlidir, o özü də bu işləri etmədiyinə görə işdən azad edilə, yaxud təqib edilə bilməz.

6. Yuxarıda göstərilən Xidmətdə olan hər hansışəxs özünün rəsmi səlahiyyətlərindən, hər hansışəxsin, yaxud təşkilatın siyasi fəaliyyətinə təsir, yaxud müdaxilə etmək üçün istifadə etmək hüququna malik deyildir...

7. Müvafiq hallarda komissiya qeyri-rəqabət imtahanları da keçirəcəkdir. Bu vaxt təyinata uyğun gələn adamlar öz aralarında rəqabət aparmayacaqlar. Bu halda boş yerin olması haqqında elana bu imtahanın komissiya üzvləri müəyyən olunmuş qaydaları da əlavə etməlidir.

*Üçüncüsü.* Yuxarıda göstərilən komissiya prezidentin müəyyən edə biləcəyi qaydalara uyğun olaraq bu cür imtahanlar üçün normalar müəyyənləşdirməli və onların gedişinə nəzarət etməlidir.

**3-cü fəsil.** ...Vaşinqtonda və imtahan keçiriləcək Ştat və Ərazilərin bir və ya daha çox yerində komissiya şöbə və ya ofisin rəhbərləri ilə əvvəlcədən məsləhətləşib onlarda işləyən dövlət qulluqçularından ibarət və üç nəfərdən az olmamaqla imtahan komissiyaları yaratmalıdır...

**6-cı fəsil.** Bu qanun qəbul olunandan sonra altmış gün ərzində maliyyə naziri... klerklərinin sayı əlliyə bərabər olmalı olan hər bir gömrük dairəsində... vergi müfəttişləri, hərbi dəniz komandirləri, gömrük xidməti, yaxud qiymətqoyanlar tərəfindən işə qəbul edilən müxtəlif klerk və şəxsləri dərəcələr üzrə yerləşdirməlidir. Və sonra maliyyə naziri prezidentin göstərişi ilə... istənilən gömrük dairəsində vaxtaşırı bu cür təsnifat keçirməlidir.

**7-ci fəsil.** Bu qanunun qəbulundan altı ay keçdikdən sonra heç bir vəzifəli şəxs... imtahansız, yaxud xüsusi olaraq imtahandan azad edilmədən... təyin edilməməli, yaxud onun dərəcəsi dəyişdirilməməlidir.

Lakin burada əks olunanların heç birinə prezidentə (yuxarıda göstərilən statusun 1758-ci bölməsində) verilmiş və bu qanuna zidd olmayan səlahiyyətlərin pozulması kimi baxılmamalıdır.

Hakimiyyətin icraedici qolundan olmayan vəzifəli şəxs, yaxud fəhlə kimi işə götürülən hər hansışəxs təsnifata daxil edilmir.

Senatda təsdiq edilməli olan istənilən adam Senatın xüsusi göstərişi olmadan təsnifata daxil edilmir və imtahan vermir.

**8-ci fəsil.** Çoxlu məstedici içkilər içən adam bu qanunun təsir dairəsindəki dövlət xidmətinə təyin edilməməli, yaxud orada saxlanılmamalıdır...

**9-cu fəsil.** Bu qanunun təsiri altına düşən dövlət vəzifələrində bir ailənin iki, yaxud daha çox üzvü işləyirsə, ailənin başqa üzvü buraya təyin edilə bilməz.

**10-cu fəsil.** İmtahan komissiyasının üzvləri namizədlərin şəxsi keyfiyyətlərinə dair təqdimatlar istisna olmaqla, senatorlardan, yaxud Konqres üzvlərindən namizədin işə qəbul olunması haqqında heç bir xahiş qəbul etməməlidir.

**11-ci fəsil.** BirləşmişŞtatların istənilən hakimiyyət qolundan olan dövlət qulluqçularının heç biri... hər hansı dövlət qulluqçusundan, yaxud BirləşmişŞtatların Xəzinəsindən əmək haqqı və ya mükafat alan şəxsdən birbaşa, yaxud dolayısı ilə hər hansı muzd, yaxud ianə, ya da siyasi məqsədlərlə vəsait almamalıdır...

39. AMERİKADA ÖZÜNÜİFADƏ AZADLIĞI

## Ənənə, Konstitusiya, Ali Məhkəmə

Britaniyanın vahid dövlət kilsəsi və azadlığın məhdudlaşdırılması praktikası, əlbəttə, Böyük Britaniyanın Amerika koloniyalarına da keçmişdi. Lakin Amerika kolonistlərinin içərisində çoxsaylı müxtəlif dini təriqətlərin nümayəndələrinin olması ona gətirib çıxardı ki, burada başqalarının fikrinə və dini etiqadına daha demokratik yanaşma formalaşa bildi.

1734-cü ildə Nyu-York naşirlərindən Con Peter Zenger ingilis qubernatorunun fəaliyyətini tənqid etdiyinə görə həbs edilmişdi. Maraqlıdır ki, o vaxtkı Britaniya Ümumi Hüququna görə, şəxsiyyətə böhtan atılması, onun təhqir edilməsi, yaxud hökumət məmurunun tənqid edilməsi yazılanın düzgünlüyündən asılı olmayaraq "Qiyamçı iftiralar haqqında" qanunla cəzalandırılırdı. Zengerin vəkili ilk dəfə bu cür işə andlılar məhkəməsində baxılmasına nail oldu, andlı iclasçıları inandıra bildi ki, hər hansı adamın dediyi faktlarla sübut olunursa, onu böhtançılıqda ittiham etmək olmaz və o, prosesi uddu. Bu nümunədən sonra özünü təhqir olunmuş hesab edən şəxs yalnız ona qarşı yazılanların böhtan olduğunu məhkəmədə sübut etdikdən sonra işi uda bilərdi. Andlılar məhkəməsi bundan sonra böhtançının zərərçəkənə ödəməli olduğu maddi zərərin həcmini də müəyyənləşdirirdi.

Müstəqillik uğrunda mübarizə vaxtlarından söz, dini və dinc yığıncaqlar azadlığının daxil olduğu *özünüifadə azadlığını*Amerika inqilabı liderləri yeni dövlət quruculuğunun ideoloji əsası hesab edirdilər. Tomas Cefferson deyirdi ki, "əgər qəzetlərsiz hökumət, yaxud hökumətsiz qəzetlər seçimi qarşısında qalsam, bir saniyə də tərəddüd etmədən ikinciyə üstünlük verərdim".

ABŞ Konstitusiyasına 1791-ci ildə daxil edilmiş Birinci düzəliş Konqresə özünüifadə azadlığını məhdudlaşdıran qanunların qəbul olunmasını qadağan edirdi, lakin Amerika məhkəmələri XX əsrə qədər söz azadlığını müdafiə etmək üçün Konstitusiyaya müraciət etmək istəmir, adətən Britaniya ənənələrinə söykənən və ayrı-ayrıştatların fərqlənən qanunlarını əsas götürürdülər.

1789-cu ildə ABŞ-ın Fransa ilə müharibəsi ərəfəsində Konqres xaricilər və qiyamçı aksiyalar haqqında qanunlar qəbul edir. Sonuncu qanun hakimlər tərəfindən tez-tez "hakimiyyətin nüfuzuna xələl gətirən", yaxud "ictimai iğtişaşlara səbəb ola biləcək tənqidlərə qarşı" tətbiq olunurdu. Bu qanunlarla təkcə bir ildə onlarca naşir cərimələnmişdi, lakin 1800-cü ildə prezident seçilmiş Tomas Cefferson mühakimə edilmiş bütün jurnalistləri və naşirləri əfv etdi, ödənilmiş cərimələrin geri qaytarılması üçün göstəriş verdi.

Birinci dünya müharibəsinin son illərində Konqres "Casusluq haqqında" (1917) və "Qiyamçı aksiyalar haqqında" (1918) qanunlar qəbul edir. Bu qanunlar fikirləri "dövlətin dayaqlarını sarsıdan" "alman" və "kommunist" meylli ünsürlərə qarşı tətbiq olunurdu. Taleyin ironiyasıdır ki, ABŞ-ın, elan edildiyi kimi, "dünyada demokratiyanın bərqərar olması uğrunda" Avropada apardığı müharibə öz ölkəsində vətəndaş azadlıqlarının kütləvi surətdə

pozulması ilə müşayiət olunurdu. Məsələn, adamlar müharibəyə qarşı təbliğat apardıqlarına, yaxud Konstitusiyanı tənqid etdiklərinə görə məhkəmələrə çəkilirdilər. Cəmi iki il ərzində bu qanunlarla 1956 halla bağlı 877 adam haqqında hökm çıxarılmışdı.

ABŞ Ali Məhkəməsi ilk dəfə 1919-cu ildə böhtan və qiyamçı aksiyalar haqqında qanunla işə baxmışdır. Bu, tanınmış sosialist Şenkin "hərbi xidmətdən imtinaya çağırışda" ittiham edilməsi ilə bağlı olmuşdur. Baş hakim Oliver Vendell Holmsun təklifi ilə Ali Məhkəmə ittiham hökmünü qüvvədə saxladı. Holms bildirmişdi ki, "biz özünüifadə azadlığını hətta ən ciddi şəkildə müdafiə etdikdə belə onu ağzınacan dolu teatrda "yanğın" qışqırıb təlaş və çaxnaşma salan adama tətbiq edə bilmərik". Ali Məhkəmə bu halda Holmsun müəyyənləşdirdiyi belə bir yanaşma meyarını tətbiq etmişdi: *"Konkret olaraq söylənilən fikir, deyildiyi şəraiti və onun xarakterini nəzərə almaqla, elə zərərli nəticələrin alınması üçün aşkar və birbaşa təhlükə (*clear and present danger*) yarada bilərmi ki, onların qarşısını almağa Konqresin hüququ olsun? Bu, hadisənin yaxınlığı və təhlükənin dərəcəsi haqqında məsələdir".*

Şenklə bağlı hadisə Holms üçün adi və aydın idi. Lakin o, ABŞ-ın akademik dairələrində liberal hüquqşünaslar, fikirlərinə hörmət etdiyi və hesablaşdığı adamların tənqidi ilə qarşılaşdıqda çox təəccübləndi. Çikaqo Universitetinin professoru Ernest Freynd bildirirdi ki, "*əks fikrə dözümlülük nəciblik məsələsi deyil, siyasi müdriklik məsələsidir".* "Söz azadlığı mühüm milli məqsədlərə xidmət edir, — deyə harvardlı professor Çaffi Holmsu inandırmağa çalışırdı, — *ölkə daha çox qeyri-populyar doktrinalardan irəli gələn şübhəli və müəmmalı təhlükələrdən deyil, söz azadlığının məhdudlaşdırılmasından ziyan çəkəcəkdir*". Hakim Holmsun sonrakı addımları göstərir ki, alimlər Ali Məhkəmənin üzvünü inandıra biliblər.

Elə həmin ildə ABŞ Ali Məhkəməsi rus mühaciri Yakov Abramsın və onun üç yoldaşının işinə baxırdı. Onlar bolşevik Rusiyasına qoşun göndərmiş prezident Vilsonun siyasətini tənqid edən iki vərəqəni yaydıqlarına görə ittiham olunurdular. Vərəqələrdə aşağıdakı ifadələrdən ibarət məqalələr verilirdi:

"Alman militarizmi Rusiyada inqilabı boğmaq üçün özünə yaxın olan kapitalizmlə birləşmişdir". "Prezident o qədər qorxaqdır ki, deyə bilmir: "Biz, kapitalist dövlətləri, Rusiyada proletar respublikasının mövcudluğuna imkan verə bilmərik". "Dünya fəhlə sinfinin yalnız bir düşməni vardır — kapitalizm!". "Fəhlələr! Siz yalnız Almaniyaya qarşı deyil, həmçinin Rusiya Fəhlə Sovetlərinə qarşı işlədilən güllələrin istehsalına görə pul alırsınız". "Fəhlələr! Vəhşi müdaxiləyə biz ümumi tətillə cavab verməliyik". "Rusiyada bizim qaydaları bərqərar etmək məqsədilə ona qarşı silah işlədilərsə, biz də silaha əl atacağıq".

Aşağı pillə məhkəməsi bu çağırışları ABŞ-ın Almaniyaya qarşı hərbi əməliyyatlarına mane olmaq cəhdləri, açıq silahlı qiyam hədələri kimi qiymətləndirmişdi. Abrams və onun yoldaşları 3 ildən 20 ilə qədər həbs cəzasına məhkum edilmişdilər.

Ali Məhkəmə üzvlərinin əksəriyyəti Holmsun *"aşkar və birbaşa təhlükə"* formuluna əsaslanaraq hökmü dəyişmədən saxladılar. Lakin Holms və ona qoşulmuş hakim Luis Brandeys məhkəmədə xüsusi rəylə çıxış etdilər. Bu mövqe ilk dəfə olaraq söz azadlığına ənənəvi Britaniya baxışından fərqlənirdi. Mövqe problemə xüsusi Amerika baxışının başlanğıcını qoydu. Bu baxışa görə, *hər kəs öz fikrini azad və əngəlsiz, hökumətə, yaxud daha kiməsə nə dərəcədə təhqiramiz görünməsindən asılı olmayaraq ifadə etməlidir və heç bir ideya və fikir dövlət tərəfindən təqib oluna bilməz.*

Hakim Holmsun mövqeyi "azad ideya bazarı" nəzəriyyəsi adını aldı. Bu nəzəriyyəyə görə, *zərərli fikirlərə qarşı ən yaxşı vasitə başqa fikirlərin, ən düzgün fikrin qalib gələcəyinə qədər irəli sürülməsindən ibarətdir. Lakin əgər müvafiq reaksiyanın ortaya gəlməsi üçün vaxt kifayət etmirsə (teatrın ağzınacan dolu tamaşaçı zalı haqqında gətirdiyimiz nümunədə olduğu kimi), bu nəzəriyyənin tətbiq edilməsi mümkün olmur, belə ki, hadisə sonrakı diskussiyadan əvvəl baş verə bilər.*

"Azad ideya bazarı" nəzəriyyəsi Ali Məhkəmə tərəfindən 1969-cu ildə, Ohayo ştatında Ku-Kluks-Klanın siyasi dəyişikliklərə nail olmaq məqsədilə zorakılığa çağırmış liderinə qarşı hökmə baxılarkən təqdir edilmişdir. Ali Məhkəmə *birbaşa qeyri-qanuni hərəkətlərə təhriketmə halları, yaxud bu təhlükənin real olduğu hallar istisna olmaqla özünüifadə azadlığının müdafiə olunmasını zəruri sayaraq* bu hökmü ləğv etdi.

Amerika məhkəmələrində Konstitusiya təminatları uğrunda mübarizə özünüifadənin digər sahələrini də əhatə edirdi. 1943-cü ildə ştat məhkəməsində "Qərbi Virciniya Təhsil Komitəsi Barnettə qarşı" işinə baxılırdı. Bu iş "*Yeqovanın şahidləri"* sektasının üzvü olan məktəblilərin valideynləri tərəfindən qaldırılmışdı. Onlar dini təsəvvürlərinə uyğun olaraq ştat hakimiyyətinin tələb etdiyi kimi milli bayrağı salamlamaqdan və ona and içməkdən imtina edirdilər. Məhkəmə məktəblilərin əqidə və etiqad azadlığını pozduğuna görə bayrağa məcburi

andiçmə mərasimini ləğv etdi və göstərdi ki, əqidə və etiqad azadlığı dövlətin təzyiqindən kənar olmalıdır. Məhkəmənin qərarında göstərilirdi: *"İqtidara sədaqət andı BirləşmişŞtatlarda həmişə ikrah hissi doğurur. Məcburiyyət altında deyilmiş söz yalnız şəxsi marağa sədaqəti sübut edir. Şəxsiyyətin əqidə azadlığına riayət olunmasını iqtidarın məcbur etdiyi konformizmdən üstün tutmaq lazımdır. Tarixin öyrətdiyi kimi, belə konformizmi acı və faciəli sonluq gözləyir".*

1962-ci ildə Nyu-York ştatının təhsil şurası gündəlik məktəb dualarının ənənəvi formasını dəyişmək qərarına gəlir və elə bir dua mətni tərtib edir ki, bütün dinlərin tərəfdarları onu qəbul edə bilsin. Bir qrup məktəblinin valideynləri tətbiq olunan duaların "məktəblilərin və onların valideynlərinin əqidəsinə, dininə və dini praktikasına zidd olduğu" qənaətinə gələrək öz narazılıqlarını bildirdilər. Nyu-York ştatının məhkəməsi valideynlərin tələblərini rədd edərək göstərdi ki, məktəblilərin dua mərasimində iştirakı könüllüdür və heç kəs öz vicdanının əksinə olaraq bu mərasimdə iştirak etməyə məcbur olunmur. Lakin ABŞ Ali Məhkəməsi məktəblərdə gündəlik duaları, dövlətin dini işlərə müdaxiləsini Konstitusiya qadağasına zidd hal kimi ləğv etdi. Məhkəmə həmçinin məktəblilərin dua mərasimlərində iştirakının könüllü olacağına verilən bəyanata inanmadığını bildirdi, belə ki, müəllimin aparmağa başladığı gündəlik dua mərasimlərindən hansısa məktəblinin imtina etməsi çətin olacaqdır; yəni o, birbaşa, yaxud dolayısı ilə vicdan azadlığı məsələlərində təzyiqə məruz qalacaqdır, bu isə Konstitusiyaya Birinci düzəlişə ziddir.

Ali Məhkəmənin Montqomeri şəhərinin polis rəisi Sallivanın "Nyu-York tayms" qəzetinə qarşı qaldırdığı iş üzrə 1964-cü il qərarı söz azadlığının müdafiə olunması sahəsində mühüm addımlardan biri olmuşdur. Sallivan dörd zənci keşişi və onların məktubunu dərc etmiş "Nyu-York tayms" qəzetinin redaksiyasına qarşı iddia ilə çıxış etdi. Keşişlərin məktubunda, doğrudan da, Montqomeri polisini qəddarlıqda ittiham edən bəzi əsassız ittihamlar var idi. Aşağı dərəcəli məhkəmə Sallivanın şikayətini təmin etmişdi, lakin ABŞ Ali Məhkəməsi *dövlət məmurlarının və ictimai xadimlərin tənqidinin xüsusi Konstitusiya müdafiəsinə ehtiyacı olduğu* qərarına gələrək bu hökmü ləğv etdi. Ali Məhkəmə hesab etdi ki, *"azad mübahisələrdə səhv fikirlər labüddür... və əgər fikir azadlığının qorunub saxlanılması üçün zəruri olan "oksigen yastığı"nı almaq istəyiriksə, onlar da müdafiə olunmalıdırlar".* Ali Məhkəmə *səhv fikirləri bilərəkdən deyilən yalanlardan* ayırdı və bundan sonra bütün dövlət qulluqçuları (polismendən prezidentə qədər) və cəmiyyətdə yüksək mövqeyə malik olan hər hansışəxs məhkəmədə böhtan haqqında işləri yalnız o vaxt uda bilərdilər ki, *jurnalistin yanlış informasiyanı bəd niyyətlə dərc etdiyini, yəni "(verilən informasiyanın) yalan olduğunu başa düşdüyünü", yaxud onun "düzgün, ya da səhv olduğunu lazımi dərəcədə yoxlamadan" çap edildiyini* sübuta yetirsin.

1971-ci ildə "Nyu-York tayms" qəzeti ABŞ-ın Vyetnamda müharibəyə başlamasının səbəbləri haqqında Pentaqonun məxfi məruzəsini dərc etməyə başladı. ABŞ Ədliyyə Nazirliyi nəşrin davam etdirilməsinə qadağa qoydu, onda materialların nəşr olunmasını "Vaşinqton post", hökumət onu məhkəməyə verəndən sonra isə "Boston Qlob" qəzeti öz üzərinə götürdü. Pentaqonun məxfi məruzəsini dərc etməyə başlayandan on yeddi gün sonra Ali Məhkəmə "Nyu-York tayms" ABŞ hökumətinə qarşı" işinə baxaraq məruzənin nəşrinə qoyulmuş qadağanı ləğv etdi və hökumətin bu cür nəşrlərə gələcəkdə qadağa qoyulması tələbini rədd etdi. Ali Məhkəmə qərara aldı ki, bu məruzənin nəşri ölkənin milli təhlükəsizliyinə zərər gətirmir və BirləşmişŞtatlarda yaşayan *xalq hökumətin nə ilə məşğul olduğunu bilmək hüququna malikdir.* Ali Məhkəmənin qərarında deyilirdi ki, *"mətbuat idarə edənlərə deyil, idarə olunanlara xidmət etməlidir. Hakimiyyətin mətbuat üzərində senzura hüququ [Konstitusiya ilə] həmişəlik ləğv olunmuşdur ki, mətbuat azad olsun və hakimiyyətə nəzarət edə bilsin. Mətbuata [Konstitusiyada] müdafiə verilib ki, hakimiyyətin sirlərini üzə çıxara və bu haqda əhaliyə məlumat çatdıra bilsin... Azad mətbuatın başlıca vəzifəsi hakimiyyətin xalqı aldatmasının qarşısını almaqdan ibarətdir... Hakimiyyətin Vyetnamda müharibəyə gətirib çıxarmış fırıldaqlarını ifşa etməklə qəzetlər Yaradıcı Ataların onlardan gözlədikləri ləyaqətli hərəkətləri yerinə yetirmişlər"...*

1989-cu ildə ABŞ Ali Məhkəməsi prezident Reyqanın siyasətinə etiraz olaraq 1984-cü ildə Amerika bayrağını yandırdığına görə bir illik həbs və 2000 dollar cərimə ilə cəzalandırılmış Consonun işi üzrə hökmü ləğv etdi. Ali Məhkəmə ittihamçıların belə bir fikrini rədd etdi ki, milli birliyin simvolu olan bayrağın təhqir olunması ətrafdakıların qəzəbinə və iğtişaşlarına səbəb ola bilər. Məhkəmə belə nəticəyə gəldi ki, *"əgər [Konstitusiyaya] Birinci düzəlişin söykəndiyi hər hansı əzəl prinsip varsa, o da bundan ibarətdir ki, hakimiyyət hər hansı baxışın bildirilməsini yalnız cəmiyyətin onu təhqiramiz və zərərli hesab etməsinə görə qadağan edə bilməz".*

ABŞ-da bu gün də özünüifadə azadlığını müdafiə konsepsiyasının axtarışları davam edir. Səs-küy salmış "Xalq Larri Flintə qarşı" Amerika filmi (filmi məşhur Miloş Forman olmuş hadisələr əsasında çəkmişdir) bu azadlığın genişləndirilməsi yolunda ABŞ Ali Məhkəməsinin hər bir növbəti addımının nə qədər gərgin və vacib olduğunu yaxşı nümayiş etdirir. İctimai baxışlarda daim baş verən dəyişikliklər, dini və mənəvi problemlərin həllində dövlətin iştirakının forma və dərəcəsinə dair fikir toqquşmaları, hər şeyi bilməyə can atan mətbuatla şəxsi həyatın toxunulmazlığı, yaxud dövlət sirri arasında əbədi ziddiyyətlər səksən ildir ki, ABŞ Konstitusiyasına Birinci

düzəlişin mənası və hüdudları haqqında baş hakim Oliver Vendell Holmsun başladığı qızğın mübahisələrə son qoyulmasına imkan vermir.

OLİVER VENDELL HOLMS

# Abrams BirləşmişŞtatlara qarşı (1919)

*...Biz nifrət etdiyimiz və təhlükəli saydığımız fikirlərin azadlığının məhdudlaşdırılması cəhdlərinə qarşı daimi sayıqlığımızı qoruyub saxlamalıyıq.*

Ali Məhkəmənin üzvü O.V.Holmsun xüsusi rəyi

...Mən əsla şübhə etmirəm ki, BirləşmişŞtatlar hökuməti Konstitusiyaya istinadən adam öldürmək niyyətinə görə cəzaya haqq qazandıran səbəb əsasında da, aşkar və qaçılmaz təhlükə törədən, yaxud törətməyə hazırlaşan və Konstitusiyaya görə qarşısını almalı olduğu dərhal və ciddi bəlaya səbəb ola bilən *nitqə görə* də cəza verə bilər.

Bu səlahiyyətlər, şübhəsiz, sülh dövrünə nisbətən müharibə vaxtı daha çox genişlənir, belə ki, müharibə başqa dövrlərdə mövcud olmayan təhlükələri ortaya gətirir.

Lakin söz azadlığı prinsipi istər müharibəyə xas olan hallarda, istərsə də digər hallarda pozulmamalıdır. Qaçılmaz yamanın real təhlükəsi, yaxud onun hətta yerinə yetirilməsi niyyətinə görə Konqres özünüifadə azadlığına məhdudiyyət qoymaq səlahiyyətinə malikdir, lakin bu, şəxsi hüquqlara toxunmamalıdır. Konqres, şübhəsiz, xalqın rəyini dəyişdirmək cəhdlərinin hamısını qadağan edə bilməz. Axı heç kəs belə hesab etməyəcəkdir ki, naməlum bir şəxs tərəfindən axmaq bir vərəqənin gizli şəkildə nəşr olunması aydın və qaçılmaz təhlükə təşkil edə bilər; yaxud bu vərəqədə verilən fikirlər dövlət qurumlarına mane ola, ya da bunu etməyə real imkanı ola bilər.

Bu çağırışların sabotaj məqsədilə çap olunması böyük təhlükədən xəbər verə, yaxud hər halda, cəhd kimi nəzərdən keçirilə bilərdi. Beləliklə, mən mümkün hesab edirəm ki, ikinci vərəqə ittihamın dördüncü maddəsində göstərilən məqsədlər üçün (qiyama çağırış) çap olunmuşdusa, cəzalandırmaq üçün əsas ola bilər. Lakin mənə tam aydındır ki, axırıncı dediyimdən başqa heç nə bu vərəqələri qanunun təsiri altına sala bilməz.

Cəhd tərkibinə malik olmaq üçün həqiqi niyyətin olması (artıq dediyim mənada) zəruridir, bu halda da real cinayətin ortaya çıxması üçün həmin şəxsin sonrakı hərəkətləri tələb olunur...

Bu, cəhdin uğurunun başqalarından asılı olduğu hallarda zəruridir, belə ki, əgər belə bir niyyət yoxdursa, fəaliyyətinə baxılan şəxsin məqsədi qarşısı alınmalı olan təhlükələri həyata keçirmədən əldə oluna bilər. Və Rusiya inqilabına qarşı müdaxiləyə yol verməmək niyyəti apardığımız müharibəyə heç bir maneə törətmədən təmin oluna bilər...; tamamilə aydındır ki, vərəqələrin yeganə məqsədi BirləşmişŞtatların apardığı müharibədə ona mane olmaqdan deyil, Rusiyaya kömək etməkdən və xalq hakimiyyətinə qarşı Amerikanın müdaxiləsinə son qoymaqdan ibarətdir...

Bu məhkəmə prosesində iki vərəqənin nəşr olunmasına görə iyirmi illik həbs cəzası kəsilmişdir, mən isə əminəm ki, bu vərəqələrin çap olunması üçün cavabdehlərin hökumətin BirləşmişŞtatların Konstitusiyasını çap etmək üçün malik olduğu hüquqları qədər hüquqları var. Bu, həmin Konstitusiyadır ki, müttəhimlər indi ona əbəs yerə istinad etməyə çalışırlar... Müttəhimlər ittihamnamədə göstərilənlərə görə yox, müdafiə etdikləri əqidələrinə görə cəzaya məruz qalacaqlar. Bu cahil və kal əqidələrin məhkəmə işinin obyektinə çevrilməsinə baxmayaraq, heç kəsin ittiham irəli sürülərkən onları hətta nəzərə çatdırmağa hüququ yoxdur.

Özünüifadənin təqib olunması məntiqli görünə bilər. Özünün haqlı olduğuna və gücünə tam əmin olan və can-başla müəyyən nəticəni əldə etmək istəyən şəxs öz istəklərinə hüquqi görünüş verir və hər hansı müxalifəti boğur. Əks fikrə dözümlülüyünüz elə təsir bağışlaya bilər ki, siz nitqləri ümumən o qədər də təsirli saymırsınız...; yaxud nəticə əldə etmək üçün can-başla çalışmırsınız, yaxud öz qabiliyyətinizə və verilmiş prinsiplərə tam əmin

deyilsiniz. Lakin insanlar hadisələrin gedişi ilə artıq çox mənəmlik edən etiqadların məhv edildiyini başa düşəndə belə bir nəticəyə gələ bilərlər ki, ...ən yüksək fayda ideyaların azad mübadiləsi yolu ilə daha asan əldə olunur, həqiqət üçün ən yaxşı sınaq onun bazar rəqabəti şəraitində qəbul oluna bilmək qabiliyyətindən ibarətdir, həmçinin həqiqət üzərimizdə öz ümidlərimizi reallaşdıra biləcəyimiz yeganə təməldir. Hər halda, bizim Konstitusiyanın nəzəriyyəsi belədir. Bu, eksperimentdir, onun kimi bizim bütün həyatımız da eksperimentdir. Hər il, bəlkə də hər gün biz qeyri-mükəmməl biliklərə əsaslanan hansısa peyğəmbərliyə ümid edərək xilasımızı risk altına qoymalı oluruq.

Nə qədər ki, bu eksperiment sistemimizin bir hissəsini təşkil edir, biz nifrət etdiyimiz və təhlükəli saydığımız fikirlərin azadlığının məhdudlaşdırılması cəhdlərinə qarşı daimi sayıqlığımızı qoruyub saxlamalıyıq. Əgər bu baxışlar... əsaslandırılmış real məqsədlərə müdaxilə təhlükəsi yaratmırsa və bu fikirlərin ifadə olunmasına dərhal son qoyulması ölkənin xilası üçün zəruri deyilsə, məhz yuxarıda deyilən kimi hərəkət etməliyik.

Mən hökumətin belə bir mövqeyi ilə razı deyiləm ki, guya [Konstitusiyamıza] Birinci düzəliş [Britaniya] Ümumi Hüququnun “Qiyamçı iftiralar haqqında” müddəasını qüvvədə saxlayır. Tarix bunun əksini sübut edir. BirləşmişŞtatların bir çox illərdən sonra “Qiyamçı aksiyalar haqqında” 1798-ci il qanunu ilə çıxarılmış hökmlərə görə günahlarını etiraf etməsi və tutulmuş cərimələri geri qaytarması məndə bu əminliyi yaradır.

Yalnız zərərli çağırışlara dözümlülüyü dərhal təhlükəli edən fövqəladə şərait “Konqres söz azadlığını məhdudlaşdıran... qanunlar qəbul etməməlidir” prinsipindən kənara çəkilməyə imkan verir. Əlbəttə, mən hamısı bu cümlədə nəzərdə tutulan özünüifadə və çağırışlar azadlığı haqqında danışıram. Və çox təəssüf ki, cavabdehlərin bu hökmlə BirləşmişŞtatların Konstitusiyasının verdiyi hüquqlardan məhrum edilməsinə tam inamımı daha təsirli sözlərlə ifadə edə bilmirəm.

Cənab hakim Brandeys bu rəylə razı olduğunu bildirir.

## 40. AMERİKA DÜNYA DEMOKRATİK SİSTEMİNİN LİDERİ OLUR

### *Franklin Delano Ruzvelt*

Prezident Franklin Delano Ruzvelt (1882–1945) ölkəyə onun tarixinin ən böhranlı anlarından birində başçılıq etməyə başlamışdır. 20-ci illərin sonlarında ABŞ dünya istehsalında ona qədər tarixdə heç bir ölkənin əldə edə bilmədiyi üstünlüyə yetişir: dünya istehsalının 34,4%-i məhz ABŞ-a məxsus idi. Digər dövlətlər bu göstəricilərə görə xeyli geridə qalırdı: Britaniya — 10,4%; Almaniya — 10,3%; Rusiya — 9,9%; Fransa — 5,5%; Yaponiya — 4,0%; İtaliya — 2,5%. Lakin 1929-cu ildə baş verən “böyük depressiya” bu üstünlüyü heçə endirir, aksiyaların kəskin aşağı düşməsinə səbəb olur, ümumi çaşqınlıq, qorxu doğulur və tezliklə ölkəni sosial partlayış həddinə gətirib çıxarır.

1932-ci ildə prezident seçilmiş Ruzvelt amerikalıların qəlbində ümid yaratmağa çalışır: “Qorxmalı olduğumuz bir şey varsa o da qorxudur”. Ruzvelt çıxış yolu kimi o vaxtlar ölkədə dəbdə olan sosialist metodunu — “vəhşi kapitalizm”dən əl götürmək və “yeni iqtisadi kurs”u qəbul etmək təklifini irəli sürür. İndən belə dövlət iqtisadiyyatı planlaşdırmalı və fərdi biznesin işlərinə daha fəal müdaxilə etməli idi. Sonralar Ruzvelt etiraf edəcək: “Mən bunu inqilabdan qurtulmaq üçün elədim”.

Yeni kurs iqtisadiyyata elə bir uğur gətirmir, bununla belə, amerikalıların “son ümid yeri” olan Ruzvelt 1936-cı ildə ikinci, 1940-cı ildə isə üçüncü müddətə prezident seçilir. Ölkə yalnız İkinci dünya müharibəsinin başlanması ilə bir vaxtda böhrandan çıxmağa başlayır — hərbi sifarişlər ölkə istehsalını canlandırır.

1940-cı ildən ABŞ Britaniyaya onun Hitlerlə apardığı müharibədə maddi yardım göstərir, lakin Amerika cavanlarını Avropaya qırğına göndərmək üçün Birinci dünya müharibəsindən elan olunmuş Avropada siyasi tarazlığı bərpa etmək səbəbindən daha inandırıcı və kəsərli dəlil göstərmək gərək idi. Ruzvelt Konqresə göndərilən hər ilki müraciətində (yanvar, 1941-ci il) Amerika milləti qarşısında duran yeni məqsədi bəyan edir — bütün dünyada insan hüquqlarının pozulması hallarına qarşı mübarizə aparmaq!

Maraqlıdır ki, Amerikanın dünyaya aşılayacağı əsas insan azadlıqları sırasında Ruzvelt ölkə tarixində ilk dəfə olaraq insanın sosial hüququnu — onun layiqincə, ehtiyacdan azad yaşamaq hüququnu da bəyan edirdi. Belə ki, o vaxta qədər Amerika dövləti öz vətəndaşlarının istər İstiqlaliyyət Bəyannaməsində, istərsə də ölkə Konstitusiyasında qeyd edilməmiş bu hüququnu tanımaq belə istəmirdi.

ABŞ müharibədən dünyanın fövqəldövləti, özünün yaratdığı dünya demokratik sisteminin danılmaz lideri kimi çıxdı. Əgər müharibəyə qədər dünyada cəmi 12 demokratik dövlət var idisə, artıq 1962-ci ildə Amerikanın yardımı, bəzən isə bilavasitə müdaxiləsi sayəsində onların sayı 32-yə, 80-ci illərin sonlarında isə 60-a çatmışdı.

FRANKLİN DELANO RUZVELT

# Dörd azadlıq (1941)

*...Dünyanın istənilən hissəsində söz, ibadət, ehtiyac əsarətindən və qorxu hissindən azadlıq.*

...Sağlam və güclü demokratiyanın təməlində müəmmalı heç nə yoxdur. Xalqımızın siyasi və iqtisadi sistemindən gözlədiyi əsas şeylər çox sadədir. Budur gözlənilənlər:

gənclər və bütün digər adamlar üçün imkan bərabərliyi;

işləyə bilənlər üçün iş;

ehtiyacı olanların təhlükəsizliyi;

seçmə adamlar üçün xüsusi imtiyazların ləğvi;

hamı üçün vətəndaş azadlıqlarının saxlanılması;

həyat səviyyəsinin daim yüksəlməsi üçün elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə olunması.

Narahat və son dərəcə mürəkkəb müasir dünyada gözdən uzaq qalmamalı sadə və əsas şeylər bunlardır. İqtisadi və siyasi sistemimizin daxili və birləşdirici gücü onun bu gözləncləri nə dərəcədə doğrulda biləcəyindən asılıdır...

Təhlükəsiz etmək istədiyimiz gələcəkdə biz dörd mühüm insan azadlığına əsaslanan bir dünya yaratmağa çalışacağıq.

Birinci azadlıq — dünyanın istənilən hissəsində söz azadlığı və öz fikrini ifadə etmək azadlığı.

İkinci azadlıq — dünyanın istənilən hissəsində hər bir adamın istəyincə ibadət etmək azadlığı.

Üçüncü azadlıq — dünyanın istənilən hissəsində ehtiyac əsarətindən azadlıq; daha sadə dildə bu, hər bir ölkə üçün onun xalqının sağlam, dinc həyatını təmin edən iqtisadi razılaşmaları bildirir.

Dördüncü azadlıq — dünyanın istənilən hissəsində qorxu hissindən azadlıq; daha sadə dildə bu, silahların elə tərzdə və elə səviyyəyə qədər ümumi ixtisar edilməsidir ki, heç bir ölkənin öz qonşusuna fiziki təcavüz etmək imkanı olmasın.

Bu, uzaq minilliklərin perspektivi deyildir. Bu, belə bir dünyanın artıq bizim dövrümüzdə və nəslimiz tərəfindən yaradılması üçün real təməldir. Bu cür dünya — diktatorların bombaların gücü ilə yaratmağa çalışdığı tiraniyanın “yeni qayda”sı deyilənin antipodudur.

Biz bu “yeni qayda”ya qarşı mənəviyyatlı qaydanın dahi ideyasını qoyuruq. Firavan cəmiyyət çəkinmədən dünya ağalığı və inqilab ixracı ideyalarına qarşı dayanmağa qadirdir.

Amerika tarixinin lap başlanğıcından biz həyatımızı daim dinc inqilab, öz inkişafında sabit və şəraitdən asılı olaraq dəyişməyə qabil olan inqilab yolu ilə yeniləşdirməyə çalışırıq. Bu yol həbs düşərgələrini və yaxud meyitlərlə doldurulmuş xəndəkləri rədd edir. Yaratmaq istədiyimiz dünya qaydası dost və sivil cəmiyyətdə fəaliyyət göstərən azad dövlətlərin əməkdaşlığı üzərində qurulur.

## 41. XX ƏSRDƏ İRQÇİLİYƏ QARŞI HƏRƏKAT

Şimalla cənub arasında Vətəndaş müharibəsi qurtardıqdan sonra ABŞ Konstitusiyasına edilmiş 13-cü (1865), 14-cü və 15-ci (1879) düzəlişlər qaradərili kölələrə azadlıq, qanun qarşısında hüquq bərabərliyi və hətta seçkilərdə iştirak etmək hüququ verdi. Lakin xəstə təxəyyül qanunverici aktların qəbul edilməsi ilə aradan qalxmır və azad edildikdən dərhal sonra Amerikanın qaradərili vətəndaşları amansız hüquqi, iqtisadi və sosial ayrı-seçkiliklə üzləşdilər.

Cənub ştatları 1890-cı ildən özlərində seqreqasiya (1) haqqında qanunları tətbiq etdilər. Bu qanunlar zəncilər üçün aşağı hüquqi status müəyyənləşdirirdi. 1896-cı ildə isə ABŞ Ali Məhkəməsi "ayrılıqda, lakin bərabər" prinsipi ilə seqreqasiyanın qanuniliyini təsdiq etdi. Seqreqasiya haqqında qanunlar dövlət məktəblərində təhsilin ayrılmasını nəzərdə tutur, zəncilərin parklara, mehmanxanalara, restoranlara girişini məhdudlaşdırır, nəqliyyatda onlar üçün xüsusi yerlər ayırır, əmlak və təhsil senzi tətbiq etməklə onların seçki hüququnu məhdudlaşdırırdı. Bütün bunlara qarşı vətəndaş hüquqları uğrunda kütləvi hərəkat yüz ilə yaxın mübarizə aparmalı oldu.

1909-cu ildə Milli Zənci Konfransı yaradıldı. Bu təşkilat irqi hüquq bərabərliyi uğrunda mütəşəkkil mübarizənin əsasını qoyur. Vətəndaş hüquqları uğrunda mübarizə İkinci dünya müharibəsinin başlanması ilə xüsusi vüsət alır. Çoxlu sayda şikayət aldıqdan sonra prezident Ruzvelt 1941-ci ildə fərmanla orduda irqi ayrı-seçkiliyin yolverilməz olduğunu göstərir, qaradərili əsgərlərin mühüm və vacib hərbi proqramlarda iştirak hüququnu təsdiq edir. 1948-ci ildə prezident Harri S. Trumen mülki hüquqlar üzrə prezident komissiyası təşkil edir. 1954-cü ildə vətəndaş hüquqları uğrunda əsas zənci təşkilatı olan Rəngli Əhaliyə Yardım Milli Assosiasiyası "Braun Təhsil Şurasına qarşı" işində Ali Məhkəmənin belə bir qərar qəbul etməsinə nail olur ki, seqreqasiya Konstitusiyanın 14-cü (qanun qarşısında hüquq bərabərliyini təmin edən) düzəlişinə ziddir. 1955-ci ildə Alabama ştatının Montqomeri şəhərində zənci müəllimə Roza Parks avtobusda öz yerini ağ kişiyə verməkdən imtina edir. Roza Parksın həbsi avtobus şirkətinin boykot edilməsinə və kütləvi etiraz aksiyalarına səbəb olur. Bu aksiyalara gənc zənci lider, ilahiyyat doktoru Martin Lüter Kinq başçılıq edir. Alabama etirazları bütün Amerikaya yayılır və ABŞ-da mülki hüquqlar uğrunda kütləvi hərəkatın başlanğıcı hesab olunur. 1957-ci ildə prezident Eyzenhauer Littl Rok şəhərinin universitetinə qaradərili tələbələri buraxmayan Arkanzas ştatının qubernatorunu tabe etdirmək üçün qoşun göndərir. Elə həmin ildə Konqres mülki hüquqlar haqqında qanunu qəbul edir. Bu qanun qaradərili amerikalıların seçki hüququnu da müdafiə edirdi. Buna baxmayaraq, cənub ştatlarının nə qanunverici məclisləri, nə də ictimai rəyi seqreqasiyadan imtina etməyə tələsirdi və 1963-cü ildə prezident Con Kennedi mülki hüquqlar haqqında güclü bir bill (qanun) qəbul etmək təklifi ilə Konqresə müraciət etmək qərarına gəlir. Bu qanun ölkənin rəngli əhalisinin hüquqlarını müdafiə etməli idi. Cənub ştatlarının nümayəndələri bu qanunun qəbul edilməsinin qarşısını almaq qərarına gəlirlər.

Buna etiraz edərək Mülki Hüquqlar Uğrunda Ümummilli Hərəkatın liderləri Vaşinqtona kütləvi yürüş təşkil etmək qərarına gəlirlər. Bu yürüşdə 250 min adam, o cümlədən 50 minə yaxın ağdərili vətəndaş iştirak edirdi. Prezident Linkolnun abidəsi önündəki nəhəng mitinqdə həmkarlar ittifaqlarının liderləri, ruhanilər, kino və rok ulduzları çıxış edir. Martin Lüter Kinq irqi ayrı-seçkiliyə qarşı parlaq tarixi nitqlə ("Mənim arzum var") çıxış edir. 1964-cü ildə prezident Lindon Conson Mülki Hüquqlar Uğrunda Ümummilli Hərəkata arxalanaraq, nəhayət, həlak olmuş C. Kennedinin irəli sürdüyü Mülki Hüquqlar Haqqında Billi Konqresdən keçirməyə nail olur. Bu bill ölkənin bütün ştatlarında irqi ayrı-seçkiliyi qəti qadağan edirdi. Həmin ildə Martin Lüter Kinq öz fəaliyyətinə görə Nobel sülh mükafatı ilə təltif olunur. 1968-ci ildə Kinq irqçilər tərəfindən öldürülür. 1986-cı ildə hüquq bərabərliyi uğrunda bu böyük mübarizin anadan olmasının ildönümü ABŞ-da milli bayram elan olunur.

M. Kinq özünün məşhur "Azadlığa doğru böyük addım: Montqomeri tarixi" (1958) kitabında Mahatma Qandinin ideyalarından ruhlanaraq, seqreqasiyaya qarşı qeyri-zorakı mübarizə strategiyasını müəyyənləşdirir.

MARTİN LÜTER KİNQ

# Azadlığa doğru böyük addım (1958)

*Qeyri-zorakı müqavimət zalımlara qarşı deyil, zülmə qarşı yönəlmişdir.*

...Zəncilərin öz haqlarında öz fikirlərinin dəyişməsi ilə seqreqasiyaya münasibətdə milyonlarla ağ amerikalının da vicdanı oyanmağa başladı. İstiqlaliyyət Bəyannaməsi imzalanandan bəri Amerika irqi məsələdə şizofreniyalı adama bənzəyirdi. O, bir neçə Mənə parçalanmışdır; onlardan biri demokratiyanı tərənnüm edir, digəri qəmli-qəmli onun antitezisini tətbiq edirdi. Köləlik kimi, seqreqasiyanın da mövcudluğu həmişə demokratiya və xristianlığa düz gəlməmişdir. Əslində seqreqasiya və ayrı-seçkilik bütün insanların bərabərliyi prinsipi əsasında yaranmış millət üçün qəribə paradoksdur. Bu, həm şimalda, həm də cənubda ağların vicdanını rahat buraxmır və onların bir çoxunu seqreqasiyanın bir bəla olduğunu boynuna almağa məcbur edir...

Tarix bizim nəslimizin bəxtinə təsəvvürolunmaz dərəcədə mühüm bir tale — ölkəmizdə çox gecikmiş demokratikləşmə prosesini başa çatdırmaq nəsib etmişdir. Demokratiyamız ölkəmizin dünyada hörmət qazanmaq və dünya yarışında qələbəyə nail olmaq üçün ən güclü silahıdır... Amerikanın gələcəyi hazırkı böhranın uğurla həll olunmasından asılıdır... BirləşmişŞtatlar öz evindəki irqi problemi aradan qaldırmayınca dünyanın mühüm və inkişaf edən rəngli millətlərinin hörmətinə ümid bəsləyə bilməz... Əgər Amerika birinci dərəcəli ölkə olaraq qalmaq istəyirsə, özündə ikinci növ vətəndaşlıq saxlamamalıdır.

Hazırkı böhranın həlli ancaq bunun naminə kişi və qadınların zəhmətə qatlaşması ilə mümkün ola bilər. Bəşəriyyətin tərəqqisi avtomatik baş vermir və o, heç də labüd deyildir. Tarixə hətta ötəri baxış göstərir ki, heç bir ictimai firavanlıq bizə labüdlük təkərləri üzərində gəlib çatmır. Ədalətə doğru hər bir addım qurbanlar, iztirablar və mübarizə, özünü ona həsr etmiş adamların sonsuz gərginliyini, hədsiz narahatlığını tələb edir. Daim çalışılmazsa, vaxt öz-özünə qiyamçıların, irrasional hissli və ictimai quruluşu dağıdan primitiv qüvvələrin müttəfiqinə çevrilər. İndi süstlük və arxayınlıq vaxtı deyil. İndi ciddi və müsbət fəaliyyət vaxtıdır.

Yorğunluq azadlığı kimi bir şey yoxdur. Bəzi adamlar sıxışdırılıb o hala salınıblar ki, artıq təslim olublar. Bir neçə il bundan əvvəl Atlantanın yoxsul məhəllələrində zənci gitaraçı hər gün belə bir mahnı oxuyurdu: “Ben, o qədər aşağı getmişəm ki, artıq aşağı məni narahat etmir”. Bu, məzlumların həyatını çox vaxt udan mənfi azadlıq və itaət nümunəsidir.

Bu, çıxış yolu deyildir. Ədalətsiz sistemi passiv qəbul etmək bu sistemlə əməkdaşlıq etmək deməkdir; bununla da məzlumun özü zalım kimi şər qüvvəyə çevrilir. Şərlə əməkdaşlıq etməmək mənəvi cəhətdən xeyirlə əməkdaşlığa bərabər bir şeydir.

Məzlum heç vaxt zalımın vicdanının rahatlanmasına imkan verməməlidir. Din hər bir insana təlqin edir ki, o öz qardaşının qoruyucusudur. Seqreqasiyanın ədalətsizliyini də passiv qəbul etmək zalıma göstərməkdir ki, onun hərəkətləri mənəvi baxımdan ədalətlidir. Bu, zalımın vicdanına rahatlanmaq imkanı verən yoldur. Bu an məzlum öz qardaşının qoruyucusu olmaq imkanını itirir. Beləliklə, sazişçilik çox vaxt asan, lakin əxlaqsız yoldur. Bu, qorxaqlıq yoludur. Zənci səssiz-səmirsiz razılaşdıqca zalımın hörmətini qazana bilməyəcəkdir; onun təkəbbürü və qanacaqsızlığı daha da artacaqdır. Lal-dinməz razılıq zənci yarımçıqlığını sübut edəcəkdir. Zənci özünün bugünkü rahatlığı və təhlükəsizliyi naminə uşaqlarının gələcəyini satacaqsa, o, cənubun ağ adamlarının və dünya xalqlarının hörmətini qazana bilməyəcəkdir.

Məzlumun zalıma qarşı tutduğu ikinci mövqe fiziki zorakılıqla və hər şeyi məhv edən nifrətlə bağlıdır. Zorakılıq bəzən ani nəticələrə gətirib çıxarır. Ölkələr çox vaxt öz müstəqilliyinə döyüş meydanında nail olmuşdur. Lakin müvəqqəti qələbələrə baxmayaraq, zorakılıq heç vaxt daimi sülhü bərqərar etmir. Zorakılıq heç bir ictimai problemi həll etmir, sadəcə olaraq yeni, daha dolaşıq problemlər yaradır.

Zorakılıq irqi ədalətə nail olmaq üçün vasitə kimi həm sərfəsiz, həm də əxlaqsızdır. O, sərfəsizdir, çünki gərilmiş yay kimi ümumi dağıntı ilə qurtarır. Köhnə “gözə göz” qanunu hamını kor edəcək. O, əxlaqa uyğun deyildir, çünki opponenti başa düşməyə deyil, onu məhv etməyə yönəlmişdir; o, dəyişməyə deyil, məhv etməyə çalışır.

Zorakılıq əxlaqa yaddır, çünki o, məhəbbətə deyil, nifrətə çevrilir. O, cəmiyyəti dağıdır, qardaşlığı qeyri-mümkün edir...

Azadlığa can atan məzlumların qarşısında açılan üçüncü yol qeyri-zorakı müqavimət yoludur. Hegel fəlsəfəsindəki sintez kimi, qeyri-zorakı müqavimət prinsipi də iki əkslik — lal-dinməz mütiliklə zorakılıq arasında ifratçılığa və əxlaqsızlığa yol verməməklə barışığa nail olmağa çalışır. Qeyri-zorakı müqavimət tərəfdarı insanın öz opponentinə qarşı fiziki təzyiq etməsinə qarşı çıxanlarla razılaşır; lakin o, zorakılığın tərəfdarlarının da şərə qarşı mübarizənin zəruriliyi haqqında fikri ilə razılaşır və tarazlıq yaradır...

Qeyri-zorakı müqavimət zənciyə imkan verir ki, cənubda qalsın və hüquqları uğrunda mübarizə aparsın. Zənci problemi bizim... ölkənin başqa yerlərinə qaçmağımızla həll olunmayacaq...

Qeyri-zorakı müqavimət zalımlara qarşı deyil, zülmə qarşı yönəlmişdir. Müqavimət sıralarına irqi qruplar deyil, vicdanın özü çağırılır.

Zənci inteqrasiyaya (2) nail olmaq istəyirsə, fəal, lakin qeyri-zorakı kütləvi hərəkat kimi təşkilatlanmalıdır...

Bərabərlik və ədalət uğrunda hərəkat yalnız o vaxt uğur qazana bilər ki, həm kütləvi, həm də fəal xarakter daşısın; dəf olunmalı maneələr hər ikisinin olmasını tələb edir. Qeyri-zorakılıq ali cəmiyyətə nail olmağın başlıca şərtidir.

Zorakılığa əl atmayacağına boyun olmayan kütləvi döyüşkən hərəkat münaqişələr törədir, bu da öz növbəsində anarxiyaya gətirib çıxarır. İştirakçıların müdafiəsi və qoşulmayanların rəğbəti cəmiyyətin qana bürünəcəyi təhlükəsi ilə daha da çətinləşir. Bu reaksiya öz növbəsində digər tərəfi bizi zorla hədələməyə və zora əl atmağa ruhlandırır. Bununla yanaşı, kütləvi hərəkat qətiyyətlə öz məqsədinə doğru irəliləyərək zorakılıqdan imtina edirsə, onun opponentləri özlərini zorakılığın (o, baş verirsə) təşəbbüskarı və törədiciləri kimi büruzə verirlər. Sonra ictimaiyyətin dəstəyi sürətlə qeyri-zorakılıq tərəfdarlarının tərəfinə keçir, zorakılığa əl atanlar isə onların mövqeyinə qarşı yönəlmiş qınaq hissi ilə tərksilah edilir...

Qeyri-zorakılıq qanunun təsir etmədiyi yerdə adamları hərəkətə gətirə bilər. Qanun insanların davranışını nizamlayarkən ictimai rəyin formalaşmasına ancaq dolayı yollarla təsir edir. Qanun tətbiq etdiyi məcburiyyətə özü-özlüyündə dinc vasitələrlə inandırma formalarından biridir. Amma qanuna yardım gərəkdir. Məhkəmələr dövlət məktəblərində seqreqasiyanın götürülməsi haqqında qərar qəbul edə bilər. Lakin məktəblərdə inteqrasiya ətrafında nifrət, zorakılıq, mənfi meyllərin təsirini azaltmaq, dağıtmaq üçün nə etmək olar; irqçi demaqoqların əlindən təşəbbüsü almaq, qanuna hörmət edilməsinə nail olmaq üçün nə etmək lazımdır? Nəhayət, insanların qanunlara tabe olması üçün qanunların düzgün olduğuna inanması vacibdir.

Burada qeyri-zorakılıq qəti inandırma forması kimi çıxış edir. Bu, elə bir vasitədir ki, ləyaqətli əksəriyyətin vicdanına arxalanaraq ədalətli qanunun həyata keçirilməsinə kömək edir; bu əksəriyyət korluğu, qorxusu, təkəbbürü, yaxud irrasionallığı ilə vicdanının susmasına imkan verirdi...

Qeyri-zorakı müqavimət özünü aşağıdakı sadə terminlərlə ifadə edə bilərdi: biz digər qurumlardan bu cür addımları gözləmədən ədalətsizliyə qarşı birbaşa addımlara əl atacağıq. Biz ədalətsiz qanunlara, yaxud ədalətsiz praktikaya tabe olmayacağıq. Biz bunu dinc yolla, açıq və xoş məramla edəcəyik, çünki vəzifəmiz inandırmaqdan ibarətdir. Biz qeyri-zorakı vasitələrdən istifadə edirik, çünki məqsədimiz özü özüylə razılıqda olan cəmiyyətdir. Biz adamları sözlə inandırmağa çalışacağıq, sözlərimiz təsir etmədikdə isə onları öz hərəkətlərimizlə inandırmağa səy edəcəyik. Biz həmişə ədalətli güzəştə çağıracağıq və onu tapmağa çalışacağıq. Lakin biz inandığımız həqiqətin bərqərar olmasını görmək üçün, lazım gələrsə, iztirablara dözməyə, həyatımızla risq etməyə hazırıq...

Zəncinin məruz qaldığı zorakılıqdan müdafiə olunması üçün bundan yaxşı nə ola bilər ki? Doktor Kennet Klark necə gözəl demişdir: "O, yalnız onunla müdafiə oluna bilər ki, hər bir zənciyə qarşı törədilmiş vəhşilik, qanunsuzluq, qəddarlıq və ədalətsizliyin müqabilində daha 100 zənci potensial qurban kimi onun yerini tutsun". Hər dəfə bir zənci məktəb müəllimi inteqrasiyaya inamına görə işdən çıxarıldıqda min nəfər başqa zənci həmin mövqeni tutmağa hazır olmalıdır. Zalımlara etiraz etdiyinə görə bir zəncinin evini partladırlarsa, onlara izah etmək lazımdır ki, zənci fədakarlığının artan gücünün qarşısını almaq üçün bir evi deyil, daha yüzlərcə evi partlatmalıdırlar və hətta bundan sonra da məğlub olacaqlar.

İnsanların bu dinamik birliyi, qəribə özünəhörməti, onların iztirablara bu cür hazır olması və cavab zərbəsi vurmaqdan imtina etməsi ilə üz-üzə gəldikdən sonra zalım, həmişə olduğu kimi, başa düşəcəkdir ki, öz vəhşiliyi içərisində boğulur. O, bütün dünya qarşısında və Allahının hüzurunda qardaşlarının qanına boyanmış halda dayanmağa məcbur olaraq özünü məhv edən bu qırğına son qoymağa çağıracaqdır.

Amerikalı zəncilər elə bir nöqtəyə çatmalıdırlar ki, Qandinin sözlərinə arxalanaraq öz ağ qardaşlarına deyə bilsinlər:

> "Biz sizin bizə iztirablar gətirmək imkanınızı özümüzün onlara dözmək qabiliyyətimizlə birləşdiririk. Biz sizin fiziki qüvvənizi mənəvi gücümüzlə qarşılayacağıq. Biz sizə nifrət etməyəcəyik, lakin sağlam vicdanla sizin ədalətsiz qanunlarınıza da tabe ola bilmərik. Bizə nə istəyirsiniz edin, lakin biz sizi onsuz da sevəcəyik.
>
> Evlərimizi partladın və uşaqlarımızı hədələyin; icmalarımıza başıörtülü canilərinizi göndərin, döyüb yarımcan edin, yolkənarı cığırlara sürüyüb atın, biz yenə də sizi sevəcəyik. Lakin biz iztiraba dözə bilməyimizlə sizi tezliklə məğlub edəcəyik. Biz azadlığa gedən yolda sizin ürəyinizə və vicdanınıza müraciət edəcək və sonra qalib gələcəyik...".

Xoşbəxtlikdən, bu yolun uğuru onun yekdilliklə qəbul olunmasından asılı deyildir. Hər bir icmada qeyri-zorakılıq yolunu tam qəbul etmiş bir neçə zənci yüzlərcə digər insanı qeyri-zorakılıqdan heç olmasa texniki vasitə kimi istifadə etməyə inandıra və mürgüləyən milli vicdanı oyatmaq üçün mənəvi nümunə ola bilər.

Toro aşağıdakıları deyərkən məhz bu yaradıcı azlıqlar haqqında düşünürdü:

> "Mən yaxşı bilirəm ki, sadalaya biləcəyim min, yaxud yüz, yaxud on adam — cəmisi on vicdanlı adam, hətta bircə vicdanlı adam Massaçusets ştatında kölə saxlamaqdan imtina etsə, onu cəmiyyətdən kənarlaşdırıb həbsxanaya salarlar, amma beləliklə Amerikada kölələik ləğv olunardı. Belə adamların az olmasının qorxusu yoxdur, bir işi bir kərə yaxşı görmüsənsə, deməli, həmişəlik görmüsən".

Mahatma Qandinin heç vaxt onun fəlsəfəsini tam qəbul etmiş yüzdən artıq tərəfdarı olmamışdır. Lakin o bu az sayda sadiq ardıcılı ilə bütün Hindistanı həyəcana gətirmişdir. Bu qeyri-zorakı qəhrəmanlıqla o, qüdrətli Britaniya imperiyasına qarşı mübarizəyə girişdi və öz xalqının azadlığına nail oldu.

Qeyri-zorakı mübarizə üsulu bir gecə ərzində möcüzə törətmir. İnsanların öz düşüncə tərzlərindən, yanlış fikirlərindən və irrasional hisslərindən ayrılması çətindir. Hüquqları tapdanmış adamlar azadlıq tələb edəndə imtiyazlı təbəqələr əvvəlcə bunu acıqla qarşılayır və müqavimət göstərir. Hərəkat qeyri-zorakılıq forması alanda belə o, əvvəlcə eyni cür qarşılanır...

Qeyri-zorakı üsul zalımın qəlbini dərhal yumşalda bilməz. O, əvvəlcə bu üsulu qəbul etməyə hazır olanların ürəyində və qəlbində müəyyən dəyişikliklərə səbəb olur. Bu, onların yenidən özlərinə hörmət etmələrinə təkan verir, özlərinin də güman etmədikləri güc və cəsarət verir. Nəhayət, bu, opponentə də çatır və onun vicdanını elə tərpədir ki, barışıq qaçılmaz olur...

Qeyri-zorakılıq barışıq və özünənəzarət yoludur. Biz zəncilər öz hüquqlarımız haqqında çox danışırıq və buna haqqımız da var. Biz fəxrlə bildiririk ki, rəngli əhali dünya əhalisinin dörddə üçünü təşkil edir. Nəslimizə Asiya və Afrikada azadlıq və müstəqillik uğrunda gedən böyük mübarizənin şahidi olmaq nəsib olmuşdur. Bütün bu hadisələri ilahi qüvvə müəyyən etmişdir. Lakin biz əmin olmalı idik ki, onları düzgün anlayırıq. Amerika, Asiya və Afrikada azadlıq əldə etməyə çalışarkən biz məzlumluqdan imtiyazlı vəziyyətə sıçrayış etməyə cəhd göstərməməliyik. Bununla ədalət prinsipini pozmuş olarıq. Biz istibdadın bir formasının digəri ilə əvəz edilməsinə deyil, demokratiyanın bərqərar olmasına çalışmalıyıq. Məqsədimiz heç vaxt ağ adamlara qalib gəlməkdən, yaxud onları alçaltmaqdan ibarət olmamalıdır. Qaradərililərin üstünlüyü fəlsəfəsinin qurbanlarına çevrilməməliyik. Allaha xoş gedən təkcə qara, qəhvəyi və sarı dərili insanların azadlığı deyil, bütün bəşər nəslinin azadlığıdır.

Qeyri-zorakı yanaşma çoxdan bəri müzakirə olunan suala cavab verir: tədricən, yaxud dərhal? Bir tərəfdən o, xüsusi növ səbrlilik xəstəliyinə tutulmağın qarşısını alır. Bu növ səbrlilik heç nə etməyənlər üçün öz hərəkətlərinə bəraət qazandırmaq və reallıqdan uzaqlaşmaq məqsədilə istifadə olunur və adətən, fəaliyyətsizliyə gətirib çıxarır. Digər tərəfdən, o, insanları yaxınlaşdırmaq əvəzinə uzaqlaşdıran məsuliyyətsiz sözlərdən, ictimai proseslərin tələbatına uyğun gəlməyən tələsik mülahizələrdən qoruyur. O, müdrik təmkinliliyi və yenilməz düşüncəliliyi saxlamaqla ədalətə doğru ardıcıl canatmanın zəruriliyini qəbul edir. Eyni zamanda, ədalətə doğru can atarkən ləngliyə yol verilməsini və ədalətsiz münasibətlərin saxlanılmasına çalışanların qarşısında təslimçiliyi qəbul etmir. O, ictimai dəyişikliklərin bir an içərisində baş verə bilmədiyini qəbul edir. Eyni zamanda adamları elə çalışmağa məcbur edir ki, sanki bu dəyişikliklər günü sabah baş verə bilər...

1 Ağlarla qaraların ayrı yaşaması — *red.*
2 Ağlarla qaraların bərabərhüquqlu və birgə yaşayışı — *red.*

## 42. ABŞ-ın XARİCİ YARDIMI VƏ İNSAN HÜQUQLARI

İqtisadi qüdrəti artdıqca iyirminci yüzilliyin ortalarında ABŞ daha çox beynəlxalq siyasətə cəlb olunur və digər sahələr kimi, hökumətin fəaliyyətinin bu istiqaməti də sıravi amerikalıların ciddi nəzarəti altına düşür. Amerikalıları öz ölkələrində insan hüquqları uğrunda mübarizə aparmağa təhrik edən yüksək mənəvi dəyərlər onları həmçinin öz dövlətlərinə demokratik xarici siyasət yeritməsi, dünya meydanında qarşılıqlı əlaqədə olduğu ölkələrdə insan hüquqlarını müdafiə etməsi üçün təsir göstərməyə məcbur edir. 1941-ci ildə prezident Ruzvelt ABŞ-ın İkinci dünya müharibəsinə girməsinin başlıca səbəbi kimi dünyada insan hüquqlarının müdafiəsini göstərmişdir. İnsan hüquqları ABŞ və Böyük Britaniya tərəfindən BMT-nin Xartiyasına daxil edilir və *müharibədən sonrakı dünya nizamının əsas prinsiplərinə çevrilir.*

Lakin Qərbin demokratik ölkələri ilə SSRİ-nin başçılıq etdiyi kommunist bloku arasında böyük strateji qarşıdurma və həmçinin ölkənin iqtisadi maraqları ABŞ-a dünyada insan hüquqlarının müdafiəsi siyasətinə ardıcıl əməl etməsinə imkan vermirdi. Bunun aydın nümunələri kimi Hind-Çində müharibəni, Latın Amerikasında və Ərəb ölkələrində diktator rejimlərinin müdafiə olunmasını göstərmək olar. Ancaq bu hallarda hökumət, xüsusilə də Konqres Vətəndaş Hüquqları Uğrunda Ümummilli Hərəkat, *Human Rights Watch, Amnesty International, Trans-Africa* kimi beynəlxalq hüquq müdafiəsi təşkilatları, həmkarlar ittifaqları, müxtəlif kilsə şuraları, intellektuallar və adi seçicilər tərəfindən ardıcıl və kütləvi təzyiqə məruz qalırdılar. Amerikalıların əksəriyyəti hesab edirdi ki, ölkə eyni vaxtda öz daxilində demokratik siyasət yeridə, xaricdə isə diktaturanı müdafiə edə bilməz. Onların vicdanı hökumətlərinin öz vətəndaşlarının hüquqlarını pozan müttəfiq rejimlərə yardım etməsinə sakit baxmağa imkan vermirdi.

1976-cı ildə Konqres ictimai əhval-ruhiyyəni nəzərə alaraq prezident Cerald Fordun vetosunu dəf etdi və "Beynəlxalq təhlükəsizlik və silah ixracı üzərində nəzarət haqqında" qanuna insan hüquqlarının müdafiə olunması haqqında müddəanı daxil etdi. "Xarici yardım və insan hüquqları" adını almış bu müddəa dövlət quruculuğu tarixində ilk dəfə öz vətəndaşlarının hüquqlarını kütləvi surətdə pozan ən yaxın dost rejimlərə də yardım göstərilməsini hökumətə qadağan edirdi.

Bununla yanaşı, Konqres ölkənin strateji maraqlarını da nəzərə alırdı. Belə ki, hökumətə müstəsna hallarda hər hansı xarici dövlətə təcili yardım göstərilməsinin milli maraqlar baxımından son dərəcə zəruri olduğuna Konqresi inandırdıqdan sonra bu qadağadan yan keçməyə icazə verilirdi.

Lakin ABŞ-ın dünyada artan strateji və iqtisadi maraqlarına baxmayaraq, Konqres hər halda Çili, Argentina, Cənubi Koreya, Uqanda, Mərkəzi Amerika ölkələri, Cənubi Afrika Respublikası və bu kimi digər Amerikaya dost rejimlərə müxtəlif cür yardımların göstərilməsinə, onlarla əməkdaşlıq və ticarət əlaqələrinə qadağa qoydu.

### "BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ SİLAH İXRACI ÜZƏRİNDƏ NƏZARƏT HAQQINDA" QANUN (1976)

III fəsil. Ümumi məhdudiyyətlər

İNSAN HÜQUQLARI

1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 301-ci bölməsinin 502V yarımbölməsinə aşağıdakı düzəlişlər edilir:

*502V yarımbölməsi.İnsan hüquqları.* — (a)(1) BMT Xartiyasında əks olunmuş beynəlxalq öhdəliklərinə, Konstitusiya irsinə və ənənələrinə uyğun olaraq BirləşmişŞtatların siyasəti irqindən, dilindən, yaxud dinindən asılı olmayaraq insan hüquqları və fundamental azadlıqlarına daha çox hörmətlə yanaşılmasına yardım və onu təqdir etməkdən ibarətdir. Buna görə də BirləşmişŞtatların xarici siyasətinin başlıca məqsədi bütün ölkələrin beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına daha çox riayət etməsinə yardımçı olmaqdan ibarətdir.

(2) Beləliklə, BirləşmişŞtatların siyasəti (bu bölmədə müəyyən olunmuş hallardan başqa) elə olmalıdır ki, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını ardıcıl olaraq pozan hər hansı ölkəyə təhlükəsizlik baxımından heç bir yardım göstərilməsin.

(3) Bu siyasəti aparmaq üçün prezident BirləşmişŞtatların Beynəlxalq Təhlükəsizlik Yardımına elə bir proqram formalaşdırmalı və həyata keçirməlidir ki, o, insan hüquqlarını müdafiə və inkişaf etdirsin və bu yardım proqramları ilə öz adamlarının beynəlxalq səviyyədə tanınmış hüquqlarını və köklü azadlıqlarını pozan hökumətlərlə... BirləşmişŞtatların (ictimai rəy tərəfindən) eyniləşdirilməsinə imkan verməsin.

b) (Xarici işlər üzrə) Dövlət katibi hər bir maliyyə ili üçün təklif olunan və Təhlükəsizlik Yardımı Proqramı üçün təqdim edilən materialların bir hissəsi kimi təhlükəsizlik yardımı almaq üçün nəzərdə tutulan hər bir ölkədə beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına riayət olunması və onların bu hüquqlara münasibəti haqqında İnsan Hüquqları və (Dövlət Departamentinin) humanitar məsələlər üzrə koordinatorunun köməyi ilə hazırlanmış tam və bitkin hesabatı Konqresə təqdim etməlidir. Belə hökumətin (a)(3) yarımbölməsinin şərtlərinə uyğunluğunu müəyyən edərkən və bu bölmənin tələblərinə uyğun hər hansı hesabatı, yaxud bəyanatı hazırlayarkən aşağıdakılar nəzərə alınmalıdır:

1) qeyri-hökumət təşkilatları da, məsələn, Beynəlxalq Qırmızı Xaç Komitəsi daxil olmaqla müvafiq beynəlxalq təşkilatların uyğun məlumatları;

2) istənilən bu cür təşkilat tərəfindən beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının güman edilən pozuntularının maneəsiz tədqiq edilməsinə icazə verilməsi istiqamətində bu cür hökumətlə əməkdaşlığın səviyyəsi.

(s)(1) Dövlət katibi Senatın, yaxud Nümayəndələr Palatasının qətnamələr vasitəsilə ifadə olunan sorğularına, yaxud Senatın Xarici Əlaqələr Komitəsinin, ya da Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin sorğusuna cavab olaraq..., belə sorğuda göstərilən ölkəyə aid insan hüquqları və humanitar məsələlər üzrə koordinatorun köməyi ilə hazırlanmış məlumatı 30 gün ərzində bu komitələrə təqdim etməli və aşağıdakıları əhatə etməlidir:

(A) bu ölkədə insan hüquqları və başlıca azadlıqlarına riayət və hörmət edilməsi haqqında bütün mümkün məlumat və yardım almalı olan hökumətin bu məsələ ilə bağlı fəaliyyətinin ətraflı təsvir edilməsi;

(V) BirləşmişŞtatların —

(i) bu ölkədə insan hüquqlarına hörmət və əməl edilməsinə yardım göstərməsi və beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına zidd olan istənilən fəaliyyətin qarşısını almaq və

(ii) açıq, yaxud fərdi qaydada diqqəti ona cəlb etməli ki, BirləşmişŞtatlar və bu cür ölkə üçün nəzərdə tutulan istənilən təhlükəsizlik yardımı bu (zərərli) fəaliyyətdən ayrıdır.

s) əgər dövlət katibinin fikrinə görə, bu fəaliyyətin əksinə olaraq —

i) bu ölkəyə təhlükəsizlik yardımının verilməsinin davam etdirilməsini tələb edən fövqəladə hallar mövcuddursa, bu halların təsviri və yardımın davam etdirilməsi həddi göstərilərək əlavə olunmalıdır... və

(ii) bu yardımın göstərilməsinin BirləşmişŞtatların milli maraqlarına cavab verdiyini sübut edən faktlar əks olunmalıdır; və (D) bu komitə, yaxud Konqresin palatasının tələb etdiyi digər ətraflı məlumatın təqdim olunması...

(3) Əgər bu yarımbölmənin (1) paraqrafı ilə tələb olunan ölkə haqqında məlumat (Konqresə) 30 gün ərzində təqdim olunmasa... onda bu ölkəyə, ona bu yardımın qanunla müəyyən edildiyi hallar istisna olmaqla, bu ölkə haqqında müvafiq məlumat verilməyincə, heç bir təhlükəsizlik yardımı göstərilməməlidir.

(4)(A) Əgər belə məlumat təqdim olunubsa, Konqres bundan sonra da istənilən vaxt bu ölkə üçün təhlükəsizlik yardımının kəsilməsi, məhdudlaşdırılması, yaxud davam etdirilməsi haqqında birgə qətnamə qəbul edə bilər. Əgər belə birgə qətnamə qəbul olunubsa, şəraitin tələblərinə uyğun olaraq bu yardım kəsilməli, məhdudlaşdırılmalı, yaxud davam etdirilməlidir...

(d) Bu bölmədə —

(1) beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının "kütləvi surətdə pozulması" ifadəsi *işgəncələr, yaxud qəddar, qeyri-insani, alçaldıcı münasibət, yaxud cəzaları, ittiham və məhkəmə hökmünü təqdim etmədən uzunmüddətli həbsləri və insanın yaşamaq, azadlıq və təhlükəsizlik hüquqlarının inkar olunmasını*əks etdirir...

(e) 1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 624-cü bölməsinə aşağıdakı yarımbölməni əlavə etməklə düzəliş daxil edilir:

(7)(1) (Xarici işlər üzrə) Dövlət Departamentində insan hüquqları və humanitar məsələlər üzrə koordinator vəzifəsi təsis edilir. Koordinator Senatın məsləhəti və razılığı ilə prezident tərəfindən təyin olunur...

(2) Bu koordinator xarici siyasətin yerinə yetirilməsi zamanı insan hüquqlarına və humanitar məsələlərə aid olan bütün materialları (qaçqınlara, hərbi əsirlərə və BirləşmişŞtatların hərbi qüvvələrinin itkin düşmüş qulluqçularına dair materiallar da daxil olmaqla) daim müşahidə etməli və cəmləşdirməlidir...

(A) bu qanunun 116 və 502V bölməsinin tələblərinə uyğun olan hər bir ölkədə insan hüquqları və humanitar məsələlər haqqında ətraflı məlumat yığmalıdır;

(B) bu qanunun 502V bölməsində göstərilən bəyanat və hesabatları Konqresə təqdim etmək üçün hazırlamalıdır;

(C) bu qanunun 116 və 502V bölməsinə uyğun olaraq Dövlət katibi və Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri üçün tövsiyələr hazırlamalıdır...

1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 302-ci bölməsinin 505(a) yarımbölməsinə nəticədə aşağıdakı yarımseksiyanı əlavə etməklə düzəliş daxil edilir:

(g)(1) BirləşmişŞtatların siyasəti ondan ibarətdir ki, bu fəsildə nəzərdə tutulan yardım qanunları, normaları, rəsmi siyasəti, yaxud hökumətinin fəaliyyəti irqi, dini, etnik mənşəyi, yaxud cinsinə görə ABŞ-ın hər hansı vətəndaşının hərbi hazırlıq, yaxud müdafiə xidmətində iştirakına əngəl törədən xarici dövlətə verilməməlidir.

(2) (A) Bu fəsildə nəzərdə tutulan funksiyaları yerinə yetirən ölkənin heç bir agentliyi BirləşmişŞtatlarda, yaxud xaricdə olmasından asılı olmayaraq işə adam götürərkən, yaxud istənilən belə funksiyanın yerinə yetirilməsində iştirak üçün heyət təyin edərkən, ayrı-seçkilik siyasətini, yaxud irqi, dini, etnik, ya da cinsi fərqlərə əsaslanan istənilən xarici hökumətin praktikasını əsas götürməməlidir...

(B) Belə agentlik tərəfindən bağlanılan hər hansı müqaviləyə belə bir müddəa daxil edilməlidir ki, bu müqavilə ilə iş görən heç bir şəxs, kollektiv, korporasiya, yaxud digər təşkilat həm BirləşmişŞtatlarda, həm də xaricdə işə adam götürərkən, yaxud işə heyət təyin edərkən, ayrı-seçkilik siyasətinə, yaxud dini, etnik və ya cinsi fərqlərə əsaslanan hər hansı xarici hökumətin praktikasını əsas götürməməlidir...

(3) Prezident ABŞ-ın hər hansı vətəndaşının irqi, dini, yaxud cinsi fərqlərə görə hər hansı xarici dövlətə... (bu fəsillə nəzərdə tutulan) yardımın təmin edilməsi, yaxud (5-ci fəslə aid) təhsil və hazırlığa dair proqramlarda iştirakına xarici dövlət tərəfindən əngəl törədildiyi istənilən layihəyə dair məlumatı dərhal Nümayəndələr Palatasının spikeri və Senatın Xarici Əlaqələr Komitəsinin sədrinə çatdırmalıdır. Prezidentin bu məlumatları (A) istənilən belə ayrı-seçkiliyə dair fakt və təfsilatların təsviri, (B) buna qarşı yönəlmiş BirləşmişŞtatların, ya agentliyin, ya da işverənin reaksiyası, (C) əgər varsa, bu reaksiyanın nəticələrini əhatə etməlidir.

(4)(A) Senatın Xarici Əlaqələr Komitəsinin, yaxud Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin sorğusuna uyğun olaraq Prezident 60 gün ərzində... insan hüquqları və humanitar məsələlər üzrə koordinatorun köməyi ilə hazırlanmış və sorğuda göstərilən ölkəyə aid olan məlumatı aşağıdakıları əhatə etməklə bu komitələrə çatdırmalıdır —

(i) bu ölkənin irqi, dini, etnik, yaxud cinsi fərqlərə əsaslanan və istənilən şəxsin (bu fəsillə nəzərdə tutulan) hər hansı yardımın və ya (5-ci fəslə aid) təhsilə, yaxud hazırlığa dair proqramın təmin edilməsi üzrə layihədə iştirakına əngəl törədən hökumətinin ayrı-seçkilik siyasəti və praktikası haqqında bütün mümkün məlumat;

(ii) BirləşmişŞtatların buna reaksiyası və bu reaksiyanın nəticələri;

(iii) əgər prezidentin fikrinə görə, bütün bu siyasət və praktikaya baxmayaraq, — (I) bu yardımın, yaxud təhsil və ya hazırlıq proqramlarının davam etdirilməsini tələb edən fövqəladə hallar mövcuddursa, bu hallar və bu yardımın davam etməli olduğu hədd (bu bölmədə Konqres tərəfindən müəyyən edilən şərtlərə uyğun olaraq) təsvir edilməlidir və (II) bu yardımın, yaxud təhsil və ya hazırlığa dair

proqramların davam etdirilməsinin BirləşmişŞtatların milli mənafeyi üçün zəruri olduğunu göstərən faktlar təqdim olunmalıdır və

(iv) bu komitənin tələb edə biləcəyi istənilən məlumat təqdim olunmalıdır.

(B) Əgər (bu paraqrafın (A) yarımparaqrafına uyğun tələb olunan) ölkəyə yardım, yaxud hazırlıq proqramlarının davam etdirilməsinin zəruriliyi haqqında məlumat 60 gün ərzində çatdırılmasa... onda bu məlumat alınana qədər yardım, yaxud hazırlıq proqramları müvəqqəti dayandırılmalıdır.

(C) (i) Əgər (bu paraqrafın (A) yarımparaqrafına uyğun olaraq) yardım, yaxud hazırlıq proqramları haqqında məlumat çatdırılarsa, Konqres bundan sonra da istənilən vaxt bu yardımın, yaxud hazırlıq proqramlarının başa çatdırılması, yaxud məhdudlaşdırılması haqqında birgə qərar qəbul edə bilər…

## 43. DEMOKRATİK LİDER

## *Cimmi Karter*

Müasirləri Amerika prezidenti Ceyms Erl Karterin dövrünü (1977–1981) o qədər də yüksək qiymətləndirmirdilər. Onun baha başa gələn iqtisadi, sosial və inzibati islahatları Konqres tərəfindən müdafiə olunmadı və həyata keçirilmədi. Karter prezident kürsüsündə yalnız bir müddət qaldıqdan sonra populyarlığını itirir və seçkiləri Ronald Reyqana uduzur. Ronald Reyqan isə müasirlərinin xatirində ölkənin iqtisadi dirçəlişinin ilhamçısı və Sovet İttifaqına qarşı "soyuq müharibə"ni udan uğurlu prezident kimi qalmışdır.

Lakin 20 ildən sonra Karterin prezidentliyinə verilən qiymət dəyişmişdir. Bu gün Amerika tarixçiləri, siyasətçiləri, ictimai xadimləri və insan haqları uğrunda hərəkatın fəalları özünün xarici görünüşü, davranışı və siyasəti ilə prezidentlik institutunu demokratikləşdirmiş, onu avtoritar görünüşdən və dəbdəbədən uzaqlaşdırmış Amerika prezidentlərindən biri kimi bu insana hörmətlərini bildirirlər. Karter ABŞ-ın xarici siyasətini insan haqları ilə uzlaşdırmağa çalışır, diktator rejimi olan ölkələrdə, xüsusilə də Sovet bloku ölkələrində dissidentləri hərtərəfli müdafiə edir, amerikalıların Vyetnam müharibəsi dövründə itirdikləri özlərinə və ölkələrinə mənəvi inam hissini tədricən geri qaytarırdı.

Karter Varşava Müqaviləsi ölkələri ilə gərginliyin zəiflədilməsi siyasətinin təşəbbüskarlarından biri, SSRİ ilə strateji silahların məhdudlaşdırılması haqqında mühüm müqavilənin imzalanmasına nail olmuş, Misir və İsrail arasında sülhün yaradıcısı olmuşdur.

Cimmi Karter 1977-ci ilin iyununda Notr-Dam Universiteti məzunlarının qarşısında söylədiyi nitqdə ölkə vətəndaşlarını təcridçilik siyasətindən əl çəkməyə və dünyada insan haqlarının müdafiəsinə yönəlmiş xarici siyasəti dəstəkləməyə çağırdı. Bu nitqi ilə Karter ABŞ-ın ilk prezidenti Corc Vaşinqtonun amerikalılar içərisində populyar olan BirləşmişŞtatlar "başqalarının deyil, özünün qayğısına qalmalıdır" fikrinə qarşı çıxdı.

CİMMİ KARTER

# İnsan haqları və ABŞ-ın xarici siyasəti (1977)

*Böyük demokratik ölkələr ona görə azad deyildir ki, güclü və varlıdırlar. Mən əminəm ki, biz azad olduğumuza görə güclü, nüfuzlu və varlıyıq...*

...Mən ötən həftə Kaliforniyada ölkəmiz üçün gündəlikdə dayanan daxili məsələlərdən danışmışam: adamlarımızın ehtiyaclarını ödəmək üçün daha səmərəli fəaliyyət göstərməli; zəmanəmizin bədbinliyinin əksinə olaraq nümayiş etdirməliyik ki, hökumətimiz həm səriştəli, həm də daha humanist ola bilər.

Lakin mən bu gün xaricdə bizim hərəkətləri millətimizin səciyyəvi xüsusiyyətləri ilə birləşdirən bağlardan danışmaq istəyirəm. Mən inanıram ki, biz demokratik, köklü dəyərlərə əsaslanan gücümüzdən və nüfuzumuzdan humanist məqsədlər üçün istifadə edəcək xarici siyasətə malik ola bilərik. Biz həmçinin amerikalıların müdafiə etdikləri xarici siyasətə malik ola bilərik. Və bu siyasət dəyişdirilərsə, onlar qabaqcadan məlumatlanacaq və onu başa düşəcəklər.

Mən siyasi sistemimizə inanıram. Demokratiyanın özünü doğrultduğunu bildiyimizə görə insan haqlarını öz əhalisi üçün çox görən hökumətlərin arqumentlərini rədd edirik...

Biz gücümüzə inanırıq, ona görə də nüvə silahlarının qarşılıqlışəkildə məhdudlaşdırılmasına nail ola bilərik.

Demokratiyanın Hindistanda, Portuqaliyada, İspaniyada, Yunanıstanda son böyük nailiyyətləri göstərir ki, bizim bu sistemə inamımız əbəs deyildir. Öz gələcəyimizə əminlik yarandıqdan sonra biz bu ifrat kommunizm qorxusundan — bizim qorxumuza şərik olan istənilən diktatorun ağuşuna atan qorxudan yaxamızı qurtarmışıq. Mən şadam ki, bu vəziyyət dəyişir.

Tarixi ölçülərlə millətimizin(1) mövcud olduğu 200 il qısa bir dövrdür, bizim dünya zirvələrinə addımlarımız də bu yaxınlarda başlanmışdır. O, 1945-ci ildən Avropa və *köhnə dünya düzəni* xarabalıqlar içərisində olduğu vaxtdan başlayır. Bu vaxta qədər Amerika beynəlxalq işlərdən əsasən kənarda qalırdı. Lakin o vaxtdan biz fasiləsiz olaraq dünya hadisələrinin mərkəzində dayanırıq.

Bu dövr ərzində siyasətimiz iki prinsipə əsaslanmışdır: Sovet ekspansiyasının labüdlüyünə və onun qarşısını almalı olduğumuza inam və Atlantik okeanının hər iki tərəfində olan bütün antikommunist ölkələrin əlahiddə ittifaqının zəruriliyinə müvafiq inam. Bu sistem dəyişikliyə uğramadan uzun müddət qala bilməzdi. Tarixi cərəyanlar onun təməlini sarsıdırdı. Sovet İttifaqı ilə münaqişə təhlükəsi, rəqabətin daha geniş miqyas almasına baxmayaraq, azalmağa başlamışdır.

Vyetnam müharibəsi dərin mənəvi böhrana səbəb oldu, siyasətimizə və həyat tərzimizə inamı bütün dünyada zəiflətdi. Etimad böhranı bəzi liderlərimizin gizli bədbinliyinə görə daha da dərinləşdi.

Bir nəslin də ömründən az vaxt ərzində dünyada dramatik dəyişikliklərin şahidi olduq... Bəşəriyyətin əksəriyyətinin gündəlik həyatı və istəkləri dəyişmişdir. Müstəmləkəçiliyin sonu yetişir. İndi artıq müasir nəslin yaşadığı dövrdə formalaşmış 100-ə qədər yeni ölkədə milli kimliyin yeni məzmunu üstünlük təşkil edir. Biliklər daha geniş yayılmışdır. İnsanlar daha yüksək amallara can atırlar. Ənənəvi məhdudluqlardan azad olunduqca insanlar öz həyatlarında ilk dəfə olaraq sosial ədalətə can atırlar...

Bu, yeni dünyadır, lakin Amerika ondan ehtiyat etməməlidir. Bu, yeni dünyadır və biz onun formalaşmasına kömək etməliyik. Bu, yeni dünyadır və o, yeni Amerika xarici siyasətini — öz prinsiplərində düzgünlüyə, gələcəyə nikbinliyə əsaslanan siyasəti tələb edir...

Biz daha qlobal sabitlik üçün əsas kimi yalnız sənaye ölkələrinə arxalanan siyasət yeridə bilmərik. Biz siyasi cəhətdən oyanmış dünyanın yeni reallığına səs verməliyik...

Biz müxtəlif fırıldaqlarla bu siyasəti yeridə bilmərik. Bizim siyasət açıq olmalıdır; səmimi olmalıdır; əməli qlobal cəlbediciliyi ilə fərqlənməli və beş əsas prinsipə söykənməlidir... :

*Birincisi*, biz Amerikanın xarici siyasətinin əsas prinsipi kimi insan haqlarına sədaqətini təsdiq edirik. Mənşəyimizə, dinimizə, dərimizin rənginə, doğulduğumuz yerə və mədəniyyətimizə görə biz amerikalılar dünyanın heç bir millətində olmayan fərqlərə malikik. Bizi birləşdirən müqəddəs qan, yaxud torpaq birliyi yoxdur. Bütün yerdə qalanlardan daha çox bizi birləşdirən insan azadlığına inamdır. Qoy bütün dünya bilsin — millətimiz maliyyə çiçəklənməsindən daha böyük şeylərə nail olmağa çalışır.

Bu o demək deyildir ki, biz xarici siyasəti yalnız sərt əxlaq prinsiplərinə söykənməklə yeritməliyik. Yaşadığımız dünya qeyri-mükəmməldir və həmişə belə qalacaqdır; bu dünya mürəkkəb və dolaşıqdır və həmişə belə olacaqdır.

Mən mənəvi çağırışların hədlərini yaxşı dərk edirəm. Biz xülyaya qapılmırıq ki, dəyişikliklər asan, yaxud tez gələ bilər. Lakin mən həmçinin inanıram ki, onları əks etdirən söz və ideyaların gücünü nəzərə almamaq səhv

olardı. Bizim öz tariximizdə bu güc Tomas Peynin "Sağlam düşüncə"sindən Martin Lüter Kinqin "Mənim arzum var" həddinə qədər yol keçmişdir.

İnsanın ruhu üçün söz əməl deməkdir və öz fikrini ifadə etmək azadlığının adi bir şey kimi mövcud olduğu ölkələrdə yaşayan bizim kimi adamlara bunun nə qədər düzgün olduğunu təsəvvür etmək çətindir. Lakin totalitar ölkələrin liderləri bunu yaxşı başa düşürlər. Sözün əməl demək olduğunu o da sübut edir ki, bu cür ölkələrdə dissidentləri təqib edirlər.

Bütün bunlara baxmayaraq, dünyanın hər yerində şəxsiyyətin dövlət hakimiyyətinin özbaşınalığından qorunmasının xeyli yaxşılaşdığı müşahidə olunur. Bu meyli sezməmək bizim bütün dünyada təsirimizi və mənəvi nüfuzumuzu itirməyə bərabər olardı. Bu meylə başçılıq etmək isə əvvəllər malik olduğumuz mənəvi böyüklüyün bərpa olunması demək olardı.

Böyük demokratik ölkələr ona görə azad deyildir ki, güclü və varlıdırlar. Mən əminəm ki, biz azad olduğumuza görə güclü, nüfuzlu və varlıyıq...

*İkincisi*, biz demokratik ölkələrlə əlaqələri gücləndirmək istiqamətində ciddi addımlar atmışıq. Londondakı son görüşlərimizdə azad ticarətin inkişaf etdirilməsi, dünya pul sisteminin gücləndirilməsi və nüvə silahlarının yayılmasının qarşısını almaq yollarının axtarılması sahələrində iqtisadi əməkdaşlığımızı genişləndirmək haqqında razılığa gəlmişik. Biz yoxsulluq, inkişaf və qlobal tərəqqi məsələlərinin həll edilməsi ilə bağlışimal-cənub əlaqələrinə dair gələcək görüşlər üçün əməli təkliflər hazırlamışıq. Və biz ümumi müdafiəmizi yaxşılaşdırmaq və modernləşdirmək məqsədilə səylərimizi birləşdirmək qərarına gəlmişik.

Sizin üçün maraqlı olardı ki, NATO-nun bu görüşündə 25 il ərzində ilk dəfə olaraq iştirak edənlərin hamısı artıq demokratik ölkələrdir...

*Üçüncüsü,* biz Sovet İttifaqının strateji silahların sürətlə artmasının qarşısını almaq istiqamətində ümumi işə cəlb edilməsi üçün addımlar atmışıq. Bu sürətlə silahlanma təkcə təhlükəli deyil, həm də mənəvi cəhətdən zərərlidir. Biz buna son qoymalıyıq...

*Dördüncüsü,* biz Yaxın Şərqdə möhkəm sülhün bərqərar olması istiqamətində ciddi addımlar atırıq. Biz İsrail, Suriya, İordaniya və Misir liderləri ilə geniş məsləhətləşmələrdən sonra bəzi razılaşma nöqtələri və konsensusa doğru müəyyən irəliləyişlər aşkar etmişik. Danışıqlar davam etdiriləcəkdir...

*Və beşincisi,* biz dostlarımızın müəyyən narazılığına səbəb ola bilsə də, dünyada nüvə silahının və adi silahların yayılması təhlükəsinin qarşısını almağa çalışırıq...

Bu gün ölkəmizin milli siyasəti silahların satılmasına dair illik maliyyə göstəricilərinin azalmasından, müasir silahların satışına məhdudiyyət qoyulması və xarici dövlətlərlə birgə silah istehsalının səviyyəsinin aşağı endirilməsindən ibarət olacaqdır. O da vacibdir ki, azad və başqa ölkələrin də bizim səylərimizə qoşulmasına nail olmağa çalışırıq...

Yüz ildən artıq bundan əvvəl Avraam Linkoln deyirdi ki, millətimiz yarıkölə, yarıazad şəkildə qala bilməz. Bu gün isə biz dərk edirik ki, üçdə biri varlı və üçdə ikisi ac olan Yer kürəsi uzun müddət belə qala bilməz...

Qərbin demokratik ölkələri, OPEK ölkələri və inkişaf etmiş kommunist ölkələri daha səmərəli yardımın təmin olunması istiqamətində mövcud beynəlxalq institutlar çərçivəsində əməkdaşlıq edə bilərlər. Və bu, müharibənin çox gözəl alternatividir...

İcazənizlə, axırda fikirlərimi ümumiləşdirim: siyasətimiz Amerikanın tarixi rolunun dərk olunmasına əsaslanır. Siyasətimiz böyük dəyişikliklərə cavabdehdir. Siyasətimiz heç vaxt dəyişməyən mənəvi dəyərlərimizə söykənir. Siyasətimiz maddi zənginliyimizlə və hərbi qüdrətimizlə güclənir. Siyasətimiz bəşəriyyətə xidmət etmək üçün düşünülmüşdür. Və bu siyasət ümid edirəm ki, sizi amerikalı olduğunuzdan fəxr duymağa vadar edəcəkdir.

---

1 Qərb ənənəsi ilə milləti müstəqil dövlətin bütün vətəndaşları təşkil edir, buradan da Amerika millətinin 200 il əvvəl – 1776-cı ildə müstəqillik elan olunması ilə yarandığı hesab edilir — *red.*

# XX əsr demokratiya əsridir

## 44. ETNOQRAFİK MİLLƏT VƏ SİYASİ MİLLƏT

80-ci illərin sonlarında “soyuq müharibə”nin bitməsi ilə keçmiş “kommunist düşərgəsi”nin ərazisini millətlərarası münaqişələr bürüdü. Balkanlarda, Cənubi və Şimali Qafqazda, Moldovada baş vermiş qanlı hadisələr bütün dünyada narahatlıq və təşviş doğuraraq alimləri, siyasətçiləri və ictimaiyyəti bu problemi ciddidən də ciddi öyrənməyə, araşdırmağa vadar etdi. Bunun üçün ilk növbədə millətçiliyin mənşə və mənasından baş çıxarmaq lazım idi.

Əksər tədqiqatçıların fikrincə, millətçiliyin “doğum“ tarixi 17-ci əsrdən — istehsalın kəskin artımı ilə əlaqədar Avropada yeni növ dövlət quruluşunun yarandığı dövrdən gəlir. 18-ci yüzilliyin Amerika, ələlxüsus Fransa inqilabının irəli sürdüyü tələb — dövlətin idarə olunmasında vətəndaşların da iştirak etməsi tələbi həm bir ölkənin vətəndaşları arasında, həm də əhali və dövlət arasındakı əlaqələrin yeni xarakter almasına gətirib çıxardı. Fransa inqilabının gedişində irəli sürülmüşşüar — “millətlərin öz müqəddəratını təyinetmə hüququ” şüarı Avropanın siyasi xəritəsini dəyişdirərək yeni millət-dövlətlərin yaranmasına və bu cür dövlətlərin daxilində millətlərarası problemlərin meydana çıxmasına təkan verdi.

SSRİ-nin mövcudluğunun son illərində milli problemlərlə birincilər sırasında Azərbaycan toqquşmalı oldu. Burada azərbaycanlıların müstəqil dövlət yaratmağa yönəldilmiş millətçiliyi Dağlıq Qarabağ ermənilərinin separatçı hərəkatı ilə yanaşı inkişaf edirdi.

Bundan əlavə, bugünəcən ölkədə müxtəlif etnik qruplar arasında çox vaxt qarşılıqlı inamsızlıq və şübhələrlə səciyyələnən münasibətlərdə də müəyyən problemlər duyulur.

Azərbaycanda mövcud olan millətlərarası problemlər artıq on ildir ki, ölkənin ictimai həyatında qızğın mübahisə və müzakirələr doğurur. Bu müzakirələrin gedişində həll edilməli olan başlıca məsələ “mənsubiyyət məsələsi”dir. Bu ölkənin tamhüquqlu sahibi kimdir: əhalinin böyük əksəriyyətini təşkil edən Azərbaycan türkləri, yoxsa Azərbaycanın bütün əhalisi, bütün vətəndaşları? Hər hansı bir etnik qrupun nümayəndəsinin öz uşaqlarını ana dilində oxutmağa haqqı varmı, yoxsa onlar böyük əksəriyyətin mədəniyyət və dilini mənimsəməyə “borcludurlar”? Azərbaycanda qeyri-türk millətin nümayəndəsi təkcə Konstitusiyaya görə deyil, reallıqda da ölkə prezidenti ola bilərmi? Və s.

Problemin müzakirəsi zamanı milli məsələnin bizə SSRİ-dən miras qalmış dolaşıq terminologiyası məsələni bir az da qəlizləşdirir. Yeri gəlmişkən, bu terminologiyanın yozumu müxtəlif ölkələrdə və elmi məktəblərdə müxtəlifdir. Azərbaycanlılar, Azərbaycan xalqı; Azərbaycan milləti; Azərbaycan türkləri — bütün bu terminlər bəzən eyni bir mənanı daşıyır, bəzən isə respublika vətəndaşlarının tamamilə müxtəlif qruplarını əhatə edir.

Məsələn, Fransada, Böyük Britaniyada və ABŞ-da “millət” bu ölkələrin bütün vətəndaşlarını əhatə edən termindir. Britaniyada pasportun “millət” (Nation) qrafasında “ingilis”, yaxud “irland“ yazılmır, “Böyük Britaniya və İrlandiya Birləşmiş Krallığı” yazılır.

Bizdə “milli adətlər” dedikdə bir qayda olaraq məhz Azərbaycan türklərinin adətləri nəzərdə tutulur, “futbol üzrə milli yığma komanda” söylədikdə isə göz qabağına istənilən etnik mənşəli Azərbaycan vətəndaşlarından təşkil olunmuş komanda gəlir. Və nəhayət, Birləşmiş Millətlər Təşkilatında hansı millət təmsil olunub? Əgər orada təmsil olunan Azərbaycan millətidirsə, onda bu termin nəyi bildirir?

Ümumiyyətlə, etnoqrafik millət (yəni vahid genotipi olan toplum) mövcuddurmu, yoxsa bütün dünya ölkələrinin əhalisi bir-birinə elə qaynayıb-qarışıb ki, etnik millətdən söhbət belə gedə bilməz? Məsələn, orta əsrlərdə Prussiya "Slavyan krallığı" adlanırdı, lakin artıq yüz il sonra prussiyalılar özlərini xalis alman sayır və başqaları tərəfindən də o cür qəbul olunurdular.

Məlumdur ki, keçmişlərdə imperiyalar dağılanda da bu cür millətlərarası münaqişələr dalğası qopurdu. Bu mənada biz rus etnoqrafı V. Vodovozovun 1910-cu ildə Sankt-Peterburqda dərc olunmuş və Avstriya—Macarıstan və Rusiya imperiyalarının çökməsi ərəfəsində Avropada mövcud olan millətçilik probleminə, həmçinin demokratik dövlətin milli məsələdə yürütdüyü siyasətə həsr olunmuş məqaləsini təqdim edirik(1).

V. VODOVOZOV

## Milliyyət və dövlət (1910)

*Bu [etnoqrafik] millətçilik belə bir əminlikdən irəli gəlir ki, hakim millət hakimiyyət hüququna malikdir.*

Antropologiya indiyə qədər milliyyətin nə olduğunu aydınlaşdıra bilməmişdir; bundan savayı, belə bir məsələ də tam həll olunmuş hesab edilə bilməz ki, o, real antropoloji təzahür kimi mövcuddur, yaxud milli tip haqqında təsəvvür insanın xülyasından başqa bir şey deyildir... Milli məsələnin antropoloji tərəfini tamamilə kənara qoyaraq onu dövlət-hüquqi baxımdan nəzərdən keçirməyə cəhd edək və ona görə də məsələni belə qoyaq: dövlət onun ərazisində yaşayan müxtəlif milliyyətlər arasında münasibətləri necə nizamlamalıdır ki, etnoqrafik baxımdan əhalisi rəngarəng olan bütün dövlətlərdə milliyyətlərin apardıqları gərgin, ağır və bəzən qanlı çəkişmələrdən özünü xilas etsin...

Biz, hər halda, terminlərlə bağlı əvvəlcədən şərtləşməliyik. Termin kimi işlədilməsinə baxmayaraq, "xalq", "millət", "milliyyət" hələ də dürüst və hamının qəbul etdiyi məna daşımır.

"Xalq" sözü ilə adətən latıncadan *populus,* fransızcadan *peuple,* almancadan *Volk,* ingiliscədən *people* sözlərini tərcümə etdikləri halda, "millət" latın sözü *(natio)* olmaqla alman, fransız, ingilis dillərində tamamilə eyni cür (*Nation*) yazılır.

Almanca "*xalq" (Volk)* sözü ilə adətən bir dövlətin vətəndaşlarının toplumu bildirilir, belə ki, "alman xalqı" ifadəsi Almaniya imperiyasının vətəndaşları olan almanları, danimarkalıları, polyakları əhatə edir, lakin Avstriya, yaxud İsveçrə almanlarına aid edilmir.

*"Millət"* termini ilə isə adətən bir dövlətdə birləşməsə də, dil, mədəniyyət, tarix, yaxud heç olmazsa, milli şüur birliyi ilə bağlanan insan toplumu bildirilir. Beləliklə, "polyak milləti" dedikdə Almaniya, Avstriya, Rusiya imperiyalarının, yaxud hətta Atlantikanın o tayındakı respublikanın(2) vətəndaşı olmasından asılı olmayaraq polyak dilində danışan və özünü polyak kimi hiss edən polyaklar nəzərdə tutulur.

*Başqa cür desək, burada "xalq" dövlət hüququna aid termindir, "millət" isə etnoqrafik termindir,* lakin dövlət hüququ onunla hesablaşmalı olur. "Milliyyət" bu sözişlətmə baxımından "millət" sözündən törəmə termindir və hər hansı ayrıca bir şəxsin, yaxud bütöv millətin psixoloji(3) mənsubluğunu bildirən anlayışdır...

Fransızca və ingiliscə "millət" və "xalq" terminləri adətən əks mənalarda işlədilir: *"fransız milləti"* ifadəsi Fransada adətən ümumi fransız milli şüuru ilə birləşən insanların toplumunu deyil, *Fransa Respublikası vətəndaşlarının toplumunu bildirir;* fransızca "millətlər" arasında müqavilə, saziş və müharibələrdən danışılır, alman dilində isə bu hallarda "xalqlar" haqqında danışmağa üstünlük verilir; beynəlxalq hüququn *(Volkerrecht)* beynəlmiləl hüquqla *(droit international)* adlandırılmasının özündə "millət" (*Nation*) termininin məhz belə işlədilməsinin izləri görünür.

Terminlərin alman dilində işlədilməsi latın sözlərinin ilkin mənasına, şübhəsiz, daha yaxındır, ona görə filoloji baxımdan daha düzgündür; pis olan odur ki, bu xətt heç də ardıcıl aparılmır. Məsələn, 1868-ci il macar qanununun alman mətnində milliyyətlər haqqında deyilir:

> "Macarıstanın bütün vətəndaşları Konstitusiyanın əsas prinsiplərinə görə bölünməz, vahid macar millətini *(Nation)* təşkil edir, vətənin hər bir vətəndaşı milliyyətindən *(Nationalitat)* asılı olmayaraq onun üzvüdür".

Burada "millət" termini adətən fransız dilində işlədilən kimi işlədilmişdir (yəni siyasi anlamda), etnoqrafik "millət" termininin əvəzinə isə mücərrəd "milliyyət" *(Nationalitat)* termini işlədilmişdir, bu termin alman dilində adətən bir qədər başqa məna, yaxud, hər halda, onun başqa çalarını verir.

Sözün rus dilində işlənməsi daha az ardıcıllığı və qeyri-dəqiqliyi ilə seçilir. Ümumiyyətlə o, alman dilinin vəziyyətinə yaxındır. Biz də "xalq" haqqında etnoqrafik mənadan daha çox dövlət mənasında həvəslə danışırıq; bizim üçün "rus xalqı" anlayışına polyak da, yəhudi də, ukraynalı da daxil ola bilər, lakin bu mənada "rus milləti" haqqında danışmağa biz qətiyyən hazır deyilik. Biz deyirik ki, rus xalqı yaponlarla müharibə aparırdı və bu vaxt heç də çəkinmirik ki, rus qoşunlarının sıralarında polyaklar da, yəhudilər də var idi; bununla yanaşı, həm də deyə bilərik ki, Rusiyada müxtəlif xalqlar yaşayır: ruslar, polyaklar və s., lakin bu halda "milliyyətlər" ifadəsini daha həvəslə işlədirik(4)...

İndiyə qədər biz bir tərəfdən milliyyət və dil haqqında, digər tərəfdən isə milli özünüdərk haqqında üst-üstə düşən hadisələr kimi danışırdıq. Əslində, bu, heç də tam belə deyildir. Milliyyət bir sıra əlamətlərlə yaradılır. Buraya ümumi mənşə, ümumi mədəniyyət, ümumi tarix, yaranan tarixi ənənələr, vahid ərazi və bəzən dövlət təşkilatı daxildir; buraya sonra din, dil daxildir; lakin bu amillərdən heç biri (hətta milliyyətin yalnız nadir hallarda üst-üstə düşdüyü dövlət təşkilatı da) milliyyətin yaranması üçün mütləq vacib şərt deyildir.

*Milliyyəti müəyyən etmək üçün çox vaxt obyektiv əlamətlər, ümumiyyətlə, olmur, onda bunun üçün sırf subyektiv əlamətlərlə kifayətlənmək lazım gəlir.* Əgər bir adam özünü polyak hesab edirsə, deməli o, polyakdır, baxmayaraq ki, o, heç vaxt katolik olmayıb, Polşa ərazisindən kənarda yaşayıb və hətta öz dilini unudubdur (bu axırıncı halda, yəqin ki, özünü polyak saymaq ehtimalı azdır). Əgər polyak valideynlərdən törəmiş bir adam polyak adından imtina edirsə, katolik olsa da, Polşada yaşasa da, onu polyak saymağa lüzum yoxdur. Yeganə rasional prinsip budur, hər hansı dövlətin milli tərkibinin statistik hesablamalarını apararkən də, ayrı-ayrı [etnoqrafik] millətlər üçün müxtəlif mədəni təsisatlar (məktəb, akademiya və s.) yaradarkən də bu prinsipi rəhbər tutmaq lazımdır...

Məhz milli şüur, məhz tarixən bir çox ünsürlərin əsasında yaranan, lakin hər konkret anda onların hər hansı biri ilə mütləq ayrıca bağlı olmayan milli şüur [etnoqrafik] millətlər tərəfindən dövlət qarşısında irəli sürülən bütün milli iddiaların əsasını təşkil edir...

Dövləti olmayan [etnoqrafik] millətlərin əksəriyyətinin milli şüuru belə dövlətin, suveren, yaxud asılı dövlətin, heç olmazsa muxtar vilayətin yaradılmasına yönəlmiş səylərinin əsasını təşkil edir. Dövləti olmayan millətin milli şüuru öz millətini xalqa çevirməyə, yəni onu dövlət formasına salmağa çalışaraq nəzəri cəhətdən adətən başqa millətlərin də bu səylərini tanıyır və *milli dövlət* nəzəriyyəsinə əsaslanır.

Bu nəzəriyyənin tərəfdarı A.Qradovski deyir ki, "müasir tələblər şəraitində siyasi hakimiyyət təmsil etdiyi xalqla (burada, görünür, "xalq" sözü "millət", yaxud "milliyyət" sözünün əvəzinə işlədilmişdir — *V.V.*) üzvi əlaqədə olmalıdır və ya əksinə, müstəqil tarixi həyata qabil olan hər bir milli cəmiyyət səy və tələbatına uyğun olaraq özünün siyasi formasını yaratmaq hüququna malikdir. Başqa sözlə, bundan sonra milli prinsip belə ifadə edilir:

> "Hər bir xalq, yəni mənşə, dil, sivilizasiya və tarixi keçmiş ümumiliyi ilə bir-birinə bağlı olan insan toplumu özünün xüsusi siyasi vahidini, yəni xüsusi dövlətini yaratmaq hüququna malikdir...".
>
> "Sözün müasir mənasında milli məsələnin siyasi əsası belədir. Yeni prinsip, əlbəttə, köhnə vaxtlarda yaranmış və Vyana konqresi, yəni 1815-ci il müqavilələri ilə ortaya gətirilmiş süni dövlətlər sisteminə zidd idi...".
>
> "Zorakılıqla yaradılmış bu dövlətlər özlərinin bütün imkanlarını süni birliyin saxlanılmasına və qorunmasına yönəltməlidir. Onlar, məlum şeylərə görə, həyat və hətta fikrin hər hansı azad ifadəsini dərhal boğmağa məcburdurlar. Azadlığın inkişaf etdirilməsi onlara ona görə təhlükəli görünür ki, o, zorla bir yerə cəmləşdirilmiş xalqların yadına onların hüquqlarını sala bilər. Hətta inzibati özünüidarə hüququnun tanınması da qeyri-mümkün hesab olunur, çünki onun ardınca siyasi müstəqillik tələbi gələ bilər...".

Beləliklə, Qradovskiyə görə, [etnoqrafik] millət xalqla üst-üstə düşməlidir, dövləti olmayan hər hansı millət dövləti olan millət olmağa, özü üçün dövlət forması yaratmağa çalışır; bu istəkdə sağlam hiss özünü göstərir; eyni zamanda, hər bir dövlət milli olmağa çalışmalıdır, hər hansı qeyri-milli dövlət isə, ümumi qaydaya görə, öz təbii təyinatına uyğun gəlməyən, zorakılıq üzərində dayanan və buna görə də zəif, gücsüz olan süni dövlətdir.

Millətçi dövlət hüququ nəzəriyyəsi öz açıq və aydın formasında belədir. Bu nəzəriyyə dövləti olmayan [etnoqrafik] millətlərin milli iddialarının tərəfdarları arasında xeyli populyardır, o, həmçinin dövlətli [etnoqrafik] millətlərin də arasında özünə tərəfdarlar tapır (xüsusilə macarlar, italyanlar və bizim slavyanpərəstlər də ona böyük rəğbət bəsləyirdilər, onların təliminin aydın izləri slavyanpərəstlərlə daimi mübahisələrinə baxmayaraq, Qradovskinin yazılarında da görünür; o, pangermanistlər arasında da populyardır və s.). Düzdür, dövləti olan millətlərin nəzəriyyəçiləri adətən iş bu nəzəriyyənin asılı millətlərə tətbiq edilməsinə çatan kimi onu unudurlar, lakin nəzəriyyənin mənası bununla dəyişmir.

Əməli olaraq həyata keçirilməsi yolunda [etnoqrafik] millətçi nəzəriyyəsi keçilməz maneələrə rast gəlirdi. Dövlət ərazi birliyi ilə sıx bağlıdır... Əksinə, çox az müasir [etnoqrafik] millətlər müəyyən bütöv ərazi ilə bağlıdır. Buna görə də çox vaxt öz dövlətinə malik olmaq istiqamətində milli səylər onun öz tərəfdarları tərəfindən rəsmi şəkildə təbliğ olunan *milli dövlət nəzəriyyəsi* ilə aydın və kəskin ziddiyyətə girir; çox vaxt o, özündə milli şovinizm ünsürlərini, yad millətləri tabe etmək, əzmək cəhdlərini əks etdirir və qaçılmaz şərtlərə görə onlarsız keçinə bilmir.

Dövləti olan millətlərin [etnoqrafik] millətçiliyi, demək olar ki, həmişə belədir. Rusiyada rus, yaxud daha dəqiqi — böyükrus, Almaniya və Avstriyada alman, Macarıstanda macar millətlərinin millətçiliyi belədir. Bu [etnoqrafik] millətçilik belə bir əminlikdən irəli gəlir ki, *hakim millət hakimiyyət hüququna malikdir* (bu, öz əksini konkret olaraq dövlət və ictimai xidmət sahələrində yerlərin əsasən öz milliyyətindən olan adamlara verilməsində tapır), onun dili dövlət dilinin bütün üstünlüklərindən istifadə etməli və məhkəmə, məktəb, ictimai təsisatlar, ordu və s. sahələrin dilinə çevrilməlidir, yerdə qalan bütün millətlər isə Rusiyada məcburi ruslaşdırmaya, Almaniya və Avstriyada almanlaşdırmaya, Macarıstanda macarlaşdırmaya və s. məruz qalmalıdır...

İndi milli məsələnin mövcud olan bütün millətlərdən dövlətlər yaratmaq yolu ilə həllinin tam qeyri-mümkünlüyü... milli məsələni həll etməyin başqa yollarını axtarmağa məcbur etdi və tamamilə başqa cür qoyulmasına səbəb oldu.

Əksər hallarda məsələ belə qoyulur.

Bir dövlətdə yaşayan müxtəlif millətlərin qarşılıqlı münasibətlərini nizamlamaq üçün bir üsul varmı və əgər varsa, o, nədən ibarətdir?

Buradan da əsas vəzifə ümumi ərazidə qarışıq yaşayan millətlərin dinc yanaşı yaşaması üçün şərtlər tapılmasından ibarətdir...

Müasir demokratiyanın digər prinsipləri ilə yanaşı siyasi ideya kimi *millətlərin hüquq bərabərliyi* ideyası da mövcuddur. Demokratik partiyalar bu ideyanı millətlərə münasibət üzrə dövlət siyasətinin əsasına çevirməyə çalışırlar. Bu ideya "Vətəndaşların ümumi hüquqları haqqında" 21 dekabr 1867-ci il tarixli Avstriya Konstitusiya qanununun 19-cu maddəsində əks olunmuşdur. Həmin maddə budur:

> "Dövlətin bütün xalqları bərabərhüquqludur və hər bir xalq(5)*(Volksstamm)* öz milliyyətini və dilini inkişaf etdirmək və qoruyub saxlamaq hüququna malikdir. Ölkədə mövcud olan bütün dillərin bərabər hüquqluq dövlət tərəfindən məktəblərdə, idarəetmədə və ictimai həyatda tanınır. Bir neçə xalqın yaşadığı ərazilərdə ümumi təhsil müəssisələri elə qurulmalıdır ki, hər bir xalq ikinci dil öyrənməyə məcbur edilmədən öz dilində oxumaq üçün zəruri vəsait ala bilsin".

Bu maddə ilk baxışda belə bir təsəvvür yaradır ki, Avstriyada milli məsələ həll olunmuşdur və burada milli ədavət mövcud ola bilməz. Əslində isə bu maddəyə daha diqqətlə baxdıqda və onun həyat praktikası mövqeyindən öyrənilməsindən sonra aydın olur ki, o, istənilən istiqamətdə təfsir edilmək üçün geniş imkanlar verir, konkret məzmuna malik deyil, buna görə də məsələni heç də həll etmir.

Həmin ideya daha ümumi və guya daha ədalətli Prussiya Konstitusiyasının 4-cü maddəsində əks olunmuşdur:

> "Bütün prussiyalılar qanun qarşısında bərabərdir. Zümrə imtiyazları ləğv olunur. İctimai vəzifələr qanunla qoyulmuşşərtlərə əməl etməklə onları yerinə yetirməyə qabiliyyəti olanların hamısı üçün açıqdır".

Burada "prussiyalılar" sözü etnoqrafik deyil, dövlət mənasında işləndiyindən və həmin ifadə altında polyakları da, danimarkalıları da başa düşməli olduğumuzdan aydındır ki, Konstitusiyanın hərfi mənasına görə hansısa milli zülmdən söhbət gedə bilməz. Lakin Konstitusiyanın bu maddəsinin olmasına baxmayaraq, praktikada almanların məskunlaşmasını gücləndirmək üçün polyak torpaq sahiblərindən məcburi qaydada torpaqların alınması haqqında qanun layihəsinin Landtaqa təqdim olunmasına imkan verilir. 1908-ci ilin fevralında layihə Landtaqın hər iki palatası tərəfindən qəbul olunaraq qanuna çevrildi...

Beləliklə, bu qanuna görə, Poznanda özünə torpaq almış polyakın əlindən bu torpağı yalnız ona görə alırlar ki, o, prussiyalı alman deyil, prussiyalı polyakdır. 1886-cı il məktəb qanunu da bu xarakterdədir, onun əsaslandırıcı mətnlərində açıq-aşkar deyilirdi ki, polyak icmalarına *"aydın alman düşüncə və hiss tərzli"* müəllimlər təyin etmək lazımdır. Aydındır ki, qanun, yaxud Konstitusiyada milli bərabərliyin sözdə tanınması nəinki real həyatda bu bərabərliyə təminat vermir, əksinə, dövləti olmayan hər hansı millətin tam məhv edilməsinə yönəlmiş açıq-aşkar fəaliyyətə uyğunlaşdırıla bilər.

Əgər millətlərə bu cür münasibət hər bir şəxsiyyətin hüquq bərabərliyinə Konstitusiyanın təminat verdiyi ölkələrdə mümkün olursa, Konstitusiyanın olmadığı, insan şəxsiyyətinin hətta nəzəri cəhətdən də ayrılmaz hüquqlara malik olmadığı ölkələrdən danışmağa dəyməz.

Özünə tabe olan millətlə heç nəyi bölmək istəməyən hakim millətin millətçi hisslərini aydın əks etdirən qanun nümunəsi kimi Rus Məhkəmə İdarəsinin (1864-cü il məhkəmə nizamnamələri) 464-cü maddəsi göstərilə bilər.

> "464: Varşava Məhkəmə Dairəsinin məhkəmə idarələrində məhkəmə işi rus dilində aparılır.
>
> *Qeyd.* Aşağı məhkəmələrdə, tərəflər və işdə iştirak edənlər rus dilini bilmirlərsə, yerli əhalinin danışdığı dilin də işlədilməsinə icazə verilə bilər. Lakin bu halda da hökm, qərar, ümumiyyətlə, məhkəmənin çıxardığı bütün aktlar rus dilində verilməlidir", —

deməli, bu işlər tərəflərin bilmədikləri və çox vaxt hakimlərin də yaxşı bilmədikləri bir dildə görülməlidir.

Bu, əlbəttə, milli məsələnin həlli və hətta milli ədavətin yumşaldılması yolu deyildir, əksinə, onun kəskinləşdirilməsi yoludur.

Dillər haqqında məsələyə tamamilə başqa bir mövqeni Belçikada müşahidə edirik.

Konstitusiyanın 23-cü maddəsində deyilir:

> "Belçikada işlədilən dillərdən istifadə olunması qeyri-məcburidir: bu istifadə yalnız hökumət aktları və ancaq məhkəmə işləri üçün nizamlana bilər".

Biz artıq gördük ki, Konstitusiyanın belə bir maddəsi ən həyasız, ən aşkar insansevməzlik praktikası ilə necə gözəl uzlaşır, ona görə yalnız maddənin özü ilə kifayətlənə bilmərik. Lakin İsveçrə kimi, məhz Belçikada da heç bir çətinlik çəkmədən sübutlar əldə edə bilərik ki, bu maddə Avstriya, yaxud Prussiyada olduğu tək heç də boşşey deyildir.

Konstitusiyanın burada nümunə göstərdiyimiz 23-cü maddəsi ilə nəzərdə tutulan qanunlardan biri, 17 avqust 1873-cü il qanunu ilə məhkəmədə dillərin işlədilməsi qaydası müəyyən edilmişdi.

Bu qanuna görə, flamand əhalisinin çoxluq təşkil etdiyi yerlərdə məhkəmə dili kimi flamand dili tanınır; lakin əgər müttəhim (cinayət işlərində), yaxud cavabdeh (mülki işlərdə) fransız dilini tələb edirsə, onda istintaq və çıxışlar fransızca aparılır, hökm də fransız dilində oxunur. Ancaq işdə iştirak edən hər bir şəxs (şahid, iddiaçı, ekspert və s.) istədiyi dildə danışa bilər. Protokol hər iki dildə aparılır...

Daha sonra İsveçrədə üç dilin hüquq bərabərliyi prinsipi həyata keçirilmişdir. İsveçrə Konstitusiyasının 116-cı maddəsində deyilir ki, "İsveçrənin üç əsas dili İttifaqın milli(6) dilləridir". Bütün qanunlar, hakimiyyətin vətəndaşlara, demək olar ki, bütün müraciətləri üç dildə çap olunur və hər üç mətn eyni dərəcədə rəsmi hesab

olunur... Federal Məclisdə natiqlər istədikləri dildə danışırlar, üç dildən hansında deyilməsindən asılı olmayaraq bütün nitqlər stenoqrafiya edilir və rəsmən çap olunur. Federal hakimiyyət orqanları, kanton və icma təsisatları fərdi şəxslərlə onların öz dilində təmasa girir. Bu vəzifənin yerinə yetirilməsi üçün hər bir hökumət idarəsində hər üç milli dilin təmsil olunmasına nəzarət edilir. Məhkəmələr üçün bu, Konstitusiya ilə (107-ci maddə), digər idarələr üçün isə ya ayrı-ayrı qanunlar, ya da həyatın özünün tələbləri və milli məsələnin yaradılmasından çəkinmək meyli ilə təmin edilir.

Dil məsələsində daha azad və mütərəqqi olan dövlətlərdə problem bu yolla həll olunur. Onun bu dövlətlərdə həlli nisbətən asandır, belə ki, milli məsələ özünün bütün nəhəng vücudu ilə onunla yanaşı dayanmır.

Burada başlıca vəzifə müxtəlif millətlərin əks iddialarının ödənilməsi, zidd maraqlarının barışdırılmasından ibarət deyil, yalnız müxtəlif dillərdə danışan ayrı-ayrı adamların maraqlarının barışdırılmasından ibarətdir. [Etnoqrafik] millət (milli özünüdərk ümumiliyi ilə birləşən və özü üçün məhz ayrıca millət hüququ tələb edən insanların toplumu olaraq) mövcud olduğu yerdə artıq məhkəməyə öz dilində ərizə vermək kimi adi bir sədəqə ilə kifayətlənə bilməz. O, labüd olaraq, dövlət hakimiyyətində iştirakını tələb edəcəkdir, həmçinin məktəblərin yaradılması və onlarda təhsilin xarakterinə öz milli xüsusiyyətlərinə uyğun təsir etmək və s. imkanları tələb edəcəkdir...

[Etnoqrafik] millətçi partiyaların əksəriyyəti öz millətlərinin maraqlarını önə keçirir, özü də onları ərazi muxtariyyəti ilə, başqa sözlə, öz millətinə dövlət xarakteri verilməsinə çalışmaqla həll etmək istəyir. [Etnoqrafik] millətin ərazi ilə tam üst-üstə düşdüyü çox nadir hallarda məsələ onun üçün bununla da həll olunur; lakin bu məsələ həm elə həmin ərazidə yaşayan digər milli azlıq üçün, həm də eksterritorial hissələri olan elə həmin millət üçün qətiyyən həll olunmur.

Bu, onlar üçün yalnız daha radikal yolla: hər bir [etnoqrafik] millətin öz milli işlərini aparmaq hüququ və qabiliyyətinin tanınması yolu ilə, deməli, milli özünüidarə və millətlərin federasiyası yolu ilə həll olunur.

---

1 "Formı natsionalnoqo dvijeniya v sovremeninıx qosudarstvax. Avstro–Venqriya, Rossiya, Qermanмia", A.N.Kostelyanskinin redaktisiilə, SPb., "Obşestvennaya polza" yoldaşlığının nəşri, 1910-cu il.

2 ABŞ nəzərdə tutulur — *red.*

3 Müəllif milliyyətin (ya da, başqa sözlə, etnik mənsubiyyətin) antropoloji, ya genetik eyniliyini inkar edir və onu psixoloji eynilik kimi qəbul edir — *red.*

4 Bu terminlər çağdaş Azərbaycan Respublikasında da həmin mənada işlədilir — *red.*

5 Rus mətnində — *narodnost,* bu söz Azərbaycan Respublikasında hərdən "xalq", hərdən isə "millət" kimi tərcümə olunur — *red.*

6 Göründüyü kimi, İsveçrədə *milli* termini bizdəki *dövlət* termini mənasını daşıyır — *red.*

## 45.AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

## Müstəqilliyin elan olunması (1918)

XIX əsrin əvvəllərində ölkənin Rusiya və İran arasında bölüşdürülməsindən bəri Azərbaycan vətənpərvərlərinin ürəklərində özünə yuva salmış müstəqillik arzuları Rusiya monarxiyasının süqutu ilə konkret cizgilər əldə etməyə başladı. Birinci dünya müharibəsinin üç ili ərzində Rusiya imperiyası fəlakət həddində idi. Rusiyada liberal-demokratik inqilab başlandı, 1917-ci ilin fevralında II Nikolay taxt-tacdan əl çəkdi. Hakimiyyətə gələn Müvəqqəti hökumət 1917-ci il noyabrın sonuna Müəssislər Məclisinə seçkilər təyin etdi. 1917-ci il noyabrın 7-də Müvəqqəti hökumətin bolşeviklər tərəfindən yıxılmasına baxmayaraq, Müəssislər Məclisinə seçkilər keçirildi. Bolşeviklər bu seçkilərdə yerlərin əksəriyyətini qazanmağa ümid edirdilər...

Cənubi Qafqaz bu seçkilərdə vahid seçki dairəsini təşkil edirdi. Burada seçicilərin səslərini almaq uğrunda bolşeviklər və mülayim sosialistlər, unitar Rusiya dövləti tərəfdarları və federalistlər (Rusiya imperiyasına daxil olan ölkələr üçün geniş muxtariyyət istəyənlər) mübarizə aparırdılar. Cənubi Qafqaz seçki dairəsində seçkilər sonuncuların tam qələbəsi ilə nəticələndi.

Cənubi Qafqazda Ümumrusiya Müəssislər Məclisinə seçkilər 1917-ci il noyabrın 26-28-də keçirildi. Seçkidə 2.455.274 seçici iştirak edirdi. Seçkilərin nəticələrinə görə, öz ölkələrinin muxtariyyəti tələbini müdafiə edən namizədlər seçicilərin səslərinin dörddə üçünə qədərini aldılar (gürcü menşevikləri — 26,9%, Azərbaycanın Müsavat Partiyası — 25,1%, erməni Daşnaksütyun Partiyası — 22,7%). Azərbaycan əhalisi arasında Müsavat Partiyası səslərin 66,5%-ni aldı. Bu, əhalinin Müsavat Partiyasının irəli sürdüyü milli dövlətçiliyin inkişafı ideyasını tam müdafiə etdiyini göstərirdi.

Bu dövrün tanınmış tədqiqatçılarından olan tarixçi Aydın Balayevin(1) göstərdiyi kimi, Müsavatın seçkiqabağı platformasında aşağıdakı müddəalar əks olunurdu: Rusiyanın federativ demokratik respublikaya çevrilməsi və onun tərkibində Azərbaycana milli-ərazi muxtariyyətinin verilməsi; insanın əsas haqlarının təmin edilməsi; qadınların hüquq bərabərliyi; istifadə olunmayan malikanə, xəzinə, kilsə və s. torpaqlarının pulsuz olaraq zəhmətkeşlərin ixtiyarına verilməsi; səkkiz saatlıq iş günü; tətil və həmkarlar ittifaqları azadlıqları və s.

Seçkiləri uduzan bolşeviklər 1918-ci ilin yanvarında Peterburqda öz işinə başlamaq istəyən Müəssislər Məclisini buraxırlar. Lakin davam etməkdə olan dünya və vətəndaş müharibələri mərkəzin ucqarlarda təsirini zəiflədir, Rusiya qoşunları Cənubi Qafqazı nizamsız şəkildə tərk edirlər. Bu vaxt Müəssislər Məclisinin Cənubi Qafqazdan seçilmiş deputatları (34 nəfər) Tiflisdə toplaşaraq 1918-ci il fevralın sonunda Cənubi Qafqaz Seymini — regionun qanunverici orqanını yaradırlar. Bu, faktik olaraq, Azərbaycan, Gürcüstan və Ermənistanın ərazilərində Rusiyadan asılı olmayan Cənubi Qafqaz Federasiyasının (Zaqafqaziya Federasiyası) yaradılmasına gətirib çıxarır.

Cənubi Qafqaz Seyminin ilk addımlarından biri Osmanlı Türkiyəsi ilə sülh danışıqlarının başlanmasından ibarət oldu. Türkiyə hər an keçmiş Rusiya imperiyası ərazilərinə hücumlarını bərpa edə bilərdi. Osmanlı hökuməti Seymi Cənubi Qafqaz ölkələrinin Rusiyanın tərkibindən çıxması haqqında qərar qəbul etməyə çağırır, eyni zamanda Batum, Qars və Ərdəhan sancaqlarının Türkiyəyə verilməsini də tələb edirdi. Birlikdə əksəriyyət təşkil edən gürcü və erməni fraksiyaları Türkiyənin təkliflərini qəbul etmədilər və Türkiyəyə qarşı vuruşan ölkələrin emissarlarının təhriki ilə ona müharibə elan etdilər. Bu müharibə 8 gün davam etdi və Türkiyənin tam qələbəsi, Batum və Qarsı türk qoşunlarının ələ keçirməsi ilə nəticələndi. 1918-ci il aprelin 19-da Azərbaycan deputatları Cənubi Qafqazın dərhal müstəqil elan olunmasını tələb etdilər və bildirdilər ki, əks halda onlar müstəqil Azərbaycan Respublikasının yaradıldığını elan edəcəklər. Ertəsi gün Cənubi Qafqazın müstəqilliyi ideyasını gürcü deputatlar da müdafiə etdilər. Aprelin 22-də Seym Cənubi Qafqazı müstəqil federativ respublika elan etdi. Lakin türk qoşunları Gürcüstan və Ermənistana hücumlarını davam etdirirdi. Gürcüstana himayədarlıq edən alman hökumətinin məsləhəti ilə gürcü deputatlar mayın 27-də Gürcüstanın müstəqilliyini elan etdilər. Onlar ümid edirdilər ki, Gürcüstan beynəlxalq hüququn subyekti statusunu aldıqdan sonra türk qoşunlarının hücumlarının qarşısı alına bilər.

Mayın 27-də azərbaycanlı deputatlar özlərinin fövqəladə yığıncağında Azərbaycanın müvəqqəti Milli Şurasının yaradılması haqqında qərar qəbul edirlər, Məmməd Əmin Rəsulzadə (Müsavat Partiyası) onun sədri seçilir. 1918-ci il mayın 28-də Tiflisdə Milli Şura Azərbaycanın müstəqilliyini və İstiqlaliyyət Bəyannaməsini elan edir.

# Azərbaycan Xalq Cümhuriyyətinin İSTİQLALİYYƏT BƏYANNAMƏSİ

## (28 may 1918-ci il)

*Azərbaycan Xalq Cümhuriyyəti millət, din, sinif, silk və cins fərqinə varmadan hüdudu daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaş hüquqlarını təmin edir.*

Böyük rus inqilabının gedişində Rusiyada elə bir siyasi quruluş bərqərar oldu ki, o, dövlət orqanizminin ayrı-ayrı hissələrinin dağılmasına və rus qoşunlarının Zaqafqaziyanı tərk etməsinə gətirib çıxardı. Öz qüvvələrinin ixtiyarına buraxılmış Zaqafqaziya xalqları talelərini həll etmək işini öz əllərinə aldılar və Zaqafqaziya Demokratik Federativ Respublikasını yaratdılar. Lakin siyasi hadisələrin sonraki gedişində gürcü xalqı Zaqafqaziya Federativ Respublikasından çıxmaqla müstəqil Gürcüstan Demokratik Respublikası yaratmağı daha münasib hesab etdi.

Rusiya və Osmanlı imperiyası arasında müharibənin ləğv olunması ilə bağlı Azərbaycanın müasir siyasi vəziyyəti, həmçinin ölkənin daxilindəki görünməmiş anarxiya Şərqi və Cənubi Zaqafqaziyadan ibarət olan Azərbaycan üçün öz dövlət quruluşunu yaratmağı xüsusi hökmlə zəruri edir ki, Azərbaycanın xalqlarını düşdükləri bu daxili və xarici vəziyyətdən çıxarmaq mümkün olsun.

Xalq səsverməsi ilə seçilmiş Azərbaycan Milli Şurası bunun əsasında indi bütün xalqa elan edir:

1. Bu gündən etibarən Azərbaycan xalqları suverenlik hüququna malikdir və Cənubi və Şərqi Zaqafqaziyadan ibarət olan Azərbaycan tamhüquqlu müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin idarə şəkli xalq cümhuriyyəti olaraq müəyyənləşdirilir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və xalqlar ilə dostluq münasibəti yaradır.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, din, sinif, silk və cins fərqinə varmadan hüdudu daxilində yaşayan bütün vətəndaşların siyasi və vətəndaş hüquqlarını təmin edir.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bütün millətlərə sərbəst inkişaf üçün geniş imkan verir.

6. Milli Məclis toplanana kimi Azərbaycan idarəsinin başında ümumi səsvermə ilə seçilmiş Milli Şura və Milli Şura qarşısında məsul olan Müvəqqəti hökumət durur.

---

1 Aydın Balayev, "Azərbaycan milli hərəkatı. 1917–1918-ci illər". Bakı, "Elm", 1998.

## 46. ÜMİDSİZ MÜQAVİMƏT

*Alber Kamyu*

Fransız yazıçısı və dramaturqu, fəlsəfi və ədəbi ekzistensializm məktəbinin görkəmli nümayəndəsi Alber Kamyu (1913–1960) o zamanlar Fransanın müstəmləkəsi olan Əlcəzairdə fransız kolonisti ailəsində doğulmuşdur. Kamyu atasını erkən yaşlarında itirmiş, anası ilə birgə yoxsulluq və səfalət içində yaşamışdır. Uşaqlıqdan təhsilə böyük maraq göstərən Kamyu klassik və müasir fransız ədəbiyyatı ilə tanış olur, ekzistensializmə qapılır; gənc solçu intellektuallar arasında dolaşır; qısa müddətə (1934–1937) Kommunist Partiyasının üzvü olur, İspaniya respublikaçılarının müdafiəsinə qalxır. Fəhlə teatrı üçün yazdığı ilk esse və pyeslərini Kamyu 1937-ci ildən başlayaraq çap etdirir. 1940-cı ildə o, Fransaya köçür və alman işğalçılarına qarşı mübarizə aparan müqavimət hərəkatına qoşulur.

Kamyu yaradıcılığı ekzistensializm cərəyanı və ideyaları ilə sıx bağlıdır. İnsanın həyatın mənasını dərk etmək istəyi ilə bu fani dünyanın mənasızlığı arasında yaranan absurd haqqındakı ekzistensializm ideyası Kamyu əsərlərinin ruhuna, canına işləmişdir. Kamyunun "Yad" (1942), "Taun" (1948), "Süqut" (1948) kimi böyükhəcmli əsərləri, gözəl hekayə və pyesləri ona dünya şöhrəti qazandırır. 1957-ci ildə Kamyu ədəbiyyat üzrə Nobel mükafatına layiq görülür. Üç ildən sonra isə avtomobil qəzasında həlak olur.

Kamyunun 1942-ci ildə, işğal olunmuş Parisdə qələmə aldığı "Sizif haqqında mif. Absurd haqqında esse" əsəri onun bütün yaradıcılığı üçün açar sayıla bilər. O zamanlar alman işğalına qarşı intellektual müqavimətin manifesti kimi baxılan bu əsərdə Kamyu sübut etməyə çalışır ki, həyatın mənasızlığı hələ ümidsizliyə qapılmaq, yaxud intihar etmək üçün səbəb və bəhanə ola bilməz. İnsan üçün həyatı mənaya mindirən bir şey varsa, o da

həyatın mənasızlığını dərk etmək və eyni zamanda ədalətsizliyə qarşı üsyana qalxmaq, insan çöhrəli dünya naminə bütün insanların həmrəyliyidir.

Kamyunun əsərinin qəhrəmanı yunan mifindəki, allahların onların "sirlərini aləmə yaydığına" görə əbədi əzablara məhkum etdikləri Sizifdir. Sizifin xilas olub qurtulacağına, yaxud tanrılar tərəfindən bağışlanacağına heç bir ümidi yoxdur. Bununla belə, daxili azadlıq sahibi olan Sizif tanrıların cəza kimi ona təyin etdikləri tale ilə barışmaq istəmir, onu rədd edir, öz taleyindən yüksəyə qalxır, qurtulmağa hətta cüzi ümidi olmasa da, var gücüylə müqavimət göstərir.

ALBER KAMYU

# Sizif haqqında mif (1940)

*Heç nə yox, təpəyə, ucaya qalxmaq uğrunda mübarizə insan qəlbini doldurmaq üçün kifayətdir. Odur ki, Sizifi gərək bəxtiyar sanasan.*

Allahlar Sizifə cəza kəsdilər ki, o, azman bir daşı dağın kəlləsinə qaldırsın, daşsa ora çatar-çatmaz təzədən üzüaşağı yuvarlanmış olsun. Allahlar ona da əmin idilər ki, yer üzündə xeyirsiz və hədər zəhmət qədərincə ağır cəza yoxdur.

Homerə inanmış olsaq, Sizif bəndələrin ən ağıllısı, ən tədbirlisiymiş. Ancaq başqa bir mənbəyə görə, onun əlindən qarət də gəlirmiş. Burada bir ziddiyyət görmürəm. Sizifin cəhənnəmin əbədi zəhmətkeşi olması barədə çatan bir söz deyir. Hər şeydən əvvəl onu allahları saya almadığına görə qınayıblar. Sizif onların sirlərini aləmə bəyan eləyirmiş. Asopun qızı Eginanı Yupiter qaçırıbmış. Atası qızın birdən-birə yoxa çıxdığına mat qalıb öz dərdini Sizifə danışır. Sizif də qızın başına gələni bilirmiş, şərt qoyur ki, əgər Asop Korinf qalaçasına su versə, onun işinə yarımağa hazırdır. Sizif göylərin qəzəbli ildırımından yer üzündəki suyun bərəkətini üstün saydı. Bunun cəzası cəhənnəm əzabı oldu. Homer orasını da deyir ki, Sizif, sən demə, Ölümün özünü qandallayıbmış. Pluton öz səltənətinə çökən kimsəsizliyə və sükuta göz qaldırıb baxmağa dözmürmüş. Onda müharibə allahını göndərir ki, Ölümü onun qəniminin çəngindən xilas eləsin.

Onu da deyirlər ki, son nəfəsində Sizif arvadını sınağa çəkibmiş və hökmü də bu olubmuş ki, öləndə onu torpağa tapşırmasınlar, cəsədini meydanın ortasına tullasınlar. Sizifin cəhənnəmə düşməyi də elə buradandı. İnsan şəfqətinə yad olan belə bir itaətdən qeyzə gəlmiş Sizif arvadının dərsini vermək üçün Plutondan möhlət istəyir. Elə ki qayıdıb yer üzünü görür, sulardan içir, günəşin, dənizin-daşın nəfəsini özləyir, bir daha kölgələr dünyasına qayıtmağa həvəsi qalmır. Allahların xəbərdarlığı, hədə-qorxusu kara gəlmir. Ləpələri şirin ləhcəli, torpağı göz oxşayan bir körfəzin sahilində uzun müddət beləcə ömür sürür. Axır ki, allahların səbri tükənir. Merkuri peyda olub Sizifin peysərindən yapışır, zorla aparıb cəhənnəmə salır, Sizifin qismət daşısa artıq burada onu gözləyirdi.

Elə buradan bəllidir ki, Sizif absurd qəhrəmandır. Öz ehtirasları, çəkdiyi iztirablar da belədir. Allahlara etinasızlığı, ölümə meydan oxuması və yaşamaq eşqi ona çox baha oturdu — əbəs yerə gücənməyə məhkum oldu. Fani ehtirasların qisməti bu imiş. Düzdü, Sizifin cəhənnəmdə başına gələn qovğalardan yerli-yataqlı xəbərimiz yoxdur. Miflərsə zehnimizi oyatmaqdan ötrü yaranıbdır. Sizif deyəndə azman bir daşı yerindən qoparıb yamaca qaldırmaq istəyən gərilmiş bir bədən ağlımıza gəlir; qıc olmuş, bir üzü nahamvar daşa söykək çöhrə, çamurlu yükə dirənmiş çiyin, büdrək ayaq və hər dəfə yenidən daşı yerindən tərpətməyə cəhd göstərən, ovucları torpağa bulaşmış əllər gözümüz önündə canlanır. Və nəhayət, uzun-uzadı, həm də ahəngdar cəhd-çabalar nəticəsiz qalmır, əvvəli-axırı bilinməz zaman, səmasız bir məkan içərisində məqsədə çatılır. Və bir neçə an içində həmin daş dağın ətəyinəcə yumbalanıb dayanır, gərək təzədən üzüyuxarı qaldırasan. Sizif aşağı enməkdədir. Sizif mənim üçün məhz həmin o sükut anında maraqlıdır. Onun az qala daşdan seçilməyən əzabkeş sifətini, özünün bitib-tükənməyən iztirablarına qənşər gedibən ağır, həm də qəti addımlarla aşağı enən həmin adamın özünü görməkdəyəm. Belə vaxtda onun qaçılmaz qismətinə bənzəyən düşüncəsi də yenidən qüvvət kimi üstünə qayıdır. Və yüksəklikdən allahların yuvasına enən çağında o öz taleyindən daha yüksəkdədir. Sizif öz daşından kənəkdir.

Qəhrəmanımız şüur yiyəsi olduğundan bu mif faciəvidir. Sizifin hər addımına ümid dəstəkdirsə, belədə söhbət hansı cəzadan gedə bilər ki?! Bugünkü fəhlə də ömrü boyu beləcə yaşamaqdadır və onun müsibəti bundan heç də şükürlü deyil. Gəl ki, ara-sıra, şüuru özünə qayıdan çox nadir anlarda o, faciəvi olur. Allahların proletarı, gücsüz və üsyankar Sizif özünün sonu görünməyən bədbəxt taleyindən halidir. Bütün bunlar yalnız dağın ətəyinə enəndə ağlından gəlib keçir. Əslində onun sitəminə çevriləsi xəyalın aydınlığı Sizifin qələbəsinə dönür. Elə tale tapa bilməzsən ki, onu nifrət üstələməsin.

Həmin eniş bəzən iztirablıdır, ancaq bu nikbinlik içində də ötüşə bilər. Bu ifadə yerindədir. Dağın ətəyindəki öz daşına sarı enməkdə olan Sizifi yenidən təsəvvürə gətirirəm. İztirab əzəlidir. Yaddaş fani dünyanın görüntüləri ilə dolub-daşırsa və bəxtəvərlik duyğusu beləcə dözülməzdirsə, onda bir də gördün insanın qəlbinə kədər çökdü: bu, daşın qələbəsidi, həmin daşın özüdür. Nəhayətsiz kədər yükünü daşımaq çox ağırdır. Həfsiman bağındakı gecələrimiz də belə keçir. Ancaq bizləri aləm-yesir etmiş həqiqətlər biz onları dərk edib anlayan kimi geri çəkiləcək. Öz taleyindən bixəbər Edip də qismətinə beləcə boyun əymişdi. Faciə idrakla birgə başlayır. Kor-peşman olan Edip elə o andaca dərk eləyir ki, onun dünya ilə yeganə bağlantısı zərif qız əlidir. Məhz onda Edip təkəbbürlə bu sözləri deyir: “Bütün bu müsibətlərə baxmayaraq, ahıllığım və qəlbimin böyüklüyü məni “hər şey yaxşıdır” söyləməyə məcbur edir”.

Dostoyevskinin Kirillovu necədirsə, Sofoklun Edipi də bizə absurd qələbənin düsturunu anladır. Antik hikmət müasir şücaətə qaynayıb-qarışmış olur.

Absurdu özü üçün açan kəsin həmişə nəfsi çəkir ki, səadət dərsliyinə bənzər nəsə bir şey qaralasın. “Bu dar yolla gedərsək necə?”. Amma fani dünyada olan-olmaz birdir, səadət və absurd elə həmin bir olan yer üzünün yetirməsidir. Onların biri digərindən ayrı düşə bilməz. Orası yanlış olar ki, səadətin təvəllüdü mütləq absurdun kəşfiylə bağlana. Ola bilər ki, absurd duyğusu səadətdən törəmiş olsun. “Məncə, hər şey yaxşıdı” — söyləyən Edipin sözləri müqəddəsdi. Bu kəlmələr insanın sərt və son kainatında səslənir. Onlar deyir ki, hələ bu, axır deyil, hələ hər şey bitib-tükənməyib. O sözlər bu dünyaya qəbahət və mənasız iztirablarla birgə varid olmuş Allahı dünyadan qovmaq niyyətindədir. Onlar taleyi insanın öz əlinə tapşırır, qismət deyilən şeyi insanların özlərinin öz aralarında görəcəyi əmələ döndərir.

Sizifin sezilməz sevinci burasındaymış. Onun qisməti ona məxsusdu. Daş onun əmlakıdır. Absurd insan da öz çəkdiyi əzablara beləcə nəzər yetiribən bütləri susdura bilir. Gözlənilmədən səssizliyə gömülmüş kainatda min-min məftun, zərif nidaların pıçıltısı yer üzündən göylərə ucalmaqdadır. Bu, dünyadakı bütün simaların sirli, qeyri-ixtiyari çağırışıdır — qələbənin astar üzü və əsl dəyəri budur. Kölgəsiz günəş yoxdur və gecəni də dərk eləmək labüddür. Absurd insan “hə” deyir və bundan sonra onun cidd-cəhdlərinin sonu görünmür. Əgər hər kəsin öz taleyi varsa, bu, heç də qeybdən yazılmayıb, uzaqbaşı, insanın öz qisməti haqqında əvvəlcədən düşündüyüdür: o, alın yazısıdır və nifrətə layiqdir. Qalan nə varsa, insan özünü ötüb-keçənlərin ağası sayır. İnsan bir anlığa çevrilib yaşanmış ömrünə boylananda Sizif daşın yanına qayıdıb artıq onun taleyinə dönmüş əməllərin rabitəsiz düzümünü seyr etməkdədir. O öz taleyini özü yaradıb, yaddaşı onu tam hala gətirib və ölümlə sübuta yetirib. Cümlə bəşərin kökündə bəni-insanı soraqlayan, görmək niyyətində bulunan və gecənin sonsuzluğundan xəbərdar olan bir kəs — kor öz yolunu getməyindədir. Və daş yenə üzüaşağı yuvarlanmaqdadır...

Mən Sizifi öz dağının ətəyindəcə boşladım! Daşımağa yük hər vaxt tapılar. Ancaq Sizif allahları inkar edən və azman daşları yerindən oynadan inamın ən uca həddini öyrədir. O da belə hesab edir ki, hər şey yaxşıdır. İndən belə öz hökmdarından məhrum kainat ona barsız və miskin görünəsi deyil. Daşın hər çınqısı, külçənin gecəgözü, dağda hər parıltısı onunçün ayrıca bir aləmdir. Heç nə yox, təpəyə, ucaya qalxmaq uğrunda mübarizə insan qəlbini doldurmaq üçün kifayətdir. Odur ki, Sizifi gərək bəxtiyar sanasan.

*“Sizif haqqında mif. Absurd haqqında esse”*

## 47. MİLLİ MƏDƏNİYYƏT VƏ DEMOKRATİYA

Corc Oruell

Corc Oruell (Erik Artur Bleirin təxəllüsüdür) (1903–1950) 20-ci yüzilliyin görkəmli yazıçı və esse ustalarından biridir. Onun antiutopiya romanları, demokratiya və totalitarizm haqqında düşüncələri Qərb insanı mədəniyyətinin tərkib hissəsinə çevrilib.

Oruell Hindistanda yoxsul ingilis məmuru ailəsində doğulub. 1911-ci ildə ailəsi ilə birgə İngiltərəyə köçən Oruell elə orada da məktəbə gedir. O, ilk çağlardan şagirdlər arasında öz yoxsulluğu və parlaq qabiliyyəti ilə seçilir. Məktəbi bitirdikdən sonra nüfuzlu İton kollecinin təqaüdünə layiq görülən ilk əsərlərini də orada, kollec toplusunda dərc etdirir. Kolleci bitirdikdən sonra atasının yolu ilə gedərək Birmada müstəmləkə idarəsində işə girir.

Əvvəllər "ağ adamın xüsusi missiyası"nın nəcibliyinə sidq-ürəkdən inanan Oruell Britaniya müstəmləkəçiliyinin əsl siması, iç üzü ilə yaxından tanış olduqdan sonra öz rüsvayçı karyerasına son qoymaq qərarına gəlir. Oruell belə nəticəyə gəlir ki, onun və həndəvərində olanların bəhrələndiyi maddi nemətlər cəmiyyətin aşağı təbəqələrinin və müstəmləkə xalqlarının çapılıb-talanması hesabına əldə olunub. Oruell isteblişmentlə olan əlaqələrini qırır və bir neçə il, sanki öz günahlarını yuyurmuş kimi, Londonun və Parisin ən yoxsul fəhlə məhəllələrində yaşayır. 1933-cü ildə dərc olunmuş "Həyatın dibində — London və Parisin ucqar məhəllələrində" sənədli əsəri ona ədəbi şöhrət qazandırır. Oruellin antiimperializmi və anarxizmi tezliklə onu kommunizm ideyasına gətirib çıxarır. 1937-ci ildə Avropanın bir çox mütərəqqi sənət adamları kimi Oruell də İspaniyaya faşistlərlə döyüşməyə yollanır. Burada o, "əsl" kommunistlərlə — onlardan fərqli düşünən hər bir kəsi məhv etməyə çalışan bu qorxunc fanatiklərlə rastlaşır. Oruell onlarla mübarizə aparmağa cəhd etsə də, tezliklə ölüm təhlükəsi altında İspaniyanı tərk etməli olur. Kommunistlərin iç üzünə bələd olan Oruell ömrünün sonunacan onlardan nəinki aralı gəzir, həm də imkan düşdükcə onları ifşa etməyə can atır. İkinci dünya müharibəsinin ilk günlərindən başlayaraq Oruell BBC radiosunda çalışır, lakin söz yaradıcılığından da qalmır, demokratik ingilis ədəbiyyatının problemləri, kommunizm və faşizmin mahiyyəti və daxili oxşarlığı haqqında və misilsiz ustalıqla qələmə alınmış məqalə və povestlərini çap etdirir.

1944-cü ildə Oruellin "Mal-qara ağılı" povesti işıq üzü görür. Sovet İttifaqının ilk illərinin satirik və alleqorik təsvirini yaradan bu parlaq əsər ona ümummilli şöhrət və maddi cəhətdən müstəqillik gətirir. "Mal-qara ağılı"nda bərqərar olmuş "bərabərlik və qardaşlığ"ı Oruell sonralar zərb-məsəl və dillər əzbəri olmuş bircə tutumlu ifadəylə əks etdirir: "Burada bütün heyvanlar bərabərdir, lakin onlardan bəziləri o biri heyvanlardan daha bərabərdir".

"1984" adlı antiutopiya romanı isə Oruellə artıq dünya şöhrəti qazandırır. Bu əsərdə o, "Üçüncü dünya müharibəsi"ndən sonra İngiltərədə bərqərar olmuş totalitar dövlətin qorxunc mənzərəsini yaradır və əsəri oxumağa başlayan hər kəs elə ilk cümlələrdən bu dəhşətli təsvirin real SSRİ-dən götürüldüyünü dərk edir. "Sovet İngiltərəsi"ni Böyük İnkvizitorun bir "növ"ü olan və hər bir adamın ictimai və şəxsi həyatda atdığı hər addımı ara vermədən izləyən Böyük qardaş idarə edir. "Azadlıq köləlikdir", "Müharibə əmin-amanlıq və sülhdür", "Nadanlıq böyük gücdür", — xəyali "Sovet İngiltərəsi"ni və real SSRİ-ni idarə edən ideologiyanın mahiyyəti, məğzi məhz bunlardan ibarətdir. Oruellin bu qorxunc "vəhylər"i ingilislərin beynində özünə elə möhkəm yer eləmişdi ki, 1984-cü ildə bütün İngiltərə Oruellin irəlicədən söylədiklərinin həyata keçmədiyinə sevinərək bu tarixi az qala ümummilli bayram kimi qeyd edirdi.

Oxuculara təqdim etdiyimiz "İngiltərə, Sizin İngiltərə" essesində Oruell öz qarşısında hələ 100 il bundan əvvəl Tokvillin "Amerikada demokratiya" adlı əsərində can atdığı məqsədə bənzər vəzifə qoyur. O, əsasən belə bir suala cavab arayır: görəsən, ingilislərin mədəniyyət və ənənələrindəki məhz hansı cəhətlər bu ölkədə demokratiyanın uğurunu irəlicədən müəyyən edib? Oruellin təsvirə çəkdiyi ingilislər heç də Tokvillin amerikalıları qədər dindar və zirək deyil, lakin bu xalqlar bir şeydə çox oxşardır: hər ikisinə ədalətə, azadlığa, həqiqətin obyektivliyinə — Oruellin istehza ilə "xəyali" adlandırdığı, lakin özünün də inandığı anlayışlara dərin inam xasdır.

CORC ORUELL

# İngiltərə, Sizin İngiltərə (1943)

*İngiltərədə "ədalət", "azadlıq", "obyektiv həqiqət" kimi anlayışlara hələ də inanırlar. Bəlkə də bu, illüziyadır, lakin güclü bir illüziyadır. Bunlara inam insanların davranışına təsir göstərir, milli xarakteri formalaşdırır.*

...Burada ingilis xarakterinin çox qabarıq üzə çıxan, amma az-az xatırlanan bir maraqlı cəhətinə nəzər yetirməyə dəyər — bu, gül-çiçəyə olan məhəbbətdir. Xaricdən, ələlxüsus Cənubi Avropadan bu ölkəyə təşrif buyuranda gözə dəyən ilk şeylərdən biri də bu olur. Yaxşı, bəs gül-çiçəyə bu aludəçilik ingilislərin incəsənətə biganəliyinə zidd deyilmi? Əsla yox! Çünki gözəllik duyğusundan büsbütün məhrum adamlar da gülü xoşlayırlar. Özü də bu sevgi ingilislərin bizə çox doğma olan, doğmalığına görə sezilməyən başqa bir xarakterik cəhətiylə bağlıdır — mən sevimli məşğuliyyətlərə, əyləncələrə aludəçiliyi, ingilis həyatının *fərdi* təbiətini nəzərdə tuturam. Biz gülçü millətik, lakin biz həm də filatelçilər, quşbazlar, həvəskar dülgərlər, reklam kuponu toplayanlar və krossvord düşkünləri millətiyik. Mədəniyyətdəki ən çox milli olan şeylər bizdə elə qəribə formalarda üzə çıxır ki, hətta ictimai xarakter daşıyanda da rəsmiləşmir, rəsmiləşənlər, adətən, pab(1), futbol oyunu, dal həyətdəki bağça və çay dəstgahı həndəvərində cəmləşir. Burada əvvəllərdə az qala 19-cu yüzillikdə olduğu kimi şəxsiyyət azadlığına hələ də inanırlar. Amma bu azadlığın iqtisadi azadlıqla — qazanc xatirinə başqalarını istismar edə bilmək hüququyla heç bir əlaqəsi yoxdur. Bu o azadlıqdır ki, şəxsi evin olsun, boş vaxtında könlün istəyən şeylə məşğul ola biləsən, özün üçün əyləncəni özün seçəsən, bunu sənə yuxarıdan sırımağa yol verməyəsən.

İngilis qulağı üçün "Qır-saqqız Parker" ayaması qədər iyrənc səslənən söz birləşməsi yoxdur. Əlbəttə ki, hətta bu olduqca fərdi azadlıq itirilməyə məhkumdur. Bütün müasir xalqlar kimi, ingilisləri də ara vermədən "nizama salırlar": onları sayıb-hesablayır, damğalayır, səfərbər edir və "əlaqələndirirlər". Lakin onların daxili impulslarının hərəkət qüvvəsi başqa səmtə yönəlib və buna görə də onlara güc-bəla sırınan nizamasalma sərt, yaxud eybəcər şəkil almayacaq. Nə kütləvi partiya yığıncaqları, nə gənclər hərəkatı, nə yekrəng köynəklər, nə yəhudi "ovu", nə "kortəbii" nümayişlər — bunların heç biri yəqin ki, olmayacaq. Və çox güman, heç bir gestapo-filana da rast gəlinməyəcək.

Lakin hər bir cəmiyyətdə sadə insanlar mövcud quruluşun müəyyən dərəcədə ziddinə, *acığına* yaşamalı olurlar. İngiltərənin əsl xalq mədəniyyəti rəsmiyyətçilikdən uzaq, hakimiyyətin hərdən dodaq büzdüyü, gurluğu və alqışı sevməyən bir mədəniyyətdir. Sadə ingilislərə, ələlxüsus böyük şəhərlərdə yaşayanlara yaxından göz qoysan görəcəksən ki, onlar heç də puritan deyillər. Onlar şövqlə qumar oynayır, maaşlarının imkan verdiyi qədərində pivə içir, şit lətifələr danışmağı xoşlayır və elə söyüşlər söyürlər ki, yəqin ki, dünyanın heç bir yerində belə ustalıqla söyə bilməzlər. Onlar bu meyllərini öz riyakarlığı ilə heyrət doğuran qanunların (kiçik restoranlarda spirtli içkilərin satış müddətini məhdudlaşdıran qanunlar, lotereyalar haqqında aktlar və sair və ilaxır) ziddinə təmin etməyə məcburdurlar. Bu qanunların məqsədi adamları cəncələ salmaq olsa da, əslində onlar hər şeyin öz təbii axarıyla getməsinə mane olmurlar. Bir də ki, sadə ingilislər müəyyən bir dini əqidəyə tapınmadan da ötüşə bilirlər və elə neçə yüz illərdi ki ötüşüblər. Anqlikan kilsəsi heç vaxt onlara real təsir göstərə bilməyib, çünki həmişə ortabab zadəganların, bir növ, şəxsi toxunulmaz "mülkü" olub, non-konformist sektalar isə yalnız milli azlıqlara təsir göstəriblər. Bununla belə, Xristosun adını demək olar ki, unutmuş sadə ingilislər ürəklərinin təmiz yerində xristian duyğusunu hifz edə biliblər. Avropada yeni dinə çevrilmiş, hətta ziyalıları da yoluxdurmuş zora pərəstiş heç vaxt sadə ingilisləri cəlb etməyib. Onlar hərbi gücə söykənən siyasəti "bəyənmək" səviyyəsinə çatmayıblar. Rəngbərəng yapon və italyan qəzetlərində təbliğ olunan "realizm" onları dəhşətə gətirir. Dəftərxana əşyaları satılan ucuz dükanların vitrinlərindəki məzəli, rəngli açıqcaları seyr etməklə əsl ingilis ruhu haqqında çox şey öyrənmək olar. Bunlar ingilislərin düşüncə və duyğularının, bir növ, güzgüsü, gündəliyidir. Onların köhnəpərəstliyi də, təbəqə snobizmi də, ədəbsizliyə olan riyakarlıqla qarışıq meyl-həvəsi də, qeyri-adi ürək yumşaqlığı və həyata olduqca əxlaqlı münasibətləri də burada güzgüdəki kimi əks olunub.

İngilis sivilizasiyasının bəlkə də ən qabarıq ifadə olunan cəhəti onun mülayimliyidir. Bunu ingilis torpağına qədəm qoyan kimi hiss edirsən. Bu ölkənin avtobus konduktorları gülərüz, polisləri isə tapançasızdır. Burada ağ insanların məskunlaşdığı heç bir yerdə olmadığı kimi adamı səkidən itələyib çıxarmaq olduqca asandır. İngilislərin bu xüsusiyyəti (avropalı müşahidəçilər buna "dekadans", yaxud ikiüzlülük əlaməti kimi baxıb saya salmırlar) müharibəyə və militarizmə nifrətlə bağlıdır. Dərin tarixi kökləri olan bu hissi təkcə fəhlə sinfi deyil, burjuaziyanın aşağı təbəqələri də duymaqdadır. Bir-birini əvəzləyən müharibələr bu hissi sarsıtsa da, məhv edə bilməyib. Qocaların yaddaşındadır ki, "qırmızı mundirli"ləri küçədə fitə basır, abırlı pivəxanaların sahibləri əsgərləri qapıdan içəri buraxmırdılar. Dinc dövrdə iki milyon işsiz olduğu halda kiçik, müntəzəm ordunu canlı qüvvəylə təmin etmək çətindir; bu orduya zabitləri kiçik mülki zadəganlıq, sıravi əsgərləri isə muzdurlar və xarabalarda daldalanan proletariat verir. Xalq kütlələrinin nə hərbi biliyi, nə də hərbi ənənəsi var. Onların savaşa münasibətləri müdafiədən o yana getmir. Heç bir siyasətçi onlara yeni "fəthlər", yaxud "hərbi şöhrət" boyun olmaqla hakimiyyət başına gələ bilməz; hər hansı nifrət himni heç vaxt onların döşünə yatmayıb. Ötən müharibə

zamanı ingilis əsgərlərinin öz təşəbbüsü ilə bəstələdiyi və oxuduqları mahnılar qisas ruhunda yox, yumoristik, zarafatyana, məğlubiyyətçilik ruhunda idi. Bu mahnılarda xatırlanan yeganə düşmən çavuş idi.

İngiltərədə “Britaniya, hökmran ol” ruhunda lovğa, saxta vətənpərvərlik və davakar şovinizm azsaylı qruplar tərəfindən üfürülüb şişirdilir. Sadə camaat öz vətənpərvərliyini sözlə bildirmir, hətta onu dərk də eləmir. Onun tarixi yaddaşında hərbi qələbələrlə bağlı heç bir ad qalmayıb. Hər bir ədəbiyyat kimi, ingilis ədəbiyyatı da müharibə mövzusunda yazılmışşerlərlə doludur, lakin maraqlıdır ki, ən məşhur şer və poemalarda həmişə məğlubiyyətdən və geriçəkilmələrdən danışılır. Məsələn, bizdə Trafalqar, yaxud Vaterloo döyüşləri haqqında geniş yayılmışşerlər yoxdur. Con Murun La-Korunyada dənizin o tayına çəkilməsi ərəfəsindəki çılğın aryerqard vuruşması (lap Dünkerkdəki kimi!) bizi parlaq qələbədən daha çox kövrəldir. Bütün ingilis ədəbiyyatında ən təsirli müharibə poeması səhvən hücuma keçib ölümcül yaylım atəşi altında qırılan süvari briqadasına həsr olunub. Ötən müharibənin bütün döyüşlərindən el yaddaşında cəmi dörd ad əməlli həkk olunub: Mons, İpr, Hallipoli, Paşendeyl və bu adların hər biri hərbi fəlakətdən xəbər verir. Gedişində əvvəl-axır alman ordularının darmadağın olduğu böyük döyüşlər isə, sadəcə olaraq, geniş kütləyə məlum deyil.

İngilislərin antimilitarizmi xarici müşahidəçiləri ona görə əsəbiləşdirir ki, bu antimilitarizm Britaniya imperiyasının mövcudluğunu heç də inkar eləmir. Əcnəbilər buna xalis riyakarlıq kimi baxırlar. Deyirlər ki, bunlar həmin ingilislərdir ki, Yer kürəsi torpaqlarının dörddə birini tutublar və tutduqlarını nəhəng hərbi dəniz donanmasının köməyi ilə əldə saxlayırlar. Və bütün bunlardan sonra necə onların üzləri gəlir deməyə ki, müharibə şərdir?!

Öz imperiyaları barədə ingilislər, sözsüz ki, ikiüzlülük eləyirlər. İngilis fəhlələrində bu ikiüzlülük Britaniya imperiyasının mövcudluğundan xəbərsizlik kimi üzə çıxır. Ancaq onların müntəzəm orduya münasibəti tam sağlam instinktdən irəli gəlir. Hərbi dəniz donanmasında bir o qədər çox adam xidmət eləmir və daxili siyasətə birbaşa təsir göstərə bilməyən donanma yalnız xarici siyasət aləti rolunu oynayır. Hərbi diktaturalara dünyanın hər yerində rast gəlinir, donanma diktaturası isə heç yerdə yoxdur. İngilis cəmiyyətinin demək olar ki, bütün təbəqələri zabit təkəbbürünə, mahmız cingildədib daban taqqıldatmaq vərdişinə ürəkdən nifrət edir. Hitlerdən hələ neçə onillik əvvəl İngiltərədə “prussiyalı” sözü təxminən bugünkü “nasist” sözünün verdiyi mənanı daşıyırdı. Bu hiss canımıza, iliyimizə işlədiyindən, artıq yüz ildən çoxdur ki, Britaniya ordusunun zabitləri dinc dövrlərdə qeyri-xidməti şəraitdə həmişə mülki paltar gəzdirirlər.

Bu və ya digər ölkənin siyasi mühitindən tez baş açmağın ən etibarlı üsulu onun ordusunun parad yerişinə baxıb diqqətlə öyrənməkdir. Axı hərbi parad həqiqətən də bənzəri olmayan mərasim rəqsi, müəyyən həyat fəlsəfəsini ifadə edən balet kimi bir şeydir. Məsələn, alman əsgərinin “qaz yerişi” dünyanın ən qorxunc tamaşalarından biridir. Bu, hətta şığıyan bombardmançı təyyarədən də vahiməlidir. O, açıq-aşkar çılpaq bir zoru nümayiş etdirir. Bu yeriş insan sifətinə təkəbbürlə enən əsgər çəkməsi haqqında təsəvvür yaradır və bu təsəvvürü bilə-bilə, qəsdən bizə təlqin edirlər. Onun eybəcərliyi mahiyyəti ilə qırılmaz bağlıdır. “Bəli, mən eybəcərəm, — o, sanki belə deyir, — lakin mənə gülməyə cəsarət eləməzsən”. Küçə xuliqanı da öz qurbanı qarşısında ağız-burnunu bu cür əyir. “Qaz yerişi” nə üçün İngiltərədə qəbul edilməyib? Allah şahiddir ki, orduda yetərincə zabit var ki, buna bənzər bir şeyin tətbiqinə xeyli şad olardı. Bu yeriş bizdə ona görə qəbul edilməyib ki, küçələrdə camaat ona gülərdi. Hərbi parad kultu o ölkələrdə mümkündür ki, orada sadə camaat ordunu ələ salmağa cəsarət eləmir. İtalyanlar özlərində “qaz yerişi”ni təxminən Almaniyanın nəzarəti altına düşdükləri vaxtlarda tətbiq etməyə başladılar və onlar, gözlənildiyi kimi, almanlardan zəif addımladılar. Vişi hökuməti əgər indən belə də duruş gətirə bilsə, fransız ordusunun qalıq-quluğunda parad yerişi sahəsində daha ciddi intizam yeridiləcək. Britaniya ordusunda əsgərləri qaba və mənasız hərbi təlimlə çox yorub incidirlər (bu təlim üsullarının çoxu 18-ci yüzillikdən qalmadır), lakin burada vahiməli nizami yerişə aludəçilik yoxdur, bizdə nizamla addımlama formalaşdırılmış yerişdən başqa bir şey deyildir. Bu, cəmiyyətin törəməsidir; o, heç şübhəsiz ki, qılıncla idarə olunur, lakin bu qılınc heç vaxt öz qınından çıxarılmamalıdır.

Bununla belə, ingilis sivilizasiyasının mülayimliyi əsl barbar adətləri və anaxronizmlərlə qarışıqdır. Bizim cinayət hüququmuz Tauerdəki muşketlər qədər köhnəlib. Nasist basqınçısının əvəzinə bizdə xalis ingilis cəllad-hakim tipi — tərsxasiyyət və bədəməl, 19-cu yüzilliyin təsəvvürlərinə sadiq, ən qəddar hökmlərə əl atan podaqralı bir qoca var. İngiltərədə adamları hələ də boğazdan asır və şallaqla döyürlər. Hər iki cəza təhqir və qəddarlıqdır, lakin geniş ictimaiyyət heç vaxt ciddi şəkildə bunlara etiraz etməyib. İngilislər bunlara (eləcə də Dartmut və Borstal dustaqxanalarının mövcudluğuna) pis havaya öyrəşən kimi öyrəşiblər. Onlar üçün bu, “qanun”un tərkib hissəsidir, qanun isə onların təsəvvürüncə sarsılmazdır.

Burada biz ingilis xarakterinin olduqca mühüm cəhəti ilə — konstitusion üsul-idarəyə və qanunçuluğa hörmət, dövlətdən də, şəxsiyyətdən də yüksəkdə duran, bütün axmaqlıq və qəddarlığına baxmayaraq, heç şübhəsiz, *satınalınmaz* olan bir şeyə — “qanun” adlı məfhuma bəslənilən inamla üzləşirik.

Heç kəsi inandırmaq olmaz ki, qanun həmişə ədalətlidir. Hamı bilir ki, qanun varlılar üçün bir cür, yoxsullar üçün başqa cürdür. Lakin buradan doğan nəticələr heç kəsi düşündürmür; hamı belə hesab edir ki, qanunun necəliyindən asılı olmayaraq ona əməl edilməlidir və qanun pozulanda hamı ədalətin tapdalandığına görə öz qəzəbini bildirir. "Məni dama basa bilməzlər, çünki mən qanunu pozmamışam", yaxud "onlar bunu edə bilməzlər, bu, qanuna ziddir" kimi ifadələr İngiltərə mühitinin mühüm tərkib hissəsidir. Cəmiyyətin açıq-aşkar düşmənlərində də bu hiss digər ingilislərdə olduğundan az inkişaf eləməyib. Bunu həbsxanalarda yazılmış kitablardan: Uilfred Makkartninin "Divarların da qulağı olur", yaxud Cim Felanın "Həbsxana səyahəti" kimi əsərlərindən də, dini mülahizələr səbəbindən orduda qulluq etməkdən boyun qaçırmış adamlar üzərindəki məhkəmə proseslərinin təntənəli idiotizmindən də, görkəmli marksist professorların Britaniya ədalət mühakiməsinin icraatında yol verilmiş nöqsanlar barədə qəzetlərə yazdıqları yekəxana məktublardan da bilmək olar. Hər kəs qəlbinin dərinliyində inanır ki, ədalət məhkəməsi qərəzsiz mühakimə edə bilər və etməyə borcludur və ümumən götürəndə, bu, belə də olur. Totalitar ideya — "heç bir hüquq yoxdur, yalnız zor var" ideyası ingilis torpağında kök sala bilməyib. Hətta ziyalılar da onu yalnız nəzəriyyə şəklində qəbul ediblər.

İllüziya yarımhəqiqət ola bilər, maska sifətin ifadəsini dəyişdirə bilər. Demokratiya "elə totalitarizmdir", yaxud "heç nəylə ondan yaxşı deyildir" kimi tanış dəlillərdə məhz bu fakt nəzərə alınmır. Bu cür dəlillərin hamısı ona əsaslanır ki, *yarım — heç nədir.*İngiltərədə "ədalət", "azadlıq", "obyektiv həqiqət" kimi anlayışlara hələ də inanırlar. Bəlkə də bu, illüziyadır, lakin güclü bir illüziyadır. Bunlara inam insanların davranışına təsir göstərir, milli xarakteri formalaşdırır. Əgər mənə inanmırsınızsa, zəhmət çəkib yan-yörənizə boylanın. Hanı rezin dəyənəklər, hanı gənəgərçək yağı? Qılınc əvvəlki kimi öz qınındadır və o, nə qədər ki, orada qalır, korrupsiya da müəyyən hüdudlarda qalacaq. Məsələn, ingilis seçki sistemi açıq-aşkar fırıldağa oxşayır. Bir çox natəmiz üsulların köməyilə seçki dairələri varlıların mənafeyinə uyğun təşkil olunur. Bununla belə, ictimai şüurda əsaslı çat baş verməyənəcən bu sistem *tam* korrupsiyalaşa bilməz. Məsələn, ola bilməz ki, siz seçki dairəsinə gəldikdə seçki qutularının yanında sizə hansısa namizədə səs verməyi əmr edən əlitapançalı adamları görəsiniz; səslərin hesablanması zamanı da heç bir fırıldağa, adamları satın almaq cəhdlərinə rast gəlməzsiniz. Hətta riyakarlıq da möhkəm zəmanət rolunu oynayır. Cəllad-hakimi — at qılından parik qoymuş, al-qırmızı mantiyalı bu hikkəli qocanı dinamitdən savayı heç şey məcbur edə bilməz ki, hansı yüzillikdə yaşadığını yada salsın, lakin o da qanunun hər nöqtəsindən bərk-bərk tutub duracaq, heç bir halda rüşvət almayacaq. Bu, qoca İngiltərənin simvolik fiqurlarından biridir. O, gerçəklik və illüziyanın, demokratiya və imtiyazların, riya və düzlüyün əcaib qarışığının köməyi ilə millətin öz ənənəvi simasını qoruyub saxlayan kompromislərdən hörülmüş həmin o nazik toru təcəssüm etdirir.

---

1. Pivəxana — *red.*

## 48. AVROPANI XİLAS ETMİS ADAM

## Uinston Çörçill

Etiraf etməliyik ki, hələ də ictimai şüurumuzda demokratik liderlərin surətləri məşhur fateh və diktatorların obrazları qədər parıltılı və yaddaqalan izlər buraxmayıb. Məgər Perikl, Kromvel, Linkoln, Xruşşov kimi xilaskarların sönük obrazlarını Makedoniyalıİsgəndər, Napoleon, Hitler, Stalin kimi paranoiklərin cəzbedici, "epik" portretləri ilə müqayisə etmək olarmı?

Bu "böyük, lakin bədəməl" insanların hər addımı, hər sözü, hər hərəkəti tarixçilər tərəfindən məftunluqla dönə-dönə təsvir olunub və indinin özündə də meşşanların ruhunu oxşamaqda davam edir. Lakin burada istisnalar da var — bu, Britaniyanın keçmiş baş naziri Uinston Çörçillin zaman ötdükcə əsatirləşən obrazıdır. Bu şəxsiyyət bizdə o qədər populyardır ki, bəzən qəzetlərimizdə hər hansı bir ingilis sitatını onun adına yazırlar.

Uinston Leonard Spenser Çörçill (1874–1965) — Britaniyaya bir sıra görkəmli siyasətçi və sərkərdələr bəxş etmiş Malboro hersoqlarının köhnə kübar nəslindəndir. Çörçill uşaq vaxtı tez-tez xəstələnir, pis oxuyurdu, buna görə atası onun üçün hərbi karyera seçir. Uinston yalnız üçüncü cəhddə kral hərbi kollecinə daxil olur, lakin təhsili əla qiymətlərlə, birincilər sırasında başa vura bilir. Hərbi qulluğa daxil olan Çörçill eyni zamanda, məqalə

və esseləri oxucular tərəfindən sevilə-sevilə oxunan jurnalist kimi fəaliyyət göstərir. 1899-cu ildə Çörçill siyasətçi olmaq və çörəkpulunu qələmlə qazanmaq üçün hərbi karyeradan imtina edir.

1900-cü ildə o, Konservatorlar Partiyasının namizədi kimi ikinci cəhddə parlamentə seçilir. Dörd il sonra isə partiya rəhbərliyi ilə ixtilaf səbəbindən Liberallar Partiyasına keçir və hökumət tərkibində bir sıra mühüm vəzifələrdə çalışır. 1911-ci ildə o, dəniz donanması naziri təyin olunur və hərbi donanmanı uğurla modernləşdirir. Lakin Birinci dünya müharibəsi onun üçün böyük uğursuzluqla başlanır: Hallipolidə britaniyalıların türk ordusu ilə döyüşdəki (1915) ağır məğlubiyyəti Çörçilli istefa verməyə məcbur edir. İstefadan sonra Çörçill tezliklə cəbhəyə adi zabit kimi qayıdır, lakin az sonra yenidən siyasi mübarizəyə qoşulur. Kommunizmin və bolşevik Rusiyasının barışmaz düşməni kimi ad çıxaran Çörçill hərbi təchizat naziri qismində bu ölkəyə qarşı müdaxiləyə rəhbərlik edir.

Parlamentə növbəti seçkini uduzan Çörçill ötən müharibədən bəhs edən və sonralar ona şöhrət və böyük gəlir gətirmiş hərbi-tarixi əsərlər üzərində işləməyə başlayır. 1924-cü ildə Çörçill Konservatorlar Partiyasına qayıdaraq orada mühüm vəzifələrdə çalışır. 1931-ci ildə partiya rəhbərliyi ilə növbəti fikir ayrılığından sonra Çörçill istefa verir və yenə öz tarixi tədqiqatlarına qayıdır.

1933-cü ildə hakimiyyətə gəlmiş Hitlerin doğurduğu böyük təhlükə Çörçilli siyasi fəaliyyətə qayıtmağa sövq edir. Bütün ölkənin diqqətini bu ölümcül təhlükəyə yönəltmək üçün Çörçill yorulmadan səy göstərir, böyük təbliğat işi aparır. Lakin ilk dövrlərdə onun səyləri bir səmərə vermir: britaniyalılar Hitlerin Şərqi Avropadakı zəfər yürüşünü dayandırmaq naminə vuruşmaq istəmirlər. Britaniya aristokratiyasının bir qismi, elə əlahəzrət kralın özü də Hitlerə açıq-aşkar rəğbət bəsləyirdi. Çörçillə BBC dövlət radiostansiyası ilə öz həyəcanlı nitqləriylə çıxış etmək qadağan olunur. Lakin Hitlerin iştahası artdıqca ictimai rəy Çörçillin xeyrinə dəyişməyə başlayır. 1939-cu ildə faşistlərin Polşaya hücumundan sonra Britaniya və Fransa Hitler Almaniyasına müharibə elan edirlər. Tarixə İkinci dünya müharibəsi adı ilə daxil olmuş bu böyük müharibə beləcə başlanır. Çörçillin şöhrəti günbəgün artır. O, Konservatorlar Partiyasına qayıdır və 1940-cı ildə ölkənin baş naziri olur.

Qısa müddət ərzində Çörçill ölkəni bir amal ətrafında birləşdirməyə və ordunun modernləşdirilməsində öldürülmüş vaxtı doldurmağa nail olur. Çörçillin başqa böyük bir uğuru SSRİ və ABŞ-ın da daxil olduğu güclü antihitler koalisiyasının yaradılmasıdır.

Faşizm üzərində Çörçillin xüsusilə böyük payı olduğu həlledici qələbədən cəmi bir neçə gün sonra onun partiyası demokratiyanın istehzası ilə seçkiləri leyboristlərə uduzur. Çörçill baş nazir vəzifəsini tərk edərək müxalifətə başçılıq etməyə başlayır. İndi onu yalnız bir qayğı — dünya demokratiyasını hədələyən yeni dəhşətli təhlükə: sovet süngüsüylə yaradılmış və getdikcə genişlənən dünya kommunist sisteminin məşum varlığı narahat və məşğul edir. Çörçill bu təhlükəyə qarşı Britaniya–Amerika hərbi ittifaqının yaradılmasını və Qərbi Avropa demokratik ölkələrinin Avropa İttifaqında birləşməsini təklif edir. O, Amerikanın Fulton Universitetində söylədiyi “Dünyanın əzələləri” adlı məşhur nitqində (bu nitq bizdə “Dəmir pərdə” adıyla tanınır) prezident Trumeni, ABŞ və Britaniya ictimaiyyətini keçmişin səhvlərini təkrarlamamağa və kommunist təhlükəsini dəf etmək üçün yubanmadan hazırlıq görməyə çağırır.

Öz ədəbi fəaliyyətinə görə Çörçill 1953-cü ildə Nobel mükafatə layiq görülmüsdür. Onun dünyada yeni düzən layihəsi bu gün tamamilə həyata keçmisdir.

UİNSTON ÇÖRÇİLL

# Sülhün əzələləri (1946)

*...Hər hansı bir ölkənin xalqı tamamilə azad seçkilər və gizli səsvermə vasitəsilə öz ölkəsində hökumət tərkibini seçmək hüququna malikdir... Amerika və Britaniya xalqları bəşəriyyətə və insanlığa, bax, bunları bəxş edə bilər.*

Cənab Rektor Maklür, ledi və centlmenlər və nəhayət,
Amerika BirləşmişŞtatlarının Prezidenti!

Mən çox şadam ki, bu gün Vestminster kollecində çıxış edirəm və xeyli məmnunam ki, təmiz adı hamıya yaxşı bəlli olan bu təhsil ocağı mənə fəxri elmi dərəcə vermək qərarına gəlmişdir...

Əvvəla, izn verin bildirim ki, mənim heç bir rəsmi missiyam, yaxud hər hansı xüsusi statusum yoxdur və mən indi yalnız öz adımdan çıxış edirəm.

Buna görə mən öz həyat təcrübəmə istinad etməklə tam hərbi qələbəmizdən dərhal sonra qarşılaşdığımız problemlərə toxunmağı, bu cür qurbanlar və məhrumiyyətlər bahasına əldə edilənlərin bəşəriyyətin gələcək şərəfi və təhlükəsizliyi naminə qorunub saxlanılacağına əmin olmaq üçün səy göstərməyi özümə borc bilirəm.

Ledi və centlmenlər, hazırda BirləşmişŞtatlar öz cahanşümul qüdrətinin ən yüksək zirvəsindədir. Amerika demokratiyası üçün bu, çox mühüm bir məqamdır. Belə ki, güc üstünlüyü müəyyən öhdəliklər yaradır və gələcəkdə məhz bu öhdəliklər üzrə hesabat vermək lazım gələcək. Ətrafınıza nəzər salsanız təkcə öz vəzifənizi yerinə yetirdiyinizə görə məmnunluq hissi deyil, həm də təşviş hissi keçirmiş olarsınız — necə edək ki, əldə olunmuş səviyyədən aşağı enməyək, ad-sanımıza layiq olmaqda davam edək? Tamamilə aydındır ki, hər iki ölkəmiz üçün əlverişli məqam yetişmişdir. Əgər biz özümüzü elə göstərsək ki, guya bu belə deyil və yaranmış imkanları saya salmasaq, bu ona gətirib çıxarar ki, əldən verilənlərə görə bizi gələcəkdə qınağa çəkərlər. Prinsiplərə sədaqət, ünvanlı məqsəd və qərarların müdrik sadəliyi ingilisdilli xalqların həyatını və siyasətini müharibə illərində olduğu kimi, dinc dövrlərdə də müəyyən etməlidir. Biz buna qadir olduğumuzu sübut etməliyik və mən bilirəm ki, biz bunu sübut edə biləcəyik.

Cənab Rektor Maklür, Amerika hərbçiləri hansısa bir ciddi durumla üzləşdikdə bununla bağlı hazırladıqları sənədin başlığında adətən "ümumi strateji konsepsiya" kimi ifadələr işlədirlər. Bu, düzgün üsuldur, belə ki, bu cür ifadə fikrin və şərhin dürüstlüyünü ehtiva edir. Bəs bizim bu gün qurmalı olduğumuz bu konsepsiya necə olacaqdır? Bu konsepsiya, ilk növbədə, bütün ölkələrdə bütün ocaqların və ailələrin, bütün kişi və qadınların ümumi təhlükəsizliyi və firavanlığını, azadlığı və tərəqqisini nəzərdə tutacaqdır...

Bu saysız-hesabsız ailə ocaqlarının təhlükəsizliyini təmin etmək üçün, hər şeydən əvvəl, onları bu iki ən qorxunc talançıdan — müharibədən və tiraniyadan xilas etmək lazımdır...

***

Bizim amerikalı hərbçi həmkarlarımız "ümumi strateji konsepsiya"nı bəyan etdikdən və sərəncamda olan bütün ehtiyatları hesabladıqdan sonra növbəti mərhələyə — metoda keçirlər. Burada da hərtərəfli razılaşma əldə edilmişdir. Əsas məqsədə — müharibənin qarşısını almaq məqsədinə çatmaq üçün artıq beynəlxalq təşkilat yaradılmışdır. Millətlər Liqasının varisi olan və BirləşmişŞtatların qoşulması ilə həlledici, müstəsna əhəmiyyət daşıyan Birləşmiş Millətlər Təşkilatı artıq öz işinə başlamışdır. Onun fəaliyyətinin səmərəli olması üçün, bu fəaliyyətin gözdən pərdə asmaq deyil, gerçək olması üçün əlimizdən gələni əsirgəməməliyik...

Bununla belə, hazırda mənim praktik yöndə bir sıra konkret təkliflərim var ki, biz fəaliyyətə bunları həyata keçirməklə başlaya bilərik. Əlbəttə, indi məhkəmə sistemi də fikirləşib qurmaq olardı, hakimləri də təyin etmək olardı, lakin şerif və konstebellərin yoxluğu səbəbindən onlar, onsuz da, fəaliyyət göstərə bilməyəcəkdilər. BMT təcili olaraq öz hərbi qüvvələrini yaratmağa başlamışdır. Bu işdə biz tədricən də irəliləyə bilərik, lakin işə yubanmadan indi başlamaq lazımdır. Hər bir dövlətə təklif edilməlidir ki, beynəlxalq təşkilatın sərəncamına müəyyən miqdarda aviasiya eskadrilyaları "ayırsın". Bu eskadrilyalar təlim və hazırlığı öz ölkələrində keçməli, lakin ehtiyac olduqda bir ölkədən o birinə göndərilməlidir. Onlar öz ölkələrinin hərbi formasını daşıya bilərlər, lakin onların fərqlənmə nişanları başqa cür olmalıdır. Onlar öz ölkələrinə qarşı fəaliyyət göstərməyə bilərlər, lakin bütün digər hallarda beynəlmiləl komandanlığın əmrlərinə tabe olmağa borcludurlar. Bu birgə hərbi qüvvələr ilk vaxtlar az sayda da ola bilər, lakin qarşılıqlı inam artdıqca onların sayı da artırıla bilər. Vaxtı ilə, Birinci dünya müharibəsindən sonra məndə təxminən belə bir şeyi təcrübədə yoxlamaq istəyi olmuşdur, indi inanıram ki, bu, mümkündür və mütləq həyata keçiriləcəkdir...

***

İndi isə mən bəşər ocağını və sadə insanları hədələyən ikinci bir təhlükə, yəni tiraniya barədə söz açmaq istəyirəm. Bizim — Britaniya imperiyasının bütün vətəndaşlarının istifadə etdikləri azadlıqların bir çox ölkələrdə (özü də bunların bəziləri xeyli qüdrətə malikdir) olmaması faktına heç cür göz yuma bilmərik. Bu ölkələrdə sadə insanlar üzərində nəzarət çeşidli polis hökumətləri vasitəsilə hərtərəfli şəkildə həyata keçirilir; bu nəzarət dərəcəsi cəmiyyəti boğur və demokratiyanın bütün prinsiplərinə ziddir. Həmin ölkələrdə dövlət hakimiyyətini qeyri-

məhdud surətdə ya diktator, ya da hakim partiyanın və siyasi polisin vasitəsilə fəaliyyət göstərən bir ovuc oliqarx həyata keçirir. Qarşıda duran çətinliklərin bu qədər çox olduğu bir zamanda bizim vəzifəmiz müharibə zamanı fəth etmədiyimiz ölkələrin daxili işlərinə zorakı müdaxilə etmək deyil. Lakin bununla belə, biz anqlosakson dünyasının ümumi mirası olan və *Magna Carta,* Hüquqlar Haqqında Bill, *Habeas Corpus,* andlılar qarşısında məhkəmə araşdırması və Ümumi İngilis Hüququ vasitəsilə [ABŞ-ın] İstiqlaliyyət Bəyannaməsində öz məşhur ifadəsini tapmış böyük azadlıq prinsiplərini və insan hüquqlarını cəsarətlə bəyan etməkdən heç vaxt imtina etməməliyik.

Bu o deməkdir ki, hər hansı bir ölkənin xalqı tamamilə azad seçkilər və gizli səsvermə vasitəsilə öz ölkəsində hökumət tərkibini və idarəetmə formasını seçmək, yaxud dəyişdirmək, konstitusional formada təsbit edilmiş hüquqa malikdir; bu o deməkdir ki, söz azadlığı və fikir azadlığı həyata keçirilməlidir; bu o deməkdir ki, icraedici hakimiyyətdən asılı olmayan, heç bir partiyaya hesabat verməyən hakimlər ədalət mühakiməsini böyük əksəriyyət tərəfindən qəbul olunmuş və bəyənilmiş, yaxud zamanın və ənənələrin əziz tutduğu qanunlar əsasında həyata keçirməlidir. Amerika və Britaniya xalqları bəşəriyyətə və insanlığa, bax, bunları bəxş edə bilər. Gəlin necə davranırıqsa, onu elə də təbliğ edək və təbliğ etdiyimiz kimi də davranaq...

***

İndi mən hələ də ümumi strateji konsepsiyamızın həyata keçirilməsi metoduna əməl edərək buraya deməyə gəldiyim məsələnin tədricən zirvə nöqtəsinə yaxınlaşıram. Mənim "İngilisdilli xalqların qardaşlıq assosiasiyası" adlandırdığım birlik olmadan nə müharibənin qarşısını etibarlışəkildə almaq, nə də beynəlxalq təşkilatın genişləndirilməsi mümkündür.

Bu, bir tərəfdən, Britaniya Millətlər Birliyi və imperiyası, digər tərəfdən BirləşmişŞtatlar arasında xüsusi münasibətlər deməkdir. İndi ümumi sözlərlə danışmaq vaxtı deyil. Mən dəqiq danışmaq cəsarətindəyəm. Britaniya assosiasiyası təkcə bizim iki cəmiyyətin geniş və qohum sistemləri arasında artan dostluğun və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsini deyil, həm də bizim hərbi müşavirlər arasında yaxın münasibətlərin qorunub saxlanılmasını, mümkün təhlükələrin birgə öyrənilməsini, silah və tədris vəsaitlərinin eyni olmasını, habelə zabit və (hərbi) kollec kursantlarının mübadiləsini tələb edir. Bu, qarşılıqlı təhlükəsizlik naminə yaradılmış indiki şəraitin, dünyanın müxtəlif yerlərində bu iki ölkəyə məxsus olan bütün hərbi dəniz və aviasiya bazalarından birgə istifadə etmək yolu ilə qorunub saxlanılmasıyla müşayiət olunmalıdır. Ola bilsin ki, bu, Amerika donanması və aviasiyasının çevikliyini ikiqat artırardı, Britaniya imperiya qüvvələrinin çevikliyini yüksəldərdi və işdir, dünya sakitləşməyə başlasaydı, o sakitləşdikcə bu, böyük maliyyə qənaətinə gətirib çıxarardı. Biz artıq neçə-neçə adadan birgə istifadə edirik. Ola bilsin ki, tezliklə bizim istifadəmizə bundan da çox ada veriləcəkdir.

***

Mən bayaq, ledi və centlmenlər, ötəri də olsa, sülh evi məsələsinə toxundum. Bu məbəd bütün dünya ölkələri nümayəndələrinin birgə səyi ilə ucaldılmalıdır. Əgər onun qurucularından ikisi bir-birini yaxşı tanıyırsa, yaxud köhnə dostlardırsa, ailəlikcə dostluq edirlərsə, onların ümumi məqsədləri və ümumi gələcəkləri vardırsa, onlar bir-birlərinin nöqsanlarını bağışlamağı bacarırlarsa, bu halda nə üçün də onlar dostlar və həmkarlar kimi bir vahid vəzifə üzərində çiyin-çiyinə çalışmasınlar? Nə üçün də onlar öz əmək alətlərini mübadilə etməklə əmək məhsuldarlığını artırmağa çalışmasınlar? Həqiqətən də, onlar məhz bu cür hərəkət etməlidirlər, əks halda bu məbədin heç vaxt ucaldılmaması, ucaldılsa da az sonra uçub dağılması qorxusu var; bununla da sübut etmiş olardıq ki, bizə heç nə dərs olmayıb, biz heç nə öyrənə bilməmişik; o zaman biz daha bir təlim kursu — müharibə dərsini yenidən keçmək təhlükəsi qarşısında qalmış olarıq, bu müharibə isə ötən il başa çatmış müharibədən qat-qat dəhşətli ola bilər. Elmin parlaq qanadlarında orta əsrlər, hətta daş dövrü uçub gələr və insanlığın üzərinə var-dövlət yağdıra biləcək tərəqqi onun kökünü yer üzündən siləcək alətə çevrilə bilər. Buna görə deyirəm: özünüzü gözləyin, ola bilsin ki, vaxtımız lap az qalıb. Əgər mən dediyim formada qardaşlıq ittifaqı yaratmaq mümkün olsaydı, ölkələrimiz bundan çox böyük fayda götürə bilərdi, qüvvələr birliyi qüdrətimizi artırar, təhlükəsizliyimizi möhkəmlədərdi; belə birlik əldə edilsə, əlbəttə ki, bu barədə, onun bütün dünyada sülhün möhkəmləndirilməsi və sabitləşdirilməsi işində oynayacağı mühüm rol barədə dünya ictimaiyyətinə dərhal xəbər verilməlidir. Bu, ağıllı və düzgün yoldur. Profilaktika həmişə müalicədən yaxşıdır.

***

Hələ bu yaxınlaracan müttəfiqlərin qələbəsiylə işıqlandırılmış torpaqlara kölgə düşürdü. Hazırda heç kəs bilmir ki, Sovet Rusiyası və onun beynəlxalq kommunist təşkilatı yaxın gələcəkdə nə etmək niyyətindədir, yaxud onların ekspansionist meyllərinin və prozelitizmə(1) canatmalarının sərhədləri (əgər bu sərhədlər həqiqətən

mövcuddursa) haraya qədərdir. Mən qəhrəman rus xalqına və müharibə dövrü yoldaşım marşal Stalinə dərindən heyranam və ehtiram bəsləyirəm, İngiltərə və heç şübhəsiz elə bu ölkə də Rusiyanın bütün xalqlarına şəfqət və xeyirxahlıqla yanaşır və onlar da bir çox fikir ayrılıqlarına və uğursuzluqlara baxmayaraq, möhkəm dostluq əlaqələri yaratmaq əzmindədirlər...

Lakin mənim vəzifəm Avropanın indiki vəziyyətiylə bağlı bəzi faktları sizə təqdim etməkdir.

BaltikadakıŞtettindən başlayaraq Adriatikdəki Triyestə qədər uzanan kontinentin böyük bir hissəsinin üzərinə dəmir örtük enmişdir. Mərkəzi və Şərqi Avropanın qədim dövlətlərinin bütün xəzinələri bu örtüyün arxasında qalmışdır. Varşava, Berlin, Praqa, Vyana, Budapeşt, Belqrad, Buxarest, Sofiya — bütün bu məşhur şəhərlər və bu ərazilərin əhalisi sovet dairəsindədir və hamısı bu və ya digər formada təkcə sovet təsirinə deyil, həm də xeyli dərəcədə artmaqda olan Moskvanın nəzarətinə tabedir. Yalnız azadlıq beşiyi kimi şöhrətlənmiş Afina öz müqəddəratını ingilislərin, amerikalıların və fransızların müşahidəsi altında seçkilərdə həll edəcəkdir. Rusların ağalığı altında olan Polşa hökuməti özünün Almaniyaya qarşı böyük və ədalətsiz iddialarında şirnikləndirilir. Milyonlarla almanın, təəssüf ki, bizim təsəvvürə belə gətirə bilmədiyimiz miqyaslarda kütləvi surətdə qovulması faktları mövcuddur. Bütün bu Avropa dövlətlərində bir vaxtlar elə bir əhəmiyyəti olmayan kommunist partiyaları onların sayını xeyli üstələyən müstəsna qüvvəyə dönmüşlər və hər yerdə total nəzarəti bərqərar etməyə çalışırlar. Bütün bu ölkələrdə polis hökumətləri üstünlük təşkil edir və Çexoslovakiya istisna olunmaqla, bu ölkələrin heç birində əsl demokratiya əlaməti yoxdur. Türkiyə və İran Moskva hökumətinin onlara qarşı sürdüyü iddialara və göstərdiyi təzyiqə görə bərk təşviş və narahatlıq duymaqdadırlar.

Bu faktlardan (bunlar isə həqiqətən faktlardır) hansı nəticələrin çıxarılmasından asılı olmayaraq bir şey aydındır ki, artıq bu, yaranışı uğrunda mübarizə apardığımız həmin o azad edilmiş Avropa deyildir. Bu, möhkəm sülh əsaslarına malik Avropa da deyildir. Bütün dünyanın təhlükəsizliyi Avropanın vəhdətini tələb edir və heç bir ölkəni bu vəhdətdən həmişəlik kənar etmək lazım deyil.

***

Məhz bir-birinə qohum olan millətlər arasındakı fikir ayrılıqlarından Avropada sizinlə birgə şahidi olduğumuz iki dəhşətli müharibə və əvvəllər baş vermiş bir çox digər müharibələr doğmuşdur. Həyatımız ərzində biz artıq iki dəfə BirləşmişŞtatların öz istəyi və öz adətləri, gücü və məntiqi şübhə doğurmayan ağlın dəlilləri ziddinə olaraq necə müharibəyə qoşulduğunu müşahidə etmişik, biz artıq iki dəfə hədd-hüdud bilməyən qüvvələrin BirləşmişŞtatları xeyrin şər üzərində qələbəsinə kömək etmək üçün bu müharibələrə vaxtında, lakin artıq dəhşətli qırğınlar və dağıntılar baş verdikdən sonra cəlb etdiyinin şahidi olmuşuq. BirləşmişŞtatlar iki dəfə milyonlarca oğullarını Atlantika üzərindən müharibəyə göndərmək məcburiyyətində qalmışdır, lakin indi müharibənin özü də hara istəsə gedə bilər. Əlbəttə, biz Avropada möhkəm sülh sisteminin yaradılması üzərində, BMT qurumundan istifadə etməklə bizim nizamnaməyə uyğun fəaliyyət göstərməklə məqsədyönlü şəkildə işləməliyik. Mənim gördüklərim və duyduqlarım çox mühüm siyasi kursa yol açır.

Avropanı ikiyə bölən “dəmir örtük” önündə narahatlıq üçün başqa səbəblər də var. İtaliyada kommunist partiyası ciddi çətinliklərlə qarşılaşır, belə ki, bu partiya İtaliyanın Adriatikdəki əvvəlki ərazisinə münasibətdə kommunistlərdən təlim almış marşal Titonun tələblərini dəstəkləməyə məcburdur. Bununla belə, İtaliyanın gələcək taleyi hələ də müəyyən edilməmişdir. Eləcə də dirçəlmiş Avropanı güclü Fransasız təsəvvür eləmək qeyri-mümkündür. İctimai fəaliyyətimin bütün müddəti ərzində mən güclü Fransanın yaranışı üçün çalışmışam və heç vaxt, hətta ən pis zamanlarda da onun gözəl gələcəyinə inamımı itirməmişəm. Və indi də bu inamı itirmirəm.

Lakin Rusiya sərhədlərindən xeyli uzaqlarda yerləşən və bütün dünyaya səpələnmiş ölkələrdə kommunistlərin “beşinci kolon”ları yaradılmışdır və bunlar tam vəhdətdə və kommunist mərkəzlərinin sərəncamlarına tam itaət göstərməklə çıxış edirlər. Kommunizmin rüşeym halında olduğu Britaniya Millətlər Birliyi və ABŞ istisna edilməklə, kommunist partiyaları və “beşinci kolon”lar xristian sivilizasiyası üçün getdikcə artmaqda olan hədə və təhlükə doğururlar. Bunlar o cür parlaq əməkdaşlığımız sayəsində azadlıq və demokratiya naminə əldə edilmiş qələbənin artıq ertəsi günü haqqında danışmağa məcbur olduğumuz kədərli faktlardır və hələ nə qədər vaxt var, bu faktların “üzünə” dik baxmamaq biz tərəfdən böyük ağılsızlıq olardı.

Uzaq Şərqdəki, xüsusilə Mancuriyadakı perspektivlər də narahatlıq doğurur. Yaltada bağlanmış və mənim də imzaladığım saziş Sovet Rusiyası üçün müstəsna dərəcədə əlverişli idi, lakin bu sazişin bağlandığı dövrdə hələ heç kəs deyə bilməzdi ki, Almaniya ilə müharibə 1945-ci ilin yayına, yaxud payızına qədər uzanmayacaq və hamı elə bilirdi ki, Yaponiya ilə müharibə Almaniya ilə müharibə bitdikdən sonra hələ 18 ay da davam edəcəkdir.

Bununla belə, mən Qərbdə, eləcə də Şərqdə dünyanı bürümüş kölgəni təsvir edərkən özümdə səbr etmək istəyi duydum.

Versal Müqaviləsi (1919) bağlanarkən mən nazir və Lloyd Corcun yaxın dostu idim. Şəxsən mən o zamanlar həyata keçirilən bir çox şeylərlə razılaşmırdım, bununla belə, yaranmış vəziyyət mənə güclü təsir bağışlamışdı və həmin vəziyyəti hazırda yaranmış durumla müqayisə etmək mənim üçün çox ağırdır. O zaman böyük ümidlər və sonsuz bir inam vardı ki, daha müharibələr qurtarıb və Millətlər Liqası böyük qüdrət sahibi olacaqdır. Lakin bu dəfə məndə belə bir inam və ümid hissi yoxdur.

Digər tərəfdən, mən yeni müharibənin qaçılmazlığı fikrini, bundan da betərini — yeni müharibənin artıq qapının ağzını kəsdirməsi fikrini özümdən uzaqlaşdırmağa çalışıram. İndi də bu barədə ona görə danışıram ki, xoşbəxtliyimizin öz əlimizdə olduğuna inanıram, inanıram ki, biz gələcəyi xilas etmək zorundayıq. İndi imkan yarandığı üçün sözümü deməyi özümə borc bilirəm. Mən inanmıram ki, Sovet Rusiyası müharibə istəyir. O, başqa şey — müharibə bəhrələrini, öz gücü və öz doktrinasının hüdudsuz yayılmasını istəyir. Lakin bizim bu gün burada nəzərdən keçirməli olduğumuz məsələ — müharibə təhlükəsi qarşısının alınması sistemi, bütün ölkələrdə azadlıq və demokratiyanın inkişafı üçün şəraitin mümkün qədər tez təmin edilməsidir. Biz öz problemlərimizə göz yummaqla onlar yox olmaz. Biz beləcə oturub nə baş verəcəyini gözləməklə də bunlar yox olmaz; “yola vermək” siyasəti də bunları yox olmağa məcbur edə bilməz. Biz yubanmadan müharibədən sonrakı dünyanın sahmana salınmasıyla məşğul olmalıyıq və bu məsələ uzandıqca onu sahmana salmaq bir o qədər mürəkkəbləşəcək, çətinliklərimiz daha da artacaq.

***

Müharibə zamanı rus dostlarımızda və müttəfiqlərimizdə müşahidə etdiklərimə əsasən əminliklə deyə bilərəm ki, rusların ən çox heyran olduqlarışey hərbi güc, ən hörmətsiz yanaşdıqları isə hərbi zəiflikdir. Buna görə bizim qüvvələrin tarazlığı haqqındakı köhnə doktrinamız əsassız sayılmalıdır. Biz cüzi güc üstünlüyünə arxalanmağı özümüzə rəva görə bilmərik, çünki bu halda onları öz güclərini sınamağa şirnikləndirmiş olarıq. Əgər Qərb demokratiyaları BMT Nizamnaməsi prinsiplərinə ciddi əməl etməklə birləşsə, onların bu prinsiplərin həyata keçirilməsinə yönəldilmiş təsiri çox böyük olar və heç kəs onların yolu qarşısında dura bilməz. Lakin nəsə onları parçalasa, yaxud onlar öz borclarını yerinə yetirmək işində tərəddüd etməyə başlasa, həqiqətən də, hamımızı fəlakət hədələyə bilər.

Ötən dəfə mən belə bir şeyin necə yaxınlaşdığını, üstümüzə yeridiyini gördüm və var səsimlə həmvətənlərimi və bütün dünyanı bundan xəbərdar elədim, lakin heç kəs mənə məhəl qoymadı.

1933-cü ilə qədər, hətta 1935-ci ilə qədər Almaniyanı ona üz vermiş dəhşətli taledən hələ xilas etmək olardı, bu halda biz özümüz də Hitlerin bəşəriyyəti məhkum etdiyi fəlakətlərdən qurtula bilərdik. İndiyəcən dünya tarixində elə bir müharibə olmayıb ki, indiki müharibə qədər qarşısını almaq asan olsun — Yer kürəsinin böyük-böyük ərazilərini viran qoymuş bu müharibənin qabağını vaxtında görülmüş tədbirlərlə almaq olardı. Onun qarşısını bircə güllə atmadan da almaq olardı və belə olsaydı, hazırda Almaniya güclü, firavan və hörmətli məmləkət olardı. Lakin o vaxt heç kəs mənə qulaq asmaq istəmədi və tədricən biz hamımız bu qorxunc burulğanda sorulduq. Əlbəttə ki, bunun yenidən təkrar olmasına yol verə bilmərik. İndiki zamanda, yəni 1946-cı ildə sülhü Birləşmiş Millətlərin ümumi rəhbərliyi altında Rusiya ilə bütün məsələlər üzrə tam anlaşma əldə etməklə və bu anlaşmanı ingilis dilində danışan ölkələrin bütün gücü və əlaqələriylə dəstəklənən beynəlxalq alətin köməyilə bir çox illər ərzində dəstəkləməklə təmin etmək olar. “Sülhün əzələləri” adlandırdığım bu məruzə vasitəsilə sizə ehtiram hissiylə təqdim etdiyim problemin həlli məhz bu cürdür.

***

Böyük Britaniyanın və Birliyin qüdrətini lazımi qədər qiymətləndirməyə heç kəsə imkan verməyin... Əgər Millətlər Birliyinin ingilis dilində danışan əhalisinə ABŞ-ı əlavə etsək və bu cür əməkdaşlığın dənizdə, havada, elm və sənaye sahəsində nə demək olduğunu nəzərə alsaq, qüvvələr nisbətində heç bir səbatsızlıq və təhlükə də olmaz. Əksinə, bu yolla hərtərəfli təhlükəsizliyə təminat verilə bilər. Əgər biz öz fəaliyyətimizdə yalnız və yalnız BMT Nizamnaməsini rəhbər tutsaq və heç kəsin ərazisinə, yaxud sərvətinə tamah salmadan və azad düşüncəni nə iləsə məhdudlaşdırmağa çalışmadan irəliləsək, əgər Britaniyanın bütün mənəvi və maddi qüvvəsi, əqidəsi sizinki ilə möhkəm qardaşlıq ittifaqında birləşsə, o zaman gələcəyə aparan yol təkcə bizim üçün deyil, elə hamı üçün, yalnız indi deyil, elə yüz il bundan sonra da işıqlı və təhlükəsiz olacaqdır.

*Copyright by Winston S Churchill 1946. Reproduced with the permission of Curtis Brown Group Ltd.*

1 Başqa dinə, əqidəyə cəlbetmə fəaliyyəti — *red.*

## 49. BÜTÜN DÜNYA ÜÇÜN İNSAN HÜQUQLARI

İkinci dünya müharibəsi ərəfəsində insan hüquqları, daha dəqiq desək, "insanın dövlətin özbaşınalığından müdafiə olunmaq hüquqları" Qərb ölkələrinin yalnız bir neçəsinin Konstitusiyasında əks olunmuşdu. Bundan əlavə, o dövrdə dövlətlərin öz vətəndaşları ilə davranışı hər yerdə dövlətin digər dövlətlərin qarışmağa haqqı olmadığı sırf daxili işi sayılırdı.

Müharibənin və faşist diktaturasının dəhşətləri dünyanın öncül demokratik dövlətlərinin ictimaiyyətlərini belə fikrə gətirib çıxardı ki, dünya ölkələri öz "evlər"ində insan hüquqlarını pozmağa son verməyənə qədər dünyanı ədalətli şəkildə nizama salmaq mümkün olmayacaqdır.

Müharibə başa çatdıqdan sonra qalib dövlətlər ABŞ prezidenti Ruzveltin təşəbbüsü ilə dövlətlər arasında sülhü və bütün dünyada insan hüquqlarını təmin edə biləcək daimi beynəlxalq təşkilatı — Birləşmiş Millətlər Təşkilatını yaratmaq qərarına gəldilər. BMT-nin 26 iyun 1945-ci ildə qəbul olunmuş xartiyasının (nizamnaməsinin — red.) maddələrinin birində göstərilirdi ki, bu təşkilatın vəzifəsi "hamı üçün irqinə, cinsinə və dininə görə heç bir ayrı-seçkiliyə yol vermədən insan hüquqlarına və azadlıqlarına hamılıqla hörmət və əməl edilməsinə kömək etməkdir" (1.55-ci maddə). Beləcə, insan hüquqlarının beynəlxalq hüququn subyekti kimi tanınması yolunda ilk addım atıldı.

Demokratik ölkələrin təşəbbüsü ilə ABŞ prezidenti Ruzveltin arvadı Eleonorun başçılıq etdiyi xüsusi komitə özündə dövlətin poza bilməyəcəyi əsas insan hüquqlarının siyahısını əks etdirməli olan beynəlxalq bəyannamə üzərində işə başladı. Bu, böyük gərginlik və həssaslıq tələb edən bir iş idi: Qərb ölkələri bəyannamədə əsasən siyasi və vətəndaş hüquqlarının əks olunmasına çalışdıqları halda, SSRİ nümayəndələri tələb edirdilər ki, bəyannamədə üstünlük sosial və iqtisadi hüquqlara verilsin, belə ki, onların fikrincə, bu hüquqlar SSRİ-də lazımınca təmin edilmişdi və bunlarsız siyasi hüquqların heç bir əhəmiyyəti yox idi. Bəyannamədə hər iki tələbə əməl olundu, lakin sosialist ölkələri onu imzalamaqdan imtina etdilər.

Bəyannaməni 10 dekabr 1948-ci ildə BMT-nin 48 ölkəsi qəbul etdi (həmin gün Beynəlxalq insan hüquqları günü sayılır). Sənədi din azadlığı barədəki müddəa ilə razılaşmaq istəməyən Səudiyyə Ərəbistanı, irqi bərabərliklə razılaşmaq istəməyən Cənubi Afrika Respublikası və bəyannamədə göstərilmiş siyasi hüquqlardan ehtiyatlanan SSRİ, Polşa, Çexoslovakiya və Yuqoslaviya imzalamaqdan imtina etdilər.

Bəyannamənin beynəlxalq sənəd statusu yox idi, o, yalnız insan hüquqları sahəsində ölkələrin can atmağa vəd etdikləri beynəlxalq standart kimi qəbul olunmuşdu. Lakin bu sənədin olduqca böyük mənəvi və ideoloji əhəmiyyəti var idi. İlk dəfə etiraf olunurdu ki, insan hüquqları universal — ümumdünya xarakteri daşıyır və dünya ölkələri arasındakı mədəni, tarixi və ictimai fərqlərdən asılı deyildir. Bundan başqa, insan hüquqları daha ölkənin daxili işi sayıla bilməzdi.

Bir çox ölkələr hələ də bəyannamənin ayrı-ayrı maddələrini pozmaqda davam etsə də, açıq şəkildə ona qarşı çıxmağa heç kəs cəsarət göstərmir də. Sənədin mətni insanları hökumətin bəyannamədə göstərilmiş standarta uyğun şəkildə təmin etməyə borclu olduğu hüquqlar uğrunda mübarizəyə ruhlandırırdı.

***Bəyannamədə yazılmış hüquqları təxminən bir neçə qrupa bölmək olar:***

*Fərdi hüquqlar — fiziki və mənəvi təhlükəsizliyin minimum təminatlarını qoruyur (1; 2; 4; 5; 6; 15-ci maddələr);*

*Prosessual hüquqlar — insanın dövlətin hüquq-mühafizə sistemi ilə qarşılaşanda onun prosedur müdafiəsini təmin edir (9; 10; 11-ci maddələr);*

*Vətəndaş azadlıqları — dövlətin həm intellektual (vicdan, söz, mətbuat azadlığı), həm də ictimai sahədə (yığıncaqlar və təşkilatlar azadlığı) insanın fəaliyyətinə müdaxiləsinə məhdudiyyətlər qoyur (18; 19; 20-ci maddələr);*

*Siyasi hüquqlar — insanın dövlətin idarə olunmasında və onun üzərində nəzarət işində iştirak etmək hüququdur (21-ci maddə). Siyasi hüquqlara həmçinin bəzi vətəndaş azadlıqları — fikir, vicdan, söz, mətbuat, yığıncaqlar və təşkilatlar azadlığı da aid edilir;*

*Yaşamaq (ömür sürmək) hüququ — insanın sağ qalıb yaşaması üçün minimum zəruri şərtləri təmin edir; bu, başlıca olaraq qidaya və tibbi xidmətə aiddir (25-ci maddə);*

*İqtisadi hüquqlar — buraya sosioloji təhlükəsizlik, əmək, istirahət və həmkarlar azadlığı hüquqları daxildir (22; 23; 24-cü maddələr);*

*Sosial hüquqlar — bunlar təhsil almaq, ailə qurmaq və onu qoruyub saxlamaq hüquqlarıdır (12; 16; 26-cı maddələr);*

*Mədəni hüquqlar — cəmiyyətin mədəni həyatında iştirak etmək hüququdur. Bəzən buraya təhsil hüququ da aid edilir (27-ci maddə).*

1966-cı ildə BMT Qərb ölkələrinin təzyiqi ilə insanların "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" və "Mülki və siyasi hüquqlar haqqında" Ümumdünya Bəyannaməsinin müddəalarını inkişaf etdirən paktları qəbul edir. Bu paktların artıq beynəlxalq müqavilə statusu var idi. İnsanların "Mülki və siyasi hüquqlar haqqında Pakt-"da, bu sənədi imzalamış ölkələrdə insan hüquqları üzərində beynəlxalq nəzarət mexanizmi müəyyən edilmişdi. Bu paktlardan sonra BMT qadınların, uşaqların, dini azlıqların və b. hüquqlarının tapdalanması hallarının kökünün kəsilməsinə yönəldilmiş külli miqdarda paktlar və konvensiyalar qəbul edir.

Bütün bu sənədləri Azərbaycan da imzalamışdır və onların yerinə yetirilməsi yalnız özümüzdən asılıdır. Bu gün BMT Bəyannaməsində yazılmış insan hüquqları yeni-yeni demokratik ölkələrin konstitusiyalarına daxil edilir, bu hüquqlar Azərbaycanın 1995-ci il Konstitusiyasında da əks olunmuşdur.

1998-ci ildə bəyannamənin qəbul olunduğu gündən əlli il ötdü. BMT-nin üzvü olan bütün ölkələr bu əlamətdar hadisəni təntənə ilə qeyd etməklə dünyanın simasını dəyişmiş sənədə ehtiramlarını bildirdilər.

BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI

# Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948)

*Hər bir insan... heç bir fərq qoyulmadan bu Bəyannamədə elan edilmiş bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır.*

PREAMBULA

Bəşər nəslinin bütün üzvlərinə məxsus olan ləyaqətin və onların bərabər və ayrılmaz hüquqlarının tanınmasının azadlıq, ədalət və ümumi sülhün əsası olduğunu nəzərə alaraq; və

insan hüquqlarına qarşı biganəlik və hörmətsizliyin bəşəriyyətin vicdanını hiddətləndirən vəhşilik hərəkətlərinə gətirib çıxardığını, adamların söz və əqidə azadlığına malik olacağı, qorxu və ehtiyacdan qurtulacağı bir dünya qurulmasının insanların yüksək amalı elan olunduğunu nəzərə alaraq; və

insanın istibdad və zülm əleyhinə son mübarizə vasitəsi kimi üsyana əl atmağa məcbur olmaması üçün insan hüquqlarının qanunun gücü ilə təmin edilməsinin zəruriliyini nəzərə alaraq; və

xalqlar arasında dostluq münasibətlərinin inkişaf etdirilməsinin zəruriliyini nəzərə alaraq; və

Birləşmiş Millətlərin xalqlarının BMT-nin Xartiyasında insanın əsas hüquqlarına, şəxsiyyətin ləyaqət və dəyərinə, kişi və qadınların bərabərliyinə inamlarını təsdiq etdiklərini və daha böyük azadlıqlar şəraitində sosial tərəqqiyə və həyat şəraitinin yaxşılaşdırılmasına yardım göstərməyi qərara aldıqlarını nəzərə alaraq; və

üzv-dövlətlərin Birləşmiş Millətlər Təşkilatı ilə əməkdaşlıqda insan hüquqlarına hamılıqla hörmət edilməsinə və onlara riayət olunmasına yardım etməyi öhdələrinə götürdüklərini nəzərə alaraq; və

bu hüquq və azadlıqların xarakterinin hamılıqla dərk edilməsinin həmin öhdəliyin tam yerinə yetirilməsində böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq

Baş Assambleya

Ümumdünya İnsan Hüquqları Bəyannaməsini elə bir vəzifə kimi bəyan edir ki, onun yerinə yetirilməsinə bütün xalqlar və dövlətlərsəy göstərir ki, hər bir insan, cəmiyyətin hər bir orqanı bu Bəyannaməni daim nəzərdə tutaraq maarif və təhsil yolu ilə həmin hüquq və azadlıqlara hörmət edilməsinə milli və beynəlxalq mütərəqqi tədbirlər, onların istər təşkilatın üzv-dövlətlərinin xalqları arasında, istərsə də onların yurisdiksiyasındakı ərazilərin xalqları arasında hamılıqla səmərəli tanınması və həyata keçirilməsi yolu ilə çalışsınlar.

*Maddə 1*

Bütün insanlar azad, ləyaqət və hüquqlarına görə bərabər doğulurlar. Onlar idrak və vicdana malikdirlər və bir-biri ilə qardaşlıq ruhunda davranmalıdırlar.

*Maddə 2*

Hər bir insan irqinə, dərisinin rənginə, cinsinə, dilinə, dininə, siyasi və digər əqidəsinə, milli, yaxud sosial mənşəyinə, mülki, silk, yaxud başqa vəziyyətinə görə heç bir fərq qoyulmadan bu Bəyannamədə elan edilmiş bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır.

Bundan başqa, insanın mənsub olduğu ölkə, yaxud əraziyə siyasi, hüquqi, yaxud beynəlxalq statusu əsasında, həmin ərazinin müstəqilliyindən, qəyyumluq altında olmasından, özünü idarə edib-etməməsindən, yaxud suverenliyinin hər hansı məhdudluğundan asılı olmayaraq heç bir fərq qoyulmamalıdır.

*Maddə 3*

Hər bir insan yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququna malikdir.

*Maddə 4*

Heç kəs köləlikdə, yaxud asılılıqda saxlanmamalıdır; quldarlıq və qul alverinin bütün növləri qadağandır.

*Maddə 5*

Heç kəs işgəncəyə, yaxud amansız, qeyri-insani, yaxud onun ləyaqətini alçaldan davranışa və cəzaya məruz qalmamalıdır.

*Maddə 6*

Hər bir insan, harada olursa-olsun, hüquq subyekti kimi tanınmaq hüququna malikdir.

*Maddə 7*

Bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan, qanun qarşısında eyni dərəcədə müdafiə olunmaq hüququna malikdirlər. Bütün insanların bu Bəyannaməni pozan hər cür ayrı-seçkilikdən və belə ayrı-seçkiliyə təhriklərdən eyni dərəcədə müdafiə olunmaq hüququ vardır.

*Maddə 8*

Hər bir insan onun Konstitusiya, yaxud qanunla verilmiş əsas hüquqları pozulduğu hallarda həmin hüquqların səlahiyyətli milli məhkəmələr tərəfindən səmərəli şəkildə bərpa olunması hüququna malikdir.

*Maddə 9*

Heç kəs özbaşına həbs oluna, tutulub saxlanıla, yaxud sürgün edilə bilməz.

*Maddə 10*

Hər bir insan öz hüquq və vəzifələrinin müəyyənləşdirilməsi, ona qarşı irəli sürülən cinayət ittihamının əsaslılığının təsdiqlənməsi üçün onun işinə tam bərabərlik əsasında, aşkarlıqla və ədalətin bütün tələblərinə riayət olunmaqla, müstəqil və qərəzsiz məhkəmədə baxılması hüququna malikdir.

*Maddə 11*

1. Cinayətdə ittiham olunan hər bir insan onun təqsiri müdafiəsinə bütün imkanların yaradıldığı açıq məhkəmə baxışında qanuni qaydada sübut edilənədək günahkar sayıla bilməz.

2. Heç kəs törədilərkən milli qanunlara, yaxud beynəlxalq hüquqa görə cinayət sayılmayan əməllərə, yaxud fəaliyyətsizliyə görə cinayətə cəlb edilə bilməz. Eləcə də cinayətin törədildiyi vaxt tətbiq edilə bilən cəzadan daha ağır cəza verilə bilməz.

*Maddə 12*

Heç kəsin şəxsi və ailə həyatına özbaşına müdaxilə oluna, onun mənzil toxunulmazlığına, yazışma sirrinə, yaxud şərəfinə və adına özbaşına qəsd edilə bilməz. Hər bir insanın belə müdaxilə və qəsdlərdən qanunla müdafiə olunmaq hüququ var.

*Maddə 13*

1. Hər bir insan hər hansı dövlətin hüdudlarında sərbəst yer dəyişmək və özünə yaşayış yeri seçmək hüququna malikdir.

2. Hər bir insanın öz ölkəsi də daxil olmaqla istənilən ölkəni tərk etmək və öz ölkəsinə qayıtmaq hüququ var.

*Maddə 14*

1. Hər bir insanın təqibdən qorunmaq üçün başqa ölkələrdə sığınacaq axtarmaq və bu sığınacaqdan istifadə etmək hüququ var.

2. Bu hüquqdan əslində qeyri-siyasi cinayət, yaxud Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə zidd olan fəaliyyət üstündə təqibolunma hallarında istifadə edilə bilməz.

*Maddə 15*

1. Hər bir insanın vətəndaşlıq hüququ var.

2. Heç kəs məcburi şəkildə vətəndaşlıqdan, yaxud vətəndaşlığını dəyişmək hüququndan məhrum edilə bilməz.

*Maddə 16*

1. Yetkinliyə çatmış bütün kişilər və qadınlar irqi, milli, yaxud dini əlamətlərə görə heç bir məhdudiyyət qoyulmadan nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər. Onlar nikah bağlayarkən, nikahda olarkən və onu pozarkən eyni hüquqlardan istifadə edirlər.

2. Nikah yalnız nikaha daxil olan hər iki tərəfin azad və tam razılığı ilə bağlana bilər.

3. Ailə cəmiyyətin təbii və əsas özəyidir və cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.

*Maddə17*

1. Hər bir insanın həm təkbaşına, həm də başqaları ilə ortaq əmlak sahibliyi hüququ var.

2. Heç kəs özbaşına öz əmlakından məhrum edilə bilməz.

*Maddə 18*

Hər bir insanın fikir, vicdan və din azadlığı hüququ var; bu hüquqa öz dinini və əqidəsini dəyişmək, dininə və əqidəsinə həm təklikdə, həm də başqaları ilə birgə, açıq, yaxud xüsusi qaydada, təlimdə, ibadətdə, dini ayin və mərasimlərin icrasında etiqad bəsləmək azadlığı daxildir.

*Maddə 19*

Hər bir insanın əqidə azadlığı və onu sərbəst şəkildə ifadə etmək hüququ var; bu hüquqa əqidəsinə maneəsiz etiqad bəsləmək, dövlət sərhədlərindən asılı olmayaraq informasiya və ideyalar axtarmaq, almaq və yaymaq azadlığı daxildir.

*Maddə 20*

1. Hər bir insanın azad şəkildə dinc yığıncaqlar keçirmək və birliklər yaratmaq hüququ var.

2. Heç kəs hər hansı birliyə daxil olmağa məcbur edilə bilməz.

*Maddə 21*

1. Hər bir insanın öz ölkəsinin idarə olunmasında bilavasitə, yaxud azad şəkildə seçilmiş nümayəndələri vasitəsilə iştirak etmək hüququ var.

2. Hər bir insan öz ölkəsində dövlət qulluğuna girməkdə bərabər
hüquqa malikdir.

3. Dövlət hakimiyyətinin əsasında xalqın iradəsi durmalıdır. Bu iradə ümumi və bərabər seçki hüququ əsasında gizli səsvermə yolu ilə, yaxud səsvermənin azadlığını təmin edən digər eyniəhəmiyyətli formalarda keçirilən dövri və saxtalaşdırılmamış seçkilərdə əksini tapmalıdır.

*Maddə 22*

Hər bir insanın cəmiyyətin bir üzvü kimi sosial təminat, milli səylər və beynəlxalq əməkdaşlıq əsasında hər bir ölkənin qurumuna və ehtiyatlarına uyğun olaraq ləyaqətinin qorunması, şəxsiyyətinin azad inkişafı üçün zəruri olan iqtisadi, sosial və mədəni hüquqlarını həyata keçirmək hüququ var.

*Maddə 23*

1. Hər bir insan əmək, sərbəst şəkildə iş seçmək, ədalətli və əlverişli əmək şəraiti, işsizlikdən müdafiə hüququna malikdir.

2. Hər bir insanın heç bir ayrı-seçkilik qoyulmadan bərabər əmək üçün bərabər haqq almaq hüququ var.

3. Hər bir işçi özünün və ailəsinin insana layiq yaşamasını təmin edən və lazım gəldikdə digər sosial təminat vasitələri ilə tamamlanan ədalətli və qənaətbəxş haqq almaq hüququna malikdir.

4. Hər bir insan öz mənafelərini müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq, yaxud həmkarlar ittifaqlarına daxil olmaq hüququna malikdir.

*Maddə 24*

İş gününün ağlabatan şəkildə məhdudlaşdırılması daxil olmaqla, hər bir insanın, istirahət və asudə vaxt, ödənişli dövri məzuniyyət hüququ var.

*Maddə 25*

1. Hər bir insan özünün və ailəsinin sağlamlığı və rifahı üçün qida, paltar, mənzil, tibbi və zəruri sosial xidmət daxil olmaqla layiqli həyat səviyyəsinə nail olmaq hüququna, işsizlik, xəstəlik, əlillik, dulluq, qocalıq, yaxud yaşayış vasitələrindən özündən asılı olmayan digər səbəblərdən məhrum olduğu hallarda təminat hüququna malikdir.

2. Analar və uşaqlar xüsusi himayədarlıq və yardım göstərilmək hüququna malikdirlər. Nikahdan və nikahdankənar doğulan bütün uşaqlar sosial müdafiədən eyni dərəcədə istifadə etməlidirlər.

*Maddə 26*

1. Hər bir insanın təhsil hüququ var. Təhsil (heç olmasa ibtidai və ümumi təhsil) pulsuz olmalıdır. İbtidai təhsil icbari olmalıdır. Texniki təhsil və peşə təhsili hamıya, ali təhsil hər kəsin qabiliyyətinə görə eyni dərəcədə müyəssər olmalıdır.

2. Təhsil insan şəxsiyyətinin tam inkişafına, insan hüquqlarına və azadlıqlarına ehtiramın artmasına yönəldilməlidir. Təhsil bütün xalqlar, irqi və dini qruplar arasında qarşılıqlı anlaşmaya, dözümlülüyə və dostluğa, Birləşmiş Millətlər Təşkilatının sülhü qorumaq sahəsindəki fəaliyyətinə yardım göstərməlidir.

3. Valideynlər öz azyaşlı uşaqlarına təhsil növü seçməkdə üstünlük hüququna malikdirlər.

*Maddə 27*

1. Hər bir insan cəmiyyətin mədəni həyatında sərbəst iştirak etmək, incəsənətdən zövq almaq, elmi tərəqqidə iştirak etmək və ondan bəhrələnmək hüququna malikdir.

2. Hər bir insan müəllifi olduğu elmi, ədəbi, yaxud bədii əsərlərin nəticələrindən ibarət mənəvi və maddi mənafelərini müdafiə etmək hüququna malikdir.

*Maddə 28*

Hər bir insan bu Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların tam şəkildə həyata keçirilə biləcəyi sosial və beynəlxalq nizam hüququna malikdir.

*Maddə 29*

1. Hər bir insan cəmiyyət qarşısında borcludur, çünki şəxsiyyətin azad və tam inkişafı yalnız cəmiyyətdə mümkündür.

2. Öz hüquq və azadlıqlarını həyata keçirərkən hər bir insana yalnız başqalarının hüquq və azadlıqlarının lazımi şəkildə tanınmasını və onlara hörmət olunmasını təmin etmək və demokratik cəmiyyətdə əxlaq, ictimai asayiş və ümumi rifahın ədalətli tələblərini yerinə yetirmək məqsədilə qanunun müəyyənləşdirdiyi məhdudiyyətlər tətbiq edilməlidir.

3. Bu hüquq və azadlıqların həyata keçirilməsi Birləşmiş Millətlər Təşkilatının məqsəd və prinsiplərinə qətiyyən zidd olmamalıdır.

*Maddə 30*

Bu Bəyannamədə heç nə hər hansı bir dövlətə, insan qrupuna, yaxud ayrı-ayrışəxslərə həmin Bəyannamədə ifadə olunmuş hüquq və azadlıqların ləğv edilməsinə yönəldilmiş hər hansı fəaliyyətlə məşğul olmaq, yaxud hərəkətlər hüququ verilməsi kimi yozula bilməz.

*Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 10 dekabr 1948-ci il tarixli 217 A (III) saylı qətnaməsi ilə qəbul və bəyan edilmişdir*

# 50. DÜNYA BMT Ümumdünya İnsan Hüqüqları Bəyannaməsi imzalandıqdan sonrakı 50 İL ƏRZİNDƏ

1942
*Vaşinqtonda BMT-nin yaradılması haqqında bəyannamə imzalanır (1yanvar), onu imzalayan ölkələr "özləri üçün heç bir ərazi və başqa imtiyazlar tələb etmir..., bütün xalqların azad iradəsinə zidd ola biləcək dəyişikliklər niyyətində deyillər".

1944

*Bretton Vuds (ABŞ) konfransında Dünya Bankı və Beynəlxalq Valyuta Fondu yaradılır. *Dumbarton Ouksdakı (ABŞ) konfransda SSRİ, ABŞ və Britaniya BMT-ni yaratmağı təklif edirlər.

1945

*San-Fransiskodakı konfransda BMT yaradılır (aprel-iyun). *Potsdam konfransı (Trumen, Çörçill, Stalin) Almaniyanın tamamilə dəyişdirilməsinin əsaslarını hazırlayır. *ABŞ Yaponiyanın Xirosima (6 avqust) və Naqasaki (9 avqust) şəhərlərinə atom bombası atır. Xirosimada bomba atılan gün 100 000 nəfər və sonralar yenə 100 000 nəfər həlak olur.

1946

*Londonda BMT Baş Məclisinin ilk iclası açılır (10 yanvar). *Uinston Çörçillin Fulton Universitetindəki (ABŞ) "Dəmir pərdə" çıxışında (5 mart) Sovet ekspansiyasından qorunmaq fikri səslənir: "İosif Stalinin imperiyasının üzərinə Baltikadan Adriatikə qədər dəmir pərdə endi...". Bu nitqə görə Çörçillə Nobel mükafatı verilir. *Nürnberqdə hərbi məhkənin qərarı ilə (qiyabi mühakimə olunmuş M.Borman da daxil olmaqla)12 nasist lideri asılmağa məhkum edilir, 7 nəfər həbs cəzası alır, 3 nəfər bəraət qazanır (1 oktyabr). Görinq qalan 10 nəfərin edamından bir neçə saat əvvəl intihar edir (15 oktyabr).

1947

*Sovet İttifaqı BMT-nin atom enerjisinə nəzarət planı haqqında ABŞ-ın verdiyi təklifi rədd edir (4 mart). *ABŞ-ın maliyyə naziri Marşallın Avropanı bərpa etmək planı — Avropa xalqlarına müharibənin dağıntılarından xilas olmaq üçün uyğunlaşdırılmış kömək proqramı təklif olunur (iyun). 1951-ci ilə qədər "Avropanın bərpası" proqramına 11 milyard dollar xərclənmişdir. *Britaniya Hindistanı hindlilərin Hindistanına və müsəlman Pakistanına bölür, hər ikisi özünün Britaniyadan asılı olmayan istiqlaliyyətini elan edir (15 avqust).

1948

*Hindistanın müstəqilliyi uğrunda hərəkatın mənəvi lideri Mahatma Qandi qətlə yetirilir (30 yanvar). *Ərəb əhalisinə bərabər hüquqlar verilməklə İsrail dövləti elan edilir (14 may). *Sovet qoşunlarının ölkədə qalmasından istifadə edən yerli kommunistlər Çexoslovakiyada, Bolqarıstanda, Macarıstanda və Polşada hakimiyyəti qəsb edirlər. *Qərb Sovet mühasirəsində olan Qərbi Berlinə 328 gün davam edən havadan təchizata başlayır (26 iyun). *Yuqoslaviya Kommunist Partiyası Komintern təşkilatından xaric edilir (28 iyun). *İsrail dövləti elan edilir, Britaniya mandatının müddəti gecə yarısı başa çatır, ərəb ordularının hücumu başlanır. *BMT-nin Baş Məclisi Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul edir (10 dekabr). *İkinci dünya müharibəsi dövründə Yaponiyada baş nazir və rəhbər vəzifələrdə çalışan altışəxs törətdikləri hərbi cinayətlərə görə beynəlxalq hərbi tribunalın hökmü ilə Tokioda dara çəkilir (23 dekabr).

1949

*Mao Tszedunun başçılığı altında kommunistlər Pekini tuturlar. Kommunist yönlü Çin Xalq Respublikası elan edilir. Onun rəhbəri Mao Tszedun bütün kontinental Çinə nəzarət edir (22 yanvar). *NATO-nun (Şimali Atlantika Müqaviləsi Təşkilatı) yaradılması haqqında müqaviləni 11 dövlət imzalayır (4 aprel). *İrlandiya Respublikası elan edilir. Şimali İrlandiya Böyük Britaniyanın tərkibində qalır (27 aprel). *Roma papası bütün kommunistləri kilsədən uzaqlaşdırır (13 iyul). *Ceyms Coysun "Uliss" romanının Kanadada nəşrinə icazə verilir, 505 kitab, o cümlədən Uilyam Folknerin "Məbəd" əsəri mənəviyyat baxımından qadağan olunmuş qalır (15 iyul). *Sovet İttifaqı atom sınağı keçirir (avqustun sonu). *Cənubi Afrika Respublikası qarışıq nikahların qadağan olunması haqqında qanun qəbul edir. *Almaniya Federativ Respublikası yaradılır (Qərbi Almaniya) (21 sentyabr); onun ilk lideri Konrad Adenauer iqtisadçı Lüdviq Erhardla birlikdə ölkədə liberal islahatlar keçirir.

1950

*Çexoslovakiyada 5 may 1948-ci ilədək nəşr olunmuş bütün kitablar qadağan edilir (10 yanvar). *50-ci illərdə ABŞ-da antidepressant (əsəb sistemini sakitləşdirən dərman) preparatların geniş yayılması psixiatriya klinikalarında xəstələrin kəskin azalması ilə nəticələnir. *Çində çoxarvadlılığı, uşaqların nişanlanmasını və evlənərkən cehiz tələb olunmasını qadağan edən qanun qəbul edilir. Çin qoşunları Tibetə daxil olur (21 oktyabr).

1951
*6 Avropa dövləti polad və daş kömürlə bağlı istehsalın əlaqələndirilməsinə aid Şuman planı üzrə razılığa gəlir (19 mart); o, 1953-cü il fevralın 10-dan qüvvəyə minir ("Ümumi bazar"ın yaradılmasının başlanğıcı). *İngilis alimləri Ceyms Uotson və Frensis Krik daxilində canlı orqanizm haqqında bütün informasiyanı gəzdirən molekulu — DNT-ni ayırırlar (25 aprel ). *ABŞ Konqresi Konstitusiyaya prezidentliyə 2 möhlətdən artıq seçilməyi qadağan edən 22-ci düzəlişi qəbul edir. *Afrikanerlər — Cənubi Afrika Respublikasının çoxluq təşkil edən ağdərili əhalisi ağ irqə mənsub olmayan əhalini seçki hüququndan məhrum etməyə səs verir (14 may). *İranın baş naziri Müsəddiq ölkənin neft sənayesinin milliləşdirildiyini elan etdikdən sonra Britaniya qoşunları ölkənin neft yataqlarını tərk edir (23 avqust). *Reyçel Karsonun "Biz dənizin əhatəsində" kitabı işıq üzü görür. Kitabda ətraf mühitin çirklənməsi məsələləri çox kəskin qoyulur. *Çarli Çaplin Amerika əleyhinə fəaliyyətdə günahlandırılaraq ABŞ-dan qovulur (19 sentyabr).

1952
*Rusiyanın təzyiqlərindən qorunmaq istəyən Türkiyə NATO-nun üzvü olur. *Semuel Bekket — "Qodonun intizarında" absurd pyesi.

1953
*İosif Stalin ölür (5 mart). *Daq Hammerşeld BMT-nin baş katibi vəzifəsinə təyin olunur. *Şərqi berlinlilər kommunistlərin hakimiyyətinə qarşı çıxır, rus tankları ilə susdurulurlar. *İngiltərədə Uotson və Krik canlı orqanizmə aid bütün informasiyanı özündə daşıyan DNT molekulunun quruluşunu izah edirlər.

1954
*ABŞ-ın Ali Məhkəməsi "Braun Təhsil İdarəsinə qarşı" məhkəmə prosesində qərar qəbul edir ki, məktəblərin irqi əlamətlərə görə bölünməsi Konstitusiyanın bərabərlik prinsipini pozur (17 may). *ABŞ-ın Rod-Aylend ştatı Providens şəhərinin poçt bölməsi təxribatçı xarakter daşıdığına görə Leninin "Dövlət və inqilab" əsərinin Braun Universitetinə çatdırılmasına mane olur (24 may). *Qərbi Almaniya suverenlik alır və NATO-ya daxil olur. *Əlcəzairdə müstəqillik uğrunda Fransaya qarşı müharibə başlanır (noyabr), Fransa 1962-ci ilə kimi müstəmləkə rejimini qorumağa çalışır, 1962-ci ildə Əlcəzairin müstəqilliyi ilə razılaşır. *Misirdə Camal Əbdül Nasir hakimiyyətə gəlir.

1955
*Varşava Müqaviləsi, Şərqi Avropanın Moskvapərəst sosialist ölkələrinin qarşılıqlı müdafiə haqqında Şərqi Avropa Müqaviləsi imzalanır (14 may). *Kiprdə Enozis (Yunanıstanla birləşmək) uğrunda hərəkat gücləndiyi üçün fövqəladə vəziyyət tətbiq edilir. *Peru qadınları seçicilik hüququ qazanırlar (7 sentyabr). *Martin Lüter Kinq (kiçik) Montqomeri və Alabamada avtobusda qaralarla ağların ayrı oturmasına qarşı qaraların boykotuna başçılıq edir və müvəffəqiyyət qazanır (21 dekabr). *Britaniyada kommersiya televiziyası işə başlayır.

1956
*Nikita Xruşşov — SSRİ kommunistlərinin lideri partiyanın 20-ci qurultayında Stalinin siyasi təqiblərini pisləyir (24 fevral). *Poznanda (Polşa) fəhlələrin kommunist hakimiyyətinə qarşı üsyanı yatırılır (28-30 iyun). *C.Ə.Nasir Misirdə Süveyş kanalını milliləşdirir (26 iyul). *İsrail Misirdə Sinay yarımadasına hücum edir və Süveyş kanalına tərəf irəliləyir (29 oktyabr). *Macarıstanda üsyan başlanır — Sovet qoşunları bu antikommunist çıxışı tanklarla yatırır. *Kseroks firması fotosurət maşınlarının kütləvi satışına başlayır.

1957
*Xruşşov SSRİ-nin müttəfiq respublikaları hökumətlərinin səlahiyyətlərini genişləndirən, onlara həm də məhkəmə və inzibati müstəqillik verən fərmanlar verir (29 avqust 1957 və 22 iyun 1959-cu il), 1964-cü ildə Xruşşov vəzifədən kənarlaşdırılan kimi həmin fərmanlar ləğv olunur. *ABŞ prezidenti Eyzenhauer Litl-Roka (Arkanzas) irqçilərin çıxışlarını yatırmaq və məktəblərdə inteqrasiyanın müdafiəsi üçün qoşun göndərir (24 sentyabr). *Kosmik eranın başlanğıcı — ruslar Yerin ilk "Sputnik-1" və "Sputnik-2" süni peyklərini kosmosa çıxarırlar. *Romada altı Avropa dövləti Avropa İqtisadi Şurasının yaradılması haqqında müqavilə imzalayır. *ABŞ-ın Ali Məhkəməsi Konstitusiyaya Birinci düzəlişin qarantiyalarının seksi təsvir edən ədəbiyyata aid edilə biləcəyi haqqında mülahizə irəli sürür (I düzəliş: söz, mətbuat, vicdan və yığıncaq keçirmək azadlıqları).

1958
*General de Qoll Fransanın baş naziri olur və 1969-cu ilə kimi bu vəzifəni saxlayır. Yeni Konstitusiya qəbul edilir (28 sentyabr) və de Qoll beşinci respublikanın prezidenti seçilir (21 dekabr). *50 min çex qaraçısına köçəri həyat tərzindən əl çəkmək və "cəmiyyətin faydalı üzvləri" olmaq əmr olunur (23 oktyabr). *Sovet yazıçısı Boris Pasternak 1980-ci ilədək SSRİ-də qadağan olunmuş "Doktor Jivaqo" romanına görə Nobel mükafatı ilə təltif edilir (23 oktyabr). *Yaponiya BMT-nin üzvü olur.

1959
*Kuba prezidenti Batista istefa verir və qaçmaqla canını qurtarır, Fidel Kastro hakimiyyəti ələ keçirir (1 yanvar). *Dalay-Lama Tibetdən Hindistana qaçmaqla Çin hakimiyyət dairələrindən özünü xilas edir.

1960
*Papa XXIII İohann katolikləri kinoteatrlarda və televiziya ilə göstərilən "nalayiq filmlərə" baxmamağa çağırır (24 yanvar). *Britaniyanın baş naziri Harold Makmillan Cənubi Afrika Respublikasının paytaxtı Keyptaundakı "Dəyişikliklər küləyi" nitqində (3 fevral) Britaniyanın müstəmləkələrinə istiqlaliyyət verilməsinin vacibliyini bəyan edir. *BMT və ABŞ-ın qəti etirazlarına baxmayaraq, Fransa dövləti Saxarada atom bombasını sınaqdan keçirir (13 mart). *İsraillilər yəhudilərin başlıca qatili Adolf Eyxmanı Argentinada tutur (23 may), 1962-ci ildə İsraildə edam edirlər. *Belçika özünün Afrikadakı müstəmləkə imperiyasını dağıtmağa başlayır, Konqoya (Zair) müstəqillik verir (30 iyun). *Kuba ABŞ-a məxsus 770 milyon dollarlıq əmlakı müsadirəyə başlayır (7 avqust). *Londonda Ali Cinayət Məhkəməsi Devid Lourensin 30 il ərzində qadağan edilmiş "Ledi Çatterleyin məşuqu" romanının nalayiq olmaması haqqında qərar çıxarır (2 noyabr). *ABŞ alimləri lazeri kəşf edirlər.

1961
*ABŞ-ın ilk katolik prezidenti (mənşəcə irlandiyalıdır) Con Fitscerald Kennedinin (1917-1963) inaqurasiyası (20 yanvar). *Hindistan evlənərkən cehiz tələb olunmasını qadağan edən qanun qəbul edir (son 30 il ərzində 4785 qadın kifayət qədər cehizi olmadığı üzündən öldürülmüşdü) (13 fevral). *Moskva dünyada ilk dəfə olaraq insanın — mayor Yuri Qaqarinin Yerin orbitinə çıxdığını elan edir (12 aprel). *Qaçqınların Qərbə axınını dayandırmaq üçün şərqi almanlar Şərqi Berlinlə Qərbi Berlin arasında Berlin səddini tikirlər (13 avqust). *Dahi ingilis riyaziyyatçısı Bertran Rassel nüvə silahına qarşı qəti etirazlarına görə həbs edilir (12 sentyabr). *Cənubi Afrika Respublikası Britaniya Millətlər Birliyindən çıxır.

1962
*Kubada raket böhranı — SSRİ Kubada raket bazaları tikmək istəyir, Kennedi Kubanı blokadaya almaq əmri verir, ruslar çəkildikdən sonra blokadanı açır (avqust-noyabr). *Zənci tələbə Ceyms Meredit federal məhkəmə icraçılarının müşayiəti ilə Missisipi Universitetində qeyddən keçir. *Roma papası XXIII İohann İkinci Vatikan kilsə yığıncağını katolik kilsəni müasirləşdirmək üçün çağırır (11 oktyabr), 4 sessiya keçirdikdən sonra yığıncaq 1965-ci il dekabrın 10-da bağlanır. Dörd il ərzində yeni milli liturgiya və məsləhətli demokratiya formaları tətbiq etməklə kilsə fəaliyyətinin bütün aspektləri müasirləşdirilir. *Aleksandr Soljenitsın SSRİ-də "İvan Denisoviçin bir günü" əsərini dərc etdirir. Qərbdə bu povesti inqilabdan sonra SSRİ-də yayılmış ən təsirli kitab hesab edirlər. *Peyk vasitəsilə ilk televiziya proqramı ABŞ-dan Avropaya ötürülür.

1963
*De Qoll Britaniyanın "Ümumi bazar"a daxil olmasına veto qoyur (14 yanvar). *ABŞ-ın Ali Məhkəməsinin qərarıyla Amerika dövlət məktəblərində şagirdlərdən İncil ayələrini və "Ya rəbbim" duasını söyləməyi tələb etməyə icazə verilmir (17 iyun). *Vaşinqtonda ağların və qaraların insan hüquqlarının müdafiəsi üçün 200 000-lik kütləvi mitinqi; afro-amerikanların lideri Martin Lüter Kinq "Mənim arzum var" nitqini söyləyir (28 avqust). *Təsadüfi müharibə risqini azaltmaq məqsədilə Vaşinqtonla Moskva arasında qaynar rabitə xətti açılır (30 avqust). *Cənubi Afrikada aparteidə qarşı hərəkatın lideri Nelson Mandela iğtişaşlara təhrikçilikdə günahlandırılaraq 5 il müddətinə həbs cəzasına məhkum olunur (7 noyabr). *ABŞ-ın 35-ci prezidenti C.F. Kennedi Dallasda (Texas) snayper gülləsi ilə qətlə yetirilir (22 noyabr).

1964

*Sov. İKP dini Sovet həyatından kənarlaşdırmaq məqsədilə yeni kampaniya elan edir (2 mart). *Missisipi ştatında insan hüquqları uğrunda 3 mübariz — İvernen, Qudman və Çeni qətlə yetirilir (iyun). 21 nəfər həbs olunur, federal məhkəmə onlardan yeddisini müqəssir sayır. *ABŞ prezidenti L.Conson "İnsan hüquqları haqqında qanun" adlı geniş qanun layihəsini Konqresdən keçirir. *ABŞ Konqresi "ekoloji" qanunlar qəbul edir: "Çoxdəfəli istifadə haqqında"; "Torpaq və su haqqında" (1964); "Torpağın və suyun çirkləndirilməsi haqqında" və "Havanın çirkləndirilməsi haqqında" (1965); "Suyun təmizliyinin bərpası haqqında" (1966). *ABŞ-da federal hakim Uilyam C. Brennan Henri Millerin erotik romanı haqqında ("Xərçəng mədarı") işə baxarkən qərara alır ki, məhkəmələr sənət əsərlərində ədəbsizliyi, pozğunluğu müəyyən etmək cəhdlərindən əl çəkməli, bu cür əsərləri yaşlılar arasında yayanları təqib etməyə son qoymalı və sənətkarların özünüifadə cəhdlərini müdafiəyə qalxmalıdır. *Prezident Conson kasıblara sosial kömək imkanı verən "Bərabər imkanlar haqqında" qanunu imzalayır. *Kiprdə yunanlarla kiprli türklər arasında silahlı toqquşma; BMT öz sülhməramlı qoşunlarını adaya yeridir. *Nikita Xruşşov vəzifəsindən kənar edilir (14 oktyabr), Brejnev və Kosıgin SSRİ-nin liderləri olurlar. Xruşşov onu kənarlaşdıran Siyasi Büro üzvləri ilə vidalaşarkən deyir: "Bəli, siz məni işdən adicə səsvermə ilə çıxartdınız. Lakin ola bilsin ki, sizin bunu edə bilməyiniz mənim başlıca xidmətimdir". Vatikan İsa peyğəmbərin ölümünə görə yəhudilərin ittiham edilməsini ləğv edir (20 noyabr). *"Bitlz" pop qrupu dünya şöhrəti qazanır.

1965
*Afro-amerikanların radikal lideri Malkolm İks öz çıxışı zamanı öldürülür (21 fevral). *ABŞ seçicilərin qeyd olunmasını sadələşdirən "Səsvermə hüququ haqqında" qanunu qəbul edir. Nəticədə qeydiyyatdan keçmiş qara seçicilərin sayı kəskin surətdə çoxalır. *Los-Ancelesin Vats rayonunda qaraların 6 gün davam edən qiyamı baş verir, 34 nəfər həlak olur, 1000 nəfər yaralanır, 4000 nəfər həbs olunur. Yanğın 175 milyon dollarlıq zərər vurur (11-16 avqust).

1966
*Yazıçılar Andrey Sinyavski və Yuri Daniel Sovet hökumətinə qarşı böhtanda günahlandırılaraq düşərgədə işləmək cəzasına məhkum olunurlar (14 fevral). *Çində "mədəni inqilab" — Maonun təşəbbüsü ilə savadsız gənclərin "eynəklilər"ə qarşı inqilabı. Mao deyir: "Bizə bütün işləri öz əlinə almaq üçün o qədər də savadı olmayan, sarsılmaz mövqeli və siyasi təcrübəli, gənc, qəti adamlar gərəkdir" (may). *BMT üzvləri "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt" və "Mülki və siyasi hüquqlar haqqında Pakt"ı imzalayırlar (16 dekabr); 23 mart 1976-cı ildə qüvvəyə minəcək bu paktları imzalayan dövlətlər onlardakı müddəaları milli qanunvericiliyə daxil etmək öhdəliyini üzərlərinə götürürlər.

1967
*İsrail-ərəb qüvvələrinin döyüşü; altıgünlük müharibə Sinay yarımadası, Colan yüksəkliyi, Süveyşin şərq sahili və Qəzza bölməsinin İsrail tərəfindən işğalı ilə sona çatır (5 iyun). *Amerika ştatı Tennesidə Darvinin təkamül nəzəriyyəsinin tədrisini dini düşüncə baxımından qadağan edən qanun qəti surətdə ləğv olunur (5 iyun). *Qırmızı Çin özünün ilk hidrogen bombasını sınaqdan keçirir (17 iyun).*Detroytda irqi zorakılıqlar; milli qvardiyanın 7000 döyüşçüsü qiyam gecəsindən sonra polisə kömək edir. Oxşar hadisələr Nyu-Yorkun "qara" insanlar yaşayan Harlem rayonunda, Roçestrdə (Nyu-York), Birmingemdə (Alabama), Nyu-Britanda (Konnektikut) baş verir (23 iyul). *Böyük Britaniyada, yaşlı adamlar arasında qarşılıqlı razılıq əsasında olan homoseksual əlaqələr leqallaşdırılır. *Turqud Marşall ABŞ Ali Məhkəməsinin hakimi olaraq ilk qara adam kimi andiçmə mərasimindən keçir (2 oktyabr).

1968
*Vətəndaş hüquqları uğrunda mübarizənin lideri Martin Lüter Kinq Memfisdə güllə ilə vurulur (4 aprel). *Fransada hakim dairələrin konservatizminə qarşı kütləvi tələbə nümayişləri, de Qollun istefası tələbləri eşidilir, keçən referendumda seçicilərin 52%-i de Qollun senatın yenidən təşkili və Fransanın yeni inzibati-ərazi bölgüsü planının əleyhinə səs verir (27 aprel). *Rusların və Varşava Müqaviləsinin orduları liberal rejimi dağıtmaq üçün Çexoslovakiyaya soxulur, prezident Dubçek həbs olunur (20 avqust). *Çində 400 000 nəfərin ölümü ilə nəticələnən "mədəni inqilab" biabırçılıqla sona çatır, inqilabi gənclərin dəstələri (xunveybin) ləğv olunur. *Papa VI Pavel "İnsan həyatı haqqında" ensinlik (müraciət) — hamiləliyin qarşısını alan vasitələrə qarşı qərar qəbul edir.

1969

*“Apollon” kosmik gəmisinin astronavtları Neyl A. Armstronq, E.Oldrin və Maykl Kollinz dünya tarixində Aya ilk ayaq basmış adamlardır. Ay səthinə birinci düşən Neyl Armstronq ilk addımı haqqında demişdi: “İnsanın kiçik, bəşərin nəhəng addımı” (20 iyul). *Britaniya qoşunlarıŞimali İrlandiyaya göndərilir. *Referendum de Qollun prezident səlahiyyətlərinin genişləndirilməsi tələblərini bəyənmədikdən sonra o, istefaya çıxır (27 aprel). Jorj Pompidu Fransanın prezidenti olur. *Aleksandr Soljenitsın Sovet Yazıçılar İttifaqından qovulur.

1970

*Rodeziya Britaniya krallığı ilə son əlaqələrini kəsir və özünü irqi ayrı-seçkili respublika elan edir (1 mart). *Ohayo ştatındakı Kent Universitetində aprelin 30-da ABŞ-ın Kambocaya soxulmasına etiraz nümayişində 4 tələbə milli qvardiyaçılar tərəfindən öldürülür (4 may), Senat Vyetnamdakı Tonkin körfəzi haqqında qətnaməsini ləğv edir (24 may).

1971

*Yasir Ərəfat Fələstin Azadlıq Təşkilatının lideri təyin olunur (3 fevral). *Vyetnam müharibəsi Laos və Kambocaya yayılır. *ABŞ-ın Ali Məhkəməsi yekdilliklə qərara alır ki, irqi ayrı-seçkiliyə son qoymağa nail olmaq üçün ağ və qara tələbələrin avtobusda bir yerdə getməsinə icazə vermək olar (20 aprel). *Hərbə qarşı hərəkat fəalları Vaşinqtonda hökumətin işini pozmağa cəhd edirlər (3 may) — hərbi dəstələr və polis 12 000 nəfəri həbs edir, onların çoxu tezliklə buraxılır. *Uqanda lideri İdi Amin 50 000 asiyalını ölkədən köçürür (avqust). *ABŞ Konstitusiyasına 26-cı əlavə seçkilərdə yaş senzini 18-ə endirir. *ABŞ bu il sosial ehtiyaclara (ümumi milli gəlirin (ÜMG) 12%-i) müdafiədən (ÜMG-ün 5%-i) çox vəsait xərcləyir. *İsveçrə qadınları seçki hüququ qazanırlar. *BMT millətçi Çini (Tayvan) kənarlaşdırıb kommunist Çinə yer verir (25 oktyabr). *Dünya sənaye istehsalının həcmi 1715-ci ildən 1971-ci ilədək 1730 dəfə artmışdır, bu artımın yarıdan çoxu 1948-ci ildən bəri son 25 ilin payına düşür.

1972

*Britaniya ordusu Londonderridə (Şimali İrlandiya) “qanlı bazar günü”ndə katoliklərdən 13 nəfəri öldürür; 17 nəfər yaralanır (30 yanvar). *ABŞ və SSRİ strateji silahların məhdudlaşdırılması haqqında müqavilə imzalayırlar (SALT–1) (may). *Polis Vaşinqtondakı Uotergeyt kompleksində Demokratlar Partiyası milli komitəsinin qərargahında xəlvəti qulaqasma cihazları quraşdırmağa cəhd edən 5 nəfəri həbs edir — Uotergeyt rüsvayçılığının başlanğıcı (17 iyun). *Misir prezidenti Ənvər Sadat SSRİ ilə əlaqələri kəsir, Sovet hərbi mütəxəssislərini ölkədən çıxarır.

1973

*Böyük Britaniya, İrlandiya və Danimarka Avropa “Ümumi bazar”ının tərkibinə daxil olur (1 yanvar). *Nikson dollarla qızıl arasındakı sərt asılılığı ləğv edir, nəticədə dollar AFR markasına nisbətdə 40 faiz qiymətdən düşür, dünyanın pul-maliyyə sistemi ciddi sarsıntılara məruz qalır. *Luis Bunyuelin İspaniyada qadağan olunmuş “Burjuaziyanın təvazökar lətafəti” filmi Amerika kinoakademiyasının Oskar mükafatını alır (10 yanvar). *Amerika kino aktyoru Marlon Brando Amerika hindularının sıxışdırılmasına etiraz olaraq Oskar mükafatını almaqdan imtina edir (28 mart).

*Yəhudilərin təqvimində ən müqəddəs gün olan Yom Kippur günü Misir və Suriya qoşunlarının İsrailə hücumu ilə dördüncü və ən böyük ərəb—İsrail müharibəsi başlanır (6 oktyabr). ABŞ-dan 2,2 milyard dollarlıq hərbi kömək alan İsrail əks-hücuma keçir (8 oktyabr) və ərəblərin tutduqları əraziləri qaytarmaqla yanaşı, Dəməşqə tərəf irəliləyir; Süveyş kanalının qərb sahilində vacib əməliyyat meydanını ələ keçirir. SSRİ-nin başçısı Brejnev oktyabrın 24-də ABŞ prezidenti Niksona məlumat göndərir ki, əlavə xəbərdarlıq etmədən ərəblərin xeyrinə hərəkətə başlayacaq. Oktyabrın 28-də ərəblərlə israillilər arasında barışıq müqaviləsi imzalanır.

*OPEK üzvü olan ərəb ölkələri neftin qiymətinin 70 faiz qaldırıldığını və istehsalının azaldıldığını elan edir (16 oktyabr). *Misir və İsrail ABŞ-ın təklif etdiyi atəşkəs müqaviləsini imzalayırlar (11 noyabr). *A. Soljenitsın Qərbdə Stalin ölüm düşərgələrinin dəhşəti haqqında “QULAQ arxipelaqı” romanını nəşr etdirir.

1974

*Kipr yunanları Yunanıstana birləşmək qərarını elan edir (20 iyun) və adanın türk əhalisini sıxışdırmağa başlayır. Nəticədə Türkiyə qoşunları Kiprin şimalına çıxır. Kipr iki hissəyə — ada ərazisinin 40 faizini tutan türk Kiprinə və 60 faizlik yunan Kiprinə bölünür. *ABŞ Konqresinin hüquq komitəsi prezident Niksonu impiçmentin üç maddəsi üzrə — ədalət məhkəməsinə mane olmaqda, qanunlara riayət edə bilməməkdə və komitə iclaslarının

gündəliyinə salınmış materialları verməkdən imtina etməkdə günahlandırır (30 iyul). *Riçard M. Nikson sabah istefa verəcəyini elan edir (o, belə hərəkət edən ilk ABŞ prezidentidir) (8 avqust). *"Enerji böhranı" — neft hasil edən ərəb ölkələrinin siyasəti nəticəsində neftin qiyməti dörd dəfə artır. Kissincer qeyd edir ki, neft hasil edən ölkələrin neftin qiymətinin qaldırılması haqqında qərarı "əsrimizin dönüş hadisələrindən biridir". *Nobel mükafatçısı Aleksandr Soljenitsın SSRİ-dən xaric edilir (13 fevral).

1975
*Helsinkidə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Yekun Aktı imzalanır. Aktı Qərbi Avropa ölkələri, ABŞ və Kanada, həmçinin SSRİ başda olmaqla sosialist bloku ölkələri imzalayır (1 avqust). Yekun Aktı özündə Avropada sərhədlərin toxunulmazlığını, müşavirədə iştirakçı ölkələrin insanın şəxsi və siyasi hüquqlarına hörmət etməsini təsbit edir. *Türk qoşunlarının Kiprdə yerləşdirilməsinə etiraz olaraq ABŞ Türkiyəyə hərbi yardımı dayandırır. Türkiyə öz ərazisində yerləşən Amerika bazalarını bağlayır. *Sovet hökuməti dissident alim Andrey Saxarova "SSRİ-nin hərbi sirləri ona məlum olduğuna" görə Nobel sülh mükafatını almaq üçün Osloya getməyi qadağan edir (9 oktyabr). *Satışda ilk məişət videomaqnitofonları. *İlk şəxsi kompüter: "Əltair 8800" ABŞ-da satışa çıxarılır.

1976
*ABŞ-ın Ali Məhkəməsi qərara alır ki, ölüm cəzası mahiyyət etibarı ilə qəddarlıq və ya müstəsna hadisə deyil və Konstitusiyaya müvafiq məqbul cəza formasıdır (3 iyul). *Amerika milləti öz 200 illiyini qeyd edir (4 iyul). *"Kainatın plastik adamları" adlı çex pop-qrupunun 4 nəfər uzunsaçlı üzvü "gənclərin sosialist ruhunda tərbiyə olunmasına təhlükə yaratdıqlarına görə" 9 aylıq həbs cəzasına məhkum edilirlər (23 sentyabr). *Ətraf mühitin qorunması haqqında qanunlar Amerika biznesinə bu il 63 milyard dollara oturur.

1977
* Amerikada ilk qadın yepiskop rütbəsinə layiq görülür (1 yanvar). *Çexoslovakiyada insan haqlarının müdafiəsi hərəkatı — "Xartiya–77"; 242 görkəmli çexoslovak ziyalısı kommunist hökumətini təzəcə imzaladığı BMT-nin "Mülki və siyasi hüquqlar haqqında Pakt"ının və Helsinki Yekun Aktının müddəalarını pozmaqda ittiham edən bəyanat imzalayır (6 yanvar). *Prezident Karter Vyetnama hərbi çağırışdan yayınanları əfv edir (21 yanvar). *Nüvə silahının yayılmaması haqqında müqaviləni SSRİ və ABŞ da daxil olmaqla 15 ölkə imzalayır (21 sentyabr). *SSRİ Ali Soveti siyasi hakimiyyətin Kommunist Partiyasının inhisarında olduğunu təsbit edən yeni Konstitusiya qəbul edir (7 oktyabr). *Misir prezidenti Ənvər Sadat İsrailə səfər edir və möhkəm sülh arzusunda olduğunu bildirir (21 noyabr). *Şəxsi kompüterlərin geniş yayılması başlanır. *Britaniyanın leyborist hökuməti aviasiya sənayesini milliləşdirir.

1978
*Rodeziyanın baş naziri Yan D.Smit və üç nəfər "qara" siyasi lider qaraların təşkil etdiyi hakimiyyət haqqında razılığa gəlirlər (15 fevral). *"Qırmızı briqada" terrorçularıİtaliyanın keçmiş baş naziri Aldo Moronu oğurlayır və onun 5 mühafizəçisini öldürürlər (16 mart). Aldo Moronun meyiti tapılır (9 may). *Kaliforniyalılar referendumda mülki gəlirə vergilərin təxminən 60 faiz azaldılmasına səs verirlər (6 iyun). *Ölkəsindən qovulmuş bolqar dissident yazıçı Georgi Markov DTK agentləri tərəfindən Londonda öldürülür (1 sentyabr). *Polşa kardinalı Karol Voytila Roma papası (II İohann Pavel) seçilir (16 oktyabr). O, qeyri-italyan mənşəli ilk Roma papasıdır. *Britaniya parlamentindən ilk birbaşa radioreportajlar başlanır. *Qayanada (Mərkəzi Amerika) dini zəmində 913 nəfərin kütləvi intiharı.

1979
*Məhəmmədrza şah Pəhləvi bir il qarmaqarışıqlıqdan sonra İranı tərk edir, başda müsəlman lideri ayətullah Ruhullah Xomeyni olmaqla inqilabi qüvvələr qalib gəlir (1 fevral). *Britaniyada seçkilərdə konservatorlar qalib gəlir, yeni baş nazir Marqaret Tetçer sənayeni əvvəlki sahibkarlara qaytarmaq planlarını bəyan edir. Tetçerin konservativ inqilabının əsas prinsipləri: *"azadlıq", "geniş imkanlar", "sahibkarlıq", "mülkiyyət", "ailə"* (26 mart). *Pakistanın keçmiş başçısı Zülfüqar Əli Bhuttonu Ziyaül-Həqqin rəhbərlik etdiyi yeni hökumət dara çəkir (4 aprel). *Avropa Parlamentinə ilk birbaşa seçkilər. *İranın yeni lideri ayətullah Xomeyni estrada musiqisini qadağan edir (23 iyun). *SSRİ DTK döyüşçülərinin xüsusi dəstəsi Əfqanıstanın prezident sarayını hücumla alır və prezident Əmini öldürür (27 dekabr), bunun ardınca bütün dünyada etiraz doğuran Sovet qoşunlarının Əfqanıstana soxulması başlanır.

1980

*ABŞ-ın Ali Məhkəməsi abortlara federal köməyin məhdudlaşdırılmasını təsdiq edir (30 iyun). *Türkiyədə dini, sağ və sol ekstremizm əleyhinə general Kənan Evrenin hərbi çevrilişi; baş nazir S.Dəmirəl devrilir, əsas siyasi partiyaların liderləri ev dustağı edilir (4 sentyabr). *Polşada Lex Valensanın başçılığı ilə "Həmrəylik" müstəqil həmkarlar təşkilatı yaradılır. *Zimbabve müstəqillik əldə edir (18 aprel). *ððSəudiyyə şahzadəsi Fəhd verdiyi fərmanla ölkə qadınlarına (hətta kişiləri yanında olsa belə) xaricdə təhsil almağı qadağan edir. *Əfsanəvi Britaniya pop-qrupunun lideri Con Lennon Nyu-Yorkda ruhi pozuntulu şəxs tərəfindən öldürülür (8 dekabr). *Argentina hüquq müdafiə təşkilatı*Nunca Mas* 1976-1980-ci illərdə ölkədə "itmiş" 10 minə yaxın adamın siyahısını dərc edir.

1981

*Gizli "İrlandiya Respublika Ordusu"nun lideri Bobbi Sends Britaniya türməsində etiraz əlaməti olaraq aclığa başlayır və ölənədək davam etdirir (1 may). *İsrail təyyarələri İraqdakı atom reaktorunu bombalayır (8 iyun). *Hökumət xərclərinin 35,6 milyard dollar azaldılması və vergilərin ixtisarı haqqında Reyqanın təklifini Konqres bəyənir (26 iyun-31 iyul). Bu tədbir 750 milyard dolların 5 il ərzində vergiverənlərin cibində qalmasına imkan verir. *Reyqan Arizonadan 51 yaşlı hakim Sandra Dey OKonnoru Ali Məhkəməyə təyin edir; o, Ali Məhkəmədə ilk qadın hakimdir (7 iyul). *Misirin prezidenti Ənvər Sadat İsraillə sülhün əleyhdarları tərəfindən qətlə yetirilir (6 oktyabr). Misir lideri Hüsni Mübarək olur. *Fransanın ilk sosialist prezidenti Fransua Mitteran (10 may) hakimiyyətə geniş sosialist yönlü islahatlar proqramı ilə gəlir. Sonralar qeyri-səmərəliliyi ucbatından Mitteran onlardan imtina etməli olur (1988-də yenidən seçilir). *Sonralar *AIDS* (QİÇS) adlanan müəmmalı xəstəlik barədə ilk məlumatlar (31 dekabr).

1982

*ABŞ-da qadınlara bərabər hüquqlar verilməsi barədə düzəliş ratifikasiyadan keçmir (30 iyun). *Polşa parlamenti "Həmrəylik" və başqa müstəqil həmkarlar təşkilatlarını qanundankənar hesab edir (8 oktyabr). Polşa hökuməti dünya ictimaiyyətinin təzyiqi nəticəsində "Həmrəylik" lideri Lex Valensanı azad edir (13 noyabr). *Papa II İohann Pavel Böyük Britaniyaya səfərə gedir. Bu, Roma papasının 1531-ci ildən bəri ilk səfəri idi.

1983

*Ancey Vaydanın "Dəmir adam" filmi "sosial anarxiyaya çağırışa görə" Polşada qadağan edilir (22 yanvar). *ABŞ Konqresinin komissiyası qərara alır ki, İkinci dünya müharibəsi vaxtı 120.000 yaponun və Yaponiya vətəndaşının tərksilah edilib ölkə daxilində nəzarətə alınması böyük ədalətsizlik idi (24 fevral). *OPEK üzvləri ilk dəfə olaraq neftin qiymətinin aşağı salınmasına razılıq verirlər (14 mart). *Reyqan kosmosda yerləşəcək raketlərə qarşı sistem – "Ulduz müharibəsi" üzrə işin başlandığını bəyan edir (23 mart). *60 yaşlı Harold Vaşinqton — Çikaqoda seçilmiş ilk "qara" mer (12 aprel). *ABŞ Ali Məhkəməsi elan edir ki, əfv imkanı olmayan ömürlük həbs cəzası qeyri-konstitusiondur (28 iyun). *Lex Valensanın arvadı ərinə verilmiş Nobel sülh mükafatını alır (10 dekabr). *İtaliya Bettino Kraksini özünün ilk sosialist baş naziri seçir. *Türkiyədə hərbi hökumət hakimiyyəti seçilmiş parlamentə verir. Mülki hökumətə Turqut Özal (Ana Vətən Partiyası) başçılıq edir. *Argentinada hərbi idarəetmənin sonu (10 dekabr).

1984

*Corc Oruellin "1984" novellası bestsellerə dönür (18 yanvar). *İtaliya və Vatikan katolik dininin dövlətdən ayrılması barədə müqavilə imzalayır (18 fevral). *Avstraliyada ilk dəfə dondurulmuş embriondan uşaq doğulur (10 aprel). *Beynəlxalq məhkəmə ABŞ-ı Nikaraqua liman sularının minalanmasında müqəssir sayır (10 may). *Tarixdə ilk dəfə olaraq Floridada ər öz arvadını zorladığına görə mühakimə olunur (1 sentyabr). *Argentina ona verilən yeni kreditlərin əvəzində BVF-in təklif etdiyi ciddi qənaət planı ilə razılaşır (25 sentyabr). *ABŞ Konqresi siqaret çəkənlər əleyhinə qaydaları sərtləşdirir — istehsalçılar bundan sonra siqaret qutularında xərçəng, ürək və ciyər xəstəlikləri, habelə analıq üçün təhlükə barədə xəbərdarlıq etməlidirlər (26 sentyabr). *Çin böyük şəhərlərin sənayesində liberal iqtisadi islahatlar həyata keçirir və xarici ticarəti genişləndirir. Gənc texnokratların hökumətə cəlb olunmasına başlanır (20 oktyabr). *Hindistanın baş naziri İndira Qandi Yeni Dehlidə öz evində milliyyətcə siqh olan 2 mühafizəçi tərəfindən qətlə yetirilir (31 oktyabr). *Sülh üzrə Nobel mükafatı laureatı Desman Tutu Cənubi Afrika Respublikasında ilk "qara" yepiskop olur (13 noyabr). *İlk Şumer lüğəti dərc olunur. Lüğət "B" hərfi ilə başlanır (30 noyabr). *ABŞ YUNESKO-nu bürokratizmdə, siyasiləşməkdə və dünyada insan hüquqlarına etinasızlıqda təqsirləndirərək bu təşkilatdan çıxdığını elan edir (19 dekabr). *Çinin ədəbiyyat və incəsənət xadimlərindən 500 nəfər ölkədə siyasi senzuraya son qoymağa çağırır (31 dekabr).

1985
*Braziliyada prezident seçkilərində müxalifətin lideri Tankredo Neves qalib gələrək son 21 il ərzində ilk mülki prezident olur. *ABŞ Konqresinin hər iki palatasının birgə yığıncağında çıxış edən Marqaret Tetçer Qərbin hərbi qüdrətini gücləndirməyə yönəldilmiş siyasəti dəstəkləməyə çağırır. Bu siyasət SSRİ-ni danışıqlar masası arxasına gətirəcək. Bu, Çörçillin 1952-ci il müraciətindən sonra ABŞ Konqresinə Britaniya baş nazirinin ilk müraciətidir (20 fevral). *Sovet lideri K.Çernenko ölür (10 mart), Sovet Kommunist Partiyasının rəhbəri və SSRİ-nin faktik lideri 54 yaşlı Mixail Qorbaçov olur (11 mart). *Yeyl məktəblərindən birində bir şagird Mark Tvenin Yeyl Universitetinə daxil olmuş ilk "qara" tələbələrdən birinə kömək etmək haqqında çağırış məktubunu aşkar edir. Mark Tven məktubda qeyd edir ki, biz qaradərililərə biabırçı münasibətimizin əvəzini ödəməliyik (13 mart). *Cənubi Afrika Respublikası fərqli irqlərdən olan qarışıq nikahları qadağan edən qanunu ləğv edir. Konservatorlar qanunun ləğv olunmasına qarşı çıxırlar (15 aprel). *İspaniya və Portuqaliya Avropa Şurasına daxil olur. İndi şuranın tərkibində 12 ölkə olur. Avropa Şurasının əhalisi 300 milyon nəfərə çatır (12 iyun). *İngilis kilsəsi qadınlara dyakon (kilsədə aşağı iyerarxiya) vəzifəsini tutmağa imkan verən qərar qəbul edir, lakin onlara yepiskop olmağa icazə vermir (2 iyun). *Cənubi Afrika Respublikasında ilk irqlərarası nikah bayram edilir (15 iyun). *Böyük Britaniya YUNESKO-nu Qərbə qarşı istiqamətlənməkdə günahlandıraraq BMT-nin bu bölməsini tərk edir (5 dekabr). *Amerikanın fəthi zamanı ispanların yerli əhaliyə qarşı törətdikləri kütləvi vəhşiliklərin şahidi olmuş ispan missioner Xose de Akostanın 400 il müddətində qadağan olunmuş xatirələri İspaniyada dərc edilir.

1986
*ABŞ-da zənci lideri Martin Lüter Kinqin öldürüldüyü gün ilk dəfə rəsmi olaraq qeyd edilir (20 yanvar). *La-Manş suları altından İngiltərəni Avropa qitəsi ilə birləşdirəcək tunelin tikintisi haqqında müqavilə imzalanır (20 yanvar). *Çernobıl AES-də baş verən partlayış radioaktiv maddələri bütün Avropaya yayır (26 aprel). *Qorbaçov *yenidənqurma, aşkarlıq və iqtisadi islahatlar* siyasətini elan edir. O, ölkədəki başlıca dissidentləri (Dmitri Saxarov və b.) azad edir (19 dekabr).

1987
*Anqlikan kilsəsinə ilk qadın yepiskop təyin edilir (26 fevral). *Marqaret Tetçer — Böyük Britaniyada XX əsrdə seçkilərdə üçüncü dəfə qələbə çalmış baş nazir (11 iyun). *Yasir Ərəfatı gülünc şəkildə təsvir etmiş Fələstin karikaturisti Böyük Britaniyada öldürülür (22 iyul).

1988
*Fələstinlilər İsrail işğalına qarşı uzunmüddətli dinc etirazlar kampaniyasına — İntifada başlayırlar (20 yanvar). *SSRİ öz qoşunlarını Əfqanıstandan çıxarmağa başlayır (15 may). *Səudiyyə polisi Məkkədə həcc ziyarətinə gəlmiş iranlı nümayişçilərə atəş açır,  400 nəfərə yaxın adam öldürülür (30 iyul). *Pakistan prezidenti Ziyaül-Həqq təyyarə qəzasında həlak olur (17 avqust). *Azərbaycanın paytaxtı Bakıda yüzminlərlə insanın gecə-gündüz davam edən 19 günlük mitinqi — müstəqillik və demokratiya uğrunda ümumxalq hərəkatının başlanğıcı (17 noyabr). *Yasir Ərəfat terrorizmi pisləyir və İsrail dövlətini tanıyır (14 dekabr).

1989
*İranda ayətullah Xomeyni Pakistan yazıçısı Salman Rüşdinin "Şeytan ayələri" kitabını küfr və müsəlmanlar üçün təhqir elan edir, kitabın müəllifini və naşirini ölümə məhkum edir (14 fevral). *Əfqanıstandan SSRİ qoşunlarının çıxarılması sona yetir (15 fevral). *Boris Yeltsin SSRİ parlament seçkilərində moskvalıların 7 milyon səsini toplayaraq qələbə çalır (28 mart). *Parlament seçkilərində Polşanın "Həmrəylik" həmkarlar ittifaqı tam qələbə çalır (iyun), kommunist Yaruzelski prezident olur (iyul), "Həmrəylik"in nümayəndəsi Mazovetski Polşanın baş naziri olur (sentyabr).

*On minlərcə çinli tələbə Tyananmen meydanında ölkənin demokratikləşdirilməsi tələbi ilə nümayiş keçirir (19 aprel). Kommunist Partiyasının islahatçı lideri Xu Yaobanın ölümü ilə bağlı mitinqə yığılmış tələbələr həmin tələbləri irəli sürürlər (22 aprel). Aprelin 27-də tələbələr Pekinin mərkəzi meydanı Tyananmeni tuturlar. Mayın 4-də Qorbaçovun Çinə səfəri ərəfəsində 100.000-ə yaxın çinli tələbə ölkədə demokratik islahatları dəstəkləmək çağırışı ilə nümayişə başlayır. İyunun 4-də Çinin hökumət qoşunları Pekinin Tyananmen meydanında və digər 20 şəhərdə demokratiyanın müdafiəsi üçün keçirilən nümayişləri qəddarlıqla yatırır; 3.000-ə yaxın adam öldürülür,

10.000 nəfər mühakimə edilir, 31 nəfər edam olunur. Çin Kommunist Partiyasının demokratik islahatlar çağırışı ilə çıxış edən lideri istefaya göndərilir.

*200 mindən artıq etnik türk slavyanlaşdırmadan xilas olmaq üçün Bolqarıstanı tərk edir (31 mart). *Qorbaçov parlamentin qərarı ilə SSRİ-nin prezidenti seçilir (25 may). *Macarıstanda demokratiya uğrunda kütləvi çıxışlar. Macarıstanla Avstriya arasında sərhədlər açılır, hər iki istiqamətə minlərlə adam keçir. Macarıstan Sosialist Partiyasını idarə üçün kollektiv rəhbərlik (4 nəfərdən ibarət) formalaşdırılır. Prezident üsul-idarəsi, demokratik azadlıqlar və çoxpartiyalı sistemi təsdiq edən keçid dövrü Konstitusiyası qəbul olunur (oktyabr). *Sovet hökuməti bildirir ki, surətçıxarma aparatları üzərində nəzarətə son qoyur (31 oktyabr). *Şərqi Almaniyada demokratik islahatlar uğrunda ümummilli nümayişlər; ölkənin kommunist lideri Erix Honekker istefa verir (18 oktyabr), ADR və Çexoslovakiya arasındakı sərhədlər açılır, ADR-in minlərlə vətəndaşı Çexoslovakiyadan keçməklə Qərbə yollanır (4 noyabr). *Şərqi Berlin nümayişçiləri "Berlin səddi"ni dağıdaraq Qərbi Berlindən olan nümayişçilərə tərəf üz tuturlar (9 noyabr). *Çexoslovakiyada "məxməri inqilab", Vətəndaş forumunun rəhbərliyi ilə demokratik islahatların müdafiəsi üçün keçirilən dinc nümayişlər nəticəsində kommunist rejimi süqut edir (noyabr-dekabr), Vatslav Havel prezident seçilir, Aleksandr Dubçek isə parlamentin sədri olur. *SSRİ prezidenti Qorbaçov və ABŞ prezidenti Buş Malta sahillərindəki gəmidə planetin taleyi barədə danışıqlar aparırlar, Qorbaçovun mətbuat katibi jurnalistlərə elan edir: *"Bu gün saat 12.45-də "soyuq müharibə"yə son qoyuldu"*. Dünya ictimaiyyəti bunu Qorbaçovun xidməti kimi qiymətləndirir (3 dekabr). *Rumıniyada üsyan nəticəsində Çauşesku rejimi süqut edir. Üç min nəfər nümayişçi həlak olur. Çauşesku və qadını edam olunurlar. Hakimiyyətə İon İliyeskunun başçılıq etdiyi kommunist yönlü Milli Qurtuluş Cəbhəsi gəlir (25 dekabr). *Böyük Britaniyada Yaşıllar Partiyası (ekologiyaçılar) Avropa Parlamenti seçkilərində 2 milyon səs toplayıb leyboristlər və konservatorlardan sonra üçüncü yeri tutur.

1990

*Moskva Azərbaycandakı müstəqillik hərəkatını yatırtmaq üçün Bakıya qoşun yeridir, 131 dinc nümayişçi həlak olur və 1000-ə qədəri yaralanır (20 yanvar). *Hakimiyyət üzərində 45 illik inhisar yuqoslav kommunistlərinin əlindən çıxır (22 yanvar). *Çexoslovakiyada 22 000 məhbus əfv olunur (yanvar), V.Havel 1991-ci ilin mayınadək Sovet qoşunlarının ölkədən tam çıxarılmasına dair SSRİ ilə müqavilə imzalayır. *Cənubi Afrikada Nelson Mandela 27 illik həbsdən sonra azadlığa çıxır (11 fevral). *İraq Küveytə soxulur və onu özünün 19-cu əyaləti elan edir. BMT İraqla ticarətə embarqo qoyur (2 avqust). *Şərqi Almaniya parlamenti Qərbi Almaniya ilə birləşmək haqqında qərar qəbul edir (23 avqust). *Qərbi və Şərqi Almaniyanın rəsmi olaraq birləşməsi oktyabrın 3-də baş verir. Dünya bu hadisəni Avropada "soyuq müharibə"nin sonu kimi qiymətləndirir. * "Həmrəylik" həmkarlar ittifaqının lideri Lex Valensa Polşa prezidenti seçilir. ABŞ hökuməti Polşanın bütün borclarını bağışlayır (9 dekabr). *Haitidə ilk demokratik seçkilərdə liberal yönlü rahib prezident seçilir (17 dekabr). *SSRİ-nin bəzi regionlarında aclıq təhlükəsi; SSRİ hökuməti Qərbdən ərzaq köməyi istəyir.

1991

*ABŞ və onun müttəfiqləri İraqı 4 gün ərzində məğlub edib Küveyti azad edirlər. İraqın 175.000 əsgəri əsir düşür (23 fevral). *Baltika respublikaları, Moldova, Gürcüstan və Ermənistandan başqa SSRİ-nin bütün əhalisi referendumda "SSRİ-nin bərabərhüquqlu respublikaların yeniləşmiş federasiyası" kimi saxlanılmasına səs verir (16 mart). *Böyük Britaniyanın kilsələri son 10 il ərzində yarım milyona yaxın bazar günü ziyarətçisini itirir. *Albaniyanın kommunist hökuməti istefaya çıxır (4 may). *Cənubi Afrika Respublikasında aparteid (irqi ayrı-seçkilik qanunu) ləğv olunur (5 iyun). *Kommunistlərin Qorbaçova qarşı baş tutmayan dövlət çevrilişi cəhdi; müqavimət hərəkatına Rusiya Federasiyasının demokratik yolla seçilmiş ilk prezidenti Boris Yeltsin başçılıq edir (18-21 avqust). *Çevrilişin iştirakçıları həbs olunur, Qorbaçov Kommunist Partiyasının baş katibi vəzifəsindən istefa verir (24 avqust). Rusiya, Qazaxıstan və Ukrayna müstəqilliklərini elan edirlər. SSRİ parlamenti Sov. İKP-nin fəaliyyətini qadağan edir. *Ukrayna Ali Soveti ölkənin müstəqilliyini elan edir (24 avqust). *Boris Yeltsin Sovet İttifaqı Kommunist Partiyasının RSFSR ərazisində fəaliyyətinə xitam verilməsi haqqında fərmanı imzalayır; Sov. İKP-nin qadağan olunmasının əsas səbəbi onun avqust qiyamında iştirakıdır (6 noyabr). *Rusiya prezidenti Yeltsin, Ukrayna prezidenti Kravçuk və Belarus prezidenti Şuşkeviç Belovej meşəsində (Belarus) SSRİ-nin yaradılması haqqında müqavilənin dayandırılması barədə saziş imzalayırlar (8 dekabr). *Qorbaçov SSRİ-nin prezidenti vəzifəsindən istefa verdikdən bir gün sonra SSRİ rəsmi olaraq öz mövcudluğuna son qoyur. Çəkic-oraqlı qırmızı bayraq Kremlin başından endirilir, onun yerinə Rusiyanın ağ-göy-qırmızı bayrağı qaldırılır. Kommunistlərin 1917-ci il noyabrın 7-dən davam edən hakimiyyəti süqut edir (26 dekabr).

1992

*Afro-amerikalı Rodney Kinqin polis tərəfindən amansızcasına döyülməsinə etiraz əlaməti olaraq Los-Ancelesdə irqi iğtişaşlar (2 may). *Kanadanın S-128 qanunu 18 yaşınadək uşaqların cinsi münasibətlərə (öpüş də daxil olmaqla) cəlb olunması təsvirini qadağan edir (iyun). *ABŞ-da aborigenlərə itirilmiş torpaqlarına hüquq verən yerli əhali haqqında qanun qəbul olunur (22 dekabr).

1993
*Prezident Valensa Polşada abortu qadağan edən və bu qanunu pozan həkimlərə 2 illik həbs cəzası nəzərdə tutan qanun imzalayır (15 mart). *İsrail və Fələstin Azadlıq Təşkilatı Fələstin muxtariyyəti haqqında razılıq imzalayırlar (13 sentyabr). Azərbaycanda hərbi çevriliş nəticəsində demokratik yolla seçilmiş prezident Elçibəy devrilir, rəhbərlik Milli Məclisin sədri Heydər Əliyevə keçir (iyun).

1994
*Şimali Koreyanı 1949-cu ildən idarə edən kommunist diktator – “böyük rəhbər” Kim İr Sen ölür (iyul).

1995
*ABŞ Konqresində son 40 ildə ilk dəfə Respublikaçılar Partiyası çoxluq təşkil edir (4 yanvar). *Yaponiyada “Aum Sinrikyö” dini sektasının üzvləri metroda zəhərli qaz yaymaqla 5000 sərnişini zəhərləyirlər, onlardan 12-si ölür (20 mart). *Böyük Britaniyada cinayətkarların genetik informasiyasından ibarət DNT bankı yaradılır (10 aprel). *Srebrennitsa şəhəri serb ordusu tərəfindən alınandan sonra 12-14 min nəfər Bosniya müsəlmanı “yoxa çıxır” (13 iyul). *Serbiya NATO-nun hərbi müdaxiləsinə məruz qalaraq ABŞ-ın sülh planını qəbul edir, Bosna-Hersek Respublikası iki yerə bölünür, onun bir hissəsinə Xorvat-Müsəlman Federasiyası, digərinə isə Bosniya serbləri nəzarət edir (sentyabr).

1996
*Somalidə məhkəmə 30 nəfər müğənni, musiqiçi və artisti öz çıxışlarının materiallarını senzora təqdim etməkdən boyun qaçırdıqlarına görə həbs cəzasına məhkum edir (8 yanvar).

1997
*Çində iqtisadi islahatlara rəhbərlik edən Kommunist Partiyasının lideri Den Syaopin 92 yaşında vəfat edir (19 fevral). *Britaniya alimləri tarixdə ilk dəfə məməli heyvanın klonunu (dəqiq genetik surətini) yaradırlar, bu eksperimentin uğurlu nəticəsi bütün dünya ictimaiyyətini narahat edir, artıq insanın surətini yaratmağa yol açıqdır (fevral). *İranda prezident seçkilərində liberal islahatlar tərəfdarı Məhəmməd Xatəmi 60%-dən çox səs toplayaraq ölkənin keçmiş prezidenti Rəfsəncanini məğlub edir (15 may). *Honkonq üzərində 150 illik Britaniya hökmranlığı başa çatır, Honkonq xüsusi inzibati ərazi kimi Çinə birləşir (1 iyul).

1998
*Keçmiş dissident, ədalət əsiri Kim De-Cunq Cənubi Koreyanın prezidenti seçilir (25 fevral). *Prezident Klinton Qanaya səfər edir və Afrikaya gələn ilk ABŞ prezidenti olur, bir qədər sonra Seneqalda o öz nitqində amerikalıların qul alverində iştirakına görə Afrika xalqından üzr istəyir (22 mart). *İndoneziyada kütləvi etiraz və iğtişaşlardan sonra ölkə diktatoru Suxarto istefa verir (may).*162 ölkənin Romada toplanmış nümayəndələrinin qərarı ilə dünya birliyinin diqqətini cəlb edən ən ağır cinayətlər üzrə işlərə baxmaqla məşğul olacaq Daimi Beynəlxalq Cinayət Məhkəməsi yaradılır. ABŞ, İsrail, Livan, İraq və Sudan dövlətləri hər biri özünün irəli sürdüyü səbəblər üzündən məhkəmənin nizamnaməsinə qol çəkməkdən imtina edirlər (17 iyul). *Azərbaycanda demokratik qüvvələrin təzyiqi altında prezidentin qərarı ilə kütləvi informasiya vasitələri üzərində siyasi senzura ləğv olunur (6 avqust).

## 51. XOŞBƏXTLİYİN LİBERAL İDEALI

### İsayya Berlin

Britaniya tarixçisi, yazıçısı və siyasi filosofu İsayya Berlin (1909) öz valideynləri ilə birgə Sovet Rusiyasından İngiltərəyə 1920-ci ildə mühacirət etmişdir. Oksford Universitetindəki təhsilini yüksək göstəricilərlə başa vurduqdan sonra həyatını elmə və müəllimliyə həsr edən Berlin başlıca elmi əsərlərində — "Karl Marks. Həyatı və mühiti" (1939), "Maarif əsri" (1956), "Azadlıq haqqında dörd esse" (1969) adlı yazılarında totalitar sistemlərdə, eləcə də müasiri olduğu Qərb demokratiyalarında azadlıq və azad iradə problemlərindən söhbət açır və Qərb demokratiyasını cəmiyyəti "xoşbəxt etmək" işində hədsiz şövq və həvəsin təhlükəsindən xəbərdar edir.

Berlinin liberalizm nəzəriyyəsinin inkişaf etdirilməsi və təbliği sahəsindəki fəaliyyəti Qərbdə olduqca yüksək qiymətləndirilir. Bunu göstərmək kifayətdir ki, 1957-ci ildə o, kraliça tərəfindən cəngavərlik rütbəsinə və "Xidmətlərə görə" ordeninə layiq görülür.

Onun Oksford Universitetində oxuduğu "Azadlığın iki konsepsiyası" (1958) (sonralar "Azadlıq haqqında dörd esse"yə daxil edilmişdir) adlı məşhur mühazirəsi mütəxəssislərin yekdil fikrincə, müharibədən sonrakı siyasi nəzəriyyədə ən sanballı işlərdən sayılır.

Berlinin bu mühazirəsi Qərbin demokratik ənənəsində azadlıq anlayışının təhlilinə həsr olunmuşdur. O, azadlığı iki qismə bölür: neqativ və pozitiv azadlıq. Berlin pozitiv azadlığı bəşəri və ya ictimai məqsədlərin əldə edilməsi azadlığı kimi müəyyənləşdirir. Neqativ azadlıq isə cəmiyyət və dövlətin insanın muxtariyyətinə müdaxilə etməməsi üçün gərək olan azadlıqdır.

Bu hər iki azadlıq Qərbin "demokratik həyat" anlayışına daxil edilib. Lakin bununla belə, Berlin göstərirdi ki, 20-ci əsrdə bəzi dövlətlərin insanı zorla "xoşbəxt etmək" kimi sərsəm və fəlakətli cəhdləri bizi pozitiv azadlığa həddindən artıq meyl göstərməkdən çəkindirməlidir, belə ki, məsələn, kommunist və faşist rejimlərində pozitiv azadlığın bolluğu neqativ azadlığı büsbütün məhv etmişdi.

Bəs bəzi millət atalarına nə haqq verir ki, insanın əvəzinə onun taleyini həll etsinlər? Görünür, onlara elə gəlir ki, sadə insan həqiqi xoşbəxtliyin nədən ibarət olduğunu dərk etməkdə acizdir, bunu yalnız hakimi-mütləqlər bilə bilər.

Berlin bu cür xoşbəxtliyi qəbul etmir. O, həyatın mənasına və dəyərlərinə müxtəlif baxışların olması və onların prinsipcə bir araya sığmaması haqqında tezisi irəli sürür. Berlinin qəti əqidəsincə, insanlar onların həyatının dəyərinin nədən ibarət olduğunu özləri həll etməlidir. Seçmək azadlığı elə "həqiqi və humanist ideal" deməkdir.

İSAYYA BERLİN

# Azadlığın iki konsepsiyası (1958)

*...Mən insanların bütün ən müxtəlif məqsədlərini bir harmoniyaya sala biləcək vahid düsturun prinsipcə mümkünlüyünə olan inamı qeyd-şərtsiz yanlış sayıram.*

İnsanı məcbur etmək onun azadlığını əlindən almaq deməkdir, lakin nədən azadlığını?.. Mən onun iki ábaşlıca mənasını nəzərdən keçirməyə hazırlaşıram; bunlar bəşər tarixinin keçmişinin olduğu kimi, cəsarətlə deyirəm ki, gələcəyinin də böyük hissəsini ehtiva edir.

Azadlığın bu siyasi mənalarından birincisini mən (daha çox presedentə istinad edərək) *neqativ* adlandıracağam və bu məna aşağıdakı suala cavabda nəzərdə tutulur: "Hüdudları daxilində subyektə — insan, yaxud insan qrupu olsun — qabiliyyəti çatanı etməyə, yaxud digər adamlar tərəfindən müdaxiləyə məruz qalmadan bacardığı kimi olmağına icazə verilən və ya icazə verilməli olan o sahə necədir?".

İkinci mənanı mən *pozitiv* adlandıracağam və o, aşağıdakı suala cavabda nəzərdə tutulur: "Nə, yaxud kim nəzarət, ya müdaxilə mənbəyidir və insanı bu yox, başqa hərəkət etməyə, yaxud bu cür deyil, başqa cür olmağa məcbur edir?". Şübhəsiz, bunlar müxtəlif suallardır, lakin onlara cavablar qismən üst-üstə düşə bilər.

***Neqativ azadlıq anlayışı***

Adətən deyirlər ki, insan heç kimin — istər başqa insanın, istərsə də insan qrupunun onun hərəkətlərinə mane olmadığı ölçüdə azaddır. Siyasi azadlıq bu mənada məhz o sahədir ki, onun hüdudları daxilində insan başqalarının müdaxiləsinə (və məcburiyyətinə) məruz qalmadan fəaliyyət göstərə bilər.

Əgər başqa adamlar mənə əks halda edə biləcəyimi etməyə imkan vermirlərsə, onda mən o dərəcədə azad deyiləm; əgər deyilən sahə başqa adamların təsiri ilə müəyyən həddən azalaraq daralırsa, onda mənim haqqımda demək olar ki, mən məcburiyyət halında və hətta ola bilər ki, kölə vəziyyətində yaşayıram. Lakin "məcburiyyət" sözü bizim heç nə edə bilmədiyimiz bütün halları əhatə etmir. Əgər mən on futdan yuxarı tullana bilmirəmsə, yaxud korluğuma görə oxuya bilmirəmsə, ya da Hegeldəki qaranlıq məqamları əbəs yerə başa düşməyə çalışıramsa, onda bu dərəcədə əsarətə, yaxud məcburiyyətə məruz qalıram demək qəribə səslənərdi. Məcburiyyət mənim əks halda maneəsiz fəaliyyət göstərə biləcəyim sahəyə başqa adamların qərəzli müdaxiləsi deməkdir. Siz yalnız o vaxt siyasi azadlıqdan məhrum edilirsiniz ki, başqa adamlar sizin hər hansı məqsədə çatmağınıza mane olur(1).

Məqsədə çata bilməməyin sadəcə bacarıqsızlığı hələ siyasi azadlığın yoxluğu demək deyildir (2). "İqtisadi azadlıq" və "iqtisadi əsarət" kimi qarşılıqlı əlaqədə olan ifadələrin müasir dövrdə işlədilməsi də bunu sübut edir. Bəzən çox inadla sübut etməyə çalışırlar ki, əgər bir adam çox kasıbdır və özünə bir kömbə çörək ala bilmirsə, dünya səyahətinə çıxa, yaxud yardım üçün məhkəməyə müraciət edə bilmirsə (bütün bunlara heç bir hüquqi qadağa yoxdursa da), onda o bunların qanunla yasaqladığı vaxtdakından çox azad deyil. (Lakin) mənim kasıblığım, bir növ, xəstəlik olsaydı və çörək almaq, dünya səyahətinə çıxmaq, yaxud işimə məhkəmədə baxılmasına nail olmaq imkanımı əlimdən alsaydı (axsaqlıq yüyürmək imkanımı aldığı kimi), onda burada azadlığın, xüsusən də siyasi azadlığın olmamasından danışmaq qeyri-təbii görünərdi...

Azadlıq bu mənada yalnız mənə başqalarının mane olmadığını bildirir. İşlərimə nə qədər az müdaxilə edilərsə, azadlığım o qədər çoxdur.

İngilis siyasi fəlsəfəsinin klassikləri(3) azadlığı məhz bu cür başa düşürdülər. Onların baxışları deyilən sahə nə qədər geniş ola bilər, yaxud olmalıdır məsələsində fərqlənir. Onların fikrinə görə, mövcud şəraitdə o, sonsuz ola bilməz, çünki onun sonsuzluğu elə vəziyyət yaradar ki, hamı bir-birinə qarşı sonsuz maneələr törədər və bu cür "təbii azadlıq" nəticəsində sosial qarışıqlıq yaranar və adamların hətta minimum tələbatı belə ödənilməz, zəifin azadlığını isə güclülər pozar... Onlar ədalət, xoşbəxtlik, mədəniyyət, təhlükəsizlik, yaxud bərabərliyin müxtəlif formaları kimi dəyərləri azadlıqdan üstün tutur, ona görə də azadlığı bu dəyərlərin, yaxud hətta onun özünün naminə məhdudlaşdırmağa hazır idilər... Buna görə də bu mütəfəkkirlər qəbul edirdilər ki, insanların azad fəaliyyət sahəsi qanunla məhdudlaşdırılmalıdır. Lakin onlar, xüsusilə İngiltərədə Lokk və Mill, Fransada Konstan və Tokvill kimi libertariançılar eyni dərəcədə mümkün hesab edirdilər ki, hər hansı müdaxilədən azad minimum şəxsi azadlıq sahəsi mövcud olmalıdır. Əgər bu azadlıq pozulursa, fərdi iradə çox dar, hətta təbii insan qabiliyyətinin minimum inkişafı üçün də dar olan bir çərçivəyə salınır... Buradan belə bir nəticə çıxır ki, şəxsi həyat və hakimiyyət sahələri arasında həddin müəyyənləşdirilməsi zəruridir. Onu haradan keçirməli — bu haqda mübahisə etmək, əslində müqavilə bağlamaq da olar...

İnsan təbiətinə nikbin baxışın tərəfdarı olan və insan maraqlarının harmoniya qaydalarına uyğunlaşdırılmasının mümkünlüyünə inanan filosoflar üçün (onlara Lokk, Adam Smit, bəlkə Mill də daxildir) sosial harmoniya və tərəqqi kifayət qədər böyük şəxsi həyat sahəsini ləğv etmir və onun hüdudları nə dövlət, nə də hər hansı digər hakimiyyət orqanı tərəfindən pozula bilər. Hobbs və onun tərəfdarları, xüsusilə mühafizəkar və mürtəce mütəfəkkirlər hesab edirdilər ki, insanların bir-birini məhv etməsinə və sosial həyatı cəngəllik və səhraya çevirməsinə mane olmaq lazımdır; onlar insanların qarşısını almaq üçün ehtiyat tədbirləri görməyi təklif edir və buna görə də hesab edirdilər ki, mərkəzləşdirilmiş nəzarət sahəsini böyütmək və uyğun olaraq fərdlər tərəfindən nəzarət edilən sahəni kiçiltmək lazımdır. Ancaq həm onlar, həm də digərləri razı idilər ki, insan yaşayışının müəyyən sahəsi ictimai nəzarətdən azad olmalıdır. Bu sahəyə (onun nə qədər kiçik olmasına baxmayaraq) müdaxilə despotizm deməkdir. Azadlıq və şəxsi həyat sahəsinin ən qızğın havadarı olan Bencamin Konstan yakobin diktaturasını heç vaxt yadından çıxarmayaraq despotik təcavüzdən heç olmasa, *din, əqidə, özünüifadə və*

*mülkiyyət azadlığını* qorumağa çağırırdı. Cefferson, Berk, Peyn və Mill fərdi azadlıqların müxtəlif siyahılarını tərtib etmişdilər, amma hakimiyyəti aralıqda saxlamağın zəruriliyini oxşar qaydada əsaslandırırdılar...

Bəs onda minimum azadlıq necə olmalıdır? Bu o azadlıqdır ki, insan öz insani təbiətinin mahiyyətinin əleyhinə getmədən ondan imtina edə bilməz. Onun mahiyyəti necədir? Ondan hansı normalar irəli gəlir? Bu suallar arasıkəsilməz mübahisələrin obyekti olmuş və yəqin ki, həmişə də olacaqdır. Ancaq müdaxilədənkənar sahəni hansı prinsipin (*təbii hüquq, yaxud insan hüququ, utilitarizm (4) prinsipi, yaxud qəti imperativ postulatı, ictimai müqavilənin toxunulmazlığı,* yaxud adamların öz fikirlərini izah etdikləri və əsaslandırdıqları istənilən digər anlayış olsun) müəyyənləşdirməsindən asılı olmayaraq burada nəzərdə tutulan azadlıq *nədənsə azadlıq* deməkdir; o, bir qədər dolaşdırılmış, amma həmişə dəqiq dərk olunan sərhəddən o tərəfə keçməyi qadağan edir. “Azadlıq adına ancaq elə azadlıq layiqdir ki, özümüzə xeyirli saydığımız şeyi əldə etməyə tam azad şəkildə can ata bilək” — azadlığın ən məşhur tərəfdarlarından biri belə deyirdi. Nəyə görə fərdi azadlığın müdafiəsi Mill üçün bu dərəcədə müqəddəsdir? O, məşhur traktatında(5) bildirir ki, insanlara istədiyi və “onların yalnız özlərinə aid olan” həyat tərzini keçirməsinə icazə verilməyincə sivilizasiya inkişaf edə bilməz; azad ideyalar mübadiləsi olmasa, biz həqiqəti tapa bilməyəcəyik: özünəməxsusluq, orijinallıq, dahilik, əqli enerji və mənəvi şücaətin inkişafı üçün imkan olmayacaqdır. Azadlığın müdafiə olunmasının qarşısında neqativ məqsəd — müdaxilənin qabağını almaq dayanır...

...Bu doktrina nisbətən yaxınlarda meydana gəlmişdir. Antik dünya çətin ki, dərk olunmuş siyasi ideal kimi fərdi azadlıqla tanış olaydı (onun real həyata keçirilməsindən fərqlənərək). Artıq Kondorse fərdi hüquqlar anlayışının romalıların və yunanların hüquqi təsəvvürlərində olmadığını qeyd edirdi; bu, eyni dərəcədə yəhudi, Çin və bütün sonrakı sivilizasiyalara da aiddir. Bu idealın qələbəsi yaxınlara qədər hətta Qərb tarixində bir qayda olaraq deyil, istisna hallarda müşahidə olunurdu. Azadlıq bu yozumunda çox nadir hallarda böyük insan kütlələrini birləşdirən şüara çevrilirdi. Qəsdə məruz qalmamaq və öz ixtiyarında olmaq istəyi daha çox onu sübut edir ki, sivilizasiya həm ayrı-ayrı fərdlərin, həm də bütövlükdə cəmiyyətin simasında yüksək inkişaf pilləsinə çatmışdır. Şəxsi həyat və şəxsi münasibətlər sahəsinin müqəddəs şey kimi müzakirə olunması özlüyündə azadlıq konsepsiyasından irəli gəlir. Bu konsepsiya isə, dini köklərini nəzərə alsaq, yalnız İntibah, yaxud Reformasiya dövrünün başlanması ilə bitkin formaya düşmüşdür. Lakin bu azadlığın tənəzzülü sivilizasiyanın və bütün mənəvi dünyagörüşünün məhvi demək olardı...

Azadlıq bu anlamında mütləqiyyətin müəyyən formaları ilə, hər halda, demokratiya və özünüidarənin olmaması ilə uyğunlaşa bilir. Azadlığın bu mənada idarəetmənin mənbəyi ilə deyil, onun təsir sahəsi ilə prinsipial əlaqəsi var. Əslində demokratiya(6) vətəndaşı digər hakimiyyət formalarışəraitində istifadə etdiyi çoxlu sayda azadlıqlardan məhrum edə bilər və bundan başqa, öz təbəələrinə genişşəxsi fikir azadlıqları verən liberal əhval-ruhiyyəli despotu yaxşı təsəvvür etmək olar...

Azadlıq bu mənada (hər halda, məntiqi cəhətdən) demokratiya və özünüidarəetmə ilə bağlı deyildir. Ümumiyyətlə, özünüidarəetmə başqa rejimlərə nisbətən vətəndaş azadlıqlarını daha yaxşı təmin edə bilər, buna görə də bir çox libertariançılar onu müdafiə edirdilər. Lakin fərdi azadlıqla demokratik idarəetmə arasında zəruri əlaqə yoxdur. “Məni kim idarə edir” sualına cavabın “hökumət məni nə qədər məhdudlaşdırır” sualı ilə məntiqi əlaqəsi yoxdur. Məhz bu, son nəticədə, neqativ və pozitiv azadlıq anlayışları arasında ciddi fərqləri üzə çıxarır. Azadlığın pozitiv variantı özümüzə “Mən nəyi etməyə və kim olmağa azadam” sualını verən zaman deyil, biz “məni kim idarə edir” və “kim deməlidir ki, mənə nəyi etmək, nəyi etməmək olar və mənə kim olmaq olar, kim olmaq olmaz” suallarına cavab verməyə çalışan zaman öz hüquqi qüvvəsinə minir, ona görə də demokratiya və fərdi azadlıq arasında əlaqə bu və digərini müdafiə edənlərin gümanından daha zəifdir...

Azadlığın pozitiv konsepsiyası “-dan (-dən)” azadlığını deyil, “üçün” azadlığını — müəyyən edilmiş həyat tərzi aparmaq azadlığını nəzərdə tutur, buna görə də neqativ azadlığın tərəfdarları üçün o, bəzən yalnız amansız müstəbidliyin riyakar maskası kimi ortaya çıxır.

***Pozitiv azadlıq anlayışı***

“Azadlıq” sözünün pozitiv mənası fərdin öz şəxsi həyatının sahibi olmaq istəyindən irəli gəlir. Mən istəyirəm ki, həyatım və qəbul etdiyim qərarlar hansısa xarici qüvvələrin hərəkətindən deyil, özümdən asılı olsun... Mən kimsə olmaq istəyirəm: qərar qəbul edən xadim olmaq istəyirəm və mənim əvəzimə başqalarının qərar qəbul etməsini istəmirəm...

Mən, hər şeydən öncə, özümü seçdiyi yola görə məsuliyyət daşıyan və onu şəxsi əqidəsi və məqsədilə doğrultmağı bacaran düşüncəli, iradəli, fəal varlıq kimi dərk etmək istəyirəm...

Öz şəxsi həyatının sahibi olmaq azadlığı və mənim seçdiyim yola başqa adamların törətdiyi maneələrdən azadlıq ilk baxışda məntiqi cəhətdən bir-birindən o qədər də uzaq görünməyə bilər — bunlar elə bil eyni fikrin pozitiv və neqativ ifadə formasından başqa bir şey deyil. Lakin azadlığın pozitiv və neqativ anlamları tarixən əks istiqamətlərdə və heç də həmişə məntiqcə düzgün addımlar ata bilməyərək inkişaf edərək, və nəhayət, bir-biri ilə birbaşa toqquşmaya gəlib çıxdı. Bu vəziyyəti şərh edərkən bəzən ilk əvvəl zərərsiz olan özünə sahib olmaq metaforasının əldə etdiyi gücə istinad edirlər. "Mən özüm özümün sahibiyəm", "mən heç kimin köləsi deyiləm", lakin məgər mən (platonçu və hegelçilərin düşündükləri kimi) təbiətin köləsi ola bilərəmmi? Yaxud özümün azğın ehtiraslarımın?.. Məgər insanların özlərini mənəvi əsarətdən və təbiət qarşısında kölə mütiliyindən azad etmək təcrübəsi yoxdur və məgər bu azadlıq işinin gedişində insanlar özlərində bir tərəfdən başçılıq edən Mən, digər tərəfdən nə isə bu Mənə tabe olan bir şey kəşf etməmişdilərmi? Bu əsas Mən sonralar müxtəlif vasitələrlə idrak, insanın "ali təbiəti", onun "real", "ideal", yaxud "muxtar" Məni uzun müddət məmnun edən şeylərə can atan Mən, "ən yaxşı" Mənlə eyniləşdirilir və sonra bu Mən sarsaq meyllərə, idarəolunmayan istəklərə, insanın "alçaq" təbiətinə, onun bir anlıq həzz dalınca qaçmasına qarşı qoyulur... Hazırda bu iki Mən, belə deyək ki, daha böyük uçurumla ayrılmışdır: real Mən fərdin özündən daha geniş bir şey kimi, sosial cəhətdən "bütöv" bir şey kimi — tayfa, irq, kilsə, dövlət, yaxud bütün yaşayanların, ölənlərin və hələ doğulmayanların daxil olduğu böyük birlik olsun (buraya fərd ünsür, yaxud aspekt kimi daxil olur) — qəbul olunur. Sonra bu varlığı "həqiqi" Mənlə eyniləşdirirlər və o özünün tabe olmaq istəməyən üzvlərinə kollektiv, yaxud "təbii" iradəsini qəbul etdirərək şəxsi azadlığını əldə edir, o isə, beləliklə, bütün üzvlərin "ali" azadlığına çevrilir.

Məcburiyyətə guya onun insanları azadlığın "daha yüksək" səviyyəsinə qaldırması ilə haqq qazandıran müxtəlif üzvi metaforalardan istifadə olunması ilə bağlı təhlükələrdən dəfələrlə danışılmışdır. Belə ibarələri inandırıcı edən odur ki, biz, daha savadlı olsaydılar, yetişilməsinə can atacaqları, lakin avamlıq, nadanlıq və əxlaqsızlıq ucbatından bunu etmədikləri müəyyən məqsəd naminə (məsələn, ədalət və ictimai çiçəklənmə naminə) insanların məcbur edilməsini mümkün, bəzən də haqlı sayırıq. Bunun sayəsində mən asanlıqla belə düşünə bilərəm ki, adamları öz maraqlarıma görə deyil, onların öz xeyirləri üçün məcbur edirəm. Sonra bəyan edirəm ki, mən onların həqiqi ehtiyaclarını onların özlərindən yaxşı bilirəm. Buradan yaxşı halda belə çıxır ki, onlar da mənim kimi rasional və müdrik olsaydılar, öz maraqlarını mənim başa düşdüyüm qədər başa düşə bilərdilər və mənim məcburiyyətə əl atmağıma müqavimət göstərməzdilər. Lakin mən daha artığını təsdiqləyə bilərəm. Bəyan edə bilərəm ki, onlar özlərinin nadanlığı ucbatından şüurlü müqavimət göstərdikləri şeyə əslində can atırlar, çünki onların daxilində görünməyən bir mahiyyət — onların şüurlu iradəsi, yaxud "həqiqi" məqsədi vardır və bu mahiyyət onların hiss etdikləri, açıq dedikləri, etdikləri hər şeylə rədd edilsə də, əslində onların "həqiqi" Mənidir. Bu haqda onların məkan və zaman daxilində mövcud olan bədbəxt empirik Məni, ola bilər ki, heç nə bilmir, yaxud çox az bilir. İstəklərinin diqqətəlayiq olan yeganə Məni varsa, bu da məhz o görünməyən daxili ruhdur.

Belə mövqe tutaraq mən adamların "həqiqi" Məni naminə və onun adından adamların və birliklərin real istəklərini qulaqardına vura, onları qorxuda, sıxışdıra, incidə bilərəm...

### *Azadlıq və suverenlik*

Fransa inqilabı, hər halda onun yakobin forması, bütün böyük inqilablar kimi, pozitiv azadlıq ehtiraslarının sədası idi; bu ehtiras özünü azad millət hiss edən fransızların (onların çoxu üçün bu fərdi azadlıqların sərt məhdudlaşdırılmasına baxmayaraq) böyük hissəsini əhatə etmişdir. Russo qalibanə şəkildə bildirirdi ki, azadlıq qanunları tiraniya boyunduruğundan daha da sərt ola bilər. Tiraniya — ağaların xidmətçisidir. Qanun tiran ola bilməz. Russo azadlıqdan danışanda fərdin neqativ azadlığını (müəyyən sahə daxilində müdaxiləyə məruz qalmamaq) nəzərdə tutmur; o, nəzərdə tutur ki, istisnasız olaraq cəmiyyətin bütün bərabərhüquqlu üzvləri hər bir vətəndaşın həyatının istənilən tərəfinə müdaxilə edə biləcək dövlət hakimiyyətinin həyata keçirilməsində iştirak edirlər. On doqquzuncu əsrin birinci yarısında yaşamış liberallar düzgün qeyd edirdilər ki, pozitiv mənada azadlıq çox asanlıqla bir çox neqativ azadlıqları (onlar bu azadlıqları toxunulmaz hesab edirdilər) sarsıdacaqdır. Onlar deyirdilər ki, xalqın suverenliyi fərdin suverenliyini asanlıqla məhv edə bilər...

Heç kəs Bencamin Konstan kimi azadlığın iki forması arasında münaqişəni dərk edə və dürüst ifadə edə bilməmişdir. O, qeyd edirdi ki, adətən, suverenlik adlandırılan qeyri-məhdud hakimiyyət uğurlu üsyan nəticəsində bir əldən digərinə keçəndə, bu, azadlığı artırmır, yalnız köləlik yükünü başqa çiyinlərə keçirir. O, tam məntiqi sual verirdi ki, nə üçün insanı onu məhz nəyin — xalq hökumətinin, monarxın, yaxud despotik qanunların əzdiyi narahat etməlidir? Konstan çox gözəl dərk edirdi ki, *neqativ fərdi azadlığın tərəfdarları üçün*

*əsas problem hakimiyyətin kimin əlində olmasından deyil, bu hakimiyyətin nə dərəcədə çox bir əldə cəmləşdirilməsindən ibarətdir.*

Bütün on doqquzuncu yüzillik ərzində liberal mütəfəkkirlər yorulmadan sübut edirdilər ki, əgər azadlıq məni istəmədiyim, yaxud istəməməyə bildiyim şeyi etməyə məcbur etmək üçün başqa adamların imkanlarının genişləndirilməsi deməkdirsə, onda məni təhrik etdikləri idealın necəliyindən asılı olmayaraq mən azad deyiləm, buna görə də mütləq suverenlik doktrinası müstəbidlik xarakteri daşıyır. Azadlığımızın qorunması üçün, onu "pozuntular bu və ya digər mütləq hakim, xalq yığıncağı, parlamentdə kral, məhkəmə, müəyyən hakimiyyət ittifaqı, yaxud qanunlar (çünki qanunlar da despotik ola bilər) tərəfindən təsdiq edilməsə, azadlığı pozmaq olmaz" demək kifayət deyildir. Bunun üçün hüdudlarının heç kəs tərəfindən pozula bilməyən azadlıq sahəsini tanıyan cəmiyyət yaratmaq lazımdır.

Bu hüdudları müəyyənləşdirən normalar müxtəlif ad və xarakterə malik ola bilər: onları insan hüquqları, Allah sözü, "təbii hüquq", sərfəlilik mülahizələri, yaxud "insanın dəyişməz maraqları" kimi adlandırmaq olar. Mən onları apriori (təcrübədən asılı olmayan) həqiqət hesab edə, onları özümün, yaxud cəmiyyətimin və mədəniyyətimin ali məqsədi elan edə bilərəm. Bu normalar və ehkamlar üçün ümumi olan odur ki, onlar cəmiyyətin tarixi inkişafının gedişində o qədər geniş tanınıb və insanların təbiətində özlərinə elə dərin kök salıb ki, indi onlar insan haqqında təsəvvürümüzün xeyli hissəsini təşkil edir.

***Biri və çoxları***

Böyük tarixi ideallar (ədalət, tərəqqi, gələcək nəsillərin xoşbəxtliyi, xalqı, irqi, yaxud sinfi azad etmək kimi müqəddəs missiya, hətta cəmiyyətin azadlığı naminə ayrı-ayrı adamların qurban verilməsini tələb edən azadlığın özü) naminə kütləvi insan qurbanlarına görə başqalarına nisbətən daha çox məsuliyyət daşıyan belə bir əqidə var. Bu əqidəyə görə, haradasa (keçmişdə, yaxud gələcəkdə, İlahi Vəhylərdə, yaxud ayrıca bir mütəfəkkirin beynində, elm və tarixin nailiyyətlərində, yaxud hələ korlanmamış xeyirxah insanın sadəlövh qəlbində) qəti qərar mövcuddur. Bu qədim inanc belə bir əqidədən törəyir ki, insanların bütün müsbət dəyərləri son nəticədə hökmən bir-biriylə uyuşur və hətta ola bilsin ki, bir-birindən doğur. Yer üzündə yaşamış insanların ən yaxşılarından biri "Təbiət həqiqəti, xoşbəxtliyi və ləyaqəti sanki qırılmaz tellərlə bir-birinə bağlayır"(7) söyləyərək azadlıq, bərabərlik, və ədalət barədə də oxşar sözlər demişdir. Lakin bu, düzgün fikirdirmi? Artıq belə düşünmək elə bayağılaşıb ki, siyasi bərabərlik, səmərəli ictimai təşkilat və sosial ədalət bir-biriylə uyuşsa belə, bunlar qeyri-məhdud *laissez-faire* (8) ilə deyil, yalnız fərdi azadlığın müəyyən qismi ilə uyuşa bilər; ədalət, nəciblik, ictimai və şəxsi işlərdə düzgünlük, insan dühasının tələbatları və cəmiyyətin ehtiyacları bir-biriylə kəskin ziddiyyət təşkil edə bilər. Bundan da asanca belə bir nəticəyə gəlmək olar ki, gözəl niyyət və amalların heç də hamısı bir-biriylə uyuşmur, ən çox uyuşmayanlar isə məhz insan ideallarıdır...

...Mən insanların bütün ən müxtəlif məqsədlərini bir harmoniyaya sala biləcək vahid düsturun prinsipcə mümkünlüyünə olan inamı qeyd-şərtsiz yanlış sayıram. Bu məqsədlər çox müxtəlifdir və onların heç də hamısını prinsipcə bir-biriylə barışdırmaq olmaz, buna görə də münaqişənin və ola bilsin ki, faciənin mümkünlüyü insanın həm şəxsi, həm də ictimai həyatından heç vaxt büsbütün kənarlaşdırıla bilməz. Beləliklə, mütləq tələblər arasından birini seçmək zərurəti insanın mövcudluğunu şərtləndirən labüd əlamət rolunu oynayır...

Müəyyən ölçüdə neqativ azadlıq tələb edən plüralizm mənim üçün ciddi intizama tabe olan böyük avtoritar cəmiyyətlərdə siniflər, xalqlar və ümumiyyətlə, bütün insanlıq üçün pozitiv özünügerçəkləşdirmə idealını tapmağa cəhd edən kəslərin qarşıya qoyduqları məqsədlərlə müqayisədə daha həqiqi və daha insani idealdır. O, ən azı buna görə daha həqiqidir ki, insan məqsədlərinin müxtəlifliyini etiraf edir — bu məqsədlərin əksəriyyəti bir ölçüyə gəlmir və daim bir-biriylə rəqabətdədir. Mənim fikrimcə, bütün dəyərləri bir şkala üzrə düzməyin mümkünlüyünü qəbul etməklə biz insanları azad hərəkət agentləri kimi qəbul edən təsəvvürü təkzib edir və hər hansı bir mənəvi qərara prinsipcə loqarifm xətkeşinin köməyilə yerinə yetirilə biləcək hərəkət kimi baxmış oluruq. Ali, hər şeyi qavrayan və bununla belə, əldə edilə biləcək sintezdə borcun mənafe, fərdi azadlığın isə xalis demokratiya, yaxud avtoritar dövlət demək olduğunu təsdiq etməklə biz özünüaldatmanı, yaxud şüurlu ikiüzlülüyü metafizika örpəyinə bürümüş oluruq. Plüralizm daha insanidir, belə ki, o, sistem yaradıcılarından fərqli olaraq uzaq və daxilən ziddiyyətli ideal naminə insanı (gözlənilməz tərzdə dəyişilməyə qabil olan bir varlığı(9) onun həyat üçün mütləq zəruri saydığışeylərdən məhrum etmir. Son nəticədə insanlar ali dəyərlər arasından bacara bildikləri kimi seçirlər, çünki onların həyat və təfəkkür yönünü əxlaqın fundamental kateqoriya və prinsipləri müəyyənləşdirir, elə həmin kateqoriya və prinsiplər də (azı uzun bir məkan-zaman perspektivində) onların varlığının, təfəkkürünün, şəxsiyyət fərdiliyinin bir hissəsini, yəni onları insan edən bütün dəyərləri təşkil edir...

1 Burada, əlbəttə, əks fikrin həqiqiliyi nəzərdə tutulmur – *İ.B.*

2 Helvetsi bunu çox dürüst ifadə etmişdir: "Azad insan qandallanmamış, həbsxanaya salınmamış, qul kimi cəza xofu ilə qorxudulmamış insandır... Buludların altında qartal kimi uca, balina kimi suyun altında yaşaya bilməməyimizə azad deyilik demək cəfəngiyat olardı..." – *İ.B.*

3 Hobbs deyirdi: "Azad adam istədiyini etməyə heç nəyin mane olmadığı insandır". Qanun hətta bizi qanunların zəncirindən də ağır zəncirlərdən (daha ðrepressivñññêâ qanun, yaxud adətdən, despotun özbaşınalığı, yaxud xaosdan) qorusa belə, yenə də "buxov"dur. Bentam da eyni şeyi deyir – *İ.B.*

4 C.Bentamın insan hüquqlarının qorunmasının cəmiyyətə sərfəli olması haqqında nəzəriyyəsi – *red.*

5 C.S. Millin "Azadlığa dair" essesi nəzərdə tutulur — *red.*

6 Çoxluğun hakimiyyəti — *red.*

7 Sitat Kondorsenin "Eskizlər"indəndir — *red.*

8 Tam sərbəst bazar iqtisadiyyatı — *red.*

9 Məncə, bu barədə Bentam yaxşı söyləmişdir: "Fərdi maraqlar yeganə real maraqlardır... bunu elə başa düşmək olarmı ki, bəzi adamlar o qədər axmaqdırlar ki, hələ doğulmamış insanı artıq mövcud olan insandan üstün tuturlar; hələ doğulmamış, bəlkə də heç vaxt doğulmayacaq insanların səadətinə kömək etmək bəhanəsiylə yaşayanlara əzab verirlər?". Bu, Berkin Bentamla razılaşdığı nadir hallardan biridir — *İ.B.*

## 52. KAPİTALİZM VƏ AZADLIĞIN QARŞILIQLI ƏLAQƏSİ

### Milton Fridman

Amerika iqtisadçısı Milton Fridman (1912-ci ildə doğulmuşdur) "neoliberalizm"in — insanın iqtisadi azadlığının bərpa edilməsi, iqtisadiyyata dövlət müdaxiləsinin məhdudlaşdırılması mövqeyindən çıxış edən iqtisadi nəzəriyyənin görkəmli nümayəndələrindən biri kimi dünyada yaxşı tanınır. Çikaqo iqtisadi məktəbinin banisi Fridman makroiqtisadiyyat sahəsində işlərinə görə 1976-cı ildə Nobel mükafatı ilə təltif olunur. Fridmanın işləri kağız üzərində qalmayıb, bu gün dünya onu "Çili iqtisadi möcüzəsi"nin əsas ideoloqu kimi tanıyır. Onun işləyib hazırladığı maliyyə sisteminə monetar nəzarət üsulu keçmiş sosialist ölkələrində bazar islahatlarının keçirilməsi üçün əsas götürülmüşdür. O, 1962-ci ildə yazılmış məşhur "Kapitalizm və azadlıq" əsərində ABŞ və Böyük Britaniya hökumətlərinin o vaxt yeritdikləri iqtisadiyyatda dövlət nəzarəti və mərkəzləşdirilmiş planlaşdırma siyasətinə, sosial ehtiyaclara dövlət tərəfindən lüzumsuz xərclərə və ümumiyyətlə, Qərbdə "ümumi rifah dövləti" deyilən siyasətə zidd ideyalarını inandırıcışəkildə müdafiə edir. Fridmana görə, bu cür siyasət nəinki iqtisadi cəhətdən səmərəli deyil, həmçinin insanın siyasi azadlıqlarının məhdudlaşdırılmasına gətirib çıxarır. "Ümumi rifah dövləti"nin iqtisadi iflası artıq 70-ci illərin ortaları üçün tam aydın oldu və bundan sonra Fridmanın və onun kolleqalarının ideyaları Böyük Britaniya və ABŞ-da iqtisadi islahatların gedişində özünü tam doğrultdu.

MİLTON FRİDMAN

## İqtisadi və siyasi azadlıqlar arasında qarşılıqlı əlaqə (1962)

*...İqtisadi fəaliyyətin bazarla nizamlanmasının başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, əksər hallarda birinin digərinin fəaliyyətinə müdaxilə etməsinə imkan vermir.*

Belə bir fikir geniş yayılmışdır ki, siyasət və iqtisadiyyat ayrı-ayrı və bir-biri ilə, demək olar ki, əlaqəsi olmayan şeylərdir; şəxsi azadlıq siyasi, maddi rifah isə iqtisadi məsələdir və istənilən siyasi quruluşu istənilən iqtisadi quruluşla uyğunlaşdırmaq olar. Bu təsəvvürün əsas müasir təmsilçiləri "demokratik sosializm"in çoxsaylı tərəfdarlarından ibarətdir. Onlar Rusiyada "totalitar sosializm"in şəxsi azadlıqları məhdudlaşdırmasını qeyd-şərtsiz pisləyirlər və əmindirlər ki, ölkə oradakı iqtisadi quruluşun əsas cəhətlərini rəhbər götürə və bununla yanaşı, siyasi tədbirlərlə şəxsi azadlıqları təmin edə bilər.

Bu fəslin başlıca tezisi ondan ibarətdir ki, bu fikir yanlışdır — iqtisadiyyat və siyasət arasında sıx bağlılıq mövcuddur, cəmiyyətin siyasi və iqtisadi quruluşunda yalnız müəyyən uyğunlaşdırmalar mümkündür və məsələn, *sosialist cəmiyyəti həmçinin demokratik cəmiyyət ola bilməz (bu mənada ki, o, şəxsi azadlıqlara təminat verə bilməz).*

İqtisadi quruluş azad cəmiyyətin inkişafına iki cəhətdən yardım edir. Bir tərəfdən, iqtisadi münasibət azadlığı özlüyündə geniş mənada azadlığın bir hissəsini təşkil edir, ona görə də iqtisadi azadlıq özü məqsəddir. Digər tərəfdən, iqtisadi azadlıq həmçinin siyasi azadlıq əldə etmək üçün zəruri vasitədir...

İkinci dünya müharibəsindən sonra valyuta məhdudiyyətlərinə görə öz məzuniyyətini ABŞ-da keçirə bilməyən İngiltərə vətəndaşı öz məzuniyyətini keçirmək üçün siyasi baxışlarına görə Rusiyaya girə bilməyən Amerika vətəndaşından heç də az şəkildə azadlığın əsas formalarının birindən məhrum edilməmişdir...

Müxtəlif ştatlarda mövcud olan qanunlara görə, patent, yaxud lisenziya almadan istədiyi fəaliyyət növü ilə məşğul ola bilməyən ABŞ vətəndaşı da eyni dərəcədə öz azadlıqlarının xeyli hissəsindən məhrum edilir...

İqtisadi azadlığa siyasi azadlıq əldə etmək vasitəsi kimi baxsaq, iqtisadi quruluş hakimiyyətin təmərküzləşdirilməsi və cəmləşdirilməsinə təsir baxımından çox əhəmiyyətlidir. Bilavasitə iqtisadi azadlığı təmsil edən iqtisadi quruluş (məhz azad rəqabətə əsaslanan kapitalizm) siyasi azadlıqların artmasında da təsir göstərir, belə ki, o, iqtisadi hakimiyyəti siyasi hakimiyyətdən ayırır və bununla birinin digərinə qarşı tarazlıqda olmasına şərait yaradır.

Tarixi təcrübə siyasi azadlıqla azad bazar arasında nisbət haqqında tamamilə birmənalı danışır. Mənə nə vaxtsa və haradasa mövcud olmuş elə bir cəmiyyət məlum deyil ki, geniş siyasi azadlıqlarla seçilsin və eyni zamanda iqtisadi fəaliyyətin əsas hissəsinin təşkili üçün azad bazarın hansı formasındansa istifadə etməsin...

Siyasi və iqtisadi azadlıqlar arasında qarşılıqlı əlaqələr mürəkkəbdir və heç cür birtərəfli xarakter daşımır. XIX əsrin əvvəlində Ceremi Bentam və radikal filosoflar siyasi azadlığa iqtisadi azadlıq əldə etmək üçün vasitə kimi baxmağa meyl edirdilər. Onların fikrinə görə, kütləyə onun üzərinə qoyulmuş məhdudiyyətlər mane olur və əgər siyasi islahatlar əksəriyyətə seçki hüququ verirsə, o özünə sərf edən şeyə — məhz azad rəqabətə səs verəcəkdir. Sonrakı tarixlə demək olmaz ki, onlar haqlı deyil. Bir çox siyasi islahatlar keçirildi və onların ardınca daha çox rəqabət azadlığına yönəlmiş iqtisadi islahatlar gəldi. İqtisadi quruluşda bu dəyişikliklərin nəticəsi kütlələrin rifahının böyük miqyasda yüksəlməsindən ibarət oldu.

XIX əsr İngiltərəsində Bentam liberalizminin təntənəsinin ardınca iqtisadi sahəyə hökumətin müdaxiləsinin güclənməsi şəklində irtica dövrü başlandı. Həm İngiltərədə, həm də digər ölkələrdə kollektivizmə bu meyl iki dünya müharibəsi ilə kəskin şəkildə sürətləndi. Demokratik ölkələrdə əsas diqqət azadlığa deyil, rifaha yönəldi. Radikal filosofların intellektual davamçılarından Daysi, Mizes, Xayek və Saymone bir çox başqaları kimi burada fərdiyyətçilik üçün təhlükənin gizləndiyini başa düşərək qorxurdular ki, iqtisadi fəaliyyət üzərində mərkəzləşdirilmiş nəzarətin daha da gücləndirilməsi, Xayekin bu prosesi təhlil edərək dediyi kimi, *köləliyə doğru aparan yola* çevrilə bilər. Onlar iqtisadi azadlığı siyasi azadlığa nail olmağın vasitəsi kimi nəzərə çatdırırdılar...

İqtisadi və siyasi azadlıqlar arasında hansı məntiqi əlaqələr mövcuddur? Bu məsələləri nəzərdən keçirərək, əvvəlcə azadlığın bilavasitə tərkib hissəsi kimi bazar, sonra isə bazar münasibətləri və siyasi azadlıq arasında dolayı asılılıq haqqında məsələni müzakirə edək. Azad cəmiyyətin ideal iqtisadi quruluşunu təsvir etmək cəhdi müzakirələrin əlavə nəticələrindən olacaqdır...

Milyonlarca insanın iqtisadi fəaliyyətini əlaqələndirmək üçün yalnız iki üsul mövcuddur. Birincisi, məcburiyyətə bağlı mərkəzləşdirilmiş rəhbərlik; ordu və müasir totalitar dövlətlərin üsulu belədir. İkincisi, fərdlərin könüllü əməkdaşlığı; bazarın istifadə etdiyi üsul budur.

İqtisadi fəaliyyətin könüllü əməkdaşlıq vasitəsilə əlaqələndirilməsi imkanı iqtisadi sazişdən hər iki tərəfin xeyir götürməsi haqqında, çox vaxt mübahisə doğursa da, hər halda, adi bir tezisə əsaslanır, bir şərtlə ki, *bu iqtisadi saziş tərəflərdən hər biri üçün könüllü və tam başa düşülmüş bir akt olmalıdır.*

Ona görə də ticarət mübadiləsi məcburiyyət tətbiq etmədən əlaqələndirməni təmin edə bilər. *Könüllü qarşılıqlı mübadilə vasitəsilə təşkil olunmuş cəmiyyətin işçi modeli azad xüsusi sahibkarlığa əsaslanan bazar iqtisadiyyatından, yəni bizim "azad rəqabətə əsaslanan kapitalizm" adlandırdığımız şeydən ibarətdir...*

Nə qədər ki, real qarşılıqlı mübadilə azadlığı saxlanılır, iqtisadi fəaliyyətin bazarla nizamlanmasının başlıca xüsusiyyəti ondan ibarətdir ki, o, əksər hallarda birinin digərinin fəaliyyətinə müdaxilə etməsinə imkan vermir. Başqa satıcıların olması və onlarla sazişə girə bilmək imkanı istehlakçını hər hansı satıcının diktatından qoruyur. Başqa alıcıların olması və onlara da mal satmaq imkanı isə satıcını hər hansı bir alıcının təhrikindən qoruyur. Başqa sahibkarların olması və onların yanında işə girmək imkanı muzdla işləyən hər kəsi hər hansı sahibkarın diktatından qoruyur və sair. Və bazar bunların hamısını ədalətlə və heç bir mərkəzi hakimiyyətin köməyi olmadan edir.

Çox qəribədir ki, azad iqtisadiyyata qarşı irəli sürülən əsas etirazlardan biri onun bu vəzifəni çox yaxşı yerinə yetirməsidir. O, insanlara hansısa qrupun rəyinə görə istəməli olduqlarışeyləri deyil, onların özlərinin istədiklərini verir. Azad bazara qarşı fikirlərin əksəriyyəti azadlığın özünə inamsızlıqla bağlıdır.

Azad bazarın mövcud olması, əlbəttə, hökumətin zəruriliyini aradan qaldırmır. Əksinə, hökumət həm "oyun qaydaları"nı müəyyən etmək üçün qurum kimi, həm də qoyulmuş qaydaları təfsir edən və onların yerinə yetirilməsini təmin edən arbitr kimi vacibdir. Bazar siyasi vasitələrlə həll edilməli məsələlərin sayını azaldır və bununla da hökumətin oyunda birbaşa iştirakı zərurətini minimuma endirir. Siyasi kanallar vasitəsilə həyata keçirilən addımların xarakterik xüsusiyyəti onun daha çox yeknəsəqlik tələb, yaxud qəbul etdirmək meylindən ibarətdir. Bazar, digər tərəfdən, daha çox rəngarəngliyə yol verməsi ilə fərqlənir. Siyasət dili ilə desək, o, mütənasib nümayəndəlik sistemi deməkdir. Necə deyərlər, hər kəs öz qalstukunun rənginə səs verə bilər; onun əksəriyyətin hansı rəngə üstünlük verməsi ilə maraqlanmasına və azlıqda qalarsa, tabe olmasına ehtiyac yoxdur.

Biz deyəndə ki, bazar iqtisadi azadlığı təmsil edir, onun məhz bu cəhətini nəzərdə tuturuq. Lakin onun əhəmiyyəti iqtisadi sahənin hüdudlarından çox kənara çıxır. Siyasi azadlıq birinin digərini məcbur etməməsi deməkdir. Məcburiyyət gücü onun kimin: hökmdarın, diktatorun, oliqarxın, yaxud bir anlıq əksəriyyətin əlində olmasından asılı olmayaraq azadlıq üçün əsas təhlükədir. Azadlığın qorunub saxlanılması üçün hakimiyyətin bu cür təmərküzləşməsinin qarşısı imkan daxilində maksimum alınmalı, qarşısını almaq mümkün olmadıqda isə hakimiyyət paylaşdırılmalıdır. Yəni azadlığın qorunması qanunverici, icraedici və məhkəmə hakimiyyətinin öz aralarında qarşılıqlı nəzarət və əks təsir tələb edir. *Bazar iqtisadi fəaliyyətin təşkilini siyasi hakimiyyətin nəzarəti altından çıxararaq hakimiyyətin bu məcburetmə qaynağını aradan qaldırır. O, iqtisadi qüdrətin siyasi hakimiyyəti möhkəmləndirən deyil, məhdudlaşdıran amilə çevrilməsinə imkan verir.*

İqtisadi hakimiyyət geniş sahədə paylaşdırıla bilər. Artıq mövcud iqtisadi güc mərkəzlərinin hesabına yeni mərkəzlərin yaranıb inkişaf etməsini yasaqlayan heç bir enerjinin saxlanma qanunu yoxdur. Digər tərəfdən, siyasi hakimiyyəti paylaşdırmaq daha çətindir. Çoxlu xırda müstəqil hökumətlər mövcud ola bilər. Lakin bir böyük iqtisadiyyatın çərçivələri daxilində çoxlu iqtisadi güc mərkəzlərinin olması ilə müqayisədə bir böyük hökumətin tərkibində bir sıra eyni gücə malik siyasi hakimiyyət mərkəzlərinin mümkünlüyü ölçüyəgəlməz dərəcədə çətindir. Bir böyük iqtisadiyyat özündə yüzlərcə və minlərcə milyonçunu cəmləşdirə bilər. Amma vətəndaşlarının enerji və ruh yüksəkliyinin ətrafında cəmləşdiyi bir görkəmli liderdən, bir şəxsdən artıq adam orada qala bilərmi? *Mərkəzi hökumət öz hakimiyyətini artırırsa, bunu, hər şeydən əvvəl, yerli özünüidarənin hesabına edir.* Belə təsəvvür yaranır ki, siyasi hakimiyyətin bölüşdürülməsi üçün hansısa dəyişməz ümumi məcmu mövcuddur. Ona görə də iqtisadi hakimiyyət siyasi hakimiyyətlə birləşdirilərsə, bütün hakimiyyətin bir əldə cəmlənməsi, demək olar ki, labüd olacaqdır. Digər tərəfdən, əgər *iqtisadi hakimiyyət siyasi hakimiyyətə malik olanların əlində deyilsə, o, siyasi hakimiyyəti məhdudlaşdıran əks qüvvəyə çevrilə bilər.*

Bu mücərrəd fikrin doğruluğunu konkret nümunələrlə nümayiş etdirmək daha yaxşı olardı...

*Azad cəmiyyətin xarakterik xüsusiyyətlərindən biri, əlbəttə, fərdin ictimai quruluşda radikal dəyişiklikləri müdafiə və açıq şəkildə təbliğ etmək azadlığından ibarətdir...* Kapitalizm cəmiyyətində mövcud olan siyasi azadlığın əlamətdar cəhəti budur ki, burada insanlar açıq şəkildə sosializm cəmiyyəti qurmağa çağırır və onun uğrunda mübarizə aparırlar. (Lakin) sosializm cəmiyyətində kapitalizmin xeyrinə təbliğat azadlığını saxlamaq və müdafiə etmək mümkün olardımı?

İnsanın nəyinsə xeyrinə təbliğat apara bilməsi üçün əvvəlcə o, yaşamaq üçün qazanmaq imkanına malik olmalıdır. Sosialist cəmiyyətində artıq bunun özü problemə çevrilir, belə ki, orada bütün *iş yerləri sosialist hakimiyyətin birbaşa nəzarəti altında saxlanılır...* Kapitalizmin təbliğinin hansısa mənasının olmasından ötrü onun tərəfdarları hansı formadasa öz fəaliyyətlərini maliyyələşdirməlidir: onlar mitinqlər təşkil etməli, broşüralar çap etməli, radio verilişlərinə görə pul ödəməli, qəzet və jurnal buraxmalıdır və s. Ortaya sual çıxır: pulu haradan götürməli?..

Zəruri vəsaitin əldə edilməsinin yeganə yolu çoxlu sayda xırda qulluqçulardan çox da böyük olmayan məbləğdə pul toplanmasından ibarət olacaqdır. Lakin bu, məsələnin həlli demək deyildir. Bu məbləğdən istifadə edə bilməkdən ötrü artıq bu vaxt çoxlu sayda adam bizim haqlı olduğumuza inanmalıdır, lakin məsələ bundadır ki, qarşıda dayanan problem məhz adamların inandırılmasına yönəldilməli olan kampaniyanın maliyyələşdirilməsindən ibarətdir. Kapitalist ölkələrində radikal kampaniyalar heç vaxt bu cür maliyyələşdirilmirdi. Onları, adətən, inandırmağa bacardıqları bir neçə varlı adam maliyyələşdirirdi: Frederik Vanderbild Fild, Anita Makkormik Bleyn, yaxud Korliss Lamont — bunlar son dövrlərdə xatırlanan adlardır, bir az keçmişə qayıtsaq, Fridrix Engelsi göstərə bilərik. Siyasi azadlığın saxlanılmasında əmlak bərabərsizliyinin bu rolu (mesenat rolu) nadir hallarda nəzərə çarpır.

Kapitalizm cəmiyyətində istənilən ideyanın təbliği üçün vəsait əldə etməkdən ötrü yalnız bir neçə varlı adamı inandırmaq kifayətdir... Ümumiyyətlə, təbliğ etmək istədiyiniz ideyaların doğruluğuna həmin adamları hətta inandırmağınız da vacib deyil... Onları yalnız inandırmaq lazımdır ki, təbliğatınız maliyyə uğuru qazanacaq, müvafiq qəzet, jurnal, kitab, yaxud yeni müəssisə gəlirlə işləyəcəkdir. Rəqabətə ciddi yanaşan naşir, məsələn, yalnız şəxsən razı olduğu şeyləri nəşr etməklə kifayətlənə bilməz: o, yalnız bir meyarı əsas götürməlidir: bazarın qoyulmuş kapitala görə kifayət qədər gəliri təmin etməkdən ötrü lazımi qədər geniş olacağı ehtimalı böyükdürmü?..

Qeyri-populyar baxışları təbliğ etmək azadlığı bu təbliğatın heç bir əlavə çətinliklər törətməməsini heç də tələb etmir. Əksinə, radikal dəyişikliklərin təbliği hansısa itkilərlə və xüsusən də maddi yardımla müşayiət olunmasaydı, sabit cəmiyyət də olmazdı. Dərindən inandıqları ideyaların təbliğinə görə adamların nəyisə qurban vermələri tam normal haldır. Bundan başqa, azadlığı yalnız bir çox şeylərdən imtina etməyə hazır olan adamlar üçün saxlamaq vacibdir, yoxsa azadlıq korlanaraq özbaşınalığa çevrilər. Tamamilə zəruri olan odur ki, qeyri-populyar baxışların təbliğinə görə ödənişin məbləği ağlabatan olmalı və bu cür təbliğat imkanları bağlanmamalıdır.

Lakin bu, hələ hamısı deyil. Azad bazar cəmiyyətində vəsaitə malik olmaq kifayətdir. Kağız sahibləri öz mallarını eyni həvəslə [kommunistlərin] “Deyli Uoker”, yaxud (maliyyə dairələrinin) “Uoll-Strit cornel” qəzetlərinə satmağa hazırdırlar. Sosializm cəmiyyətində ancaq pulun olması azlıq edəcəkdir. Kapitalizmin fərz edilən tərəfdarı ona kağız satması üçün dövlət kağız fabrikini, broşüranı çap etmək üçün dövlət mətbəəsini, onları göndərmək üçün dövlət poçt şöbəsini, çıxışlarından ötrü zal vermək üçün dövlət idarəsini və s. dilə tutmalı olacaqdır... 1933-cü ildən müharibə başlayanadək Uinston Çörçillə hökumətin inhisarındakıİngiltərə radiosu ilə çıxış etməyə icazə vermirdilər. Axı o, parlamentin ən görkəmli üzvlərindən biri, keçmiş nazir idi və indi bütün mümkün vasitələrlə öz həmvətənlərini Hitler Almaniyası tərəfdən gözlənilən təhlükənin qarşısını almaq üçün nə isə bir tədbir görməyə inandırmağa çalışırdı. Radio ilə ingilis xalqına müraciət etməyə ona icazə vermirdilər, çünki *BBC* hökumət inhisarında idi, onun baxışları isə həddindən artıq “mübahisəli” sayılırdı.

Hollivudun “qara siyahı”sının necə “tarixə döndüyünü” göstərən daha bir inandırıcı nümunə. Bu haqda 26 yanvar 1959-cu ildə “Taym” jurnalı məlumat verərək yazırdı: “Oskar” mükafatının təqdimat mərasimi elə bir tədbirdir ki, bu vaxt Hollivud daha çox zahiri formaya əməl etməyə çalışır. Lakin iki il əvvəl bu forma pozuldu. “Cəsur” kinofilminin əsas müəllifinin Robert Riç adlışəxsin olduğu elan edildikdən sonra səhnəyə heç kəs çıxmadı. Məlum oldu ki, Robert Riç təxəllüsdür və bu ad altında 1947-ci ildən bəri kino sənayesi tərəfindən “qara siyahı”ya salınmış təxminən 150 ssenariçidən biri gizlənir. Bu adamların kommunist partiyasının üzvləri olduqları, yaxud kommunizmə rəğbət bəslədikləri güman edilirdi. Xüsusilə ona görə pərtlik yarandı ki, Kino Sənəti Akademiyası kommunistlərə və Konstitusiyaya Beşinci düzəlişə(1) istinad edənlərə “Oskar” müsabiqəsində iştirakı qadağan etmişdi. Ötən həftə həm kommunistlərə aid bu qayda, həm də Riç adı ilə bağlı müəmma qəflətən əvvəlki ssenarini canlandırdı.

Məlum oldu ki, Riç “Conniyə tüfəng verildi” filminin müəllifi Dalton Trambodur. O, kino sənayesinə kommunistlərin nüfuz etməsinə dair 1947-ci il dinləmələrində izahat verməkdən imtina etmiş ilk “on Hollivud ssenariçisi”ndən biri idi. O vaxta qədər “özünü Robert Riç adlandıran bir ispaniyalı saqqallı gənc idi” deyib duran prodüsser Frenk Kinq bildirdi ki, “səhmdarların qarşısında vəzifəmiz imkan daxilində daha yaxşı ssenari almaqdan ibarətdir. Trambo “Cəsur”u gətirdi və biz onu aldıq...”. Bununla əslində Hollivudun “qara siyahı”sına rəsmi şəkildə son qoyuldu. Qeyri-rəsmi isə o, qadağan olunmuş ssenariçilər üçün çoxdan qurtarmışdı. Xəbər verirlər ki, indi Hollivud filmlərinin ən azı 15%-i “qara siyahı”dan olan ssenariçilər tərəfindən yazılır...

Hesab etmək olar ki (mən də belə hesab edirəm), kommunizm bütün azadlıqlarımızı məhv edərdi, ona qarşı ən yüksək dəyanətlə çıxış etmək olar və eyni zamanda bildirməliyik ki, azad cəmiyyətdə insanın yalnız onun kommunizmə inandığına və onun uğrunda mübarizə aparmağa cəhd etdiyinə görə başqa insanlarla qarşılıqlı könüllü münasibətlərə girməsinə imkan verməmək yolverilməzdir. Onun azadlığı kommunizm uğrunda

mübarizə azadlığını ehtiva edir. Əlbəttə, azadlıq həmçinin bu şəraitdə başqaları üçün onunla təmasda olmamaq azadlığını da bildirir. Hollivudun "qara siyahı"sı qeyri-azadlıq aktı idi, belə ki, məcburiyyət vasitələrindən istifadə etməklə könüllü ittifaqların qarşısını almaq cəhdi deməkdir. Lakin cəhd uğursuz oldu, çünki bazar şəraitində "qara siyahı"nın saxlanılması çox baha başa gəlirdi. Kommersiya marağı, müəssisələrin rəhbərlərinin daha çox pul qazanmağa meylləri ilə bağlışərait "qara siyahı"ya düşmüş insanlara başqa iş imkanı yaradaraq və adamlara onları işə götürmək üçün stimul verərək onların azadlığını qorumuş oldu...

*"Kapitalizm və azadlıq"*

---

1 Müttəhimin özünə qarşışahidlik etməmək hüququ haqqında düzəliş — *red.*

## 53. İRANDA İSLAM İNQİLABI — SADƏ... VƏ YANLIŞ CAVAB

İran islam inqilabı (1 fevral 1979) sayı bir milyardı aşmış müsəlman dünyası üçün tarixi hadisədir. İnqilab tərəfdarları belə hesab edirdilər ki, onlar Məhəmməd peyğəmbərin hakimiyyəti dövründə mövcud olan, yəni ümumi qardaşlıq və mənəvi paklığa söykənən "ideal dövlət"i dirçəldiblər. İnqilab əleyhdarları isə iddia edirdilər ki, ölkədə həyatın bütün məsələlərinə dair sadə... və yanlış cavab tapmış nadan və qəddar adamların rejimi bərqərar olmuşdur.

İslam inqilabı 1953-cü ildə amerikalıların köməyi ilə ölkədə hüdudsuz hakimiyyət əldə etmiş Məhəmmədrza Pəhləvinin hakimiyyətinə son qoydu. Məlumdur ki, o vaxtlar şahın hakimiyyətə gəlişi ilə bütün siyasi azadlıqlara yasaq qoyulmuş, ölkədə qorxu üzərində qurulmuş sabitlik yaranmış və bundan sonra şah Avropada aldığı təhsilin təsiri altında geridə qalmış ölkənin "qərbləşdirilməsi" və iqtisadi inkişaf siyasətini həyata keçirməyə başlamışdır.

20 il ərzində şah əhəmiyyətli dəyişikliklərə nail ola bilmişdir: milli sənaye, mədəniyyət, təhsil, müasir səhiyyə sistemi inkişaf edirdi; ölkəyə böyük həcmdə xarici investisiyalar cəlb olunmuşdu, lakin dövlət xəzinəsinin başlıca gəlirini getdikcə artmaqda olan və hər il ölkəyə təxminən 90 milyard dollar gətirən neft ixracatı təşkil edirdi.

Şah öz "cib"ini də unutmurdu, belə ki, hakimiyyətdə olduğu dövrdə dünyanın ən varlı adamlarından birinə çevrilmişdi. O öz məiyyəti ilə birgə ənənəvi Şərq meyarlarına nisbətən hədsiz təmtəraqlı və əxlaqsız bir həyat sürürdü.

"Başqa cür düşünən"lərə qarşı repressiyalar, ölkənin tezləşdirilmiş "qərbləşdirmə" və sənayeləşdirilməsi əhalinin hiddət və narazılığını günbəgün artırırdı. Şah zülmünə qarşı liberallar, kommunistlər, ölkənin federallaşdırılması tərəfdarları və müsəlman ruhaniləri bir cəbhədə birləşməkdə idi.

İslamçıların aydın və doğma şüarları əksər iranlıların ürəyinə daha asan yol tapır, onları ayağa qaldırırdı. "Üstlərinə yeriyən" müasir dünyanın aramsız böhranlarından və ədalətsizliyindən xoflanmış bu adamlar üçün islam, bir növ, son sığınacaq yeri idi.

Nümayişçilərlə qoşunların kütləvi və qanlı toqquşmalarının gedişində (1978–79) şah diktaturası devrildi. Ölkədə indiyədək görünməmiş siyasi rejim — "islam demokratiyası" rejimi quruldu. Bütün müsəlman ölkələrində islam dirçəlişinin tərəfdarlarıİranda gedən bu prosesləri maraqla izləyir, orada bərqərar olmuş üsul-idarə onlarda yeni ümidlər doğururdu.

İranın yeni Konstitusiyası vətəndaşlar üçün əsas şəxsi və siyasi azadlıqları bir şərtlə təmin edirdi ki, bunlar Quranın hərfinə və ruhuna zidd olmasın. Qalib gəlmiş islam rejimi təliminə görə, xalqa öz problemlərini səsvermə yolu ilə həll etməyə icazə verilə bilməzdi, çünki xalq öz kəmsavadlığı səbəbindən səhvə yol verə və Qurana zidd olan şeyi seçə bilərdi. Hər hansı bir məsələni səsverməyə çıxarmazdan əvvəl onu bir neçə yüksək rütbəli ilahiyyatçıdan ibarət olan Ali Dini Şura təsdiq etməli idi.

Yeni rejim bərqərar olduqdan sonra İranda yaşamaq xeyli "sadələşdi" — daha şəxsi iradəyə və təşəbbüsə ehtiyac qalmadı, sadəcə olaraq, qəsəbə, şəhər, yaxud ümummilli dini rəhbərin göstərişləri ilə oturub-durmaq lazım idi.

İslam ehkamları üzərində işıqlı bir gələcək qurmaq əzmində olan islamçılar tezliklə mövcud rejimin hər cür əleyhdarlarını aradan götürdülər və bütün əhali öz dinindən, məzhəbindən asılı olmayaraq islamın orta əsr davranış normalarına riayət etmək məcburiyyətində qaldı. Adamlar daim özlərini "o dünyadakı" sınaqlara hazırlamalı idilər, hər cür şənlik inkar və təqib olunurdu, hətta estrada musiqisi də yasaq edilmişdi, İran tədricən mədəni və iqtisadi bataqlığa çevrilirdi. Şah üsul-idarəsi dövründə məhrum olduqları bəzi azadlıqları əldə etmiş iranlılar şəxsi azadlıqdan — yaşayış tərzini seçmək azadlığından büsbütün məhrum oldular, nəticədə beş milyon vətəndaş ölkəni tərk etdi. Aşağıda təqdim etdiyimiz sənədlər İranda insan hüquqları ilə bağlı məsələnin islam inqilabından əvvəlki və sonrakı vəziyyətini əyani göstərir.

# İRANDA SÖZ AZADLIĞI

## İSLAM İNQİLABINDAN ƏVVƏL...

*1978-ci ildə şah İranında Milli Təhlükəsizlik Xidməti (SAVAK) tərəfindən hazırlanmış mətbuat üçün senzura qaydaları*

*Tənqid konstruktiv olmalı və problemlər şişirdilməməlidir.*
*Tənqid subyektiv olmamalıdır.*

1. Şah, şahbanu, şahzadə, baş nazir və şah ailəsi haqqında hər hansı xəbər rəsmi mənbələrdən alınmalıdır.

2. Şah, yaxud şahbanu tərəfindən elan olunmuş hər hansı plan istehza hədəfinə çevrilməməlidir.

3. Məsul və yüksək vəzifəli şəxslər, həmçinin vəzifəyə şah tərəfindən təyin olunmuşşəxslər hücum və ittihamlara məruz qalmamalıdır.

4. Ölkənin hər yerində və xəbərlərin hər buraxılışında Dirçəliş Partiyası, monarxiya və Şah Milli İnqilabının 17 müddəası diqqət mərkəzində olmalı və tənqidə məruz qalmamalıdır. Bu müddəaların yerinə yetirilməsi yolları tənqid oluna bilər, lakin bu, mülayimliklə edilməlidir.

5. Xarici İşlər Nazirliyi və vəzifə təyinatları haqqında məlumatlar rəsmi mənbələrdən alınmalıdır.

6. Yalnız rəsmi mənbələr mətbuata orduda və Silahlı Qüvvələrdə vəziyyət haqqında məlumat vermək səlahiyyətinə malikdir.

7. Şahənşah məhkəməsi, təhlükəsizlik xidməti və terrorizm haqqında məlumat rəsmi mənbələrdən alınmalıdır. Terrorçuların adları və əqidələri nəzərə çatdırılmamalı, təqdir edilməməli və onlar qəhrəman kimi təqdim olunmamalıdırlar.

8. Əmək haqqının, gəlirlərin artması və muzdlu işçilərin vəziyyətində irəliləyişlər haqqında xəbərlər rəsmi mənbələrdən alınmalıdır.

9. Dövlətin iqtisadiyyat, maliyyə və sənayesinin vəziyyəti haqqında, həmçinin səhiyyə, yoluxucu xəstəliklər və ərzaq məhsulları ilə bağlı problemlər haqqında hər hansı xəbər ehtiyatla verilməlidir, belə ki, o, kütləvi iğtişaş və çaxnaşma törədə bilər.

10. Əhəmiyyətli nöqsanlar və rüşvətxorluq halları nəzərə çatdırılmamalı və faş edilməməlidir.

11. Dövlət siyasətini və quruluşunu tənqid edən yazıçı və şairlərə qəzetlərdə heç bir yer verilməməlidir.

12. Tətillər və tələbə nümayişləri haqqında xəbərlərə ehtiyatla yanaşmaq lazımdır.

13. Tənqid konstruktiv olmalı və problemlər şişirdilməməlidir. Tənqid subyektiv olmamalıdır. Problemlərin həlli metodları və üsulları yaxşı işıqlandırılmalıdır. Qəzetdə cavab vermək hüququna hörmət edilməli və cavab üçün qəzetdə xüsusi yer ayrılmalıdır.

14. Mətbuat ictimai rəyi təhrik edə biləcək reportajlar verməyə çalışmamalıdır. Mətbuat nə ümidlərin qızışdırılması, nə də həyəcan yaratmaq üçündür.

15. İctimaiyyət ucuz mənzil, sosial təminat və əmək haqqının artırılması kimi böyük ümidlərə köklənməməlidir.

...VƏ SONRA

*Mühacirətdə olan İran Yazıçıları Assosiasiyasının Frankfurtda kitab sərgisinin təşkilatçılarına məktubu (1983)*

*Tarixin dərinliklərinə gömülmüş qaba qüvvə bu gün İranda zühur edərək üzə çıxmışdır və İran mədəniyyəti və sivilizasiyasının bütün nailiyyətlərini məhv etməyə çalışır.*

Ölkəmizin düçar olduğu böyük faciə bu gün artıq hamıya bəllidir. Son beş ildə vətənimizi ən vəhşi, qeyri-humanist və primitiv dəyərlər sisteminə əsaslanan İslam Respublikası rejimi idarə edir. İranda bir çox kişilər və qadınlar, gənclər və qocalar, hətta uşaqlar və hamilə qadınlar yalnız İslam Respublikasının totalitar rejiminə sədaqətlərini sübut edə bilmədiklərinə görə güllələniblər.

Tarixin dərinliklərinə gömülmüş qaba qüvvə bu gün İranda zühur edərək üzə çıxmışdır və İran mədəniyyəti və sivilizasiyasının bütün nailiyyətlərini məhv etməyə çalışır. Bütöv sosial qruplar, xüsusilə ziyalılar əsasən əqidələrinə görə məhvə məhkum olunurlar. Bir parça çörək üçün iztirablar içərisində əl açıb dilənənlərin sayı dəfələrlə artmışdır.

Kişilərlə qadınlar arasında emosional tellər bağışlanılmaz günah hesab edilir. İnsanların həyat, mülkiyyət, şərəf və ləyaqətinin qorunması üçün heç bir təminat yoxdur. Evlərin qapılarını dəhşətli kabuslara bənzəyən cürbəcür cəlladlar döyür, onlar istənilən an dağıdıcı qüvvəyə çevrilə bilərlər: cəllad atasının gözü qarşısında oğlunu öldürə, ərinin gözü qarşısında arvadını zorlaya, yaxud ədalətsiz sosial şəraitlə pis yola vadar edilmiş və buna görə Şəriət Məhkəməsinin buyuruğu ilə torpağa basdırılmış qadını ölənə qədər daşqalaq edə bilər.

İranı qanlı caynaqlarında saxlayan cinayət və nadanlıq dəhşəti yalnız milli faciə deyildir. Belə ki, dünyanın istənilən guşəsində mövcud olan mədəniyyət və sivilizasiya, azadlıq və bərabərlik bəşəriyyətin bir çox nəsillərinin yüzillik mübarizəsinin, səylərinin və qurbanlarının nəticəsidir. Öz təbiəti etibarilə bu nailiyyətlər ümumi, hamıya məxsus və qiymətlidir. Onlar həmçinin ümumbəşəri öhdəlik və borcları da ifadə edir. Bu gün İranda baş verənlərin müqabilində susmaq onun bütün dünyada yayılması ilə razılaşmağa bərabərdir. 1968-ci ildə yaradılan, lakin nə şah, nə də Xomeyni rejimi tərəfindən tanınan İran Yazıçıları Assosiasiyası mütərəqqi yazıçıların demokratik birliyidir və o, həmişə kobud hücumlara hədəf olmuşdur.

İran Yazıçıları Assosiasiyasıİslam rejimi nümayəndələrinin Beynəlxalq Kitab Yarmarkasında iştirakını kitabların açıq-aşkar murdarlanması, mədəniyyət və insanların təhqir edilməsi kimi qiymətləndirir. İran Yazıçıları Assosiasiyası işgəncələrə, edamlara, həbslərə, sürgünlərə məruz qalmış, ehtiyaca düçar edilmiş minlərlə yazıçı, incəsənət adamı, alim, tələbə, müəllim və professorların adından, Xomeyni rejiminin viran etdiyi kitabxana və yandırdığı kitab mağazalarının müdafiəsi naminə kitab yarmarkası rəhbərliyindən Xomeyni rejiminin nümayəndələrinin yarmarkada onlar üçün ayrılmış sərgi yerlərinə buraxılmamasını xahiş edir.

İran Yazıçıları Assosiasiyasının
İdarə Heyəti, Paris, 1983

*Qulam Hüseyn Səid,*
*Nemət Mirzəzadə,*
*Hüma Natiq*

*"Index on Censorship", 1 1984,*
*33 Islington High Street, London N1 9LH*

54. TƏK ƏLDƏN DƏ SƏS ÇIXAR

## Aleksandr Soljenitsın

Z. Freyd yazırdı: "Əqlin səsi gur deyil, lakin inadkardır və o eşidilməyənəcən susmaz". Yazıçı və tarixçi Aleksandr İsayeviç Soljenitsının qanlı sovet gerçəkliyini ifşa edən asta, lakin bir an da səngiməyən səsinə bütün dünya beləcə qulaq kəsilmişdi.

Soljenitsın 1918-ci ildə Kislovodskda varlı kazak ailəsində doğulub. Rostov Universitetinin riyaziyyat fakültəsini bitirdikdən sonra orta məktəbdə riyaziyyat və astronomiya fənlərindən dərs deyib, eyni zamanda qiyabi olaraq Moskva Universitetinin ədəbiyyat kursunu başa vurub.

Müharibənin başlanması ilə Soljenitsın cəbhəyə yollanır, orada artilleriya kapitanı rütbəsinə çatır. 1945-ci ildə cəbhədən göndərdiyi məktubda Stalinin ünvanına tənqid söylədiyinə görə məhkəməsiz-filansız ömrünün 8 ilini həbsxanalarda, Sibirin islah-əmək düşərgələrində keçirməli olur. O zamanlar hökumət yalnız dissidentlərin özlərini deyil, həm də ailə üzvlərini təqib edirdi. Məhz bu səbəbdən öz canı üçün qorxan arvadı Soljenitsından üz döndərir.

Taleyin dönüklüyü, həbs düşərgəsinin dəhşətləri Soljenitsının iradəsini sındıra bilmir. Hələ düşərgədə olarkən öz ilk hekayələrini yazmağa başlayır və yazdıqlarını gözətçilərin əlinə düşməməsi üçün əzbərləyib yaddaşına köçürür. 1953-cü ildə Stalinin ölümündən sonra Soljenitsın düşərgədən azad olunmaqla bərabər müddətsiz sürgünə məhkum edilir. 1956-cı ildə onda xərçəng xəstəliyi aşkar edildiyi üçün sürgündən azad olunur. O, ölmək üçün azadlığa buraxılır (bu hadisələr onun "Xərçəng korpusu" adlı povestində bütün təfsilatı ilə təsvir olunub), lakin möcüzə baş verir — xəstəlik bir növ "geri çəkilir" və ona Ryazanda məskən salmağa icazə verilir; buradakı məktəbdə o, riyaziyyatdan dərs deyir, öz ilk hekayələrini yazıya almağa başlayır.

1960-cı ildə N. Xruşşovun antistalin kampaniyasından ruhlanan Soljenitsın Sibirdəki islah-əmək düşərgəsi həyatından bəhs edən və sonralar ona dünya şöhrəti gətirmiş "İvan Denisoviçin bir günü" povestini qələmə alır. Povest 1962-ci ildə, yalnız Xruşşovun özü məsələyə qarışdıqdan sonra çap edilir və dərhal da dünya miqyasında ədəbi-siyasi sensasiyaya səbəb olur.

Stalinizmlə mübarizə aparan Xruşşov təxminən 20 milyon sovet vətəndaşının məhvi ilə nəticələnmiş kommunist rejiminin cinayətlərini ictimaiyyətə çatdırmaq istəyən Soljenitsını dəstəkləməyə başlayır. Lakin artıq 1963-cü ildə Xruşşovun özü Soljenitsının müasir sovet gerçəkliyindən danışan "ziyanlı" hekayələrinin çapına yasaq qoyur.

1964-cü ildə Xruşşov vəzifəsindən götürüləndən sonra Soljenitsın yenə "sovet xalqının düşməni" elan edilir. DTK onu və onun yaxın adamlarını izləməyə başlayır. Lakin Soljenitsın təslim olmur, onun qanlı Stalin terroru haqqındakı povest və hekayələri "samizdat" (yazı makinasında çap edilmiş əlyazmalar şəklində) vasitəsilə bütün ölkəyə yayılır və Kreml rəhbərliyi üçün ən dəhşətlisi odur ki, əcnəbi ölkələrdə dərc olunur.

Soljenitsın həqiqətindən hiddətə gəlmiş hakimiyyət dairələri bütün ölkədə Soljenitsınla bağlı təqib və böhtan kampaniyasına başlayır. 1969-cu ildə onu Yazıçılar İttifaqı üzvlüyündən çıxarır, bununla da yazıçını, demək olar ki, yaşayış vasitələrindən məhrum edir, ölkə ziyalılarını onu "damğalayan" məktubları imzalamağa vadar edir, hətta məktəblərdə də ona qarşı kin və lənətlə dolu təbliğat aparırlar. DTK agentləri Soljenitsının mənzilində axtarış aparır və onun əlyazmalarını müsadirə edir, telefon vasitəsilə onu ölümlə hədələyir, yazıçının az qala hər addımını izləyirlər. Lakin artıq gecdi! Soljenitsın bütün dünyada görkəmli yazıçı, dünyanın yarısını idarə edən qüdrətli sistemə təkcanına meydan oxuyan mərd, cəsur adam kimi tanınır və sevilir. 1970-ci ildə Soljenitsın ədəbiyyat üzrə Nobel mükafatına layiq görülür, lakin mükafatı almağa getməkdən imtina edir, bilir ki, getsə, onu bir daha öz ölkəsinə buraxmayacaqlar.

1973-cü ildə Soljenitsın qüdrətli DTK-nın “başını aldadaraq” öz başlıca əsərini — “QULAQ arxipelaqı” epopeyasını Qərbə ötürə bilir. Kommunist rejiminin 1924—1953-cü illərdə törətdiyi cinayətlərdən danışan bu çoxcildli, sənədli romanı Soljenitsın Xruşşov dövründə Sov. İKP və DTK arxivlərindən əldə etdiyi materiallar əsasında qələmə almışdı. Sovet rəhbərliyinin bu əsərlə bağlı xofu o qədər böyük idi ki, müvafiq orqanlar romanın Qərbdə çapının qarşısını almaq üçün dövlət səviyyəsində bənzəri olmayan səy və cəhdlər göstərirlər. Lakin onların səyi əbəs idi. 1973-cü ilin dekabrında romanın birinci hissəsi Parisdə çap edilir və o vaxta qədər Stalinin ölüm düşərgələrinə inanmaq istəməyən dünya ictimaiyyətini lərzəyə gətirir.

Bu roman Avropa kommunist hərəkatına ağır zərbə vurur — Avropanın sol təmayüllü ziyalıları kütləvi surətdə kommunist partiyalarından çıxdıqlarını elan etməyə başlayırlar. Bu, Avropada kommunizmin süqutunun başlanğıcı idi. Təlaşa düşmüş Sovet rəhbərliyi yazıçının fiziki məhvi haqqında ciddi düşünməyə başlayır, bu addımdan Kremli yalnız dünya ictimaiyyətinin ehtimal olunan qəzəbi saxlayır; nəhayət, “çıxış yolu” tapılır: yazıçını sovet vətəndaşlığından məhrum edib SSRİ-dən sürgün edirlər (1974). Soljenitsın ABŞ-da Vermont şəhərində məskən salır, sovet gerçəkliyindən bəhs edən roman və tarixi xronikaları üzərində işini davam etdirir.

1974-cü il fevralın 18-də “Vaşinqton post” qəzeti onun öz həmvətənlərinə müraciətini — “Yalansız yaşamaq” başlıqlı yazısını dərc edir. Bu müraciətnamə tez bir zamanda “samizdat”ın köməyilə bütün ölkəyə yayılır. İnsan vicdanının ən incə tellərinə toxunan bu müraciətnamə ölkədə əvvəlcə azsaylı dissident hərəkatının, az sonra isə insan ləyaqətinin təsdiq olunması uğrunda kütləvi hərəkatın, bir növ, manifesti olur.

Soljenitsın burada güclü şəxsiyyətlərə, yaxud öz məslək yoldaşlarına deyil, həmişəki kimi bütün xalqa da deyil, necə deyərlər, “orta” vətəndaşa müraciət edir. Onların hər biri ilə ürəkdən, bütün səmimiyyəti ilə danışır, sanki üzbəsurət öz həyat tarixçəsini onlara nəql edir və bu müraciət, bu çağırış ürəklərə yol tapır.

İstiqlaliyyət, demokratiya, tərəqqi, bütün bunlar hələ çox sonra — bizim hər birimizin beynində dərin kök salmış yalan çıxıb gedəndən sonra gələcəkdir. Yazıçı deyir ki, bizim ətrafımızda hər şeyi udub məhv edən rəzalət və köləliyə görə təkcə dövlət, cəmiyyət, iqtidar, yaxud müxalifət deyil, ilk növbədə bizim hər birimiz şəxsən məsuliyyət daşıyırıq. O deyir ki, mübarizəyə girmək, təkbaşına da olsa ilk addımı atmaq gərəkdir. Təklikdə çətin olan ilk addımı...

Soljenitsının resepti sadədən də sadədir — heç vaxt, hətta ən müqəddəs məqsədlər naminə belə yalan söyləmə, həqiqəti ört-basdır eləmə. Vicdansız cəmiyyətdə demokratiya mövcud ola bilməz. Cəhd elə, yalandan qurtul. O vaxt daha heç kəs səni alçaldıb əzə bilməz!

ALEKSANDR SOLJENİTSIN

# Yalansız yaşamaq (1974)

*Bütün bunlarda heç də “onlar” günahkar deyil, hər şeydə biz özümüz günahkarıq!*

Vaxt vardı cınqırımızı da çıxara bilmirdik. İndi artıq “samizdat” yazıb-oxuyuruq, institutların dəhlizlərinə yığışıb ürəyimizi boşaldırıq: “Gör nə oyundan çıxırlar, gör bizi hara sürükləyirlər?!”. Xarabalıq və yoxsulluq içində yerə-göyə sığmayan lovğalıq, vəhşi rejimlərin harda gəldi möhkəmləndirilməsi, vətəndaş müharibələrinin qızışdırılması... Kefləri istəsə, bizi öz əlimizlə (öz vəsaitimizlə) bəsləyib böyütdüyümüz Mao Tszedunun üstünə də göndərə bilərlər və gedərik — çarəmiz nədir? Kimi istəsələr həbs eləyirlər, sağ-salamat adamları dəlixanaya salırlar. İstədikləri oyunu çıxarırlar, bizsə acizik, gücsüzük.

Axırımız çatıb, mənəvi ölüm artıq bizi yaxalayıb və fiziki ölüm də qapımızın ağzını kəsdirib: özümüzü də, övlad-uşağımızı da külə döndərməyə hazırdır, bizsə əvvəlki kimi hürkək-hürkək qımışır və dodaqaltı mızıldanırıq:

“Necə mane ola bilərik? Bizdə o zor hanı?”.

Adamlığımızı o dərəcədə itirmişik ki, bütün prinsipləri, mənəviyyatımızı, ata-babalarımızın bütün elədiklərini, nəvələrimizin eləyə biləcəklərinin hamısını bir qarın çörəyə qurban veririk — təki köhnə nizam pozulmasın, vücudumuza xətər toxunmasın. Bizdə nə qətiyyət, nə qürur, nə də ürək yanğısı qalıb. Biz bütün bəşəriyyətin axırına çıxa biləcək atom ölümündən və üçüncü dünya müharibəsindən də qorxmuruq (bəlkə dəlmə-deşikdə yer

tapıb gizlənə bildik?); biz yalnız cəsarətli vətəndaş addımı atmaqdan qorxuruq. Təki sürüdən ayrılmayaq, təkbaşına bir addım atmayaq — birdən bir parça çörəyimizi itirərik, qazdan, isti sudan, Moskva qeydiyyatından əlimiz çıxar.

Siyasi dərnəklərdə beynimizə möhkəm yeridiblər ki, ömür boyu sabit və rahat yaşamaq gərəkdir: mühitdən, sosial şəraitdən qaça bilməzsən, varlıq şüuru müəyyən eləyir, yəni bizlik bir iş yoxdur, biz heç nə eləyə bilmərik.

Ancaq biz hər şey eləyə bilərik! Yalandan özümüzə toxtaqlıq veririk. Bütün bunlarda heç də "onlar" günahkar deyil, hər şeydə biz özümüz günahkarıq! Deyə bilərsiniz ki, axı həqiqətən, çıxış yolu yoxdur! Ağzımızı tıxayıblar, nə bizə qulaq asan var, nə bizdən söz soruşan. Onları necə məcbur eləyək ki, bizə qulaq assınlar?

Onları öz fikrindən döndərmək, doğrudan da, mümkün deyil. Yaxşı olar ki, onları yenidən seçək! Ancaq bizim ölkədə heç vaxt heç kəs yenidən seçilmir!

Qərbdə adamlar tətillər, etiraz nümayişləri keçirirlər, ancaq biz o qədər başıqapazlı olmuşuq ki, belə şeylərdən qorxuruq: necə yəni işdən boyun qaçırasan, necə yəni küçələrə töküləsən?

Müsibətlərlə dolu son əsr rus tarixinin dönə-dönə sınaqdan çıxardığı fəlakətli (üstəlik, həqiqətən də bizə xidmət eləməyən) yollarla getmək lazım deyil! Bir vaxt əkilən o toxumun boy verib artdığı indiki dövrdə terrorla, qanlı üsyan və vətəndaş müharibəsi ilə ölkəni ədalətli və xoşbəxt eləmək istəyən o özündənrazı cavanların necə azdıqlarını, nə boyda səhvə yol verdiklərini hamı aydın görür. Yox, sağ olun, maarifçi atalar! İndi görürük ki, çirkin metodlar çirkin də nəticələr doğurur. Qoy əllərimiz qana bulaşmasın!

Bəlkə dairə qapanıb? Doğrudanmı çıxış yolu yoxdur? Bizə ancaq oturub gözləməkmi qalır? Birdən nəsə öz-özünə baş verdi?.. Lakin biz gecə-gündüz indiki yaşayışımızı tərifləyib daha da möhkəmləndirəcəyiksə, heç olmasa, onun ən yaralı yerindən (yalandan!) qaçmayacağıqsa, yalan heç vaxt öz-özünə bizdən əl çəkməyəcək.

Zorakılıq adamların dinc həyatına soxulanda lovğa-lovğa, qırmızı-qırmızı bayraq qaldırır: "Mən zorakılığam! Dağılın, çəkilin — əzərəm!". Ancaq zorakılıq tez qocalır, o, özünə uzun müddət güvənə bilmir, özünü yaşatmaqdan, yaxşı görünməkdən, gözə kül üfürməkdən ötrü əlüstü yalanı köməyə çağırır. Çünki zorakılıq yalandan başqa heç nəyin arxasında gizlənə bilmir, yalansa yalnız zorun hesabına yaşayır. Zorakılıq bizə qarşı çox vaxt açıq hücuma keçmir. O, bizdən yalnız yalana boyun əyməyi, hər gün ona şərik çıxmağı tələb edir — kölənin bütün sədaqəti də elə bundadır.

Azadlığa çıxmağın indiyəcən məhəl qoymadığımız ən adi, ən sadə açarı elə buradadır — şəxsən yalana qoşulmamaq! Qoy yalan dünyanı bürüsün, qoy yalan hamıya hakim kəsilsin, ancaq kiçicik bir şeydə möhkəm duraq — yalanın hakim kəsilməsində mənim əlim olmasın!

Və bu, süstlüyümüzü azacıq da olsa aradan qaldıra bilər. Bizdən ötrü ən asanı — yalanı yoxa çıxarmağın ən sadə yolu da elə budur! Çünki adamlar yalandan iyrənib üz döndərəndə o, sadəcə olaraq, aradan çıxır. Yalan mikrob kimi ancaq adamlarda yaşaya bilir. Ortaya çıxan həqiqəti car çəkməyə, düşündüyümüzü ucadan deməyə yetişməmişik — lazım deyil, qorxuludur. Heç olmasa düşünmədiyimizi danışmaqdan əl çəkək!

İçimizdə qat bağlamış mütiliyin fonunda yolumuz budur — ən rahat yol; Qandisayağı vətəndaş itaətsizliyinə (dilə gətirmək belə xatalıdır) baxanda ən asan yol.

Düşünüb-daşınmaq, yalana qətiyyən qahmar çıxmamaq! Yalanın sərhədini (onu hərə bir cür görür) anlayıb o iltihab xəttindən geri çəkilmək gərəkdir! Yalana don geyindirməsək, onda onun necə tez və əngəlsiz yıxıldığına heyrətlənəcəyik; çılpaq yalanı çılpaq şəkildə də görəcəyik.

Və nəhayət, itaətkarlığımızdan çıxış yolunu qoy hər kəs özü seçsin: ya bilə-bilə yalana nökərçilik eləsin (ah, şübhəsiz, öz kefindən ötrü yox, ailəsini dolandırmaqdan, balalarını yalana uyğunlaşdırmaqdan ötrü!), ya da müasirlərə, gələcək nəslə layiq adam olsun. Və həmin gündən o;

— daha bir kəlmə də yalan yazıb çap etdirməsin, yalana imza atmasın;

— yalan sözü nə camaat arasında, nə şəxsi söhbətlərdə, nə təbliğatçı, müəllim, tərbiyəçi, nə də teatr aktyoru kimi nə özündən desin, nə kağızdan oxusun;

— istər rəssamlığın, istər heykəltəraşlığın, istər fotonun, istərsə də musiqinin vasitəsilə heç bir uydurmaya həqiqət donu geyindirməsin;

— özünüsığorta üçün, öz müvəffəqiyyəti naminə "yuxarılar"dan şifahi və ya yazılışəkildə yerinə düşməyən sitatlar gətirməsin;

— onu istəmədiyi nümayiş və mitinqə getməyə məcbur etməyə imkan verməsin; ürəyincə olmayan transparantı, şüarı əlinə alıb başı üzərinə qaldırmasın;

— könlüncə olmayan təklifin lehinə əl qaldırmasın, layiq bilmədiyi, yaxud şübhələndiyi adama (açıq və ya gizli) səs verməsin;

— saxtalığına əvvəlcədən əmin olduğu müzakirələrdən boyun qaçırsın;

— natiqin dilindən yalan, ideoloji cəfəngiyat, sürtük təbliğat, söhbət eşidən kimi yığıncağı, mühazirəni, tamaşanı, kinoseansı yarımçıq qoyub çıxsın;

— informasiyanı saxtalaşdıran, əsl faktları ört-basdır eləyən qəzet-jurnallara abunə yazılmasın, onları satışdan almasın.

Əlbəttə, biz yalandan uzaqlaşmağın vacib şərt və imkanlarının heç də hamısını sadalamadıq. Təmizlənməyə başlayan — baxışları aydınlaşıb durulan hər kəs başqa imkanları asanca seçə bilər.

Bəli, ilk vaxtlar çətin olacaq. Kimsə bir müddət işdən qovulacaq. Doğru-düzgün yaşamaq istəyən cavanların həyatı ilk vaxtlar lap qəlizləşəcək, axı onların oxuyub cavab aradıqları dərsliklər yalanla doludur — onları da ələyib-seçmək gərəkdir. Amma namuslu olmaq istəyən heç bir vaxt, hətta qorxusuz-hürküsüz texniki elmlərdə belə həqiqətə və ya yalana, mənəvi müstəqilliyə və ya mənəvi nökərçiliyə tərəf addım atarkən sadaladığım şərtləri pozmasa, özünü aldada bilməz.

Öz ruhunu qorumağa təpəri çatmayan adam qoy qabaqcıl baxışları ilə öyünməsin, akademik və ya xalq artisti, əməkdar xadim və ya general olması ilə lovğalanmasın, qoy öz-özünə beləcə də desin: mən qoyunam və qorxağam, təki qarnım tox, başım salamat olsun.

Bütün müqavimət yollarının ən sadəsi olan bu yol bizim üçün asan keçməyəcək. Ancaq özünü yandırmaqdan və aclıq keçirməkdən də ağır olmayacaq: alov bədənini sarmayacaq, isti gözlərini qarsalamayacaq və ailən üçün heç olmasa qara çörək, içməli su tapılacaq. Bizim xəyanət etdiyimiz, aldatdığımız böyük Avropa xalqı — çexlər, slovaklar ləyaqətli ürək gəzdirən arxasız-köməksiz sinəni tank qabağına vermək örnəyini göstərmədimi?

Deyirsiniz, çətin yoldur? Çətin yoldur. Ancaq mümkün yolların ən asanıdır. Can üçün çətin olsa da, ruh üçün yeganə yoldur. Çətin yoldur, ancaq artıq bizdə adamlar var ki (hətta belə adamlar onlarcadır), neçə illərdir bu şərtlərə əməl eləyir, yolun çətinliyinə qatlaşır, həqiqətlə nəfəs alırlar.

Və beləliklə, bu yolla biz birinci getmirik, gedənlərə qoşuluruq! Sıralarımız nə qədər mehriban və sıx olsa, yolumuz o qədər asan və qısa olar. Biz minlərcə olsaq, heç birimizə heç nə eləyə bilməyəcəklər. On minlərcə olsaq, ölkəni tanınmaz dərəcədə dəyişə bilərik!

Qorxaqlıq eləsək, onda kiminsə bizə aman vermədiyindən gileylənməyək — özümüzə aman verməyən elə biz özümüzük! Bəlkə hələ dözək, gözləyək ki, vaxt gəlsin, bioloq qardaşlarımız bizim fikirlərimizi oxumaq və genlərimizi dəyişdirmək məsələsini tezləşdirsinlər?..

Əgər bunda da qorxaqlıq eləsək, onda biz rəzilik, yararsızıq və Puşkinin nifrətinə layiqik:

*Azadlıq sürünün nəyinə gərək?*
*Nəsildən-nəsilə onun qisməti*
*Noxtadır, qamçıdır, bir də dəyənək.*

## 55. MÜHARİBƏDƏN SONRAKI ŞƏRQİ AVROPADA DEMOKRATİYA

Faşist qoşunlarından azad olunmuş Avropa ölkələrinə müttəfiqlər tərəfindən demokratik seçkilər keçirmək vəd edilir. Lakin bu cür seçkilər yalnız ABŞ və Böyük Britaniya qoşunlarının tutduqları Qərbi Avropa ölkələrində keçirilir. Sovet ordusunun "azad etdiyi" ölkələrdə isə artıq 1948-ci ilə qədər yerli kommunist partiyaları sovet süngüsünün köməyilə hakimiyyəti ələ keçirib öz ölkələrində sovet rejiminin eyni olan bir üsul-idarə qurur.

Şərqi Avropa ölkələri, amansız repressiyalara baxmayaraq, müharibədən dərhal sonra hər cür vasitə ilə kommunist əsarətindən xilas olmağa cəhd edir. Nə qədər ki, sərhəd bağlanmamışdı, Şərqi Almaniyanın sakinləri kütləvi surətdə ABŞ və Böyük Britaniyanın idarəsi altında olan Qərbi Berlinə qaçmağa başlayırlar; Şərqi Almaniyada (1953), Polşada (1956), Macarıstanda (1956), Çexoslovakiyada (1968) ümummilli etiraz və üsyan aksiyaları qopur, lakin bu qiyamlar sovet tanklarının tırtılları altında öz qanına bələnir.

Antisovet çıxışlardan sonra baş qaldıran irtica demokratik hərəkatı yalnız bir neçə illiyə yatırmağa qadir idi, sonra yenə qiyamlar qalxır və ən müxtəlif formalar alır.

BMT tərəfindən əsası qoyulmuş bütün dünya ölkələrində insan hüquqlarının müdafiəsi hərəkatının Şərqi Avropada və SSRİ-də genişlənən demokratik hərəkata böyük köməyi olur. 1968-ci ildə Qərbin demokratik ölkələrinin təzyiqi altında BMT-nin 35 üzvü "Mülki və siyasi hüquqlar haqqında Pakt"ı və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ı imzalayır. Bu paktları imzalamış ölkələr bu sənədlərin müddəalarını milli qanunvericiliyə daxil etmək və bunlara əməl olunması barədə BMT-nin İnsan Hüquqları Komitəsinə hesabat vermək öhdəliyini öz üzərlərinə götürürdülər.

Bu paktlarda qeyd olunmuş insan hüquqları 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinki Müşavirəsi (bugünkü ATƏT) Yekun Aktında təsdiq edilir. Aktı bütün Avropa ölkələri, habelə ABŞ və Kanada imzalamışdır.

Helsinkidəki danışıqlarda SSRİ liderləri sazişə müharibədən sonrakı Avropada sərhədlərin toxunulmazlığı haqqında müddəanı daxil etməyə can atdıqları halda, Qərb ölkələri sazişin mətnində insan hüquqları haqqında maddələrin əks etdirilməsinə çalışır. Qərbin liderləri bildirirdilər ki, öz "ev"lərində insan hüquqlarına məhəl qoymayan ölkələrə hərb və sülh məsələlərində heç cür etibar edə bilməzlər.

Helsinki müqaviləsi imzalandıqdan dərhal sonra Şərqi Avropada və SSRİ-də insan hüquqlarının müdafiəçiləri müqaviləyə əməl olunmasına nəzarət üzrə "Helsinki komitələri" yaratmağa başlayırlar. 1977-ci ilin yanvarında çex ziyalılarının kiçik bir qrupu "Xartiya–77" təşkilatının yarandığını elan edir. Bu təşkilatdan məqsəd insan hüquqları sahəsində Helsinki razılaşmalarının yerinə yetirilməsinə nəzarət etmək idi.

Bu hadisədən az sonra "Xartiya–77" hakimiyyət dairələrini öz vətəndaşlarının hüquqlarının pozulmasına son qoymağa çağıran bəyannamə yayır. Üç dissidentin, o cümlədən demokratik Çexoslovakiyanın gələcək prezidenti, dramaturq Vatslav Havelin imzaladığı bu bəyannamə elan edildikdən dərhal sonra onu daha 200 nəfər imzalayır və bu adamlardan hər biri hökumət tərəfindən təqib olunur, "Xartiya–77" liderləri isə həbs edilirlər. Lakin qəbul edilmiş taktikaya uyğun olaraq, hər sonrakı il üç yeni şəxs özünü "Xartiya–77"nin rəhbərləri elan edir və onlar da öz növbəsində hökumət tərəfindən həbsə alınırlar.

"Xartiya–77" fəaliyyət göstərdiyi illər ərzində ölkədə hakimiyyət tərəfindən dissidentlərin təqib olunması üzrə məlumatları toplayaraq bütün dünyaya yayır, ictimaiyyətə ünvanlanmış yüzlərlə müraciətnamə qəbul edir. "Xartiya–77"nin müraciətnamələrini ümumən 1500 Çexoslovakiya demokratı imzalamışdı. İlk baxışda 15 milyonluq bir ölkə üçün bu rəqəm çox da böyük görünmür, lakin yadda saxlamaq lazımdır ki, həmin dövrlərdə hökumət əleyhinə çağırışın altından imza atmış şəxs müddətsiz həbs, fiziki işgəncə və mənəvi ölümlə qarşılaşmalı olurdu.

Bütün repressiyalara baxmayaraq, kommunist hakimiyyəti bu hərəkatı boğa bilmədi və 1989-cu ildə hərəkatın liderləri "məxməri inqilab"ın başında durdular ki, bu da son nəticədə Çexoslovakiyada kremlpərəst rejimin devrilməsinə və demokratiyanın bərqərar olmasına gətirib çıxardı.

YAN PATOÇKA, VATSLAV HAVEL VƏ İRJİ HAYEK

# “Xartiya–77”nin bəyannaməsi (1 yanvar 1977-ci il)

*Bu gündən vətəndaşlarımız bu paktlarda göstərilən hüquqlara, dövlətimiz isə vəzifələrə yiyələnir.*

1976-cı il oktyabrın 13-də Çexoslovakiya Qanunları Toplusunda (N-120) respublikamız adından 1968-ci ildə imzalanmış, 1976-cı ildə Helsinkidə təsdiqlənmiş və 1976-cı il martın 23-də bizdə qüvvəyə minmiş “Mülki və siyasi hüquqlar haqqında Pakt” və “İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt” dərc edilmişdir. Bu gündən vətəndaşlarımız bu paktlarda göstərilən hüquqlara, dövlətimiz isə vəzifələrə yiyələnir.

İnsanların bu paktlarla zəmanət verilən hüquq və azadlıqları sivilizasiyanın ən mühüm dəyərləridir; onların əldə edilməsi bəşər tarixində bir çox mütərəqqi qüvvələrin səyləri nəticəsində mümkün olmuşdur; onların qanunvericiliyə daxil edilməsi cəmiyyətimizdə insanların inkişafına xeyli kömək göstərə bilər...

Ancaq bu paktların dərc edilməsi bizə onu da xatırladır ki, hələ nə qədər əsaslı mülki hüquqlar bizdə kağız üzərində qalır. Məsələn, birinci paktın 19-cu maddəsi ilə müəyyənləşdirilən öz fikrinə əngəlsiz malik olmaq hüququ daha çox xülya kimi görünür: on minlərcə vətəndaşa əsasən rəsmi baxışdan fərqli mövqe tutduğuna görə öz peşəsi ilə məşğul olmaq yasaq edilmişdir.

Eyni zamanda onlar hakimiyyət tərəfindən ayrı-seçkiliyin müxtəlif formalarına və təqiblərə məruz qalırlar; müdafiə imkanından məhrum olan insanlar, beləliklə, aparteidin müəyyən bir növünün qurbanına çevrilirlər...

Yüz minlərcə vətəndaş “qorxudan azadlıq” hüququnu itirmişdir (birinci paktın girişinə bax), çünki öz fikrini açıq bildirərsə, işləmək və digər bu kimi imkanlarını itirmək təhlükəsi altında yaşamağa məcbur edilmişdir...

İkinci paktın hamının təhsil hüququna zəmanət verən 13-cü maddəsini pozaraq, gənclərin böyük hissəsinin qarşısına onların öz əqidəsinə, yaxud valideynlərinin əqidəsinə görə təhsildə sədd çəkirlər. Sonsuz sayda vətəndaş ona görə qorxu içərisində yaşamağa məcburdur ki, öz əqidələrinə uyğun fikir söyləsələr, onlar özü və yaxud uşaqları təhsil almaq hüququndan məhrum edilə bilər.

“Dövlət sərhədlərindən çəkinmədən informasiya və ideyaların bütün növlərinin şifahi, yazılı yolla, yaxud mətbuat və ya bədii formalar vasitəsilə alınması və yayılması” hüququ (birinci paktın 19-cu maddəsinin 2-ci bəndi) təkcə “qeyri-qanuni” deyil, həmçinin “qanuni yolla”, çox vaxt cinayətkar məhkəmə təqibləri yolu ilə (gənc musiqiçilər üzərində davam etməkdə olan məhkəmələr buna sübutdur) hücumlara məruz qalır.

Öz fikirlərini açıq ifadə etmək azadlığı bütün rabitə vasitələri, nəşriyyatlar və mədəni institutlar üzərində Mərkəzin nəzarəti ilə boğulur. Rəsmi ideoloji, yaxud estetik çərçivələrdən azacıq kənara çıxan heç bir siyasi, fəlsəfi, elmi, yaxud bədii əsər dərc edilə bilməz; cəmiyyətdə böhran əlamətlərinin aşkar tənqidi yasaqdır; rəsmi təbliğatın quraşdırılmış və alçaldıcı ittihamlarından açıq müdafiə olunmaq imkanı yoxdur (birinci paktın 17-ci maddəsi ilə zamanət verilən “şərəf və ləyaqətin təhqir olunması”ndan məhkəmə yolu ilə müdafiə hüququ praktikada mövcud deyildir); saxta ittihamları təkzib etmək mümkün deyil, məhkəmə vasitəsilə əvəz alınmasına istənilən cəhd isə əbəsdir...

Birinci paktın 18-ci maddəsi ilə zəmanət verilən din azadlığı hakimiyyətin özbaşınalığı ilə daim məhdudlaşdırılır: keşişlərin fəaliyyəti dayandırılır, kilsələrdə ibadət üçün dövlətin verdiyi icazələrin geri alınması ilə hədələyirlər; dini əqidəsini danışıq və ya hərəkətləri ilə ifadə edənlər isə işini itirə, yaxud başqa cəzalara məruz qala bilərlər; dini təhsil sıxışdırılır və s.

Bizdə bir çox mülki hüquqların məhdudlaşdırılması, çox vaxt isə boğulması üçün alət kimi istifadə olunan sistem mövcuddur; onun vasitəsilə dövlətin bütün institutları və orqanları hakim partiyanın aparatından verilən göstərişlərə və hakimiyyət qurumlarında təsiri olan şəxslərin qərarlarına tabe etdirilmişdir. ÇSSR-in Konstitusiyasında, onun qanun və normativ aktlarında bu əmrlərin nə forması, nə məzmunu, nə də tətbiqi göstərilib. Onlar çox vaxt şifahi verilir, vətəndaşların onlardan xəbəri olmur və onlara nəzarət edə bilmirlər. Bu əmrləri verən adamlar özlərindən və birbaşa rəhbərlərindən başqa heç kəsin qarşısında məsuliyyət daşımırlar; bu adamlar hakimiyyətin qanunverici, icraedici və məhkəmə orqanları, həmkarlar ittifaqları, ictimai təşkilatlar, digər siyasi

partiyalar, zavodlar, müəssisələr... üzərində həlledici təsirə malikdirlər... Və bu əmrlər hər hansı qanundan yüksəkdə dayanır... Təşkilat, yaxud şəxs öz hüquqlarını yozumlayarkən bu cür qərarlarla ziddiyyət yarananda qərəzsiz bir orqana müraciət edə bilmirlər, çünki belə orqan yoxdur. Bütün bunlar birinci paktın 21-ci və 22-ci maddələrindən (yığıncaqlar azadlığı və onun tətbiqinə hər hansı məhdudiyyətin yasaq edilməsi), 25-ci maddədən (dövlət işlərində iştirak etmək üçün bərabər hüquqlar) və 26-cı maddədən (qanun qarşısında istənilən ayrı-seçkiliyin yasaq edilməsi) irəli gələn hüquqları kobud şəkildə pozur. Bu şərait həmçinin fəhlə və qulluqçuların öz iqtisadi və sosial maraqlarını müdafiə etmək və tətil hüququnu azad şəkildə həyata keçirmək üçün (ikinci paktın 8-ci maddəsinin 1-ci bəndi) müstəqil həmkarlar ittifaqları və digər təşkilatlar yaratmasına əngəl törədir.

"Şəxsi və ailə həyatına, mənzil toxunulmazlığına, yaxud yazışmaların gizliliyinə" (birinci paktın 17-ci maddəsi) əsassız müdaxilənin qəti şəkildə yasaq edilməsi daxil olmaqla digər mülki hüquqlar da bir çox yollarla ciddi pozulur. Məsələn, Daxili İşlər Nazirliyi vətəndaşların həyatını nəzarət altında saxlamaq üçün mənzillərdə telefon və adi danışıqlara gizlicə qulaq asır, poçtla göndərilən şeyləri açır, adamları izləyir, evlərdə axtarışlar aparır, cəmiyyətdə xəbərçilər şəbəkəsi (adamlar çox vaxt belə əməkdaşlığa hədə, yaxud vədlərlə cəlb olunurlar) yaradır və s.

Nazirlik də çox vaxt işədüzəltmə məsələlərinə qarışır, rəsmi idarələri vətəndaşlara qarşı ayrı-seçkilik hərəkətlərinə sövq edir, mass mediada kampaniyalar aparır. Bütün bu hərəkətlər heç bir qanunla nizamlanmır, örtülü şəkildə həyata keçirilir və vətəndaşlar onların qarşısında acizdirlər.

Siyasi təqib şəraitində istintaq və məhkəmə orqanları ittiham olunanın hüquqlarını, o sıradan müdafiə hüququnu pozurlar, halbuki bu hüquqlara birinci paktın 14-cü maddəsi və Çexoslovakiya qanunları ilə zəmanət verilir. Bu yolla məhkum edilmiş adamlar həbsxanada insan ləyaqətini alçaldan, sağlamlığı pozan hərəkətlərə və mənəvi təhqirlərə məruz qalırlar.

Vətəndaşların öz ölkəsini tərk etmək hüququ (birinci paktın 12-ci maddəsinin 2-ci bəndi) hər yerdə pozulur, bu, "milli təhlükəsizliyin qorunması" (orada, 3-cü bənd) bəhanəsi altında baş verir, bu hüququ hakimiyyət müxtəlif yerinəyetirilməz şərtlərlə bağlamışdır. Xarici təbəələrə viza verilməsi üçün də özbaşına qaydalar qoyulmuşdur, onların çoxu Çexoslovakiyada əsasən təqib olunan əməkdaşı və dostu olduğuna görə ölkəyə gələ bilmir.

Bəzi vətəndaşlar insan hüquqlarının və demokratik azadlıqların daim pozulması haqqında iş yerlərində gizli, yaxud açıq şəkildə (bu, yalnız xarici mass mediada mümkündür) məlumat verir və konkret hadisələrə dair tədbir görülməsini tələb edirlər. Lakin onların tələbi cavabsız qalır, yaxud onlar hakimiyyətin təqiblərinə uğrayırlar...

Ölkəmizdə mülki hüquqların təmin edilməsinin məsuliyyəti hər şeydən əvvəl siyasi və dövlət rəhbərliyinin üzərinə düşür. Lakin təkcə onun üzərinə yox: yaranmış vəziyyətə görə hər kəs məsuliyyət daşıyır və müvafiq olaraq, bütün vətəndaşlar və hökumətlər üçün məcburi olan, qanunla rəsmiləşdirilmiş paktlara riayət olunmasına görə hamının məsuliyyət payı var.

Məhz bu məsuliyyətdaşlıq hissi, onu bölüşdürməyə dair vətəndaşların dərk olunmuş qərarlarının vacibliyinə inamımız, ona yeni və daha səmərəli məzmun verilməsinin zəruriliyi bizi "Xartiya–77"nin yaradılması ideyasına gətirib çıxardı. Biz bu gün onun yarandığını hamıya bəyan edirik.

"Xartiya–77" müxtəlif baxışları, dinləri və sənətləri təmsil edən və bütün xalqlara Helsinki müşavirəsinin Yekun Aktı, həmçinin müharibə, zorakılıq və ictimai, yaxud mənəvi zülmü pisləyən digər çoxsaylı beynəlxalq sənədlərlə verilmiş və BMT Ümumdünya İnsan Hüquqları Bəyannaməsində ətraflı ifadə edilmiş mülki və insan hüquqlarına hörmət edilməsi üçün həm öz ölkəsində, həm də bütün dünyada təklikdə və birgə mübarizə aparmaq istəyinin birləşdirdiyi adamların qeyri-formal, açıq, sərt daxili qaydaları olmayan birliyidir.

"Xartiya–77" həyatda və əməkdə eyni ideyadan ruhlanan insanların arasında dostluq və həmrəəəəйylik prinsiplərinə əsaslanır.əЭ

"Xartiya–77" təşkilat deyil. Onun qaydaları, daimi orqanları, yaxud rəsmi üzvlüyü yoxdur. Onun prinsiplərinə şərik olan və işində iştirak edən hər kəs özünü onun tərkibində hesab edə bilər. O, müxalifətçi siyasi fəaliyyət tribunası deyil. Qərbin və Şərqin müxtəlif ölkələrində vətəndaşların təşəbbüsü ilə yaradılmış çoxlu buna bənzər təşkilatlar kimi, onun da məqsədi ictimai marağın inkişaf etdirilməsinə yardımçı olmaqdır.

O, qarşısında siyasi, ya da sosial islahatlara, yaxud dəyişikliklərə dair özünün xüsusi platformasını yaratmaq məqsədi qoymur. Onun vəzifəsi imkan daxilində siyasi və dövlət qurumları ilə əməli dialoqlar keçirməkdən, o sıradan diqqətin mülki və insan hüquqlarının pozulmasına cəlb edilməsi ilə belə halları sənədlə

rəsmiləşdirməkdən və bu problemlərin həlli yollarını təklif etməkdən, bu hüquqların və onların təminat mexanizminin möhkəmləndirilməsinə yönəlmiş daha ümumi xarakterli təkliflər irəli sürməkdən, eləcə də hüquqların pozulmasına gətirə biləcək münaqişə vəziyyətlərində vasitəçi kimi çıxış etməkdən və s. ibarətdir.

Qurumun "Xartiya–77" adlandırılması rəmzidir. Bu ad onun Siyasi məhbuslar ili eƏlan olunmuş ilin əvvəlində yaradıldığını, həmin vaxtda Helsinkidə götürülmüş öhdəliklərin yerinə yetirilməsinin gedişini müzakirə edəcək Belqrad konfransının keçiriləcəyini nəzərə çatdırır.

Biz, aşağıda imza edənlər, bununla d-r Yan Patoçkaya, Vatslav Havelə və professor İrji Hayekə "Xartiya"nın rəsmi nümayəndələri kimi hərəkət etmək səlahiyyəti veririk. Bu adamlar həm ölkə daxilində, həm də xaricdə dövlət, ictimai və digər təsisatlarda onun maraqlarını təmsil etmək üçün zəruri səlahiyyətlərə malikdirlər və onların imzası "Xartiya" tərəfindən qəbul edilmiş sənədlərin həqiqiliyini təsdiq edir. Biz və bizə məsləkdaş kimi qoşulanların hamısı istənilən zəruri danışıqlarda iştirak edəcək, konkret vəzifələrin yerinə yetirilməsinə qoşulacaq və bütün məsuliyyət yükünü bölüşəcəyik.

Biz hesab edirik ki, "Xartiya–77" Çexoslovakiyanın bütün vətəndaşlarına azad insan kimi yaşamağa və işləməyə imkan yaradacaqdır.

## 56. AZƏRBAYCAN XALQ CƏBHƏSİ

Azərbaycan tarixində elə bir kütləvi hərəkat tapmaq çətindir ki, ölkənin mənəvi və siyasi simasını Azərbaycan Xalq Cəbhəsi (1988–1992) kimi bu qədər dəyişdirmiş, təzələmiş olsun. İlk dəfəydi ki, əhalinin ən geniş təbəqələri tarixin obyekti kimi deyil, subyekti kimi çıxış edərək öz müqəddəratını həll etmək cəsarətində bulunmuşdu. Yüz illər boyu "ağzına su alıb oturmuş" sadə insan, nəhayət, dilə gəlmişdi. Onun ilk sözləri, ilk nitqi bəlkə də kimlər üçünsə naşı və qaba görünə bilərdi, lakin azadlıq tərəfdarları üçün bu sözlər sehrli musiqi kimi səslənirdi. Hər bir müəssisədə, hətta əldən-ayaqdan uzaq kiçik yaşayış məntəqələrində də AXC şöbələri öz-özünə yaranırdı. Təbii şəkildə qurulan yığıncaqlarda ilk azad müzakirələr, ilk azad seçkilər keçirilirdi. Əhali (yalnız ziyalı qrupları yox) özünün tarixlə sıx əlaqəsini, öz işi, öz əməliylə bu tarixin çox mühüm bir olayını törətdiyini və ölkə qarşısında öz məsuliyyətini duymağa başlayırdı. Beləcə, bənzərsiz hisslər, ehtiraslar, ümidlər içində ilk Azərbaycan vətəndaşı doğulurdu.

AXC-nin himayəsi altında azad mətbuat yaranmağa başladı. Sarsıntılar və tərəddüdlər içində çapalayan qondarma hökumətin ölkəni erməni təcavüzündən qorumaqda aciz qaldığı aşkar olduqda isə insanlar AXC-nin qaldırdığı üçrəngli bayrağın altında könüllü olaraq axın-axın cəbhəyə yollandılar.

Tarixə və mənəvi dəyərlərə yenidən baxılır, xalqa zorla sırınmış adlar dəyişdirilirdi. AXC-nin mahiyyəti həm insanın, həm də xalqın öz müqəddəratını təyin etməsi uğrunda hərəkatdan ibarət idi. AXC ölkədə yeni, indiyəcən bənzəri olmayan ictimai məkan yaratdı — elə bir məkan ki, burada hər bir insan əslində olduğu kimi, istədiyi kimi yaşamaq imkanı qazandı.

Dünya tarixindən yaxşı məlumdur ki, böyük miqyaslı, köklü dəyişikliklər ilk çağlarda müəyyən sarsıntılara, çaxnaşma və xaosa səbəb olur. Bizdə də bunsuz ötüşülmədi. O da məlum məsələdir ki, "heç bir təşkilat onu təmsil edən üzvlərindən yaxşı ola bilməz". Və AXC ümummilli hərəkat kimi öz üzvlərinin, yəni Sovet Azərbaycanı vətəndaşlarının özlərində daşıdıqları ziddiyyətləri daşıyırdı...

AXC 1989-cu ilin əvvəllərində, əsasən Elmlər Akademiyasının və yaradıcı ziyalıların nümayəndələrindən ibarət demokratik və vətənpərvər ruhlu bir neçə müstəqil intellektual qrupun birləşməsindən yarandı. 16 iyul 1989-cu ildə yarıleqal vəziyyətdə olan AXC öz təsis konfransını keçirdi və Proqramını qəbul etdi; bu Proqramın məqsədləri müəyyən mənada həmin dövrdə SSRİ-yə başçılıq edən M. Qorbaçovun elan etdiyi demokratik islahatlar proqramı ilə səsləşirdi.

Heç ikicə ay keçməmiş AXC elə bir kütləvi ümummilli hərəkata çevrildi ki, artıq respublika hakimiyyəti də, Kreml də onun öhdəsindən gəlməkdə büsbütün aciz idi. AXC getdikcə federasiyasını yeniləşdirmək, "insaniləşdirmək" uğrunda hərəkatdan qarşısına müstəqilliyə nail olmaq məqsədi qoymuş hərəkata çevrildi. Hətta 1990-cı ilin yanvarında Azərbaycana yeridilmiş sovet qoşunları da bu hərəkatın qarşısını ala bilmədi. Artıq

yarım ildən sonra öz qüvvəsini bərpa edib dirçəlmiş, sıralarını möhkəmləndirmiş AXC 1990-cı il sentyabrın 2-nə təyin olunmuş ilk parlament seçkilərində hakim Kommunist Partiyası ilə mübarizə aparmağa tam hazır idi. Hökumət AXC ətrafında birləşmiş demokratik koalisiyanın üzvlərinə yerlərin vur-tut 10 faizini tutmağa imkan verdi, lakin əhalinin coşğunluqla dəstəklədiyi bu "bir ovuc" demokrat deputat çoxsaylı parlamentdə kəsərli qüvvə olub, böyük nüfuza malik idi. Məhz onların fəal mübarizəsi, səngiməyən təzyiqi altında parlament 1991-ci il sentyabrın 18-də "Azərbaycanın müstəqilliyinin bərpa edilməsi haqqında Konstitusiya Aktı" qəbul etdi. Parlament həmçinin İttifaqın iqtisadi müqaviləsini imzalamaq istəmədi və Azərbaycan deputatlarının SSRİ Ali Sovetində iştirakını oraya cəmi bir neçə müşahidəçi göndərməklə məhdudlaşdırdı. 1991-ci il oktyabrın 18-də Azərbaycan özünün tam dövlət müstəqilliyini elan etdi.

Təsis qurultayında qəbul olunmuş AXC Proqramı yüz minlərcə nüsxədə ölkənin hər yerinə yayıldı. Müzakirələr və tənqid üçün açıq saxlanılmış bu Proqram yerlərdə və müstəqil mətbuatda geniş əks-səda və diskussiyalar doğurdu. AXC Proqramı ölkənin siyasi fikir tarixində yeni səhifə, yeni söz oldu. Əhali hüquqi dövlət, mülki cəmiyyət və dövlətin əzməyə haqqı olmadığı əsas insan hüquqları haqqında ilk dərsi ondan aldı.

İstiqlaliyyət elan olunduğu məqamdan on il ötməsinə, ölkənin demokratik qüvvələrinin təkidli səy və cəhdlərinə baxmayaraq, AXC Proqramında əks olunmuş hüquq və azadlıqlar hələ də reallaşaraq həyata keçməyib. Bu sözlər hələ də dodaqlarda şirin və acı tam kimi qalmaqdadır.

Lakin insan hüquqları uğrunda mübarizə davam edir. Bu gün Azərbaycanda bu mübarizəni onlarca siyasi, ictimai və hüquq müdafiəsiylə məşğul olan təşkilat aparır. Bu təşkilatların, demək olar ki, hamısı AXC ümummilli hərəkatının "bətnindən" çıxıb, onların proqramları isə indiyəcən özündə Xalq Cəbhəsinin 16 iyul 1989-cu ildə qəbul etdiyi ilk Proqramın ruhunu və "möhürünü" daşıyır.

AZƏRBAYCAN XALQ CƏBHƏSİNİN PROQRAMI
(16 iyul 1989)

## ...6. İnsan hüquqları

*...Aydın olmuşdur ki, siyasi azadlıq və iqtisadi uğur üzvi birlik təşkil edir.*

Cəmiyyətimiz öz vətəndaşlarının iqtisadi və sosial hüquqlarını qorumağa böyük səy göstərmişdir. Bununla belə, vətəndaşların qanunlarda elan edilmiş siyasi hüquq və azadlıqlarının təmin edilməsi arxa cərgəyə keçmişdir. Əslində xalq dövlətin idarəsində iştirak etmək imkanından məhrum olmuşdur. Bu, siyasi sistemimizin insanlıqdan uzaq düşməsi və iqtisadiyyatımızın dərin böhranına gətirib çıxarmışdır. Belə şəraitdə vətəndaşların iqtisadi və sosial hüquqları da artıq qorunmur. Aydın olmuşdur ki, siyasi azadlıq və iqtisadi uğur üzvi birlik təşkil edir və buna görə də cəmiyyətimizin ən əsas vəzifəsi vətəndaşların bütün hüquq və azadlıqlarının genişləndirilməsi və təmin edilməsidir.

6.1 AXC insanın azadlığını ən yüksək ümumbəşəri sərvət sayır. Məhz insanın azadlığını, təkcə rifah halını yox.

6.2 Heç bir ictimai mənafe hər hansışəxsin hüquqlarının pozulmasına bəraət qazandıra bilməz. AXC belə hesab edir ki, siyasi hüquq və azadlıqlar yalnız çoxluğa deyil, hər bir fərdə mənsubdur.

6.3 Xalq öz suveren hüquqlarından istifadə edərək öz dövlətini yaradır və dövlətin üzərinə xalqın hüquq və azadlığını qorumaq vəzifəsini qoyur. AXC Azərbaycan Respublikası vətəndaşlarının hüquqlarını BMT Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə, beynəlxalq paktlara və onlara şamil edilmiş sazişlərin maddələrinə uyğun təmin edilməsini tələb edir.

6.4 AXC demokratik ictimai təşkilatların yaranmasına və fəaliyyətinə mane olan bütün siyasi və bürokratik maneələrin ləğv edilməsini, vətəndaşların dinc mitinq, nümayiş və yığıncaq keçirmək hüquqlarının əməli olaraq həyata keçməsini tələb edir.

6.5 AXC insanın hərəkət azadlığı və yaşayış yeri seçmək hüququnun təmin edilməsini tələb edir. Respublikamızdakı pasport rejimi ləğv edilməlidir.

6.6 Məhkəmə prosesi "müttəhimin günahsızlığı" prinsipindən çıxış etməlidir. AXC vəkillərin cinayətdə təqsirləndirilən şəxsin ilk istintaqında iştirakının təmin edilməsinə, demokratik ölkələrin əksəriyyətində qəbul edilmiş andlılar məhkəməsi sisteminin yaradılmasına çalışır.

6.7 AXC vətəndaşlara vəzifəli şəxslərin tək və ya birgə qəbul olunmuş qərarlarından məhkəməyə şikayət etmək hüququnu tələb edir...

6.9 AXC insan hüququnun əsasını təşkil edən vicdan azadlığına və dini etiqadın sərbəstliyinə sözsüz riayət etməyi tələb edir. Bütün dini abidələr bərpa edilib dindarların ixtiyarına verilməlidir.

6.10 AXC hesab edir ki, sovet ordusunda mövcud xidmət qaydaları "yeni təfəkkür" tələblərinə cavab vermir. Hərbi xidmətdə olan gənclərin mülki hüquqlarının və həyatının qorunmasına təminat gücləndirilməlidir. Azərbaycanda yaşayan xalqların nümayəndələrindən zabitlər hazırlanması genişlənməlidir. Azərbaycan vətəndaşları səhhətlərinin qorunması məqsədilə hərbi mükəlləfiyyəti Azərbaycan SSR ərazisində keçməlidirlər.

6.11 AXC hərbi xidmətdə olan Azərbaycan SSR vətəndaşlarının SSRİ Ali Sovetinin elan etmədiyi müharibə və ya hərbi əməliyyatlarda iştirak etməsinin qəti qadağan olunmasını tələb edir.

6.12 Respublikamızın məhkum olunmuş vətəndaşları həbs cəzasını Azərbaycan SSR ərazisində çəkməlidirlər.

*Azadlıq qəzeti, No-1, 24.12.1989*

57. 1989 — LİBERALİZMİN SON QƏLƏBƏSİ?

Amerika politoloqu, Dövlət Departamentinin keçmiş yüksək rütbəli əməkdaşı Frensis Fukuyamanın "Tarixin sonu?" essesi 1989-cu ilin yayında "National Interest" (ABŞ) jurnalında işıq üzü görmüş və dərhal da bütün dünyada geniş əks-səda doğurmuşdur.

Esse dünya tarixinin dönüş məqamlarının birində – 1989-cu ildə Avropada kommunist rejimlərinin bir-birinin ardınca dağıldığı bir vaxtda, dünyanı azad və totalitar dünyalara bölmüş Berlin səddi uçqununun "gurultu"su yeni

eranın — Fukuyamanın fikrincə, liberalizmin əbədi erasının başlanğıcından xəbər verdiyi günlərdə qələmə alınmışdır.

"Şahidi olduğumuz hadisələr, — Fukuyama yazırdı, — sadəcə olaraq "soyuq müharibə"nin və yaxud müharibədən sonrakı dövrün növbəti mərhələsinin sonu deyil, özlüyündə tarixin sonudur, bəşəriyyətin ideoloji təkamülünün və idarəetmənin bitkin forması kimi Qərb liberal demokratiyasının ümumdünya xarakteri almasının başa çatdırılmasıdır".

"Tarixin sonu?" essesi elə həmin il dünyanın bütün əsas dillərinə tərcümə edildi və bəşəriyyətin sonrakı inkişaf yolları haqqında bu gün də davam edən qızğın müzakirələrdən, əsas baxışlardan biri oldu.

Qərb oxucuları Fukuyamanın belə bir tezisini alqışladı ki, onların seçdikləri mənəvi dəyərlər və həyat tərzi yeganə düzgün yoldur və tarixin gedişi də bunu sübut edir; tarix Marksın dünya proletar inqilabı haqqındakı nəzəriyyəsini təkzib və liberalizm klassikləri C.Bentam və C.S.Millin yalnız insanın azadlığına əsaslanan sistemin səmərəli və mütərəqqi olması barədəki nəzəriyyələrini təsdiq etdi.

Fukuyama yazır ki, indən belə liberal demokratik düşərgəyə meydan oxumağa qabil olan dünya əhəmiyyətli faşist, yaxud kommunist gücü olmayacaqdır. Müəllif daha uzaqlara gedərək təsdiq edir ki, kommunizmin iflasından sonra daha liberalizmin dünyada alternativi yoxdur. Doğrudur, ayrı-ayrı ölkələrdə millətçilik və dini fundamentalizm hələ də şüurlara hakim kəsilməkdədir, lakin onların dünya əhəmiyyətli gücə çevrilmək üçün heç bir perspektivi yoxdur. Liberal dəyərlər, yəni demokratiya və insan hüquqlarını dünyanın bütün xalqları, aralarındakı mədəni fərqlərə baxmayaraq, tanıyacaqdır.

Eyni zamanda, Fukuyama özü sanki şübhə və tərəddüd keçirirmiş kimi soruşur: bəs görəsən, bu "yeni şərəfli dünya" — ideyaların mübarizəsi, mücərrəd məqsədlər naminə özünü qurban verməyin, yüksək amallı idealizmin iqtisadi mənfəət, texniki və ekoloji problemlərlə əvəz olunduğu bir dünya darıxdırıcı və kədərli olmayacaqmı? Fukuyama bu gün bizim yaşadığımız dünya üçün bir "həsrət" duyur. "Tarixin sonu"nu hələlik görə bilməyən bizlər isə artıq onun yaşayıb-yaratdığı dünyanın həsrətini çəkirik.

FRENSİS FUKUYAMA

# Tarixin sonu? (1989)

> *...Liberalizmin yaşamağa qabil heç bir alternativi qalmamışdır. ...Tarixin sonunda meydana gələn dövlət ...insanın ayrılmaz azadlıq hüququnu tanıdığına... görə liberal, təbəələrin razılığına əsasən mövcud olduğuna görə isə demokratik dövlətdir.*

Təxminən son onillikdə cərəyan edən hadisələri izləyərkən ümumdünya tarixində nə isə əsaslı bir hadisənin baş verdiyi hissindən uzaqlaşmaq çətindir. Ötən il "soyuq müharibə"nin sonunu və "sülh"ün bərqərar olduğunu elan edən çoxlu məqalə yazılmışdır. Fəqət bu materialların əksəriyyətində əsaslı məsələləri təsadüfi olanlardan ayırmağa imkan verən konsepsiya yoxdur; onlar səthidir. Belə ki, əgər cənab Qorbaçov Kremldən qovularsa və hər hansı yeni ayətullah minillik şahlıq dövrü elan edərsə, bu icmalçıların özü dərhal münaqişələr erasının bərpa olunduğunu elan etməyə tələsəcəklər.

Ancaq gedən prosesin fundamental xarakter daşıması, onun cərəyan edən hadisələrə rabitə və nizam verməsi barəsində anlayış artmaqdadır. İdeoloji zorakılığın paroksizmi XX əsrdə gözlərimiz qarşısında bütün dünyanı bürümüşdü, liberalizm əvvəlcə mütləqiyyətin qalıqları, sonra isə bolşevizm və faşizmlə, nəhayət, bizi nüvə müharibəsi girdabına sürükləməklə hədələyən ən yeni marksizmlə mübarizə etmək məcburiyyətində qalmışdı. Başlanğıcda Qərb liberal demokratiyasının tam qələbəsinə əmin olan əsr indi, nəhayət, nədən başlamışdısa, ona — hələ bu yaxınlara qədər fərz olunan "ideologiyanın sonu" və yaxud kapitalizmlə sosializmin uyğunlaşmasına deyil, iqtisadi və siyasi liberalizmin şəksiz qələbəsinə qayıdır. Qərbin, qərbçiliyin qələbəsi ona görə şəksizdir ki, liberalizmin yaşamağa qabil heç bir alternativi qalmamışdır. Son onillikdə ən iri kommunist ölkələrində intellektual mühit mühüm islahatlara məruz qalmağa başlayaraq dəyişilmişdir. Bu fenomen yüksək siyasətin

çərçivələrindən kənara çıxır, onu Qərb istehlakçı mədəniyyətinin ən müxtəlif formalarda geniş yayılmasında... müşahidə edirik.

Şahidi olduğumuz hadisələr sadəcə olaraq "soyuq müharibə"nin və yaxud müharibədən sonrakı dövrün növbəti mərhələsinin sonu deyil, özlüyündə tarixin sonudur, bəşəriyyətin ideoloji təkamülünün və idarəetmənin bitkin forması kimi Qərb liberal demokratiyasının universal xarakter almasının başa çatdırılmasıdır. Lakin bu o demək deyildir ki, bundan sonra daha heç bir hadisə baş verməyəcək və *"Forin Affearz"ın* beynəlxalq münasibətlərə dair illik icmallarının səhifələri boş qalacaqdır, liberalizm hələlik yalnız ideyalar, şüur aləmində qalib gəlmişdir; real, maddi aləmdə qələbəyə hələ çox var. Ancaq ciddi əsaslar söyləməyə imkan verir ki, məhz bu ideal aləm son nəticədə maddi aləmi müəyyənləşdirəcəkdir. Bu prosesin mahiyyətini anlamaq üçün əvvəlcə tarixdə baş verən dəyişikliklərin təbiəti ilə əlaqədar bəzi nəzəri məsələləri araşdırmalıyıq.

## I

Tarixin sonu haqqında təsəvvürü orijinallıq kimi qəbul etmək olmaz. Onun ən məşhur təbliğatçısı Karl Marks olmuşdur. O hesab edirdi ki, maddi qüvvələrin qarşılıqlı əlaqəsi ilə müəyyənləşən tarixi inkişaf məqsədyönlü xarakter daşıyır və bütün ziddiyyətləri həll edəcək kommunist utopiyasına çataraq bitəcəkdir. Tarixin bu konsepsiyasını (əvvəli, ortası və sonu olan dialektik proses kimi) Marks özünün böyük alman sələfi G.V.F.Hegeldən əxz etmişdi.

Bunun pis, yoxsa yaxşı olmasından asılı olmayaraq, Hegel tarixiliyinin bir çox cəhətləri bu gün əqli biliyimizin tərkib hissəsini təşkil edir. İnsan şüurunun sosial qurumların qəbilə-tayfa, quldarlıq, teokratiya və nəhayət, demokratik eqalitarizm[4] kimi konkret formalarına uyğun gələn bir sıra mərhələləri keçməsi haqqında təsəvvür bu qəbildəndir. Hegel filosofların içərisində birinci olaraq müasir ictimai elmin dilində danışmağa başlamışdır. Onun üçün insan "təbii hüquq" nəzəriyyəçilərinin hesab etdikləri kimi, bu və ya digər "təbii" atributların məcmusu deyil, konkret tarixi və ictimai mühitin məhsuludur. Və təbiətə yiyələnərək onu elm və texnikanın köməyi ilə dəyişdirmək ideyası Marksa deyil, Hegelə məxsusdur. Tarixi relyativizmdən *tout court*[5] relyativizmə enmiş sonrakı tarixçilərdən fərqli olaraq Hegel hesab edirdi ki, tarix müəyyən mütləq anda zirvə nöqtəsinə çatır, məhz həmin anda cəmiyyətin və dövlətin bitkin, ağlabatan forması qalib gəlir.

Bədbəxtlikdən, çoxları Hegeli Marksın sələfi kimi tanıyır və ona marksizm prizmasından baxırlar; çox az adam onun əsərləri ilə birbaşa tanış olmaq əziyyətinə qatlaşmışdır. Hegeli təfsirçi marksistlərdən xilas etmək və onu müasir dövr üçün əhəmiyyət kəsb edən bir filosof kimi həyata qaytarmaq cəhdlərini az-çox fransız tədqiqatçıları etmişdilər. Onların içərisində rus mühaciri, parlaq intellektual Aleksandr Kojev xüsusilə fərqlənirdi.

Kojev "Ruhun fenomenologiyası" dövrü Hegelini — 1806-cı ildə tarixin sonunun yaxınlaşdığını elan etmiş Hegeli dirçəltmək istəyirdi. Çünki hələ onda Hegel Prussiya monarxiyasının Napoleon tərəfindən məğlub edilməsində Fransa inqilabı ideallarının qələbəsini, azadlıq və bərabərlik prinsiplərini özündə cəmləşdirmiş dövlətin yetişməkdə olan universallaşdırılmasını görürdü. Kojev israr edirdi ki, əslində Hegel haqlı imiş. Yena ətrafında döyüş tarixin sonunu bildirirdi, belə ki, məhz həmin anda bəşəriyyətin *avanqardının* köməyi *(bu termin marksistlərə yaxşı tanışdır — F.F.)* ilə Fransa inqilabının prinsipləri həyata keçirildi. 1806-cı ildən sonra da hələ çox iş qalırdı— köləlik və kölə alverinin ləğvi irəlidə idi, fəhlələrə, qadınlara, zəncilərə və başqa irqi azlıqlara seçki hüququ vermək lazım idi və s. Ancaq liberal-demokratik dövlətin prinsiplərinin özü o vaxtdan artıq yaxşılaşdırıla bilməzdi. Əsrimizdə baş vermiş iki dünya müharibəsi, onların ardınca inqilab və çevrilişlər bu prinsiplərin daha geniş ərazilərə yayılmasına kömək etdi. Nəticədə əyalət sivilizasiyanın ön mövqeyinə çıxdı, Avropa və Şimali Amerikanın cəmiyyətləri isə liberalizm prinsiplərini həyata keçirmək üçün sivilizasiyanın ön cərgəsinə keçdilər.

Tarixin sonunda meydana gələn dövlət qanunlar sistemi vasitəsilə insanın ayrılmaz azadlıq hüququnu tanıdığına və müdafiə etdiyinə görə liberal, təbəələrin razılığına əsasən mövcud olduğuna görə isə demokratik dövlətdir. Kojevə görə, onun təbirincə, bu "universal homogen dövlət" müharibədən sonrakı Qərbi Avropa ölkələrində, ən nəhəng və cəsur layihələri Ümumi bazardan ibarət olan bu süst, tox, özündənrazı, yalnız özləri ilə məşğul olan, zəif iradəli dövlətlərdə gerçək həyata tətbiq edildi. Başqa cür ola bilərdimi? Bəşər tarixi öz münaqişələri ilə "ziddiyyətlər"in mövcudluğuna əsaslanır: qədim insanın şəxsiyyət kimi tanınmağa can atması, ağa-qul dialektikası, təbiətin dəyişdirilməsi və ona sahib çıxması, ümumbəşəri hüquqlar uğrunda mübarizə və

[4]Bärabärlìyä aludäçìlìk — *red.*

[5]Eläcä bu (fr.)— *red.*

proletariatla kapitalistlər arasında dixatomiya[6] bu qəbildəndir. Universal dövlətdə isə bütün ziddiyyətlər həll edilmiş və bütün tələbatlar ödənilmişdir. Mübarizə və ciddi münaqişələr yoxdur, ona görə generallara və dövlət xadimlərinə də ehtiyac yoxdur; yerdə qalan isə, əsasən, iqtisadi fəaliyyətdən ibarətdir. Demək lazımdır ki, Kojev həyatda da öz təliminə əməl edirdi. O hesab edirdi ki, düzgün başa düşülən Hegel mütləq biliyə nail olduğuna görə filosoflar üçün heç bir iş qalmamışdır. Ona görə də Kojev müharibədən sonra müəllimliyi tərk etmiş və 1968-ci ildə vəfat edənə qədər Avropa İqtisadi Birliyində (AİB) məmur işləmişdir.

Kojev tərəfindən tarixin sonunun elan edilməsi, əlbəttə, müasirləri üçün fransız intellektualının dünya müharibəsi və başlanmaqda olan "soyuq müharibə"nin nəticələri ilə bağlı tipik ekssentrik solipsizmi kimi görünürdü. Hər halda, Kojev tarixin qurtardığını hansı cəsarətlə iddia edirdi? Bunu başa düşmək üçün biz bu iddianın Hegel idealizmi ilə əlaqəsini araşdırmalıyıq.

## II

Hegel üçün tarixi hərəkətə gətirən ziddiyyətlər, hər şeydən əvvəl insan şüuru dairəsində, yəni ideyalar — Amerika siyasətçilərinin seçkiqabağı bayağı vədləri deyil, dünyanın geniş birləşdirilmiş cəhətlərini əks etdirən ideyalar səviyyəsində mövcuddur; onları ideologiya adlandırmaq daha yaxşı olardı. İdeologiya, eyniləşdirilməyə adət etdiyimiz kimi, siyasi doktrina ilə üst-üstə düşmür, ancaq hər hansı cəmiyyətin əsasında dayanan din, mədəniyyət və mənəvi dəyərləri də özündə birləşdirir.

Hegelin ideal, real və maddi aləmin əlaqəsinə baxışı çox mürəkkəbdir. Ondan başlayaq ki, onun üçün onların arasında fərq zahiridir. Hegel üçün real aləm fəlsəfə professorlarının ideoloji xurafatından asılı deyil; ancaq demək olmaz ki, ideal olan onun üçün "maddi" aləmdən ayrılıqda mövcuddur. Hegel özü də professor olmaqla Yena döyüşü kimi bir maddi hadisənin təsiri altında bir müddət çaşıb qalmışdı. Amma əgər, bir tərəfdən, Hegelin yazarlığına və düşüncəsinə maddi aləmdən atılmış güllə son qoya bilərdisə, digər tərəfdən, tətiyin üzərindəki barmaq, öz növbəsində, Fransa inqilabını ruhlandırmış azadlıq və bərabərlik ideyası ilə hərəkətə gətirilirdi.

Hegel üçün maddi aləmdə insanın bütövlükdə özünü aparması, buradan da bütün bəşər tarixinin kökü şüurun əvvəlinci vəziyyətindən irəli gəlir... Şüur nəticə deyil, səbəbdir və o, maddi aləmdən kənar inkişaf edə bilməz; ona görə də bizi əhatə edən hadisələr burulğanının əsl səbəbi ideologiyadır.

Sonrakı mütəfəkkirlərin əsərlərində Hegel idealizmi miskin vəziyyətə salındı. Marks şüurun əhatə dairəsində olan dini, incəsənəti və fəlsəfənin özünü həlledici maddi istehsal vasitələri ilə əsaslandırdığı "üstqurum"un siyahısına keçirərək ideal və real aləm arasında əlaqəni tərsinə dəyişdi. Marksizmin daha bir hüznlü mirası ondan ibarətdir ki, biz siyasi və tarixi hadisələrin maddi və əməli izahlarına meylli olmuşuq; biz ideyaların müstəqil gücünə inanmaqdan çəkinirik. Buna sonuncu nümunə Pol Kennedinin böyük uğur qazanmış "Böyük dövlətlərin yüksəlişi və süqutu" kitabıdır. Orada böyük dövlətlərin süqutu çox sadə — iqtisadi gərginləşmə ilə izah olunur. Əlbəttə, burada müəyyən həqiqət vardır: iqtisadiyyat özünü güclə saxlayan imperiya müflisliyi haqqında sonsuz etiraflarla yaşaya bilməz. Ancaq cəmiyyətin öz ümummilli məhsulunun 3, yaxud 7 faizini nəyə — müdafiəyə, yoxsa istehlak ehtiyaclarına ayıracağı haqqında məsələ bu cəmiyyətin siyasi prioritetlərinə daxildir, axırıncılar isə şüur dairəsində müəyyən olunur.

Müasir düşüncənin materialist meyli təkcə marksizmə rəğbət bəsləyən sollar üçün deyil, bir çox qızğın antimarksistlər üçün də səciyyəvidir. Məsələn, deyək ki, "Uoll strit cornel" jurnalının materialist determinizmi sağ qanada dayanır. O, ideologiya və mədəniyyətin əhəmiyyətini tanımır, insana mahiyyətcə yüksək gəlir dalınca qaçan ağıllı fərd kimi baxır. İqtisadiyyata dair dərsliklərdə məhz bu tip insanları onu hərəkətə gətirən maddi stimullarla birlikdə iqtisadi həyatın əsası kimi götürürlər. Bu materialist baxışların şübhəli tərəflərini misalla göstərək.

Maks Veber özünün məşhur "Protestant etikası və kapitalizmin ruhu" kitabını protestant və katoliklərin iqtisadi fəaliyyətindəki fərqləri göstərməklə başlayır. Bu fərqlər belə bir zərb-məsəldə ümumiləşdirilmişdir ki, "protestantlar şirin bar alır, katoliklər şirin yuxuya dalırlar". Veber qeyd edir ki, insanı yüksək gəlir dalınca qaçan ağıllı varlıq hesab edən hər hansı iqtisadi nəzəriyyəyə uyğun olaraq tariflərin yüksəldilməsi əmək məhsuldarlığının artmasına gətirib çıxarmalıdır. Lakin bir çox ənənəvi kəndli icmalarında bu, əks nəticə verir — daha yüksək tariflər qoyularkən gündə iki marka yarım qazanmağa adət etmiş kəndli az işləməklə elə həmin

[6]Davamlí parçalanmalar — *red.*

məbləği qazanmaq imkanı olduğunu başa düşür və elə də hərəkət edir. Gəlirə deyil, asudə vaxta, sonra afinalı tacirin firavan dolanışığına deyil, spartalı hoplitin[7] hərbiləşdirilmiş həyat tərzinə, ya da hətta aristokratın ənənəvi vaxt keçirməsinə deyil, ilkin kapitalizm dövrü sahibkarının asket həyatına üstünlük verilməsini maddi qüvvələrin simasız hərəkətləri ilə izah etmək olmaz; seçim əsasən şüur sahəsində, ideologiyada baş verir.

Veberin əsərinin mərkəzi mövzusu, Marksın əksinə olaraq, belə bir tezisi sübut etməyə yönəlir ki, kökləri din və mədəniyyətdə olan maddi istehsal üsulu "bazis"ə deyil, "üstqurum"a aiddir. Əgər biz müasir kapitalizmin və gəlirin motivlərinin nə olduğunu başa düşmək istəyiriksə, Veberə görə, hər ikisinin şüur sahəsində olan ilkin şərtləri öyrənilməlidir.

Müasir dünya iqtisadi inkişafın materialist nəzəriyyələrinin acizliyini çılpaqlığı ilə göstərir. "Uoll strit cornel" jurnalının materialist determinizm məktəbi azad bazar iqtisadiyyatının həyataqabilliyinə sübut kimi Asiyanın son bir neçə onilliklər ərzində əldə etdiyi heyrətamiz iqtisadi uğuru misal göstərməyi xoşlayır; nəticə çıxarırlar ki, başqa cəmiyyətlər də öz əhalisinə sərbəst şəkildə maddi maraqları rəhbər tutmağa imkan versəydi, onlar da belə uğurlar qazanardı. Əlbəttə, azad bazar və sabit siyasi sistem iqtisadi yüksəlişin vacib şərtidir. Lakin o da şübhəsizdir ki, Uzaq Şərq cəmiyyətlərinin mədəni irsi, əmək, ailə həyatı etikası, qənaətcilliyi, islamdan fərqli olaraq, iqtisadi davranış sahəsinə heç bir məhdudiyyət qoymayan dini və özünə yer etmiş digər mənəvi keyfiyyətləri onların iqtisadi fəaliyyətini izah edərkən heç də az rol oynamır. Bununla belə, materializm beyinlərə elə təsir edib ki, iqtisadi inkişafın ciddi müasir nəzəriyyələrindən heç biri şüur və mədəniyyəti qəbul etmir və görə bilmir ki, bu, mahiyyətcə iqtisadiyyatın ana qucağıdır.

İqtisadi davranışın şüur və mədəniyyətlə şərtləndiyini başa düşməmək geniş yayılmış səhvə gətirib çıxarır — təbiətinə görə ideya ilə bağlı olan hadisələri də maddi səbəblərlə izah edirlər. Məsələn, Çin islahatı, son vaxtlar isə Sovet İttifaqında aparılan islahat da adətən maddinin ideya üzərində qələbəsi kimi şərh olunur. İzah etməyə çalışırlar ki, ideoloji stimullar maddi marağı əvəz edə bilmədi və irəliləyiş əldə etmək üçün şəxsi mənfəətin adi formalarına söykənmək lazımdır. Ancaq sosialist iqtisadiyyatının ciddi qüsurları hələ otuz, yaxud qırx il bundan öncə hamıya aydın idi. Onda nə üçün sosialist ölkələri mərkəzləşdirilmiş planlaşdırmadan yalnız 80-ci illərdə imtina etməyə başladı? Cavabı "katolik" yoxsulluğu və təhlükəsiz yaşayış tərzindən imtina edib "protestant" firavanlığı və risqli həyata üstünlük verməyi qərara almış elitanın və onun liderlərinin şüurunda axtarmaq lazımdır. Bu isə heç bir halda bu ölkələrin islahat ərəfəsində yaşadıqları maddi şəraitin labüd nəticəsi deyildi. Əksinə, dəyişiklik ona görə baş verdi ki, bir ideya digərinə qalib gəldi...

Mənim Hegelin radikal idealist baxışlarını xırdalıqlarına qədər müdafiə etmək üçün burada nə yerim, nə də taqətim var. Məsələ onun sisteminin düzgün olub-olmamasında deyil, ondadır ki, çox vaxt olmalıymış kimi qəbul etdiyimiz materialist yanaşmaların problematikliyi onun işığında nə qədər aydın görsənir. Söhbət maddi amillərin bütövlükdə inkar edilməsindən getmir. İdealistin baxışına görə, insan cəmiyyəti onların maddi aləmlə uzlaşdırılıb–uzlaşdırılmamasından asılı olmayaraq ixtiyari seçilmiş hər hansı prinsiplərin əsasında qurula bilər. Həqiqətən də, insanlar sübut etmişlər ki, onlar ideya naminə istənilən maddi əziyyətlərə dözməyə qadirdirlər...

Ancaq bir halda ki, maddi aləmi insanın qəbul etməsinin özü bu aləmin dərk olunması ilə şərtlənir, onda maddi aləm də şüurun konkret vəziyyətinin yaşamağa qabil olmasına tam təsir edə bilər. Məsələn, inkişaf etmiş liberal iqtisadiyyata xas zəngin maddi bolluq və onun əsasında ən rəngarəng istehlak mədəniyyəti siyasi dairədə liberalizmi təbliğ və müdafiə edir. Maddi determinizmə görə, liberal iqtisadiyyat labüdən liberal siyasəti doğurur. Mən isə hesab edirəm ki, əksinə, iqtisadiyyat da, siyasət də şüurun onlardan qabaq mövcud olmuş vəziyyətinin nəticəsidir. Şüurun liberalizm üçün əlverişli vəziyyəti, əgər o, yuxarıda qeyd etdiyimiz bolluqla təmin olunubsa, tarixin sonunda sabitləşir. İndi yekunlaşdıra bilərik ki, ümumbəşəri dövlət iqtisadi sahənin azad video və stereo satışı ilə uzlaşan siyasi sahədə liberal demokratiyadan ibarətdir.

## III

Doğrudanmı biz tarixin sonuna çatmışıq? Başqa sözlə, müasir liberalizmin həll etməkdə gücsüz olduğu, lakin hər hansı alternativ siyasi-iqtisadi quruluş çərçivəsində həll edilə bələn əsaslı ziddiyyətlər hələ də qalıbmı? İdealist mövqelərdən çıxış etdiyimizə görə cavabı da ideologiya və şüur dairəsində axtarmalıyıq... Biz liberalizmə qarşı çıxan (o cümlədən, cürbəcür səfeh "peyğəmbərlər" tərəfindən) bütün çağırışları araşdırmaq fikrində deyilik. Albaniya və yaxud Burkina-Faso sakinlərinin beyninə hansı fikirlərin gəlməsinin elə bir əhəmiyyəti yoxdur. Bizi bütün bəşəriyyət üçün ümumi ideoloji fond yaradan fikirlər maraqlandırır.

---

[7]Aõír sìlahlí pìyada — *red.*

Başa çatmaqda olan yüzillikdə liberalizm iki sınağa: faşizm və kommunizm sınağına dözməli olmuşdur. Birinciyə görə, Qərbin zəifliyi onun materializmi, mənəvi pozğunluğu, vəhdətin itirilməsi, liberal cəmiyyətlərin əsaslı ziddiyyətlərinin mahiyyətindən irəli gəlir; faşizm baxışına görə, onları yalnız güclü dövlət və milli müstəsnalıq ideyasına arxalanan "yeni insan" həll edə bilərdi. Faşizm yaşamağa qabil ideologiya kimi İkinci dünya müharibəsi ilə məhv edildi... İdeyanın özü uğursuzluğa düçar oldu... Məsələnin kökü ondan ibarətdir ki, sonsuz münaqişələr və son nəticədə hərbi fəlakətlər vəd edən ekspansionist ifrat millətçilik bütün cəlbedici keyfiyyətlərindən məhrum oldu. Bu ideologiya Reyxin xarabalıqları altında, Xirosima və Naqasakiyə atılmış atom bombaları altında təkcə maddi cəhətdən deyil, həmçinin şüur səviyyəsində də məhv oldu...

Liberalizmin məruz qaldığı ikinci ideoloji sınaq daha ciddi idi. Marks Hegelin dili ilə israr edirdi ki, liberal cəmiyyətə əsaslı, həlledilməz ziddiyyət xasdır: bu, kapital və əmək arasında ziddiyyətlərdən ibarətdir. Sonralar bu iddia liberalizmə qarşı əsas ittiham kimi səslənirdi. Söz yox ki, Qərb sinfi məsələni müvəffəqiyyətlə həll etmişdir. Kojevin (digərləri ilə yanaşı) qeyd etdiyi kimi, müasir Amerika eqalitarizmi Marksın söylədiyi sinifsiz cəmiyyətdən başqa bir şey deyildir. Bu o demək deyildir ki, Amerika BirləşmişŞtatlarında varlı və yoxsul yoxdur və onların arasında fərq son illərdə artmamışdır. Lakin iqtisadi bərabərsizliyin kökləri eqalitar və təkrar bölüşdürücü cəmiyyətimizin hüquqi və sosial strukturunda deyildir; məsələ cəmiyyətimizə keçmişdən miras qalmış mədəni və sosial xüsusiyyətlərlə bağlıdır. BirləşmişŞtatlardakı zənci problemi liberalizmin yox, formal ləğv edildikdən sonra da uzun müddət qalmış köləliyin məhsuludur.

Sinfi məsələnin ikinci plana keçməsi ilə əlaqədar tam cəsarətlə demək olar ki, Qərb dünyasında kommunizmin cazibədarlığı Birinci dünya müharibəsindən sonra ən aşağı səviyyəyə enmişdir. Bunu istənilən sahədə yoxlamaq olar. Avropada əsas kommunist partiyalarının üzvləri və seçicilərinin sayının azalması ilə, onların açıq təftişçi proqramları ilə, Böyük Britaniya və AFR-də, ABŞ və Yaponiyada bazarın lehinə, etatizmin əleyhinə çıxış edən konservativ partiyaların seçkilərdə müvəffəqiyyəti ilə... Gələcəyin sosializmə məxsus olduğunu düşünənlər cəmiyyətlərinin real siyasi şüuru üçün çox qoca və yaxud köhnədirlər... Əsrin lap əvvəlində Asiya idxal edilən Qərb ideologiyalarının mübarizə meydanına çevrildi. Birinci dünya müharibəsindən sonra Asiyada liberalizm çox zəif idi; asanlıqla yaddan çıxarırlar ki, cəmisi 10–15 il əvvəl Asiyanın siyasi gələcəyi necə ümidsiz görünürdü...

Liberalizmin Asiya alternativlərindən ilk əvvəl məğlub ediləni Yaponiya imperiyasının təmsil etdiyi faşizm oldu. Alman variantı kimi o da Amerika silahının gücü ilə məhv edildi; qalib tərəf Yaponiyaya liberal-demokratiyanı qəbul etdirdi. Yaponlar, əlbəttə, Qərb kapitalizmini və siyasi liberalizmi tanınmaz dərəcədə dəyişdirdilər. Bir çox amerikalılar indi başa düşürlər ki, yapon sənayesinin təşkili Amerika və Avropanınkından çox fərqlənir, hakim Liberal-Demokrat Partiyasının daxilindəki fraksiya manevrlərini isə çox böyük şübhə ilə demokratiya adlandırmaq olar. Buna baxmayaraq, iqtisadi və siyasi liberalizmin mühüm ünsürlərinin yapon ənənə və institutlarının bənzərsiz mühitinə uyğunlaşa bilməsi faktının özü liberalizmin bütün şəraitlərə davamlılığını sübut edir...

Yaponiyanın nümunəsi ilə sənayeləşdirmə yolunu tutmuş digər Asiya ölkələrinin iqtisadi uğurları bu gün hamıya bəllidir. Cənubi Koreya yaxşı təhsil almış və artmaqda olan orta sinifli müasir, urbanist cəmiyyətə çevrilmişdir. Onilliklər boyunca özünü Asiyada baş verən hadisələrdən təcrid etmiş sosialist Birma da ötən il iqtisadi və siyasi sistemin liberallaşdırılması cəhdi ilə bağlı bir sıra sarsıntılar keçirdi...

Liberal ideya əgər Asiyada nəhəng və qədim mədəniyyətə — Çinə toxunmasaydı, onun gücü o qədər də həlledici təsir bağışlamazdı... Onuncu Mərkəzi Komitənin məşhur 1978-ci il Üçüncü plenumundan başlayaraq Çin Kommunist Partiyası kənd təsərrüfatında 800 milyon çinlini əhatə edən dekollektivləşməyə girişdi. Dövlətin kənd təsərrüfatında rolu vergilərin yığılması ilə məhdudlaşdırıldı... İslahat nəticəsində cəmisi beş il ərzində taxıl istehsalı iki dəfə artdı...

Çində gedən proseslərin mühüm əhəmiyyətini nəzərə almaqla qeyd etməliyik ki, məhz dünya proletariatının vətənində — Sovet İttifaqında cərəyan edən hadisələr marksizm-leninizmin tabutunun qapağına son mıxı vurur... Sovet İttifaqından gələn mühacirlər deyirlər ki, ölkədə faktiki heç kim marksizm-leninizmə artıq inanmır... Qorbaçov hakimiyyətə gələndən sonrakı dörd il ərzində baş verən hadisələr stalinizmin ən əhəmiyyətli prinsip və institutları üzərinə inqilabi yürüş, onların sözün həqiqi mənasında hələ liberal olmayan, amma öz aralarında məhz liberalizmlə bağlı olan yeni təzahürlərlə əvəz edilməsi demək idi... Qorbaçov və onun komandası, deyəsən, bazarın tətbiq edilməsinin iqtisadi məntiqini kifayət qədər yaxşı başa düşdülər, lakin üçüncü dünya dövlətlərinin liderləri kimi onlar da Beynəlxalq Valyuta Fondu ilə üzləşərkən istehlak subsidiyaları və adamların dövlət bölməsindən asılılığının digər formalarından imtina ediləcəyi halda baş verə biləcək sosial nəticələrdən qorxurlar.

...SSRİ-də işsizlik və inflyasiyadan qorxan sadə fəhlələrdən, vəzifə və güzəştlərindən yapışan partiya məmurlarından ibarət mühafizəkar müxalifət açıq, gizlənmədən öz fikirlərini söyləyir və o, yaxın illərdə Qorbaçovu hakimiyyətdən devirmək üçün kifayət qədər güc nümayiş etdirə bilər. Lakin hər iki qrup yalnız ənənə, qayda və dayaqların saxlanmasının tərəfdarı kimi çıxış edir, onlar marksizm-leninizmin elə də sadiq müdafiəçiləri və tərəfdarları deyillər...

* * *

Bir anlıq təsəvvür edək ki, faşizm və kommunizm mövcud deyil; liberalizmin hər hansı ideoloji rəqibi qalırmı? Və yaxud başqa cür: liberal cəmiyyətdə onun çərçivəsində həll edilə bilməyən hər hansı ziddiyyət vardırmı? İki hal irəli çıxır: din və millətçilik.

Hamı son vaxtlar xristian və müsəlman ənənələri çərçivəsində dini fundamentalizmin yüksəlişini qeyd edir. Bəziləri iddia edirlər ki, dinin canlanması adamların liberal istehlak cəmiyyətindəki biganəlik və mənəvi boşluqdan bezdiklərini sübut edir. Boşluq vardır və əlbəttə, bu, liberalizmin ideoloji qüsurudur, amma bundan elə nəticə çıxarmaq olmaz ki, din bizim perspektivimizə çevrilir... Axı liberalizmin özü o vaxt meydana gəldi ki, dinə əsaslanan cəmiyyətlər sülh və sabitlik üçün hətta cüzi şərait yaratmağa qadir olmadıqlarını aşkar etdilər.

Liberalizmə və kommunizmə alternativ olaraq dini (teokratik) dövlət bu gün yalnız islam tərəfindən təklif olunur. Lakin bu doktrina qeyri-müsəlmanlar üçün cəlbedici deyil və onun, ümumiyyətlə, hər hansı səviyyədə yayılacağını təsəvvür etmək çətindir. Digər, daha az mütəşəkkil dini impulslar liberal cəmiyyətin imkan verdiyi şəxsi həyat çərçivəsində müvəffəqiyyətlə təmin olunur.

Liberalizm çərçivəsində potensial həlledilməz daha bir "ziddiyyət" millətçilik, irqi və etnik şüurun digər formalarıdır. Doğrudan da, Yena döyüşündən sonra baş vermiş münaqişələrin böyük əksəriyyəti millətçilikdən törəmişdir. Bu yüzillikdə millətçiliyin müxtəlif formaları iki əcaib dünya müharibəsini törətmişdir; əgər bu ehtiraslar müharibədən sonrakı Avropada müəyyən qədər söndürülübsə, üçüncü dünyada hələ həddindən artıq güclüdür. Millətçilik liberalizmə Almaniyada təhlükə təşkil edirdi və o, "tarixdən sonrakı" Avropanın Şimali İrlandiya kimi təcrid olunmuş hissəsində liberalizmi hədələməkdə davam edir.

Aydın deyil ki, doğrudanmı millətçilik liberalizm üçün həlledilməz ziddiyyətdir. Millətçilik yekcins deyil: o, bir neçə müxtəlif təzahürdə — mülayim, mədəni nostalgiyadan yüksək dərəcədə mütəşəkkil və hərtərəfli hazırlanmış nasional-sosializmə qədər özünü göstərir. Yalnız sonuncuya xas ardıcıl millətçilik formal olaraq liberalizm, yaxud kommunizmlə müqayisə olunaraq ideologiya hesab edilə bilər. Dünyada milli hərəkatların böyük əksəriyyəti siyasi proqrama malik deyil, onların mahiyyəti hər hansı qrupdan və ya xalqdan ayrılmaq cəhdindən ibarətdir. Onlar sosial-iqtisadi qurumun az-çox düşünülmüş layihəsini təklif etmir. Hər halda, onlar liberal cəmiyyətlər üçün münaqişə mənbəyinə çevrilə bilər, ancaq bu münaqişə liberalizmdən deyil, daha dəqiqi, liberalizmin tam həyata keçirilməməsindən irəli gəlir. Əlbəttə, etnik millətçi gərginliyi əksər halda onunla izah etmək olar ki, xalqlar özləri seçmədikləri qeyri-demokratik siyasi sistemlərdə yaşamağa məcburdur.

İstisna etmək olmaz ki, gözlənilmədən ortaya yeni ideologiya və yaxud nəzərdən qaçırılmış ziddiyyət (hər halda, müasir dünya təsdiq edir ki, sosial-siyasi qurumun köklü prinsipləri 1806-cı ildən bəri elə bir dəyişikliyə uğramamışdır) çıxa bilər. Dəfələrlə özünü liberalizmə nisbətən daha qabaqcıl elan etmiş ideologiyalar uğrunda müharibə və inqilablar törədilmişdir, ancaq hər dəfə tarix bu iddiaları ifşa etmişdir.

## IV

Tarixin sonu beynəlxalq münasibətlər sahəsi üçün nə deməkdir? Aydındır ki, üçüncü dünyanın böyük hissəsi tarixin dalda yerində qalacaq və uzun müddət münaqişə meydanı olacaqdır. Ancaq biz diqqətimizi indi dünya siyasətinin əsas məsuliyyətini öz üzərində daşıyan daha iri və inkişaf etmiş ölkələrə cəmləşdirək. Rusiya və Çin çətin ki, yaxın gələcəkdə Qərbin inkişaf etmiş millətlərinə qoşulsunlar. Amma bir anlığa təsəvvür edin ki, marksizm-leninizm bu ölkələrin xarici siyasətini istiqamətləndirən amil kimi aradan çıxır... Onda bu ideologiyasızlaşdırılmış dünya özünün bütün xüsusiyyətləri ilə birlikdə bizim yaşadığımız dünyadan nə ilə fərqlənəcəkdir?

Adətən cavab verirlər ki, elə bir ciddi fərq olmayacaqdır, çünki belə bir fikir geniş yayılmışdır ki, ideologiya böyük dövlətçilik maraqlarını gizlətmək üçün vasitədən başqa bir şey deyildir və bu, millətlər arasında yüksək dərəcədə rəqabət və münaqişələrin səbəbi rolunu oynayır...

Bu fikir xəttinin tərəfdarları ideologiyasızlaşdırılmış dünya modeli kimi XIX əsrdə Avropa dövlətləri arasında yaranmış münasibətlər balansını götürürlər. Çarlz Krautemmer, məsələn, bu yaxınlarda yazır ki, əgər Qorbaçovun islahatları nəticəsində SSRİ marksist-leninçi ideologiyadan imtina edərsə, ölkənin XIX əsr Rusiya imperiya siyasətinə qayıdışı baş verəcəkdir. O, "kommunist Rusiyasından gələn təhlükədənsə bu yaxşıdır" fikrini müdafiə edərək belə bir nəticəyə gəlir: rəqabət və münaqişələr, deyək ki, Rusiya və Böyük Britaniya və yaxud Kayzer Almaniyası arasında olduğu şəkildə də davam edəcək. Əlbəttə, bu, Sovet İttifaqında nə isə mühüm hadisələrin baş verdiyini etiraf edən, lakin öz üzərinə məsuliyyət götürərək siyasətin buradan irəli gələn radikal dəyişdirilməsi ideyasını müdafiə etmək istəməyənlər üçün münasib mövqedir. Ancaq bu mövqe düzgündürmü?

İdeologiyanın böyük dövlətin dəyişməyən maraqları üzərində yalnız "üstqurum" olması fikri kifayət qədər mübahisəlidir. Çünki dövlətin öz milli mənafeyini müəyyən etdiyi metod universal deyil, o da iqtisadiyyatın şüurun ondan əvvəlki vəziyyətinə söykəndiyi kimi əvvəlki ideoloji bazisə əsaslanır. Bu yüzillikdə dövlətlər açıq-aydın ekspansionizmi qanuniləşdirən xarici siyasət proqramlarından ibarət və kifayət qədər bitkin hala salınmış doktrinaları mənimsəmişlər.

XIX əsrdə ekspansionizm və rəqabət daha az "ideal" bazisə əsaslanırdı; sadəcə olaraq, onların söykəndiyi ideologiya iyirminci əsr doktrinaları qədər bitkin hala salınmamışdı. Əvvəla, ən "liberal" Avropa cəmiyyətləri də qeyri-liberal idi, belə ki, onlar imperializmin qanuniliyini, yəni hökmranlıq altında olan millətlərin istəyi ilə hesablaşmayaraq bir millətin başqa millətlər üzərində ağalıq etmək hüququnu qəbul edirdilər. Hər millət imperializmə özü bildiyi kimi bəraət qazandırırdı: haqqın (xüsusilə də söhbət qeyri-avropalılardan gedəndə) gücün tərəfində olmasına kobud inamdan "ağ adamın ağır yükü"nə qədər; Avropanın xristianlaşdırma missiyasını yerinə yetirməsi zərurətinə, Rable və Molyer mədəniyyətini rənglilərə "çatdırmaq" istəyinə qədər. Bu və ya digər ideoloji bazisin necəliyindən asılı olmayaraq hər bir "inkişaf etmiş" ölkə ali sivilizasiyanın aşağıdakılara ağalıq etməsinin məqbul olduğuna inanırdı. Bu, yüzilliyin ikinci yarısında ərazilərin zəbt olunmasına gətirdi və dünya müharibəsinin törədilməsində az rol oynamadı.

XIX əsr imperializminin əcaib törəməsi kimi alman faşizmi — Almaniyanın təkcə qeyri-avropalıların deyil, bütün qeyri-alman xalqlar üzərində ağalığına bəraət qazandıran bir ideologiya meydana gəldi. Lakin retrospektiv baxımdan Hitler, güman ki, Avropanın ümumi inkişaf yolunun qeyri-sağlam yan xəttini təşkil edirdi. Onun görünməmiş məğlubiyyətindən sonra ərazi işğalının istənilən formasını qanuniləşdirmək ideyası nüfuzdan salınmış oldu. İkinci dünya müharibəsindən sonra Avropa millətçiliyi zərərsizləşdirildi və xarici siyasətə hər hansı təsir imkanından məhrum edildi. XIX əsrin fövqəldövlətçilik davranış modeli əsl anaxronizmə çevrildi. Millətçiliyin Qərbi Avropa dövlətlərinin 1945-ci ildən sonra qarşılaşdığı ən ifrat forması əsasən mədəniyyət və siyasi sıçrayışlar sahəsində özünü göstərmiş qollizmdən ibarət oldu. Dünyanın tarixin sonuna çatmış hissəsində beynəlxalq həyat siyasət və ya hərbi strategiya ilə deyil, daha çox iqtisadiyyatla məşğuldur.

Təbii ki, Qərb ölkələri öz müdafiəsini möhkəmləndirir və müharibədən sonrakı dövrdə ümumdünya kommunist təhlükəsini dəf etmək üçün hazırlıqlarını görürdülər. Lakin bu, xarici təhlükədən irəli gəlirdi və ekspansionist ideologiyanı rəhbər tutan dövlətlər olmasaydı, buna da ehtiyac qalmazdı. "Neorealist" nəzəriyyəni ciddi qəbul etmək üçün biz gərək belə bir şeyə inanaq ki, Rusiya və Çin yer üzərindən silinərsə, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı dövlətləri arasında rəqabət ruhunda "təbii" davranış yenidən bərqərar olacaqdır. Yəni Qərbi Almaniya və Fransa 30-cu illərdə olduğu kimi bir-birindən çəkinə-çəkinə silahlanacaq, Avstraliya və Yeni Zelandiya hərbi müşavirlərini göndərərək Afrikada təsir dairəsi uğrunda mübarizə aparacaq, BirləşmişŞtatlarla Kanada arasında isə istehkamlar ucaldılacaqdır. Bu, əlbəttə, cəfəngiyatdır: marksist-leninçi ideologiya olmasaydı, biz yəqin ki, dağıdılmış AİB və XIX əsr nümunəsində rəqabətə deyil, dünya siyasətində "Ümumi bazar"a nail olardıq. Bizim terrorizm və ya Liviya problemləri ilə əlaqədar Avropa ilə təmaslarımız sübut edir ki, avropalılar beynəlxalq siyasətdə güc (hətta özünümüdafiə məqsədilə də) işlədilməsinin qanuniliyinin rədd edilməsində bizdən çox qabağa gediblər. Buradan da, ekspansionist kommunist ideologiyasından imtina etdikdən sonrakı Rusiyanın bolşevik inqilabından əvvəl dayandığı yerdən başlayacağı haqqında güman, ən azı, gülüncdür. Ola bilərmi ki, bütün bu vaxt ərzində insan şüuru yerində dayansın və bu gün iqtisadiyyat sahəsində yeni ideyalara yiyələnən Sovetlər hələ yüz il bundan qabaq köhnəlmiş baxışlara qayıtsın? Axı Çin öz islahatlarını başlayandan sonra bununla üzləşmədi. Çin ekspansionizmi praktik olaraq yoxa çıxmışdır: Pekin daha 60-cı illərdə olduğu kimi, maoçu qiyamçıların sponsoru kimi çıxış etmir və uzaq Afrika ölkələrində öz qaydalarını yaymaqdan çəkinir. Bu o demək deyildir ki, Çinin müasir xarici siyasəti ballistik raketlərin texnologiyasının Yaxın Şərqə satılması və Vyetnama qarşı qırmızı kxmerlərin maliyyələşdirilməsi kimi təhlükəli hallardan xalidir. Amma birincisi kommersiya mülahizələri ilə izah oluna bilər, ikincisi isə keçmiş, ideoloji motivlərdən irəli gələn

ixtilafların izidir. Yeni Çin Birinci dünya müharibəsi ərəfəsindəki Almaniyadan daha çox qollist Fransanı xatırladır.

Bütün bunlarla yanaşı, bizim gələcəyimiz Sovet elitasının ümumbəşəri dövlət ideyasını nə dərəcədə əxz edəcəyindən asılıdır. Dərc olunmuş materiallardan və şəxsi görüşlərimdən mən birmənalı nəticə çıxarıram ki, Qorbaçovun ətrafında toplanmış liberal sovet ziyalıları çox az vaxt ərzində tarixin sonu ideyasını anlaya bilmişlər: bunun üçün artıq Brejnevdən sonrakı dövrdə Avropa sivilizasiyası ilə əlaqələrin az əhəmiyyəti olmamışdır. “Yeni siyasi təfəkkür” kitabı elə bir aləmi təsvir edir ki, orada iqtisadi maraqlar üstünlük təşkil edir, millətlər arasında ciddi münaqişələr üçün ideoloji zəmin mövcud deyil və müvafiq olaraq, hərbi gücün tətbiqi qanundankənar hala keçməkdədir...

“Yeni təfəkkür” tərəfindən təqdim olunan tarixdənsonrakışüur Sovet İttifaqı üçün yeganə mümkün gələcəkdir. Sovet İttifaqında həmişə güclü böyük rus şovinizmi cərəyanı mövcud olmuşdur. O, aşkarlığın gəlişi ilə geniş özünüifadə imkanı qazanmışdır. Mümkündür ki, müəyyən bir vaxt ərzində Qorbaçovun dağıtdığı “dayaqlar”ı bərpa etməyə can atanların toplanış məntəqəsi kimi ənənəvi marksizm-leninizmə qayıdış baş versin. Lakin Polşada olduğu kimi, burada da marksizm-leninizm səfərbəredici ideologiya kimi ölüdür — onun bayrağı altında adamları daha yaxşı işləməyə məcbur etmək mümkün deyildir. Marksizm-leninizm təbliğatçılarından fərqli olaraq, SSRİ-də ifrat millətçilər özlərinin slavyanpərəst rollarına güclü inam bəsləyirlər və belə bir təsəvvür yaranır ki, burada faşist alternativi hələ də yaşamaqdadır.

Beləliklə, Sovet İttifaqı yol ayrıcındadır — o ya Qərbi Avropanın 45 il əvvəl seçdiyi və Asiya ölkələrinin əksəriyyətinin də indi getdiyi yola qədəm qoyacaqdır, ya da özünəməxsusluğuna vurğunluqla yerində ilişib qalacaqdır. Seçiləcək yol bizim üçün böyük əhəmiyyətə malikdir. Ərazisini və hərbi gücünü nəzərə alsaq, İttifaq tarixin o biri tərəfində olduğumuz haqqında hissənin dərk olunmasına mane olaraq diqqətimizi özünə cəlb etməkdə davam edəcəkdir.

## V

Marksizm-leninizmin əvvəlcə Çində, sonra isə Sovet İttifaqında öz əhəmiyyətini itirməsi onun dünya tarixində əhəmiyyəti və gələcəyi olan ideologiya kimi iflasını bildirəcəkdir...

Bu, heç bir halda o demək deyildir ki, beynəlxalq münaqişələr ümumiyyətlə yox olacaqdır. Çünki onda da dünya iki hissəyə bölünəcəkdir: biri tarixə, digəri isə tarixdənsonrakı dövrə məxsus olacaqdır. Bunların arasındakı və daxilindəki münaqişə həmişəki kimi mümkün olacaqdır. Etnik və millətçilik zəminində zorakılığın səviyyəsi yüksək olaraq qalacaq və hətta yüksələn xətlə inkişaf edəcəkdir. Belə ki, bu impulslar tarixdənsonrakı dövrdə də tükənməyəcəkdir. Fələstinlilər və kürdlər, siqhlər və tamillər, irland katolikləri və vallilər, ermənilər və azərbaycanlılar öz inciklikləri yığacaq və saxlayacaqlar. Buradan belə çıxır ki, terrorizm də, milli azadlıq müharibələri də gündəlikdə qalacaqdır. Lakin ciddi münaqişələr üçün hələ də tarixin çərçivəsində qalan iri dövlətlər lazımdır, onlar isə lap vaxtında tarix səhnəsini tərk edirlər.

Tarixin sonu kədərlidir. Tanınmaq uğrunda mübarizə, adi mücərrəd məqsəd naminə həyatınla risk etməyə hazır olmaq, cəsarət, təxəyyül və idealizm tələb edən ideoloji mübarizə — bütün bunların əvəzinəiqtisadi fayda, sonsuz texniki problemlər, ekologiya barəsində qayğılar və istehlakçıların hədsiz tələblərinin ödənilməsi.

Tarixdənsonrakı dövrdə nə incəsənət, nə fəlsəfə var — yalnız bəşər tarixinin səliqə ilə qorunan muzeyi vardır. Mən özümdə və ətrafımdakılarda o dövr, tarixin mövcud olduğu dövr üçün nostalgiya hiss edirəm. Bir müddət bu nostalgiya rəqabət və münaqişələri qidalandıracaqdır. Tarixdənsonrakı dünyanın labüdlüyünü qəbul etməklə mən Avropada 1945-ci ildən sonra özünün Şimali Atlantika və Asiya qolları ilə birlikdə yaradılmış sivilizasiyadan ötrü ən ziddiyyətli hisslər keçirirəm. Bəlkə də bu çoxəsrlik üzüntü, süstlük tarixi daha bir start götürməyə məcbur edəcəkdir?

*Francis Fukuyama,*
*“The End of the History?”,*
*National Interest, Summer, 1989*

58. İSLAM VƏ DEMOKRATİYA

20-ci yüzilliyin ikinci yarısı bizi görünməmiş dəyişikliklərlə qarşılaşdırdı. Dünya tarixində xarakterinə, sürətinə və miqyasına görə belə dəyişikliklərə rast gəlinməmişdi. Mürtəce millətçiliyin inkişafı və süqutu, kütləvi antimüstəmləkə hərəkatı, sovet sosializminin yayılması və iflası — bunların hamısı, Britaniyanın baş naziri Makmillanın məşhur sözləri ilə desək, bütün istiqamətlərdə "dəyişikliklər küləyi"nin tüğyan etməsindən xəbər verirdi.

Bu gün çoxları belə bir fikrə gəlib ki, sayı bir milyarda çatan islam dünyası öz tarixində köklü dəyişikliklər etmək ərəfəsindədir. Bu dəyişikliklər dünyanın 50-yədək ölkəsindəki ənənəvi islam cəmiyyətlərini demokratikləşdirməli və zamanın tələbinə uyğunlaşdırmalıdır.

Çağdaş islam ölkələrində insan haqlarının vəziyyəti acınacaqlıdır. Yalnız 2 müsəlman ölkəsində — Türkiyədə və Livanda dünyəvi dövlət və azad seçkilər var. Həmin dövlətlərdə insan haqlarının vəziyyəti isə demokratik dünya birliyini daim narahat edən məsələlərdən biridir. Ərəbistan yarımadasındakı ölkələrin feodalizm quruluşu, eləcə də İran, İraq, Liviya və başqa müsəlman ölkələrində repressiv rejimin hökm sürməsi üzündən bəzi müşahidəçilər belə bir tələsik nəticə çıxarıblar ki, islam, xüsusən də ərəb mədəniyyəti ilə demokratiya bir araya sığa bilməz. Amerikadakı Harvard Universitetinin məşhur professoru Samuel Hantinqton böyük hay-küyə səbəb olan "Sivilizasiyaların toqquşması?" (1993) adlı məqaləsində yazmışdı: "Əksər müsəlman ölkələrində demokratiyanın uğursuzluğunun başlıca səbəbi islam mədəniyyətidir". Daha sonra elə həmin məqalədə iddia edilirdi ki, demokratiyanın uğurlu inkişafı üçün guya ən zəruri şərt elə Qərb xristianlığıdır.

Bu mövqeyi dəstəkləyənlər unudurlar ki, Avropanın ateist mütəfəkkirləri xristianlığa qarşı məhz həmin iradları irəli sürürdülər. Məsələn, Nitsşe deyirdi ki, xristianlıq insanın iradəsini əlindən alan və onda canlı nə varsa, hamısını məhv edən bir dindir (bax: F.Nitsşe, "Antixristian"). Qərbin Platondan Hegelə, Börk və Marksadək gəlib çıxan möhkəm antidemokratik ənənəsi də unudulur. Bunu da yaddan çıxarırlar ki, 50-ci illərədək Avropada demokratik hüquqi dövlət quruluşu qayda yox, istisna hal sayılırdı.

Yəhudilik, xristianlıq və islam mənbələrini obyektiv nəzərdən keçirərkən müəyyən etmək olar ki, hər dinin elə müddəaları var ki, onları həm demokratiya, həm avtoritarizm kimi təsnif etmək olar.

HİKMƏT HACIZADƏ

# İslam dünyası demokratik islahatlar ərəfəsində (1998)

*İnsanlar islamın yüksək dəyərlərini ənənəyə baş əyməklə, yaxud qorxuya görə yox, şüurlu şəkildə — şəxsi seçimin nəticəsi kimi qəbul etməlidirlər.*

## *İslamda demokratiya*

...İslam dedikdə biz bu gün nəyi başa düşürük? İslam orta əsrlər dahilərinin mədəniyyəti, yoxsa əfqan taliblərinin cahilliyidir? İslam — müstəbid dövlətdə zülm və korrupsiya, yoxsa müstəqillik və ləyaqət uğrunda mübarizəyə ruhlandıran bir idealdır?

İslam ölkələrindəki çoxsaylı təriqətlərə və üsul-idarə formalarına baxmayaraq, bütün müsəlmanlar qəbul edirlər ki, dünyada ancaq bir islam var və onun qaynaqları Quran və sünnədədir (Məhəmməd peyğəmbərin kəlamları və gördüyü işlər). İslam qaynaqlarını öyrənərkən aşkar etdim ki, burada seçmək azadlığı, bərabərlik, insan ləyaqəti, dini azadlıq, milli fərqlərlə hesablaşma, xalq suverenliyi, ictimai saziş, qanunun aliliyi, sosial dövlət və insanın fəal həyatı mövqeyi haqqında külli miqdarda müddəalar var.

*Qurani-Kərimdən bəzi sitatlara nəzər salaq:*

**İnsanlar və millətlər arasında bərabərlik.** *"Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq, sonra sizi xalqlara və qəbilələrə ayırdıq ki, bir-birinizi tanıyasınız" (49-cu surə: 13-cü ayə).*

(Quranın bu ayəsini BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin birinci maddəsi ilə müqayisə etmək maraqlı olardı: *"Bütün insanlar öz hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilmişdir və onlar bir-biri ilə qardaşlıq münasibətində olmalıdırlar"*).

**Xalq hakimiyyəti.** Allahın yerdəki müavini hökmdar yox, dini nüfuz sahibləri yox, hətta peyğəmbər də yox, xalqdır! Yalnız xalq öz müqəddəratını həll edə bilər: *"Mən yer üzündə müavinimi (insanı) yerləşdirəcəyəm" (2:30). "Siz insanlar üçün yaradılan ən gözəl ümmətdiniz. Düzgünlüyü buyurardınız, adamları fənalıqdan qoruyardınız" (3:110).* Yəni yer üzündə öz həyatlarını idarə etmək və daim abadlaşdırmaq məhz insanların vəzifəsidir. *"O kəslər ...işlərini öz aralarında məsləhət-məşvərətlə görərlər..." (42:38); "Buna görə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən! Onların üzərində hakim deyilsən!" (88:21-22).*

**Vicdan azadlığı.** *"Dində məcburiyyət yoxdur" (2:256). "İnsanları inanmağa sənmi məcbur edəcəksən?!" (10:99).*

**Ümumun razılığı prinsipi.** Peyğəmbər şəxsən özü qərar qəbul etməməlidir. O, ümumun razılığına uyğun iş görməlidir: *"... İşlərini məşvərətlə həll eləyirlər" (42:38), "...Onlarla məsləhətləş..." (3:159), "Andırsana bunları onlara, Sənin borcun onları inandırmaqdır. Sən onlara hökm eləyən deyilsən" (88:21,22).*

**Seçmək azadlığı.** İslama görə, insan seçmək hüququna malikdir. İnsanın Allah qanununu qəbul etməməyə haqqı var, bu halda o özü Allah qarşısında cavab verməli olacaq: *"De ki, Rəbbinizin dərgahından gəlmiş haqq. İnanmaq istəyən inansın, istəməyən dansın onu"* (18:29).

**Vicdan azadlığı.** *"Dində məcburiyyət yoxdur" (2:256). "Sənmi zor işlədirsən insanları [imana] gətirmək üçün?" (10:99). "...Heç məcbur edərik ki, istəməyə-istəməyə bunları qəbul edəsiniz?" (11:28).*

**Şəxsi təhlükəsizlik.** *"Özgənin evinə nəbadə icazəsiz, sahibinə salamsız girəsiniz" (24:27).*

**Fəal həyat mövqeyi.** *"... Allah istəsəydi əgər, onlardan intiqamı özü alardı. Ancaq sizləri bir-birinizlə imtahana çəkmək istəyər O" (47:4).*

**Ailə.** *"[Ailədə] kimin gücü nəyə çatırsa onu öz boynuna götürsün"... "[Ailədə kişi ilə arvad] işlərini məşvərətlə və ümumi razılıqla [etməlidirlər]" (2:233).*

**Sosial təminat.** *"Və onların var-dövlətində əl açanın və ehtiyacı olanın payı da var idi" (51:19)*

**İslamın əsas tələbi.** *"Üzünüzü şərqə, ya qərbə çevirməyiniz hələ yaxşılıq demək deyil. Yaxşı o kəsdir ki... Allah sevgisiylə yaxınlara, yetimlərə, yoxsullara, yolçulara, dilənçilərə, boyunduruq altında olanlara mal paylamış... əhdində vəfalı olmuş, çətində-darda və savaş zamanında səbr göstərmişdir..." (2:177)*

*Məhəmməd peyğəmbər*

İndi də islamın növbəti qaynağına — sünnəyə baxaq. Peyğəmbərəqədərki və onun fəaliyyətindən sonrakı ərəb siyasi tarixinə nəzər salsaq, Məhəmməd peyğəmbər, sözsüz ki, dövrünün ən görkəmli mütəfəkkiri və siyasi xadimi sayılmalıdır.

Çağdaş demokratlar üçün belə bir fikir xüsusən maraqlıdır ki, bacarıqlı bir tacir olan Məhəmməd orta əsrlərin elə nadir mütəfəkkirlərindəndir ki, liberalizm prinsiplərindən olan seçmək azadlığı, şəxsin təhlükəsizliyi, mülkiyyət və zora müqavimət göstərmək hüququnu sonadak başa düşüb, qəbul edib, daim həyata keçirib.

Hədislərdə məlumat verildiyi kimi, Məhəmməd peyğəmbər buyurmuşdu: *"Heç kəs günah sayılan göstərişlərə tabe olmamalıdır"*. Bu kəlam yalnız dindarın tabe olmamaq hüququnu açıqlamır, o həm də göstərir ki, Allah buyruğuna görə, cinayətkar əmrə tabe olmamaq dindarın borcudur. Qeyd edim ki, məzmunca buna yaxın bir müddəa bu gün yalnız Almaniya Konstitusiyasında var.

*"Heç bir ərəb qeyri-ərəbə nisbətən hansısa üstünlüyə malik deyil. Eləcə də qeyri-ərəb zənciyə nisbətən, zənci ağ adama nisbətən hansısa üstünlüyə malik deyil".*

*"İcmamdakı rəy müxtəlifliyi Rəbbimizin rəhminin nişanəsidir".*

*"Əgər adamların [şəxsi] sirlərini açmağa cəhd göstərsəniz onları məhv edərsiniz, yaxud, ən azı, onları uçurumun kənarına atmış olarsınız".*

*"Biz [müsəlmanlar] başqa xalqların bizdən qabaq keçdiyi yolları addım-addım keçməliyik".*

Məlumdur ki, Mədinə əhalisinin əksəriyyətindən ibarət tərəfdaşlarının razılığını əldə edən Məhəmməd peyğəmbər öz üsul-idarəsinə başlamazdan öncə hökmdarla şəhər əhalisi, o cümlədən milli və dini azlıqlar arasında qarşılıqlı təəhhüdlər haqqında ictimai saziş imzaladı. Həmin "Mədinə müqaviləsi" düz min il sonra Lokk və Russonun təsvir etdiyi kimi elmi abstraksiya yox, gerçək fəaliyyət göstərən "ictimai müqavilə" idi.

Nəhayət, peyğəmbərin bir kəlamını yada salmaq istərdim. Bu kəlam öz hüquqlarının müdafiəsinə qalxan adamlar üçün çox vacibdir: *"Kim şərlə üz-üzə gəlsə silahla ona qarşı vuruşsun, gücü çatmırsa qoy şərə qarşı fikrini açıq söyləsin, ona da gücü çatmırsa onda bu şəri öz ürəyində bağlasın. Amma bu, iman gətirməyin ən zəif təzahürü olacağ".*

Demokratiyanın kökü bu deyilmi? Əgər biz müsəlman aləmində despotizmi, yaxud insanın sosial passivliyini, cəhalətpərəstliyi, yaxud korrupsiyanı müşahidə ediriksə də, bütün bunların islamın qaynaqları ilə heç bir əlaqəsi yoxdur. Elə ABŞ Konstitusiyasında da seqreqasiya haqqında heç bir söz deyilmir, halbuki o yalnız Amerika inqilabından 200 il sonra hüquqi cəhətdən ləğv edildi.

Bu gün müsəlman aləminin mütərəqqi yönlü dini liderləri islam qaynaqlarındaki demokratik müddəalardan əməli şəkildə faydalanırlar. Buna "Əl-Xoi Fondu" beynəlxalq islam xeyriyyə cəmiyyətinin London ofisində qonaqkən şahid oldum.

1997-ci ilin martında Britaniya ictimaiyyəti çox mühüm bir elmi kəşfi — "kloninq"i (canlı orqanizmin dəqiq surətisnin törənməsi) geniş müzakirə edirdi. Müzakirə iştirakçılarının çoxu mənəvi və dini baxımdan bu qeyri-təbii çoxalma üsuluna qarşı çıxırdı. Proqramlarını dünyanın hər yerinə yayımlayan *SKY TV*şirkəti verilişlərin birində Britaniya alimləri, siyasətçiləri, ictimai və din xadimləri arasında məsələyə münasibəti aydınlaşdırmaq üçün rəy sorğusu keçirdi. Verilişdə Britaniyada sayı milyona çatan müsəlman icmasının liderlərinə də (verilişdə "Əl-Xoi Fondu"nun bir alimi də iştirak edirdi) müraciət edildi. Öz aralarında, həm də Misir və İrandakı mütərəqqi fikirli həmkarları ilə məşvərət aparan Britaniyanın islam üləmaları bu nəticəyə gəldilər ki, islam kloninqi yasaq saymır, əksinə, Allahın yerdəki nümayəndələri olan insanları daim Allahın yaratdığı mühiti və sosial şəraiti yaxşılaşdırmağa səsləyir (3:110). Odur ki, kloninqə yol vermək olar, yalnız bir şərtlə ki, bu zaman mənəvi məqsədlər rəhbər tutulsun.

## *Uğursuzluqların başlıca səbəbi*

Demokratiyanın uğursuzluqlarını islam mənbələri ilə əlaqələndirmək qeyri-mümkündür — gördüyünüz kimi, islam mahiyyətcə antidemokratik deyil! Demokratiyanın məğlubiyyətinin əsas səbəbi şüurumuzdakı avtoritarizm və cəhalətdir. Odur ki, bütün cəhdlərimiz şüurumuzu qaranlığın əsarətindən çıxarmağa yönəldilməlidir.

Nə xeyirxah hökmdar, nə də yaxşı konstitusiya, yaxud müdrik müqəddəs kitab özü-özlüyündə demokratiyanın uğuruna gətirib çıxarmır. Demokratiya yalnız o zaman mümkündür ki, öz hüquqları uğrunda rasional və inadkar mübarizə aparan insanlar hakimiyyətə nəzarəti həyata keçirə bilsinlər.

Fikrimcə, həm islam, həm Latın Amerikası, həm də kommunist rejimli ölkələrdə demokratiyanın qələbə çalmamasının köklü, psixoloji səbəbləri eynidir. Keçmiş sosialist bloku ölkələrindən olan adamlara bu səbəblər tanışdır.

Məsuliyyətdən, tənhalıqdan və “azadlıqdan qaçıb” (Erix Fromm) məsuliyyətimizi bölüşən kollektiv mühitində, adi və aydın qərarlar aləmində gizlənmək, yaxud müqəddəratımızı həll edəsi “böyük qardaş”ın himayəsinə keçmək kimi məsələlər bizə yaxşı tanışdır.

Azad olmayan, antidemokratik şüurun əsas əlamətləri bunlardır: ali məqsədlər naminə insan həyatına qarşı etinasızlıq; kollektiv maraqların insan haqlarından üstünlüyü; problemə baş qoşmaqdan çəkinmək; inkişafa imkan verməyən daimi harmoniya və konsensus axtarışı, ümumi şübhəlilik; münaqişəli şüur; həm də eyni zamanda münaqişələri dinc yolla həll etmək bacarığı olmadığından hər hansı münaqişədən qaçmaq... İstənilən avtoritar cəmiyyətdə bu əlamətlər eynidir.

Nyu-Yorkun Kolumbiya Universitetində “İnsan haqları və dini azadlıqlar” proqramında iştirak edərkən müşahidə etdim ki, böyük əksəriyyəti qeyri-müsəlman olan şərqi avropalılardan heç kəsin (elə mənim də) cürəti çatmadı ki, təşkilatçıların nəzərdə tutduğu kimi, proqram mühazirəçilərini və bütövlükdə proqramı düzgün qiymətləndirə bilsin. Biz həqiqəti söyləməyə öyrəşməmişdik. Bu isə dinin yox, kommunist avtoritarizminin nəticəsi idi. Kolumbiyanın amerikalı tələbələri də bizimlə birgə o mühazirələri dinləyirdilər, ancaq onlar müəllimlərinin çıxışlarına çox asanlıqla qiymətlər yazdılar.

Göründüyü kimi, dini avtoritarizm və ekstremizm cahilliyin demokratiyaya meydan oxuduğu nə birinci, nə də sonuncu hadisədir.

## *İslahat cəhdləri*

Müsəlman Şərqi xristian Qərbinə nisbətən geriləkdikcə islam cəmiyyətini modernləşdirmək və demokratikləşdirmək cəhdlərinin sayı artır. İslam islahatçı mütəfəkkiri əl-Əfqaninin xidmətlərindən söz açmaq yerinə düşərdi. Əl-Əfqani 19-cu əsrin ortalarında islam irsini yenidən qiymətləndirmək və islam təcrübəsini yaxşılaşdırmaq konsepsiyasını irəli sürdü. Əl-Əfqani deyirdi ki, Qərb öz təcrübəsində çağdaşŞərqə nisbətən daha çox əsl islam normalarına riayət edir.

Müsəlman aləmində dünyəvi və ateist yönlü çıxışlar da fəallaşmağa başladı. Osmanlı imperiyasında avropapərəst “Tənzimat” islahatı keçirildi. 19-cu əsrin ortalarında Azərbaycanda M.F.Axundzadə maarifçilik və liberalizm ideyalarını təbliğ etməyə başladı. 20-ci əsrin əvvəllərində Krım tatarı olan İsmayıl bəy Qaspıralı müsəlman ölkələri üçün yeni dünyəvi təhsil sistemi layihəsi hazırlayıb həyata keçirdi.

İslam keçmiş SSRİ respublikalarında əslində qadağan olunmuşdu. Türkiyədə isə dövlətin ciddi nəzarəti altında idi. Bu ölkələrin hamısı orta əsrlər həyat tərzindən yaxa qurtarmaq işində uğur qazanmışdı. Elə fikir yaranırdı ki, islam ölkəsini modernləşdirmək probleminin həlli yolu tapılıb.

Amma islahatçıların islamı ictimai həyatdan kənarlaşdırmaq cəhdi baş tutmadı. Əksər müsəlmanlar üçün islam özünüdərkin ən mühüm tərkib hissəsi və çağdaş dünyanın hər hansı böhran və gərginliyindən universal sığınacaq kimi qalmaqda davam edirdi. İslam həm müstəmləkəçiliyə qarşı, həm də (müstəqillik əldə edildikdən sonra) ölkə daxilində despotizmə qarşı mübarizənin bayrağına çevrilməkdəydi. Nəhayət, həm Qərb kapitalizminə və fərdiyyətçiliyinə, həm də bolşevik ideologiyasına alternativ sayılan islam sosializmi və islam ölkələrindəki millətçilik “inkişafın üçüncü yolu” kimi nəzərdən keçirilirdi.

1955-ci ildə Bandunq konfransında iştirak edən 29 Asiya və Afrika ölkəsinin millətçi liderləri də elə “inkişafın üçüncü yolu”nu elan etdilər. Konfransdan sonra bu ölkələri Üçüncü dünya ölkələri adlandırmağa başladılar.

Amma ənənəvi islam cəmiyyətində müasir dövlət qurmağın bu cəhdləri də məğlubiyyətə uğradı. Bunu başa düşmək də çətin deyil. Axı heç nəyi dəyişmədən hər şeyi dəyişdirmək mümkün də deyil. İslam ölkələrində yaşayan xalqlar ağır iqtisadi və siyasi böhranla qarşılaşan zaman inkişafın dünyəvi millətçi konsepsiyasına olan ümidləri boşa çıxdı və bu xalqlar ictimai həyatın və dövlət quruculuğunun yeganə mötəbər forması kimi islama üz tutmağa başladılar. İran islam inqilabından sonra bütün müsəlman ölkələrində "islam dövləti" qurmaq zərurətindən danışmağa başladılar.

Bəs bu "islam dövləti" nə deməkdir? İslamın ənənəvi qəbulu zamanı bu ideya ən yaxşı halda çoxluğun heç nə ilə məhdudlaşdırılmayan hakimiyyəti sistemini yarada bilər, insan haqlarını qəbul etməyən demokratiya rejimi yaranar. Məsələn, bugünkü İran Konstitusiyasında çoxsaylışəxsi və siyasi hüquqlar təsbit edilib. Bununla belə, həmin hüquqlar yalnız "islama zidd" olmayan hallarda tətbiq edilə bilər. İran Konstitusiyasının 24-cü maddəsi "islam prinsiplərinə zidd olan hallar istisna edilməklə" "özünüifadə azadlığını" təsbit edir.

İslam dövlətləri adlanan ölkələri kənardan seyr edərkən bu nəticəyə gəlirsən ki, bu dövlətlər xalqa nə mənəvi dinclik, nə azadlıq, nə də inkişaf verə bilib.

## *İslahatçıların yeni nəsli*

İslam cəmiyyətindəki islahatlar uğursuzluğa uğradığından 70-ci illərdə islahatların vəzifəsi belə müəyyənləşdirildi: islamdan imtina etmək mümkün deyil, amma islam indiki avtoritar vəziyyətdə başa düşülsə, bütün inkişaf ümidləri boşa çıxacaq.

İnsan haqlarının üstünlüyünün dərk edilməsi, müxtəlifliyin inkişafın əsas hərəkətverici qüvvəsi kimi qəbul edilməsi islam islahatçılarının yeni nəslinin ideologiyasında başlıca dönüş məqamına çevrildi.

Son 20 ildə meydana çıxan və liberal fəlsəfənin əsaslarını heç də islamdan pis bilməyən bu mütəfəkkirlər islamda demokratiyanın köklərini axtarmağa başladılar. İslamı Quranda və sünnədə olduğu kimi bütünlüklə qəbul edən bu alimlər Quranın dəyişməz mətni ilə dəyişkən həyat şəraiti arasında uyğunlaşma aparmağa çalışırlar. Onlar belə hesab edirlər ki, dövlət dini, cəmiyyət isə plüralist olmalıdır.

İslam ənənəçiləri ilə fəal fikir yarışması aparan yeni islahatçılar nəsli deyir ki, Quranda və sünnədə hər hansı siyasi qurumun bərqərar edilməsi göstərilməyib. İslam qaynaqlarında Quran müddəalarının həyatda tətbiqi üsulu barədə də heç bir göstəriş yoxdur. Müsəlman icması konkret həyati məsələnin həlli üçün qanunvericilik aktı qəbul etmək məcburiyyətində qaldığı zaman adətən icma "ictihad" adlanan açıq müzakirələrdə bu qanunu Quran və sünnə müddəalarının köməyi ilə yaratmalı olurdu. Göründüyü kimi, islam dövlətinin quruluşu və islam qanunvericiliyi (şəriət) müqəddəs kitablardan yox, icma üzvlərinin düşüncəsindən yaranıb. Müqəddəs kitab susmaqdadır. Allah qanunların de-yure yaradıcısıdır, icma üzvləri isə bu qanunları de-fakto tətbiq edənlərdir.

Aydın məsələdir ki, bu qanunların mütərəqqiliyi bütünlüklə ictimai şüurun inkişaf səviyyəsindən asılıdır. Elə avtoritarlar kimi, islahatçı demokratların yeni nəsli də ictihaddan öz məqsədlərinə görə istifadə etməyə çalışırlar.

Misirin ilahiyyat professoru Məhəmməd Xələfullah deyir: "Yeni mülahizə ictimai maraqlara daha çox uyğun gəldiyi halda mülahizəyə əsaslanan hər şey dəyişdirilə bilər".

İran professoru Əbdülkərim Süruş yazır: "Bizim dini qavrayışımız daim inkişafdadır. Müqəddəs kitab dəyişilməz qalır. Bizim bu kitabı dərk etməyimiz isə daim dəyişir. Hər kişi və qadın islamı öz anladığı kimi başa düşmək hüququna malikdir".

Qərbin akademik dairələrində ən nüfuzlu islam mütəfəkkirlərindən biri kimi tanınan professor Ə.Süruşİran islam inqilabının ən dərrakəli liderlərindən olub. Ə. Süruş inqilabdan sonrakı ilk illərdə yeni ali təhsil proqramının tərkibində fəal rol oynayıb. Amma çox keçmədi ki, hakimiyyəti ələ almış dini nüfuz sahibləri onun fikirlərini olduqca ziddiyyətli və hətta küfr elan etdilər. Bununla belə, ziyalılar və tələbələr arasında Süruşun böyük hörməti var. Səbəbi də aydındır. Süruş deyir: "İslam və demokratiya nəinki bir araya gələ bilər, onların birliyi həyati zərurətdir". "Əsl dindar olmaq üçün insan ilk növbədə azad olmalıdır". "Cəza hədəsi ilə qəbul edilən inam həqiqi inam ola bilməz. Dindar öz dinindən imtina etmək hüququna da malik olmalıdır. Demokratiyanın əsası da bundan ibarətdir". Qeyd edək ki, İranda dindən imtina ölüm hökmü ilə cəzalandırılır.

Süruşun fikrincə, inamı qoruyan və Quranışərh edən dini liderlər nə dövlətdən, nə də dindarlardan maliyyə yardımı almalıdır. Onlar özləri işləyib pul qazanmalıdır. Yalnız bu halda dini liderlər və bütövlikdə islam sosial sifarişlərdən tamamilə azad olacaq, müqəddəs kitabışərh edərkən müstəqilliklərini qoruyub saxlaya biləcəklər.

Başqa bir islam islahatçısı Əbdi Hilali-Əksəri yazır: "Süruş müsəlmanları əsl, həqiqi müsəlman etmək istəyir. İstəyir ki, insanlar islamın yüksək dəyərlərini ənənəyə baş əyməklə, yaxud qorxuya görə yox, şüurlu şəkildə, şəxsi seçimin nəticəsi kimi qəbul etsinlər".

Bu gün yalnız müsəlman mütəfəkkirləri yox, islam ölkələrindəki siyasətçilər də islamla demokratiyanı uyğunlaşdırmağa cəhd edirlər. Tunisin siyasi xadimi Rəşid Qannuçinin adını çəkmək yerinə düşərdi. Qannuçi 1981-ci ildə islam kontekstində demokratik proqramın, İslam Dirçəliş Partiyasının əsasını qoymuşdu. Qannuçi ictimai həyatın bütün sahələrində, qadınların hüquq bərabərliyi də daxil olmaqla, müasir və demokratik cəmiyyətə xas bütün atributları saxlayan islam sisteminin tərəfdarıdır. Qannuçi yazır: "İslamın rolu mənəvi dəyərlər sistemini müəyyən etməkdən ibarətdir. İslam mənbələrində hansısa konkret fəaliyyət proqramı yoxdur. Quran yalnız əsas prinsipləri müəyyənləşdirib. Problemlərimizin həlli üçün fəaliyyət proqramı hazırlamaq isə bizim vəzifəmizdir".

Yəməndə islamçı alim İbrahim əl-Vəzir də çoxsaylı tərəfdaşları olan müxalifətçi partiya üçün islam kontekstində buna bənzər bir demokratik proqram hazırlayıb.

Dövlət quruculuğu, şəxsi və siyasi azadlıqlar, ənənələr, məişət və mədəniyyət — islamçı islahatçıların yeni nəsli bütün bunlara tənqidi baxımdan yanaşır. Misir alimi Fəthi Osman yazır: "Biz müsəlmanların açıq münasibət bildirəcəyimiz əsas məsələlər bunlardır — qadınlar və kişilər arasındakı qarşılıqlı münasibətlər, bir də müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı qarşılıqlı münasibətlər". "Nə Quranda, nə də sünnədə qəti şəkildə göstərilib ki, qadın yalnız ailə həyatı üçün yaranıb və onun əsas yeri dörd divar arasında olmalıdır".

Bir məsələni də qeyd edək ki, hədislərdə yazıldığına görə, Məhəmməd peyğəmbər dualardan sonra evə qayıdan zaman ev işlərində köməklik edirmiş.

## *"Azadlıq nəsimi"*

İslam islahatçılarının fəaliyyəti hakimiyyətin, ruhani idarələrin və əhalinin mühafizəkar hissəsinin böyük müqaviməti ilə qarşılaşır. Bu səbəbdən bəzi islahatçılar öz ölkələrini tərk edib Qərb ölkələrində yaşamağa məcbur olurlar. Buna baxmayaraq, islamda islahat ideyaları geniş yayılmaqdadır. Əsas məsələ odur ki, İraqın müsəlman dissidenti S.M.Bəhrül-Ülumun yazdığı kimi, "millət azadlıq nəsimini hiss edib". Kütləvi kommunikasiya və adamların sərbəst yerdəyişməsi əsrində demokratik ideyaların yayılmasının qarşısını almaq mümkün deyil. Bundan başqa, azad cəmiyyətlərin uğurları açıq-aşkar hiss olunduğu zaman çox az adam demokratiya ideyasına qarşı açıq çıxış edə bilər.

Səudiyyə Ərəbistanının kralı Fəhd "Əs-Siasa" jurnalına verdiyi müsahibədə (mart 1992-ci il) islam və demokratiya haqqında sualı belə cavablandırıb: "Dünyada yayılmış demokratiya modeli bizim bölgəyə uyğun gəlmir. Bizdə özünü kifayətləndirən bir sistem, mükəmməl bir din olan islam var. Sərbəst seçkilər müsəlman dini sferasına aid deyil. Sərbəst seçki tərəfdarları bizim Səudiyyə Ərəbistanı krallığında yaşaya bilməzlər".

Ancaq başqa bir müsəlman kralı — Oman sultanı Kabus Hollandiya qəzetinə verdiyi müsahibədə (fevral 1993-cü il) buna tamamilə zidd bir fikir söyləyib: "İslam mahiyyətcə demokratikdir. Biz imkanların bərabərliyinə inanırıq. Biz inanırıq ki, həm dünyəvi, həm də dini rəhbərlərimiz Allah qarşısında da, xalq qarşısında da məsuliyyət daşıyırlar. Biz inanırıq ki, vətəndaşların öz fikirlərini sərbəst ifadə etmək hüququ olmalıdır. İslamın əsl mahiyyəti də elə bundan ibarətdir".

Bəli, bu, feodal bir kralın bəyanatı idi. Həqiqətən, "heç kəs tənha ada deyil" (ələlxüsus 3-cü minilliyin ərəfəsində).

Müsəlman aləmini bürüyən böhrandan çıxış yollarının axtarılması və islamla demokratiya haqqında müzakirələr — bu gün bütün islam cəmiyyətlərini, xüsusən xarici ölkələrdəki müsəlman icmalarını narahat edən əsas məsələlər bunlardır. Britaniyaya mühacirət etmiş müsəlmanlarla söhbətlər zamanı islam ölkələrinin inkişaf yolları haqqında ən ziddiyyətli fikirlərlə tanış oldum. Bu mövzu hər kəsi maraqlandırırdı. "Ənənələrimizdən

imtina etsək, ərəbliyimiz qalmayacaq", "biz orta əsrlər islamından xilas olmalıyıq", "nə üçün biz müasir yəhudilər kimi olmayaq? Onlar etiqadlarını qoruyurlar, amma müasir yaşayırlar".

Londonda islamın daxilində gedən daha bir maraqlı hərəkatın şahidi oldum: islamın müxtəlif cərəyan və təriqətləri arasında dialoq yaranmaqdadır. Londonda şiələr və sünnilər eyni məsciddə ibadət edə bilirlər, halbuki əvvəllər bu, əsl problem idi. İslamın müxtəlif cərəyanlarının liderləri arasında barışıq haqqında, həm də ümumbəşəri dəyərlərə əsaslanan ümumislam mövqeyinin yaradılması haqqında müntəzəm dialoqlar aparılmağa başlayıb.

Get-gedə daha çox müsəlman həyat şəraitini zamanın tələbinə uyğunlaşdırmaq qərarına gəlir. Vəï beynəlxalq birlik islamı qaralamaq əvəzinə, bu mütərəqqi islahatçı hərəkatı dəstəkləməlidir. Eyni zamanda, bəzi islam rejimlərində orta əsr cəhalətpərəstliyini yaymaq cəhdlərinə qarşı hamı öz sözünü söyləməlidir. "Biz imkan verə bilmərik ki, mədəni fərqlər repressiyaların son dayağına çevrilsin" (U.Kristoffer, iyun 1993-cü il). Demokratik ölkələr qarşısında əsasən bu iki "islam vəzifəsi" qalmaqdadır.

Şübhəsiz, müsəlman ölkələrinin dirçəlməsində əsas rol müsəlmanların öz üzərinə düşür. İslam ölkələrindəki alimlər və ziyalılar bir şeyi anlayıb qəbul etməlidirlər ki, insan vasitə yox, məqsəddir, insan haqları ümumbəşəridir və "başqaları" da bizim kimi insandırlar.

Ancaq mənə belə gəlir ki, insan haqlarının üstün olduğunu qəbul etmək ölkəni dirçəltmək üçün yetərli deyil. Məsələn, bizim əməyə münasibətimiz kökündən dəyişməlidir. Müsəlmanlar, o cümlədən Azərbaycan müsəlmanları da nəhayət anlamalıdırlar ki, şan-şöhrət insanın şəxsi unikallığından irəli gələn saxta duyğu deyil, öz əlləri ilə istehsal etdiyi məhsulun bəhrəsidir.

Müsəlmanlar başa düşməlidirlər ki, əxlaq ailə əxlaqı məfhumundan çox-çox geniş bir məfhumdur. Və əgər hakim prezidentə "yox" deyə bilirsə, bu, ən yüksək bir əxlaqın təzahürüdür.

Öz çətinliklərinin əsas səbəbini "Qərbin hiylələri"ndə görən müsəlmanlara isə sözüm budur: "Təsəvvür et ki, qardaş, dünyada Qərb heç yoxdur. Sonra bir özünə bax, bir ətrafına... Doğrudanmı biz öz-özlüyümüzdə bu dərəcədə kamilik?".

Biz çox çətin, amma şərəfli bir vəzifəni yerinə yetirməliyik. Bu işi bizim əvəzimizə görən olmayacaq. Biz zehni cəhətdən daha səmimi və daha cəsarətli olmalıyıq. Allah öz-özünə kömək edənə kömək edir.

*"Nezavisimaya qazeta", Moskva, 15.04.98*

## 60. AZƏRBAYCANDA SİYASİ SENZURANIN LƏĞV EDİLMƏSİ

Azərbaycanda yadfikirliliyin təqib olunması tarixi heç də Avropa praktikasından geri qalmır. Orta əsr padşahlıqları dövründə dissidentləri həm siyasi, həm də dini hakimiyyətlər izləyirdi. Məsələn, Nəsimi və onun hürufi həmfikirləri cəmiyyətin mənəvi həyatına nəzarət etməli olan müctəhidlərin — yeddi ortodoksal din xadiminin hökmü ilə "küfr" üstündə edam edilmişdilər.

Çap məhsulu, teatr tamaşaları və sairin mənəvi və siyasi xüsusiyyətləri üzərində ilkin nəzarət, yəni bizim indi senzura(1) adlandırdığımız şey Azərbaycanda Rusiya işğalından sonra, kitab çapı və qəzetçiliyin başlanması ilə tətbiq olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətində (1918–1920) ilkin senzura mətbuat haqqında qanunla tam ləğv edilmişdi, lakin Sovet hakimiyyəti gəldikdən sonra 70 il ərzində ölkədə insan həyatının bütün sahələri ən ciddi nəzarət altına alındı. Sovet hakimiyyətinin ilk on ili ərzində minlərcə mütəfəkkir, ədəbiyyat və incəsənət xadimi, müəllim fikirləri Kommunist Partiyasının hakimiyyətdə olan fraksiyasının baxışları ilə üst-üstə düşmədiyinə görə

repressiyaya məruz qalmışdı. Bütün nəşriyyatlar, kütləvi informasiya vasitələri dövlətə məxsus idi, lakin bu dövlət müəssisələrinə də etibar etmirdilər. SSRİ-də ilkin senzuranı hər şeyə qadir olan Qlavlit — Baş Ədəbiyyat İdarəsi həyata keçirirdi. Sonralar onun adı dəyişdirilərək Mətbuatda Dövlət Sirlərinin Mühafizəsi Başİdarəsi qoyulsa da, o, bütün dünyada ilk adı ilə məşhurdur. Qlavlitin əməkdaşları 80-ci illərin sonunda kommunist rejiminin süqutuna qədər bu nəhəng ölkənin bütün ərazisində nəşriyyatların buraxdıqları, rəssamların çəkdikləri, radio və televiziyanın yayımladıqları hər şeyi diqqətlə nəzərdən keçirməli və icazə verməli idilər.

Azərbaycanda senzura ilə gərgin mübarizə 1988–1991-ci illər milli-azadlıq hərəkatı dövründə, ilk müstəqil qəzetlər yarandıqdan sonra başlandı. 1989-cu il ümummilli nümayişlər və tətillər vaxtı rejim o qədər sarsılmışdı ki, Qlavlitin Azərbaycan şöbəsi demokratik nəşrlərin və onlara arxa duran Xalq Cəbhəsinin təzyiqinə davam gətirməyərək elan etmişdi ki, qəzetlər bundan sonra ilkin senzuradan keçməyə bilər. Bu halda qəzetlərin redaktorları baş verə biləcək nəticələrə görə məsuliyyəti yazılışəkildə öz üzərlərinə götürməli idilər və bir çox qəzet redaktorları Qlavlitin “xidmət”indən həvəslə imtina etdi.

1990-cı il faciəli 20 Yanvar hadisələrindən sonra SSRİ hökuməti fövqəladə vəziyyət tətbiq etdi. Fövqəladə vəziyyət haqqında qanuna uyğun olaraq respublikada siyasi senzura bərpa olundu. Onu Bakıya yeridilmiş Sovet ordusu hissələrinin komandanlığına tabe olan hərbi və mülki senzorlar həyata keçirdi.

Lakin SSRİ-nin və insan üzərində ümumi nəzarət sisteminin dağılması prosesini dayandırmaq mümkün deyildi. 1991-ci ilin əvvəlində hərbi vəziyyət ləğv edilir, Qlavlit isə hələ də qalmasına baxmayaraq, artıq qəzetlərə çap olunana qədər baxmır.

1993-cü ilin aprelində Qarabağ cəbhəsində vəziyyətin gərginləşməsi ilə əlaqədar Xalq Cəbhəsi hökuməti ölkədə fövqəladə vəziyyət tətbiq edir və həmçinin yenidən ilkin senzura bərpa olunur. Onu yenidən qurulmuş Qlavlit həyata keçirir. Elə həmin keçmiş sovet senzorları hökumətin fəaliyyətini tənqid edən materialları qəzet səhifələrindən kəsib çıxarmağa başlayırlar. Bir aydan sonra jurnalistlərin və ictimaiyyətin təzyiqi altında Qlavlitin köhnə rəhbərliyi uzaqlaşdırılır və senzuraya rəhbərlik etmək Xalq Cəbhəsinin gənc üzvlərindən birinə tapşırılır. Lakin o, vəzifəsində çox qala bilmir. 1993-cü ilin yayında hakimiyyətə gələn Heydər Əliyev “köhnə yoxlanılmış kadrlar”ı öz yerlərinə bərpa edir.

Heydər Əliyev 1993-cü ilin payızında fövqəladə vəziyyəti ləğv edir, lakin ilkin senzura qalır. 1996-cı ildə, qəzet redaktorlarının sözlərinə görə, senzura yumşaldılır, indi prezident və onun ailəsindən başqa hər kəsi, hər şeyi tənqid etmək olardı.

Senzura bu şəkildə 1998-ci ilə qədər davam edir. Həmin il növbəti prezident seçkiləri ərəfəsində ölkəni azad və ədalətli seçkilər keçirilməsi və vətəndaş azadlıqlarının müdafiə edilməsi tələbləri ilə kütləvi mitinq və nümayişlər dalğası bürüyür. Azərbaycanda senzuranın ləğv edilməsi uğrunda mübarizəyə beynəlxalq demokratik təşkilatlar da ciddi dəstək verirlər. Onlar təkidlə Azərbaycan hökumətindən senzuranın ləğv olunmasını tələb edirlər. 1998-ci il avqustun 6-da, seçkilər ərəfəsində Heydər Əliyev öz fərmanı ilə Qlavliti ləğv edir. Söz azadlığı uğrunda mübarizə məhkəmə zallarına keçir...

İlkin senzuranın ləğv edilməsi Azərbaycan cəmiyyətinin inkişafında bütöv bir dövrün başa çatması ilə əlaqədardır. Axırıncı senzorla birlikdə həyatımızdan labüd olaraq özündə avtoritar dünyagörüşü, həyat tərzi və idarəetmə formasını cəmləşdirən bütöv bir nəsil də gedir. Çox çəkməyəcək ki, yeni nəsillərin bizim dövrü və onun qəhrəmanlarını təsəvvür etməsi çətin olacaqdır. Tanınmış telejurnalist Çingiz Sultansoyun Qlavlitin ləğv olunması haqqında fərmandan dərhal sonra bu idarənin sədr müavinindən götürdüyü müsahibə məhz məsələni güzgüdəki kimi əks etdirdiyinə görə dəyərlidir. Bundan başqa, azadlığın müdafiəsinə dair səmimi (və qeyri-səmimi) nitqlər tez-tez səslənir, lakin azadlığın əleyhinə açıq çıxışlara müasir tariximizdə nadir hallarda rast gəlinir.

ÇİNGİZ SULTANSOY

## Sonuncu senzor (sentyabr 1998)

*O vaxtlar... cəmiyyətin özündə belə bir tərbiyə var idi: hamı bilirdi ki, nəyi olar, nəyi olmaz.*

"...1965-ci ildə məktəbi qurtardım. Təyinatla üç il rayonda işlədim, sonra Bakıya qayıtdım. Təsadüf idi, 1969-cu ildə yaxın jurnalist dostum mənə dedi ki, bəs onlarda Qlavlitdə iş yeri var. Gəldim idarə rəisinin yanına, o mənimlə söhbət etdi, dünyagörüşüm, savadım barədə müəyyən suallar verdi. Sənədlərimi təqdim etdim və məni işə qəbul etdilər. Görünür, mən bu idarəyə lazım olan səviyyədə olmuşdum.

İşləməyə başladığım dövrdə SSRİ vaxtları idi, o vaxt iş maraqlı idi. O vaxt televiziya, radio komitəsi, informasiya agentliyi, kinostudiya — bu obyektlərə Qlavlit baxırdı. Söhbət ondan getmir ki, nəyisə çıxarasan, nəyəsə imkan verməyəsən. Söhbət ondan gedir ki, sadəcə olaraq həyatın ən qaynar nöqtələrində olursan...

Hərənin bir peşəsi, sənəti olar. Hər kəs ilk növbədə o işə vicdanla yanaşmalıdır. Arxaya baxanda mən öz işimə görə xəcalət çəkmirəm, nə də heç kəsin qabağında gözükölgəli deyiləm, eyni zamanda 29 il bu sahədə işlədiyimə də bir peşmançılıq çəkmirəm, çünki bu da işdir, dövlət işidir və kimsə burada işləməli idi...

Qayıdıram öz işimə. SSRİ vaxtında mən Qlavlitdə sıravi redaktor işləmişəm, şöbə rəisi olmuşam və [eyni zamanda] yaradıcılıqla məşğul olmuşam. Mənim radioda, televiziyada, qəzetlərdə, jurnallarda, hətta kinostudiyada da verilişlərim gedib. Mən özüm yazıçıyam. Elə olurdu ki, bir ayda mən maaşımdan artıq qonorar almışam. Mən öz ailəmi təmiz zəhmətlə, təmiz əməyimlə dolandırmışam.

İşlədiyim dövrdə elə bir hadisə olmayıb ki, şairlərimizin, yazıçılarımızın, jurnalistlərimizin yaradıcılığına zərbə vuran, mane olan dəqiq bir şey olsun. O vaxt [Azərbaycan Kommunist Partiyasının] Mərkəzi Komitə[si] də var idi, elə-belə deyildi, təkcə Qlavlitlə iş bitmirdi.

O vaxtlar istər yazıçılarda, şairlərdə, jurnalistlərdə, cəmiyyətin özündə belə bir tərbiyə var idi: hamı bilirdi ki, nəyi olar, nəyi olmaz. Siyasi baxımdan. Bu, onların daxili senzurası idi...

1992-ci ildə, SSRİ dağılandan sonra, təbii ki, bu idarə də istər-istəməz öz fəaliyyətini bir az məhdudlaşdırıb və dövlət sirrinin mühafizəsi məsələsi ilə məşğul olubdur. 1996-cı ildən sonra kitablar, jurnallar, bütün nəşrlər heç bir nəzarət olmadan çap olunub. Yeganə qəzetlər ancaq dövlət sirlərinin mühafizəsi baxımından baxılıbdır. Mən hərdən yoldaşlara deyirəm: əgər senzura vardırsa, onda nəyə görə ölkədə 500-600 müstəqil qəzet istədiyini yazır? 1998-ci il 6 avqustda prezident Heydər Əliyev cənablarının fərmanı ilə Mətbuatda Dövlət Sirlərinin Mühafizəsi Başİdarəsi ləğv olundu. Siz o vaxtkı müxalifət qəzetlərini götürün — "Yeni Müsavat", "Azadlıq", "Müxalifət" — onlar bu gün hansı mövzuya toxunurlarsa, həmin şeydən o vaxt da yazırdılar. O vaxt elə bir senzura söhbəti yox idi. Sadəcə olaraq bir az, düzdür, beynəlxalq təşkilatlar deyirdilər ki... Amma bizdə senzura? Yenə deyirəm sizə — bizim idarə ancaq dövlət sirlərinin mühafizəsi ilə məşğul idi və bu baxımdan biz, bəli, müəyyən şeyləri çıxarırdıq. Yəni Azərbaycan dövlətçiliyinə xələl gətirə bilən məlumatları, həqiqətən də, biz çıxarırdıq.

İmkan vermək lazımdır ki, yavaş-yavaş tarixi proseslər nəticəsində müəyyən nöqsan varsa, qüsurlar varsa, onlar proses nəticəsində kənarlaşdırılsın. Yoxsa zorən beş-altı ildir ki, müstəqillik yolu ilə addımlayan Azərbaycan bu gün Fransa olsun, Amerika olsun...

Prezidentin fərmanından əvvəlki vəziyyətlə indikinin fərqini soruşursunuz. Bir misal deyim. Müdafiə Nazirliyi mətbuat xidmətinin [bu yaxınlarda] bir bəyanatı çap olundu və bu bəyanatda deyildi ki, mətbuatı mühafizə edən baş idarə ləğv olunandan sonra bəzi qəzetlər Azərbaycan ordusuna iftira, böhtan xarakterli yazılarla hücuma keçiblər. Bunların arasında hətta hərbi sirlər də açıqlanıb. Ona görə də bu günlərdə hər bir qəzetin redaktoru, hər bir jurnalist hərbi mövzuda yazı yazarkən o mövzuya qarşı çox diqqətli olmalıdır.

Bundan başqa, ola bilər ki, bu gün qəzetlərdə şəxsiyyətə, onun ləyaqətinə, millətin əxlaqına uyğun gəlməyən müəyyən şeylər gedir. Qabaq onu məqsədəuyğun saymayıb müdaxilə edirdik. Deyirsiniz bu işlərə məhkəmə qarışsın. Axı bizdə bu mexanizm hələ yeni yaranır. Təbii ki, nə vaxtsa o da olacaq.

Mən sizə bir şey deyim. Mütəxəssislər belə bir fikri irəli sürürlər ki, canavar sürüdə xəstə heyvanları məhv edir, sürünü sağlamlaşdırır. Sürüdə xəstə heyvan olacaqsa, sabah o kəsiləndə insan onun ətini yeyəcəksə, deməli, xəstələnəcək. Yəni canavar çox böyük təmizlik işi aparır. Yəni bir var, bütün profilaktik işləri aparasan ki, insan xəstələnməsin, bir də var, gözləyəsən ki, insan xəstələnsin, sonra başlayasan onun müalicəsinə. Sabah elə bir yazı, məqalə çıxa bilər ki, böyük bir hadisə törənər, düşmənçilik olar, qəza da ola bilər. Amma haradasa biz ona baxanda belə şeylərin də qarşısını almışıq, redaktor bilmədən onu qorumuşuq, kənar təzyiqlərdən onu qorumuşuq. Bəli, belə şeylər olub, belə şeylər var...

Dövlət sirlərini mühafizə edən idarənin ləğvi seçkiqabağı ona görə vacib idi ki, xaricdə insan hüquqlarını müdafiə edən təşkilatlar və daxildə müxalifət deyirdilər ki, qəzetlərə nəzarət var, senzura var. Bu, ləğv olunmalı idi ki, bu söz-söhbət yığışdırılsın və hamı görsün ki, burada hər kəs azad şəkildə öz fikrini mətbuatda izah edə bilər...

Jurnalistlərlə bizim fərqimizi soruşursunuz, bilirsiniz, o bundadır ki, jurnalist heç vaxt istəmir ki, onun yazısına, balaca olsa da müdaxilə olsun, demirəm senzura nəzarəti baxımından, hətta redaktə baxımından onun yazısına əl çəkilsin, toxunulsun. Onlar bunu istəmədiyi halda bizim sahədə elə olur ki, həmin jurnalistin məqaləsində hansısa fikri, sözü dəyişdirəsən, çıxarasan. İşin özü də, tutduğun metod, mövqe, gördüyün iş də tələb edir ki, yəni bu, dövlət sirri, hərbi sirr olmasın. O yazır, bu çıxarır. Bunun fərqli cəhətləri var"...

---

1 *Cenzura* (lat.) — dövlət nəzarəti — *red.*

## 61. AVROPADA VƏ ABŞ-DA SÖZ AZADLIĞININ HÜDUDLARI HAQQINDA

1998-ci ildə Azərbaycanda senzuranın ləğvindən bəri özünüifadə azadlığının hansı həddəcən gedib çıxa biləcəyi haqqında mübahisələr heç cür səngimək bilmir, məhkəmələrimizdə, eləcə də qəzet səhifələrində daim müzakirələr gedir ki, nələri insanın şəxsi ləyaqətinin alçaldılması saymaq olar; bizdə prezidentin ləyaqətinin xüsusi qanunla qorunması demokratiyaya uyğundurmu; pornoqrafiyaya qadağa qoymağa zərurət varmı və ümumiyyətlə, nəyi pornoqrafiya saymaq olar; zorakılıq, müharibə və hər cür diskriminasiyanın təbliğini qadağan etməyə ehtiyac varmı və nəyi bu cür təbliğat saymaq olar?

Bütün demokratik konstitusiyalarda özünüifadə azadlığının qorunması və insanın şəxsi ləyaqətinin dövlətin qəsdlərindən müdafiəsi haqqında müvafiq müddəalar var, lakin bu konstitusiyaların əksəriyyəti, habelə insan hüquqları haqqında bütün beynəlxalq sazişlərdə belə bir müddəa da var ki, bu azadlıqlar və hüquqlar "ictimai mənafe" ilə, yəni ictimai əxlaq və təhlükəsizliklə ziddiyyətə girdiyi hallarda məhdudlaşdırıla bilər, lakin bu hüquq və azadlıqların dəqiq sərhədini necə müəyyən etmək olar?

Bundan əlavə, söz azadlığının ölçüsü ölkənin milli, yaxud dini mədəniyyətindən asılıdırmı? Axı Qərbdə məqbul sayıla biləcək bir şey Uzaq Şərqdə və ya müsəlman ölkəsində çoxları tərəfindən cəmiyyətə zidd sayıla bilər. Qeyd edək ki, bu mübahisələrin tarixçəsi mətbu sözün tarixi qədər qədimdir və bu mübahisə dünyanın demokratik ölkələrində bu gün də davam etməkdədir.

Yuxarıda mən heç də təsadüfən qeyd etmədim ki, demokratik konstitusiyaların əksəriyyətində (o cümlədən Azərbaycan Konstitusiyasında) ictimai mənafeyin qorunması haqqında müddəa var, lakin ABŞ Konstitusiyasında əslində belə müddəaya rast gəlinmir və özünüifadə azadlığına Amerika və Avropa yanaşmasının əsas fərqi məhz elə bundadır. Bundan əlavə, ABŞ-da hakimlər 20-ci əsrin əvvəllərindən ictimai mənafe haqqında müddəanı bir vaxtlar Avropada və hazırda bizdə təfsir edildiyindən tam fərqli şəkildə yazmağa başlamışlar. Amerika hakimləri ingilis Ceremi Bentam və Corc Stüart Millin liberal nəzəriyyəsini rəhbər tutmuşlar. Bu nəzəriyyəyə görə, geniş və açıq müzakirələri dəstəkləmək də ictimai mənafe sayılır və bunsuz demokratiya mümkün deyildir. Özünüifadə azadlığı hətta kiminsə hisslərini təhqir etdikdə belə buna dözmək lazımdır, çünki o, demokratiyanın özünü təşkil edir. Bundan çıxış edərək, ABŞ-da prezidentin, yaxud hansısa nüfuzlu ictimai xadimin şəxsi həyatına müdaxilə etmək adi vətəndaşın həyatına qarışmaqdan qat-qat asandır, çünki bunu "ictimai mənafe" tələb edir, belə ki, insanların öz talelərinin asılı olduğu kəs haqqında hər şeyi bilmək haqqı vardır.

Daha bir vacib məqam: 19-cu əsr ingilis liberallarının "ictimai mənafe" haqqındakı bu müddəasını qəbul etdikdə də, belə bir məsələ aydınlaşdırılmamış qalır ki, pornoqrafiyanın yayılması, yaxud faşizmin təbliği hansı ictimai maraqlara xidmət edir? Bu sualın cavabını tapmaq üçün tanınmış liberal filosof, Oksford Universitetinin

professoru Ronald Dvorkinin İngiltərədə çıxan *"Index on Censorship"* ("Senzura üçün dosye") jurnalında 1994-cü ildə dərc olunmuş məqaləsinə müraciət edək.

RONALD DVORKİN

## Senzuranın yeni xəritəsi (1994)

> *... mədəniyyətimizi pornoqrafiya və ya irqi ədavətlə yoluxdurmağa heç kəsin haqqı olmadığı barədə bəyanatlarla çıxış etmək cazibəsi, tamahı bəlkə də rəfedilməz görünə bilər. Lakin hər hansı bir qadağanı tətbiq etməklə biz hətta bu cür insanların da sonralar bizim qanunlar külliyyatına daxil ediləcək kollektiv qərarlara tabe olunmasını tələb etmək hüququmuzu təhlükə altına qoymuş olarıq.*

"İndeks" jurnalının təsisçiləri söz azadlığını, eləcə də onunla bağlı vicdan və din azadlığını dünya birliyinin qorumağa borclu olduğu fundamental insan hüquqları sayırlar. Lakin hazırda sanki heç bir şübhə doğurmayan bu mövqeyə qarşı yalnız azadlığın əski düşmənləri – ondan qorxmağa əsası olan tiranlar və hakimiyyətə gəlmiş oğrular deyil, həm də onun yeni düşmənləri, özlərini tiraniyanın deyil, məhz haqq-ədalətin carçıları adlandıranlar da çıxış edirlər. Sonuncular bizim üçün vacib olan digər dəyərlərdən (öz müqəddəratını təyin etmək hüququ, bərabərlik, irqi ədavət və xurafatdan azad olmaq) dəm vursalar da birincilər kimi iddia edirlər ki, söz azadlığı hüququ əsaslı məhdudlaşdırılmalıdır.

Söz azadlığına bu cür münasibət, qismən də olsa, Qərbin dəyərlərini digər mədəniyyətlərə zorla qəbul etdirmək istəməməkdən irəli gəlir. Söz azadlığının bir para tənqidçiləri deyirlər ki, bəli, söz azadlığı üzərində bizim dünyəvi cəmiyyətin yüksəldiyi ənənəyə daxildir, lakin onu tamamilə başqa həyat tərzinə şamil etmək olmaz. Biz tələb edə bilmərik ki, sosial quruluşu və milli şüuru müəyyən dinin ali nüfuzuna əsaslanan hansısa xalq öz inanclarına münasibətdə təhqir və hörmətsizlik hesab etdiyi bir şeylə razılaşsın. Gözləmək olarmı ki, müəyyən bir dinə tapınan, onu istənilən digər dəyərlərdən yüksək tutan insanlar bu dinə göstərilən açıq-aşkar sayğısızlıqla barışmış olsunlar?

Başqa tənqidçilər təsdiq edirlər ki, hətta Qərb demokratiyasında, xüsusilə ABŞ-da söz azadlığının əhəmiyyəti hədsiz şişirdilir. ABŞ Ali Məhkəməsi Skoki işiylə (1977-ci il) əlaqədar, Holokostu (yəhudilərin soyqırımını) öz gözləriylə görmüş yəhudilərin məskunlaşdığı İllinoys ştatının Skoki şəhərciyində nasist şüarlar altında yürüş keçirmək niyyətində olan neofaşistlərin nəfinə Konstitusiyaya birinci düzəliş əsasında qərar çıxardıqda bir çox ləyaqətli insanları heyrət bürüdü ki, insan hisslərinin bu cür açıq-aşkar təhqir edilməsi ədalət mühakiməsi adından qanuni elan edilir(1).

Skoki işindən sonra ötən onilliklər ərzində amerikalılar belə bir fikrə daha çox inanmışlar ki, dözümsüzlük və dözümsüz davranış *(hate speech and hate qesture)* məşum və təhlükəli qüvvədir. "Dözümsüzlük dili"nə görə təqibetmə xüsusilə universitetlərdə təhlükəli olmuşdur, orada həm "dözümsüzlük dili"nin qurbanları qadınlar və milli azlıqların nümayəndələridir, həm də "affirmativ aksiya"ların (yəni milli azlıqlardan olan tələbələrin nümayəndələrinin sayının artırılmasına hesablanmış güzəştli proqram) doğurduğu reaksiya "dözümsüzlük dili"nə əlavə təkan vermişdir.

Bəzi universitetlərdə rəsmi surətdə seksist yönlü çıxışlara, habelə hər hansı irq, din və ya seksual təmayül üçün təhqir sayıla biləcək ifadələrə qadağa qoyan "nitq kodeks"ləri qəbul edilmişdir; söz azadlığının bu cür açıq-aşkar pozulmasına bəraət olaraq göstərilir ki, guya bu cür məhdudiyyətlər bütün tələbələrin ləyaqət və bərabərliyinin müdafiəsi üçün zəruridir. Özü də bu zaman, "nitq kodeks"lərinin bəzi müdafiəçiləri nəinki söz azadlığı prinsiplərindən müəyyən istisnalar tələb edirlər, həm də ümumiyyətlə onun müstəsna əhəmiyyətini inkar edirlər. Onların dediyinə görə, liberal müəlliflərin bu cür canfəşanlıqla, özü də öz mənafeləri naminə tərənnüm etdikləri söz azadlığı yoxsul və məzlumlara heç bir fayda gətirmir, əksinə, çox vaxt onların sıxışdırılmasına haqq qazandırmağa xidmət edir. Bu sayaq tənqidçilərdən biri — Stenli Fiş bildirmişdir: "Heç bir söz azadlığı yoxdur və Allaha şükür ki, bu, belədir".

Lakin demokratik dünyada söz azadlığına ən çılğın hücumları feminist qadınlar edir. Onlar pornoqrafiyaya qarşı qanunların qəbul olunmasını - onun tamamilə qadağan edilməsindən tutmuş zorlamada və ya digər cinayətdə ittiham olunan şəxs andlıları məhz pornoqrafiyanın təsiri altında hərəkət etdiyinə inandırdığı hallarda naşirlərin cərimə edilməsi kimi nisbətən yumşaq tədbirlərin görülməsinə çalışırlar. Onlar iddia edirlər ki, pornoqrafiya

qadına yalnız seks obyekti kimi baxıldığı və onun hər cəhətdən kişiyə tabe olduğu mədəni mühitə mənfi təsir göstərir. Etiraz edəndə ki bu cür senzura ən mühüm hüquqlardan birinin pozulması deməkdir, amerikalı feminist qadın Katarina Makkinon qəzəblə cavab verir ki, amerikalılar söz azadlığını göylərə qaldırmaqda absurda gəlib çıxıblar və dünyanın bir çox ölkələrində söz azadlığına daha ağıllı münasibət bundan ibarətdir ki, ona o daha mühüm məqsədi təhlükə altına almayana qədər yol verirlər. Hətta "İndeks" jurnalının köhnə və hörmətli dostu Tom Stoppard da söz azadlığını digər dəyərlərə tabe etdirmək üçün indiki kampaniyaya qoşulmuşdur. Xomeyninin Salman Rüşdinin ölümünə fitva verdiyi günün ildönümündəki nitqində Stoppard bildirmişdir ki, heç şübhəsiz, İran ruhaniliyinin Britaniyada adam öldürmək haqqında əmr verməyə heç bir ixtiyarı yoxdur, lakin bununla belə, söz azadlığını insanın fundamental hüquqlarından biri saymaq səhv olardı. O demişdir: "İrqi ədavəti qızışdırmağa imkan yaradan əsərin qadağan edilməsi ağzınacan dolu teatrda yalançı yanğın həyəcanına qadağa qoymaq kimi Qərbin liberal şüurunun ayrılmaz hissəsidir".

Bu mülahizələr xeyli ciddidir və çoxlarına inandırıcı görünə bilər. Məhz bu səbəbdən həmin fikir xüsusilə söz azadlığı üçün ciddi təhlükə doğurur — axı onun müdafiəçiləri olan bizlər hücum başqa mədəniyyətin nümayəndələri tərəfindən aparıldıqda və ya tənqid obyektinin özü bizim üçün xırda və ya dəyərsiz göründükdə mövqeyi daha asan əldən veririk.

Lakin əgər biz mövqeyi bircə dəfə belə əldən versək yalnız bu halda deyil, ümumiyyətlə, prinsipin özü ziyan çəkəcək. Buna görə söz azadlığı haqqında müzakirələrdə irəli sürülən konkret dəlillərdən müvəqqəti olaraq uzaqlaşmaq və məsələnin daha ümumi təşkilinə çalışmaq lazımdır. Söz azadlığı insanın universal hüququ, elə bir əsaslı hüququ sayıla bilərmi ki, biz hətta onun adət edilmədiyi, milli mədəniyyətə yad olduğu yerdə belə onun təmin edilməsi uğrunda mübarizə aparaq? Doğrudan, söz azadlığı elə vacibdirmi ki, onun naminə biz çirkin və fəsadlar törədə biləcək mülahizələrlə barışmağa məcbur olaq?

Sonuncu sual heç də o demək deyildir ki, mən son zamanlar söz azadlığından sui-istifadənin fəlakətli nəticələri barəsində geniş yayılmış fikirləri dəstəkləyirəm. Bu cür fikirlər çox vaxt əsassız, bəzən isə gülünc olur. Lakin əgər söz azadlığı onun bir çox müdafiəçilərinin əvvəllər düşündüyü kimi fundamental hüquqdursa, o zaman biz hətta mümkün ziyanlı nəticələrə baxmayaraq onu müdafiə etməyə borcluyuq və izah etməyi bacarmalıyıq ki, biz nəyə gedirik. Bundan əlavə, biz öz mövqeyimizi müdafiə edərkən yadda saxlamalıyıq ki, biz haqlıyıqsa nəylə barışmalı olacağıq.

Jurnalistlərin korrupsiya hallarını tədqiq edə bilməsi hüququnu, yaxud ciddi yazıçıların intellektual və ədəbi məkanın hüdudlarını təhqiq etmək hüququnu qorumaq bir o qədər də çətin deyildir. Lakin söz azadlığı ona universal hüquq statusu verildikdə ayaqlarını aralamış çılpaq qadın təsvirlərini yayan pornoqrafiya məmulatı istehlakçılarını da müdafiə edir, dörd bir tərəfə ədavət toxumu səpən svastikalı və bəyaz ku-kluks-klan başlıqlı irqçiləri də qoruyur.

Hər şeydən öncə, etiraf etmək lazımdır ki, söz azadlığının ən məşhur və geniş tanınmış məddahı Con Stüart Millin "Azadlıq haqqında" essesi bu hüququ bu cür geniş həcmdə müdafiə edə bilmir. Mill yazırdı ki, hətta bizim qəbul edə bilmədiyimiz mülahizələrə belə dözmək lazımdır, çünki istənilən ideya üçün açıq olan azad diskussiya həqiqətin üzə çıxması üçün ən əlverişli şərait yaradır. Lakin hansısa dinin çılğın tərəfdarları, bir qayda olaraq, buna tam əmindirlər ki, həqiqət artıq onlara məlumdur və çətin ümid etmək olar ki, onlar Millin şübhə doğuran epistemologiyasını öz Əhdi-cədidlərindən üstün tutmuş olsunlar. Elə bizim özümüzü də Millin nikbinliyi söz azadlığını insanın əsas hüququ kimi qəbul edən prinsipial tərəfdarların fikrincə, barışmağın zəruri olduğu bir çox şeylərlə barışdıra və bunun zəruriliyinə inandıra bilməz. Pornoqrafiya çətin ki, "ideyalar bazarı"na mal çıxarmağa qabil olsun və tarix irqçi fikirlərin faşizmin ifşasına imkan yaratdığına ümid etməyə, demək olar, heç bir əsas vermir. Əgər söz azadlığını mərkəzi hüquq kimi qəbul etsək, o zaman bunun üçün, azadlıq zərurətini onun müsbət nəticələrindən çıxaran Millin azadlığın faydalılığına dair misal gətirdiyi dəlillərdən fərqli əsaslara istinad edilməlidir. Söz azadlığı nəsə bir mərkəzi prinsipə söykənməlidir. Və biz bu prinsipi xülasə etmək zorundayıq. O, şəxsiyyətin ləyaqətinin tanınması ilə müəyyən edilir: dövlətin öz sərəncamında olan məcburiyyət mexanizmlərindən istifadə etməklə, başqa cür düşünənlərə kollektiv və ya rəsmi qərarı zorla qəbul etdirmək üçün qanuni hüququ yoxdur, bu yalnız o halda mümkündür ki, həmin qərar hər bir fərdin cəmiyyətin azad və bərabərhüquqlu üzvü ola bilməsi statusunu tanıyan üsulla qəbul etdirilmiş olsun.

Demokratiyaya inananlar qanunun müdafiəsi üçün (bu qanun əksəriyyətin iradəsini nəzərə alan demokratik prosedurlara uyğun qəbul edilmişdirsə) polis qüvvələrindən istifadə olunmasını ədalətli hesab edirlər. Lakin majoritar prosedurlar siyasi qanunçuluğun zəruri şərtini təşkil etsə də bunun üçün kifayət deyil. Əsl demokratiya üçün müəyyən demokratik özülün olması vacibdir; məsələn, vacibdir ki, hüquq səlahiyyəti olan və yetkinlik yaşına çatmış hər bir insan majoritar qərarların qəbul edilməsi zamanı səs verə bilsin. Bundan əlavə, lazımdır ki, hər bir vətəndaşın təkcə səs vermək hüququ deyil, həm də öz fikrini sərbəst ifadə etmək hüququ olsun; majoritar

qərar yalnız o zaman ədalətli ola bilər ki, o, qəbul edilərkən vətəndaşların öz münasibətlərini, fikrini, şübhə və rəğbətini, habelə öz qərəzli rəyini və ideallarını ifadə etmək üçün (özü də təkcə başqalarına təsir göstərmək məqsədilə deyil — baxmayaraq ki, bunun üçün şəraitin olması da çox vacibdir), həm də özünü kollektiv hərəkətin passiv iştirakçısı kimi deyil, dəyərli üzvü kimi təqdim etmək üçün bərabər imkanları olsun.

Çoxluğun öz iradəsini qərar qəbul olunmazdan əvvəl ona etiraz etmək, ona qarşı çıxmaq və ya sadəcə olaraq onu müzakirəyə qoymaq imkanından məhrum edilmiş cəmiyyət üzvlərinə zorla qəbul etdirmək hüququ yoxdur. Bu, siyasətin legitimliyinin zəruri şərti kimi söz azadlığını qorumaq üçün yeganə olmasa da əsas səbəbdir.

Yalnız bu nəzərdə tutulmur ki, hakimiyyət açıq-aşkar siyasi məzmun daşıyan çıxışları və ya nəşrləri senzuradan keçirməməlidir. Belə ki, konkret cəmiyyətin qanunları və siyasəti təkcə baş məqalələr, partiyalı radioverilişlər və ya rəsmi siyasi çıxışlarla deyil, daha çox rəylərin, xurafatın, zövq və mövqelərin mürəkkəb qatışığından ibarət olan mənəvi və mədəni iqlimlə müəyyən edilir. Kollektiv iradəni zorla qəbul etdirmək və öz siyasi və ya ictimai məsləkini, zövqlərini və ya etiqadlarını qeyri-formal şəkildə ifadə etməklə bu mənəvi iqlimə öz payını vermək istəyənin ağzını yummaq hər hansı bir siyasi pamfleti polisin gücü ilə məhv etmək qədər ədalətsizdir. Bu tezis ifadə edilmiş əqidənin, zövqlərin və ya etiqadların çoxluq üçün nə dərəcədə təhqiredici olmasından və buna qarşı etirazların nə dərəcədə ağlabatan olmasından asılı olmayaraq qüvvədə qalır.

Bu prinsipdən istisnaya yol vermək və bizim ümumi mədəniyyətimizi pornoqrafiya və ya irqi ədavətlə yoluxdurmağa heç kəsin haqqı olmadığı barədə bəyanatlarla çıxış etmək cazibəsi, tamahı bəlkə də rəfedilməz görünə bilər. Lakin hər hansı bir qadağanı tətbiq etməklə biz hətta bu cür insanların da sonralar bizim qanunlar külliyyatına daxil ediləcək kollektiv qərarlara tabe olunmasını tələb etmək hüququmuzu — öz mənəvi hüququmuzu təhlükə altına qoymuş olarıq. Biz qadınları və homoseksualistləri və azlıqların nümayəndələrini seksizmin, dözülməzliyin və irqçiliyin konkret və ziyanlı nəticələrindən qorumağa borcluyuq. Biz onları işə və ya universitetə qəbul zamanı, mənzil kirayə edərkən və ya cinayət prosesində ədalətsizlik və bərabərsizlikdən qorumağa borcluyuq və biz onları bu cür müdafiə ilə təmin edə biləcək qanunları qəbul etmək zorundayıq. Lakin biz bu ədalətsizlik və bərabərsizliyi, bizim fikrimizcə, onları qidalandıran mövqeləri və xurafatı  qadağan etməklə "beşiyindəcə" məhv etməyə çalışmamalıyıq. Belə ki, ictimai rəyi formalaşdıran bu prosesin xeyli erkən mərhələsində ona müdaxilə etməklə biz demokratların yeganə bəraətini məhv etmiş olarıq; belə ki, onlar təkid edirlər ki, qanunlara hər bir kəs, hətta bu qanunlara nifrət edib onu tanımaq istəməyən kəs də tabe olmalıdır.

Belə bir etiraz irəli sürmək olar — mənim dəlil-sübutlarım ən yaxşı halda onu sübut edir ki, demokratik cəmiyyətdə söz azadlığı zəruridir, lakin bununla heç də sübut edilmir ki, söz azadlığı elə bir universal hüquqdur ki, qeyri-demokratik cəmiyyətdə də ona nail olmağa çalışılsın. Bu etiraza belə bir cavab ağla gələ bilərdi ki, demokratiya öz-özlüyündə universal hüquqdur və qeyri-demokratik cəmiyyət — tiraniyadır. Lakin bu cür fikir gedişinə çox da bel bağlamaq olmaz, belə ki, biz siyasi təşkilatın bir forması olan demokratiyanı hakimiyyətin özünün bütün vətəndaşların mənafelərini eyni dərəcədə nəzərə almaq kimi daha fundamental vəzifələrindən fərqləndirməliyik. Sonuncusu isə yəqin ki, insanın fundamental hüququdur; ondan bizim tanıdığımız bir çox, daha az dərəcədə şəxsi olan hüquqlar, o cümlədən söz azadlığı hüququ törəyir.

Hətta hakimiyyət başında generalların və ya peyğəmbərlərin durduğu və adi vətəndaşın gerçək səs hüququndan məhrum olduğu ölkədə də bu vətəndaşın heç olmasa öz fikrini söyləmək, onun taleyini həll edənlərin diqqətini cəlb etmək, yaxud elə-belə öz mənliyi və heysiyyatı xatirinə onun üçün iyrənc və ya ədalətsiz görünən şeylər barəsində sadəcə olaraq öz rəyini bildirmək hüququ olmalıdır. Vətəndaşın səs hüququnu yalnız həbsxana və ya ölüm cəzası qorxusu altında əldə etdiyi hakimiyyət öz təbəələrinə korlanmış, əxlaqsız və kütbeyin adamlar kimi baxır və buna görə o, çətin ki, öz vətəndaşlarının marağını nəzərə almış olsun, belə ki, o yalnız bu vətəndaşların birləşdiyi vahid tamın qayğısına qalmaqla məşğuldur.

Əlbəttə, belə düşünməyə meyllənirsən ki, söz azadlığının müəyyən qismi universal hüquq sayılsa da o, mütləq hüquq sayıla bilməz; düşünmək istəyirsən ki, fikirləri təhlükəli, iyrənc və ya mənəvi, yaxud dini konsensusla bir araya sığmayan kəslər özünə hörmət hüququndan — şəxsiyyətin bütün hüquqlarının əsasında duran bir hüquqdan tamamilə məhrum edilirlər. Lakin bu cür şərt prinsipin özünü məhv etmiş olardı - o, yalnız hakimiyyətə xoş gələn və ya ən azı onun üçün qorxulu olmayan ideyaların, zövqlərin və ya etiqadların müdafiəsini təmin edə bilərdi.

Biz istərdik ki, həqarət etdiyimiz kəsləri səs hüququndan məhrum etmək səlahiyyətinə malik olaq, lakin buna yalnız siyasi legitimliyi itirməklə nail olmaq mümkündür, siyasi legitimlik isə, hər halda, bizim həqarətimizdən vacibdir.

Buna görə də bu cür şərt təhlükəlidir. Feminist qadın Ketrin Makkinon və onun tərəfdarları ABŞ-da məğlubiyyətə uğradılar — məhkəmə onların qanun layihəsini Konstitusiyaya zidd saydı. Lakin Kanadanın

qanunverici orqanlarını onlar inandıra bildilər — Kanadada Konstitusiya müdafiəçilərinin qəti etirazına baxmayaraq senzura haqqında sərt qanun qəbul edildi. Lakin Kanadanın yeni qanunlarının qüvvəsi ilk növbədə feminist qadınların qətiyyən nəzərdə tutmadığı şəxslərə şamil edildi. Bunlar görkəmli homoseksualist yazıçılar və ağlara qarşı irqi ədavəti qızışdırmaqda ittiham edilən qara dərili feminist qadın və K. Makkinonun qısa müddətə feminist silahdaşı Andrea Dvorkin idi.

Prinsip bölünməzdir və biz onu yalnız öz müsibətimiz hesabına bölə bilərik. Biz yaxın məqsədləri daha vacib hesab edirik deyə azadlığı məhdudlaşdırsaq yəqin tez bir zamanda aşkar edərik ki, bu məhdudiyyətlər bizim deyil, "ağzı fitvalı" fanatik ruhanilərin və öz kin-küdurətlərini əldə silaha döndərmiş fanatik moralistlərin sərəncamında olacaq.

*"Index on Censorship", May/June 1994,*
*33 Islington High Street, London N1 9LH*

---

1 Məhkəmə başa çatdıqdan sonra hakim Arieh Neyer demişdir: "Ola bilsin ki, yəhudilər və onların dostları Skokidə hakimiyyət başında dururlar, lakin ölkədə hakimiyyət onlarda deyil. Və onlar heç vaxt hakimiyyətə gələ bilməyəcəklər. Skokidə yəhudilər özlərini qorumaq üçün məhdudiyyətlər qoyulmasını tələb edir. Lakin bir ovuc nasisti Skoki küçələrindən yığışdırmaq çətin ki, yəhudilərin xeyrinə olsun, belə ki, bundan ilk növbədə ABŞ-da danışmaq, dərc etmək və toplaşmaq azadlığı ziyan çəkəcək... Nasistlərə səs hüququ vermək təhlükəlidir. Lakin yəhudilərə kömək harayını bir-birlərinə və dünyaya çatdırmaq lazım gəldikdə məhz onun sayəsində heç kəsin yəhudilərin ağzını yuma bilməyəcəyi həmin o qanunları məhv etmək daha təhlükəlidir" *(red.).*

HİKMƏT HACIZADƏ

# İNSAN HÜQUQLARI
## *Bəşəriyyətin başlıca ideyası*
## (1998)

*İçindəkilər*

Ön söz
İnsan hüquqları nə deməkdir?
İnsan hüquqları ideyasının antik və dini kökləri
Orta əsrlər
18-ci əsr: böyük demokratik inqilablar
19-cu əsr: insan hüquqlarına hücum. İnsan, ya dövlət?
"İlahi qanun" yerini "insani qanun"a verir
İnsan hüquqları və beynəlxalq hüquq
İnsan hüquqlarına beynəlxalq nəzarət mexanizmləri
ABŞ-ın xarici siyasətində insan hüquqları məsələsi
Son söz

### ÖN SÖZ

İnsan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biridir. İnsan hüquqları ciddi elmi araşdırmaların predmetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna, əksər ölkələrin Konstitusiyasının ana xəttinə, sülh və əməkdaşlıq haqqında beynəlxalq sazişlərin başlıca məğzinə çevrilmişdir. Dünyanın əksər ölkələrində insan

haqları insanın mövcudluğunun və milli inkişafın ən vacib şərti kimi qəbul olunur. Bununla yanaşı, insan hüquqları ideyasının həyata keçirilməsi hələ də bir çox anlaşılmazlıqların, ziddiyyətlərin, ölkədaxili və beynəlxalq gərginliklərin mənbəyi olaraq qalır.

Dünyanın özü kimi qədim olan (yəqin ki, cəmiyyətlə birgə yaranan) insan hüquqları ideyasının fəlsəfi əsaslarının işlənib hazırlanması və bu ideya uğrunda səmərəli mübarizə aparılması son üç əsrin payına düşmüşdür. 18-ci əsrdə Avropa ayrılmaz insan hüquqlarının (yaşamaq hüququ, azad olmaq hüququ) və vətəndaş hüquqlarının (söz və vicdan azadlığı, təhlükəsizlik və mülkiyyət hüququ) meydana çıxmasının şahidi olmuşdur. Siyasi hüquqlar (ümumi seçki, gizli səsvermə, respublika quruluşu, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək və s. hüquqlar) 19-cu əsrdə əldə edilmişdir. 20-ci əsr bütün bu hüquqlar sırasına sosial hüquqları (sosial təminat hüququ, əmək, təhsil, tibbi yardım hüquqları, qadın bərabərliyi və uşaqları müdafiə hüquqları) əlavə etmiş, insan hüquqları ideyasını və həmin ideyanı həyata keçirmək təcrübəsini bütün dünyaya yaymışdır.

İnsan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyasının bugünkü mənzərəsi İkinci dünya müharibəsi zamanı və müharibədən sonrakı ilk illərdə formalaşmışdır. Müharibə gedən dövrdə antihitler koalisiyasına daxil olan ölkələrin başçıları bəyan etmişlər ki, insan hüquqlarının qorunması və bu hüquqlara təminat verilməsi onların müharibədə güddüyü başlıca məqsəddir və 1945-ci il Nürnberq məhkəməsində müttəfiqlər nasist liderlərinin cinayətlərini əks etdirən siyahıya "insaniyyətə qarşı cinayəti" daxil etdilər. Birləşmiş Millətlər Təşkilatının Xartiyasında (1945) bəyan edildi ki, insan hüquqlarının qorunmasına kömək etmək BMT-nin əsas məqsədidir. Və nəhayət, 1948-ci ildə insan hüquqları ideyası BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsində və həmin bəyannamədən irəli gələn çoxsaylı beynəlxalq sazişlərdə müasir səviyyədə öz əksini tapdı. O vaxtdan etibarən "insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması" ideyası bütün dünyaya yayılmış, azadlıq və ləyaqətli yaşayış uğrunda mübarizə aparan insan üçün əsas ilhamverici ideyaya çevrilmişdir.

## İNSAN HÜQUQLARI NƏ DEMƏKDİR?

"İnsan hüquqları" dövlətlə qarşılıqlı münasibətdə hər bir insana məxsus olan başlıca əxlaqi və hüquqi haqlardır.

İnsan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası üç müddəaya əsaslanır:

- hər bir insan doğulduğu gündəncə böyük, təkrarolunmaz və qiymətli bir varlıqdır, onun öz muxtariyyəti və ləyaqəti var, insanın ləyaqətinə toxunaraq onun muxtariyyətinə müdaxilə etməyə dövlətin ixtiyarı yoxdur;

- hər hansı bir hakimiyyətin öz hədd-hüdudu var;

- hər bir kəs öz hüquqlarını qoruyaraq dövlət qarşısında tələblər irəli sürə bilər.

Ayrılmaz hüquqları insan ona görə doğulan gündəncə qazanır ki, o, insandır. Bu hüquqlar eyni dərəcədə həm cəmiyyətin yaşlı nümayəndəsinə, həm uşağa, həm hörmətli adama, həm də cinayətkara məxsusdur.

Dövlət hakimiyyətinin hədd-hüdudu var! Dövlət yalnız o hakimiyyətə malikdir ki, həmin hakimiyyəti öz hüquqlarını müdafiə etmək məqsədilə insanlar özləri könüllü olaraq dövlətə vermişlər. Heç bir qanun, hətta demokratik bir dövlətdə çoxluğun iradəsiylə qəbul olunmuş qanun belə insan hüquqlarını poza bilməz. İnsan hüquqları çoxluğun hakimiyyətinə məhdudiyyət qoyur.

İnsan hüquqlarının bir qismi ayrılmaz hüquqlardır! Dövlət insanı onun hüquqlarından məhrum edə bilməz. Hətta insanın özü belə könüllü olaraq öz hüquqlarından imtina edə bilməz. Əgər bir adam sənəd imzalayıb könüllü şəkildə azadlıqdan imtina edərsə və özünü qula çevirərsə, bu sənəd məhkəmədə həqiqi sənəd sayılmaz. Lakin insan qərar verib özünü mülkiyyətdən təcrid edə bilər, çünki mülkiyyət hüququ insanın ayrılmaz hüquqlarından deyil.

İnsan dövlətdən öz haqqını tələb edərkən heç də məhkəmədə sübuta yetirməyə borclu deyil ki, onun anadan olan gündən filan hüququ var. Dövlətə (adətən, bizim hüquqlarımızı pozan dövlət məmurlarına) etiraz etmək haqqı insan hüquqları ideyasının əsas müddəalarından biridir.

İnsan hüquqları ictimaiyyət yox, fərdiyyət məsələsidir. Ona görə də insan hüququ anlayışı altında azlığın hüquqları yox, bu azlığa daxil olan konkret şəxsin hüquqları nəzərdə tutulur.

Öz Konstitusiyası olan respublikalarda insan hüquqları məhz Konstitusiya qanunu kimi müəyyən edilir və bu qanun parlamentin qəbul etdiyi adi qanunlardan yüksəkdə dayanır. Odur ki, insan hüquqlarını bəzən "konstitusiya hüquqları" da adlandırırlar.

İnsan hüquqları yalnız insanın dövlətlə qarşılıqlı münasibətlərinə aid bir məsələdir. Əgər kimsə öz hərəkətləri ilə hər hansı bir insana zərər vurursa, bu, artıq insan hüququ məsələsi yox, qanunçuluq məsələsidir.

**<u>İnsan hüquqları iki əsas qrupa ayrılır:</u>**
***maddi hüquqlar və prosessual hüquqlar***

Maddi hüquqlar insana məxsus olan bir çox hüquq və azadlıqlardır ki, buraya fikir azadlığı, vicdan azadlığı və seçki azadlığı daxildir.

Prosessual hüquqlar insana məxsus hərəkət üsullarını və onlarla bağlı olan məhkəmə, prokurorluq institutlarını əhatə edir ki, həmin institutların köməyi ilə insan ədalətin bərpasına nail olur, cinayət törətməkdə ittiham olunarkən hakimiyyət qarşısında öz hüquqlarını müdafiə edir.

<u>Maddi hüquqlara *Hüquq* və *Azadlıqlar* daxildir.</u>

*Vətəndaş hüquqları*dövlətin hər bir insan qarşısında eyni dərəcədə daşıdığı vəzifələrdir. Məsələn, insanın təhsil hüququ təhsil sistemi yaratmağa və həmin sistemi dəstəkləməyə dövləti məcbur edir. Yaxud insanın məhkəmə təhqiqatı hüququ dövləti hər kəsin şikayətlə müraciət edə biləcəyi məhkəmə sistemi yaratmağa məcbur edir.

*Vətəndaş azadlıqları*şəxsi həyatımızla (məsələn, fikir azadlığı, vicdan azadlığı ilə, yığıncaq keçirmək, yer dəyişmək və ailə qurmaq hüququ ilə) bağlı olaraq, dövlət qarşısında qoyulmuş qadağalardır.

Deməli, konstitusiyalarda və beynəlxalq sazişlərdə öz əksini tapmış vətəndaş azadlıqları "azadlığ"ın, vətəndaş hüquqları isə "bərabərliy"in qorunmasına xidmət etməlidir. "Azadlıq" Konstitusiyada mövcud hüquq prosedurları, "bərabərlik" isə hamını eyni dərəcədə qanun tərəfindən qorumaq prinsipi əsasında müdafiə olunmalıdır. "Azadlığın tarixi daha çox prosessual təminatların yerinə yetirilməsi tarixidir" — amerikalı hakimlər bu sözləri tez-tez işlədirlər. Bu gün demokratik dövlətlərin hakimləri istintaq proseduru polis tərəfindən pozulduğu halda müttəhimi günahkar saymaqdan imtina edirlər. Belə hesab edirlər ki, "hakimiyyətin ləyaqətsiz bir rolda çıxış etməsindənsə bir-iki cinayətkarın cəzasız qalması daha yaxşıdır".

*<u>İnsan hüquqları aşağıdakı kateqoriyalara bölünür:</u>*

Şəxsi azadlıqlar insanın muxtariyyətini və onun şəxsi həyatını dövlət müdaxiləsindən qoruyan hüquqlardır.

Siyasi hüquqlar insana partiya və ictimai təşkilatlar vasitəsilə dövlət qərarlarının qəbul edilməsində, seçkilərdə iştirak etmək və dövlət vəzifələrində çalışmaq hüququ verir.

Prosessual hüquqlar, yəni məhkəməyə müraciət etmək və s. hüquqlar vasitəsilə insana dövlətin onun digər hüquqlarını pozan qərarlarından qorunmaq imkanı verilir.

Sosial və iqtisadi hüquqlar vətəndaşı minimal yaşayış tərzi ilə (bunsuz insan öz haqqını lazımi şəkildə müdafiə etməyə çətinlik çəkərdi) təmin edən hüquqlardır.

İnsan hüquqları hökumətin mənafeyi, ənənəvi əxlaq anlayışı, cəmiyyətin iqtisadi maraqları ilə tez-tez toqquşur, amma hər dəfə insan hüquqları ilə digər dəyərlər arasında toqquşmalar baş verəndə üstünlük insan hüquqlarına verilir. Məhz buna görə deyirlər ki, insan hüquqları digər dəyərlərdən daha üstün və əsasdır (1971-ci ildə "Nyu-

York tayms" qəzeti hökumətin ABŞ-ın Vyetnam müharibəsinə cəlb olunmasının ilk tədbirlərindən bəhs edən gizli bir məruzəsi ilə bağlı yazılar seriyası çap eləməyə başladı. ABŞ məhkəmələrinin vaxtilə hərbi sirləri qorumaq haqqında çıxardığı qərarlara əsaslanaraq Ədliyyə Nazirliyi həmin məruzənin nəşrini müvəqqəti olaraq qadağan etdi. Lakin cəmi 17 gündən sonra ABŞ Ali Məhkəməsi qadağan barədəki qərarı ləğv etdi və Konstitusiya maddələrini əsas götürərək qərar qəbul etdi ki, hökumət mətbuat azadlığını məhdudlaşdıra bilməz və insanların öz taleləri ilə bağlı informasiyalardan xəbərdar olmaq hüququ vardır).

Digər dəyərlərlə müqayisədə insan hüquqlarının bəziləri daha vacib və üstün sayılsa da, onlar hər halda mütləq hüquqlar hesab edilmir və başqa hüquqlarla toqquşmada onlara müəyyən məhdudiyyət qoymaq olar. Məsələn, söz azadlığına irqçiliyi təbliğ etmək qadağası qoyula, yaxud mənzilin toxunulmazlığı hüququ cinayət axtarışı prosesində pozula bilər. Hüquqların məhdudlaşdırılması hakimiyyətin qərarı ilə yox, qanun əsasında həyata keçirilməlidir. İnsan hüquqlarının məhdudlaşdırılmasının dərəcəsi qanunda bu məhdudlaşdırmanı doğuran vəziyyətin gərginliyi ilə və bu məhdudlaşdırma müqabilində başqa bir dəyərin qorunmasının vacibliyi ilə müəyyən olunmalıdır. Qanunların şərh olunması isə hansısa məmura yox, demokratik hüquqi dövlətin məhkəməsinə aid bir işdir.

Demokratiya qanunilik və ictimai tərəqqi kimi dəyərlərin sinoniminə çevrilsə də, insan hüquqları tez-tez həmin dəyərlərlə toqquşmalı olur. Qanun hər hansışəxsin haqqının tapdanmasına şərait yaradarsa, insan hüquqları qərar və qanunların demokratik yolla qəbul olunmasını məhdudlaşdıra; sosial və ekoloji şərtlərin qorunmasını tələb edərək, iqtisadi inkişafı müvəqqəti olaraq ləngidə; sosial bərabərliyin bərqərar olmasına mane ola bilər. 1900–1937-ci illər arasında ABŞ məhkəmələri hökumətin minimum əmək haqqı və 8 saatlıq iş günü barədə qanun qəbul etmək cəhdlərini Konstitusiyaya zidd addımlar kimi qiymətləndirdi. Məhkəmə belə hesab etdi ki, bu cür qanun Konstitusiyanın müdafiə etdiyi və insanın öz müəssisəsini hökumət müdaxiləsi olmadan, sərbəst şəkildə idarə etmək hüququ ilə səciyyələnən Azadlıq prinsipini məhdudlaşdırır.

## İNSAN HÜQUQLARI İDEYASININ ANTİK VƏ DİNİ KÖKLƏRİ

İnsan hüquqları və hakimiyyətin məhdudlaşdırılması ideyasının tarixi kökləri qədim dövrlərə gedib çıxır. Çox güman ki, insanın istər cəmiyyət, istərsə də dövlət tərəfindən pozula bilməyən hüquqlara sahib olması ilə bağlı ideya insan cəmiyyətlərinin yarandığı dövrlərdən meydana çıxmışdır. Stoiklərin və epikürçülərin adı ilə bağlı qədim yunan fəlsəfi məktəbi, eləcə də romalı Sitseron və onun davamçıları insan azadlığını, insanın şəxsi həyatını ictimai mənafedən və dövlətin siyasi maraqlarından üstün tutmuşlar.

Allahlara inamın ictimai şüura hakim kəsildiyi dini cəmiyyətlərdə insan hüquqları ideyası "ilahi qanun"dan, yaxud sonralar deyildiyi kimi, "təbii hüquq"dan doğurdu. "İlahi qanun" isə hökmdarın verdiyi fərmandan, cəmiyyətin qoyduğu qayda-qanundan yüksəkdə dayanırdı. Bu halda insan Yerdəki hakimin ədalətsiz fərmanına tabe olmamaq hüququ qazanırdı, çünki o, "ilahi hakimiyyət"in ədalətli hökmünə tabe olurdu. Təkallahlı dinlərdə — iudaizm, xristianlıq və islamda göstərilmişdir ki, insanı Allah yaratmışdır və onun həyatı yalnız Böyük Yaradanın iradəsindən asılıdır. İnsanı Allah "özünə oxşadaraq" yaratmışdır və insan özündə Böyük Yaradanın bir zərrəsini əks etdirir. Həmçinin Allah bütün insanları bərabər yaratmışdır və müqəddəs kitablarda Allah insanın əzilməsini və onun ləyaqətinin tapdanmasını böyük cinayət elan edir (müqayisə üçün xatırladaq ki, induizmə görə, insanlar bərabər doğulmur, məsələn, brəhmənlər Allaha toxunulmazlardan daha çox yaxındırlar).

"İlahi-təbii hüquqlar"a daxil olan insan hüquqları haqda Qurandan və Məhəmməd peyğəmbərin buyurduqlarından bir neçə nümunə:

BƏRABƏRLİK: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq, sonra sizi xalqlara və qəbilələrə ayırdıq ki, bir-birinizi tanıyasınız" (surə 49: ayə 13). (Quranın bu ayəsini BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin birinci maddəsi ilə müqayisə etmək maraqlı olardı: "Bütün insanlar öz hüquqları etibarilə azad və bərabər doğulurlar. Onlara ağıl və vicdan bəxş edilmişdir və onlar bir-biri ilə qardaşlıq münasibətində olmalıdırlar").

**Xalq hakimiyyəti**: "O kəslər ...işlərini öz aralarında məsləhət-məşvərətlə görərlər..." (42:38); Buna görə öyüd-nəsihət ver. Sən ancaq öyüd verənsən! Onların üzərində hakim deyilsən!" (88:21-22).

**Seçmək azadlığı**: "Və de ki: "Haqq Rəbbinizdəndir. İstəyən inansın, istəməyən inanmasın" (18:29).

**Vicdan azadlığı:** "Dində məcburiyyət yoxdur" (2:256). "İnsanları inanmağa sənmi məcbur edəcəksən?!" (10:99).

**Şəxsi təhlükəsizlik:** "Başqalarının evlərinə sahiblərindən icazə almadan ...girməyin" (24:27).

***Məhəmməd peyğəmbər buyurub:***

— "Heç kim ədalətsiz fərmana tabe olmamalıdır". Yəni hakim "təbii hüquqlar"ı pozursa, onun əmrini yerinə yetirmək günahdır.

— "Heç bir ərəbin başqa bir ərəbdən hansısa bir üstünlüyü yoxdur, eləcə də ərəbin zəncidən, zəncinin ağdərilidən üstünlüyü yoxdur".

— "Mənim icmamda fikir müxtəlifliyinin olması Allahın bizə mərhəmətini göstərən bir əlamətdir...".

Göründüyü kimi, insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası dini cəmiyyətlərdə məğzində toxunulmaz insan ləyaqəti anlayışı duran "təbii hüquqlar"dan doğur.

Qeyd etmək vacibdir ki, insan ləyaqəti şəxsi ləyaqət anlayışından (bu anlayış "şərəf" anlayışına daha çox yaxındır) fərqlənir. Şəxsi ləyaqəti həyatda biz özümüz qazanırıq — nəcabətli olanda şəxsi ləyaqətimiz artır, alçaqlığa yol verəndə şəxsi ləyaqətimizi itiririk. İnsan ləyaqətini isə biz məhz heyvan yox, insan olduğumuza görə anadan olan gündən qazanırıq.

* * *

Başqa bir insan bizi yaşamaq hüququndan məhrum edə bilməz, bizi susmağa məcbur edə bilməz və yaxud mülkiyyətimizi əlimizdən ala bilməz. Bəs bütün bunları etməyə dövlətin ixtiyarı vardırmı?

Belə ki, qədim Afinada tam "demokratik" şəkildə, şəhər əhalisinin səs çoxluğu əsasında böyük filosof Sokrata öz tənqidi fikirləri ilə hamını boğaza yığdığına görə ölüm hökmü kəsildi! Afina dövləti Sokratı yaşamaq hüququndan məhrum etdi. İnsan hüquqları ideyasını nəzərə almasaq, bu, tamamilə qanuni idi. Beləcə də qanuni şəkildə 30-cu illərdə Almaniyada antiyəhudi qərarlar çıxarıldı, yaxud SSRİ-də hökumət barədə öz fikirlərini bildirən adamlar həbsxanalar küncünə atıldı, sürgünə göndərildi.

Bu misalları çəkməklə insan hüquqlarının məhz insanın dövlətlə münasibətlərinə aid bir məsələ olduğunu nəzərə çatdırmaq istəyirəm. İnsan hüquqları uğrunda tarixi mübarizənin əsas məğzi ondan ibarətdir ki, dövlətə insanın yaşamaq, öz fikrini sərbəst şəkildə bildirmək, təhlükəsiz olmaq, mülkiyyətə yiyələnmək, qanuni və ədalətli məhkəməyə müraciət etmək və s. hüquqlarına toxunmaq, bu hüquqları məhdudlaşdırmaq imkanı verilməsin. Demokratik ölkələrdə insan hüquqları çoxluğun hakimiyyətinin məhdudlaşdırılması işinə xidmət edir. Heç bir çoxluq insan hüquqlarını pozacaq bir qanun qəbul edə bilməz. Müasir demokratiya, məsələn, qədim Afina demokratiyasından məhz bu cəhətinə görə fərqlənir. Ona görə də bu gün demokratik rejim o deməkdir ki, düzgün keçirilmiş seçkilər sayəsində ölkədə çoxluğun hakimiyyəti bərqərardır, amma bu hakimiyyətə insan hüquqları tərəfindən müəyyən məhdudiyyət qoyulur. Bu cür demokratiya liberal demokratiya adlanır (bu termin çoxluğun hakimiyyətini — *democracy* — əhatə etdiyi kimi, insan azadlığının ayrılmazlığı prinsipini də — *liberal* — əhatə edir)...

## ORTA ƏSRLƏR

İnsanın hakimi-mütləq dövlətə qarşı mübarizəsi hələ monarxiya dövründən başlamışdır. Belə ki, 1215-ci ildə zülmkar krala qarşı üsyana qalxmışİngiltərə feodallarının qələbəsi insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması tarixində əlamətdar bir hadisəyə çevrildi. Üsyançılar kralı təəhhüdlər sənədini — "Böyük Azadlıqlar Xartiyası"nı*(Magna Carta)* imzalamağa məcbur etdilər; sənəddə dövlətin hakimiyyətinə məhdudiyyət qoyan maddələrdən biri belə idi: "Məhkum olunanlarla bərabər hüquqlara malik olan məhkəmə iclasçılarından başqa heç kim heç kəsi mühakimə edə bilməz" (əlbəttə, burada söhbət hamıdan yox, hələlik baronlardan və ali ruhani təbəqədən gedirdi – *H.H.*). Artıq kral öz vassallarını istədiyi kimi mühakimə edə bilməzdi. Bu isə insan

hüquqlarının dövlət hakimiyyəti tərəfindən qanuni və ədalətli məhkəməyə təminat alması tarixində ilk addımlardan idi. Adətən, krallar hakimiyyətlərinin məhdudlaşdırılması ilə barışmaq istəmir və bir qayda olaraq öhdələrinə götürdükləri təəhhüdləri pozurdular, bununla da demokratiya və insan hüquqları uğrunda mübarizə davam edirdi. Bu mübarizə İngiltərədə 17-ci əsrdə kapitalizmin inkişafı ilə əlaqədar olaraq yeni bir vüsət aldı. Həm kralın, həm də parlamentin (!) təkhakimiyyətliliyinə qarşı başlamış qanlı üsyanlardan sonra qəbul olunan "Hüquqa dair müraciət" (1628), "Xalq sazişi" (1647), "Hüquqlar haqqında Bill" (1689) parlamentarizmin əsasını qoydu, seçki hüquqlarını genişləndirdi, insanın ədalətsiz hakimiyyətin təqib və təzyiqlərindən qorunmasına, həmçinin dini azadlıq və dini ayrı-seçkilikdən müdafiə olunmasına təminat verdi.

İngilis inqilabının liberal qanadına mənsub olan və "Xalq sazişi"ni irəli sürən levellerlər və onların lideri Con Lilbern haqqında siyasi rəqibi Klement Uoker belə yazırdı: "Onlar donuzlara "nəstəliq" xəttinin nə olduğunu başa salırmış kimi, idarəetmənin bütün sirlərini açıb kütbeyin adamlara başa saldılar, onlar əsgərlərə və xalq kütləsinə o dərəcədə irəliyə baxmaq təlimi keçdilər ki, adi adamlar hökumətə "təbii hüquqlar" baxımından qiymət verməyə başladılar. Onlar adamları elə dəyişdirdilər ki... mövcud nizam-intizama sözsüz əməl etməyin vacib şərti olan itaətkarlıq daha heç vaxt bu adamlara yaxın düşə bilməyəcək".

Elə həmin vaxt böyük ingilis filosofu, liberalizmin klassiki, ingilis inqilabının ideyalarından ilhamlanan Con Lokk (1632–1704) demokratiyanın 4 əsas şərtini irəli sürdü: "Bərabərlik; insan hüquqları; ancaq vətəndaşların iradəsini yerinə yetirən hökumət; dövlət hakimiyyətinin məhdudlaşdırılması". Levellerlərin ardınca Lokk da bu qənaətə gəldi ki, ədalətli hökumət yalnız vətəndaşların (bu hökuməti yaradanların) könüllü razılığı əsasında idarə olunmalıdır: "Cəmiyyətdə insan azadlığı odur ki, insan ictimaiyyətin razılığı əsasında yaranmış qanuni hakimiyyətdən başqa hər hansı bir hakimiyyətə tabe olmasın...".

Bundan başqa, insanlar dövləti yaşamaq, azad olmaq, mülkiyyət sahibi olmaq kimi "təbii hüquqlar"ını qorumaq üçün yaradırlar. Əgər əvvəllər belə hesab edilirdisə ki, dövlət nə qədər hüquq verirsə, insanın bir o qədər hüququ olmalıdır, Lokk isə əksinə, bəyan etdi ki, insan hüquqlarını qorumalı olan dövlətin yaradılması barədəki ictimai sazişə əsasən insanlar nə qədər hüquq verirsə, dövlətin bir o qədər hüququ olmalıdır. Məsələn, vətəndaşlar könüllü olaraq özlərinin mülkiyyət hüququnu məhdudlaşdırıb əmlaklarının bir qismini vergi kimi dövlətə verə bilər, yaxud öz azadlıqlarını məhdudlaşdırıb orduda xidmət etməyə razı olarlar.

Bundan başqa, hakimiyyət yalnız insanlar tərəfindən qəbul olunmuş qanun çərçivəsində addım ata bilər, insanlar isə qanunun qadağan etmədiyi hər addımı ata bilərlər! Lokk göstərirdi ki, insanın öz müqəddəratını təyin etmək (həyat yolunu azad şəkildə seçmək), xalqın isə ədalətsiz hakimiyyətə qarşı üsyan etmək hüququ vardır.

Levellerlərin və Lokkun ideyaları Amerikanın, sonralarsa dünyanın bütün demokratik ölkələrinin konstitusiyalarının əsasını təşkil etdi. Onun dini azadlıq doktrinası sekulyarizmin — dinin dövlətdən ayrılmasının əsası oldu. Əlbəttə, Lokk 17-ci əsrdə insanın ayrılmaz hüquqlarına dair öz qənaətlərini irəli sürərkən "ilahi qanun"dan doğan "təbii hüquq"a əsaslanırdı.

Hər bir kəsin ləyaqət və azadlığını tanımaq ideyası ilk baxışda aydın və sadə görünsə də, cəmiyyətdə çox böyük çətinliklə özünə yer tapırdı. Hətta Lokk özü dini azadlıqdan bəhs edən əsərlərində bu azadlığı hamıya yox, yalnız ayrı-ayrı protestant sektalara aid edirdi, həmin hüquq, Lokkun fikrincə, məsələn, katoliklərə aid edilə bilməzdi. Həmçinin Lokk hüquq və azadlıqları qadınlara və cəmiyyətin yoxsul təbəqəsinə şamil etmirdi.

Söz azadlığı uğrunda senzura ilə ardıcıl mübarizə İngiltərədə əsrlər boyu davam etmişdir. Kral zülmünə və kilsə rəsmiyyətinə qarşı mübarizə aparanların davamçılarından biri, parlament tərəfdarı Con Milton (1608–1674) 1644-cü ildə özünün "Areopagitika" əsərində əvvəllər kralın etdiyi kimi hərəkət edib mətbuata senzura qoyan parlamentə qarşı çıxdı. Hətta 20-ci əsrin əvvəllərində Tolstoyun bəzi əsərləri "mənəvi-əxlaqi məsələlərə görə" Böyük Britaniyada qadağan edilmişdi.

Hökumət seçkilərində iştirak etmək hüququ uğrunda mübarizə Böyük Britaniyada bir neçə əsr çəkdi. Orta əsrlərdə seçki hüququndan ancaq nüfuzlu feodallar istifadə edirdi; 17-ci əsr inqilabından sonra bu hüquqdan protestantlığa mənsub mötəbər adamlar, 19-cu əsrin ortalarında isə milli və dini azlıqlar istisna olunmaqla, əhalinin kişilərdən ibarət hissəsi istifadə etməyə başladı. Gərgin mübarizələrdən sonra qadınlar ancaq 1920-ci ildə seçki hüququna nail ola bildilər, İsveçrədə isə qadınlar bu hüququ yalnız bizim əsrin 70-ci illərində əldə etdilər.

## 18-Cİ ƏSR: BÖYÜK DEMOKRATİK İNQİLABLAR

Amerika və Fransa inqilabları (1776; 1789) insan hüquqları tarixində bir dönüş yaratdı. Lokkun ideyalarından və "təbii hüquqlar" konsepsiyasından ruhlanan Tomas Cefferson ABŞ-ın İstiqlaliyyət Bəyannaməsində göstərirdi: "Biz bunu sübuta ehtiyacı olmayan bir həqiqət hesab edirik ki, bütün insanlar bərabərhüquqlu yaradılıb və Yaradan onlara yaşamaq, azad olmaq və xoşbəxtliyə canatma kimi hüquqlar verib; bu hüquqları həyata keçirmək məqsədilə insanlar təbəələrin rəyinə əsaslanan hökumət qururlar; əgər hər hansı dövlət quruluşu bu hüquqları pozarsa, onda xalqın həmin quruluşu dəyişməyə, ləğv edib yenisini qurmağa tam ixtiyarı vardır...". Daha sonra 1791-ci ildə ABŞ Konstitusiyasında dəyişiklik edilərək, dövlətin toxuna bilməyəcəyi hüquqlar daha da dəqiqləşdirildi: "Konqresin hər hansı bir (dövlət) dini bərqərar etmək, yaxud söz və yığıncaq azadlığını məhdudlaşdırmaq haqqında hər hansı bir qanun çıxarmaq hüququ yoxdur...". Ona da diqqət yetirək ki, ABŞ Konstitusiyasında "insanın hüququ var" ifadəsi işlədilmir, "Konqresin hüququ yoxdur" ifadəsi işlədilir.

Müstəqillik Bəyannaməsində insanın "xoşbəxtlik" hüququndan yox, məhz "xoşbəxtliyə canatma" hüququndan bəhs olunur ki, bunun çox böyük əhəmiyyəti var. Xoşbəxtliyə canatma insanın ayrılmaz hüququdur və dövlət bu hüquqa maneçilik törətməməli, əksinə, onun həyata keçməsinə imkan yaratmalıdır. ABŞ Konstitusiyasının tələbinə görə, hökumət əhalinin ümumi rifah halının yaxşılaşmasının qayğısına qalmalı, amma heç də hər kəsi işlə, yeməklə təmin etməməli, ayrı-ayrı adamların sosial ehtiyaclarını ödəməməlidir, çünki bunların heç biri Amerika insan hüquqları ənənələrinə daxil deyil. Dövlət hakimiyyətini məhdudlaşdırmaq üçün xalq tərəfindən qəbul olunmuş ABŞ Konstitusiyası fövqəladə vəziyyətdə də öz qüvvəsini saxlayır. Konstitusiyada həmçinin vətəndaşların vəzifələri, yaxud onların hüquqları ilə vəzifələri arasındakı əlaqə göstərilməmişdir. Burada insan cəmiyyət qarşısında vəzifələrini yerinə yetirib-yetirməməsindən asılı olmayaraq öz hüquqlarından istifadə edir...

Beləliklə, Konstitusiyaya görə, ABŞ hökuməti hər bir adamı işlə, yeməklə təmin etməyə, onun sosial tələbatını ödəməyə borclu deyil. Amerika demokratiya ənənələrinin Avropa demokratiya ənənələrindən fərqi də məhz bundadır. Əhalisi daha sıx olan Avropada Amerikadan fərqli olaraq ictimai inkişaf o yerə gətirib çıxartdı ki, burada insanlar kənar təzyiqlərdən, məsələn, torpaq sahiblərinin təzyiqindən qorunmaq üçün ümidlərini dövlətə bağladılar. Azadlığın sosialist konsepsiyası - dövlət vasitəsilə azadlıq əldə etmək ideyası məhz Avropada meydana çıxdı.

Bu konsepsiyanın əsasları Fransa inqilabının ilhamvericisi Jan-Jak Russonun (1712–1778) əsərlərində qoyulmuşdur. Russo da belə hesab edirdi ki, insan anadan olan gündən müəyyən hüquqlar qazanır, lakin cəmiyyətə qoşulan kimi onun hüquqları istər-istəməz pozulmalı olur. Güclülər hakimiyyətlərini "ali ədalət" adı altında pərdələyərək zəifləri əzirlər. Belə bir vəziyyətdə yoxsul adamın hansı hüququndan danışmaq olar? Məhz bunu nəzərdə tutaraq Mirzə Ələkbər Sabir yazırdı: "Fəhlə, özünü sən də bir insanmı sanırsan? Pulsuz kişi, insanlığı asanmı sanırsan?". Məhz buna görə Russo "yaxşı dövlət" (yaxud pozitiv dövlət — *Positive State*) ideyasını irəli sürürdü. Bu ideyaya görə, dövlət insanın sosial müdafiəsini təmin etməli, əhalinin yoxsul təbəqəsinin qayğısına qalmalı və insanın iqtisadi hüquqlarının təminatçısı olmalıdır. Russo vətəndaşına xoşbəxtlik gətirəcək bir dövlətin qurulacağına ümid edirdi.

Bu cəhət Fransa İnsan və Vətəndaş Hüquqları Bəyannaməsinin (1789) insanın xoşbəxtlik hüququna dair maddəsində öz əksini tapmışdır. Bəyannamə müəllifləri yekdil olaraq belə bir fikrə gəldilər ki, "...insan hüquqlarına etinasızlıq cəmiyyətdə bədbəxtliyin, dövlətdə isə korrupsiyanın yeganə səbəbidir"; insanın azadlıq, mülkiyyət, təhlükəsizlik və zorakılığa müqavimət göstərmək kimi "təbii" və ayrılmaz hüquqları vardır. Burada ilk dəfə olaraq "təqsirsizlik prezumpsiyası" müddəası irəli sürülmüşdür. Bu müddəaya görə, "hər bir insan məhkəmə tərəfindən günahkar elan edilməyənə qədər təqsirsiz sayılır; əgər onu tutub saxlamaq vacibdirsə, onda ona qarşı həddini aşan tədbirlərin görülməsi qanunla qadağan olunmalıdır".

Bəyannamədə deyilir: "Azadlıq başqalarının hüquqlarına toxunmayan hər bir addımı atmaq imkanıdır"; "Qanun ancaq cəmiyyətə ziyan vuracaq hərəkəti qadağan edə bilər"; "Öz imkanlarına uyğun olaraq, bütün vətəndaşların istənilən dövlət vəzifəsində çalışmaq hüququ vardır"; "Vergi bütün vətəndaşlar arasında onların əmlakına uyğun olaraq bərabər şəkildə bölünməlidir". Bütün bu müddəalar bərabərlik və dövlət hakimiyyətinin məhdudlaşdırılması yolunda böyük tarixi addıma çevrildi. Demokratiya uğrunda yorulmaz ingilis mübarizlərindən sayılan Tomas Peyn (1737-1809) yazırdı: "Hüquqlar Bəyannaməsi dünya üçün bu vaxtacan qəbul olunmuş qanun və prinsiplərdən daha qiymətlidir və daha çox fayda verəcək". Bəyannamə, Peynin də qeyd etdiyi kimi, demokratiyanın Avropada və bütün dünyada geniş yayılmasına çox böyük təsir göstərdi, Fransa Konstitusiyası (1791) isə siyasi hüquqlardan başqa, vətəndaşların sosial hüquqlarına da (ehtiyacı olanlara sosial yardım hüququ və pulsuz ümumtəhsil hüququ) təminat verdi. İngilis-amerikan konsepsiyası insanın siyasi və vətəndaş hüquqlarının inkişafına təkan verdisə, fransız konsepsiyası sosial və iqtisadi hüquqların inkişafına kömək etdi.

## 19-CU ƏSR: İNSAN HÜQUQLARINA HÜCUM. İNSAN, YA DÖVLƏT?

İnsan hüquqları ideyasının inkişafında sənaye inqilabının, böyük elmi kəşflərin vüsət alması və dinin nüfuz dairəsinin azalması ilə səciyyələnən 19-cu əsr xüsusi yer tutur. Liberalizmin atası sayılan C.Lokkun "İctimai müqavilə"sində meydana çıxan "insanın təbii hüquqları"na 19-cu əsr mənəvi və iqtisadi aspekti əlavə etdi: yaxşı yaşayışa nail olmaq (indi bunu liberallar bəyan edirdilər) və normal cəmiyyət qurmaq üçün hüquq və azadlıqlar labüddür. Amma, hər halda, liberalizmin əsl atası ingilis filosofu Ceremi Bentam (*Jeremy Bentham,* 1748–1831) sayılmalıdır. Onun Con Stüart Mill (*John Stuart Mill,* 1806–1873) tərəfindən inkişaf etdirilən ideyaları insan hüquqlarının labüdlüyünün fundamental əsaslarına çevrildi. Onun utilitarizm (*utility* — ingiliscə "sərfəli, xeyirli, faydalı" deməkdir) fəlsəfəsinə görə, hər bir insanın öz mənafeyi var və o öz mənafeyini başa düşməyə qadirdir (azadlığın düşmənləri buna şübhə ilə yanaşırlar), onu həyata keçirməyə can atır; sərfəlilik subyektiv anlayış olduğuna görə hər kəs onu öz bildiyi kimi dərk edir; nəyin həqiqətən sərfəli olduğunu ancaq bazar müəyyən edə bilər; insana yaşamaq, işləmək və bazarda sərbəst şəkildə hərəkət etmək imkanı verilməlidir və bu, son nəticədə cəmiyyətə insanın lider, iqtisadiyyatın isə dövlət tərəfindən idarə olunması üsulundan daha böyük fayda verəcək. Mill yazırdı: "Haqqında danışılmalı yeganə azadlıq öz yolunla öz xeyrinin dalınca getmək azadlığıdır, o vaxtacan getmək ki, başqalarını bu azadlıqdan məhrum edib, yaxud başqalarına maneçilik törədib, onların xeyrini mənimsəməyə çalışmayasan".

Şəxsi maraq və sərfəlilik konsepsiyası Böyük Britaniya və ABŞ-da təkcə fəlsəfi fikrə yox, eləcə də mədəniyyət, təhsil, idarəçilik, cinayət hüququ və iqtisadi islahatlara çox böyük təsir göstərdi. İctimai həyatın müvəffəqiyyətlilik meyarı kimi, sərfəlilik "təbii hüquqlar"ı əvəz etdi: insan hüquq və azadlıqları ümumi rifah halının yaxşılaşması üçün labüddür; başqa sözlə, insan hüquqları olmadan uğurlu və ədalətli dövlət qurmaq mümkün deyil!..

Əgər əvvəllər insan hüquqları tərəfdarları bu ideyanı əsaslandırmaq üçün Allaha üz tuturdularsa, 19-cu əsr buna insanın özünü, onun daxili aləmini əlavə etdi. Hüquq və azadlıqlar insanın təbiəti, onun ləyaqətli olmaq tələbatı ilə əsaslandırıldı. 19-cu əsrdə insan hüquqları ideyasının mənəvi-əxlaqi cəhəti Qərbdə o qədər dərin iz buraxdı ki, bu, böyük gəlir gətirən qul alverinin Avropada və ABŞ-da qadağan edilməsinə səbəb oldu.

İngilis mütəfəkkirləri Adam Smit (1723–1790) və Herbert Spenserin (1820–1903) ideyalarının təsiri ilə ABŞ və Böyük Britaniyada yeni bir ideya — iqtisadi azadlıq ideyası, xüsusi biznes işinin dövlət müdaxiləsindən azad olması fikri formalaşmağa başladı. Adam Smitin davamçılarının qənaətinə görə, "insan tələbatı dövlət qayğısına çevrilən kimi insan öz azadlığının bir hissəsini itirər, o, nisbətən az tərəqqipərvər və nisbətən az insani olar. O, vətəndaşlar arasında geniş yayıla biləcək əxlaqi ətalətin əsirinə çevrilər".

Bütün bunlarla bərabər, 19-cu əsrdə insan hüququna hücum prosesi də başlandı. Fransız inqilabı Napoleonun diktaturası ilə nəticələndi, daha sonra Napoleonun məğlubiyyəti Avropa monarxiya rejimlərinin bərpasına gətirib çıxardı. Tomas Peyn "İnsan hüquqları" kitabında Fransa inqilabının ideyalarını təbliğ etdiyinə görə Böyük Britaniyadan qovuldu. 19-cu əsr millətçilik və imperializm ideyalarının geniş vüsət almasının şahidi oldu. Latın Amerikasında respublika rejimi geniş yer tutsa da, onun prinsipləri burada çox vaxt kağız üzərində qalırdı. Demokratiya olmayan yerdə isə insan hüquqlarından danışmaq da əbəsdir.

19-cu əsr Kantı və Darvini, Nitsşeni və Freydi görmüşdü. Bu əsr böyük ideyalar əsri idi. Lakin insan hüquqları və demokratiyaya zidd ideyaların ən kəskini də 19-cu əsrdə meydana çıxdı. Bu, fəal, qüdrətli sosialist dövləti, insanın dövlət maraqlarına tabe etdirilməsi və ümumi rifah naminə insanın azadlıqdan imtina etmək ideyası idi.

O vaxtlar liberallar "bərabərlik" dedikdə hüquq bərabərliyi və qanun qarşısında bərabərlik başa düşdükləri halda, sosialistlər də belə hesab edirdilər ki, insanlar real bərabər imkanlara, heç olmazsa, minimum həyat tərzinə (onlar bunu rifah dövləti — Welfare State adlandırırdılar) malik olmalıdırlar. Kommunistlər bir az da "irəli" gedərək, tam ictimai bərabərlik yaratmaq qərarına gəldilər və bəyan etdilər ki, sosialist dövlətində hər bir insan öz ehtiyaclarını ödəmək imkanı qazanacaqdır. Artıq 20-ci əsrdə Avropada seçicilərinə dövlət tərəfindən təmin edilmiş xoşbəxt həyat vəd edən sosialist hökumətləri meydana gəldi. Bu halda vətəndaşlar öz hüquqlarının bir qismini ictimai mənafeyə qurban verməli idilər. Sovet sosializmi iqtisadi inkişafı siyasi hüquqlardan, rifah halını isə azadlıqdan üstün tuturdu. Əlbəttə, insanın sosialist dövlətinə etiraz etməyə heç bir hüququ yox idi, lakin onun belə dövlət qarşısında külli miqdarda öhdəliyi var idi...

## "İLAHİ QANUN" YERİNİ "İNSANİ QANUN"A VERİR

19-cu əsrdə rasionalizm, humanizm və ateizm ideyalarının yayılması ilə əlaqədar olaraq insan hüquqlarının nəzəri cəhətdən əsaslandırılmasında böyük problemlər əmələ gəldi. Nitsşe yazırdı: “Allah öldü”; təkamül nəzəriyyəsi deyirdi: “İnsan meymundan əmələ gəlmişdir”. Əgər Allah yoxdursa, onda insanda onun bəxş etdiyi hüquqlar haradandır? Axı bir vaxtlar onlar “ilahi-təbii hüquq”la əlaqələndirilirdi? Bundan başqa, “təbii hüquq”dan təkcə liberallar istifadə etmirdi. Ondan ən mürtəce monarxiyalara, dini müharibələrə və azadfikirli adamların təqiblərə məruz qalmasına qanunilik donu geydirmək istəyənlər də fəal şəkildə istifadə edirdilər.

19-cu əsr mütəfəkkirlərinin çoxu “təbii hüquq” ideyasından uzaqlaşdılar, onlar belə hesab edirdilər ki, insan yalnız əksəriyyət tərəfindən qəbul olunmuş qanun əsasında pozitiv hüquqdan aldığı hüquqlara malik ola bilər! Amma neyləməli ki, məhz bu insanlar qədim afinalıların onları tənqid edən Sokratın ölümünə səs verdikləri kimi, səsvermə yolu ilə insanı hər hansı hüquqdan da məhrum edə bilər. Belə çıxır ki, məsələn, Hitler, yaxud hər hansı başqa bir milli lider özünün antihumanist proqramı ilə seçicilərin əksəriyyətinin səsini toplaya bilsə, heç də cinayətkar deyil? Bəs insanı çoxluğun iradəsindən necə qorumalı, təbii hüquqla pozitiv hüquq arasındakı uçurumu aradan necə qaldırmalı?

Məsələnin həllini ABŞ Konstitusiyasının müəllifləri göstərmiş və sonralar bu yol ABŞ Ali Məhkəməsinin sədri Con Marşall (*John Marshall,* 1755–1835) tərəfindən inkişaf etdirilmişdir. ABŞ Konstitusiyasının müəllifləri onu “ölkənin ali qanunu” (*Law of the Land, IV maddə)*, “ali pozitiv qanun” elan etdilər. Bu o demək idi ki, Konqresin qəbul etdiyi qanunların heç biri Konstitusiyadan, onun insan hüquqlarına dair maddələrindən yüksəkdə dura bilməz. Konqres Konstitusiyanın özünü dəyişdirmək iqtidarında deyil və beləliklə, insan hüquqlarına qəsdlər xeyli dərəcədə çətinləşir.

1803-cü ildə Ali Məhkəmənin sədri Con Marşall məhkəmədə dövlət məmuru Marbürinin dövlət katibi Medisona qarşı qaldırdığı iddiaya baxarkən Konqresin qəbul etdiyi qanunu ABŞ Konstitusiyasına uyğun gəlmədiyinə görə ilk dəfə olaraq ləğv etdi. Beləliklə, Marşall belə bir qayda yaratdı ki, məhz Ali Məhkəmə Konqresin və hökumətin Konstitusiyaya zidd qanun və qərarlarını ləğv edə bilər. Ali hakim həmçinin belə bir qayda qoydu ki, məhkəmədə insan hüquqlarının hökumət tərəfindən pozulması hallarına baxılarkən hakimlər Konstitusiyanın insan hüquqlarına dair maddələrindən hökumətə qarşı istifadə edə bilərlər və etməlidirlər. İnsan hüquqları faktik olaraq ölkənin “ali pozitiv hüququ”na, yaxud bütün hüquqlardan yuxarıda duran “Konstitusiya hüquqları”na çevrildi.

Beləliklə, Con Marşall insan hüquqları ilə dövlət mənafeyi arasında əsrlər boyu davam edən münaqişəni insan hüquqlarının xeyrinə həll etdi. Belə bir qərarı ABŞ Ali Məhkəməsi ilk dəfə olaraq 1857-ci ildə qəbul etdi və sonralar belə qərarları çox böyük ehtiyatla qəbul edirdi. O gündən etibarən ali hakim Marşallın bu mövqeyi ABŞ və dünyanın digər demokratik ölkə məhkəmələrini insanın xeyrinə, onun hüquqlarını pozan hökumətin isə əleyhinə hökmlər çıxarmağa ruhlandırdı.

Amerikalılar “ilahi qanun”u “insani qanun”la əvəz edə bildilər! Bu ölkədə ictimaiyyət insan hüquqlarının toxunulmazlığını qəbul etdi. Bu gün dövləti məhkəməyə vermək və onu udmaq imkanı amerikalılardan ötrü adi bir haldır. Yəqin onların çoxu artıq unudub ki, buna nail olmaq üçün insan əsrlər boyu kralların da, çoxluğun da mütləqiyyətinə, öz daxilindəki mənəviyyatsızlığa qarşı mübarizə aparmalı, demokratiya və mənəviyyatın müdafiəsini günbəgün gücləndirməli olub. Yalnız bu yolla ona nail olmaq olardı ki, Amerika hakimləri, hətta prezident tərəfindən təyin edilmiş hakimlər də məhkəmədə prezidentin — belə böyük nüfuz sahibinin yox, ədalətin xeyrinə hökm çıxara bilsinlər.

## 20-Cİ ƏSR İNSAN HÜQUQLARI ƏSRİDİR

İnsan hüquqları uğrunda siyasi və ideoloji mübarizə tarixində 20-ci əsr həlledici rol oynadı. Bu əsr həm də demokratiya və insan hüquqlarının mədəniyyət müxtəlifliyindən irəli gələn maneələri aşıb Birləşmiş Millətlər Təşkilatında təmsil olunan bütün ölkələrə yayılması ilə də məşhurlaşdı.

19-cu əsrin sonu — 20-ci əsrin əvvəlləri həm insan hüquqlarına yeni hücumlarla, həm də onları bərqərar etməyin yeni cəhdləri ilə səciyyələndi. Çar Rusiyası, Almaniya və Avstriya–Macarıstanda başlanan demokratik hərəkat Birinci dünya müharibəsindən sonra Şərqi Avropa və Almaniyada sosialist və milli-sosialist diktaturasının

yaranması ilə başa çatdı. Cəmiyyət həyatına çox güclü şəkildə nüfuz edən və ümumi rifah naminə insan hüquqlarını məhdudlaşdıran qüdrətli dövlət ideyası məhz 20-ci əsrdə qol-qanad açdı və həyata keçdi.

Dövlətçilik naminə ayrılmaz insan hüquqları ideyasından imtina etməyin, insan hüquqlarını müdafiə etməkdən və dövlətin özbaşınalığına qarşı mübarizə aparmaqdan boyun qaçırmağın nələrə gətirib çıxardığını protestant ruhanisi Martin Neymüllerin həmin prosesin faşist Almaniyasında necə baş verdiyini əks etdirən məşhur deyimlərində aydın şəkildə görmək olar:

> "Onlar əvvəlcə kommunistlərin dalınca gəldilər,
> kommunist olmadığıma görə səsimi çıxarmadım.
> Sonra yəhudilərin dalınca gəldilər,
> yəhudi olmadığıma görə səsimi çıxarmadım.
> Sonra həmkarların dalınca gəldilər,
> həmkarlar təşkilatının üzvü olmadığıma görə səsimi çıxarmadım.
> Sonra katoliklərin dalınca gəldilər,
> protestant olduğuma görə səsimi çıxarmadım.
> Sonra mənim dalımca gəldilər,
> ancaq o vaxta artıq ətrafda sözümü deyəsi bir kəs qalmamışdı".

(Taleyin işinə bax ki, axırda ölüm düşərgəsinə düşən Neymüller faşist rejiminin ilk vaxtlarında yəhudilər əleyhinə dini mərasimlər keçirmişdi). İkinci dünya müharibəsində müttəfiqlərin qələbəsi insan üzərində aparılan ağlasığmaz Hitler eksperimentlərinə son qoydu. Və müharibədə qalib gəlmiş demokratik ölkələr insan hüquqlarının müdafiəsi ilə bağlı geniş beynəlxalq proqram və kampaniya həyata keçirməyə başladılar. SSRİ-nin və kommunist rejimli Çinin fövqəldövlətlərə çevrilməsi demokratik və sosialist sistemlər arasında beynəlxalq qarşıdurmaya gətirib çıxardı. Sistemlər arasındakı fikir ayrılığının başlıca mövzusu, əlbəttə, insan hüquqlarına kimin hansı mövqedən yanaşması idi (o vaxtlar artıq kommunistlər də insan hüquqlarından danışmağa başlamışdılar, lakin onlar sadəcə olaraq insan hüquqlarına "sosialist" sözünü də əlavə edirdilər).

Yeni millət-dövlətlərin meydana çıxması ilə nəticələnən əsarətçiliyə qarşı kütləvi mübarizə hərəkatları dünyada "öz müqəddəratını təyinetmə hüququ" ilə bağlı müzakirələrə təkan verdi. Asiya və Afrikanın əsarətdən qurtarmış 29 ölkəsinin liderləri Bandunq konfransında onlara həm "eqoizmə aparan" Qərb insan hüququ konsepsiyasına, həm də xüsusi mülkiyyət və fikir azadlığını inkar edən bolşevik kollektivizminə alternativ kimi görünən inkişafın yeni — "üçüncü yolu"nu elan etdilər. Bandunq konfransı (1955) bəyan etdi: nə liberalizm, nə də kommunizm! Ümumi məqsəd naminə milli birlik! Üçüncü dünya ölkələrinin insan hüquqlarına baxışları bizə Azərbaycanda "millilik", yaxud dünyada "Asiya dəyərləri" adları altında məlumdur:

1. "İnsan hüquqları ancaq Qərb mədəniyyətinin məhsuludur" — "Asiya dəyərləri" tərəfdarları belə hesab edirlər — və o, bizə, başqa mədəni, ictimai və siyasi şəraitdə boya-başa çatmış adamlara uyğun gəlmir. Ona görə də insan hüquqlarını bərqərar edərkən həmişə milli xüsusiyyətləri nəzərə almaq lazımdır.

2. "İcma insan üzərində üstünlüyə malik olmalıdır" — "Asiya" və Qərb mədəni dəyərləri arasındakı başlıca fərq bundadır. İnsan hüququna dair Qərb konsepsiyası cəmiyyətdə eqoizm, əxlaqsızlıq və zorakılıq meyllərini yayaraq, ənənəvi asiyalı cəmiyyətini və ailəsini dağıdır.

3. Sosial və iqtisadi hüquqlar (işləmək, sosial təminat hüququ və s.) vətəndaşların şəxsi və siyasi hüquqlarından yuxarıda durmalıdır. "Asiya mədəniyyəti" "iqtisadi inkişaf hüququ"nu şəxsi hüquqlardan üstün tutur. Azərbaycanda bu cür çağırışlar bizə çox yaxşı tanışdır: "əvvəlcə insanın qarnını doyur, ondan sonra ona azadlıq verərsən"; "qoy dövlət quraq, sonra demokratiyadan danışarıq...".

4. İnsan hüquqları ölkənin daxili işidir, hər bir xalq insana hansı hüquqlar verəcəyini özü həll etməlidir, heç bir xarici qüvvə insan hüququ məsələsində ölkənin işinə müdaxilə edə bilməz.

Ola bilsin ki, insan hüququnun "millilik", yaxud "Asiya dəyərləri" ilə müqayisəsinə ilk dəfə rast gələn hansısa oxucumuz çətinlik qarşısında qalsın. Doğrudan da, insan hüquqları ideyasının qəbul olunmasında "milli mədəniyyətin" xüsusiyyətlərinin nəzərə alınması ilk baxışda ədalətli görünür. Lakin məsələnin əsl mahiyyətini anlamaq üçün başqa xalqların tarixi təcrübəsini yada salmaq kifayət edir: insan hüquqlarına məhəl qoyulmaması

qanlı diktaturaya gətirib çıxarmış və bu diktaturaya qarşı mübarizə minlərlə insanın həyatı bahasına başa gəlmişdir. Məsələnin bu cəhətinə diqqət edək ki, “Asiya dəyərləri” konsepsiyasının müddəaları öz mahiyyətinə görə sosialist və milli-sosialist ölkələrində qəbul edilmiş müddəalarla tam üst-üstə düşür. Bunun SSRİ-də nələrə gətirib çıxardığını biz öz gözümüzlə görmüşük.

Azərbaycan ailəsini və cəmiyyətini daha çox nə dağıda bilər: insan hüquqları, yoxsa insan hüquqlarının pozulması? Əgər adət-ənənə qadını kişinin təhqirləri qarşısında başını aşağı salıb susmağa məcbur edirsə, onda həmin adət-ənənə kişini də dövlət məmurunun təhqirləri qarşısında başını aşağı salıb susmağa məcbur edəcəkdir. Ailədə avtoritarizm dövlətdə avtoritarizmin başlıca səbəbidir.

Demokratiya Asiya cəmiyyətlərinə uyğun gəlirmi? Asiya mədəniyyətinə mənsub olan Türkiyə, Yaponiya, Koreya, Tayvan kimi ölkələrin demokratik təcrübədəki uğurları bu suallara cavab verməyə kömək edər, bu ölkələrin nümunəsi bizdə ümid yaratmalıdır. İnsan hüquqlarının pozulduğu, zülmün və dilənçiliyin baş alıb getdiyi cəmiyyətlərin nümunəsi isə hələ 200 il bundan əvvəl inqilabçı Fransada “...insan hüquqlarına məhdudiyyət qoyulması cəmiyyətdə bədbəxtliyin, dövlətdə isə korrupsiyanın yeganə səbəbidir” fikri ilə təsdiqlənmiş aydın bir həqiqəti qəbul etməyə kömək etməlidir.

20-ci illərdə dünyada insan hüquq və azadlığına hörmət edən 12 ölkə qeydə alınmışdı; 60-cı illərdə bu ölkələrin sayı 36-ya çatdı; 90-cı illərdə isə artıq müxtəlif qitələri əhatə edən 60 ölkə insan hüquqlarını beynəlxalq müdafiə təşkilatları tərəfindən azad və demokratik ölkə hesab edilirdi.

İnsan hüquqları universal səciyyə daşıyır, başqa sözlə desək, onlar dövlətlə münasibətdə istənilən mədəniyyət tipinə mənsub olan insana məxsusdur! Bizdə adamların öz hüquqlarından şüurlu şəkildə istifadə edəcəklərinə şübhəniz varsa, onda gəlin BMT-nin, Azərbaycanın da imzaladığı Ümumdünya İnsan Hüquqları Bəyannaməsinə nəzər salaq (kitabın sonundakı “Sənədlər” bölməsinə bax). Bəyannamədə sadalanan hüquqlara diqqət yetirin, indi onların hansından imtina edərsiniz?.. Elə bilirəm ki, heç birindən...

## HƏM AZADLIQ, HƏM DƏ RİFAH

20-ci əsr həm də bir sıra ziddiyyətləri, o cümlədən şəxsiyyətin azadlığı ilə ümumi rifahı yüksəltmək səyləri arasındakı, dövləti insan azadlığı üçün təhlükə hesab edən və ona məhdudiyyət qoymağı vacib sayan klassik liberalizmlə dövləti hamının firavanlığı naminə planlaşdırma aparmaq, fəal şəkildə cəmiyyətin işinə qarışmaq və iqtisadiyyatı idarə etmək institutu kimi qiymətləndirən sosializm baxışları arasındakı qarşıdurmanı azaltmış oldu.

Avropa qitəsində və Rusiya imperiyasında sosial və iqtisadi hüquq ideyaları 19-cu əsrin sonunda, kütləvi fəhlə hərəkatları dövründə geniş yayılmağa başladı və artıq Birinci dünya müharibəsi başlanan zaman siyasi və sosial hüquqların qovuşması (sosial-demokratiya) burada ən populyar bir ideyaya çevrildi. Müsavat Partiyasının 1917-ci ildə qəbul olunmuş proqramında söz, mətbuat, vicdan azadlığı, yığıncaq keçirmək, yer dəyişmək azadlığı, qanun qarşısında bütün vətəndaşların bərabərliyi, eləcə də 8 saatlıq iş günü, həmkarlar təşkilatının sərbəst şəkildə fəaliyyət göstərməsi, torpağın kəndliyə verilməsi, pulsuz və icbari təhsil Azərbaycanın inkişafının vacib şərtləri kimi göstərildi.

Siyasi azadlıq və dövlətin siyasi hakimiyyətinin məhdudlaşdırılması ənənələrinin dərin kök atdığı ölkələrdə isə həmin ideyaların qovuşması asan olmadı, çünki bu ölkələrdə iqtisadiyyata müdaxilə edən dövlətə cəmiyyətdə düşmən münasibət var idi. Klassik liberalizmin nümayəndələri insanın dövlət tərəfindən dolandırılması və işlə təmin olunması ideyası ilə heç cür razılaşa bilmirdilər. Lakin 30-cu illərdən etibarən özünü kəskin şəkildə göstərən iqtisadi böhranlar, kütləvi həmkarlar hərəkatı, heç də bunlardan az həlledici olmayan bir tarixi fakt - SSRİ-nin mövcudluğu (bu dövlətdə hər bir adamın minimum yaşayış tərzinə təminat var idi) inkişaf etmiş kapitalist ölkələrində sosial təminatın və dövlətin iqtisadiyyata müdaxiləsinin xeyli artmasına gətirib çıxardı.

ABŞ prezidenti F.D.Ruzvelt özünün “Dörd cür azadlıq”dan bəhs edən məşhur çıxışında (1941) Amerika ənənələrinə zidd olan belə bir fikir söylədi: “Ehtiyac içində olan adam azad ola bilməz”. F.D.Ruzveltin burada bəşəriyyətin inkişafı naminə irəli sürdüyü “ehtiyacdan xilasolma azadlığı” təhlükəsizlik və demokratiya üçün “fikir azadlığı”, “vicdan azadlığı” və “qorxudan xilasolma azadlığı” qədər əhəmiyyətli idi. Beləliklə, demokratik ölkələrin parlamentləri “tam məşğulluq” ideyasından həmişə yan keçsələr də, insan hüququna baxışlar get-gedə genişlənməyə başladı.

Siyasi və iqtisadi azadlıq olmadan ümumi bərabərlik cəmiyyəti qurmaq təcrübəsi 80-ci illərin axırlarında SSRİ-nin süqutu ilə iflasa uğradıqda, Avropa və Amerikanın demokratik dövlətləri Lokkun liberalizmini və Russonun "yaxşı dövlət" ideyasını qəbul edərək hərtərəfli inkişafa nail oldular. İnsanın söz və yığıncaq azadlığına sosial müdafiə hüququ da əlavə olundu. İnsan hüquqları, bazar iqtisadiyyatı və inkişaf etmiş sosial təminat (bunsuz insan hüquqlarından istifadə etmək mümkün deyil) müasir demokratiyanın başlıca məzmununa çevrildi.

## İNSAN HÜQUQLARI VƏ BEYNƏLXALQ HÜQUQ

20-ci əsrin sonu insan hüquqlarının dünyada tam qələbəsi ilə məşhurlaşdı. 80-ci illərdə sovet sosialist sistemi dağılandan sonra milli maraq və ümumi rifah naminə insan hüquqlarını qurban verən qüdrətli dövlət ideyası dəbdən düşdü. İndi dünyada açıq şəkildə insan hüquqlarının əleyhinə çox az adam çıxış edir. Dünyanın bir çox ölkələrində insan hüquqları faktik olaraq pozulmaqda davam etsə də, dünya ictimaiyyəti insan hüquqları ideyasını mədəniyyət fərqlərindən asılı olmayaraq, hər bir cəmiyyətin can atacağı bir məqsəd kimi qəbul edir.

İnsan hüquqlarının "ilahi qanun"dan "insani qanun"a çevrilməsi insan hüquqları haqqında beynəlxalq qanunun inkişafı ilə müşayiət olunmuşdur. Orta əsr hökmdarlarının qonşu dövlətin öz təbəələrinə qeyri-insani münasibətini həmin dövlətlə hərbi toqquşmanın başlıca səbəbi elan etməsinə dair tarixdən çoxlu misallar çəkmək olar. 19-cu əsrdə də dini və ya etnik azlığı kütləvi qırğından qurtarmaq üçün fövqəldövlətin qonşu dövlətə qarşı zor işlətməsi hallarına da misal gətirmək çətin deyil. Birinci dünya müharibəsinin başa çatması ilə insan hüquqlarına beynəlxalq təminat vermək ideyası müasir şəklə düşməyə başlamışdır. Millətlər Liqası haqqında sazişdə qalib dövlətlər tutduqları ərazilərdə əhali ilə qeyri-insani davranmağın və azlıqların hüquqlarını pozmağın yolverilməzliyi ilə əlaqədar öhdəlik götürmüşlər. Lakin bütün bunlar o zaman geniş yayılmış "insan hüquqları hər bir ölkənin daxili işidir və ona qarışmağa başqa bir dövlətin ixtiyarı yoxdur" fikrinə uyğun gəlməyən istisna hallar idi.

İnsan hüquqlarının beynəlxalq təminatı ilə bağlı müasir hərəkat məhz İkinci dünya müharibəsi dövründə başlanmışdır. Böyük Britaniya və ABŞ-ın müharibəyə qoşulmasının səbəbi, özlərinin bəyan etdiklərinə görə, heç də Birinci dünya müharibəsindəki kimi "demokratiyanın inkişafı naminə sülhü bərqərar etmək cəhdi" ilə yox, insan hüquqlarının (Ruzveltin göstərdiyi *dörd cür azadlığın*) hər bir ölkədə hər bir insan üçün bərqərar olması ilə əlaqədar idi. Faşizmə qarşı mübarizədə irəli sürülmüş bu şüar müharibədən sonrakı dövrdə də beynəlxalq sabitliyin planlaşdırılmasının əsasını təşkil etdi.

Müharibədən sonra müttəfiqlər insan hüquqları prinsipini sülh sazişlərinə daxil etdilər və həmin prinsip hərbi canilərə qarşı başlıca ittiham maddəsinə çevrildi. Müharibədən sonra müttəfiqlər insan hüquqlarına təminatı məğlubiyyətə uğramış Almaniya, Avstriya və Yaponiya konstitusiyalarına daxil etdilər. Lakin dünyada hər kəsin ayrılmaz hüquqları ilk dəfə BMT-nin yaradılmasını bəyan edən sənəddə — Birləşmiş Millətlər Xartiyasında (1945) öz əksini tapdı.

BMT Xartiyası Millətlər Liqası haqqında sazişdə ifadə olunan "döyüş bölgələrində azlıqların taleyi ilə bağlı narahatlığı" yer üzündə yaşayan hər bir insanın taleyi üçün narahatlıqla əvəz etdi. "İnsan hüquqlarına və irqindən, cinsindən, dilindən və dini mənsubiyyətindən asılı olmayaraq, istisnasız şəkildə hamıya aid olan ən mühüm azadlıqlara hörmət edilməsini dəstəkləmək və mükafatlandırmaq" sahəsində beynəlxalq əməkdaşlıq BMT-nin məqsədi elan edildi (maddə 1,55). Xartiyada BMT-nin Baş Assambleyası və İqtisadi və Sosial İnkişaf Şurası qarşısında mütəmadi olaraq dünya ölkələrində insan hüquqlarının vəziyyətini öyrənmək və bu sahədə tövsiyələr hazırlamaq vəzifəsi qoyuldu. BMT Xartiyası "İnsan hüquqları təkcə ölkənin daxili işi deyil, həm də beynəlxalq narahatlığın predmetidir" prinsipini irəli sürməklə əvvəllər insanı beynəlxalq "siyasətin subyekti" saymayan beynəlxalq hüquqda əsaslı dəyişiklik etdi. Xartiya insanı beynəlxalq hüququn tərkib hissəsi kimi götürdü və ona yaşadığı ölkənin istəyib-istəməməsindən asılı olmayaraq, beynəlxalq hüquqda hüquq verdi.

Məsələyə belə yanaşmağın mənəvi cəhətindən başqa strateji əhəmiyyəti də var. Axı ölkə daxilində öz vətəndaşları ilə pis rəftar etsə, onda bu ölkə başqa ölkələrin vətəndaşlarının hüququna hörmətlə yanaşmayacaq və bununla da həmin ölkənin sülhsevər siyasət yürüdəcəyinə heç bir təminat olmayacaqdır.

BMT-yə daxil olan ölkələr 10 dekabr 1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsini qəbul etdi (o vaxtdan 10 dekabr dünyada insan hüquqları günü kimi qeyd olunur). İnsan hüquqlarını dövlət mənafeyindən üstün tutan bu bəyannamə dünya dövlətlərini insan hüquqlarına görə cavabdehlik daşımağa çağırdı. Bəyannamə vətəndaş və siyasi hüquqlarla bərabər, o vaxtlar demokratik ictimaiyyət tərəfindən qəbul edilmiş sosial və iqtisadi hüquqları da əhatə etmişdir. Həmçinin orada ədalətli məhkəmə təhqiqatı hüququ, dövlət təqiblərindən

gizlənmək, ölkəni tərk etmək, ölkəyə qayıtmaq, ailə qurmaq hüquqları, vicdan, söz, yığıncaq və şəxsi həyat azadlıqları; bərabər zəhmətə görə bərabər ödəniş hüququ, layiqli yaşayış səviyyəsi hüququ, cəmiyyətin mədəni həyatında iştirak etmək hüququ öz əksini tapmışdır.

Bəyannamə bütün ölkələrin əməl edəcəyi beynəlxalq qanun kimi yox, BMT-yə daxil olan dövlətlərin can atacağı bir standart kimi qəbul edilmişdir. Ona görə BMT-yə daxil olan ölkələrin növbəti addımı bəyannamənin müddəalarının beynəlxalq sazişin müddəalarına çevrilməsindən ibarət olmuşdur. Sazişdə insan hüquqlarını qorumaq artıq çağırış kimi yox, ölkələrin yerinə yetirməli olduqları bir öhdəlik kimi irəli sürülmüşdür. Bu, çox da asan olmayan bir məsələ idi: axı bəyannamənin çağırışları belə SSRİ və sosialist blokuna daxil olan digər ölkələr, eləcə də Cənubi Afrika və Səudiyyə Ərəbistanı tərəfindən müdafiə olunmamışdı.

Beynəlxalq sazişlərin qəbul olunması sahəsindəki təşəbbüslər ancaq 18 il sonra "Mülki və siyasi hüquqlar haqqında Pakt"ın və "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ın imzalanması ilə nəticələndi. Əvvəlcə yalnız 35 ölkə tərəfindən imzalanmış "Mülki və siyasi hüquqlar haqqında Pakt" dövlətlərin öz vətəndaşlarının hüquqlarını pozmaq imkanlarını xeyli dərəcədə məhdudlaşdırdı. Bu paktları imzalayan ölkələrin sayı bu gün artıq 100-ü keçmişdir.

"Mülki və siyasi hüquqlar haqqında Pakt"da millətlərin öz müqəddəratını təyinetmə hüququ da qeyd olunmuşdur, amma əslində həmin hüquq fərdin yox, kollektivin, insan qruplarının hüququ olduğundan insan hüquqlarına daxil deyil. Bu maddə bəyannaməyə siyasi motivlərə görə, əsarətdə olan xalqların müstəqillik uğrunda mübarizəsini dəstəkləmək məqsədilə salınmışdır.

"İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ı qəbul edərək BMT göstərmişdir ki, bu hüquqlar da siyasi hüquqlar kimi insanın ləyaqətli yaşayışı üçün zəruridir və heç bir ölkə sosial, iqtisadi və mədəni özünəməxsusluqları əldə əsas tutub vətəndaşların siyasi hüquqlarını poza bilməz.

Sənədləri imzalayan ölkələr özlərinin milli qanunvericiliyini bu paktların maddələrinə uyğunlaşdırmalıdır. Ölkələr həmçinin BMT-nin İnsan Hüquqları Komitəsini yaratmaq barədə razılığa gəlmişlər. Bu komitə dünya tarixində ilk orqandır ki, orada paktları imzalayan ölkələr vaxtaşırı olaraq, öz dövlətlərində insan hüquqlarının vəziyyəti barədə hesabat verməlidirlər və bunun əsasında komitə hüquq pozuntuları ilə bağlı öz narahatlığını bildirmək və həmin pozuntuların aradan qaldırılması barədə ölkələrə tövsiyələr hazırlamaq imkanı qazanmalıdır.

Bu paktları Azərbaycan da imzalamışdır. Amma, məsələn, Böyük Britaniya özünün insan hüquqlarına kifayət qədər təminat verən milli ənənələrə malik olduğunu nəzərdə tutaraq, həmin paktları imzalamamışdır. Dövlətin öz vətəndaşlarını dolandırmağa borclu olması ideyası ilə razılaşmayan ABŞ da sosial və iqtisadi hüquqlar haqqında paktı imzalamayan dövlətlər sırasındadır. Görünür, Azərbaycandan fərqli olaraq Böyük Britaniya və ABŞ belə hesab edir ki, sazişə imza atırsansa, onun şərtlərini yerinə yetirməlisən, yox, əgər yerinə yetirməyəcəksənsə, onda ona imza atmağın nə mənası? Əlbəttə, bu bizim üçün qəribə məntiqdir...

Yarandığı vaxtdan bu yana BMT insan hüquqlarının müdafiəsi ilə, o cümlədən irqi, cinsi və dini ayrı-seçkiliyin ləğv edilməsi; əmək hüququ; təhsil hüququ; uşaq hüququnun, yığıncaq keçirmək və informasiya yaymaq azadlığının qorunması və s. ilə əlaqədar onlarca pakt və saziş qəbul edib. BMT həmçinin bu gün Azərbaycan üçün çox aktual olan "Hüquq-mühafizə orqanları qulluqçuları üçün BMT-nin davranış kodeksi"ni qəbul edib. Qeyd edək ki, insan hüquqları haqqında beynəlxalq sazişlər insan hüquqlarını qorumağın demokratik inkişaf səviyyəsinə görə fərqlənən müxtəlif ölkələr tərəfindən qəbul olunmuş minimum həddini müəyyənləşdirir. Çoxluq tərəfindən qəbul edilən bu minimum hədd azadlıq yoluna yenicə qədəm qoyan ölkələrin daxili qanunvericiliyini daha da genişləndirir.

1975-ci ildə Avropa və Şimali Amerika ölkələri Helsinkidə Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Akt imzalamışlar. Bu sənəddə göstərilmişdir ki, sərhədlərin dəyişməsi uğrunda hərəkat yox, dövlətlərin insan hüquqlarına şərait yaratması Avropaya sülh və səadət gətirir; insan azadlığına hörmətlə yanaşılması sülh və əməkdaşlıq siyasətinin əsasını təşkil edir və azadlığa imkan verməyən dövlətə qarşı beynəlxalq aləmdə inamsızlıq olacaqdır. Ölkələrin Vyana görüşündə (1986) belə bir müddəa da qəbul olunmuşdur ki, başqa dövlət, təşkilat və şəxslərin ölkədə insan hüquqlarının vəziyyəti ilə əlaqədar narahatlığını bildirməsi ölkənin daxili işinə qarışmaq hesab edilmir. İnsan hüquqları beynəlxalq narahatlığın mövzusudur.

## İNSAN HÜQUQLARINA BEYNƏLXALQ NƏZARƏT MEXANİZMLƏRİ

*BMT-də*

Bəs necə etmək lazımdır ki, beynəlxalq qanun icra olunsun? Axı yer üzündə beynəlxalq sazişlərin yerinə yetirilməsini izləyən hansısa bir ümumdünya hökuməti yoxdur? Axı heç kim yuxarıdan hər hansı bir dövləti insan qarşısındakı borcunu yerinə yetirməyə məcbur edə bilməz. Burada yuxarıdan aşağı nəzarət mexanizmi mümkün deyil, ona görə də beynəlxalq hüquq mütəxəssisləri "üfüqi" nəzarət mexanizmini işləyib hazırlamağa başladılar. Bu mexanizmə əsasən, ölkələr qarşılıqlı təzyiq üsulundan istifadə edib, bir-birlərini sazişlərdən irəli gələn öhdəlikləri yerinə yetirməyə məcbur edə, böyük fikir ayrılıqlarına son qoymaq üçün razılığa gəlib bir-birlərində insan hüquqlarının vəziyyətini izləyə bilərlər. İnsan hüquqlarını pozan dövlət dünya ictimaiyyəti tərəfindən ittiham oluna, "utandırıla" bilər, hüquq pozuntuları kütləvi xarakter alsa, BMT-nin razılığı ilə o dövlətə qarşı iqtisadi, siyasi, hətta hərbi sanksiyalar tətbiq edilə bilər.

"Mülki və siyasi hüquqlar haqqında Pakt"ı imzalayan ölkələr BMT-nin İnsan Hüquqları Komitəsi qarşısında vaxtaşırı hesabat verməlidir. Komitə dövlət hesabatlarını qəbul edərkən insan hüquqları ilə məşğul olan beynəlxalq və yerli qeyri-dövlət təşkilatlarından daxil olmuş alternativ hesabatları da nəzərə alır. Hesabat zamanı ölkədə vətəndaş hüquqlarının kobud şəkildə pozulması faktları üzə çıxarsa, həmin ölkənin adından hesabat verən xarici işlər nazirinin necə pərt olacağını təsəvvür etmək çətin deyil. Hesabatlar dinlənildikdən sonra komitə ölkəyə tövsiyələr hazırlayır və kütləvi informasiya vasitələri ilə genişşəkildə yayılan həmin tövsiyələr ölkənin nüfuzuna zərbə vurur. SSRİ-də, Cənubi Afrikada və Çilidə insan hüquqlarının pozulması BMT-də gedən müzakirələrin daimi mövzusu olmuşdur.

İnsan hüquqlarının ölkədə kütləvi surətdə pozulması məsələsini komitədə başqa bir dövlət də qaldıra bilər. Məsələn, Skandinaviya ölkələri Azərbaycandakı hüquq pozuntuları barədə BMT-yə müraciət edə bilər.

BMT-də vətəndaşların öz hökumətlərindən fərdi şikayətinin də mexanizmi işlənib hazırlanmışdır: "Mülki və siyasi hüquqlar haqqında Pakt"a "Qeyri-məcburi protokol" da əlavə olunmuşdur, əgər ölkə onu imzalayıbsa, onda BMT komitəsində öz vətəndaşının tələblərini dinləməyə hazır olmalıdır (Azərbaycan BMT-nin insan hüquqları ilə əlaqədar 50-dən yuxarı pakt və sazişini imzalasa da, "Qeyri-məcburi protokol"a hələ də imza atmamışdır).

Təəssüf ki, BMT-nin İnsan Hüquqları Komitəsi yalnız dövləti "utandıra" bilir. İnsan hüquqlarını pozan (bəli, ancaq kütləvi surətdə pozan) dövlətə qarşı sanksiyaları BMT-nin Təhlükəsizlik Şurası qəbul edir.

*Avropa Şurasında*

Avropa qitəsindəki demokratik ölkələr arasında əməkdaşlığı möhkəmləndirmək məqsədilə 1949-cu ildə yaradılmış Avropa Şurası insan hüquqlarına beynəlxalq nəzarət işini daha güclü şəkildə həyata keçirir. 1953-cü ildə Avropa Şurasında "İnsan hüquqları üzrə Avropa Konvensiyası" və ona aid protokollar qüvvəyə minmişdir. Bu sənədlərdə "eyni siyasi baxışları müdafiə edən, siyasi ənənələr və ideallar baxımından, azadlığa və qanunun aliliyinə ehtiram nöqteyi-nəzərindən ümumi irsə malik olan Avropa ölkələri" qarşısında öhdəlik qoyulmuşdur ki, bu ölkələr BMT-nin "Mülki və siyasi hüquqlar haqqında Pakt"ının əksər müddəalarını, "İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakt"ının isə təhsil hüququ ilə bağlı müddəasını kollektiv şəkildə müdafiə etsinlər.

Konvensiyada dövlət, ictimai təşkilat və ayrı-ayrı vətəndaşlar tərəfindən daxil olmuşşikayətlərə baxmağın mexanizmi göstərilmişdir. Sazişə əsasən, bu təşkilatın üzvü olan ölkələr öz suverenliyinin müəyyən bir qismini Avropa Şurasına verir və Avropa məhkəmə sisteminin qərarlarını yerinə yetirmək barədə razılığa gəlirlər.

Vətəndaşın öz dövlətindən şikayətinə Avropa insan hüquqlarını müdafiə sistemində yalnız o vaxt baxılır ki, həmin adamın şikayəti öz ölkəsində bütün hüquqi pillələrdən keçmiş olsun. Onun şikayətinə İnsan Hüquqları Komissiyasında, Avropa Şurası üzvlərinin Nazirlər Komitəsində və Avropa Məhkəməsində baxıla bilər. Bu məhkəmə artıq ayrı-ayrı vətəndaşların bir çox şikayətlərinə, o cümlədən hakimiyyətin amansız rəftarı, qeyri-qanuni həbs olunma, mətbuat azadlığının və təhsil hüququnun pozulması və s. ilə bağlışikayətlərə baxmışdır. Əgər dövlət günahkar hesab olunmuşsa, onda o, məhkəmənin qərarına tabe olaraq vurulan zərəri ödəmiş, öz qanunvericiliyində, yaxud praktik fəaliyyətində dəyişiklik etmişdir.

*Beynəlxalq ədalət məhkəməsi?*

Yuxarıda qeyd edildiyi kimi, BMT-nin hüquq müdafiə sistemi hələlik dövləti "utandırmaqla" kifayətlənir, amma insan hüquqlarını qorumağın vacibliyi dünyada daha geniş miqyasda başa düşüldükcə BMT-nin demokratik qüvvələri özünün hüququ müdafiə sistemini addımbaaddım təkmilləşdirməyə nail olur. Avtoritar rejimlərin müqavimətinə baxmayaraq BMT 1994-cü ildə, özünün yerlərdəki nümayəndələri vasitəsilə BMT ölkələrində hüquq pozuntularına nəzarət edə bilən bir qurum — İnsan Hüquqları üzrə Ali Komissarlıq yaratdı.

Bu gün dünya ictimaiyyəti Beynəlxalq Ədalət Məhkəməsi yaratmaq ideyasını qızğın müzakirə edir. Söhbət elə bir məhkəmədən gedir ki, o, təkcə dövləti "utandırmaqla" kifayətlənməsin, həm də insan hüquqlarını pozan hökumətə qarşı müəyyən ölçü götürə bilsin. Əgər BMT üzvləri bu layihəyə razılıq versələr, onda 1998-ci ildə Beynəlxalq Ədalət Məhkəməsi ayrı-ayrı ölkələrdə insan hüquqlarının kütləvi surətdə pozulması hallarına baxmağa başlayacaq və Bosniyada olduğu kimi, hökumət məmurlarını mühakimə edib cəzalandıra biləcəkdir. Vaxt gələcək, bu beynəlxalq təşkilat insan hüquqlarının, məsələn, bu gün Azərbaycandakı səviyyədə pozulduğu dövlətləri də mühakimə etmək imkanı qazanacaqdır.

## ABŞ-IN XARİCİ SİYASƏTİNDƏ İNSAN HÜQUQLARI MƏSƏLƏSİ

Demokratiya və insan hüquqlarının dünyada geniş yayılmasında ən böyük xidmət, heç şübhəsiz, ABŞ-a məxsusdur. Dünyada insan hüquqlarının qorunması ABŞ-ın xarici siyasətinin rəsmən bəyan edilmiş mühüm xətlərindən biridir. Konqresin qəbul etdiyi qanunlar prezident qarşısında özünün xarici siyasətində insan hüquqlarının pozulması problemini xüsusi nəzərə almaq vəzifəsini qoyur. Ancaq ABŞ-ın xarici siyasətində bu məsələ ilə əlaqədar tez-tez güzəştlərə və ziddiyyətlərə də yol verildiyinin şahidi oluruq. Keçid dövründə olan ölkələrdə, o cümlədən Azərbaycanda fəaliyyət göstərən demokratlar bir çox hallarda strateji və iqtisadi maraqları naminə vətəndaş hüquqlarının pozulması hallarına göz yummağa hazır olan ABŞ hökumətinə öz təəssüflərini bildirirlər.

Bu cür qeyri-ardıcıllığın səbəbi, əlbəttə, Amerikanın "ikiüzlülüyündə" yox, əksinə, özlərinin "realist" hökumətlərindən həm ölkə daxilində, həm də xaricdə insan hüquqları məsələsini unutmamağı təkidlə tələb edən Amerika vətəndaşlarının demokratik və humanist şüur sahibi olmalarında axtarılmalıdır. Qeyd edək ki, dünyada ABŞ-dan başqa heç bir dövlətin xarici siyasətdə insan hüquqlarının nəzərə alınmasını tələb edən qanunları yoxdur.

* * *

Artıq 19-cu əsrdə ABŞ prezidenti və Konqresi bir çox ölkələrin yürütdüyü qeyri-insani siyasətlə bağlı olaraq öz narahatlığını bildirməyə başlamışdı, amma bu, hələ ki, hər hansı dramatik hadisəyə, ictimaiyyətin o cür hadisələrdən doğan hiddət və qəzəbinə cavab olaraq ifadə edilən bir narahatlıq idi. Bu vəziyyət 1941-ci iləcən, yəni F.D.Ruzvelt insan hüquqlarının bərqərar olmasınıİkinci dünya müharibəsində iştirak etməkdə ABŞ-ın başlıca məqsədi kimi bəyan edənəcən çəkdi. Müharibədən sonrakı dünyada sabitlik işlərini planlaşdırarkən müttəfiqlər insan hüquqlarının qorunmasını əsas prinsip kimi götürdülər. ABŞ-ın səyləri nəticəsində insan hüquqları Nürnberq prosesində faşizmi ittihamın əsas maddəsinə çevrildi və BMT-nin Xartiyasına daxil edildi.

ABŞ-ın digər ölkələrdə insan hüquqları məsələsinə münasibətindəki ziddiyyətlər artıq müharibədən sonrakı dövrdən özünü göstərməyə başladı. Problemə yanaşma tərzinə görə prezidentlə Dövlət Departamenti arasında, Dövlət Departamentinin öz daxilində, icraedici hakimiyyətlə qanunverici hakimiyyət arasında fikir ayrılıqları meydana çıxdı.

Siyasətə müharibədən sonrakı demokratiya dalğasında gələn "liberallar" — "idealistlər" hökumətdən təkidlə tələb etdilər ki, ölkədə və xaricdə insan hüquqları məsələsi ilə bağlı öz öhdəliklərini yerinə yetirsin. Beynəlxalq insan hüquqları uğrunda mübarizə hərəkatını təcrübəsiz, səbirsiz və zəhlətökən bir hərəkat sayan "realistlər", peşəkar məmurlar, karyera diplomatları — siyasi isteblişment liberallara qarşı çıxdılar. "Realistlər"ə görə, insan hüquqları hər hansı bir dövlətin daxili işi, onun inkişafı ilə bağlı bir məsələdir və bu məsələ ABŞ-ın milli mənafeyinə maneçilik törətməməlidir.

Amerikanın milli mənafeyini və ona xidmət etməyi "idealistlər" bir cür, "realistlər" isə başqa cür başa düşdülər, ABŞ siyasətinə təsiretmədə həlledici rol gah "idealistlər"in, gah da "realistlər"in payına düşdü. Müharibədən sonrakı illərdə BMT-nin yaranması və insan hüquqları məsələsinin geniş yayılmasından doğan həyəcanlar səngiyən kimi "realistlər" daha çox milli təhlükəsizlikdən, xaricdəki Amerika hərbi bazalarından və beynəlxalq

xarici ticarətdən danışaraq, yenidən üstünlük əldə etdilər. Amma dini icmalar tərəfindən, demokratik ictimaiyyət arasındakı, Konqresdəki, hətta Ağ evdəki "əxlaq"çılar tərəfindən müdafiə olunan "xarici siyasətdə insan hüquqları" hərəkatı zəifləmədi. "İdealistlər"in 18 illik ardıcıl səyləri nəticəsində BMT siyasi və sosial hüquqlar haqqında paktlar qəbul etdi. Prezident Kennedi bununla bağlı deyirdi: "Qoy bütün millətlər bilsin ki, ...azadlığın (dünyada – *H.H.*) yaşayıb uğurlar qazanmasını təmin etmək üçün biz istənilən qiyməti ödəməyə, ...hər hansı bir düşmənlə üz-üzə gəlməyə hazırıq...".

BMT-də və digər beynəlxalq təşkilatlarda insan hüquqlarının qorunması ilə bağlı bütün yeni proqramların başında ABŞ durur. ABŞ insan hüquqları məsələsinin Helsinki sazişlərinin gündəliklərinə salınmasının əsas təşəbbüskarına çevrilir. Bundan narahat olan "realistlər" çalışırlar ki, ABŞ-ın bu fəallığı ritorika çərçivəsindən kənara çıxmasın və ABŞ-ın "dost ölklər"lə (oxu: mürtəce, amma Amerikaya tərəfdar rejimlərlə) qarşılıqlı münasibətlərinə xələl gətirməsin (bu, kommunist bloku ilə qarşıdurma zamanı xüsusən hiss olunurdu). "Realistlər"in fikrincə, diktatordan diktatora fərq var, məsələn, filankəs "əlbəttə, köpəkoğludur, amma bizim köpəkoğludur".

70-ci illərdən etibarən xarici siyasətdə insan hüquqları məsələsinə ABŞ Konqresi də xüsusi diqqət yetirməyə başladı. Nümayəndələr Palatasında liberalların təsiri ilə Konqres bir neçə qərar qəbul etdi və orada insan hüquqları "ABŞ xarici siyasətinin prinsipial məqsədi" kimi götürüldü. Konqres azadlığı boğan ölkələrə hərbi köməyi, maliyyə və ərzaq yardımını qadağan etdi. Bundan əlavə, ABŞ-ın BVF və Beynəlxalq Bankdakı nümayəndələrinə insan hüquqlarının pozulmasında günahkar olan hökumətlərə kredit verilməsinə qarşı çıxmaq tövsiyə olunurdu. Konqres öz qərarı ilə Dövlət Departamentində insan hüquqları üzrə büro yaratdı və Dövlət Departamentinə tapşırdı ki, dünyanın ayrı-ayrı ölkələrindəki hüquq pozuntularına dair illik hesabat hazırlasın. Qeyd edək ki, Konqresin səyləri dünya ölkələrində demokratiyanın genişlənməsi uğrunda mübarizəyə yox, dövlətlər tərəfindən tanınan, amma onlar tərəfindən həmişə tapdanan hüquqların qorunması uğrunda mübarizəyə, başqa sözlə desək, "beynəlxalq səviyyədə qəbul olunmuş insan hüquqlarının kütləvi surətdə pozulmasının saysız-hesabsız təzahür formalarına" qarşı mübarizəyə doğru yönəlmişdir. Konqres aydın şəkildə müəyyənləşdirmişdir ki, "hüquq pozuntuları" dedikdə "fiziki işgəncələr, kobud, qeyri-insani və təhqiramiz rəftar, yaxud cəza; ittihamnamə olmadan uzun müddət həbsdə saxlama, qeyri-qanuni tutub saxlama nəticəsində insanın yoxa çıxması, yaxud insanın yaşamaq hüququnun və şəxsi təhlükəsizliyinin cinayətkarcasına pozulması ilə bağlı digər hallar" nəzərdə tutulur. Bunu da qeyd edək ki, Konqresin bu qərarları onsuz da Amerika yardımı almamış kommunist bloku ölkələrinə qarşı yox, Üçüncü dünya ölkələrinə qarşı yönəlmişdir. Beləliklə, Konqres və 1977-ci ildən prezidentlik kürsüsündə əyləşən Cimmi Karter insan hüquqları məsələsini "soyuq müharibə" çərçivəsindən çıxararaq, göstərdilər ki, ABŞ-ın narahatlığının başlıca səbəbi onun kommunist bloku ölkələri ilə strateji qarşıdurması yox, məhz insan hüquqlarıdır.

Konqres özünün xüsusi aktları ilə insan hüquqlarını pozan ayrı-ayrı ölkələrə, o cümlədən Çili, Argentina, Cənubi Afrika, Uqanda və başqalarına Amerika yardımını qadağan etdi. Daha sonra isə insan hüquqlarını pozan Mərkəzi Amerika ölkələri ilə bağlı aktlar qəbul olundu. 1986-cı ildə aparteidə qarşı qəbul olunmuş genişəhatəli akt Cənubi Afrikada irqçi rejimin dağılmasında mühüm rol oynadı.

Konqresin bu cür fəallığı onun Amerikada insan hüquqları probleminə çox həssas yanaşan seçicilərlə birbaşa əlaqə və yaxınlığından irəli gəlir. Amerika seçiciləri öz ölkələrinin siyasətçilərindən tələb edirlər ki, onlar dünyada insanlıq əleyhinə yönəlmiş cinayətlərin qarşısını alsınlar, bu mümkün olmadıqda, heç olmasa, mürtəce rejimlərlə hər cür əlaqəni kəssinlər (və Amerikanın hər hansı bir ölkədəki irticaya diqqətini cəlb etmək üçün Amerika siyasətçiləri ilə yanaşı, qeyri-dövlət təşkilatları, həmkarlar, kilsə şuraları, demokratik ruhlu ictimai xadimlər və elm adamlarına da müraciət etmək lazımdır).

Prezident Aparatındakı və Dövlət Departamentindəki "realistlər" öz növbələrində seçicilərin gündəlik təsirlərinə məruz qalmırlar. Onlar əməkdaşlıq etdikləri ölkə liderlərinin "qarşılaşdığı çətinlikləri çox yaxşı başa düşürlər". Onların fikrincə, "ölkədə demokratik perspektiv olmayan yerdə sabitliyi pozmağa dəyməz".

Konqresin qoyduğu qadağalar və atdığı müəyyən addımlar Ağ evdə və Dövlət Departamentində həyəcana səbəb olmuşdur. Bunu başa düşmək də olar, çünki Konqres dostluq əlaqələri yaratmaq üçün digər ölkələrə göndərilən ABŞ diplomatlarına göndərildikləri ölkələrdə hüquq pozuntuları barədə məlumatlar toplayıb çap etdirmək göstərişi vermişdir. Bu cür məlumatların çap olunması isə çox vaxt ABŞ hökumətinin xarici hərbi bazalar, ticarət, hətta ümumi əməkdaşlıq məsələləri ilə bağlı qalmaqallarla qarşılaşmasının başlıca səbəbinə çevrilirdi.

Konqres icraedici hakimiyyət qarşısında müəyyən güzəştlərə gedir. Məsələn, Konqres prezidentə imkan yaradır ki, o, "ABŞ-ın yardımı insanların ən zəruri ehtiyaclarını ödəməyə yönələndə", yaxud "yardım göstərmək fövqəladə vəziyyətdən irəli gələn bir zərurətə çevriləndə", yaxud da prezident "insan hüquqlarına münasibətin

əhəmiyyətli dərəcədə dəyişdiyini nəzərə alıb BirləşmişŞtatların mənafeyinə uyğun olaraq yardım barədə qadağanı götürməyi" vacib sayanda Konqres tərəfindən qoyulmuş məhdudiyyətə baxmayaraq qeyri-azad ölkələrə yardım etsin.

Konqresin qoyduğu qadağalara əməl olunması ABŞ prezidentinin insan hüquqlarına şəxsi münasibətindən də çox asılıdır. Məsələn, insan hüquqlarını öz siyasətinin əsas prinsiplərindən biri kimi bəyan edən prezident Karter bu məsələdə böyük ruh yüksəkliyi ilə Konqresi müdafiə etdi. Ondan sonra prezidentliyə gəlmiş Reyqanı isə daha çox Sovet təhlükəsi narahat edirdi. "Aparteidə qarşı mübarizə aktı" Konqresdə Reyqan administrasiyasının müqavimətinə baxmayaraq qəbul olundu və bu aktın yerinə yetirilməsində bir sıra çətinliklər qarşıya çıxdı...

* * *

ABŞ-ın Ərəbistan yarımadası, Afrika, Asiya və keçmiş SSRİ-dəki avtoritar rejimlərlə əlaqədar qayğıkeşliyinə nəzər salsaq, demək olar ki, ABŞ-ın xarici siyasətində insan hüquqları hələ ki, strateji və iqtisadi maraqlara güzəştə getməli olur. Başqa sözlə, ABŞ digər ölkələrdə insan hüquqlarını öz təhlükəsizliyinə və ticarət əlaqələrinə ziyan vurmamaq şərtilə müdafiə edir.

Buna baxmayaraq, ABŞ-ın insan hüquqlarının qorunması ilə əlaqədar yürütdüyü xarici siyasət ildən-ilə hissolunacaq dərəcədə güclənir. Amerikanı insan hüquqlarının müdafiəsinə sövq edən Amerika cəmiyyətindəki yüksək əxlaqi meyarlardır. Məhz bu meyarlar sayəsində ölkədə insan hüquqları uğrunda mübarizə davam edir və ölkə siyasətçilərindən təkidlə tələb olunur ki, bu sahədə görülən işlər barədə öz seçiciləri qarşısında hesabat versinlər. Məhz bu, Amerikanı beynəlxalq insan hüquqları müdafiə hərəkatının liderinə çevirir və bir daha aydın olur ki, Amerika və Amerika bürokratları heç də eyni anlayış deyil.

## SON SÖZ

İlk baxışda adi görünən insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası özünün yayılmasında və inkişafında böyük çətinliklərlə qarşılaşır və azadlıq yolunda cəmiyyət və dövlətlə toqquşmalardan çəkinməyən adamların şəxsi dramaları ilə müşayiət olunur. Kütləvi hərəkatlarla səciyyələnən və öz nailiyyətlərini vətəndaş müharibəsi sayəsində qazanan demokratiya (çoxluğun hakimiyyəti) uğrunda mübarizədən fərqli olaraq, insan hüquqları uğrunda mübarizə həmişə sülh yolu ilə, əksər hallarda isə ayrı-ayrı adamlar tərəfindən təkbaşına aparılır. Ədalətli məhkəmə olmadığı yerdə insan hüquqları mücahidləri dövləti "utandırmağa" və ictimai rəyi öz tərəflərinə yönəltməyə çalışırlar. Buna misal olaraq, Mahatma Qandi, Martin Lüter Kinq və Nelson Mandelanın, Aleksandr Soljenitsın və Dmitri Saxarovun, Vatslav Havel və Lex Valensanın, eləcə də dünyada o qədər də tanınmayan, təkbaşına mübarizə yolunu seçmiş minlərlə digər azadlıq mücahidinin əksər hallarda irticaçı rejim liderlərinin həbsxanalarında yazılmış açıq məktub və çıxışlarını xatırlaya bilərik. Yaxud başqa bir misal: 1955-ci ildə məktəb müəlliməsi amerikalı zənci Roza Parks bir avtobusda üzərində "Ancaq ağlar üçün" lövhəsi vurulmuş oturacaqda əyləşir və bu yeri ağdəriliyə verməkdən imtina edir. Avtobusda başlayan toqquşma qısa bir müddətdən sonra zənci əhalinin kütləvi etiraz aksiyasına çevrilir və bu, ABŞ-da irqi bərabərlik uğrunda kütləvi mübarizənin başlanğıcı olur. Roza Parks o vaxt nə məşhurlaşmaq, nə də beynəlxalq mükafatlar almaq barədə düşünürdü. Roza Parksı düşündürən bu idi ki, avtobusda onu təhqir edən və ölümlə hədələyən ağdərili sərnişinlər kimi, onun da toxunulmaz hüquqları və ləyaqəti var. Bəli, Ləyaqət, Azadlıq və Dözümlülük cəmiyyətdə hansısa abstrakt "tarixi proseslər" in yox, məhz Roza Parks kimi tək-tək adamların mübarizəsi hesabına qalib gəlir. Dünya qazandığı və bir nemət kimi istifadə etdiyi azadlığa görə məhz bu cür adamlara minnətdar olmalıdır.

İnsan hüquqları uğrunda mübarizə inkişaf etməkdə olan ölkələrlə yanaşı, inkişaf etmiş ölkələrin özündə də gedir. Konstitusiya təminatı almış hüquq və azadlıqların miqdarı günü-gündən artır. İndi 20-ci əsrin sonunda ləyaqətli yaşayış üçün vacib olan hüquqlar, o cümlədən öz imkanlarını reallaşdırmaq hüququ, insanın daxili aləminin özünəməxsusluğunu nəzərə almaq hüququ, insanın özünü inkişaf etdirmək hüququ, sülh, sağlam ətraf mühit və hər hansı fərdə aid qərarların qəbul olunmasında onun özünün iştirak etmək hüququ və s. hüquqlar dünya demokratik ictimaiyyəti tərəfindən geniş müzakirə olunur.

Görəsən, bu hüquq və azadlıqlardan nə vaxtsa biz də Azərbaycanda istifadə edə biləcəyikmi və görəsən, insan öz həyatında hüquq və azadlıqlarla ilk dəfə harada qarşılaşır? Amerikalı hakim-demokrat Learnid Hənd (*Learned Hand*) belə hesab edir ki, hüquq və azadlıqlarla insan ilk dəfə öz daxili aləmində qarşılaşır, çünki "kişi və ya qadın qəlbində azadlıq ruhu öldükdə ona nə Konstitusiya, nə qanun, nə də məhkəmə kömək edə bilir". BMT-nin İnsan Hüquqları Komissiyasının ilk sədri Eleonor Ruzvelt isə "Azadlıqla ilk dəfə harada qarşılaşırıq" sualına belə

cavab verir: "...Bizdən iki addım o yanda, balaca bir yerdə; elə yerdə ki, sən onu dünya xəritəsində axtarıb tapa bilməzsən... Bu balaca dünya insanın fərdi dünyasıdır. Bu balaca yer insanın yaşadığı mühitdir, bu mühitdə o, məktəbə, zavoda, ofisə yollanır; bu elə bir yerdir ki, orada hər bir kişi, hər bir qadın, yaxud hər bir uşaq qalmaqal olmadan hamıyla ədalətli rəftar edilməsini, hamıya eyni imkanlar verilməsini və heç kəsin ləyaqətinin tapdanmamasını istəyir. Əgər bu hüquqların burada mənası varsa, onda onların hər yerdə mənası olacaq. Bizdən iki addım o yanda insan hüquqları birgə vətəndaş səyləri sayəsində qorunmasa, onda biz bu hüquqların inkişaf etməsini böyük dünyada əbəs yerə axtarmış olacağıq".

08.01.1998

***

«ABŞ demokratiyası
haqqında əsas mətnlər».
Melvin Urovski
Tərcümə və redaktə
FAR CENTRE

# 38. «Mənimbirarzumvar» (1963)

## *MartinLüterKinq (kiçiyi)*

Qaraamerikalılarınintizarınabaxmayaraq, "Braun" məhkəmə işi ölkəniheçdəsilkələmədi. Beləki, nəştatlarınqanunvericilikyığıncaqları, nədəKonqresonlarıntərəfindədayanmaqhəvəsindəolmadı. Nəhayət, prezidentConF.Kennedibeləqəraragəldiki, yalnızvətəndaşhüquqlarıhaqdagüclüqanunafroamerikalılarınbərabərhüquqlarınımüdafiəedəbilər. 1963-cüilin 11 iyunundao, Konqressə «özümüzərəva bildiyimizmünasibətləribərqəraredən» qanunlayihəsinitəqdimetdi. CənubdanolannümayəndələrhəminqanununKonqresdəkikomitəmərhələsindədayandırmağıbacardılar vəbelədəvətəndaşhüquqlarıuğrundahərəkatınliderlərıməsələyəsiyasitəzyiqyollarını axtarmağa məcbur oldular.

Fəalhüquqmüdafiəçisikimiadçıxarmış, məşhurhəmkarlideriA.FilippRandolfictimaiyyətindiqqətinibuməsələyəyönəltməküçünVaşinqtonayürüştəklifiniirəlisürdü. BütünirqlərdənolaninsanlarınvətəndaşhüquqlarınamünasibətdəyekdilliyinisübutayetirməknaminəA.FilippRandolfhəminyürüşdəağların, qaralarınbirgəiştirakınıvacibsaydı. Doğrudanda, müxtəlif, əvvəllərbir-birinəşübhə ilə yanaşan hüquqmühafizədəstələrioyürüşəqoşulmağarazılıqverdilər. "Tünddəriliəhaliüzrəmilliinkişafassosiasiyası, "İrqibərabərlikkonqresi, "Cənubxristianliderlərikonfransı", "Zorakılığa qarşı tələbələrin koordinasiya komitəsi" və "Şəhərlər liqası" özaralarındakıziddiyyətlərikənaraqoyubbirgəişləməkəzmindəoldular. Bəzifəallarisəbirliknaminəhətta özradikal mövqeləriniyumşaltdılar;onlar, yürüşünvətəndaşhüquqlarıhaqdaakta təkanverəcəyinəümidbəsləyənKennediiqtidarıiləəməkdaşlıqdaqurdular.

1963-cüilavqustun 28-ibuludsuzbirgündəVaşinqtondakıLinkolnmemorialınınönünətoplaşan, özüdə 50 miniağlardanibarət 250 minlikizdiham «işvəazadlıq» tələbiniirəlisürdü. Çıxışedənlərinarasındademəkolarki, cəmiyyətinbütüntəbəqələrindənnümayəndələrvardı – həmkarlarınValterRuterkimilideri, ruhanilər, SidneyPuatyevəMarlonBrandokimiekranulduzları, müğənniCoanBaezvəbaşqaları. Hərnatiqə 15 dəqiqəvaxtayrılsada,

gününəslqəhrəmanı"Cənubxristianliderlərkonfransındanolantanınmışgəncöndəroldu. MartinLüterKinqayrı-seçkilikzəncirinəgiriftarolmuşcəmiyyətdəözazadlığınıqazanmaqümidiyləyaşayanafroamerikalılarınçəkdiyiiztirablarhaqqındaçoxmüxtəsər,adicəbirnitqhazırlamışdı. O, eləkürsüdəndüşməkistəyirdiki, müğənniMaxaliyaCeksonyerindənharayladı: «Martin, sənözarzundandanış! Açdeonlara!» NümayişçilərinçağırışındanruhlananKinqAmerikavətəndaşhüquqlarıtarixindəbir mərhələsayılannitqinisöylədi – hərcürəirqvərəngdənolanmüxtəliftaleliinsanlarınarzusundaolduğu, azadvədemokratikbirölkəyəçevriləsiAmerikadandanışdı.

Əlavəməlumat üçün oxu: Herbert Garfinkel, When Negroes March: The March on Washington… (1969); Taylor Branch, Parting the Waters: America in the King years? 1954-1963 (1988); Stephen B. Oates, Let the Trumpet Sound: The Life of Martin Luther King Ir. (1982)

# «MƏNİMBİRARZUMVAR!»

Millətimizin azadlığı uğrunda mübarizə tarixində azman bir hadisə kimi qalası bu nümayişdə sizinlə bir yerdə olduğuma görə xoşbəxtəm!

Yüz il bundan əvvəl, rəmzi olaraq abidəsinin kölgəsinə yığışdığımız böyük amerikalı Avraam Linkoln Azadlıq bəyannaməsini imzaladı. Bu əlamətdar sənəd haqsızlığın dözülməz əsarəti altında inləməkdə olan milyonlarla qul-zəncilərin qəlbində ümid işığı yandırdı. Bu, köləliyin uzun gecəsindən sonra sevincə açılan dan yerinə oxşayırdı.

Ancaq indi, üstündən yüz il keçəndən sonra müdhiş fakt qarşısında qalmışıq. Belə ki, zənci xalqı hələ də azadlıqdan məhrumdur.

Yüz il ötsə də zəncilərin həyatı yenə də ayrı-seçkilik və ögeylik buxovları ilə düyünlənib.

Yüz il keçsə də zəncilər yenə tərəqqi okeanının ortasındakı səfalət adasında ömür sürməkdədir. Zənci indi də amerikan cəmiyyətinin lap dibində çürüməkdə, öz ölkəsində qaçqın həyatı yaşamqdadır. Bizim bura bugünkü gəlişimizdə ondan ötrüdür ki, hamının diqqətini bu dəhşətli vəziyyətə cəlb eləyək.

Ölkəmizin paytaxtında toplaşmağımız, – bir növ bizə verilmiş çekin ödənişini tələb etməkdir. Yəni, dövlətimizin bünövrəsini quranlar Konstitusiyada və İstiqlal bəyannaməsindəki dəyərli sözlərə imza atmaqla, xalqa, hər bir amerikalının payına düşən ödənişli çek vermiş oldular. Bu, insanlara, bəli, ağlı qaralı bütün insanlara yaşamaq, azadlıq, xoşbəxtlik haqqına zəmanət verən bir öhdəçilik oldu.

Bu gün hamıya bəllidir ki, Amerika öhdəçiliyi pozur, hər halda dərisi tünd olan vətəndaşlara verdiyi sözün üstündə dayanmır. Həmin öhdəçiliyə sadiq qalmaq bir qırağa, zənci xalqına verdiyi çek də saxta çıxıb və «zəmanəti yoxdur» dərkənarı ilə ona qaytarılıb. Ancaq biz inanırıq ki, ölkəmizdə ədalət bankı tamamilə iflasa uğramayıb. İnanılmazdır ki, məmləkətimizin əlində olan böyük imkanlar xərclənib qurtarıb. Odur ki, bizə paylanmış çeklərin əsl haqqını, yəni öz azadlığımızı, salamatlıq və ədl payımızı almağa gəlmişik! Həm də bu müqəddəs yerə yığışmaqda bir məqsədimiz də odur ki, məsələnin təxirə salınmazlığını bir daha Amerikaya xatırladaq. Biz bundan beləsinə özümüzü qradualizm[8] həbləri ilə ovundura bilmərik. Vəd verilmiş demokratiyanı həyata keçirməyin vaxtı gəlib çatıb. Seqreqasiyanın qaranlıq dərəsindən irqi ədalətin günəşli yoluna çıxmağın zamanı yetişib.

Bu məsələnin həllini gecikdirmək, yaxud da zənci xalqının qətiyyətinə barmaqarası baxmaq çox xatalıdır. Azadlıq və bərabərliyin təzə nəfəsli payızı zəncilərin qanuni narazılıq yayını əvəzləyənə

---

[8] Qradualizm – (ing. sözündəndir, *gradual*–tədricən) ABŞhakimdairələritərəfindənzəncilərəmünasibətdəhəyatakeçirilənxırdaislahatvəgüzəştlərdir,– *H.H.*

qədər bu qızmar fəsil davam edəcəkdir. 1963-cü il son deyil, başlanğıcdır! Zəncilərin «köpünü alıb» guya ki, onları sakitləşdirmək, sonra da ölkəni əvvəlki məcrasına yönəltmək istəyənlər kökündən yanılır. Zəncilər əsl vətəndaşlıq haqqını qazanmayana qədər Amerika dinclik, rahatlıq nə olduğunu bilən deyil. Ədalətin günəşi doğmayana qədər həyəcan dalğaları məmləkətimizin özüllərini yırğalayıb yerindən oynadacaqdır.

Mən ədl dünyasının kənarına yavuqlaşan öz xalqıma da bir neçə kəlmə demək istərdim. Boynumuza düşən bu mücadilədə biz gərək hər hansı bir ağılsız hərəkət etməyək. Biz öz azadlıq təşnəmizi dərd və nifrət camından içməklə yatırmamalıyıq. Mübarizəmiz ən uca ləyaqət və intizam çərçivəsində aparılmalıdır. Ən ciddi etirazımız belə fiziki zorakılıq səviyyəsinə enməməlidir. Bizə qarşı güc tətbiq olunarsa, buna bir daha ruhumuzun əzəməti ilə cavab verməliyik. Zənci xalqını bürüyən görünməmiş sərt ovqat gərəkdi ki, bütün ağlara qarşı çevrilməsin, çünki bizim ağdərili qardaşlarımızdan çoxusu – hansı ki, onlar da bu gün bizimlə bir cərgədədir, – o gümandadırlar ki, onların da taleyi bizimkiynən bağlıdır, onların da azadlığı bizim azadlığımızın ayrılmaz bir hissəsidir. Biz təkbaşına addımlaya bilmərik. Madam ki, addımlayırıq, daima irəli gedəcəyimizə and içməliyik. Geriyə yolumuz yoxdur! İnsan haqları uğrunda mübarizlərdən: «Siz nə vaxt razı qalacaqsınız?» deyə soruşanlar da tapılır. Nə qədər ki, zəncilər ağlagəlməz polis qəddarlığının qurbanı olacaq, biz razı qalmaq fikrində bulunmuruq. Nə qədər ki, bizim yorğun-arğın qardaşlarımız yolüstü motellərə və şəhərdəki otellərə buraxılmır, biz razı qala bilmərik. Zənci ailəsinin hər hansı yerdəyişməsi, balaca qettodan daha irisinə köçməkdən başqa bir şey deyilsə, biz niyə razı olmalıyıq ki?! Missisipidəki zənci səs verməkdən məhrumdursa, Nyu-York zəncisinin səs verəcəyi bir nəfər yoxdursa, nə səbəbə razı qalmalıyıq? Bəli, ədalət və ləyaqət bir sel kimi qabağına çıxan bəndləri hələ ki, süpürüb atmayıb, biz narazıyıq və narazılığımız sәngiməyəcək!

Xəbərim var – bura gəlməzdən əvvəl sizlərdən çoxunuz ağır sınaqlardan keçmisiz, başınız bəlalar çəkib. Bəziləriniz qaranlıq məhbəslərdən yenicə qurtulmusunuz; bir paranız elə bölgələrdən gəlmisiniz ki, azadlığa can atmağınız ucbatından oralarda təqiblərə, polis amansızlığına məruz qalmısız. İrqçi terrorun qurbanlarına çevrilmisiniz! Ancaq işinizi davam etdirməkdə olun! İnanın ki, çəkdiyiniz iztirablar öz bəhrəsini verəcəkdir!

Missisipiyə qayıdın, Alabamaya, Cənubi Karolinaya, Corciya və Luizanaya – gəldiyiniz yerlərə dönün! Şimal şəhərlərinin gettolarına, viranələrinə çıxın gedin, ancaq yadınızdan çıxarmayın ki, indiki vəziyyət dəyişilə bilər, daha doğrusu dəyişilməlidir. Qoy bir daha ümidsizlik uçurumuna yuvarlanmayaq!

Ey mənim dostlarım! Sizdən nə gizlədim, məhrumiyyət və çətinliklərə baxmayaraq, hələ də mənim bir arzum var və o, bütün Amerikanın bəslədiyi köklü arzusundan ayrılmazdır.

Ümidvaram ki, günlərin bir günü ölkmiz "bütün insanlar bərabər yaranıblar" prinsipiylə yaşamaq naminə qəddini düzəldib yüksələcəkdir. Bir gün gələcək ki, Corciyanın qırmızı təpələrində keçmiş qul balaları ilə quldar balaları qardaşlıq süfrəsində bir-birilə çörək kəsəcəklər!

Arzum budur ki, haqsızlıq və sıxıntılar içində çabalayan Missisipi ştatı günlərin bir günü azadlıq və ədalət vahəsinə çevrilsin!

Arzum budur ki, mənim dörd uşağım günlərin bir günü elə bir ölkədə yaşasınlar ki, onlara dərilərinin rənginə görə yox, şəxsiyyətlərinə görə qiymət versinlər! Belə bir arzum var...

Arzum budur ki, bu gün qubernatoru dişlərini qıcadıb bizi «məhv etmək» niyyətində olan Alabama ştatını sabahısı ağlı-qaralı oğlanların-qızların əl-ələ verib bacı-qardaş kimi gəzib-dolandığı məkan kimi tanısınlar. Bu gün belə bir arzum var!...

Elə bir günün arzusundayam ki, onda çöllər qabaracaq, dağlar enəcək! Dərə-təpə yerlər hamarlanacaq, dolama yollar düz gedəcəkvə "Tanrı möcüzəsi zühur edəcək və hamı bunu öz gözüylə görəcək!"

Ümidimiz bundadır! Elə bu inamla Cənuba qayıdıram. Bu inamla biz naümidlik dağından ümid qayasına yol açırıq. Bu inam, niyyətimizdəki kəskin dissonansı gözəl bir qardaşlıq simfoniyasına çevirməkdə bizə yardımçı olacaq. Bu inam, bizə birlikdə işləməyə, birlikdə ibadət etməyə, birlikdə mübarizə aparmağa, bir yerdə həbsxanaya düşməyə, bir gün xilas olacağımızı bilərəkdən azadlığın təəssübünü birlikdə çəkməyə kömək göstərəcək! Və bu elə bir gün olacaq ki, Allah-təalanın bütün

bəndələri məşhur sözlərə yeni məna qataraq belə oxuyacaqlar:*«Yurdum, azadlığın şirin torpağı, səni vəsf edirəm! Əcdadlarımızın üz qoyduğu torpaq, zəvvarların öyünçü – torpaq, Qoy dağlar başından azadlığın sədası gəlsin!»*[9].Əgər Amerika böyük millət olmaq istəyirsə, bu arzu gerçəkləşməlidir!

Qoy azadlıq sədası Nyu-Hempşirin təpələrindəngəlsin!

Qoy azadlıq sədası Nyu-Yorkun əzəmətli təpələrindəngəlsin!

Qoy azadlıq sədası Pensilvaniyadakı Alleqan dağlarından gəlsin!

Qoy azadlığın sədası Koloradonun qarlı qayalarından gəlsin!

Qoy azadlığın sədası Kaliforniyanın gözəl yamaclarındangəlsin!

Təkcə oralarda yox: qoy azadlığın səsi Corciyanın daşında-qayasında əks-səda versin!

Qoy azadlığın gur səsi Tennesidəki Lukaunt dağına düşsün!

Qoy azadlığın sədası Missisipinin hər bənd-bərəzindən keçib-getsin!

«Qoy hər dağ başından azadlığın sədası gəlsin!»

Bu əməlimiz baş tutsa, yəni azadlığa köks dolusu cingildəməyə izn versək, onu hər kənddə-kəsəkdə, hər bir şəhərdə və ştatda səsləndirə bilsək, elə bir günü yaxınlaşdırarıq ki, həmən məqamda ağlar-qaralar, yəhudilər və bütpərəstlər, protestantlar və katoliklər, Allahın bütün bəndələri əl-ələ tutar və köhnə zənci nəğməsini oxuyarlar:

"Azad olduq axırı.
Axır ki, azad olduq.
Şükür olsun ulu Tanrı,
Biz azadıq axırı!"[10]

---

[9]1832-ciildəSamuelF. SmittərəfindənBöyükBritaniyanın «İlahi, sənKraliçanı (Kralı) hifzelə» himnininmusiqisinəyazılmışməşhuramerikanpatriotikhimnininilkmisraları,– *H.H*

[10] "Nəhayətki, azadam!"*(I am free at last)* – özsahibindənazadıqalanköləzəncilərvaxtiləbeləhayqırardılar. 1968-ciilaprelin 4-dəMemfisdə, 39 yaşındairqçigülləsinətuşgələnM.L.Kinqinbaşdaşındabusözlərhəkkolunub. Ölümündən 2 ayəvvəlözkilsəsindəkimoizədəisəKinqbeləsöyləmişdi:

«...Məniməcəlsaatımyetişəndə, kimyanımdadayanacaqsa, qoyindidənbilsin, dəfniminuzanmasınıistəmirəm. Qəbriminüstündəkəlməkəsməyəadamtapılsa, onadeyinki, sözüçoxdauzatmasın. Tapşırarsınızki, mənimNobelmükafatıalmağımıyadasalmasın. Onudaağzındanqaçırmasınki, mənimüçyüz, yadördyüzəcənbaşqamükafatlarımdaolub. Axıkiminnəyinəlazım...

İstəyirəmhəməngünüonudeyəsizki, mənədalətliolmağaçalışmışam. Həmdəonudeməyədilinizdönsünki, ömrümboyumənaclarıdoyurmağa, lütləridonaltmağacəhdgöstərmişəm. İstərdimqəbriminüstündədeyəsizki, məhbəsdəolanlarabaşçəkməkhəmişəağlımdaolub. İstərdimbirdəonunəzərəçatdırasızki, mənbəşəriyyətisevməyə, onaxidmətgöstərməyəcanatmışam!

Lapürəyinizdənkeçsə, bəyanedləyərsizki, məntəbilçiidim, ədaləttəbilçisi. Dahadoğrusu, sülhüntəbilçisiolmuşam... Yerdəqalananəhacət...

Məndənsonranəpulum, nəmalım, nədəbahalıəmlakımqalacaq. İstərdimki, məndənsonrayalnızamalahəsrolunmuşhəyatımqalsın.

Mənimdeməkistədiyimbaxbudur...», – *H.H.*